ISSN 2221-8432

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Slavyan Universiteti

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

(ALİ MƏKTƏBLƏR ARASI ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ)

Актуальные проблемы изучения гуманитарных наук

Межвузовский сборник научных статей

The actual problems of study of humanities

Interuniversity collection of scientific articles

4/2021

ISSN 2221-8432

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Ali məktəblərarası elmi məqalələr məcmuəsi

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

Межвузовский сборник научных статей

THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

Interuniversity collection of scientific articles

№4

2021

Məcmuə 1997-ci ildən nəşr olunur.

İldə 4 nömrə çıxır.

Redaksiyanın ünvanı:
Bakı şəh., Rəsul Rza küç., 125/139b
Tel.: 596 21 44
Faks: 5962144
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Bakı – 2021

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
Rüblük elmi nəşr

Redaksiya heyəti:

Dilçilik
filol. e. d., prof. **Məmmədov Nəsirağa**
filol. e. d., prof. **Veysəlli Fəxrəddin**
filol. e. d., prof. **Cahangirov Fikrət**
filol. e. d., prof. **Nurqali Kadişa (*Qazaxstan*)**
filol. e. d. **Qurbanova Fidan**
filol. e. d., prof. **Cəfərov Mikayıl**
filol. f. d. **Babaşova Xalidə**
filol. f. d. **Korotışev Aleksandr (*Rusiya*)**

Ədəbiyyatşünaslıq
filol. e. d., prof. **Qocayev Məmməd**
filol. e. d., prof. **Novruzov Rafiq**
filol. e. d., prof. **Xəlilli Şahin**
filol. e. d., prof. **Qeybullayeva Rəhilə**
filol. e. d., prof. **Rəsulov Rüstəm**
filol. f. d. **Ağamirzəyev Əliş**
filol. e. d., prof. **Travnikov Serqey** (***Rusiya***)

Pedaqogika
ped. e. d., prof. **Abbasov Akif**
ped. e. d., prof. **Rəcəbov Oqtay**
ped. e. d., prof. **Tağıyev Şahin**
ped. e. d., prof. **Xəlilov Vidadi**
ped. e. d., prof. **Cəbrayılov İntiqam**
ped. e. d., prof. **Quliyeva Ellada**
ped. f. d., dos. **Səmədov Oktay**
filol. f. d., dos. **Carçıyeva İlahə**
ped. e. f. d., dos. **Tağıyeva Ellada**

İctimai elmlər
tarix e. d., prof.,
AMEA-nın müxbir üzvü **Qasımlı Musa**
tarix e. d., prof. **İbrahimli Fəzail**
fəlsəfə e. d. **Məmmədov Cahangir**
tarix e. d., prof. **Əmrahov Mais**
fəlsəfə e. d., prof. **Əliyev Məmməd**
tarix e. d., prof. **Məmmədov Habil**
tarix f. d., dos. **Əhməd Əsgər**
siyasi elmlər f. d. **Abdullayev Natiq**

Buraxılışa məsul: filol.e.d., prof. **Cəfərov Telman**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. **№ 4/2021.** – Bakı: Mütərcim, 2021. – 320 s.

Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Сборник включен в Перечень рекомендуемых Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики научных журналов, в которых должны быть опубликованы основные научные результаты диссертаций.

Məcmuənin bu sayından başlayaraq müəlliflərin müraciəti və redaksiya heyətinin rəyi əsasında bəzi elmi məqalələrə xüsusi identifikator nömrəsi (DOİ) verilməsi qərara alınmışdır. Bu, Scopus və ya Web of Science platformalarında yerləşdirilmiş məqalə və elmi-tədqiqat işində DOİ verilmiş işə istinad zamanı onun göstərilən bazalara daxil edilməsinə və bu publikasiyaya beynəlxalq status verilməsinə şərait yaradır.

Начиная с этого номера сборника, на основе обращения авторов и отзыва редакционной коллегии некоторым статьям присваивается специальный идентификатор (DOI). При ссылке на эти статьи работ, размещённых на платформах Scopus или Web of Science, это создаст возможность включения данных статей в указанные базы и придаст публикациям международный статус.

© Məqalə müəllifləri, 2021
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsi redaksiyası, 2021

DİLÇİLİK - ЛИНГВИСТИКА

F.Q.AĞAYEVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ SİFƏTİN QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *sifət, söz birləşməsi, nitq vahidi, dil elementləri, müqayisə dərəcəsi, sadə, düzəltmə, mürəkkəb sifətlər*

Ключевые слова: *прилагательное, словосочетание, единицы языка, речевой элемент, сравнительная степень, простые, производные, составные прилагательные*

Key words: *adjective, word combination, speech unit, speech element, comparative degree, simple,derivative, compound adjectives*

Dil ünsiyyət vasitəsi olaraq insanların ictimai fəaliyyətinin inkişafında xüsusi rol oynayır. Dildə ən çox işlənən vahid sözdür. Söz həm də dil elementlərinin mərkəz vahididir. Danışıq zamanı səslər söz tərkibində birləşir, dilin digər ən böyük nitq vahidləri olan söz birləşmələri və cümlələri əmələ gətirir. Burdanda məlum olur ki, söz dil sistemində başlıca nitq vahididir (5, s.216).

Söz tərkibində fonemlər və morfemlər bir-biri ilə məntiqi əlaqəyə girir, nitqlə təfəkkürün, dillə gerçəkliyin əlaqəsi aydın şəkildə əks olunur. Söz olduqca mürəkkəb təbiətə malik bir dil vahididir. Dildə söz gerçəklikdə baş verən müxtəlif hadisələrin adını bildirir və məfhumları ümumiləşmiş şəkildə ifadə etmək vəzifələrini yerinə yetirir.

Sözlərin daxili quruluşunun mürəkkəbliyi və ümumiyyətlə, müxtəlifliyi onun bir leksik vahid kimi təsnif olunmasını çətinləşdirir. Çünki sözlər dil sistemində öz məna xarakterinə, vəzifəsinə, gerçəkliyi ifadə tərzinə, leksik və qrammatik xüsusiyyətlərinə görə bir-birindən fərqlənir.

Qrammatika dilin quruluşunu öyrənən bir elmdir.Müasir Azərbaycan və ingilis dilçiliyində sözün forması, onların dəyişilmə şəkilləri morfologiya şöbəsində geniş tədqiq olunur. Məlum olduğu üzrə, morfologiya qrammatikanın bir şöbəsi olub, dildə olan morfemlərdən, onların birləşərək sözdüzəltmə və sözdəyişmə qaydalarından bəhs edir. Morfolofiyanın başlıca tədqiqat obyektləri morfem və sözdür. Morfem sözün müəyyən mənaya malik olan ən kiçik hissəsidir.Məsələn: yaz-ı-çı-lıq, yaxşı-laş-dır-ıl-mış-dır, əzəmət-li, məktəb-li-lər, teacher-s, govern-ment-s, journal-ist-s, beauti-ful-ly, un-happi-ness, re- construct – ion. Bu sözləri başqa cür hissələrə ayırmaq əsla mümkün deyil.

Morfologiyanı müxtəlif qrammatik mənaları ifadə edən qrammatik formalar maraqlandırır. Morfologiya bütün nitq hissələrini əhatə edir, onların oxşar və fərqli cəhətlərini öyrənir. Sözün qrammatik mənasının nitqdə əhəmiyyəti böyükdür. Sözlər tək-tək, təcrid edilmiş halda deyil, nitqdə başqa sözlərlə əlaqədə yaşayır.Buna görə də hər bir sözün cümlə daxilində bir və bir neçə qrammatik mənası olur.Sözün qrammatik mənası leksik mənasına nisbətən çox olur. Müxtəlif qrammatik mənaları ifadə etmək üçün istifadə edilən bütün dil materialları qrammatik formanı yaradır.

Müasir Azərbaycan dilçiliyində sözlər müstəqil mənasına, morfoloji əlamətinə və sintaktik roluna görə üç qrupa bölünür: 1) əsas mənalı sözlər; 2) köməkçi sözlər; 3) xüsusi sözlər. Bu meyar əsasında sözlər əsas nitq hissələri (isim, sifət, say, əvəzlik, fel, zərf) və köməkçi nitq hissələri (qoşma, bağlayıcı, ədat), xüsusi nitq hissəsi (nida) daxilində təsnif edilir.

Müasir ingilis dilində də mövcud olan sözlər leksik mənalarına, morfoloji əlamətlərinə və sintaktik funksiyalarına görə qruplara bölünür ki, bunlar da ənənəvi olaraq nitq hissələri adlanır. Müasir Azərbaycan dilində olduğu kimi müasir ingilis dilində də mövcud olan nitq hissələrini üç qrupa ayırmaq olar: 1) əsas nitq hissələri; 2) sərbəst nitq hissələri; 3) köməkçi nitq hissələri.

Birinci qrupa isim(the noun), sifət (the adjective), say (the numeral), əvəzlik (the pronoun), fel (the verb), zərf (the adverb), vəziyyət bildirən sözlər (the words of the category of state); ikinci qrupa nida (the interjection) və modal sözlər (the modal words); üçüncü qrupa isə artikl(the article), sözönü (the preposition), bağlayıcı (the conjunction) və ədat (the particle) daxildir.

Müasir Azərbaycan dilində olduğu kimi, ingilis dilində də şəxs və ya əşyanın əlamətini, keyfiyyətini bildirən sözlər sifət adlanır. Məsələn:

qırmızı karandaş, **gözəl** qız, **böyük** zal,a **clever** boy, a **modern** city, **long** and **wide** streets, **fresh** fruit.

Bir sıra dillərdən fərqli olaraq müasir Azərbaycan və ingilis dillərində sifətin hal, cins, kəmiyyət kateqoriyası yoxdur. Buna görə də sifət aid olduğu, təyin etdiyi isimlə nə hala, nə cinsə, nə də kəmiyyətə görə uzlaşmır, ismin hansı halda, hansı cinsdə və hansı çiqdarda olmasına baxmayaraq sifət eyni formada, ilkin formada işlənir. Məsələn:

An interesting book – five interesting books

A tall man – a tall woman

A little boy – the little boy's name

Maraqlı kitab – beş maraqlı kitab

Ucaboy kişi – ucaboy qadın

Balaca oğlan – balaca oğlanın adı

Müasir Azərbaycan və ingilis dillərində sifətlər quruluşlarına görə üç qrupa bölünür:

1) Sadə (əsli) sifətlər 2) düzəltmə sifətlər 3) mürəkkəb sifətlər.

Heç bir xarici əlamətə ehtiyac olmadan müəyyən bir varlığın və ya hadisının əlamətini bildirən (ancaq bir kökdən ibarət olan (ingilis dilində)) sifətlər sadədir. Məsələn

a) rəng bildirən – ağ, qara, sarı, göy, yaşıl, mavi, yellow, black, blue, red, və s.

b) keyfiyyət bildirən- yaxşı, pis, bərk, boş, isti, hot, good, bad, hard və s.

c) müxtəlif cəhətdən ölçü və həcm bildirən- kiçik, uca, alçaq, dərin, dayaz, ağır, small, tall, long, short, high, deep və s.

ç) dad bildirən – şirin, acı, turş, şor, sweet, sour, salt və s.

d) zahiri əlamət bildirən – kar, kor, çolaq, qoca, cavan, qarı, deaf, blind, lame, old və s.

Yuxarda hər iki dildə misal göstərilən sifətlər sadə sifətlər hesab olunur.

Kök və şəkilçidən ibarət olan sifətlərə düzəltmə sifətlər deyilir. Müasir inglis dilində sifətlər ya suffiks, ya prefiks və ya hər ikisinin iştirakı ilə düzəlir.

Müasir Azərbaycan dilində işlənən düzəltmə sifətlər həm xalis Azərbaycan söz və şəkilçilərindən düzəlmiş sifətlər, həm də başqa dillərdən keçmiş düzəltmə sifətlərdir. Bəzi müstəsnalar nəzərə alınmazsa, düzəltmə sifətlər isim və fellərdən əmələ gəlir. Düzəltmə sifət olmaq üçün hər nitq hissəsi özünəməxsus ayrıca şəkilçi tələb edir. Müasir Azərbaycan dilinin düzəltmə sifətləri başlıca olaraq 1) isimdən düzələn sifətlər; 2) feldən düzələn sifətlər olmaqla iki qrupa bölünür.

Müasir Azərbaycan dilinin öz sözlərində ingilis dilindən fərqli olaraq heç bir prefiks iştirak etmir. Buna səbəb dilimizdə belə şəkilçilərin olmamasıdır. Müasir dilimizdə işlənən

prefikslər hamısı yalnız başqa dillərdən keçmiş sözlərlə işlənə bilir. Dilimizdə isimdən sifət düzəldən şəkilçilər aşağdıkılardır:

1) –lı (-li,-lu,lü)- düşüncəli, duzlu, maraqlı və s.
2) –sız (-siz, -suz, - süz) – dadsız, bacarıqsız, susuz, üzsüz və s.
3) –kl (-ki, -kü) – axşamkı, səhərki, bildirki, çoxdankı və s.
4) –cıl (- cil, -cul, - cül) – qabaqcıl, işcil, ölümcül və s.
5) –lıq (- lik, -luq, - lük) –gündəlik, aylıq, onluq və s.

Prefikslər (ön şəkilçisi) vasitəsilə

6) bi- bivəfa, biədəb, bihal, bisavad və s.
7) na- namərd, nanəcib və s
8) ba- baməzə və s.
9) anti- antifaşist, antiimperialist və s.
10) a- anormal, asimmetrik, asinxron və s.

Ərəb və fars isimlərindən aşağıdakı son şəkilçilər ilə düzəltmə sifətlər əmələ gəlir:

11) –i – mülki, hərbi, zahiri, xarici və s.
12) –kar – təcavüzkar, fitnəkar, davakar və s.
13) –baz – kələkbaz, siyasətbaz, hoqqabaz və s.
14) –pərəst – vəzifəpərəst, şöhrətpərəst, millətpərəst və s.
15) –pərvər – vətənpərvər, xəyalpərvər, insanpərvər və s.
16) –xah – azadxah, bədxah və s.
17) –dar – əlaqədar, dindar və s.

Dilimizdə feldən sifət düzəldən şəkilçilər aşağdıkılardır:

1) –ağan (-əyən) – qaçağan, küsəyən, ağlağan və s.
2) – qan (-kən) – sürüşkən, döyüşkən və s.
3) –aq (-ək) – qorxaq, ürkək və s.
4) –ğın(-kin, -ğun, -kün) – gərgin, yorğun, azğın, küskün və s.
5) –ıcı (-ici, -ucu, -ücü) – qurucu, keçici, qurucu və s.
6) –caq (-cək) – utancaq, sevincək, ərincək və s.
7) –ıq (-ik,-uq, -ük) – açıq, sökük, kəsik və s.
8) –unc (-ünc) – qorxununc, gülünc və s.
9) –c – qısqanc və s
10) –ma (-mə) – gəlmə, hörmə, burma və s

Müasir ingilis dilində işlənən sifət düzəldən şəkilçilərişlənmə miqyasına görə iki qrupa bölünür: 1) məhsuldar şəkilçilər, 2) qeyri – məhsuldar şəkilçilər.

İngilis dilində sifət düzəldən məhsuldar şəkilçilər aşağıdakılardır:

–less: homeless, friendless, jobless, hopeless
–like: childlike, homelike, manlike
–ish: boyish, childish, foolish, selfish, greenish
–ed: barbed, lion-hearted, blue-eyed

Müasir ingilis dilində sifət düzəldən qeyri-məhsuldar şəkilçilər aşağdakılardır:

–ful: careful, useful, hopeful
– ible: responsible, impossible
–able: eatable, acceptable, reliable
–ant: important, dominant
–ent: silent, dependent, different
–en: golden, wooden, waxen, woolen
–ous: famous, dangerous
–some: handsome, tiresome

Müasir ingilis dilində sifətlər həm də un-; in-; pre- prefiksləri vasitəsi ilə də düzəlir. Məsələn: unhappy, unknown, prewar, incorrect və s.

Hər iki dildə işlənən sifətlərin quruluşca üçünçü növü mürəkkəb sifətlərdir.Bu cür sifətlər iki sözün birləşməsindən əmələ gəlir. Müasir Azərbaycan dilində işlənən mürəkkəb sifətlər mənşəcə iki qrupa bölünür:

1) Azərbaycan sözlərindən əmələ gələn mürəkkəb sifətlər:güllü-çiçəkli, dadlı-dadlı, ucaboylu, uzunsaçlı və s.

2) Ərəb, fars dillərindən keçmiş mürəkkəb sifətlər: xəyalpərvər, xeyirxah, quşbaz və s.

Müasir ingilis dilində mürəkkəb sifətlər müxtəlifə nitq hissələrindən düzəlir. Məsələn:

Isim + sifət: lifelong, snow-white

Isim + feli sifət: life-giving

Sifət+sifət: deaf-mute, red-hot

Sifət+isim+ed: cold-blooded, blue-eyed

Isim +isim+ed: lion-hearted

Say +isim+ed: two-eyed, four-wheeled

Müasir Azərbaycan dilində olduğu kimi, inglis dilində də sifətlər məna baxımından iki qrupa bölünür; a) əsli sifətlər (long, deep, big, nice), b) nisbi sifətlər (silken, woolen, golden).

Sifətlər cümlədə başlıca olaraq, isimləri təyin etməyə xidmət göstərir. Eyni keyfiyyət, əlamət və s. bildirən sifətlər əşyaları eyni dərəcədə təyin etmir, onların təyinlik dərəcəsi bəzən adi halda, bəzən az, bəzən də çox ola bilir. Bir əşyanın keyfiyyəti, əlaməti, xasiyyəti, həcmi və s. başqa bir əşyanın eyni nişanələri ilə müqayisə edilir ki, buradan da sifətin mənaca müqayisə dərəcələri meydana çıxır. Sifəti başqa nitq hissələrindən, xüsusən isimlərdən ayıran əlamətlərdən başlıcası da onun dərəcələridir. (2, s.78)

Müasir Azərbaycan dilində sifətin üç dərəcəsi vardır: 1) adi dərəcə, 2) çoxaltma dərəcəsi, 3) azaltma dərəcəsi.

Adi dərəcə həm məzmun, həm şəkilcə başqa dərəcələrdən onunla fərqlənir ki, o bütün dərəcələr üçün meyar hesab olunur. Sifətlər öz adi vəziyyətində normal keyfiyyət,əlamət, rəng və s. ifadə edir.Adi dərəcədə sifətin təyinlik dərəcəsi də adi halda olur: ağ kağız, yaxşı adam, kiçik dağ.

Çoxaltma dərəcəsi vasitəsi ilə bir keyfiyyət, rəng, əlamət və s. adi dərəcədən çox olduğu göstərilir. Bu dərəcə üstünlük və şiddətləndirmə növlərini özündə birləşdirir. Üstünlük növü analitik yolla formalaşır. Bu mənanı ifadə etmək üçün sifətlərin əvvəlində ən, lap, çox, olduqca sözləri işlədilir: ən gözəl, lap gözəl, çox gözəl, ən yaxşı, çox yaxşı, olduqca böyük və s.

Azaltma (kiçiltmə dərəcəsi) onun təyinlik dərəcəsini adi haldan qismən az göstərir: sarı adi bir rəngi, sarımtıl isə adi sarılıqdan xeyli az sarı bir rəngi, sariya çalan bir rəngi bildirir.

Sifətin dərəcəsi sintetik və analitik yolla əmələ gəlir.

1. Sintetik yolla:

a)– **mtıl (-ımtıl, - umtul, - ümtül) və -mtraq** şəkilçilərini sifət köklərinə artırmaqla: qırmızımtıl, ağımtıl, bozumtul və s.

b)–**raq (-rək)** şəkilçisini sifətlərə artırmaqla: kiçirək, alçaraq, yastıraq və s.

c)–**sov** şəkilçisi artırmaqla: uzunsov, dəlisov və s.

ç) –**şın** şəkilçisi artırmaqla: sarışın, qaraşın və s.

2. Analitik yolla:

a) sifətdən əvvəl **ala** sözünü işlətməklə: ala-yarımçıq, ala – babat, ala çiy, ala – sütül və s.

b) sifətdən sonra **təhər** sözünü əlavə etməklə: qırmızıtəhər, sarıtəhər, göytəhər və s.

c) sifətin əvvəlinə açıq sözünü artırmaqla: açıq- sarı, açıq – sürməyi, açıq – qırmızı və s.

Müasir ingilis dilində də sifətlərin üç dərəcəsi var: 1)adi dərəcə (the positive degree), 2) müqayisə dərəcəsi (the comparative degree), 3) üstünlük dərəcəsi (the superlative degree).

Əsli sifətlərə xas olan əlamət və keyfiyyətlərin dərəcələri iki yolla ifadə edilir: 1) sintetik yolla, yəni sifətin sonuna şəkilçi əlavə etməklə; 2) analitik yolla, yəni sifətlərin əvvəlinə köməkçi söz əlavə etməklə. Bu üsullardan hansının seçilməsi sifətin fonetik tərkibindən asılı

olur: birhecalı və bəzi ikihecalı sifətlərin dərəcə formaları sintetik, iki və daha çox hecalı sifətlərin dərəcə formaları isə analitik yolla düzəlir.

Müasir ingilis dilində sifət adi dərəcədə heç bir morfoloji formaya malik olmur. Sifətlər adi dərəcədə as... as, not so .... as bağlayıcıları ilə işlənərkən müqayisə olunan şəxs və ya əşyaların eyni dərəcəli keyfiyyətə, əlamətə malik olub-olmadığını bildirir: as .... as bağlayıcısı müqayisə olunan şəxs və ya əşyaların eyni keyfiyyət, yaxud əlamətə malik olduğunu, not so ..... as və not as .... as bağlayıcıları isə müqayisə olunan şəxs və ya əşyaların qeyri-bərabər əlamətə yaxud keyfiyyətə malik olduğunu bildirir.

Birhecalı sifətlərin müqayisə dərəcəsini düzəltmək üçün onların sonuna –er, üstünlük dərəcəsini düzəltmək üçün isə -est şəkilçisi artırılır. Məsələn:

Adi dərəcə	*Müqayisə dərəcəsi*	*Üstünlük dərəcəsi*
Long	longer	longest
short	shorter	shortest

Müasir ingilis dilində Y hərfi və er, ow, le hərf birləşmələri ilə bitən ikihecalı, eləcə də vurğusu son hecaya düşən ikihecalı sifətlərin də dərəcə kateqoriyası sintetik yolla, yəni onların sonuna müqayisə dərəcəsində -er, üstünlük dərəcəsində isə -est şəkilçisi artırmaqla düzəlir. Məsələn:

Adi dərəcə	*Müqayisə dərəcəsi*	*Üstünlük dərəcəsi*
happy	happier	happiest
clever	cleverer	cleverest
narrow	narrower	narrowest
able	abler	ablest
complete	completer	completest

Lakin onu da qeyd etmək istərdim ki, yuxarıda göstərilən ikihecalı sifətlərin müqayisə və üstünlük dərəcələri analitik yolla, yəni onların qarşısına müqyisə dərəcəsində **more**, üstünlük dərəcəsində **most** sözü işlətməklədə düzəldilə bilər. Məsələn: more narrow, most narrow.

İkihecalı sifətlərin əksəriyyətinin və çoxhecalı sifətlərin hamısının müqayisə dərəcəsi analitik yolla, yəni müqayisə dərəcəsində sifətin əvvəlinə more, üstünlük dərəcəsində most sözü artırmaqla düzəlir. Məsələn:

Adi dərəcə	*Müqayisə dərəcəsi*	*Üstünlük dərəcəsi*
famous	more famous	most famous
important	more important	most important

Sifətin müqayisə dərəcəsində hər hansı bir şəxs və ya əşyanin başqa bir şəxs yaxud əşyadan keyfiyyətcə artiq olduğu bildirilir. Bu halda than sözündən istifadə edilir. Bu bağlayıcı dilimizə -dan, -dən şəkilçisi , yaxud da –dan daha, - dən daha tərkibi ilə tərcümə edilir.

Azərbaycan dilində olduğu kimi, ingilis dilində də üstünlük dərəcəsi əşya və ya şəxsin onun daxil olduğu sinifdə ən yüksək keyfiyyətə malik olduğunu bildirir.

Müasir ingilis dilində bir neçə sifət vardır ki, onların dərəcə formaları suppletiv yolla düzəldilir, yəni hər formada müxtəlif kökdən olan sifət işlənir. Bu sifətlər aşağıdakılardır:

Adi dərəcə	*Müqayisə dərəcəsi*	*Üstünlük dərəcəsi*
Good	better	best
Bad	worse	worst
little	less	least

İngilis dilində bir neçə sifətin müqayisə və üstünlük dərəcəsində iki forması vardır. Bunlar aşağıdakılardan ibarətdir:

Adi dərəcə	*Müqayisə dərəcəsi*	*Üstünlük dərəcəsi*
far	farther	farthest
	further	furthest
near	nearer	nearest
	next	

late	later	latest
	latter	last
old	older	oldest
	elder	eldest

Müasir ingilis dilində nisbi sifətlər (relative adjectives) əşyaya xas olan əlamət və keyfiyyətləri birbaşa, bilavasitə deyil dolayı yolla ifadə edir. Məsələn: wooden door, woolen gloves dedikdə, biz qapının ağacdan düzəldiyini, əlcəyin isə yundan toxunduğunu həmin əşyanın xas olduğu əlamət başqa bir əşya vasitəsilə ifadə edildiyini görürük.

Nisbi sifətləri əsli sifətlərdən fərqləndirən bir sıra qrammatik xüsusiyyətlər mövcuddur. Bunlar aşağıdakılardır.

- Nisbi sifətlər əsli sifətlərdən fərqli olaraq dərəcə kateqoriyasına malik deyil. Bu vəziyyət nisbi sifətlərin ifadə etdikləri keyfiyyətlərin özlərinə xas olan xüsusiyyətlə izah edilir. Nisbi sifətlərin ifadə etdikləri keyfiyyətlərin dərəcəsi olmur. Məsələn biz daha yundan, nisbətən yundan, lap yundan toxunmuş əlcək deyə bilmirik, çünki haqqında danışılan əşyalarda belə keyfiyyət növü mövcud olmur
- Nisbi sifətlərdən –ly şəkilçisi əlavə etməklə zərf düzəltmək olmur
- Nisbi sifətlər xüsusi suffikslər vasitəsilə düzəldilir ki, bunlar aşağıdakılardır:

-en, -an,-ist, -ic, - ical – golden, İtalian, analytical və s.

Malik olduğu leksik-qrammatik mənaya müvafiq olaraq sifət cümlədə, adətən və əsasən təyin funksiyasında işlənir. Sifətlə ifadə olunan təyin təyin olunan sözdən əvvəl gəlir.

Məlum olduğu üzrə, ingilis dili və Azırbaycan dili istər genezis və istərsədə tipoloji quruluş baxımından müxtəlif dil qruplarına daxildir. Ingilis dili Hind – Avropa dillərinin German qrupuna daxil olub, morfoloji quruluşuna görə analitik, Azərbaycan dili isə türk dillərinin Oğuz qrupuna daxil olub, morfoloji quruluş baxımından aqqlütinativ dildir. Bu zəmindən baxdıqda hər iki dilin qrammatik quruluşunda ciddi fərqlər mövcuddur.

Müasir Azərbaycan və ingilis dillərində sifətlərin qrammatik xüsusiyyətlərini yuxarıda təhlil edən zaman bəzi oxşar və fərqli cəhətlərin olduğunu gördük. Hər iki dilin sifət tərkibi məna baxımından əsli və nisbi sifətlərə bölünür. Həm müasir Azərbaycan, həm də müasir ingilis dilində sifətin üç müqayisə dərəcəsi var. Müasir Azərbaycan dilində olduğu kimi , müasir ingilis dilində sifətlər əşyanın əlamətini və keyfiyyətini bildirir. Bir sira dünya dillərindən fərqli olaraq müqayisə etdiyimiz dillərdə sifətin nə hal, nə cins, nə kəmiyyət kateqoriyası yoxdu. Hər iki dildə sifət təyin etdiyi isimlə nə hala, nə cinsə, nə də kəmiyyətə görə uzlaşmır: ismin hansı halda, hansı cinsdə və hansı miqdarda olmasına baxmayaraq sifət eyni formada , ilkin formada işlənir. Hər iki dildə sifətlər quruluşlarına görə sadə, düzəltmə, mürəkkəb olmaqla üç qrupa bölünür. Müasir Azərbaycan və ingilis dillərində sifətin müqayisə dərəcələrini düzəltmək üçün sintetik və analitik yollardan istifadə olunur.

Ədəbiyyat

1. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. III hissə, “Maarif”, Bakı, 1983.
2. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. III hissə, Bakı, 2007.
3. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə, Bakı, 2007.
4. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 2010.
5. Qurbanov A. Ümumi dilçilik.I cild, Bakı- Elm-2011.
6. Musayev O. İngilis dilinin qrammatikası. “Maarif”, Bakı, 2003.
7. Каушанская В.Л., Ковнер Р.Л., Кожевникова О.Н., Прокофьева Е.В., Райнес З.М., Сквирская С.Е., Цырлина Ф.Я., A Grammar of the English Language, Баку,2004.
8. Реформатский А.А. Введение в языковедение. Москва,1967.
9. Geoffrey Leech, Benita Cruickshank, Roz Ivanic, English Grammar and Usage, Longman, 2001
10. Michael Swan. Basic English Usage. Oxford University Press.2003

Ф.Г.Агаева

Грамматическая характеристика прилагательного в Азербайджанском и английском языках

Резюме

Мы увидели некоторые сходства и различия между грамматическими особенностями прилагательных в современном азербайджанском и английском языках. Прилагательные обоих языков по значению делятся на оригинальные и относительные прилагательные. В обоих языках прилагательные обозначают знак и качество объекта. В сравниваемых языках нет падежа, пола или количественной категории. В обоих языках прилагательное несовместимо с существительным, которое оно определяет с точки зрения статуса, пола или количества: независимо от падежа, пола и количества существительного, прилагательное используется в той же форме, в исходной форме. Для сравнения прилагательных в обоих языках используются синтетические и аналитические методы.

F.G.Aghayeva

Grammatical characteristics of adjective in Azerbaijani and english languages

Summary

We saw some similarities and differences between the grammatical features of adjectives in modern Azerbaijani and English. The adjectives of both languages are divided into original and relative adjectives in terms of meaning. In both languages adjectives denote the sign and quality of an object. In the languages we compare have no case, gender, or quantity category. In both languages, an adjective is incompatible with the noun it defines in terms of status, gender, or quantity: regardless of the case, gender, and quantity of the noun, the adjective is used in the same form, in the original form. For the comparison of adjectives synthetic and analytical methods are used in both languages.

Rəyçi: f.f.d. N.O.Babayeva

Redaksiyaya daxil olub: 15.10.2021

G.ALLAHVERDİYEVA
doktorant

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

DİSKURSİV MARKERLƏR

Açar sözlər: *diskurs, marker, praqmatika, söz, konnektor.*
Ключевые слова: *дискурс, маркер, прагматика, слово, соединитель.*
Key words: *discourse, marker, pragmatics, word, connector.*

Praqmatik dilçilik antroposentrizmin ən böyük nailiyyətlərindən biridir. Humanitar elm sahələrinin hamısında müşahidə olunan bu fəlsəfi cərəyanın dilçiliyə gəlişi bir sıra vaxtıçatmış linqvistik problemlərin həllinə şərait yaratdı; dilçilikdə bir sıra zəruri problemlərin elmi tədqiqatlara cəlb olunması üçün geniş prespektivlər açdı. Bu tədqiqatlarda əsas olaraq tam mənalı sözlərin mətndə yeri, onların kontekstual funksiyaları, informasiyaların verilməsi zamanı onlardan istifadə xüsusiyyətləri bu sıraya aiddir. Ənənəvi qrammatikada köməkçi sözlər adı ilə tanıdığımız leksik cəhətdən qrammatikləşmiş vahidlər denotativ mənaları olmadığından bu tədqiqatlardan kənarda qalırdı. Lakin keçən əsrin 70-ci illərindən başlayaraq diskurs təliminin ortaya çıxması və diskursda dil vahidlərinin praqmatik aspektdə öyrənilməsi diskurs təlimi üçün çox ciddi məsələləri üzə çıxartdı. Modal sözlər, ədatların diskursda yeri və funksiyası kimi məsələlər bu sıraya daxil idi.. D.Payer yazır ki, adama elə gəlir ki, diskursiv markerlər nitqin anlaşılmasını asanlaşdıran, dinləyici üçün siqnal funksiyası daşıyan element deyil. O, fikrini davam etdirərək diskursiv markerlərlə bağlı belə bir qəti qənaətə gəlir ki, diskursiv markerlər nitqdə istifadə olunan ən mühüm təsir vasitəsidir [5]. Məsələnin belə qoyuluşu Avropa və Rus dilçiliyində qısa bir vaxtda D.Payerin qeyd etdiyi dil vasitələrinə funksional cəhətdən daha geniş bucaqdan baxmağı zəruri etdi və bu mövzu ilə bağlı nəzəri dilçilikdə çox dəyərli tədqiqat əsərləri işlənildi. Bu prosesi bir qədər də sürətləndirən diskursda həmin dil vahidlərinin praqmatikanın verilməsindəki rolu ilə bağlı idi. Çünki diskursda kiminsə nitqinə münasibət bildirmək üçün lazımı dil vahidlərini müəyyənləşdirərkən qeyd olunan qrammatikləşmiş dil vahidlərinin praqmatik rolunu görə bildilər. Bu səbəbdən bir çox dilçilər həmin dil vahidlərinin diskursdakı praqmatik rolunu nəzərə alaraq onları "praqmatik markerlər" adlandırırlar. Əslində "diskursiv markerlər" lə "praqmatik markerlər" eyni obyekti bildirir. Ancaq onların fərqli terminlərlə ifadəsi problemə yanaşma tərzindən asılıdır. "Diskursiv markerlər" deyərkən "diskurs" ilk olaraq diqqət mərkəzinə çəkilir, lakin "praqmatik markerlər" deyəndə praqmatikaya xidmət edən qrammatikləşmiş dil vahidlərinə yönəlir. Deməli, hər iki terminin ifadə etdiyi məna eynidir; birinə diskurs, digərinə isə isə praqmatika aspektindən yanaşılır.

"Diskursiv sözlər"in ifadə etdiyi mənanı daşıyan dil vahidlərinin funhksiyası hələ intibah dövründə görkəmli filosofların diqqətini cəlb etmişdi. Xüsusən C.Lokk müxtəlif təsdiq və inkar arasındakə əlaqələri bildirən ədatlardan, eləcə də öz fikrinə münasibəti bildirən bu tipli digər sözlərdən bəhs etmişdir (9).

XX əsrin əvvəllərində dildə danışılana danışanın subyektiv münasibətlərini bildirən sözlərin olduğunu müəyyənləşdirilməyə başlanılmış və onlar "diskursiv markerlər" terminindən istifadə etməsələr də, həmin sözlərin nitqdəki funksiyasından bəhs etmişlər. İngilis, rus, fransız və italyan dilləri üzrə aparılan araşdırmalarda həmin dil vahidlərinə xüsusi diqqət verirdilər. XX əsrin ortalarında dilçilikdə praqmatika nəzəriyyəsinin işlənilməsi nitq aktı nəzəriyyəsinin də meydana çıxartdı. Onlar presuppozisiyadan danışarkən semantika və praqmatikada bir sıra münasibətlərin verilməsində istifadə olunan köməkçi sözlərin funksiyası ilə rastlaşırlar. Presuppozisiya nəzəriyyəsinin meydana gəlməsi bu kontekstdə fəaliyyət göstərən dil vahidlərini ortaya çıxartdı və onların diskursdakı rolu öyrənilməyə başlanıldı və müxtəlif

dilçilik məktəblərində həmin sözlər fərqli terminlərlə adlandırıldı (məsələn, rus dilçiliyində "ədatlar", "modal sözlər"). Diskurs nəzəriyyəsinin mövcud olmadığı dövrdə həmin terminlər sırf morfoloji səciyyə daşıyırdı və onların funksional müəyyənləşməsi morfoloji tələblər səviyyəsində izah olunurdu. A.Vejbiçkayanın nəşr etdirdiyi "Journal of Pragmatics" (1986) jurnalda ədatların diskursiv funksiyasından bəhs etməklə bu anlayışda terminoloji dəqiqləşməyə stimul verdi. XX əsrin 80-ci illərindən həmin sözlər diskurs nəzəriyyəsinin və praqmatikanın, eləcə də nitq aktı nəzəriyyəsinin meydana gəlməsi ilə "diskursiv sözlər"// "diskursiv markerlər" adlandırılmağa başlanılır. Beləliklə də, dilçilikdə əldə olunan nailiyyətlərə əsasən yeni termin – diskursiv markerlər meydana çıxır və elmi dövriyyəyə daxil olur. Dilçilikdə bu termini daha çox işləklik qazanaraq diskursiv sözlər, konnektor markerlər və praqmatik markerlər terminlərini əvəz edir və müasir dilçilikdə diskursa xidmət edən bütün markerlərin məna daşıyıcısına çevrilir.

Cəmiyyətin müasir inkişaf səviyyəsi yeni kommunikativ münasibətlərin inkişafı və təkmilləşməsi ilə səciyyələnir. Bu aspektdə diskursun qurulma mexanizmi çox mühüm əhəmiyyət kəsb edir. Çünki diskurs qurularkən müəllifin ixtiyarında çoxlu sayda verbal və ya qeyri-verbal vasitələr vardır. İnformasiyanın məqsədyönlü qurulması və onun adekvat anlaşılması müasir kommunikasiya nəzəriyyəsinin mühüm tələblərindən biridir. Bildiyimiz kimi, diskurs praqmatik, sosial-mədəni, psixoloji və s. amillərin məcmusu olmaqla bütövlüyə malik informativ fenomendir. Bu bütövə daxil olan sözlər, söz birləşmələri və cümlələr diskursun tələbləri kontekstində vahid bir sistemə daxil olurlar.

Xarici dilçilikdə diskurs sözlər termini əvəzinə daha çox "diskursiv markerlər" terminindən istifadə olunur. Bu aspektdə xarici dilçilikdə çoxlu sayda tədqiqat əsərləri yazılsa da, indiyə qədər bu termini birmənalı şəkildə qəbul etmirlər. Həmin terminin yerinə bəzən "diskursiv ədatlar", "praqmatik markerlər", "diskursiv operatorlar", "diskursiv konnektivlər" terminindən də istifadə olunur. Yuxarıda qeyd olunan terminləri qəbul edən müəlliflər diskursiv markerlər deyəndə bağlayıcıları, sözönləri, artiklları, zərfləri, köməkçi sözlər sırasına daxil olan isimləri, ədatları, əvəzlikləri, zərfləri, ad və cümlə qruplarını, feili formaları nəzərdə tuturlar (6). Diskursiv markerlər dillərdən asılı olaraq qeyd etdiyimiz saydan az və ya çox ola bilər.

Müasir ingilis dilində *oh, well, so, yeah, actually, really* kimi diskursiv markerlər, xüsusən məişətdə geniş yayılmışdır.

Diskursiv markerlərdən bir repklikada istifadənin fəallığı və ya zəifliyi linqvokulturoloji səciyyə daşıyır. İngilis dilində a*nd, but, actually,* Azərbaycan dilində "bax", "görüm", "bu" və s. markerləri buna misal ola bilər.

Diskursiv sözlər diskursun hansısa parçalarına diskursiv status verir. Həmin status diskurs prosesində səbəb-nəticə,zaman,dəyərləndirmə, ziddiyyət, müəllif mövqeyi kimi semantikanın verilməsində əlaqələndirici rol oynayır (5, s.9).

Nəzəri ədəbiyyatlarda diskursiv markerlər termininə yaxın mənanı ifadə edən "konnektiv markerlər" terminindən də istifadə olunur. Bu termin Cenevrə semantik məktəbinin nümayəndələri tərəfindən işlənilmişdir. Onların konsepsiyasına uyğun olaraq bu termin semantik növlərdən birini nəzərdə tutur. Onlar belə hesab edirlər ki, konnektor elə dil vahididir ki, o, leksik-semantik, illokutiv, struktur münasibətləri ifadə edir və həmin komponentlər predikativ xarakter daşıyır. Cenevrə məktəbinin nümayəndələrindən olan O.İ.İnkovanın fikirləri konseptual səciyyə daşıyır və belə hesab edir ki, "konnektor markerlər" diskursiv markerlərdən nisbətən fərqli mənalarıda işlədilir (7). Həmin məktəbin nümayəndələrindən Xidekel diskursiv markerlərlə konnektiv markerlərin fərqindən danışarkən bağlayıcılarla konnektorların fərqini göstərirlər. Onun fikrincə, bağlayıcılar və konnektorlar sözləri, söz qruplarını və cümlələri bir-birinə bağlayır. Lakin konnektorlar bunlarla yanaşı, çoxlu sayda paraqrafları da birləşdirir, əlaqələndirir (14, s.7). Onun fikrincə, konnektorun funksiyası söyləmlər arasında əlaqə yaratmaqdan ibarətdir. Xidekelin bu fikirləri bağlayıcı və bağlayıcı sözlərin mətnin komponentlərini və ya mətnləri bağlama funksiyasının xüsusi olaraq bağlayıcıların digər funksiyala-

rından fərqləndirilməsi ilə bağlıdır. Diskurs təlimində "formal əlaqə vasitələri" adı altında öyrənilən həmin dil vahidləri Cenevrə dilçilik məktəbinin nümayəndələri tərəfindən "konnektor markerlər" adı altında tədqiq olunurdu.

Dilçilikdə relevantlıq nəzəriyyəsinin nümayəndələri diskursiv markerlərin mənasının olub-olmaması, onların diskursda strukturlaşdırıcı funksiyası və s məsələlər prioritet problemlərdən biri idi. Relevantlıq nəzəriyyəsi Deydre, Vilson, Dan Sperber kimi görkəmli dilçilərin adı ilə bağlıdır. Həmin nəzəriyyənin tərəfdarları belə hesab edirlər ki, diskursiv markerlər müstəsna dərəcədə posedur mənaya malikdir və o, dinləyici üçün söyləmin hansısa relevantlıq səviyyəsini bildirməyə xidmət edir. Onun üçün ilkin əsas koqnitiv prosesdir, həmçinin relevantlıq səviyyəsində koqnitiv hadisədir.

Diskursiv markerlərlə bağlı yuxarıda qeyd olunan tədqiqat istiqamətlərinin öz spesifikliyi var və onların funksiyasını belə ümumiləşdirmək olar:

1. Diskursqurucu;
2. Münasibətlərin ifadəsi (konnektorlar);
3. Kommunikativ (Danışanla dinləyən arasında qarşılıqlı əlaqənin qurulması).

Diskursquruculuq diskursiv markerlərin mətnin komponentləri arasındakı əlaqələndirici və ya bağlama münasibətlərinin həyata keçirilməsi ilə səıciyyələnir. Münasibətlərin ifadəsinə gəldikdə isə, diskursiv markerlərin kommunikasiyadakı rolundan, insanlararası münasibətlərdə kommunuikasiyaya səbəb olan kommunikativ fəaliyyətin əsas motivlərindən bəhs olunur.

Müasir dilçilik diskursiv markerlərin öyrənilməsi sahəsində müəyyən nailiyyətlər əldə edib, lakin qeyd olunan problemlə bağlı xeyli boşluqlar vardır. Ona görə də həmin problemin öyrənilməsi müasir dilçiliyin qarşısında duran çox vacib məsələlərdəndir.

Diskursiv markerlərin öyrənilməsi sahəsində M.A.K.Halidey və R.Həsənin böyük xidmətləri vardır. Onlar qeyd olunan vahidləri koqeziya, mətnqurucu vasitə kimi təqdim edirdilər. Diskursiv markerlərin koqeziyadakı funksiyasından bəhs edərək yazırdılar ki, koqeziya o vaxt formalaşır ki, diskursun bir elementi, diskursun digər elementi ilə asılılıq münasibətinə girsin. M.A.K.Hallidey və R.Həsən diskursiv markerləri öyrənərkən onlara bu adı vermirdi, ancaq bağlayıcıları və bağlama vasitələrini öyrənirdilər. Bağlama vasitələri deyəndə mətnin hissələrini birləşdirən vahidlər nəzərdə tutulurdu. Bu istiqamətdəki tədqiqatlarında onlar dörd bağlama vasitəsini qeyd edirdilər:

1. Bağlama;
2. Ziddiyyət;
3. Səbəb-nəticə;
4. Zaman münasibətlərini bildirənlər (8, s.5).

Qeyd olunan müəlliflər mətn nəzəriyyəsində mətnin komponentləri arasında qeyd olunan dörd semantik əlaqə vasitəsinin reallaşması üçün istifadə olunan köməkçi dil vahidlərini diskursiv markerlər adlandırmışlar. Nəzəri və faktik materiallardan çıxış edərək demək olar ki, mətnin koheziyasının formalaşması diskursiv markerlərdən çox asılıdır. Diskurs hansısa zəruri informasiyanın verilməsi ilə səciyyəvidir və diskursiv markerlər də bu prosesdə müxtəlif münasibətlərin formalaşmasına xidmət edir. Həmin münasibətlər də M.A.K.Hallidey və R. Həsənin müəyyənləşdirdiyi dörd diskursiv markerin iştirakı ilə reallaşır. Belə müəyyənləşmədə diskursun seqmentləri arasındakı münasibətlərin modelləşməsi öz ifadəsini tapır. Diskursiv markerlərə bu aspektdə yanaşma diskursun qurulma mexanizmini, onun effektlilik dərəcəsinin artırılması vasitələrini müəyyənləşdirir. Müasir dövrdə informasiyanın verimi zamanı diskursiv markerlərdən maksimum səviyyədə istifadə bacarığı onların funksional radiusunu genişləndirir və nəticədə onların diskursdakı işlənmə tezliyini artırır. Buna görə də M.A.K.Hallidey və R.Həsənin diskursiv markerlərlə bağlıirəli sürdüyü kriteriya mətnin koheziyasına əsaslanır və müasir dilçilikdə əksəriyyət tərəfindən qəbul olunur.

D.Şifrin, Y.Maşler və digər müəlliflərin diskursiv markerlərlə bağlı orijinal fikirlər irəli sürmüşlər. Məsələn, Y.Maşler belə hesab edirdi ki, diskursiv markerlər koqnitiv ekspressiv,

sosial və mətni səviyyələrdə dil vahidləri qrupu yaradır. Başqa misal: O.Y.İnkova on yeddi praqmatik marker müəyyənləşdirir. Göründüyü kimi, istər diskursiv, istər praqmatik, istərsə də konnektiv markerlər qeyd olunan əlaqələndirici vahidlərin hansısa fərqli yanaşmaların nəticəsi kimi meydana çıxmışdır.

Diskursiv markerlərdən praqmatik markerlər kimi bəhs edən müəlliflərdən biri də B.Freyzerdir.

B.Freyzer diskursiv markerlərdən bəhs edərkən onu dörd qrupa bölür, onlardan üçünü də yarımqruplara bölür:

1. Baza praqmatik markerlər;
2. Kommentariya praqmatik markerlər;
a) Dəyərləndirmə;
b) Nitqin manerası;
c) Hissiyyat markerləri;
d) Hörmət markerləri;
3. Diskursiv markerlər:
a) Kontrastiv diskursiv markerlər;
b) İnkişaf diskursiv markerləri;
c) Əqli nəticə diskursiv markerləri;
4. Struktur diskursiv markerləri;
a) Diskursla idarə olunan markerlər;
b) Diqqət markeri;
c) Topikin oriyentasiyası markerləri (13, s.167-190; s.931-952).

B.Freyzerin təsnifində diskursiv markerlərin hansı semantikanın diskursa verilməsi və möhkəmləndirilməsindəki funksiyası əsas götürülmüşdür. İnsan şüuru daim inkişaf etdiyindən hisslərin, emosiyaların, fikri incəliklərin alınması üçün digər dil vasitələri ilə yanaşı, diskursiv martkerlərdən də istifadə edir. B.Freyzer diskursiv markerlərə qrammatik-məntiqi nöqteyi-nəzərdən yanaşır. O, diskursiv markerləri dörd qismə bölür. D.Şifrindən fərqli olaraq, B.Freyzer diskursiv markerlərə yalnız verbal dil vahidlərini daxil edir və diskursiv markerlərin dörd tipini müəyyənləşdirir:

Baza markerlər, kommentator markerlər, paralel markerlər, diskursiv markerlər. B.Freyzer baza diskursiv markerlərdən danışarkən ingilis dilində “could you”, “would you” markerlərindən, kommetariyalaşdırıcı markerlərə isə “possibly”, “they say”, “I heard”, “that”, paralel markerlərə isə “my dear”, “frankly speaking” və diskursiv markerlərə “by the way”, “but, however, although”, “in other words”, “more than that”, “particularly”, “also”, “and”, “or” markerlərdən bəhs edir.

Freyzer qeyd edir ki, diskursiv markerlər diskursun propozisiyaya daxil olmayan hissəsidir, o, istənilən dildə mövcuddur. Dillər üzrə onların sayı fərqlidir. Ancaq onlar arasında universal xüsusiyyətlər də vardır; bu da onunla əlaqədardır ki,onlar diskursun hansısa hissəsini markerləşdirir Onun tədqiqatlarında diskursiv markerlərə qrammatik-praqmatik nöqteyi-nəzərdən yanaşılır. Freyzerin diskursiv markerlərə aid tədqiqatlarında əvvəlcə “praqmatik formativlər” sonra isə “praqmatik markerlər” terminlərindən istifadə olunmuşdur.

Dilçilikdə belə bir fikir də vardır ki, diskursiv markerlər şifahi nitqə aiddir, yazılı nitq isə ondan sonradır. Şifahi və yazılı nitqin əlaqəsi dilçilikdə mübahisə doğurmayan fenomenlərdir. Şifahi nitqdən danışılarkən onun spesifik cəhətlərini də qeyd edirlər. Məsələn, şifahi nitq sözyaradıcılığına meyllidir, konstruksiyaların kifayət qədər təkrarına malikdir, ədəbi dil normasına daxil olan söz sırası tez-tez pozula bilir və s. Bu, onu göstərir ki, şifahi nitq yazılı nitqlə müqayisədə çox sərbəstdir. Diskursiv markerlərin müəyyənləşdirilməsi meyarları müasir dövr dilçiliyində xüsusi tədqiqat mövzusudur və onların təsnifi də bu kontekstdə müəyyənləşdirilmişdir. Məsələn, Hallidey və Həsənin yanaşmasında propozisiyaya və əvvəlki nitqdə deyilənlərə münasibət əsas kriteriyadır. Bunlarla yanaşı, kontekstual-semantik, praq-

matik, diskursiv və koqnitiv yanaşmalar da mövcuddur. Bu yanaşmalar müəyyən nöqtələrdə bir-biri ilə kəsişir, əlaqələnir. Lakin onlara yanaşma fərqli mövqeləri təmsil etdiyindən diskursiv markerlərin fərqli təsnifinə səbəb olmuşdur. Onları nəzərdən keçirək.

Yuxarıda qeyd etdik ki, D.Şifrin, B.Freyzer və D.Bleykmor diskursiv markerləri diskursdakı funksiyasına görə müəyyənləşdirir. D.Şifrin diskursiv markerlərə funksionallıq cəhətdən yanaşır. Onun fikrincə, diskursiv markerlər nitqin müxtəlif səviyyələrində koqeziyanı təmin edir. D.Şifrin diskursu təmin edən markerlərin beş səviyyəsini qeyd edir:

1. Birləşdirici “and”, “but”, “or” bağlayıcıları;
2. Nida: “Oh”;
3. Zərflər: “now”, “then”;
4. Leksik frazalar: y’know, I mean;
5. Propozisional struktur;

a) Fəliyyət – nitq aktı strukturu – nitq aktı;
b) Əvəzlənmə strukturu;
c) İştirakçıların strukturu;
d) İnformasiyanın vəziyyəti (12, s.57).

D.Şifrin diskursiv markerlərə nitqi hissələrə bölən, fikri ardıcıllıqdan asılı olan vahidlər kimi baxır.

Onun fikrincə, markerlər səviyyədən asılı olaraq əlaqələndirmə rolunu oynayır. Dilçilikdə D.Şifrinin bu konsepsiyası birmənalı qarşılanmamaışdır. Diskursiv markerlər onun koinsepsiyasında təkcə verbal vahidləri əhatə etmir, həm də qeyri-verbal dil vahidlərini (söz sırasını, intonasiyanı və xüsusi konstruksiyaları) də oraya daxil edir.

Şifrinin yanaşmasında cümlədən kənar sintaktik ayrılmalar, inisial pozisiyadan istifadə, xüsusi prosodik konturların mövcudluğu, diskursun lokal və qlobal səviyyəsində fəaliyyət diqqət mərkəzinə çəkilir. Onun fikrincə, elə ədatlar var ki, onlar yalnız semantika səviyyəsində faktlar arasında əlaqəni təmin edir, yaxud məntiqi səviyyədə cümlələrarası əlaqəni reallaşdırır. Bu həmin dil vahidlərinin fərqlənən xüsusiyyətidir.

D.Bleykmor konsepsiyasının əsasında D.Şperber və D.Uilson tərəfindən irəli sürülən relevantlıq nəzəriyyəsi dayanır. Bu konsepsiyaya görə, diskursiv markerlər reprezentativ mənaya malik deyil. O, diskursiv markerlər əvəzinə “diskursiv konnektorlar” terminindən istifadə etmişdir. Onun təsnifinin əsasını diskursun vahidləri arasındakı qarşılıqlı əlaqə təşkil edir:

1) so, the refore, too, also – kontekstdən alınan nəticəni bildirir;
2) after all, moreover, furthermore – diskursdan alınan nəticəni gücləndirənlər;
3) however, still, never the less, but – ziddiyyət bildirənlər;
4) anyway, incidentally, by the way, finally – söyləmin diskursa münasibətini bildirənlər (4, s.138-141).

İngilis və azərbaycan dillərində elə diskursiv markerlər vardır ki, onlar situasiyadan asılı olaraq qrammatikləşir, bu, onların fakultativ funksiyasıdır. Məsələn, müasir ingilis dilində “you know” situasiyadan asılı olaraq diskursiv markerlər funksiyasında çıxış etsə də, onun propozisional mənası da vardır; yəni bir tərəfdən ədatdır, digər tərəfdən müstəqil mənalı leksik vahiddir. O, ədat kimi işlənərkən inandırma və arqumentasiya ədatı rolunu oynayır (3). Müasir Azərbaycan dilində “bax”, “qoy”,”gör” ədatları oxşar xüsusiyyətlərə malikdir. Həmin ədatlar feil mənşəlidir, diskursiv markerlər kimi işlənəndə təkid, şərt (Məsələn: “Bax” ədatı) semantikasını ifadə edirlər. Bu tipli dil vahidləri semantik ümumiləşməyə məruz qalaraq müxtəlif abstrakt münasibətlər bildirir. Müstəqil leksik vahidlərin desemantizasiyaya uğraması iltisaqi quruluşlu dillərdə və ya iltisaqilik əlaməti olan dillərdə ümumi qanunauyğunluqlar əsasında baş verir. Həmin qanunauyğunluq müstəqil leksik vahidin dildə məna ümumiləşməsinə məruz qalması ilə bağlıdır. Məna ümumiləşməsi, adətən, çoxmənalı sözlərdə baş verir və səbəb-nəticə, zaman, məkan və s münasibətləri bildirir. Qeyd olunan dillərdə həmin dil vahidlərinin məna ümumiləşməsi hesabına propozisional semantikadan uzaqlaşması fakültativ sə-

ciyyə daşıyır. Beləliklə, qeyd olunan fakültativ mənalar leksik vahidlərdən fərqli olaraq, qrammatik istiqamətdə inkişaf edir. Onların qrammatik mənası haqqında bəhs etdiyimiz diskursiv markerləri əhatə edir. Məsələnin bu tərəfindən çıxış edərək desemantikləşmiş sözlərdən (köməkçi sözlərdən) danışarkən onların dildəki funksiyalarını düzgün müəyyənləşdirmək həmin dil vahidlərinə yeni yanaşmanı tələb edir. Bu səbəbdən diskursiv markerlərə həm praqmatika, həm diskursiv söz, həm də relyativlik nöqteyi-nəzərindən yanaşırlar. Qeyd olunan bütün yanaşmalarda desemantizasiyaya uğramış dil vahidlərinin diskursdakı funksiyaları əsas götürülür. Müasir dilçilikdə köməkçi sözlərə tərif verərkən həmin dil vahidlərinin bütün funksiyaları nəzərdə tutulmalıdır. İngilis və Azərbaycan dillərində mövcud olan bütün diskursiv markerlər qrammatikləşmə – məna ümumiləşməsi hesabına formalaşmışdır.

Müasir Azərbaycan dilində mövcud olan modal sözlərin bir qismi cümlə konstruksiyasının transformasiyaya uğraması səbəbindən meydana çıxmışdır. Məsələn, Bunlardan belə görünür ki, // görünür; Sözün düzü// düzü və s. Bu tipli desmantikləşmələr transformasiya hesabına baş verir və bir qrup modal sözlər leksik desemantizasiyadan fərqli inkişaf yolu keçmişdir. Modal sözlər ehtimal, zərurət, yəqinlik kimi semantik münasibətlərin daşıyıcılarıdır. Azərbaycan dilində qeyd olunan diskursiv markerlər həm mətndə komponentlərarası, həm də mətnlərarası əlaqələnmə vasitələri kimi çıxış edir. Onların yaratdığı semantik münasibətlərin əsasında transformasiyaya uğrayan cümlənin və ya söz birləşməsinin semantikası dayanır. Digər tərəfdən, həmin dil vahidləri mətn praqmatikasına xidmət edir.

Diskursiv markerlərin bir sıra spesifik cəhətləri də vardır. Onların əsas leksik vahidlər kimi müstəqil mənası olmadığından mücərrəd mənaya malik olurlar. Ona görə də diskursiv markerlər ümumi mənaya malik olur və onların sərhədlərini dəqiq müəyyənləşdirmək mümkün deyil. Onların semantikası zaman, səbəb-nəticə, məkan, və s. münasibətləri qeyri-müstəqil şəkildə bildirməklə səciyyələnir. Dildə funksiyası isə mətnə görə reallaşır. Onların diskursiv funksiyası desemantizasiyaya uğradığı sözün semantikasına əsaslanır. Diskursiv markerlər müxtəlif nitq hissələrinin desemantikləşməsi hesabına formalaşaraq ünsiyyətdə öz yerini tutur.

Diskursiv markerlərin müstəqil leksik mənası olmur. Bu onların situasiyadan asılılığını göstərir. Onların bildirdiyi ümumi mənalar nominativ vahidlərin, cümlələrin və mətnlərin daxili komponentlərini bağlamağa xidmət edir. Bu funksiya mətnin formalaşması, bütövləşməsini təmin edən vasitələrdən biridir.

Dildə elə vahidlərə rast gəlinir ki, onlar müstəqil leksik vahid, həm də diskursiv olaraq işlənilir. Müasir İngilis və Azərbaycan dillərində çoxlu sayda bu tipli feillərə rast gəlmək olur. Onların belə ikili funksiyası iltisaqi quruluşlu dillər üçün təbii haldır. Çünki bu dillərdə dilin iltisaqi sisteminin möhkəmlənməsi üçün bir sıra sözlər qrammatikləşərək məna ümumiləşməsinə məruz qalır və dilin zəruri ehtiyaclarını təmin edir. Bu sıraya diskursiv markerlər də daxildir.

Diskursiv markerlərdəki məna ümumiləşməsini təmin edən çoxmənalılıq müstəqil leksik vahidlərdəki çoxmənalılıqdan fərqlənir. Bu onların semantikalarının ayrı-ayrı kriteriyalarla müəyyənləşməsi ilə bağlıdır. Diskursiv markerlər müstəqil mənalı sözlərlə müqayisədə daha subyektivdir; diskursda verilənlərə subyektiv münasibətlərin müdaxiləsini təmin edən dildaşıyıcılarıdır. Bu kontekstdə diskursun mənası ilə diskursiv markerin mənasının uyğunlaşması, daha doğrusu, diskursiv markerin diskursda yerinin müəyyənləşməsi yaradıcılıq hadisəsidir. Subyektdən asılı olaraq qeyd olunan uyğunlaşma prosesi müxtəlif səviyyələrdə təmin olunur; bu səviyyə novatorluğa qədər təmin oluna bilər.

Diskursiv markerlər diskursun funksiyası ilə bağlı olan xüsusi sözlər sinfidir. Onlar diskursda fəaliyyət göstərən subyektin səciyyəvi parametrləri ilə bağlı olan ardıcıllığı diqqət mərkəzində saxlayır (9).

Diskursiv markerlərin diskursda funksiyası müxtəlifdir; onlar həm müxtəlif subyektiv münasibətlərin daşıyıcılarıdır, həm komponentlər arasında əlaqələnməni təmin edən vasitələrdir, həm də mətn praqmatikasının verilməsində fəal rol oynayan vasitələrdir.

Ədəbiyyat

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. – Bakı: Maarif, – 1999.
2. Abdullayev K.M. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. – Bakı: Mütərcim, – 2012.
3. Быстрых А.В. Коммуникативный диапазон дискурсивного маркера you know Бокорева А.Н. URL: https://www.rgph.vsu.ru › sss › reports › bokoreva
4. Blakemore D. Relevance and Linguistic Meaning: The Semantic and Pragmatics of Discourse Markers. – Cambridge: Cambridge University Press, – 2002. – p.138-141.
5. Дискурсивные слова русского языка: опыт контекстно-семантического описания/ под ред. К. Киселевой и Д. Пайара. – М., – 1998.
6. Дискурсивные маркеры как отражение лингвокультурных традиций русского и английского языков: cyberleninka.ru › article › diskursivnye-markery-kak-o....
7. Инькова – Манзотти О.Ю. Коннекторы противопоставления во французском и русском языках. Сопоставительное исследование / О.Ю Инькова – Манзотти. – Москва: Информэлектро, – 2001. – 434 с.
8. Halliday, M.A.K. and Hasan, R. Cohesion in English. – London: Longman, – 1976.
9. Локк Дж. Опыт о человеческом разуме // в ЛоккДж. Избранные философские произведения. – М., – 1960. Т.1., – 530 р.
10. Мурашковская Е.М. Подходы к исследованию дискурсивных маркеров: https://docplayer.com › 37174941-Podhody-k-issledov...
11. Məmmədov A.Y. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi. Bakı: Elm, 2001.
12. Schiffrin D. Discourse markers. Cambridge Universitj Press, 1988.
13. Fraser B. What are discourse markers? //Journal of Pragmatics, – 1999. №31, – p. 931-952
14. Хидекель С.С. Англо-русский словарь служебных слов = Connectors and modifiers English - Russian dictionary / Хидекель С.С. Кауль М.Р., Гинзбург Е.Л.// Москва: Рус. яз. – 2003. – 410 с.

Г.Аллахвердиева

Дискурсивные маркеры

Резюме

В статье рассматривается вопрос возникновения дискурсивно маркерного учения и стабилизация терминологических понятий этого учения в лингвистике. При разъяснении проблемы были обращены внимание на взгляды европейских лингвистов и проанализированы критерии, которые они применяли для выявления дискурсивных маркеров. В статье также разъяснены вопросы исследования дискурсивных маркеров, их сущность и история, а также их функциональные особенности в дискурсе. В итоге отмечается, что дискурсивные маркеры играют очень важную роль между говорящим и слушателем в передаче субъективных отношений.

G.Allahverdiyeva

Discursive markers

Summary

The article discusses the emergence of discursive marker teaching and the stabilization of terminological concepts of this teaching in linguistics. When clarifying the problem, attention was drawn to the views of European linguists and the criteria that they used to identify discourse markers were analyzed. The article also explains the research issues of discourse markers, their essence and history, as well as their functional features in discourse. As a result, it is noted that discursive markers play a very important role between the speaker and the listener in the transmission of subjective relationships.

Rəyçi: filol.f.d., dos. Ş.Hüseynov

Redaksiyaya daxil olub: 18.11.2021

S.M.BAĞIROVA
filologiya üzrə fəlsəfə doktoru
e-mail: sayanamovsum@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

BİLİNQUALLIQDA İNTERFERENSİYA PROBLEMİ

Açar sözlər: *bilinqual, interferensiya, intonasiya, ana dili, ikinci dil, təsir*
Ключевые слова: *двуязычный, вмешательство, интонация, родной язык, второй язык, влияние*
Key words: *bilingual, interference, intonation, mother tongue, second language, influence*

Bilinqvizmin tədqiqində əsas məsələdən biri interferensiyadır (1, s.10). Məlum olduğu kimi, interferensiya ingilis dilində *linguistic interference, cross-linguistic interference,* yaxud *transfer* adlanır. Məsələn, danışanın dillərindən birinin digərinə zərərli təsiri zamanı interferensiya müşahidə oluna bilir. İnterferensiya fonoloji, morfoloji və sintaktik ola bilir. İnterferensiyanın ən ümumi növü güman ki, fonoloji interferensiya hesab olunur, yəni danışanın iki dilinin səs sistemi arasındakı interferensiya. Ümumilikdə, qəbul olunur ki, ikidilli insanların əksəriyyəti bir dildə digərinə nisbətən daha səlis danışırlar və birincisinə dominant dil deyilir. Buna görə də A dilinin hakim olduğu bir natiq B dilindəki fərqləri çox zaman ayırd edə bilməz. Məsələn, ingilis dilinin üstünlük təşkil etdiyi bir natiq Polşa dilində bəzi sözlər arasındakı fərqləri düzgün anlamaya bilər və bunda təəccüblü bir şey yoxdur, məsələn: /szyk/ (sıra) və /sik/ sözlərinin yazılışı bir-birinə yaxın olduğu üçün onları səhv salmaq olur. İngilis dilli biri onların hər ikisini /sheek/ kimi tələffüz edə bilər. Ən davamlı interferensiya intonasiya mətnlərində baş verir. Bu vəziyyət çox zaman məktəblərdə problem yaradır. Billinqual şagird hər hansı bir sözü səhv tələffüz edərsə, bundan xəbəri olmayan müəllim onu danlayar, bu vəziyyət problemlər yarada bilər (2, s.121).

Morfosintaktik interferensiyaya isə literal tərcümə zamanı daha çox rast gəlinir. Məsələn, sözbəsöz və sair hallarda olan interferensiya. Bu vəziyyət, xüsusən, danışıq üçün struktur baxımından uyğun olmayan dillərdə müşahidə olunur. Məsələn, çin dilini misal verə bilərik.

Dünyada dillərin və dialektlərin sayı artdıqca və həmçinin miqrasiya edən insanların sayı artdıqca bilinquallıq da artır.

0-3 yaşları arasında uşaqların beyinləri beyin ən çevik mərhələsində olduğu üçün ikinci bir dili öyrənməyə misilsiz dərəcədə uyğundur. Əslində, uşaqlar 6 aylıqdan bir dildən digər dilə keçid edə bilərlər. Uşaqlar necə ki, gəzməyi öyrənirlər, eyni zamanda ikinci dili də öyrənə bilərlər. Washington News Universitetinin araşdırmasına görə, ABŞ siyahıyaalması 6 yaşınadək uşaqların yüzdə 27-nin ingilis dilindən başqa bir dil öyrəndiyini göstərir. Həmin universitetin qənaətinə görə, ikinci bir dil öyrənmək uşağın ana dilinə mənfi təsir göstərmir (3, s.119).

Dil, yaxud linqvistik interferensiya çox halda *transfer* kimi qəbul edilir (4, s. 11). Məlum olduğu kimi, interferensiya fərdin başqa dildə danışdığı zaman ana dilinin danışdığı dilə bütün səviyyələrdə təsiri nəticəsində yayınmaları ehtiva edir. İnterferensiya həm neqativ, həm də pozitiv ola bilir. *Neqativ transfer* hədəf dilin istifadəsi zamanı rast gəlinən çətinlikləri əks etdirir. Bu cür çətinlik, əsasən, hədəf dilin ana dillə bərabər işlədildiyi zaman rast gəlinir. *Müsbət transfer* isə dil öyrənmənin asanlaşdırılması anlamını verir. Bu zaman Dil 1 və Dil 2 arasında oxşarlıq ön plana çıxarılır. Beləliklə də dil, yaxud linqvistik interferensiya ana dilin hədəf dilə keçimini təmin edən *keçid* (transfer) hesab edilir. Məsələn, ingilis dilində danışarkən azərbaycanlıların kipləşən-partlayışlı dilönü samitlərini apikal deyil, dorsal tələffüz etməsi dediyimizə bariz nümunədir. Azərbaycan dilində dilönü samitləri dorsaldır, yəni bu

samitlər dilin kürəyində formalaşır. İngilis dilində isə həmin samitlər dil ucunun fəallığı ilə xarakterizə olunur (5, s. 85).

Qeyd etdiyimiz kimi, interferensiyanın iki növü mövcuddur: pozitiv və neqativ (3, s. 56). Ana dili və hədəf dil arasında fərq nə qədər çox olarsa, neqativ interferensiya da o qədər çox müşahidə edilir. Məsələn, ingilis və ispan dillərində nümunələr verək. Məlum olduğu kimi, ingilis dilində həftənin günlərinin əvvəlində *on* sözönü istifadə olunur. Məsələn: /He is going to the beach *on* Sunday// (O, bazar günü çimərliyə gedir). İspan dilində isə *on* sözönünün yerinə müəyyənlik artiklı işlədilir. Nümunəyə baxaq: /Se va a la playa el domingo// Müşahidələr göstərir ki, ingilis dilini ana dil kimi danışan təcrübəsiz ispan tələbələri zəruri olmadığı halda sözönü istifadə edərək transfer səhvi edə bilərlər, çünki onlar ingilis dilində *on* sözönünü işlətməyə vərdiş ediblər. E.Kellermanın qənaətinə görə, ikinci dildə danışan tələbələr üçün bu cür səhv etmək təbii hesab edilir. Neqativ transferə ingilis dilini öyrənən alman tələbələrin də danışığında rast gəlmək olur (6, s.11). Məsələn: alman dilində *məlumat* (ingilis dilində *information*) cəmdə "informationen" şəklində yazılır. Alman tələbələri çox zaman ingilis dilində də demək olar ki, həmişə səhv variant olan "informations" neqativ transferini istifadə edirlər. Məsələni daha ümumi cəhətdən nəzərdən keçirən C.Askedal yazır ki, bütün yeni öyrənmə üsulları adətən əvvəlki öyrənməyə əsaslanan transferi əhatə edir (7, s.219).

Ümumiyyətlə, danışıq zamanı qrammatik qaydalara və digər danışq qaydalarına diqqət yetirilməlidir, lakin uşaqlar heç bir qaydaya əməl etmədən danışa bilərlər, məsələn, onlar səslərə, cümlələrin quruluşuna, intonasiyaya və s. fikir vermədən asanlıqla digər dili mənimsəyə və ondan istifadə edə bilərlər. Mütəxəssislərin qənaətinə görə, 8 yaşına qədər gənc şagirdlər ikinci bir dilin səsləri arasındakı fərqləri aşkar edə bilən çevik qulaq və nitq əzələlərinə malik olurlar.

Bilinqvizmin koqnisiya ilə əlaqəsi də diqqətdən qaçmamalıdır. Məlum olduğu kimi, koqnisiya sahəsində tədqiqatların əsas məqsədi insan biliyinin üzə çıxarılmasıdır. Bunun üçün insan düşünməli, dili və hərəkətlərini reallaşdırmaq üçün hansı biliklərdən istifadə etdiyini öyrənməlidir. Bilik isə insan yaddaşında həkk olunan informasiyaların miqdarı, kütləsiylə müəyyənləşir (8, s.119). Məsələ burasındadır ki, insan özünü əhatə edən dünyanı özünəməxsus şəkildə mental təsvir edə bilir, kompleks davranışını təmin edən mental strukturlarda müəyyən əməliyyatlar aparır. Bu da o deməkdir ki, bilik təcrübənin əldə etdiyi məlumatların statistik toplusu deyil, o həm də onların məzmunu ilə əlaqəlidir. Bu da o deməkdir ki, insanın koqnitiv səriştəsi struktur və prosedur bilikdir. Prosedur bilik səriştənin reallaşması ilə eyniləşdirilməməlidir (5, s.57). Prosedurlar koqnisiya sistemindəki proqramlardır, onlar reallaşma mexanizmlərini həyata keçirmək üçündür. F.Veysəllinin iddiasına əsasən, deklarativ və prosedur biliklər beyində müxtəlif cür təmsil olunur və onlar ayrılıqda idarə olunurlar. İnsanın bütün koqnitiv bacarıqları yaddaşın funksiyaları ilə müəyyənləşir. Beyində təmsil olunan biliklərə əsaslanmadan insan heç bir cümləni başa düşə bilməz. Yaddaş insan biliyi üçün bir növ koqnitiv saxlama kamerası hesab olunur (5, s.57). Yaddaş dəqiq lokallaşmış beyin hissəsi, yəni orqan deyildir, koqnitiv funksiyaların kompleks sistemidir. Bu funksiyaların içərisində biliyin uzun müddət yaddaşda qalması çoxşaxəli fəaliyyətin bir hissəsidir. Qeyd edək ki, yaddaş müxtəlif subsistemlərə bölünür. Beləliklə, yaddaş koqnitiv funksiyaların bir sıra toplusunu bildirir. Beynin fizioloji quruluşu ilə onun funksiyalarını öyrənmək üçün xeyli təcrübə də aparılıb.

Araşdırmalar göstərir ki, informasiyanın uzun müddət yaddaşda saxlanması üçün müxtəlif hüceyrələr vardır. Məsələn, xəstə bir neçə rəqəmli sayı uzun müddət tanıyır və özüözünə təkrar edir. Lakin xəstənin diqqəti yayınanda o nə sayı, nə də onu işlətdiyi məqamı xatırlayır. Öz ünvanını, hətta uzun illər ünsiyyətdə olduğu adamları, şeylərin yerini belə xatırlaya bilmir. Qeyd edək ki, hər hansı bir obyekti adlandırma ilə tanıma üzvi surətdə birbirilə bağlıdır. Tanıma adlandırmadan qabaq gəlir. Obyektin, hərəkətin və fərdlərin tanınması üçün dil lazım deyil. İnsanın dil qabiliyyəti kompleks şəkildə itəndə (buna qlobal afaziya deyilir – F.Veysəlli) insan tipik koqnisiyaya malik olur. Obyekti adlandırmaq dinamik və

daimi səs təsəvvürlərinə köklənən tanınmaya əsaslanır. Neyrologiyada yaddaşın itirilməsinin iki növü fərqləndirilir: anteroqrad və retroqrad (5, s.58).

Ümumiyyətlə, bilinqual olmağın bir sıra koqnitiv faydaları sübut olunmuşdur. Tədqiqatlar bilinqualın birinci (ana dili) və ikinci dilinin bir-birilə qarşılıqlı əlaqədə olmasını tədqiq edir və sübut olunur ki, hər iki dil nəinki bir-birinin funksiyasına, həmçinin dilin koqnitiv funksiyasına da təsir göstərir. Yaddaş, qavrayış və diqqət kimi icraedici funksiyalar üzərində aparılan araşdırmalar sübut edir ki, bilinqual insanlar müxtəlif mühitlərdə monolinqual həmyaşıdlarına nisbətən əhəmiyyətli koqnitiv üstünlüklərə malikdirlər. Bilinquallığın koqnitiv üstünlüklərinə aid olan tədqiqatların araşdırılması onu göstərir ki, bu sahədə subtraktiv (subtractive) və aditiv (additive) perspektivlərin müəyyən edilməsi müşahidə olunur. Belə məlum olur ki, bilinquallıq insanın koqnitiv qabiliyyətinə müəyyən xüsusiyyətlər əlavə edir, nəinki onda nəyisə məhdudlaşdırır.

Dil öyrənmədə əsas eksperimentlər uşaqlar üzərində aparılır. K.Bühler yazır ki, tarixəqədərki dövrdə ibtidai insanın itib-batmış mədəni inkişaf mərhələləri haqqında bilgilərlə bağlı ən yaxşı məlumatı biz öz uşaqlarımızı düzgün başa düşməklə əldə edə bilirik (9, s.90).

İstənilən dili öyrənəndə uşaqlar ilkin mərhələdə isimləri öyrənirlər. Təbii ki, burada nidalar istisnalıq təşkil edir. Daha sonra feillər, sifətlər və zərflər gəlir. 1 yaş üç aylığında uşaq lüğətinin 78%-ni isim, 22%-ni feil, 1 il 11 aylığında isə 63 %-ni isim, 23%-ni feil və 14%-ni başqa nitq hissələri təşkil edir. Uşaqlar 7 yaşında tamamilə əşya anlamı mərhələsində olur, "nə görürüsən?" sualına uşaq çox gözəl cavab verir, 10 yaşında bütün hərəkətləri, 14 yaşında isə əlaqə və münasibətlərini də onlar aydın dərk edib danışırlar (10, s.21).

Qeyd edək ki, əslində bu cür davranışı ibtidai insanın əqli inkişafında əsl inqilab hesab edilir. Bu artıq dilin ünsiyyət vasitəsi kimi formalaşmasında xəbər verir. Bu da o deməkdir ki, səs birləşmələri praktik situasiyaları bildirməyə xidmət edir. Nəhayətində, ibtidai insanda iki və ya üç dil vahidindən ibarət olan bir dil yaranır.

Praktik fəaliyyətində yeni dil situasiyası ilə qarşılaşan insan yeni anlayışları ifadə etməyə söz tapır, yavaş-yavaş cümlə düzəldib fikrini ifadə edir (11, s.16). İbtidai insan ikihecalı sözdən və ya cümlədən üçhecalıya keçəndə artıq üçüncü heca birincilərin təkrarı olmayıb feil olur. Ola bilər ki, üçüncü heca heç məna ifadə etməsin, lakin tədricən, o, mənalı sözə çevrilir. Məsələn, baba ma və babama, ancaq bu sonradan çevirilir: baba mə (nə) və s.

Artıq vəziyyət tamam dəyişir. Danışan obyekti hərəkətlə əlaqələndirə bilir. Söyləmdə yeni element, yəni xəbər yaranır, isimlə əlaqələnmə olur, situasiya kiçik elementlərə parçalanaraq öz ifadəsini tapır.

Hərəkəti ayrıca göstərməsi və dildə ifadə etməsi ibtidai insanın yeni mərhələyə qədəm qoymağından xəbər verir. Artıq ibtidai insan fikir bildirir: su ver, şirni ver və s. F.Veysəlli yazır ki, bu proses real danışığı deyil, yalnız söyləmlərin modelini əks etdirir.

İki dildə danışan şəxs iki dili fərqli müxtəlif kontekstlərdə istifadə edə bilər, fərqli kültürəl mühitlərdə öz düşüncəsini müxtəlif yollarla ətrafındakılara çatdıra bilər. Qədimdə bilinquallığın mənfi koqnitiv təsir yaratması ilə bağlı düzgün olmayan iddialar ortaya atılırdı. Belə iddia edilirdi ki, xüsusilə uşaqlar kiçik yaşlardan ana dilindən başqa dil öyrədilməyə meyilləndirilirsə, o zaman bu onların beyinlərinin düzgün inkişafına zərər bura bilər. Yaxud iki dili öyrənməyə məruz qalan körpələrin natamam dillərdən hər hansı birini mənimsəməsində əziyyət çəkəcəyi kimi bir çox yalan məlumat yayılmışdır. Günümüzdə elm adamları bunun əksinin doğru olduğunu sübut etdilər. Tədqiqatçılar erkən ikidilliliyin (yəni hər iki dili həyatın əvvəlindən öyrənildiyi təqdirdə) ömür boyu idrak üstünlüklərinə səbəb olduğunu açıq şəkildə nümayiş etdirdilər. Birdilli uşaqlarla müqayisədə iki və ya daha çox dilli uşaqların idrak qabiliyyətlərinin üstün olduğu artıq sübut olunmuşdur. Xüsusilə, şifahi olmayan tapşırıqların icrasında, müxtəlif münaqişələrin, yaxud yaddaşla bağlı olan çəlinclərin həllində bilinqualların daha fəal və yaradıcı olduqları artıq fakt kimi sübut olunmuşdur.

Bilinqual olmağın koqnitiv üstünlükləri:
a) düşünmə qabiliyyəti;
b) yaradıcılıq;
c) ünsiyyət qurma bacarığı;
d) cəld düşünmə qabiliyyəti;
e) həssaslıq;
Bilinqual olmağın insan xarakterə göstərdiyi üstünlükləri:
Sərbəstlik;
a) davranışda müstəqillik;
b) danışıqda sərbəstlik;
c) sərbəst mühakimə;
Kurikulum üstünlükləri:
a) tədris proqramında nailiyyətin artması;
b) fərqli dilləri (üçüncü, dördüncü və s.) öyrənməkdə asanlıq;

Ədəbiyyat

1. Lado, R. Linguistics across Cultures: Applied Linguistics for Language teachers. Michigan: University of Michigan, 1957.
2. Liu, Dilin. 'The Most Frequently Used English Phrasal Verbs in American and British English: A Multicorpus Examination'. TESOL Quarterly 45 (4): 2011, 661-688.
3. Odlin, T. Language Transfer-Cross-Linguistic Influence in Language Learning. Shang Hai: Shang Hai Foreign Language Education Press, 2001.
4. Gass, S. and L. Selinker. Language Transfer in Language Learning. Rowley, Mass.: Newbury House, 1983.
5. Veysəlli F.Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. Bakı: Mütərcim, 2015.
6. Kellerman, E. 'Aspects of transferability in second language acquisition. Chapter 1: Crosslinguistic influence: a review'. Unpublished manuscript, University of Nijmegen, 1987.
7. Askedal, J. O. 'Norwegian' in E. König and J. van der Auwera (eds.) Germanic languages. London: Routledge: 1994, 219-270.
8. Segalowitz, N. Psychological perspectives on bilingual education. In Spolsky, B. & Cooper, R. (eds.), Frontiers in Bilingual Education. Newbury House, Rowley, MA., 1977, pp.119-58.
9. Buhler K. Theory of Language. Cambridge: John Benjamins Publishing Company, 2011, 616 p.
10. Darcy, N.T. A review of the literature on the effects of bilingualism upon the measurement of intelligence. Journal of Genetic Psychology 82, 1953, pp. 21-57.
11. Deuchar, M. & Quay, S. Bilingual Acquisition: Theoretical Implications of a Case Study. Oxford: Oxford University Press, 2000, 176 p.

С.М.Багирова

Проблема интерференции в билингвизме

Резюме

В статье рассматривается проблема интерференции в двуязычие. В нем говорится, что основная языковая проблема, с которой сталкиваются двуязычные, — это интерференция. Известно, что интерференция бывает фонологической, морфологической и синтаксической. Эти области вмешательства затронуты в статье. Интерференция могут наблюдаться, когда один из языков говорящего вреден для другого. Наиболее распространенным типом интерференции, вероятно, является фонологическая интерференция, то есть интерференция между звуковыми системами двух языков говорящих. Эти проблемы широко затронуты в статье.

S.M.Baghirova

The problem of interference in bilingualism

Summary

The article deals with the problem of interference in bilingualism. It states that the main language problem involving bilinguals is interference. Interference is known to be phonological, morphological and syntactic. These areas of the interference have been touched upon in the article. Interference can be observed when one of the speaker's languages is harmful to the other. The most common type of interference is probably phonological interference, that is, interference between the sound systems of two speakers' languages. These problems have widely been touched upon in the article.

Rəyçi: filol.e.d., prof. F.Y.Veysəlli

Redaksiyaya daxil olub: 02.12.2021

S.BƏRMUZİ
e-mail: sofi_24@list.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ NİSBİ ZAMAN ANLAYIŞI

Açar sözlər: *nisbi zaman, mütləq zaman, feilin təsriflənməyən formaları, budaq cümlələr*
Ключевые слова: *относительное время, абсолютное время, нефинитные формы глагола, придаточные предложения*
Key words: *relative tense, absolute tense, non-finite forms of the verb, subordinate clauses*

Mütləq zamandan fərqli olaraq, nisbi danışıq vaxtı dedikdə başqa bir zaman aktına münasibətdə təyin edilir. Başqa sözlə desək, nisbi zaman elə bir kateqoriyadır ki, onun elementləri təsvir olunan faktın ondan asılı olmayaraq xatırladılan digər təsvir olunan fakta münasibətdə zaman lokalizasiyasını xarakterizə edir. Onun təyinediciləri budaq cümlələr və feilin təsriflənməyən formalarının (feili bağlama, feili sifət, cerund) cümlənin əsas feili (xəbəri) ilə münasibətdə ortaya çıxır. Beləliklə, zaman oxu üzərində ilkin hesablama nöqtəsi mütləq, ikincisi isə nisbi zamanla götürülür, yəni şərti zaman oxundan başqa digər bir zaman oxu da ortaya çıxır. Onu linqvistik cəhətdən nisbi zaman oxu adlandırılar. Burada iki zaman oxu, əsas zaman oxu olan mütləq zaman oxunun nisbi zaman oxuna olan münasibətindən söhbət gedir. Nitq momentinə və yaxud başqa bir hərəkətə münasibətdə nisbi zaman oxu üzərində də eynizamanlılıq, əvvəlgəlmə və sonragəlmə vəziyyətlərini fərqləndirə bilərik. Nisbi danışıq vaxtına misal olaraq Azərbaycan dilində aşağıdakı nümunəyə nəzər salaq:

Müxbir qeyd etdi ki, hərbi qüvvələr arasında güclü döyüş gedir. Bu cümlədəki zaman oxu üzərindəki əsas zamanı müəyyənləşdirən zaman meyarı kimi keçmiş zamanda olan "Müxbirin qeyd etdiyi", "qüvvələr arasında döyüşün getməsi" isə digər hərəkətə münasibətdə indiki zamanı bildirir. Beləliklə, mütləq danışıq vaxtına görə keçmiş zamanda olmuş hərəkət, nisbi danışıq vaxtına görə indiki zamanda baş verən bir hərəkət kimi götürülür.

Müxtəlifsistemli dillər olan Azərbaycan və ingilis dillərində morfoloji zaman sistemində zaman kateqoriyasına malik olmayan, müstəqil zaman mənası daşımayan, yalnız nisbi zaman mənasına malik qrammatik vahidlər – feilin şəxssiz formaları (feilin təsriflənməyən formaları) öz əksini tapmışdır. Həmin formalar müxtəlif zaman paradiqmasına malik olsa da, verilən dillərdə nisbi periferik mövqe hər bir dildə analojidir.

Bu dillərdə hərəkətin mütləq zamanı nisbi zaman ilə eyni vaxtda mövcud ola bilər, lakin üstün mövqe mütləq temporal lokallaşmaya verilir.

Dilin sintaktik səviyyəsində nisbi zaman əsasən budaq və baş cümlələr arasındakı münasibətlə ölçülür. Baş cümlənin və budaq cümlənin xəbərinin müxtəlif zamanlarda olması bu münasibəti formalaşdırır.

Məsələn, müxtəlifsistemli dillərdə feilin təsriflənməyən formaları işlənən cümlələrə nəzər yetirək:

*Bu hadisə **baş verəndə** onun 18 yaşı vardı (5, s.31).*

*Həyatını xalqın qurtuluşu yolunda mübarizəyə verəcəyinə **and içib** Tehrana köçdü (5, s.32).*

*Buna görə də kəndbəkənd, şəhərbəşəhər İranı **gəzdikcə** xalq yolunda sədaqətli və namuslu adamlarla dostluq yaratmışdı (5, s.32).*

*Firudunu xaraba bir həyətdə bacasız tövləyə **salaraq**, qapısını bərk-bərk bağlamışdılar (5, s.34).*

Verilən nümunələrdə feili bağlamaların zamanları cümlələrin əsas xəbərinin zamanına nəzərən öncəgəlmə *(and içib, salaraq)* və ya eynizamanlılıq *(baş verəndə, gəzdikcə)* mənaları daşıyırlar.

Azərbaycan dilində feilin təsriflənməyən formalarının zaman paradiqmaları ingilis dilində olan təsriflənməyən formalardan fərqlənir. Azərbaycan dilində mütləq zaman nisbi zamanla eyni vaxtdan mövcud ola bilər, lakin bu zaman mütləq lokallaşma üstünlük təşkil edəcək. Məsələn, Azərbaycan dilində indiki zaman şəkilçisi –ır[4] həm mütləq, həm də nisbi temporal lokallaşmanı ifadə edə bilər. Bu zaman mütləq zaman oxu üzərində eynizamanlılıq mənası versə də, nisbi zaman oxu üzərində isə digər bir hərəkətlə nisbətdə indiki zaman mənası ifadə edir. Məsələn:

Firudun kəndin sakit küçələri ilə gedir, bəzən çevrilib arxaya baxır və itləri oyaq salacağından qorxaraq nəfəsini belə çıxarmırdı (5, s.37).

Atam dedi ki, çox qiymətli şeylərdir (5, s.36).

Birinci cümlədə indiki zaman şəkilçisi ardıcıllıq mənası yaratdığı üçün, digərində isə baş cümlənin xəbəri keçmiş zamanda olmasına baxmayaraq, budaq cümlədə indiki zaman ona nəzərən nisbi zaman hesab olunur.

İkinci – tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədə isə baş cümlənin keçmiş zamanda olan xəbərinə nəzərən budaq cümlədəki hərəkətin zamanlaması indiki zamana təsadüf edir və məhz burada nisbi zamana rast gəlmək mümkündür.

İngilis dilində də nisbi zaman şkalası üzərində başqa bir hərəkətə nəzərən öncəgəlmə, sonragəlmə və eynizamanlılıq münasibətlərinə rast gəlmək olar. Adlarından da göründüyü kimi öncəgəlmə ingilis dilində hər üç zamanın bitmiş (perfect) forması, eynizamanlılıq davamedici (continuous) forması ilə təzahür oluna bilər. Qeyri-müəyyən (indefinite) zaman formaları isə həmcins xəbərli cümlələrdə ardıcıllıq kontekstində sonragəlmə mənası qazana bilər.

Məsələn:

*He **turned** his head and **tried** to see her face "O, başını çevirdi və onun üzünə baxmağa çalışdı"* (6, s.123).

Nisbi temporal lokallaşmanı ingilis dilində həm feilin təsriflənməyən formaları, həm də transformasiyalar nəticəsində həmin şəxssiz formaların çevrilmələrini həmin formaların ekvivalenti sayılan, müvafiq budaq cümlələrdə görmək olar. Bildiyimiz kimi, ingilis dilində çoxşaxəli zaman sistemi həm feilin təsriflənən, həm də təsriflənməyən formlarında təzahür edir. Həm şəxssiz formalar, həm də onların çevrilmələrində eyni mənalı, müxtəlif strukturlu nisbi lokallaşma realizasiyası mövcud olur. Məsələn, *The boys standing in a queue followed the guide's instructions "Sırada dayanan oğlanlar bələdçinin təlimatlarını izlədilər"* cümləsinə nəzər salaq. Burada şəxssiz forma olan indiki zaman feili sifətinin zamanı (standing) cümlənin əsas xəbəri sayılan followed feili ilə eyni zaman kəsiyinə təsadüf edir. Baxmayaraq ki struktur cəhətdən cümlənin əsas xəbəri keçmiş zamanda, feili sifət isə indiki zamandadır, müxtəlif zaman oxları üzərində cərəyan edən hərəkətlərdən feili sifətin istinad nöqtəsi mütləq zamanda olan əsas xəbərlə eyni zaman anına təsadüf edir. Yuxarıdakı sadə cümlə digər bir tabeli mürəkkəb cümlənin ekvivalenti sayılır. – *The boys who were standing in a queue followed the guide's instructions.* İlk baxışdan sezilməsə də, yuxarıdakı cümlə ilə bu cümlə arasında incə və eyni zamanda ciddi bir fərq mövcuddur. Budaq cümlə ilə ifadə olunan cümlənin xəbəri baş cümlənin xəbəri ilə eyni mütləq zaman oxu üzərindədir və hər ikisinin ifadə etdiyi hərəkət keçmişin müxtəlif zaman kəsiklərinə aiddir və davamedici zamanda olan hərəkət (were standing) digərindən qısa zaman fərqi olmaqla daha əvvəl baş vermişdir.

İngilis dilində cümlə daxilində indiki zaman feili sifətinin işləndiyi zamanın cümlənin əsas xəbərinin zamanı ilə birbaşa uzlaşması mütləqdir. Məsələn, yuxarıda verilmiş cümlənin xəbəri modal feil və ya gələcək zamanla ifadə olunarsa feili sifətin ifadə etdiyi hərəkət xəbərlərin ifadə etdiyi hərəkətlə eynizamanlılığı göstərir. Məsələn, *The boys standing in a queue must follow the guide's instructions "Sırada dayanan oğlanlar bələdçinin təlimatlarını*

izləməlidirlər" və The boys standing in a queue will follow the guide's instructions "Sırada dayanan oğlanlar bələdçinin təlimatlarını izləyəcəklər". Birinci cümləni budaq cümləyə çevirsək *The boys who are standing in a queue must follow the guied's instructions "Sırada dayanan oğlanlar bələdçinin təlimatlarını izləməlidirlər",*digəri isə *The boys who will be standing in a queue will follow the guied's instructions "Sırada dayanacaq oğlanlar bələdçinin təlimatlarını izləyəcəklər"*çevrilmələrini əldə etmiş olarıq.

Əgər biz yuxarıda verilmiş cümlənin feili sifətini keçmiş zaman feili sifətinə dəyişsək, bu zaman keçmiş nisbi temporal zaman əldə etmiş olarıq. Məsələn, *The boys sent (having been sent) to the exscursion followed the guide's instructions "Ekskusiyaya göndərilmiş oğlanlar bələdçinin təlimatlarını izlədilər".* Bu cümlənin tabeli mürəkkəb cümləyə çevrilməsi də belə olacaq: *The boys who had been sent to the exscursion followed the guide's instructions.* Həm sadə cümlədəki keçmiş zaman feili sifəti (sent) və indiki zaman feili sifətinin bitmiş zaman forması (having been sent), həm də mürəkkəb cümlənin budaq cümləsində olan xəbər hər ikisi nisbi keçmiş zamana aid istinad nöqtəsini bildirir və hər ikisi cümlənin əsas feilinin ifadə etdiyi hərəkətdən daha əvvəl baş vermişdir.

Nisbi zamanla mütləq zaman arasındakı fərq ondan ibarətdir ki, mütləq zaman hadisənin danışıq anında, ondan əvvəl və ya sonra baş verdiyini göstərsə də, nisbi zaman hərəkətin kontekstual cəhətdən istinad nöqtəsində, ondan əvvəl və sonra baş verdiyini bildirir. Bernard Komrinin araşdırmalarına əsasən bir çox müxtəlif dillərin materiallarını araşdırsaq sadə bir feil forması özündə həm nisbi, həm də mütləq zamanı birləşdirə bilər. O, bu zamanı mütləq-nisbi zaman (absolute-relative tense) adlandırır. Baxmayaraq ki, ənənəvi terminologiyada biz yalnız nisbi və mütləq zaman anlayışlarına rast gəlirik, B.Komri nisbi zamanı 2 tipə ayırır: qatı nisbi (strict relative) zaman və mütləq-nisbi (absolute-relative) zaman (4, s.65).

İngilis dilində mütləq-nisbi zaman anlayışı keçmiş zamanın bitmiş formasını (pluperfect) nəzərdən keçirilməsi zamanı ortaya çıxır. Keçmiş bitmiş zamanın realizasiyası istinad nöqtəsinin keçmişə təsadüf edilməsi ilə baş verir və hadisə isə həmin istinad nöqtəsindən də əvvəl başvermişdir. Buna Komri "keçmişdə keçmiş" (past in the past) adını vermişdir (4, s.65). Nümunələrə nəzər yetirsək, istinad nöqtəsinin müəyyənləşdirilməsi kontekstual baxımdan ortaya çıxır. Istinad nöqtəsi əsasən zaman zərfliyi iləmüəyyənləşir. Məsələn, John had arrived by six o'clock yesterday evening "Con dünən axşam saat 6-ya qədər gəlmişdi"cümləsindəki *by six o'clock yesterday evening* zərfi keçmiş zamanda istinad nöqtəsini yaradır və bu saat altıdır və Conun çatması bu vaxtdan əvvələ təsadüf edir. Və yaxud belə bir tabeli mürəkkəb cümləyə nəzər salaq: *When John had gone, the telephone rang "Con gedəndə telefon zəng çaldı".* Burada telefonun zəng çalması istinad nöqtəsini göstərir, Conun getməsi isə həmin andan əvvəl baş vermişdir. Hətta cümləni *John had already gone when the telephone rang "Telefon zəng çalanda Con artıq getmişdi "* şəklində dəyişsək belə, yenə də telefonun zəng çalması Conun getmə vaxtına nəzərən istinad nöqtəsi hesab olunur.

İstinad olunan hərəkət kontekstual cəhətdən də verilə bilər. Müstəqil sadə cümlələrin zaman baxımından uzlaşması zamanı da bunu görmək olar. Məsələn, yenidən ingilis dilindən bir nümunə göstərək: *The clock struck ten; John had already left "Saat 12-ni vurdu; Con artıq getmişdi".* Bu cümlələrin birincisində keçmisdə istinad nöqtəsi göstərilir, digərində verilmiş hadisə isə həmin istinad nöqtəsindən öncə baş vermiş hərəkəti göstərir.

İngilis dilində zaman zərflikləri heç də həmişə istinad nöqtəsini bildirmir, lakin bitmiş zamanda həmin zərfliklər hadisənin zamanda yerləşməsini kodlaşdırmağa kömək edir. Belə bir cümləyə nəzər salaq: *Mary had already left here at ten o'clock "Meri saat 10-da artıq buranı tərk etmişdi ".* Kontekstdən asılı olaraq qeyd etmək lazımdır ki, bu cümlədə zaman zərfi hərəkətin baş verməsini iki cür izah edir: 1) saat 10-da artıq Merinin buranı tərk etmiş olması və 2) Merinin buranı tərk etməsinin saat 10-da baş verməsi. Məhz ikinci hərəkət qrammatik qaydalara uyğun olaraq keçmiş sadə zamanla verilməli idi, lakin kontekstual

cəhətdən digər bir zaman zərfinin – *already "artıq"* - burada verilməsi hərəkətin məhz istinad nöqtəsindən əvvəl baş verdiyini göstərir.

Digər bir cümlədə artıq saat 10-da Merinin buranı tərk etməsi kontekstual cəhətdən öz təsdiqini tapır: *The clock struck twelve; Mary had already left here at 10 o'clock "Saat 12-ni vurdu; Meri buranı artıq saat 10-da tərk etmişdi".*

Hətta kontekstdə incə bir dəyişiklik belə istinad nöqtəsinin yerləşməsinə təsir edir. Məsələn, belə bir tabesiz cümlə tərəflərinə fikir verək: *The telephone rang, Mary had already left "Telefon zəng çaldı, Meri artıq getmişdi".* Burada telefonun zəng çalması zaman oxu üzərində istinad nöqtəsi kimi götürülür, çünki Merinin getməsi daha əvvəl baş vermişdir.

Digər bir nümunəyə nəzər salaq*: The telephone rang, Mary had already gone before John came "Telefon zəng çaldı, Con gəlməmişdən əvvəl Meri getmişdi".* Bu cümlədə Conun gəlməsi Merinin getməsinə nəzərən daha sonra baş verdiyi üçün istinad nöqtəsi hesab olunur. Eyni zamanda, xronoloji və kontekstual cəhətdən telefonun zəng çalmasının da Conun gəlməsindən əvvəl baş verdiyi hesab olunur. Lakin belə digər kontekstual nöqteyi nəzərdən Merinin Con gəlməmişdən, yoxsa telefon çalmamışdan əvvəl getməsi dəqiq istinad nöqtəsinin təyin olunması üçün çaşdırıcı məqamlardan biri hesab olunur. Cavab ondan ibarətdir ki, situasiyanın zamanda yerləşməsi onun indiki zamana nisbəti ilə deyil, onların qarşılıqlı və xronoloji şəkildə əlaqələndirilməsi ilə müəyyən olunur.

Nisbi zaman üzrə aparılan bütün araşdırmalar mütləq zamanla müqayisədə aparılır və müxtəlifsistemli dillərin materialları tədqiqata cəlb olunduğu üçün fərqli nəticələr ortaya çıxır. Bütün dillərdə aparılan tədqiqatlara əsaslansaq, bir nəticəyə gəlmək olar ki, mütləq və nisbi zamanlar arasında sərhəd heç də həmişə aydın görünmür, çünki zamanların uzlaşması qaydalarına uyğun olaraq nisbi zamanlar öz növbəsində faktların zaman ardıcıllığını göstərmək üçün də istifadə oluna bilər.

Ədəbiyyat

1. Ağamusa Axundov. Felin zamanları. Bakı: ADU-nun nəşriyyatı, 1961, 138 s.
2. İlham Tahirov. Azərbaycan və ingilis dillərində zaman kateqoriyası. Bakı: "Nurlan" nəşriyyatı, 2007, 324 s.
3. Fəxrəddin Veysəlli. Dilçilik ensiklopediyası. II. Bakı: Mütərcim, 2008, 524 s.
4. Bernard Comrie. Tense. Cambridge University Press, 2000, p.139
5. Mirzə İbrahimov. Gələcək gün. Bakı: 1948, 470 s.
6. Abraham P. The Path of Thunder. Moscow: Foreign Languages Publishing House, 1956, p. 262

С.Бармузи

Относительное время в Азербайджанском и английском языках

Резюме

Относительное время - это временная категория, которая помещает ситуацию относительно некоторой другой ситуации. В зависимости от времени выступления другая ситуация может быть априорной или апостериорной. Относительное время может быть проанализировано в придаточных предложениях с точки зрения разного времени главного и придаточного. С другой стороны, нефинитные формы в предложении могут использоваться в различных формах времени по отношению к основному глаголу предложения.

S.Barmuzi

Relative Tense in the Azerbaijan and English Languages

Summary

A relative tense is a temporal category that locates a situation relative to some other situation. According to the speech time the other situation can be prior or posterior. The relative tense can be

analysed in subordinate clauses from the point of view of different time of main clauses and subordinate. On the other hand non-finite forms in the sentence can be used in different tense form in relevance to the main verb of the sentence.

Rəyçi: prof. H.Zərbəliyev

Redaksiyaya daxil olub: 12.10.2021

X.A.BƏŞİROVA
e-mail: baschirova@bk.ru

Azərbaycan Dövlət Dəniz Akademiyası
(Bakı şəh., Z.Əliyeva küç., 18)

TƏYİN BUDAQ CÜMLƏLƏRİNİ BAŞ CÜMLƏYƏ BAĞLAYAN VASİTƏLƏR

Açar sözlər: *tabeli mürəkkəb cümlə, təyin budaq cümləsi, cümlə tipləri, nisbi zərflər, təyin budaq cümləli modellər*

Ключевые слова: *сложноподчиненное предложение, опеределительные придаточные предложения, типы предложений, относительные наречия, модели определительно придаточных предложений*

Key words: *the complex sentence, the attributive clause, types of sentence, the relative adverbs, the models of the attributire clauses*

Məlum olduğu kimi, tabeli mürəkkəb cümlələrin tiplərindən biri olan təyin budaq cümləsi yeganə budaq cümlə tipidir ki, onların komponentləri nisbi zərflərlə nisbi əvəzliklərlə bağlanır.

Təyin budaq cümləsi digər budaq cümlə tipləri kimi, müasir ingilis dillində ən çox işlənən budaq cümlə növlərindəndir. Təyin kimi, o da ismə və ya isim kimi işlənən digər nitq hissələrinə aid olub, onu təyin edir və ondan asılı vəziyyətdə qalır. Əgər təyin sadə cümlə daxilində bir üzvü təyin edirsə, təyin budaq cümləsi sadə cümlədən (daha doğrusu, baş cümlədən) kənarda bir budaq cümlə kimi baş cümlənin aid olduğu ismin müxtəlif üzvünə və ya onun bir hissəsinə də aid ola bilir.

Tabeli mürəkkəb cümlənin daha çox işlənən təyin budaq cümlə tipindən və xüsusilə onun nisbi zərflərlə işlənib-işlənməməsindən bəhs edən B.İlyiş məsələnin çətinliyinin "the reason why they would come was not settled" tipli cümlələrdə daha qabarıq nəzərə çarpdığını xüsusi vurğulayır. (2, s.285) Daha sonra B.İlyiş bu cür cümlələrin "əlavə budaq cümlələr" şəklindkə təsnif edən dilçilərlə həmrəy olduğunu qeyd edir.

Nisbi zərflərlə işlənən təyin budaq cümlələrin semantik-sintaktik xüsusiyyətlərindən bəhs edən Cefri Liç və Jan Svartvik maraqlı fikirlər irəli sürmüşlər. Başqa dilçilərdən fərqli olaraq, onlar nisbi zərfləri öz plana çəkməklə, normal təsdiq cümlələrdən fəqrli olaraq bir sıra modellər müəyyənləşdirmişlər. (9)

OSV; SVO; ASVO; SVOA; CSV; SVC.

Cefri Liçin və Jan Svartkinin fikrincə "SVO" modelində normal söz sırası saxlanılır. (9)

Yuxarıdakı modelləri təhlil etdikdə məlum olur ki, OSV modeli tamamlıq + nisbi zərf + mübtəda + xəbər deməkdir.

SVO modeli = mübtəda + xəbər + tamamlıq;

ASVO = təyin + mübtəda + xəbər + tamamlıq kimi anlaşılır. Burada nisbi zərf təyinlə mübtəda arasında işlənilir.

SVOA – nisbi zərfə rast gəlmirik.

CSV – modelində isə kompliment + mübtəda + xəbər sırası təşkil olunmaqla. Nisbi zərf komplimentlə mübtəda arasında özünü göstərir.

SVC – modelində isə biz nisbi zərflərə rast gəlmirik.

Cefri Liçin və Jan Svartvikin modellərinə istinad etməklə fikrimizi aşağıdakı cümlə nümunələri üzərində aydınlaşdıraq. (9) Ex:

1) He is not of your order: keep to your caste; and be to self-respecting to lavish the love of the whole heart, soul and **strenght, where** such a gift is not wanted and would be despised.

2) It was with some trepidation that I perceived the hour **approach when** I was to repair with my charge to the drawing-room.

3) Fortunately there was another entrence to yhe drawing-room than that throught the **saloon where** they were all seated at dinner.

4) And then they had called her **to a sofa, where** she now sat, ensconced between them, chattering alternately in French and broken English; absorbing not only the young ladies' attention, but that of Mrs. Eshton and Lady Jynn, and get-ting spoilt to her heart's content.

5) I inevitable recall **the moment when** I last saw it, just after I had rendered him, what he deamed, an essential service-and he, holding my hand, and looking down on my face, surveyed me with eyes that revealed a heart full and eager to overflow; in whose emotions I had a part.

6) It was one of my faults, that tought my tongue is some-times prompt enough at an answer, there are **times when** it sadly fails me in framing an excuse; and always the lapse occurs at some **crists; when** a facile word or plausible pre-tend is specially wanted to get me out of painful embarrassment.

Yuxarıdakı cümlələrin təhlili göstərir ki, Cefri Liçin və Jan Svartvbikin nisbi zərfli bütün modellərinin əyani şəkildə şahidi olmaq mümkündür. (9)

Qrammatik mənasına, işlənmə xüsusiyyətlərinə və nisbi zərflərlə bağlanma xassəsinə görə təyin budaq cümləli tabeli mürəkkəb cümlələr iki qrupa bölünür:

1) Mədudlaşdırıcı nisbi zərfli təyin budaq cümlələri.

2) Təsviredici nisbi zərfli təyin budaq cümlələri

Hər birinin ayrı-ayrılıqda izahına keçək.

Müasir ingilis dilində nisbi zərflərlə işlənən təyin budaq cümləli tabeli mürəkkəb cümlələrin işlənmə xüsusiyyətləri fərqlidir. Budaq cümlə komponentlərinin müəyyənləşdirici sözə münasibətinə və eyni zamanda komponentlərin bir-biri ilə əlaqəsinə görə dilçilər onları bir sıra yarım tiplərə bölürlər. Nisbi zərfli təyin Budaq cümlələrinin bölünməsi barədə də dilçilər arasında yekdil fikir mövcud deyildir.

B.S.Xaymoviç və B.İ.Roqovskaya "A course in English Grammar" adlı monoqrafiyalarında təyin budaq cümlələrinin iki tipini – nisbi və əlavəli tiplərini qeyd etmişlər. Daha sonra müəlliflər göstərirlər ki, nisbi təyin budaq cümləli tabeli mürəkkəb cümlələr özləri də nisbi zərflərlə işlənməklə yanaşı, iki yarımqrupda təşəkkül tapırlar: a) məhdudlaşdırıcı; b) təsviredici yarımqruplar. (4)

B.S.Xaymoviç və B.İ.Roqovskayanın fikrincə, təyin budaq cümləli tabeli mürəkkəb cümlələrin "əlavəli" tipi də mövcuddur. Bu tipli budaq cümlələrdə müəyyənləşdirici söz çox vaxt mücərrəd isimlərdən "idea", "thought", "feeling", "fact", "impression", "reason", "doubt", "question" və s. (4) Sonra rast gəlmək mümkündür. Fikrimizi aşağıdakı cümlə nümunələri üzərində izah edək: Ex:

1) I remember the reason why I had asked to see the clergyman.

2) I had never seen that handsome – featured face of his look more like chiselled marble than it did just now , as he put aside his snow – wethair from his forehead and lit the firelight shine free on his impression where it grieved me to discover the holow trace of care or sorrow now so plainly grayed.

3) He relapsed again , and on the contary, I became more cheerful and took fresh courage; these last words gave me insight feeling, where the diffuculty lay; and as it was no diffuculty with me, I felt quite relieved from my previous embarrassment.

Yuxarıdakı cümlələrin təhlili sübut edir ki, birinci cümlədə müəyyənləşdirici söz "the reason" mücərrəd ismi ilə, ikinci cümlədə "impression", üçüncü cümlədə isə "feeling" mücərrəd isimləri ilə ifadə olunmuşdur. Budaq cümlə komponentləri baş cümlə komponentlərinə birinci cümlədə "why" nisbi zərfi ilə bağlanmışdırsa, ikinci və üçüncü cümlələrdə "where" nisbi zərfi ilə bağlanmışdır.

Professor O.Musayev "İngilis dilinin qrammatikası" adlı dərsliyində "məhdudlaşdırıcı" və "təsviredici" təyin buydaq cümlələrindən geniş söhbət açır. O, qeyd edir ki, məhdudlaşdırıcı nisbi zərfli təyin budaq cümlələri təyin olunan sözü mənaca məhdudlaşdırır, dəqiqləşdirir və müəyyənləşdirir. Bu qəbildən olan budaq cümlələr əsasən "when" nisbi zərfləri ilə baş və budaq cümlə komponentlərini bir-birinə bağlayır. (8, 280) Fikrimizi aşağıdakı cümlə nümuələri üzərində şərh edək: Ex;

1) There were times when I even made fun of mum for getting sick because she overworked.

2) I loved you, and there were times when I felt it so bad I thought coming to see you.

3) There is a place right near my room , where two thousand men go down one hole to work every day.

4) Both of us thought of one thing , how we could keep it secret.

5) Johnny hated them , you have no idea how he hated the Fascists.

Yuxarıdakı dilçilərin irəli sürdükləri fikirlərdən fərqli olaraq, K.M.Kaçalova və İ.İ.İzraileviş təyin budaq cümlə komponentli tabeli mürəkkəb cümlələri araşdırarkən, bir sıra maraqlı faktlara toxunmuşlar. Onlar nisbi zərfli təyin budaq cümləli tabeli mürəkkəb cümlələrin üç tipi müəyyənləşdirmişlər:

1) Fərqləndirici;

2) Təsnifedici;

3) Təsviredici.

Onlar təsnif etdikləri ilk iki qrup "fərqləndirici" və "təsnifedici" qruplar, araşdırdığımız nisbi zərfli məhdudlaşdırıcı təyin budaq cümlələrin əhatə etdiyindən burada onlar haqqında daha geniş söhbət açacağıq.

K.K.Kaçalova və İ.B.İzraileviç "fərqləndirici" nisbi zərfli təyin budaq cümlələrinə o cümlələri daxil etmişlər ki, yalnız müəyyən şəxsə, yaxud əşyaya xidmət daha qabarıq şəkildə ifadə edilmiş olsun. Burada qeyd olunan şəxs və ya şəya eyni sinfə daxil olan əşya və şəxslərdən fərqləndirilir.

Fikrimizi aşağıdakı cümlə nümunələri üzərində şərh edək. EX:

1) The lodging where Fanny and her uncle lived wasn't known by anybody.

2) The facts why those men were so eager to know, had been visible, tangible, open to the senses.

3) The hour when I should most keenly had regretted the separation, would then have saddened my heart; this obscure chaos would have disturbed my peace.

4) The stage of life now when a man likes it, should be distressing.

5) The reason why they shouldn't stay longer was known only to the hostess of the house.

Yuxarıdakı cümlələrin təhlili subüt edir ki, uyğun olaraq "where", "why", "when", "when" və "why" nisbi zərfləri ilə işlənmiş təyin budaq cümlə komponentli tabeli mürəkkəb cümlələrin birincisində "the lodging", ikincisində "the facts", üçüncüsündə "the hour", dördüncüsündə "now", digər həmcins sözlərdən fərqləndirib, qabarıq şəkildə dinləyiciyə təqdim olunarsa, axrıncı, beşinci cümlə nümunəsində "the reason" mücərrəd ismi bu funkisyanı öz üzərində götürülür.

Qeyd etmək lazımdır ki, nisbi zərfli məhdudlaşdırıcı təyin budaq cümlələrinin baş cümləyə yalnız yanaşma üsulu ilə birləşən növü də mövcuddur. Bu tip budaq cümlə ingilis dilçiliyində "contact clauses" (kontakt budaq cümlələr) adlanır. Nisbi zərfliyi təyin budaq cümləsinin bu növü baş cümlə komponenti ilə daha sıx əlaqədə olur.

Ədəbiyyat

1. Greenbaum Sidney. Oxford English Grammar, New York, 1996, 652 p.
2. Ilyish B.A. The Sturucture of Modern English. M. –Л., 1965.
3. Jespersen O. Essentials of Engilish grammar. London, 1981.
4. Khaimovich B.S., Rogovskaya B.I. Theoretical English Grammar. M., 1967.
5. Kobrina N.A., Korneyeva E.A. English Grammar. Syntax. M., 1990.
6. Koshevaya I.Q. The theory of English Grammar. M., 1982.
7. Leech Geoffrey, Svartvik Jan. A communacitive grammar of English. M., 1983.
8. Musayev (Turksever) O.I., Hajiyev E.I., Huseynov A.R. A practical grammar of contemporary English. Baki, Qismat, 2009.
9. Quirk R., Greenbaum S., Leech G., Svartvik J. A university grammar of English. M., 1982.

Bədii ədəbiyyat:

1. Abrahams P. The Pat of thunder. M., 1963.
2. Dreiser Th. An American tragedy. M., 1973.
3. Galsworthy J. The man of property. M., 1956.

Х.А.Баширова

Способы соединения определительных придаточных к главному предложеню

Резюме

Атрибутовное придаточное (придаточное определения) определителъное придаточное служит определением к существителъному или местоимению в главном предложеннии. Это существительное или местоимение называется определямым словам (антицендент).

Огроничительные определителъные определителъные предаточные огроничивают или паясняют более ясно определяемое слово. Такие придаточные представлены относительным местоимениями: that, who, which отнесительными наречиями или бессоюзно. Они обычно не отделяюся от остальной части предложения занятой. В сложноподчиненном предложении с определительным придаточными относительное местоимение может быть агущено. Такие придаточные называются контактными придаточными. В таком случае обе части предложения более тесно связаны чем тогда, когда используются относительные местоимения. Перед ограничетельными контактными придаточными никогда нет паузы, интонация целого сложнодочными предложения также показывает единство и отличается от двух независимых предложений.

Kh.A.Bashirova

The connecting means that connect the attributive clause to the principal clause

Summary

An attributive clause serves as an attribute to some noun or prounoun in the principal clause, This noun or pronoun is called an antecedent.

Limiting attributive clauses limit and define more clearly the antecedent – such clauses are introduced by the relative or pronouns: that, who, which by relative adverbs or asyndetically. They are usually not separated from the rest of the sentence by comma. In a complex sentence with an attributive clause the relative pronoun may be omitted. Such clauses are called contact-clauses. In such case the two parts of the sentence are more closely joined together than when the relative pronouns are used. Before limiting contact-clauses there is never pause, the intonation of the whole complex too shows unity and is different from that of two independent sentences.

Rəyçi: filol.f.d., dos. F.M.Allahverdiyeva

Redaksiyaya daxil olub: 08.12.2021

A.BÜNYADOVA
e-mail: aynour13@mail.ru

DOI:10.48652/m6360-5922-7575-e

Lənkəran Dövlət Universiteti
(Lənkəran şəh., general Həzi Aslanov xiyabanı, 50)

"SU" KOMPONENTLİ SUBSTANTİV FRAZEOLOJİ VAHİDLƏRİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ
(Azərbaycan və ingilis dilləri əsasında)

Açar sözlər: *frazeoloji birləşmə, substantiv, semantik təhlil, idiom, komponent.*
Ключевые слова: *фразеологическое сочетание, субстантивный, семантический анализ, идиома, компонент.*
Key words: *phraseological unit, substantive, semantic analysis, idiom, component.*

Təbiətin ayrılmaz dörd ünsüründən biri olan su rəmzləşə bildirdiyinə görə onun iştirakı ilə yaranan frazeologizmlər semantikasına əsasən rəngarəngdir. Su aşağıdakı rəmzi mənaları daşıyır: 1) su həyat mənbəyidir; 2) təbiətə xas olan su dağıdıcı qüvvəyə malikdir; 3) su təmizlik və saflıq simvoludur; 4) su zaman simvoludur; 5) su simvolik mənada gərəksiz, vacib olmayan bir şeydir; 6) su problem, çətinlik, qeyri-əlverişli şəraiti səciyyələndirir; 7) su əmək, ağır fiziki iş rəmzidir; 8) su əlverişli mühitdir; 9) su mövcudluq üçün vacib substansiyadır; 10) su insanı susmağa məcbur edən substansiyadır; 11) su soyutmaq, təmizləmək xüsusiyyətinə malik mayedir; 12) su formasızdır, onun hissələri də özü kimi eyni şəkildədir; 13) su təsərrüfat və məişətdə istifadə olunan vacib maddədir; 14) su insan orqanizminin bir hissəsidir; 15) su kəmiyyət ideyasının təcəssümüdür; 16) su xəstəlik gətirən substansiyadır; 17) su boğulmaq mənbəyidir; 18) su dini mərasimlərin vacib atributudur; 19) su təbiət hadisəsidir; 20) su müxtəlif keyfiyyətlərə malikdir; 21) su təbii su mənbəyidir. Tərkibində "su" komponenti olan substantiv frazeologizmlərin semantikası onun yuxarıda sadalanan rəmzi və qeyri-rəmzi mənalarına əsaslanır. Təbii ki, suyun daşıdığı məna sahəsini daha da genişləndirmək mümkündür. Fikrimizcə, "su" komponentli istər substantiv, istərsə də feili frazeoloji vahidlərin semantik təhlili üçün qeyd olunan tematik bölgü yetərlidir.

İngilis və Azərbaycan dillərinin "su" komponentli substantiv frazeoloji vahidlərində suyun müxtəlif rəmzi və qeyri-rəmzi mənaları inikasını tapır.

Su həyat mənbəyi, həyati güc və qüvvə simvolu kimi ayrı-ayrı substantiv frazeologizmlərin semantikasının formalaşmasında fəal rol oynayır.

Dirilik suyu. Bu frazeoloji vahid Azərbaycan dilində insana əbədi həyat verən, onu ölümdən qurtaran vasitə mənasında işlənir. Azərbaycan dilində "həyat suyu", "ölümsüzlük suyu" və alınma "abi-həyat" sinonimləri də işlənir. Türklərdə "həyat suyu" variantında istifadə edilir. Fars dilində "abi-həyat" formasındadır.

Ərəb, fars və türk ədəbi əsərlərində *aynul-həyat – həyat qaynağı, pehçul-həyat – həyat nehri, tail-həyat – həyat suyu, abi-beka – sonsuzluq suyu, abi-cavidani – sonsuzluq suyu, abi-savidanekm – sonsuzluq suyu, abi-İsgəndər – İsgəndər suyu, abi-cevani – gənclik suyu, çeşmeyi hemişe cəvani – sonsuzluq, əbədilik verən çeşmə, dirilik suyu* formalarında istifadə edilmişdir. (4. s. 34). Qeyd olunan variantlar Azərbaycan klassik ədəbiyyatında işləkdir. Müasir dildə mənşəcə milli olan "dirilik suyu" frazeologizm kimi sabitləşmişdir. Dirilik suyu və ya "abi-həyat" haqqında müxtəlif əfsanə və rəvayətlər də vardır.

"Dirilik suyu" – həyat, mənbəyi, insana enerji, gümrahlıq və güc verən faydalı şeylər haqqında işlədilən ifadədir (2, s. 109). Dini rəvayətlərdə zülmətdə, daha doğrusu, yeraltı dün-

yadakı bulağın suyudur. Xızır peyğəmbər bu suyu tapmış, o və onun atı bu sudan içmiş, bu suda yaxalanmışlar. Bununla onlar əbədi ömür qazanmışlar.

Q.Məhərrəmov və R.İsmayılov "Dirilik suyu" anlayışının yaranması və yayılmasının Şumer əsatirləri ilə bağlılığını qeyd etmişlər. (2, s. 109).

"Dirilik suyu" frazeologizmi "həyat bəxş edən su", "həyata qaytaran su", "dirildən su" mənalarında Azərbaycan nağıl və dastanlarında işlənmişdir. "Mən gedim dirilik suyu gətirim, ona can verim" ("Vəfalı at" nağılı) (3, s. 100).

İngilis dilində frazeologizm iki mənada – "dirilik suyu" frazeoloji vahidinin işləndiyi mənada, eləcə də zarafat məqamında "spirtli içki", "alkoqollu içki" mənasında *"*water of life*"* şəklində istifadə edilir.

Beləliklə, Azərbaycan dilində substantiv "dirilik suyu" frazeologizmi və onun sinonimi olan "abi-həyat", "həyat suyu", "sonsuzluq/əbədiyyət suyu" frazeoloji vahidləri qeydə alınır. Dilin frazeoloji sisteminə bütün frazeologizmlər daxil edilir. Terminologiyada variantlılıq zamanı qeyri-standart terminlər dövriyyədən çıxarılırsa, frazeologiyada eyni mənaya malik variantların saxlanması məqsədəuyğundur. Bu cəhət dilin frazeoloji mənzərəsinin tamlaşdırılması və mümkün frazeoloji vahidlərin toplanması işinə kömək edir. "Dirilik suyu" və sinonimləri kimi sadaladığımız "su" sözü tərkibli frazeoloji vahidlər substantiv frazeologizmlərdir.

İngilis dilində *"*the living waters*"* frazeologizmi hərfi tərcümədə "canlı su" qarşılığını verir, frazeologizm kimi, Azərbaycan dilinin "dirilik suyu" vahidinə ekvivalentdir. Rus dilində «живая вода» və onun antonimi olan «мёртвая вода» frazeoloji vahidləri işlənir. Azərbaycan dilində "canlı su", "ölü su" sabit birləşmələri yoxdur. Rus dilindəki antonim cütün ikinci vahidi birinci frazeologizmdə (живая вода*)* olan su kimi qəbul edilir. Onun özünün həyat gücünü verib ölü suya çevrilməsi nəzərdə tutulur. «Живая вода» – "həyat eliksiri", – insana həyat verən mənbə və buna qarşılıq olan «мёртвая вода» insan həyatına son qoyan bir maye kimi səciyyələndirilir. (5, s. 7).

Azərbaycan dilində "qara su" içməli olmayan, çirkli su anlamında istifadə olunursa, "ağ su" onun antonimi olur. Azərbaycan danışıq dilində "ağ su" spirtli içki, daha dəqiq desək, "araq" mənasında sabitləşmişdir. "Qara su" təbabət termini kimi də istifadə olunur və gözdə su dövranı prosesinin kəsilməsi, suyun gözün içindən keçib getdiyi yolun bağlanması qapanması halıdır. Bu zaman gözdən su axır və bu su göz yaşı deyil, qara su adlandırılır.

"Qürbətdə deyərdin, Zülali, Vətənim yox,
Ensin gözünə qarə su, Ağsu Vətən oldu". (Zülali)

Azərbaycanda buraxılan frazeoloji lüğətlərdən birində "cod su" frazeoloji vahid kimi təqdim edilmişdir. Fikrimizcə, bu birləşmə frazeoloji vahid deyil, suyun növünü bildirən termindir. "Ağır su", "yüngül su" söz birləşmələri də frazeoloji vahidlər sırasına daxil edilməməlidir.

Deep waters – "böyük narahatlıq, kədər və ağır, çətin, təhlükəli vəziyyət" anlamlarında işlənən bu frazeoloji vahiddə motivləşmə suyun dərinliyi əsasında getmişdir. Dərin suda olmaq boğulmaq təhlükəsi yaradır. Frazeoloji vahidin semantikası dərin suda çətinlik, təhlükə ilə üzləşmək əsasında yaranmışdır. "Water" komponentli substantiv frazeoloji vahid sayılır. A.V.Kuninin lüğətində "deep waters" kimi təqdim olunur.

This was for him a moment in deep waters, when the heart must be hardened to this dangerous decision or to that (J.Galsworthy, Swan Song, part 1, ch. XI) (6, s. 799). – Bu, Soms üçün olduqca kritik an idi, iki təhlükəli qərardan biri üzərində dayanmaq lazım gələcəkdi.

Su təhlükə mənbəyi kimi də diqqəti cəlb edir və bu semantika bir çox frazeoloji vahidlərdə ifadəsini tapır. Azərbaycan tapmacalarında istifadə olunan "odda yanmaz, suda batmaz" ifadəsi frazeoloji vahid kimi də istifadə olunur. Birləşmə "su" komponentli substantiv frazeoloji birləşmələr qrupuna daxil deyildir.

İngilis dilində "water" komponentli substantiv frazeoloji birləşmələrdən biri "between wind and water" formasındadır. Hərfi tərcümə "su ilə külək arası" deməkdir. IAL-da bu frazeoloji vahid "ən zəif yer" mənasında tərcümə edilmişdir (1, s. 1034). Frazeoloji vahid bu mə-

nada və "təhlükəli yerdə" olmaq mənasında işlənir. Pis vəziyyətdə olmaq mənasına da malikdir. İngilis dilinin "su" komponentli substantiv frazeoloji vahidləri arasında "yaxşı vəziyyətdə olmaq" semantikalı birləşmə də vardır. Lüğətdə "above water" şəklində verilən bu frazeologizm, əslində "keep one's head above water" idiomunun sonluq hissəsidir.

This wife had extravagant tastes and they never seemed to be able to get above water (6, s. 798). – Onun arvadı ekstravaqant adamdır, ona görə işlərini heç vaxt qaydaya sala bilmirlər.

Frazeoloji vahid hərfi tərcümədə "sudan yuxarıda" ifadəsinə uyğun gəlir. İdiomun bir hissəsi kimi götürüldüyünə görə semantika aydın deyildir. İdiom "kiminsə başını sudan yuxarıda saxlamaq" anlamındadır. Bu isə boğulmağa, batmağa qoymamaq kimi başa düşülməlidir.

"Back water", - cried Natty, as the canoe collided over the place, where the spear had fallen (6, s. 798). – Netti qışqırdı: – Dayanın. Bu nizənin düşdüyü yerə tərəf kanoe üzəndə baş verdi. *Palmer says he listened but didn't say much and when the others treed to draw him out he backed water* (F.Knebel and Ch.Bailay. *Seven days in May*) – Palmer deyir ki, o daha çox susub qulaq asırdı. Onu fikrini söyləməyə məcbur etdikdə isə o, cavabdan yayınmağa çalışırdı (6, s. 798).

Substantiv frazeoloji vahidin "geri çəkilmək, çəkinmək" mənası Amerika variantına uyğun gəlir.

"Bir stəkan suda fırtına" substantiv frazeologizmi boş bir işə görə qızğın mübahisə etmək semantikasına malikdir. "Stəkanda fırtına – hədər yerə çox kiçik və əhəmiyyətsiz olan bir iş, fakt, hadisə və əşya ilə əlaqədar böyük həyəcan yaratmağa münasibətdə işlənən ifadə" (2, s. 292). Q.Məhərrəmli və R.İsmayılovun bu deyimlə bağlı məlumatda ifadənin fransız diplomatı və yazıçısı Lui Dütapsa aid olması göstərilmişdir. Müəlliflər "stəkanda fırtına" variantını işlətmişlər. Rus dilində frazeologizm «буря в стакане воды» şəklindədir. Daha qədim dövrlərə aid edilən bu vahid ingilis dilində də eyni semantikada işlənir.

"Bir stəkan suda fırtına" substantiv frazeologizmi boş bir məsələyə görə hay-küy semantikası ilə su simvolikası korellyasiyasına malikdir. Su təhlükəli təbiət qüvvəsidir. Böyük dəniz və okeanlarda fırtınalar olur. Dənizdə fırtına stəkanda fırtına ilə qarşılaşdırılır. Burada dəniz və dəniz fırtınası stəkandakı sakit, təhlükəsiz su ilə qarşılaşdırılır. Beləliklə, frazeologizmdəki obraz bir tərəfdən təbii fəlakət haqqındakı biliklərlə, digər tərəfdən stəkandakı sakit, hərəkətsiz su obrazı ilə eyniləşdirilir. Suyun bu şəkildə konnotasiyası, "bir qaşıq suda batırmaq", "bir qaşıq suda boğmaq" feili frazeologizmdəki semantika ilə oxşarlıq yaradır.

"Su" komponentli substantiv frazeoloji vahidlərin semantik təhlili zamanı aşağıdakı yarımqrupları ayırmaq olar: a) əşyaların halı, vəziyyəti (*low-water mark/low water* – ən aşağı səviyyə, durğunluq); b) təbiət obyekti hadisəsi (*blue water* – açıq dəniz c) yemək və içmək (*water of life* – canlandırıcı içki (spirtli içkilər haqqında), *fire waters* – viski, sərt içki, köpüklü su şampanı, *water bewitched* – açıq çay, *bread and water* – həyatın davam etdirilə biləcəyi minimum pəhriz); ç) məkan (*blue water* – okean); d) real və fantastik obyektləri ifadə edən frazeoloji vahidlər (*moonshine in the water* – nəsə şəffaf və qeyri-real obyekt (Kunin), *waters if forgetfulness* – unudulma).

"Water" komponentli substantiv frazeoloji vahidlər şəxsin keyfiyyətlərini də ifadə edir. Bu qrupa daxil olanlar 3 yarımqrupa bölünür: 1) şəxsin fiziki xüsusiyyətlərini ifadə edənlər, məsələn, *a long drink of water* – çox hündür adam; 2) şəxsin daxili keyfiyyətlərini ifadə edənlər, məsələn, *a diamond of the first water* – ən yüksək keyfiyyətdə, *oil and water* – uyğun olmayan insanlar; 3) insanın hal və vəziyyətini ifadə edən frazeologizmlər, məsələn, *deep waters* – bəla, *a fish out of water* – adi və ya uyğun mühitdən kənarda narahat vəziyyətdə olan bir şəxs.

"Water" komponentli bəzi substantiv frazeologizmlərdə obrazlılıq güclü olur. Məsələn, *fire water* – viski, sərt içki. Bu frazeoloji vahid Amerika hindularının dilindən kalka edilmişdir. Aşağıda verilmiş nümunə predmetik və keyfiyyətcə dərk olunaraq substantiv frazeolo-

gizmlə təkrar nominasiya edilməsini təsdiq edir: *I'd come to the party to try and forget, but the fire water I was consuming only tended to make me morbid* (11, s. 106).

Xarici əlamətlərə görə dərketmə *bubbly water* – köpüklü şərab üçün xarakterikdir. *Too much bubbly water… was responsible for the breach of the rules*.

Tam mənalandırılmış *fish out of water* frazeologizmi özü üçün səciyyəvi olan mühitdən ayrılmış şəxs mənasında işlənir. Bu, sudan çıxarılmış balığın vəziyyəti ilə oxşarlıqla müqayisə ilə motivləşmiş frazeologizmdir. Balıq susuz vəziyyətə düşən kimi, insan da onun üçün vacib olan haldan kənarda qalır. *He is a fish out of water here. He wants to be happy till he's at work again* (10, p. 236).

Qeyd olunan frazeoloji vahiddə əsas semə şəxs, differensiallaşdırıcı semə isə *uncomfortable* uyğun gəlir.

Hell and (or) high water – təbii fəlakətlərin hər gün baş verdiyi sərhəddə yaşayanlar arasında istifadə olunan deyim olaraq ortaya çıxan frazeologizmdə də mənalandırma motivləşmə ilə əlaqədardır.

A long drink of water – çox hündür adam. Bu frazeologizmdəki obrazın yaranmasını *the big drink* substantiv frazeoloji vahidlə bağlamaq olar. Təkrar nominasiya nəticəsində yeni *a long drink of water* vahidi əmələ gəlmişdir. Onda prototipin kəmiyyət əlaməti şəxsin üzərinə köçürülmüşdür:

"What a long drink of water you've turned into", Terence said slowly (8, s. 197).

İngilis dilində tərkibində "su" komponenti olan elə substantiv frazeoloji vahidlər vardır ki, onlar mürəkkəb semantikaya malikdir. Belə frazeologizmlərdə semantikanın ifrat mürəkkəbliyini izah etmək üçün əlavə dəqiqləşdirici mənadan bəhs etmək lazım gəlir. Belə frazeologizmləri A.V.Kunin frazeomatizmlər adlandırmışdır. (6, s. 942).

Blue water (açıq dəniz) ilkin söz birləşməsinin mənasının sıxılması müşahidə olunur. Əlavə dəqiqləşdirici məna prototipinin öz mənası ilə müqayisədə daha yığcam təsir bağışlayır.

Then, at a turn of the road, he found himself on the see front... He could not breathe, the need for a freer air drove him out on that long finger of stone reaching far into the blue water (9, s. 243).

İdiofrazeomatik substantiv frazeologizmlərin tərkibində də "su" komponentinə rast gəlinir.

The low-water mark/low water – the lowest level, stagnation – 1. aşağı səviyyəli su, çəkilmə; 2. ən aşağı səviyyə, durğunluq.

Qeyd olunan frazeologizmlərin semantikasını aydınlaşdırdıqda ümumi semləri görmək olur. Bu semlər izahlarda da müşahidə olunur: *the lowest level/the supreme level*.

His eyes lightened on the pink note with the blue forget-me-not. It marked as it were the high water mark of what was left him of life; and this other letter in his hand – by love! – low water mark (7).

Verilmiş nümunədən də aydın olur ki, bu iki frazeologizm antonim cüt əmələ gətirir.

Beləliklə, tərkibində "su" komponenti olan substantiv frazeologizmlərin semantikasında müxtəliflik, rəngarənglik, motivləşmə, əsaslandırma "su" lekseminin məna xüsusiyyətlərinin çoxaspektliyindən qaynaqlanması aşkara çıxır. Bu cəhət hər iki dilin frazeoloji vahidlərinin semantik təhlili prosesində ortaya çıxır. Bir sıra semantik xüsusiyyətlər ayrı-ayrı təbiət qüvvələrinin bir-biri ilə qarşılıqlı əlaqəsinin təzahürü kimi aşkara çıxır.

Aparılmış təhlil substantiv və feili frazeoloji vahidlər arasında semantik əlaqələrin mövcudluğunu təsdiq edir.

Ədəbiyyat

1. İngiliscə-Azərbaycanca lüğət. Bakı, "KM" mətbəəsi, 2012, 1360 s.
2. Məhərrəmli Q., İsmayılov R. Azərbaycan dilinin frazeoloji lüğəti. Bakı, Altun kitab, 2019, 288 s.

3. Seyidəliyev N.F. Frazeoloji lüğət (Azərbaycan nağıl və dastanlarının dili əsasında). Bakı, Çıraq, 2004. 272 s.

4. Yıldırım Nimet. Fars mifolojisi sözlüğü. İstanbul, Kabalcı, 2008, 815 s.

5. Балонкина О.В. Лингвокультурная значимость имени первостихии вода в составе русских и английских фразеологизмов// Вестник Томского государственного университета. 2017. № 423. с. 5-14.

6. А.В. Кунин. М., Англо-русский фразеологический словарь: около 20 000 фразеологических единиц /1984. 942 с.

7. Galsworthy J. A.Stoic// https://getinkspired.com/en/story/40066/a-stoic-by-john-galsworthy/

8. Gronin A. A song of sixpence // https://www.gutenberg.org/files/18344/18344-h/18344-h.htm#SING_A_SONG_OF_SIXPENCE

9. Gronin A. Thing of Beauty//https://www.goodreads.com/book/show/1530245. A_Thing _of_Beauty

10. Maugham W.S. The Razor's Edge// https://gutenberg.ca/ebooks/maughamws-razorsedge/maughamws-razorsedge-00-h.html

11. Walter Standish, Caddie, a Sydney barmaid: an autobiography / written by herself; with an introduction on by Dymphna Cusack. Sydney, 1953, 184 p.

А.Буниядова

Семантические особенности субстантивных фразеологизмов с компонентом «вода»

Резюме

В статье описывается разнообразие субстантивных фразеологизмов с компонентом "вода", которое основано на символических и несимволических значениях воды. Семантический анализ фразеологизмов с компонентом "вода" дает основание для разделения их на подгруппы. Семантический анализ фразеологизмов обоих языков показывает, что такие семантические признаки, как разнообразие, мотивация, обоснованность указывают на многогранный характер семантических признаков лексемы "вода".

A.Bunyadova

Semantic features of substantive phraseological units with "water" component

Summary

The article tells about the diversity of substantive phraseological units with "water" component based on the symbolic and non-symbolic meanings of water. The semantic analysis of substantive phraseological units with the "water" component provides a basis for dividing them into subgroups. The semantic analysis of the phraseological units of both languages shows that semantic features such as diversity, variety, motivation, justification indicate the multifaceted nature of the semantic features of the lexeme "water".

Rəyçi: prof. İ.Tahirov

Redaksiyaya daxil olub: 22.09.2021

F.F.ƏLƏKBƏROVA
e-mail: fidanalakbar@gmail.com

Bakı Avrasiya Universiteti
(Bakı şəh., Ak. Həsən Əliyev küç., 135 A)

DİL VƏ MUSİQİ İŞARƏ NƏZƏRİYYƏSİ İŞIĞINDA

Açar sözlər: *işarə, struktur,referent, dil, semiozis, musiqi dili, kommunikasiya*
Ключевые слова: *знак, структура, референт, язык, семиозис, музыкальная речь, коммуникация*
Key words: *sign, structure, referent, language, semiosis, musical speech, communication*

Musiqi dilinin fəlsəfi aspektdən, daha dəqiqi, işarəvilik baxımından tədqiqinin bir çox problemləri hələ də öz həllini tapmamışdır və dilçilər arasında haqlı fikir ayrılığına səbəb olur. Bu isə, ilk növbədə, musiqidə mənadüzəltmə prosesləri və musiqi dilində işarənin təyin edilməsi ilə bağlıdır. Bunu nəzərə alaraq məqalədə işarənin linqvistik və musiqi müstəvisində tədqiqinə cəhd edilir və problemin tədqiqinə aid linqvosemiotik mənbələr tədqiq edilir.

Təbii ki, işarəyə tərif vemək üçün mövcud semiotik konsepsiyalara müraciət etmək və onun musiqi dilinə tətbiq etmək zəruridir. Bəri başdan qeyd edək ki, Ç.Pirs (1), F. de Sössür (2), P.Bartın (3) tədqiqatları əsasında işarə ilə bağlı fikirləri belə ümumiləşdirmək olar: işarə kommunikasiya aktında, ifadədə və dərketmədə bir predmetin digərini hər hansı bir əlamətə görə əvəzetməsidir. İşarə ixtiyarı münasibətdə olan işarələnən və işarələyənin vəhdətidir, lakin onların istifadəsi eyni dil sistemindən istifadə edən sosiumda qəbul edilmiş qaydalarla məhdudlaşdırılır. İşarə sabitliyə və universiallığa iddialıdır. Musiqinin semiotik təbiəti Ç.Pirsin işarələrin indekslər, ikonlar, simvollar baxımından təsnifinə əsaslana bilər. Musiqinin xüsusi dil, sözlü dilə yaxın, lakin ciddi şəkildə ondan fərqlənən dil kimi şərhi yalnız semiotikanın inkişafı ilə həll oluna bilərdi. Ç.Pirs işarəni belə təyin edir: "işarə nəyisə kimi üçünsə bəzi xüsusiyyətləri və ya qabiliyyəti üzrə əvəz edən nəsnədir" (4, s. 43).

Musiqinin təbii dillə ilə sıx əlaqəsini vurğulayan B.V.Asafiyev yazırdı ki, "musiqinin sematikliyi həm affektlərin (hisslərin), həm də fikirlərin ifadəsindən ibarətdir. Onlarda, bu düyünlərdə anlamlar cəmləşir, onlar intellektin, şüurun sahəsidir" (5, s. 355). Ç.S.Pirsin işarələr üçlüyünə əsaslanan V.V.Meduşevski isə "musiqidə işarələrin ikonik, indeksal və konvensional növləri vardır" ideyasından çıxış edir (6, s. 155). L.A.Mazel isə musiqi dilinin işarələr triadasına əsaslanmasının qəbul etmir. Onun fikrincə, "musiqi müxtəlif tip işarələrin xüsusiyyətlərini birləşdirən mürəkkəb işarələrdən istifadə edir. Musiqi dili hər üç işarənin əlamətlərini eyni zamanda özündə birləşdirir" (7, s. 42). Müəllifə görə, belə bağlara "ayrıca musiqi işarəsinin musiqi-tarixi prosesin gedişində təşəkkül tapmış müəyyən təsəvvürlər və assosiasiyalar yaratmaq qabiliyəti aiddir. Bu imkanların reallaşması həmin vasitələrin istifadə olunduğu kontekstdən asılıdır" (8, s. 22). Bütün musiqi vasitələri arasından L.A.Mazel resipiyentin qavramasını yüngülləşdirən kommunikativ vasitələri və üsulları fərqləndirir. Bu vasitələr, müəllifə görə, "məntiqi və tam musiqi formasını yaratmaq üçün zəruri olanlara münasibətdə əlavə kimi çıxış edirlər" (8, s. 22). Analoji fikri V.N.Xolopova da təsdiq edir. Müəllifə görə, "adi dildə olduğu kimi, musiqidə özünün semantik vahidləri (onlar lüğəti təşkil edirlər) və onların kombinasiya qanunları (bu musiqi dilinin "sintaksisidir"); ayrıca musiqi əsəri (semiotik anlamda "mətn") musiqi dilinin imkanlarının konkret reallaşmasıdır" (9, s. 77).

M.Q.Aranovskinin fikrincə, "musiqi dil xüsusiyyətlərinə malik olsa da, işarəvi təbiətə malik deyildir, yəni işarələrsiz dildir" (10, s. 92). Onun konsepsiyasına görə, musiqi dili intonasiya-işarələrə malik deyildir, çünki "qeyri-işarəvi semiotik sistemdir" (10, s. 104), onun maddi substratı səs cərgələri pillələrindən (musiqili fonemlərdən) və gələcək sözlərin detallarından - intervallardan, akkordlardan ibarətdir. Müəllif musiqidə diskret işarələrin olmadığı

və buna görə də musiqidə sözlü dildə sözə oxşar musiqi vahidlərinin ayırd edilə bilməsinin mümkünsüzlüyündən bəhs edir. Müəllifə görə, musiqi mətninin mənalı vahidləri "öz mənasını yalnız kontekst şərtlərində ala bilərlər" (10, s. 113).

Musiqi öz əsasına görə qeyri-linqvistik semiotik sistemdir. E.Benvenist yazırdı ki, dilin semiotik sistemi musiqini təsvir etmək üçün yararlı ola bilməz, çünki "bu iki sistem qarşılıqlı geri dönməz deyillər – onların akustik təbiətinə baxmayaraq eyni bir şeyi həm musiqi, həm də dil ilə demək olmaz" (11, s. 89). E.Benvenist isə musiqinin işarəsiz vahidlər sistemində yer aldığını iddia edir. Onun fikrincə, işarə və vahid anlayışlarının qarşılaşdırlıması vacib məqamdır, onunla müqayisədə işarə vahidi təmsil edir, lakin bu zaman vahid işarə olmaya da bilər. Təbii dil müəyyən işarələni olan işarələr olan vahidlərdən təşkildirsə, musiqinin vahidləri notlar və ya səslər yalnız qamma daxilində fərqləndirici dəyərə malikdir. Əgər musiqiyə dil kimi baxsaq, onda o, elə dildir ki, onun "sintaksisi vardır, amma semiotikası yoxdur" (11, s. 89).

A.A.Farbşteynin fikrincə, "musiqini dillə eyniləşdirmək olmaz, yalnız işarələr sisteminə uyğunlaşdırmaq olar" (12, s. 75). Müəllif musiqidə işarə dedikdə, "səs-fikrin inkişafı prosesində iştirak edən və yenidən strukturlaşmaya yol verməyən ifadəli vasitələrin məntiqi cəhətdən bir-biri ilə əlaqəli münasibətlərini" nəzərdə tutur (12, s. 76). Onun fikrincə, "ayrıca götürülmüş işarəyə deyil, incəsənət əsərinə semantik obyekt kimi baxmaq olar" (12, s. 86).

Əsər bütövlükdə müstəqil işarədir fikrinə əsaslanan M.Ş.Bonfeldə görə, "işarələyən və işarələnin vəhdətini işarələyən əsər yalnız işarədir. ... yanlışlıqlardan biri işarə olan bütöv əsər və onun işarə ola bilməyən istənilən elementi (fraqmenti) arasında yaranan fundamental fərqin aradan qaldırılmasıdır" (13, s. 32). Bu isə o deməkdir ki, musiqi əsərinin səslənməsi dinləyicinin şüurunda həmin əsərə məxsus, səslənmənin özündən fərqlənən, lakin onunla spesifik sarsılmaz vəhdətdə olan və musiqinin müəyyən məzmun-anlam kimi qavranılmasını təmin edən anlayışlar, təsəvvürlər, emosiyalar, ruhi varlıqlar kompleksi ilə əlaqələnir.

M.Q.Aranovski (10) və M.Ş.Bonfeld (13) musiqi vahidlərinin sözlü dildə sözə xas sabit məna nüvəsi kəsb etməsinin mümkün olmadığı mövqeyi bölüşürlər. Lakin M.Ş.Bonfeld işarə anlayışını musiqidə xüsusi anlam verirdi, yəni, onun qənaətinə görə, "istənilən ayrıca müstəqil musiqi əsəri tam vahid işarələri və eyni zamanda istənilən musiqi əsəri nitqdir" (13, s. 31). Müəllifə görə, "nadir maddi formanın və eynən o qədər nadir məzmunun qarşılıqlı təsiri bütöv əsər kimi qəbul edilirsə, onda həmin əsər semiotik nöqteyi-nəzərdən işarələyən/işarələnin vəhdətində təcəssüm tapmış işarədir" (13, s. 75). Musiqinin ayrı-ayrı ifadəlilik elementləri təbii sözlü dilin işarə-sözlərinə bərabər tutula bilməz. Musiqi işarəsini "işarələyən / işarələnin vəhdəti" və bu vəhdətin "bütöv musiqi əsəri səviyyəsində" reallaşdığını, daha sonra "musiqi əsərinin kontekstdən çıxarılmış fraqmentləri işarə kimi götürülə bilməz" (14, s.18) ideyasından çıxış edən M.Ş.Bonfeldə görə, "musiqidə sözlü leksikaya xas oxşarlığın musiqidə olmadığını" (14, s.25) etiraf etmək lazımdır.

Əlavə edək ki, M.Ş.Bonfeld musiqiyə F. de Sössürün dil və danışıq dixotomiyasını tətbiq etməyə cəhd edir, lakin eyni zamanda musiqinin sözlü dilin sxeminə tam yerləşdirməyin mümkün olmadığını da təsdiq edir. Dil və danışığın fərqləndirilməsi şərti xarakterlidir və onlar biri digər olmadan mövcud ola bilməz. Halbuki M.Ş.Bonfeld musiqinin yalnız ifa kimi mövcudluğunu təsdiq edir, yəni o, sadəcə dil tərkibini danışıqdan ayırır ki, bu da mütləq qaydada qəbuledilməzdir (13).

Dildən fərqli olaraq, musiqi eynizamanlılıq və ardıcıllıq oxları əsasında inkişaf edir. Bu aspektdə dil işarələrinin sintaqmatikası və paradiqmatikasına münasibətdə müəyyən paralellik müşahidə olunur. Lakin musiqinin kombinatorikası dilə ekvivalentlik təşkil etmir. Musiqi mətninin sintaqmatikasında notların reallaşmasında eynizamanlılıq anı olduğu halda, təbii dildə iki səs eynizamanda reallaşa bilmirlər. Musiqi dili müxtəlif şəkildə birləşmiş səslərin kombinasiyası və ardıcıllığından ibarətdir, elementar vahid – səs işarə deyildir və hər bir səs yüksəklik şkalasındakı öz yeri ilə təyin olunur və onlardan heç biri işarə kimi çıxış etmir. Bu vahidlər işarə deyillər və müəyyən şkala üzrə təyin edilmiş diapazonun daxilində pillələrdən

birini təmsil edirlər. Təbii dil işarələyən və işarələnlərin vəhdətindən təşkil olunmuş işarələr sistemi olduğu halda, musiqi qeyri-işarələr sistemidir.

Təbii dildə işarə məlumat prosesində öz referentinə işarə edir, işarələnən, necə deyərlər, işarələyəndən kənarda yerləşir. Musiqidə isə forma və məzmunun vəhdəti nəticəsində emosional durum danışıq aktında və ya ifada birbaşa ifadə olunur. Səslərin münasibətinin strukturunun özü artıq məzmunu subyektin keçirdiyi emosiyaların məcmusu olan musiqi fikrinin təcəssümü kimi xidmət edir. Təbii dildən fərqli olaraq, xarici aləmdə musiqinin referenti yoxdur. Musiqi semiotik yanaşmada "işarə işarələyən və işarələnin vəhdətidir" müddəasına sığışmır. Onda işarələnən yoxdur, deməli, dəqiq işarə törəmələrini ayırmaq mümkün deyildir. Bu, öz növbəsində, həm sözlü dilin həmin fəaliyyət növü üçün sxem kimi xidmət edə bilməsini, həm də insan təfəkkürünün istisnasız işarəvi formaya malik olmasını rədd edir. Əgər işarələri ayırd etəmk mümkün deyilsə, onda onları sözlü dilə calamaq mümkün deyildir, və, deməli, "musiqi təfəkkürü" adlandırılan da işarəvi təbiətə malik deyildir.

Musiqi dili unikal və mürəkkəb semantik törəmədir. Təbii dillərdən fərqli olaraq, musiqi dili yetərincə çevik və dəyişkəndir və qısa zaman kəsiyində əhəmiyyətli dərəcədə yeniləşə bilir. Musiqi dili üçün sabit tipli səs birləşmələrinin olması, onların işlənmə normaları və ya qaydaları, milli-mədəni və adlandırılan əlamətlərin tarixi dəyişmələri və ifadə vasitələrinin çoxmənalılığı səciyyəvidir. Musiqi "işarəsi" kontekstdən ayrıla bilmir, çünki konkret faktur, harmonik, tembr tərtiblənməsindən kənarda mövcud deyildir. Bu isə musiqi semantikasının əsas normasını formalaşdırmağa imkan verir: musiqi söyləminin elementləri sabit mənanı yalnız və son dərəcə bütövün tərkibində, bitmiş əsərdə kəsb edirlər. Musiqi dili dil funksiyası yerinə yetirən, lakin işarə səviyyəsinə malik olmayan sistemdir. Musiqi qeyri-işarəvi semiotik sistemdir və bu onun immanent xüsusiyyətidir. Əks halda, strukturun işarəviliyini dilin mütləq, immanent xüsusiyyəti kimi qəbul etsək, onda musiqi dil deyildir.

Musiqi, dil kimi, xüsusi ifadələr sisteminə malik işarələr sistemi kimi müəyyən informasiya yükünü daşıyır. Musiqi dildən ətraf gerçəkliyin predmet və hadisələri haqqında təsəvvürlərin əks etdirməsi ilə fərqlənir. Musiqi daha çox hisslər, emosiyalar aləmi ilə əlaqəlidir və buna görə musiqi dili bəzən söyləmin tam mənasını dərindən və ifadəli şəkildə ötürə bilir. Musiqi işarəvi kommunikasiya kimi özünün infrastrukturu ilə sistemi təmsil edir. Lakin hər halda müəyyən növ informasiyanı ötürür, qavranılır, şərh olunur və buna görə də musiqi dilinin məna kəsb etmədiyini iddia etmək əsassızdır. Musiqi dili təbii dillə müqayisədə daha abstraktdır və bununla ətraf aləmdə referentin aşkar edilməsinin mümkün olmamasını izah etmək olar.

Ədəbiyyat

1. Пирс, Ч. Избранные философские произведения. М.: Логос, 2000. 411 с.
2. Соссюр, Ф. Труды по языкознанию. М.: Прогресс, 1977. 693 с.
3. Барт, Р. Избранные работы: семиотика, поэтика / пер. с фр. ; сост., общ. ред. и вступ. ст. Г.К. Косикова. М. : Прогресс, 1989. 616 с.
4. Пирс, Ч. Избранные философские произведения/ Ч.Пирс. –М.: Логос, -2000. - 411 с.
5. Асафьев, Б.В. Музыкальная форма как процесс /Б.В.Асафьев. - Ленинград: Музыка, - 1971. - 376 с.
6. Медушевский, В.В. О содержании понятия «адекватное восприятие» / В.В.Медушевский // Восприятие музыки. -Москва: Музыка, 1980. - с. 141 – 155.
7. Мазель, Л.А. Проблемы классической гармонии / Л.А.Мазель. - Москва: Музыка, 1972. - 616 с.
8. Мазель, Л.А. Вопросы анализа музыки: опыт сближения теоретического музыкознания и эстетики // Л.А.Мазель. - Москва: Музыка, 1978. -352 с.
9. Холопова, В.Н. Музыка как вид искусства : Учеб. пособие для студентов вузов искусств и культуры / В. Н. Холопова. - СПб.: Лань, -2000. - 319 с.
10. Арановский, М.Г. Мышление, язык, семантика /М.Г.Арановский // Проблемы музыкального мышления. –Москва: Музыка, -1974, с. 90-128 (336 с)

11.Бенвенист, Э. Семиология языка // Бенвенист Э. Общая лингвистика. -Москва: Прогресс, -1974. - 446 с.

12.Фарбштейн, А.А. Музыкальная эстетика и семиотика / А.А. Фарбштейн // Проблемы музыкального мышления. – М.: Музыка, -1974. - с. 75-89.

13.Бонфельд, М.Ш. Музыка: язык или речь? // Музыкальная коммуникация: сб. науч. тр. СПб., -1996, - с. 15–39.

14.Бонфельд, М.Ш. Музыка: Язык. Речь. Мышление. -М.Ш.Бонфельд. -СПб.: Композитор, 2006. - 648 с.

Ф.Ф.Алекперова

Язык и музыка в свете знаковой теории

Резюме

Данная статья посвящена специфике музыкальной семиотики. С этой целью автором анализируется различные подходы к знаковым системам в сфере музыки. В статье основное внимание уделено соотношению между семиотикой и музыки, которое имеет довольно длительную историю. Автор статьи, опираясь на труды известных ученых в этой области, выявляет взаимосвязь музыкального языка с музыкальным знаком. В статье отмечается, что в современных лингвосемиотических исследованиях имеются значительные расхождения и противоречия в области знаний о музыкальных знаках Автором рассматривается проблема интерпретации музыкального языка, исследуется возможность интерпретации музыки как коммуникативной системы. В ней также оспаривается прямое сходство музыки со словесным языком. Опираясь на анализ некоторых концепций языка и их сравнения с формами музыкального выражения, автор делает выводы об их сходствах и различиях.

F.F.Alakbarova

In the light of the language and music sign theory

Summary

The article is devoted to the specifics of music semiotics. For this purpose, the author analyzes different approaches to the system of signs in the field of music. The article focuses on the relationship between music and semiotics, which has a long history. Referring to the works of famous scholars in this field, the author reveals the interrelationships between the language of music and the sign of music. The article notes that there are differences and contradictions in modern linguosemiotic research in the field of knowledge of musical signs. The author considers the problem of interpretation of musical language, explores the possibility of interpreting music as a process of communication. The article also claims that music is directly similar to verbal language. Referring to the analysis of some language concepts and their comparison with the forms of expression of music, the author draws conclusions about their similarities and differences.

Rəyçi: filol.e.d., prof. F.Y.Veysəlli

Redaksiyaya daxil olub: 24.10.2021

S.ƏLİYEV
dissertant

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

TƏRCÜMƏDƏ DİSKURS ADEKVATLIĞI (Culian Barnsın "Aqibət duyğusu" əsərinin Azərbaycan dilinə tərcüməsi əsasında)

Açar sözlər: *tərcümə, mətn, mədəniyyət, adekvatlıq, diskurs*
Ключевые слова: *перевод, текст, культура, адекватность, дискурс*
Key words: *translation, text, culture, adequacy, discourse*

Diskurs ekstralinqvistik, praqmatik, sosio-mədəni, psixoloji və digər faktorları özündə ehtiva edən mətndir. Lakin, bu mətn situasiyada reallaşır, canlıdır və real həyatla sıx əlaqədədir. Sosial fəaliyyətə yönəlmiş nitqdir. Bu nitq praktik fəaliyyətlə bağlıdır və insanların ünsiyyətinə xidmət edən sosial komponentdir. Məhz buna görə diskurs mətndən fərqli olaraq, real həyatla birbaşa əlaqəsi olmayan qədim yazılı materiallara tətbiq edilə bilmir. Diskurs sosio-mədəni kontekstə malikdir və məntiqi şəkildə əlaqələnir. Diskurs sosial faktorlarla sıx əlaqəli olduğuna görə, onun sosiolinqvistik aspektdən təhlili və mahiyyətinin aydınlaşdırılması alimlərin diqqətini cəlb edir. Misal olaraq, fransız dilçiləri siyasi diskursu araşdırarkən ona sosiolinqvistik cəhətdən yanaşırlar. Fransız dilçilərinin hər biri siyasi diskursda sırf dildən kənar sosial kontekstin rolunu yüksək qiymətləndirirlər. Diskurs bir növ nitq axınıdır və bu zaman dil daim hərəkətdədir. Diskurs danışıq prosesində ünsiyyət iştirakçılarının fərdi və sosial xüsusiyyətlərini özündə ehtiva edir. Diskursda həm xalqın milli mentaliteti və mədəniyyəti, həm də fərdin spesifik ifadə tərzi və leksikası əksini tapır. Mürəkkəb kommunikativ situasiya olan diskurs mətndən əlavə olaraq, özündə digər ekstralinqvistik faktorları (dünyagörüşü, etno-kulturoloji amillər, yaş, cins, adresantın məqsədi, sosial mövqe və s.) ehtiva edir (4, s. 41-43).

İngilis-amerikan elmi ənənəsində diskursun linqvistik təhlilinin şahidi oluruq. Bu elmi ənənədə diskurs təhlili ilk öncə, şifahi ünsiyyəti, danışanla dinləyən arasındakı interaktiv münasibətləri araşdırır. Alman-avstriya diskurs təhlili məktəbinin nümayəndələri isə diskursu ənənəvi mətn aspektindən təhlil edirlər. Yakob və Vilhelm Qrimin alman dili lüğətində diskurs anlayışının çoxmənalılığına işarə edilir. Diskurs termini "dialoq", "söhbət", "nitq", "mühazirə" kimi başa düşülür. Qərb dilçiləri sosiolinqvistik nöqteyi-nəzərdən diskursun iki əsas növünü təsnif edirlər: şəxsi (şəxs yönümlü) və institusional diskurs. Şəxsi diskursda natiq öz spesifik nitqinin və daxili aləminin zənginliyindən, institusional diskursda isə natiq konkret bir sosial institutun nümayəndəsi qismində çıxış edir. Şəxsi diskurs əsasən məişətdə gerçəkləşir. İnstitusional diskurs insanlar arasında formalaşmış standart ünsiyyət forması olmaqla yanaşı, əsasən bir-birini yaxşı tanımayan və ya ümumiyyətlə, tanış olmayan insanlar arasında sosiumun təyin etdiyi qaydalara uyğun klişeləşmiş ünsiyyət formasıdır. İnstitusional diskursun növlərinə pedaqoji, tibbi, elmi, siyasi, dini və məişət diskursları daxildir (5, s.37)

Adekvatlıq hər iki mətnin məna etibarilə oxşar təsiri yarada bildiyi təqdirdə mümkündür. Mütərcim yaxşı, uyğun və münasib tərcüməyə nail olmaq istəyirsə invariantdakı məlumatı, orijinal mətndəki təsiri tərcümə dilində də yaratmağa müvəffəq olmalıdır. Tərcümə prosesində orijinalın məzmununun tərcümə dilinə uyğun şəkildə transformasiya edilə bilməsi adekvatlığın əldə olunmasına səbəb olur. Tərcümə nəzəriyyəsində "invariant" adı altında məxəz mətn və ya orijinalda təsvir olunan mahiyyət, məna, məlumat və ya situasiya nəzərdə tutulur. Başqa sözlə, əgər orijinaldakı məna və yaxud təsvir olunan situasiya oxşar tərzdə

hədəf dildə də əksini tapırsa, o zaman bu, məxəz mətnin adekvatı adlanır. Mətnin növü, tərcümənin məqsədi invariant faktorların müəyyənləşdirilməsində vacib rol oynayır. Adekvatlığa nail olmaq üçün tərcüməçi məxəz mətndə əsas mənanı ifadə edən elementləri ayırd etməyi bacarmalıdır. İngilis dilindən Azərbaycan dilinə edilmiş bədii tərcümələrin müqayisəli təhlili adekvatlığın empirik tədqiqi anlamına gəlir. Orijinaldan tərcümə dilinə edilmiş bədii nümunələr əsasında müqayisələr aparmaq mümkündür. Tərcümə prosesində nümunələr əsasında adekvatlığın daha praktik olduğunu görmək olar. Adekvat tərcümə mütərcimlərə orijinalda yazıçının ifadə etmək istədiyi qayənin, əsas ideyanın hədəf mətndə qarşılığının verilməsi ilə oxşar mənanın transformasiyasına imkan yaradır. Nəticədə tərcüməçi sosial kontekstdə adekvatlığa nail olur (1, s.221-225)

Adekvatlıq tərcümə nəzəriyyəsində "məqbulluq" kimi anlaşılır. Adekvat tərcümənin "məqbul, qəbul olunan" tərcümə olduğu vurğulanır. İstənilən adekvat tərcümə olunan bədii mətn yalnız hədəf dil üçün deyil, eyni zamanda hədəf ədəbiyyatda da çox əhəmiyyətlidir. Hədəf dildə mövcudluğu və məqbulluğu onun hədəf ədəbiyyatda və mədəniyyətdə qəbul olunacağı anlamına gəlmir. Tərcüməçi özünü oxucunun yerində təsəvvür etməlidir. Hədəf dil oxucusunda yazıçının məxəz mətndə yaratdığı adekvat təsiri yaratmağa çalışmalıdır. Mütərcim həm biliyini, həm də tərcüməçi intuisiyasını tətbiq etməlidir. Mütərcim yalnız yazıçının diskurs aləmini anladıqdan sonra hədəf mətn oxucusunda orijinalın oxşar, adekvat təsirini yarada bilər. Tərcüməçi əsərdə yazıçının ifadə etmək istədiyi mənanı, mahiyyəti anlamalı, müəllifin diskursunu dərk etməlidir.Tərcümə nəzəriyyəçiləri qeyd edir ki, mütərcimlər praktik olaraq yazıçının real diskurs aləmi haqqında az məlumata malik olurlar. Tərcümə və ya redaktə işi ilə məşğul olan hər bir mütərcim yazıçının diskursu haqqında təsəvvürə malik olmasının vacibliyini qeyd edir. Misal olaraq, Britaniyada digər dünya ölkələrindən fərqli olaraq nəqliyyat vasitələri soldan idarə olunur. Britaniyada olduğumuz zaman buna vərdiş etmək müəyyən zaman tələb edir. Tərcüməçi yazıçının dilinə, mədəniyyətinə, adət-ənənəsinə hərtərəfli yiyələnməsinə və yazıçı aləmi haqqında hər şeyi bilməsinə rəğmən başqa dilə, mədəniyyətə və diskursa sahibdir. Belə olduqda, mütərcim başqa bir dil və mədəniyyətdə müəllif ilə oxucuları arasında dillərarası və mədəniyyətlərarası ünsiyyətdə vasitəçi rolunu yerinə yetirir. Qeyd edilməlidir ki, məxəz və hədəf dillər adətən bəzi oxşar xüsusiyyətlərə malik olur. Bu oxşar xüsusiyyətlər tərcüməçinin və yazıçının diskurslarının adekvatlığına imkan yaradır. Bu oxşar cəhətlər müxtəlif yollarla üst-üstə düşür. Dillərarasındakı qohumluq əlaqələrini, tarixi, etnik və sosial-siyasi faktorları misal göstərmək olar. Üstəlik, müəllif öz üslubuna uyğun diskursa malik olur. Mütərcim isə yazıçının üslubunu, dünyagörüşünü və konkret mətnin səciyyəvi xüsusiyyətlərini nəzərə almalıdır. Bildiyimiz kimi, yazıçılar müəyyən kommunikativ təsir yaratmaq məqsədilə bədii mətnlərdə özünəməxsus ifadə tərzindən, bədii təsvir və ifadə vasitələrindən, xalqın ruhunu əks etdirən deyimlərdən, ifadə tərzindən istifadə edirlər. Tərcüməçi məxəz mətn üçün səciyyəvi olan hər hansı bir ifadənin, deyim tərzinin ekvivalentini hədəf mətndə tapmaya bilər. Lakin, məxəz mətnin mənasını hədəf mətnə adekvat şəkildə ötürə bilər (6, s.76-78)

Bildiyimiz kimi, bədii əsərlərdə hər bir müəllifin özünün dünyası, öz ifadə tərzi, modeli olur. Hər bir bədii əsər özündə müəllifin dünyasını əks etdirir. Belə olduqda, müəllifin yazdığı əsəri, bədii ədəbiyyat nümunəsini hədəf dilə transformasiya etdikdə tərcüməçi yazıçının modelinə uyğun, münasib modelin yaradılmasına səy göstərməlidir. Mütərcim tərcümə dilində müəllifin ifadə tərzini, modelini yaratmağa çalışmalıdır. Buna nail olmaq üçün mütərcim əsərdə yer alan obrazların hər birinin səciyyəvi xüsusiyyətlərini, onlara xas olan fərdi ifadə tərzini və diskurslarını hədəf dildə adekvatı ilə əvəz etməlidir. Hər bir bədii ədəbiyyat nümunəsində fərqli obrazlar yer ala bilər. Mütərcim orijinaldakı obrazların nitqinə uyğun tərcümə dilində söz və ifadələrdən istifadə etməlidir. Orijinala elə yanaşmaq lazımdır ki, həmin obrazların sosial vəziyyəti, nitqi, onlara xas fərdi ifadə tərzi tərcümə mətnində nəzərə çarpsın. Müəllifin məxəz mətndə yaratdığı obrazlar hədəf mətndə də orijinala uyğun öz geyimlərində

oxuculara təqdim edilsin. Əsərdəki obrazların diskursu hədəf mətndə adekvat şəkildə öz əksini tapsın. Tərcümə orijinalın mənasından əlavə, onun ruhunu və ifadə tərzini əks etdirməlidir. Buna görə mütərcimin hərfi tərcümədən istifadə etməyi düzgün deyil (7, s.126-127).

Görkəmli ingilis yazıçısı Culian Barnsın Buker mükafatına layiq görülmüş "The Sense of an Ending" (Aqibət duyğusu) əsəri tərcüməçi Seyfəddin Hüseynli tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. Orijinal ilə tərcümə variantı arasında rast gəlinən adekvatlığa nəzər yetirək:

"There were three of us, and he now made the fourth. **We hadn't expected to add to our tight number: cliques and pairings had happened long before**, and we were already beginning **to imagine our escape from school into life**. His name was Adrian Finn, a tall, shy boy who initially **kept his eyes down and his mind to himself**. **For the first day or two, we took little notice of him: at our school there was no welcoming ceremony**, **let alone its opposite, the punitive induction**. We just **registered his presence and waited"** (3, s. 12).

"Biz üç dost idik, onunla dörd olduq. **Başımıza təzə uşaqlar yığıb dəstə düzəltməyə həvəsimiz qalmamışdı daha**, **hayküylü oyunların vaxtı keçmişdi;** indi biz **sinif otağından gerçək həyata atılmağın intizarındaydıq.** Adrian Finn idi onun adı: bu ucaboy, utancaq oğlan ilk vaxtlar **başıaşağı gəlib-gedər, beynindən keçəni dilinə gətirməzdi. Bir-iki gün heç ona fikir vermədik: bizim məktəbdə "xoşgəldin mərasimi" dəbdə deyildi**, **hələ bunun əksini – cəzalanmaq ehtimalını demirəm**. Biz, eləcə, **onun gəlişini "yaddaşa verib", gözləməyə başladıq"** (2, s.10).

"The masters were more interested in him than we were. They had to work out his intelligence and sense of discipline, calculate how well he'd previously been taught, and **if he might prove "scholarship material"** (3, s.13).

"Onunla daha çox müəllimlərimiz maraqlanırdılar. Ağlına, intizamına, hazırlıq səviyyəsinə bələd olmağa, **tədrisə yararlılıq dərəcəsini öyrənməyə çalışırdılar**" (2, s.10).

"**Our relief was greater than our curiosity,** because **Marshall was a cautious know-nothing** who **lacked the inventiveness of true ignorance**. He **searched for possible hidden complexities** in the question **before eventually locating a response**" (3, s.14).

"**Rahat nəfəs aldıq, üstəlik, bizi maraq bürüdü**, çünki **Marşallın qandığı qrafa yox idi**, **zır savadsızlara xas zirəklikdən də məhrum olan, fağır şagird kimi tanınırdı**. Sualın arxasında **gizli, dolayı mətləblər axtarıb**, **handan-hana** dilləndi" (2, s.11).

"**An outbreak of barely controlled smirking**; Hunt himself **almost smiled**" (3, s.14).

"**Gülməkdən partlayacaqdıq, özümüzü birtəhər saxladıq**; az qala Hantı da **gülmək tutacaqdı**" (2, s.11).

"The new boy was sitting a row ahead and to my left. **He had shown no evident reaction to Marshall's idiocies**" (3, s.14).

"Təzəgələn məndən qabaqda, solda əyləşmişdi. **O, Marşallın çərənləməsinə fikir vermirdi"** (2, s. 11).

"Is there, indeed? Well, that would put me out of a job, wouldn't it?" **After some sycophantic laughter**, **Old Joe Hunt pardoned our holiday idleness** and **filled us in on the polygamous royal butcher**" (3, s.14).

"Eləmi? Onda mən işsiz qalardım ki... **Yaltaq gülüşlər kəsilənəcən** gözləyən **Qoca Co Hant yay avaralığımızın üstündən keçdi**, adını çəkdiyi **o arvadbaz, qəssab xislətli hökmdar haqqında özü nələrsə danışmalı oldu**" (2, s.11).

"Another detail I remember: the three of us, as a symbol of our bond, used to wear our watches with the face on the inside of the wrist. **It was an affectation, of course**, but perhaps something more. **It made time feel like a personal, even a secret, thing**. **We expected Adrian to note the gesture, and follow suit; but he didn't**" (3, s.15).

"Yadımda qalan daha bir məqam: biz üçümüz dostluğumuza işarə kimi, saatlarımızı üzüaşağı fırladıb, biləyimizin içəri tərəfində saxlayırdıq. **Bu, xalis hoqqabazlıq idi,** bəlkə,

ondan da artıq. **Guya zaman bizdən ötrü şəxsi, hətta gizli mülkiyyətə çevrilmişdi**. **Elə bilirdik, bu hərəkətimiz Adrianın xoşuna gələr, o da bizə qoşular, amma heç də belə olmadı**" (2, s.12).

Tərcüməçi orijinaldakı obrazların diskursunun və ifadə tərzinin tərcümə variantında adekvatını yarada bilmişdir. Mütərcim əsərdəki ruhu, ifadə tərzini Azərbaycan dilində oxucuya ötürə bilmişdir. Orijinal ilə tərcümə variantını müqayisə etdikdə, tərcüməçinin bəzən orijinalın təsir gücünü uyğun şəkildə ifadə etmək və məxəz mətndəki adekvat təsiri yarada bilmək üçün transformasiyanın əlavəetmə və atılma üsulundan istifadə etdiyinin şahidi oluruq.

Qeyd etmək lazımdır ki, orijinalın mahiyyətinin və təəssüratının tərcümə dilinə adekvat tərcüməsi mümkündür. Yaxşı bədii tərcümə üçün vacib hesab edilən anlaşıqlılıq, obrazlılıq, bədii əsərin estetik təsirinin yaradılması adekvat tərcümə ilə gerçəkləşir. İngilis dilində yazılmış əsərin Azərbaycan dilinə tərcüməsi zamanı mütərcim orijinaldakı obrazların diskursunu hədəf dildəki münasib qarşılıqlarından istifadə etməklə adekvatlığa nail olmuşdur. Başqa sözlə, orijinalın diskursunun hədəf dildə adekvatı yaradılmışdır.

Ədəbiyyat

1. Bayramov Q.H. Tərcümə sənəti. Bakı: OKA Ofset nəşriyyatı, 2008.
2. Culian Barns. Aqibət duyğusu. Bakı: Teas Press Nəşriyyatı, 2017.
3. Julian Barnes. The Sense of an Ending. Jonathan Cape, 2011.
4. Mammadov A. Studies in Text and Discourse. Cambridge Scholars Publishing, 2018
5. Məmmədov A., Məmmədov M. Diskurs Tədqiqi. "Bakı Universiteti" nəşriyyatı, 2013.
6. M.Baker. Routledge Encyclopedia of Translation Studies. London: Routledge, 1998.
7. Venuti Lawrence. The Translation Studies Reader. London: Routledge, 2000.

С.Алиев

Адекватность дискурса в переводе
(на основе перевода произведения Джулиана Барнса "Предчувствие конца" на азербайджанский)
Резюме

В статье рассматривается адекватность дискурса в переводе. Статья объясняет понятие дискурса и адекватности как термина в лингвистике. Сравниваются исходная и целевая версии, при этом внимание акцентируется на адекватности дискурса в переводе.

S.Aliyev

Discourse Adequacy in Translation
(based on the translation of Julian Barnes's "The Sense of an Ending" into Azerbaijani)
Summary

The Article deals with the discourse adequacy in translation. It explains the notion of discourse and adequacy as a term in linguistics. The source and target versions are compared, in which the attention is focused on discourse adequacy in translation.

Rəyçi: prof. Q.Bayramov

Redaksiyaya daxil olub: 24.10.2021

G.M.ƏLİYEVA
e-mail: g.aliyeva18@mail.ru

DOI:10.48652/n7620-1662-9970-m

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

AŞIQ ŞEİRİNDƏ MƏCAZLARA KOQNİTİV YANAŞMA

Açar sözlər: *aşıq şeiri, məcazlar, koqnitiv yanaşma, ekspressivlik, fərdi xüsusiyyətlər.*
Ключевые слова: *ашугская поэзия, образные слова, когнитывный подход, выразительность, индивидуальные особенности.*
Key words: *ashug poetry, figurative words, cognitive approach, expressiveness, individual characteristics.*

Dilçilikdə "koqnitiv" anlayışının bir çox izahı vardır: 1) "Koqnitiv" nevrologiya ilə eyniləşdirilir; 2) "Koqnitiv" terminoloji etiket keyfiyyətində "adi" predikat yerinə istifadə olunur; 3) "Koqnitiv" artıq qalan tamamlıq və yaxud lazım olmayan dəqiqləşdirmə kimi "koqnitiv linqvistika" söz birləşməsində qəbul olunur, necə ki, A. Krivonosovun sözlərinə görə linqvistika qeyri-koqnitiv olmur, "biz unutmağa macal tapanda yalnız ondakı "yeniliyi" görürük". (15, s. 411); 4) Koqnitologiyaya aid hər hansı bir tədqiqat sonda dilin semantik təhlilinə və onun vahidlərinə gətirib çıxardığından "koqnitiv" məna orientasiya edilmiş deməkdir; 5) Diqqətli müşahidələrin nəticəsində daha çox belə dəyərli ümumiləşdirmələr aparılır ki, bu da koqnitiv fəaliyyətsizlik və yaxud introspektiv assosiasiya yaradır; 6) Koqnitiv-funksional fəaliyyət. Ancaq koqnitiv linqvistikanı şərh edərkən belə qənaətə gəlirik ki, bizim qarşımızda linqvistikanın mənasının izahı durur, daha doğrusu "Linqvistika – nə üçündür?" sualı durur; 7) Mahiyyətcə "koqnitiv" daha bir keyfiyyəti - "çətir" terminini özündə əks etdirdiyindən "koqnitiv" fənlərarası və inteqrativliklə qohumdur; 8) Koqnitivlik – interpretativlikdir, axı dünya təsvir olunmur, yalnız şərh olunur və s.

Ümumiyyətlə, koqnitiv linqvistika XX əsrin 60-70-ci illərində linqvistikadakı digər axınlara reaksiya kimi formalaşmışdır. Koqnitiv linqvistikanın inkişafı idrakın ümumi və xüsusi məsələləri ilə məşğul olan fənlərarası koqnitiv elmin yaranması və fəaliyyəti ilə sıx bağlıdır. "Koqnitiv linqvistika" məfhumu altında koqnitiv elmin mental proseslərinin və dil strukturlarının təsvirinə və izahına yönəlmiş sahəsi başa düşülür. Koqnitiv linqvistikanın diqqət mərkəzində dil biliyinin reprezentasiyası və işlənilməsi arasındakı inteqrasiyanın tədqiqi durur. Koqnitiv linqvistikanın əsas problemlərinə aşağıdakılar aiddir: təbii dillərdə kateqoriyalaşma xüsusiyyətləri, dil və təfəkkür arasında münasibətlər (yəni dildən istifadə danışanın dünyanı şərhini əks etdirir və bu şərh danışanın sərəncamında olan sözlər və qrammatik konstruksiyalarla məhdudlaşır), sintaksis və semantika arasındakı sərhəd sahəsi – yalnız leksik vahidlərin deyil, həm də qrammatik formaların və söz sırasının məna daşıdığından çıxış edir. Semantika koqnitiv linqvistika üzrə tədqiqatlarda böyük rol oynayır və onda dilin işlədilməsində aparıcı qüvvə kimi nəzərdən keçirilir. Bunun üçün dil öz təbiətinə görə tam nizamlanmamış olur, onu hansısa bir formal sistem kimi təsvir etmək həddən artıq çətindir.

Məcaz nədir və necə yaranır? – Məcazlar həm bədii ədəbiyyatda, həm də gündəlik həyatda nitqimizdə istifadə etdiyimiz bədii təsvir vasitələridir. Məcazlardan çox istifadə olunan dil obrazlı dil adlanır. Məcazlar dilin aydın, gözəl və ifadəli olmasına xidmət edir. Məcaz sözün semantikası ilə sıx surətdə bağlı olan hadisədir. Məcazlaşma hadisəsi çoxmənalılıq prinsipi əsasında yaranır və onun nəticəsi kimi meydana çıxır. Həmin keyfiyyətə malik olmaq isə sözdən ifadəli və təsviri vasitə kimi istifadə etməyə imkan yaradır. Bu da, hər şeydən əvvəl, sözlərin mətn daxilində öz nominativ mənalarından uzaqlaşıb kontekst daxilində yeni

mənalar qazanaraq məcazlaşması nəticəsində baş verir. Məcazın yaranması ifadənin obrazlı olması zərurətilə bağlıdır. Ədəbiyyatla bağlı elmi əsərlərdə məcazın növləri haqqında müxtəlif bölgülər vardır, lakin bütün bölgülərdə əsas növlər kimi metafora, metonimiya, sinekdoxa, istehza, hiperbola, mübaliğə, litota, şəxsləndirmə göstərilir. Oksimoron, hiperbola, metafora, metonimiya və antonomasiya əsas bədii təsvir vasitələri hesab edilir. Bədii əsərlərdə dilin müxtəlif səviyyələrində obrazlılıq yaradan vasitələri belə qruplaşdırmaq olar: 1) fonetik səviyyədə obrazlılıq yaradan vasitələr – alliterasiya, assonans, təkrar, intonasiya; 2) leksik səviyyədə obrazlılıq yaradan vasitələr – epitet, təşbeh, metafora, mübaliğə, metonimiya və s.

Məcazi mənalı sözlərin çox növləri vardır. Demək olar ki, bütün dillərdə ən çox istifadə olunan məcaz növləri təşbeh, metafora, epitet, kinayədir. Məcazi məna iki leksik mənanın bir-birinə qarşılıqlı təsiri nəticəsində yaranır. Bizim tədqiqatın əsas mövzusu "metaforalar"dır. "Metafora" yunan mənşəli söz olub köçürmə mənasını verir. "Metafora" termini, sözün etimologiyasından aydın olduğu kimi, müəyyən keyfiyyətin bir obyektdən başqa bir obyektə keçidi deməkdir. Müasir dilçilikdə metafora sözün əlavə məna çaları qazanması kimi qəbul olunur. Leksik ifadə vasitəsi və üslubi priyom kimi metafora üslubiyyatın bir hissəsidir. Məcazi mənalı söz və söz birləşmələrinin yaranmasına zəmin yaratdığından metafora mənanı xüsusi məhfum kimi öyrənən semasiologiyanın predmetidir. Bəzi dilçilər hesab edirlər ki, metafora iki obyekt arasında oxşarlıq əsasında yaranır.

Dilçi İ.R.Qalperinin fikrinə görə isə, metaforanın oxşarlıq əsasında yaranması fikri yanlışdır. Onun fikrincə iki obyekt arasında hansısa əlamətin oxşar olması həmin obyektlərin oxşar olması demək deyil. Metafora hər iki leksik mənanın eyni zamanda dərk edilməsi nəticəsində yaranır. Qalperin bunu Bayronun əsərindən bir parçanı nümunə göstərməklə izah edir – "Doğma təbiət ən qayğıkeş anadır" cümləsində yazıçı qayğıkeş ananın xüsusiyyətlərini təbiətə aid etməklə metafora nümunəsi yaratmışdır. Ana və təbiət sözlərinin qarşılıqlı əlaqəsi nəticəsində təbiət öz simasını saxlamamaqla həm də ananın xüsusiyyətlərini əks etdirir. (12, s.90)

Zəngin ədəbiyyat nümunələrimizdə də bənzərsiz metafora nümunələri kifayət qədər çoxdur. Azərbaycan ədəbiyyatının qiymətli incilərindən olan "Koroğlu" eposunda "Misri qılınc cövlan vursun havada", "Şirnən tülkünün nə işi" və s kimi metaforalar işlənmişdir. Azərbaycan aşıq şeirləri, qoşma və gəraylıları bu tip metaforalarla zəngindir: *Ağ xələt bürünər, zərnişan geyməz, \\ Heç kəsi dindirib keyfinə dəyməz, \\ Sərdara söz deməz, şaha baş əyməz, \\ Qüdrətdən səngərli, qalalı dağlar. (A.Ələsgər).* Ustad sənətkar nəinki sadə, hətta elə mürəkkəb məcazlar yaradıb ortaya qoymağa müvəffəq olmuşdur ki, obrazlı fikrin ifadəsində sonradan bu örnəklər də ənənəviləşərək qəlib məcazlar kimi istifadəyə düşmüşdür. Onun olduqca maraqlı, məzmunlu epitetləri, təşbehləri, metaforaları və b. nəzər diqqəti cəlb edir: *Gahdan qeyzə gələr, nahaq qan eylər, \\ Dinşəməz haramı, halalı dağlar!; Ağ xələt bürünər, zərnişan geyməz, \\ Heç kəsi dindirib xətrinə dəyməz.\\ Sərdara söz deməz, şaha baş əyməz, \\ Qüdrətdən səngərli, qalalı dağlar!; Çalxalanır sonalar, çığrışır qazlar. (A.Ələsgər)*

Bütün bu kimi nümunələrin və aparılan təhlillərin fövqündə qətiyyətlə demək olar ki, Aşıq Ələsgərin yaradıcılığı bütün vüsəti və sənətkarlığı ilə Azərbaycan dilinin qüdrətini təzahür etdirir. Onun yaratdığı bir çox metaforlar artıq öz metaforik xüsusiyyətlərini itirib ana dil vahidlərinə çevriliblər. Metaforalar rəng, forma və görünüş, hərəkət, vəziyyət, funksiya və istifadə kimi bənzərliklər əsasında yarana bilər. Sözlərin metaforik istifadəsi onların lüğəvi mənalarına da təsir göstərir, sözlərə yeni konnatativ məna çaları verir. Metonimiya yunan mənşəli "metonumia" sözü olub addəyişmə deməkdir. Hərfi mənada təkrar adlandırma mənası daşıyan metonimiya bir obyektin adının digər adın üzərinə köçürülməsidir. Bir obyektə birbaşa istinad etmək əvəzinə bəzən həmin obyektlə bağlı digər sözlərdən yəni metonimiyalardan istifadə olunur. Bu sözün lüğəvi və kontekstual mənaları arasındakı aşkar əlaqəyə əsaslanır. Metonimiya bənzətmə əsasında deyil, iki fərqli obyektin bir-birilə qarşılaşdırılması əsasında yaranır. Dilçilikdə sinekdoxanın metonimiyanın bir növü olub-olmadığı mübahisəli məsələlərdən biridir.

Məcazlar sistemində özünəməxsus yer tutan metonimiyalar aşıq poeziyasında da müraciət olunan təsvir vasitələrindəndir. Bu bir həqiqətdir ki, "…metonimiya klassik aşıq poeziyasının dilində metaforalara nisbətən çox məhdud şəkildə işlənir və növ müxtəlifliyi baxımından da onun kimi zəngin deyil" (6, s. 232). Aşıq Şəmşir yaradıcılığında da ara-sıra rast gəlinən təsvir vasitələrindən biri metonimiyadır: *Köz kimi qızarıb dağlarda lalə,* \\ *Çağırır nərgizli yaylaqlar səni.* \\ *Taxtadüz haçandır göz dikib yola,* \\ *İstisu üstündə qonaqlar səni* (A.Şəmşir). Buradakı metonimiyaların məkana görə seçilən səciyyəvi xüsusiyyətləri vardır. Aşıq sonuncu misralarda yaratdığı metonimiyalarla şeirin poetizmini daha da artırmışdır. Nümunədəki "göz dikib yola" ifadəsi məkana görə metonimiyadır. Aşıq Taxtadüzdə, İstisuda yaşayan insanların qonaqpərvərliyini təcəssüm etdirmək üçün gözəl metonimiyalar yaratmışdır.

Bəzi dilçilər sinekdoxanı ayrılıqda məcazın bir növü kimi qəbul etsələr də, bəziləri isə düşünür ki, sinekdoxa özü metonimiyanın bir növüdür. Sinekdoxa kəmiyyət əsasında bir obyektin digər obyekt üzərinə köçürülməsidir. Yəni sinekdoxa üçün obyektin bir hissəsinin köçürülməsi xarakterikdir. Metonimiyalar özləri referent olmaqla yanaşı, ifadənin daha lakonik olmasına xidmət edir. Leksik ifadələr ilə onların mahiyyəti arasında praqmatik əlaqə olsa da, birbaşa əlaqə olmur. Metonimiyaların yaranmasına sosial və mədəni xüsusiyyətlər təsir edə bilər. Metonimiyaların koqnitiv funksiyasının olduğu fikri isə ilk dəfə 1980-ci illərdə Lakof və Consonun "Konseptual metonimiya" nəzəriyyəsində irəli sürülmüşdür. Metonimiya ritorik vasitə olmaqla yanaşı ifadənin mahiyyətinin başa düşülməsində mühüm rol oynayır. Xüsusilə şəhər, ölkə adları, şəxs adları, bədən üzvləri və s metonimya rolunda çıxış edə bilər. (13, s. 22).

Epitet bədii ədəbiyyatda ən geniş yayılmış bədii təsvir vasitələtindən biridir. "Ephitet" yunan dilindən tərcümədə "əlavə" mənasını verir. Bir şəxsi, əşyanı və ya yeri daha qüvvətli, təsirli təsvir etmək üçün istifadə olunan məcaz növünə epitet və ya bədii təyin deyilir: *Qılman tamaşalım, loğman kamallım,* \\ *Züleyxa eşqlim, Yusif camallım.* \\ *Məcnunu mən olan Leyli xəyallım* \\ *Artır intizarım, görünmür niyə?* (Aşıq Şəmşir). Verilmiş nümunədə "qılman tamaşalı", "loğman kamallı", "Züleyxa eşqli", "Yusif camallı", "Leyli xəyallı" kimi epitetlərlə vəsf edilmiş el gözəlinin canlı bədii portretini görürük. Yaxud: *Siyah telə verdin sığal,* \\ *Mələk misal, a mah camal.* \\ *Oğrun-oğrun baxan maral,* \\ *Çox gəlirsən xoşa, Nərgiz* (Aşıq Şəmşir). Nümunədəki "siyah tel", "mələk missal", "mah camal" kimi maraqlı epitetlər şeirin poetizmini daha da artırmış, eyni zamanda gözəlin təsviri baxımından yerində işlənmişdir. Başqa sözlə, bədii epitetin "...əsrlərlə işlədilən, bir yazıçıdan o birinə, bir əsərdən digərinə keçən epitetlər də olur ki, bunlara müqəyyəd epitetlər deyilir" (4, s. 77)

Epitet sözlərin məntiqi, emotiv, məcazi mənalarının bir-birinə qarşılıqlı təsiri ilə yaranır və **sifət+isim, feil+zərf** kombinasiyası strukturunda işlənir: *Gül üzlü afətim, dili şərbətim,* \\ *Sənlədir ülfətim, bitməz söhbətim.* \\ *Tükənməz dövlətim, a şux afətim.* \\ *Hüsnünə bərabər ay ola bilməz.* (Aşıq Yanvar)

Epitetlər metaforik, metonimik, və istehzalı olur. Metaforik epitetlərdə semantik uyğunsuzluq özünü göstərir. Epitetlərdə bənzər əlamətin bir əşya üzərindən digərinə keçirilməsinin iki tipinə təsadüf olunur.

1) Cansız əşyalara məxsus xüsusiyyətlərin insana aid edilməsi: *Gümüş piyaləlim, altın ayaqlım,* \\ *Sürahi gərdənlim, qaymaq dodaqlım,* \\ *O ceyran yerişlim, ayna qabaqlım,* \\ *Qurbani der, məni candan eylədi.* (Qurbani); *Səni gördüm, əl götürdüm dünyadan,* \\ *Ala gözlü, qələm qaşlı Güləndam.* \\ *Alma yanağına, bal dodağına* \\ *Baxan kimi ağlım çaşdı, Güləndam.* (Aşıq Ələsgər)

2) İkinci tipə aid olan epitetlərdə isə məcazlaşma prinsipi bunun əksinədir, yəni canlılara, insana aid xüsusiyyətlər cansız əşyaları səciyyələndirmək üçün işlədilir: *O cəllad qaşların qəhri, zəhməri* \\ *Qəsd eylər cismimdən cam dağıtsın.* (Aşıq Ələsgər)

Adi qrammatik təyindən fərqli olaraq, bədii təyin – epitet bir sıra fərqləndirici xüsusiyyətlərə malikdir. Əvvəla qrammatik təyindən fərqli olaraq, epitetlər obrazlı təfəkkürün

məhsuludur. Buna görə də, qrammatik təyin bu və ya digər əşyanın əlamətlərini başqalarından fərqləndirməyə xidmət etdiyi halda, bədii təyin əşya haqqında obrazlı təsəvvür yaratmağa xidmət edir. Məsələn: *Xəstə düşüb qürbət eldə yataram, \\ Bir kimsənəm yoxdu, oyada məni. \\ O siyah telləri, şirin dilləri \\ Salıbdı sönməyən oy oda məni.* (Qurbani); *Qəvvas dəryalarda bağlar sal indi, \\ Keçən günü, yar, yadına sal indi, \\ Şahmar zülfün gərdənindən sal indi, \\ At boynuna, eylə nəsağı, belə.* (Aşıq Ələsgər). Eyni obyektə aid olan təyinlərdən birinci misaldakı adi qrammatik təyindirsə, ikincisi müəyyən bir poetik yük daşıyan epitetdir. Epitetin ümumişlək təyindən ikinci fərqli xüsusiyyəti odur ki, qrammatik təyin isə müəllifin dünya duyumuna əsaslanan subyektiv xüsusiyyətləri əks etdirir. Məsələn: *Ay nazənin, ay qağabın altından \\ Nə göyçək çəkilib qara qaşların. \\ Gözlərin süzüldü, canım üzüldü, \\ Vurubdu sinəmə yara qaşların.* (Aşıq Ələsgər); *Gözü yaşlı, ey füqəra Ələsgər, \\ İşi əysik, baxtı qara Ələsgər, \\ Olmadı dərdinə çara, Ələsgər, \\ Həsrət əlin o dildara yetmədi.* (Aşıq Ələsgər)

Birinci misalda "qara" sözü əşyanın obyektiv əlamətini (saçın qaralığı) əks etdirən qrammatik təyin, ikinci misalda isə müəllifin subyektiv yaşantılarını əks etdirən (bəxtin qaralığı) məcazdır. Təşbeh latınca "similes" sözündən əmələ gəlib bənzətmə deməkdir. Bədii əsərlərdə işlənən ifadələrin daha təsirli olması üçün istifadə edilir. Müqayisə ilə təşbeh səhv salınmamalıdır. Müqayisə eyni bir sinifə aid olan 2 obyektin müəyyən xüsusiyyətlərinə görə eyniləşdirilməsi və ya fərqləndirilməsidir. Müqayisə edildikdə obyektin bütün xüsusiyyətləri nəzərə alınır, lakin bir xüsusiyyətinə görə müqayisə edilir. Təşbehlər isə iki tamamilə fərqli obyektlərin bir-biri ilə qarşılaşdırılaraq bənzədilməsidir. Azərbaycan dilində təşbehlər adətən bənzətmə qoşmalarının, vasitəsilə yaranır: *Aslan kimi nərə çəkdi: \\ "Olmaz para-para vətən!" (Aşıq Nəsib); Ermənilər pərən oldu, \\ Dağıldılar sərçə kimi (Aşıq Nəsib).*

Aşıq poeziyasında ən çox işlənən təsvir vasitələrindən biri təşbehlərdir. "Şeirin başlıca linqvistik və məntiqi əsasında məcazi sözlərin xüsusi çəkisini artıran onun dolğunluğu və bitkinliyidir. Bu baxımdan təşbehlər şeirdə daha geniş bədii vəzifə daşıyır" (5, s. 141). "Təşbehdən məqsəd fikri daha da canlandırmaq və qüvvətləndirməkdir" (7, s.148). Bütün dövrlərdə aşıqlar və el şairləri təsvir etdikləri gözəlin zahiri görkəmini, bir çox keyfiyyətlərini daha qabarıq və emosional təqdim etmək üçün təşbehlərdən istifadə etmişlər. Aşıq Şəmşir də şeirlərində yüksək forma gözəlliyinə malik təşbehlərdən geniş şəkildə istifadə etmişdir: *Bəxtəvərin nə qaradır qaşları, \\ Hüsnü qəşəng güldür, dodağı göyçək. \\ Təhri-yasəməndir o yanaqları, \\ Nə qəşəng yaranıb buxağı göyçək* (Aşıq Şəmşir). Sənətkar burada yüksək ustalıqla iki təşbeh yaratmışdır. "Hüsnü qəşəng güldür", "Təhri-yasəməndir o yanaqları". O, vəsf etdiyi gözəlin hüsnünü gülə, yanaqlarını yasəmənə bənzədib, real insani gözəlliyi bədii gözəlliyə çevirməklə gözəlliyə bədii ömür vermişdir. Digər bir maraqlı nümunəyə nəzər salaq: *Yanağın bağlarda gül, xalam qızı! \\ Qamətin sərvdir, boyun minarə, \\ Çin-çin olub, düzülübdür qatara, \\ Tökülüb üzünə tel, xalam qızı!* (Aşıq Şəmşir)

Bu nümunədə də üç təşbeh işlədilmişdir. Şəmşir gözəlin yanaqlarını gülə, qamətini sərvə, boyunu minarəyə bənzətmişdir. Qeyd edək ki, hər üç təşbeh klassik ədəbiyyatdan gəlir və sənətkar bunları özünəxas şəkildə, yeni biçimdə təqdim etmişdir. Aşıq gördüyü qızın gözəlliyindən vəcdə gəlmiş və bu təşbehlər vasitəsilə onu yüksək səviyyədə tərənnüm etmişdir.

Zveqma ingilis dilində nəsrlə yazılmış əsərlərdə daha çox işlənən üslubi priyomlardan biridir. Zveqma bir cümlədə işlənən, eyni qrammatik quruluşa malik, müxtəlif semantik mənalar ifadə edən məcaz növüdür. Cümlədə işlənən bir feil iki ismi idarə edir. Cümlənin feili əlaqədə olduğu isimlərdən biri ilə birlikdə həqiqi məna, digəri ilə isə məcazi məna kəsb edir. (12, s. 26). Oksimoron mənaca bir birinə zidd olan iki sözdən ibarət söz kombinasiyasıdır. Bu kombinasiya isim ilə sifət və yaxud da sifət ilə zərfdən təşkil olunur. (14)

İroniya yunan mənşəli söz olub "eirōneía" sözündən yaranmışdır. İroniya fikrin birbaşa deyil, örtülü yollarla, işarələrlə ifadə edilməsidir. İroniya bildirən söz xüsusi intonasiya tərzi ilə deyilir. İroniya bir çox oxşar xüsusiyyətləri olsa da, satira ilə qarışdırılmamalıdır. Satira daha sərt, tənqidedici xarakter daşıyır. İroniyanın üç növü var: 1. Verbal ironiya – həqiqətə

zidd olan sözlərdən istifadə etməklə yaranır. 2. Dramatik ironiya - teatrda, dram əsərlərində daha çox istifadə olunan bu ironiya növü auditoriyanın bildiyi bir şeyi obrazın bilməməsindən qaynaqlanır, beləliklə, dramatik ironiya vasitəsilə daha çox cahillik, cəhalət tənqid olunur. 3. Vəziyyətə görə ironiya – adından da göründüyü kimi ironiyanın bir növü baş verməsi gözlənilən bir hadisə baş vermədikdə istifadə olunur. Bədii ədəbiyyatda geniş yayılmış ironiya növlərindən biridir. Yazıçılar ironiyanın bu növündən istifadə etməklə kəskin ziddiyyətlər yaradır, beləliklə, reallıqlar və görünənlər arasında kəskin fərqi göstərir.

Aşıq şeir yaradıcılığı üçün xarakterik olan bədii təsvir vasitələrindən biri də mübaliğədir. Sənətkar fikrin, ideyanın daha qüvvətli və təsirli alınması üçün mübaliğələrdən istifadə etmiş və bu zaman mübaliğənin (bədii şişirtmənin) sərhədlərini yüksək ustalıqla gözləyərək bədii ideyanın daha dolğun təcəssümünə, bədii reallığın yüksək estetizminə nail olmuşdur. Məsələn: *Ustaddan dərsimi alaram cəmi, \\ Ümmanam, köksümdə üzər min gəmi; \\ Tələtüm eylərəm dəryalar kimi, \\ O Kürün, Arazın Tərtəriyəm mən* (Aşıq Şəmşir).

Bu bənddə mübaliğələrdən yerli-yerində istifadə olunmuşdur. Aşığın özünü köksündə min gəmi üzən ümmana, dəryaya bənzətməsi tutarlı mübaliğə olmaqla sənətkarın klassik obrazlardan istifadə bacarığını da göstərir. Şeirdə ustad, dərs, ümman, dərya kimi obrazlar klassik aşıq poetikasının ən funksional obrazlarıdır. *İnan, səndən kəsilməzdi gümanım, \\ Niyə yad olubsan, a mehribanım. \\ Od tutur, qorlanır, alışır canım, \\ Sanki kabab yanır köz qabağında* (A.Şəmşir). Hiperbolanın əksi isə litotadır. Litota hiperboladan fərqli olaraq, bir predmetin və ya hadisənin olduğundan daha kiçik təsvir olunması və ya əhəmiyyətsizləşdirilməsidir:

Bezə astar vurmaq olmaz ipəkdən, \\ Mərifət qanana ***naziyəm tükdən****. \\ Yaz yağıtək süzülmüşəm çiçəkdən, \\ Qatımda ayranım, kəfim yoxdu ki* (A.Şəmşir).

Dilin inkişafı davamlı prosesdir. Bəşəriyyət inkişaf etdikcə dillər də inkişaf edir, öz inkişaf qanunauyğunluqlarına əsasən dəyişir və təkmilləşir. Türkiyənin güclü hegomon ölkə, böyük, qlobal ticarət dövləti olmağı, xarici dövlətlərlə apardığı müharibələr və bu hadisələrin nəticəsində dilin lüğət tərkibinə başqa dillərdən sözlərin daxil olması kimi faktorlar türk dilinin ən zəngin dillərdən biri olmasına səbəb olmuşdur. Bundan başqa türk dilinin lüğət tərkibi latın, yunan, italyan, ispan, fransız, alman, rus, eləcə də şərq dillərindən keçən sözlər hesabına zənginləşmişdir.

Məcazi mənalı sözlər dilin konseptual sisteminin bir hissəsidir. Elə bu səbəbdən, bəzən mətndə verilən məcazların və frazeologizmlərin başqa bir dildə ekvivalenti olmur. Bəzi məcazlar var ki, onlar artıq söz birləşməsi şəklində qəlibləşib. Bu ifadələrə terminoloji frazeologizmlər də deyilir. Frazeoloji birləşmələr sabit söz birləşmələri olduğundan bütün sözlər öz ilkin mənalarını itirərək bütövlükdə bir məna ifadə edir. Məcazi sözlərin abstrakt məna ifadə etməsi, mürəkkəb semantik quruluşa malik olması onları digər birləşmələrdən fərqləndirir. Buna görə də, psixolinqvistlər belə hesab edirlər ki, idiomatik birləşmələrin başa düşülməsi bəzən çətinlik yaradır. Koqnitiv elmlərdə əldə edilən irəliləyişlər, koqnitiv yanaşma mətndəki məcazi mənalı sözlərin və abstrakt fikirlərin mahiyyətinin dərk edilməsinə dəyərli töhfələr vermişdir.

Ədəbiyyat

1. Aşıq Ələsgər. Əsərləri. Bakı: “Şərq-Qərb”, 2004, 400 səh.
2. Aşıq Şəmşir. Şeirləri. Bakı: 1973, 420 səh.
3. Azərbaycan Aşıqlar Birliyi. Günümüzün ustad aşıqları: Yanvar Bədəlov. Bakı: “Elm və Təhsil” nəşriyyatı, 2017, 96 səh.
4. Ədəbiyyatşünaslıq terminləri lüğəti / Tərtib edəni Mirəhmədov Ə. Bakı: Maarif, 1988, 268 s.
5. Hüseynov M. Sözün poetikası 1960-1980-ci illər Azərbaycan poeziyasının materialları əsasında). Bakı, Elm və təhsil, 2010, 368 s., 141
6. Məmmədov Z. Klassik aşıq poeziyasının leksiksemantik xüsusiyyətləri. Bakı: Avropa, 2006, 307 s., 232

7. Rəfili M. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı: APİ, 1958, 282 s.
8. Veysəlli F.Y. Semiotika. Studia Philologica. IV. Bakı: Mütərcim, 2010, 336 s.
9. Zeynalova S. Koqnitiv metaforlaşmanin substansional və prosessual aspektləri (alman dilinin materiallari əsasinda). Fil.ü. f. d. e. dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2016, s. 28, s. 14
10. Arnold İ.V, "The English word", Moscow, ‹‹Высшая Школа››, 1986, p-293
11. Qadamer X.O. Wahrheit und Methode. Grundzüge einer philosophischen Hermeneufek, Tübingen 3. Aufl., 1972, S. 91
12. Galperin İ.R. Stylistics. 1981, p 126
13. Lakoff. G& Johnson, "The Contemporary Theory of Metaphor", 1992, p-46
14. Literarydevices.net/oxymoron
15. Кривоносов А.Т. Философия языка. М.:Азбуковник, 2012, 450 с.
16. Фрумкина Р.М. Концептуальный анализ с точки зрения линвгситика и психолога // НТИ. Информационные процессы и системы. 1992, № 3, с. 5.
17. Ченки А. Семантика в когнитивной лингвистике. М.: МГУ, 1997, с. 354
18. Рикер П. Метафорический процесс как познание, воображение и ощущение. М.: Прогресс, 1990, с. 445

Г.М.Алиева

Когнитивный подход к переносу в ашугских стихах

Резюме

Искусство ашугов - крупнейшая и богатейшая отрасль устной народной литературы Азербайджана. Отличающееся оригинальностью и неповторимостью искусство ашуга, наряду с формированием и развитием на протяжении веков творческих традиций народа, также отражает богатый словарный запас нашего родного языка. В отличие от других жанров народной литературы, ашугские стихотворения являются авторскими образцами, поэтому в ашугских стихах более ярко выражен индивидуальный подход к языку. Основная цель статьи – определить роль образных слов в раскрытии идеи и содержания азербайджанской ашугской поэзии, раскрыть их смысл и возможности содержания, выявить сходства и различия в выразительности образных слов в этих примерах.

G.M.Aliyeva

Cognitive approach to metaphors in ashug poetry

Summary

The art of ashugs is the largest and richest branch of oral folk literature in Azerbaijan. The art of ashug, distinguished by its originality and uniqueness, along with the formation and development of the creative traditions of the people over the centuries, also reflects the rich vocabulary of our native language. Unlike other genres of folk literature, ashug poems are the author's samples, therefore, an individual approach to the language is more pronounced in ashug poems. The main goal of the article is to determine the role of figurative words in disclosing the idea and content of Azerbaijani ashug poetry, to reveal their meaning and content possibilities, to identify similarities and differences in the expressiveness of figurative words in these examples.

Rəyçi: f.e.d., prof. Ş.Q.Hüseynov

Redaksiyaya daxil olub: 10.11.2021

N.A.HƏSƏNOVA

DOI:10.48652/j5277-2011-5946-s

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MƏTN DİLÇİLİYİNİN YARANMASI VƏ İNKİŞAFI

Açar sözlər: *mətn dilçiliyi, koqnitiv dilçilik, əlaqəli nitq, linqvistik kateqoriya, elmi dərketmə fəaliyyəti, inteqral yanaşma.*
Ключевые слова: *лингвистика текста, когнитивная лингвистика, родственная речь, языковая категория, научно- познавательная деятельность, комплексный подход*
Key words: *textual linguistics, cognitive linguistics, related speech linguistic category, scientific cognitive activity, integrated approach.*

Ümumi sintaktik nəzəriyyə sistemində "Mətn dilçiliyi" adlanan cavan bir elm sahəsi yaranmışdır. Keçən yüzilliyin 60-70-ci illərindən başlayaraq tədqiqatçılar bu elm sahəsinə xüsusi diqqət yetirirlər. Son 20 il ərzində isə mətn dilçiliyinin xeyli aktuallaşması özünü intensivləşmiş ciddi tədqiqatlarda birmənalı olaraq göstərir. Belə bir vəziyyət heç də təsadüfi deyil. Koqnitiv dilçiliyin "tüğyan" etdiyi hazırki zamanda mətn dilçiliyinin lider mövqeyinə çıxması, şübhəsiz ki, qanunauyğunluq kimi qəbul edilməlidir. Çünki dil-nitq sisteminin bir-biri ilə qırılmaz bağlılığı ilə seçilən funksiyaları – nitq kommunikasiyası funksiyası və fikrin-ideyanın mövcudluq forması kimi çıxış etmək funksiyası –sintaksisin cümlə adlanan "şah əsəri"nə şamil edilirsə, çağdaş dilçilik nəzəriyyəsində bu funksiyaların mətn tərəfindən daha dolğun və tamamlanmış şəkildə yerinə yetirilməsi ideyası müxtəlif formalarda səslənməyə başlamışdır (1, s.34).

XX əsrin son rübündən başlayaraq mətn məfhumu yalnız dilçilikdə deyil, demək olar ki, bütün elm sahələrində xeyli işlənir. Mətnin tədqiqi ilə nəzəri dilçiliklə yanaşı psixologiya, fəlsəfə, sosiologiya, semiotika, pedaqogika və s. elm sahələri də məşğul olur (1, s.39).

Dilçiliyin xüsusi sahəsi kimi, mətnin tədqiqi maraqlı ideyalarla, faktlarla zəngin bir tarixə malikdir. 1940-cı illərin sonundan mətn - fonetik, morfoloji və başqa istiqamətlərdən öyrənilərək dilçiliyin tədqiqat obyektinə çevrilmiş və belə bir tədqiqatı xarici dilçilikdə V. fon Humboldt, F.de Sössür, Z.Hərris, E. Benvenist və b.; rus dilçiliyində N.S.Pospelov, V. Dressler, İ.F.Vardul, Q.Y. Solqanik, L.İ.Zilberman, O.İ. Moskalskaya, T.M.Nikolayeva, E.L. Şendels və b.; Azərbaycan dilçiliyində isə K.M. Abdullayev, M. Qayıbova, F. Veysəlli, Ə.Ə. Abdullayev, N.Z. Hacıyeva, A.Y. Məmmədov və başqaları davam etdirmişlər.

Diçilik elmində ilk dəfə 1952-ci ildə amerikan alimi Z. Hərris "Mətnin təhlili" adlı məqaləsində söyləmdən böyük birləşmələrin tərifini verməklə yanaşı, mətni cümlədən böyük parça adlandırması qeyd olunmuşdur. Maraqlıdır ki, Z. Hərrisdən az sonra fransız alimi E.Benvenist söyləmi, danışana aid nitq kimi, mənalandırmışdır. E. Benvenistə görə söyləm deyənin ekspressiyasıdır. Bu isə mətnə fərqli yanaşmaların lap əvvəldən olduğunu göstərir .

Mətn dilçiliyi sahəsinin ilk tədqiqatçılarından biri olan N.S. Pospelova görə isə mətn, əlaqəli nitqin həqiqi sintaktik vahidi sadə və mürəkkəb cümlə deyil, məhz əlaqəli nitq kontekstindən çıxarılarkən öz sintaktik bitkinliyini və müstəqilliyini saxlayan mürəkkəb sintaktik bütövdür. Bu ideya qırmızı xətt kimi mətn təhlilinə həsr olunmuş bütün tədqiqatlardan keçir. Amma bununla yanaşı, qeyd etmək lazımdır ki, mətnin bütün tədqiqatçıları bu hadisəni, yəni mətni bir linqvistik kateqoriyanın qarşısında duran tələblərə tam şəkildə cavab verən vahid kimi götürürlər (3, s.122).

V. Dressler "Mətn sintaksisi" adlı məqaləsində yazır: *"Mətn dilçiliyi sahəsindəki tədqiqatlar, əsasən, iki istiqamətdə aparılır. Birinci istiqamət mətn qurulmasının ümumi qanunauyğunluqlarını üzə çıxarmaq məqsədilə aparılan təhlillərdən formalaşır. Belə təhlil zamanı mətn dilçiliyinin obyekti kimi tekstema götürülür.*

İkinci istiqamət tekstemanın aktual reallaşması ilə bağlı, yəni konkret qarşıya çıxan müəyyən mətn kəsiyi, müəyyən bədii, publisistik, elmi profilli mətn kəsiyinin linqvo-üslubi statusunun müəyyənləşməsi ilə bağlıdır" (4, s.114).

Bu fikrə yaxın fikri İ.F.Vardul da irəli sürür. O qeyd edir ki, *"bizim günümüzdə mətn tədqiqatçılar tərəfindən məna birliyi və eyni zamanda müəyyən sintaktik intonativ əlaqələrlə birləşən, cümlələr zəncirindən yaranan məzmun birliyi kimi başa düşülür"* (5, s.220).

L.İ. Zilbermana görə mətnin meydana gəlməsinin əsas səbəblərindən biri elmi-texniki inqilab və "informasiya partlayışı" ilə bağlı olan ekstralinqvistik faktorlar olmuşdur. L.İ. Zilberman elmi nəşrlərin miqdarının artmasını, mütəxəssislərin külli miqdarda ədəbiyyatla tanış olmaq zərurətini, oxu prosesində elmi mətnlərdən informasiya əldə etməyin yeni metodlarını işləyib hazırlamağı tələb edirdi. Göstərilənlərlə bağlı yaranmış tələbat linqvodidaktikada bir dönüş yaradaraq onu dilin kommunikativ aspektlərini, mətnin inkişafını öyrənməyə doğru yönəltdi ki, bu da meydana gəldiyi vaxtdan bəri həm nəzəri, həm də tətbiqi səciyyə daşıyır. (1, s.20).

O.İ.Moskalskaya mətn dilçiliyinin xüsusi elm sahəsi kimi formalaşmasını 1981-ci ildə növbəti 3 onilliyə aid etdi (7, s.49). Onun fikrincə, mətnin formalaşması, danışıq mədəniyyətinin təkmilləşməsi, antimentalizmin öz yerini dilçiliyə verməsi, nitqin meydana gəlmə mexanizmini öyrənən elmlərin inkişafı zəruriyyətindən doğur. Bu sahəyə psixolinqvistika, sosiolinqvistika, praqmalinqvistika, funksional stilistika, həmçinin mətn məfhumunun nitq və dil vahidləri ailəsinə daxil edilməsi aiddir. Sovet dilçiliyində mətn məfhumunun inkişafı mürəkkəb sintaktik bütövün sintaksisin xüsusi vahidi kimi işlənilməsi konsepsiyasının N.S.Pospelov tərəfindən araşdırılması ilə bağlıdır.

T.M. Nikolayeva mətn dilçiliyinin meydana gəlməsini 60-70-ci illərin II yarısına aid edir və burada iki əsas dövrün olduğunu göstərir. T.M.Nikolayevaya görə I dövr koreferensiya, koqeziya və tekst (mətn) əlaqəsinin tədqiqi ilə, cümlədən daha böyük olan vahidlərin – mürəkkəb sintaktik bütövün, frazadan (ifadədən) daha böyük birliyin, abzasın, cümlə üzvlərinə aktual bölünmə ideyasının inkişafı ilə xarakterizə olunur (15, s.12).

Mətn dilçiliyinin inkişafının ikinci dövrü söyləmlərin arasında olan münasibətlərin axtarılması ilə səciyyələnir: *"Mətn linqvistikası üçün ifadələr arasında münasibət axtarılması, onların arasında olan münasibətlərin sadəcə siyahısını göstərməkdən daha vacibdir"* (15, s.13).

T.M.Nikolayeva söyləmlər arasında münasibətlər deyərkən mürəkkəb tərkibdə sadə cümlələr, həmçinin sintaqmlar - minimal uzunluqlu vahidlər arasında, münasibətləri budaq cümlələri, aktual üzvləri, xüsusiləşmələri nəzərdə tutur (15, s.15).

E.İ.Şendels mətn dilçiliyinin formalaşmasını 60-cı illərin əvvəlinə aid edir. Onun fikrincə, mətnin inkişafı üçün daxili impuls bir sıra qrammatik hadisələrin (artiklın işlənilməsi, söz sırası, zaman formaları, əvəzliklər) dərk olunmasında cümlə çərçivəsindən kənaraçıxma zərurəti; mətnin inkişafının zahiri impulsu *"qrammatik nəzəriyyənin yeni yönümünə əsaslanaraq dilin sosial fəaliyyətinin başqa növləri ilə əlaqəli olan danışıq fəaliyyətini önə çəkir"* (9, s.62).

K.M. Abdullayev qeyd edir ki, *"mətn dilçiliyində aparılan son tədqiqatlar, bir daha göslərir ki, bu sahə cavan bir tədqiqat sahəsi olmasına baxmayaraq, əslində öz inkişafı ilə digər dilçilik sahələrindəki bir çox qaranlıq məsələlərin həllinə də işığın sala bilir. Biz mətn dilçiliyinin dərinliklərinə nüfuz etdikcə, ayrıca cümlənin və onun son parametrlərinin, cümlə daxilindəki ayrıca sözün cümlədə davranış prinsiplərinin sirlərinə bələd ola bilirik"* (3, s.179).

Ə.Ə. Abdullayevin bu sahədə söylədiyi fikirlər də maraq doğurur. O yazır: *"Mətn linqvistikasının ən müvəffəqiyyətli təsnifatından biri onun istifadədə olan dili (language in*

use) öyrənən elm kimi təyin edilməsidir. Əvvəllər mətn linqvistikası "parole" anlayışının yazılı təcəssümünün öyrənilməsi kimi başa düşülmüşdü" (1, s.33).

A.Y. Məmmədov mətn anlayışına aydınlıq gətirməyə çalışaraq, onun işləndiyi mənaları diqqət mərkəzinə gətirərək yazır: *"Bir tərəfdən "mətn" anlayışı, danışanın fikrinə əsasən, özlərində bitmiş mənanı ehtiva edən bir və yaxud bir neçə cümlədən ibarət hər hansı bir söyləmi təyin etmək üçün işlənir"* (15, s.9).

Mövcud nəzəriyyələri ümumiləşdirərək, demək olar ki, mətn dilçiliyinin yaranması və inkişafının bir-biri ilə qarşılıqlı əlaqədə olan iki əsas səbəbini göstərmək olar:

1) Mətnin təkmilləşdirilməsi (şərh etmək, mətni oxumağı öyrətmək, informasiya sisteminin linqvistik təminatı), habelə uyğun tətbiqi linqvistik fənlərin - linqvistik informatika, linqvodidaktika, linqvosemiotika ilə bağlı fəaliyyət sahələrinin elmi-texniki inqilabın təsiri altında inkişafı;

2) Diskret dil vahidlərinin xüsusiyyətlərini araşdırarkən kontekstdə onlardan istifadə etməni nəzərə almadan struktur və generativ linqvistika metodlarının qeyri-adekvatlığı. Verilən səbəblər toplusu problematik situasiyanın - dil praktikası ilə mövcud linqvistik konsepsiyalar arasında ziddiyyətlərin meydana gəlməsinə səbəb oldu.

Sözsüz ki, problem situasiyaların meydana gəlməsi, mətn dilçiliyinin yaranması ayrı-ayrı ölkələrdə müxtəlif dövrlərdə baş vermiş, milli dilçiliyin inkişaf xüsusiyyətləri orada öz əksini tapmamışdır. Mətn dilçiliyinin yaranmasını şərtləndirən səbəbləri araşdırarkən tədqiqatlar nəticəsində müəyyən edilmiş aşağıdakı amillərə əsaslanmaq olar.

1)Verilmiş predmetə özlərinin bağlılığını anlayan tədqiqatçılar qrupunun, yəni elmi birliyin mövcudluğu. 2) Hamı tərəfindən qəbul edilmiş elmi nailiyyətlərin, problemin qoyuluşu modelinin və onların həlli yollarının elmi birliyə təqdim edilməsi paradiqması (13, s.72). T.Kunun fikrincə, elmi birliyin bütün üzvləri tərəfindən qəbul edilən paradiqmanın mövcudluğu elmin inkişafının normal dövrü üçün, paradiqmanın dəyişilməsi isə inqilabi dövr üçün xarakterikdir. 3) Elmi-dərketmə fəaliyyətinin, yəni elmi predmetin metodoloji problemlərinin təhlilinə həsr edilmiş nəzəri baxışlar və konsepsiyalar üzərində refleksiyanın mövcudluğu. Bu əlamətlərdən çıxış etsək, onda mətn dilçiliyinin yaranmasını, görünür ki, 70-ci illərə aid etmək olar. Məhz həmin dövrdə mətn dilçiliyinin predmetinin ilkin araşdırmaları formalaşdı, onun yaranma səbəblərini araşdırmağa cəhd göstərildi (bax:14, s.50). Keçmiş sovetlər birliyində mətn linqvistikası problemləri üzrə ilk ümumittifaq konfransı 1974-cü ildə keçirilmişdir. Mətn təhlilinə və mürəkkəb sintaktik vahidə (bütöv) həsr olunmuş ayrı-ayrı işlərin mövcudluğu artıq "Mətn dilçiliyi" adlanan yeni bir elm sahəsinin yarandığından xəbər verirdi.

Bu faktı O.İ. Moskalskaya da 50-60-cı illərdə mətn anlayışının inkişafını xarakterizə edərkən qeyd etmişdi: *"Baxmayaraq ki, "mətn" linqvistik anlayış kimi elmdə hər yerdə gündəmə gəlir, artıq formalaşmış elmi problem kimi inkişaf edirdi".* Bizim fikrimizcə, 50-60-cı illəri paradiqmadan əvvəlki dövr kimi, yəni mətn dilçiliyinin yaranması üçün bünövrə formalaşdıran dövr kimi xarakterizə etmək olar, 70-80-ci illər onun normal inkişaf dövrüdür. Bu zaman kommunikativ sintaksis ideyasını əks etdirən paradiqma monoqrafiyalarda, tədris vəsaitlərində öz əksini tapmışdır (16, s.64). Müasir dövr – dilin inteqral təsvirinə keçid, yəni inqilabi dövr kimi xarakterizə olunur. Dilin inteqral təsvirinə keçməyin vacibliyini ilk dəfə leksikoqrafiya çərçivəsində Jonson - Layrol müəyyən etmişdir. O, leksikoqrafiya reformasının əsas səbəbi və dilin inteqral təsvirinin işlənmə konsepsiyası kimi maşın tərcüməsi sistemləri layihəsini önə çəkərək qeyd edirdi: *"Maşın tərcüməsi kimi sahələr kompüterdə elmi cəhətdən əsaslanmış prinsipial linqvistik modellərin realizasiyasını tələb edirdi. Bu halda maşın tərəfindən edilən tərcümələrin keyfiyyəti linqvistik informasiyada istifadə olunan modelin qrammatik və leksikoqrafik komponentlərlə uzlaşması səviyyəsindən asılı oludu. Linqvistik təsvirin – dilin inteqral və ya vahid təsvirinin yeni tipi belə yarandı".* Bizim fikrimizcə, mətndə inteqral yanaşmanın yaranmasının əsas səbəbləri dil praktikasının bir sıra problemlərinin həll edilməsində kommunikativ sintaksisin qeyri-adekvatlığıdır. Mətnlərin avtomatik genera-

siyası sisteminin hazırlanması prosesində generasiya edilən mətnin ifadələrinin məhz hansı nitq tipinə aid olduğunu göstərmək vacibdir. Nitqin tipini isə yalnız ifadələr arasındakı münasibətləri struktur analiz (kommunikativ-sintaktik) etmək əsasında müəyyənləşdirmək sadəcə qeyri-mümkündür. Bununla bağlı Amerika alimləri tərəfindən təyinetmənin və izahın strukturunun ifadə növləri müəyyən edilmiş, ABŞ-ın hərbi-dəniz donanmasının məlumatlarının əsasında nitq tiplərinin bu elementlərinin avtomatik ümumiləşdirməsi sistemi işlənib hazırlanmışdır. Hərtərfli inteqral yanaşmanın vacibliyi bir çox mütəxəssislər tərəfindən qeyd edilmişdir. L.İ.Zilberman qeyd edirdi: *"Mətn linqvistikası ilə bu və ya digər şəkildə bağlı olan kifayət qədər işlərin olmasına baxmayaraq, onların hamısı mətnin müxtəlif aspektləri ilə bağlıdır və hələ ki, bizim fikrimizcə, məntiqi və kommunikativ planda linqvistik vahid olan mətnin hərtərəfli sistemli təfərrüatını verməyə cəhd göstərən tutarlı monoqrafiya yoxdur"* (4, s.25).

Bu aspektə həsr edilmiş əsərlərin təhlili bizim fikrimizcə, bütöv mətndəki struktur əlamətlərin xarakterinə müəlliflərin verdiyi tərifin mübahisəli olduğunu göstərir. Zənnimizcə, əgər mətn öz strukturuna malik sintaktik vahid hesab edilirsə, onda hər şeydən əvvəl həmin struktrun məhz bütöv mətn üçün xarakterik olan və onu başqa səviyyənin vahidi kimi cümlənin struktrundan fərqləndirən spesifikası göstərilməlidir. Əgər bütöv mətnin məhz bu spesifikası üzə çıxarılıb müəyyənləşdirilməyibsə, o, keyfiyyətcə xüsusi bütöv bir mətn kimi deyil, məhz bir-birilə öz aralarında dil vahidi-cümlənin müxtəlif tip sintaktik əlaqələri vasitəsilə bağlanmış nitq axını kimi meydana çıxacaq.

Mətn dilçiliyinin inkişafı, eləcə də mətnin mövcüdluğu ilə bağlı fikirlər struktur vahid kimi məhz mətnin öyrənilməsi üsullarının nəzərdən keçirilməsinin vacibliyini irəli sürür.

Ədəbiyyat

1. Золотова, Г.А. Коммуникативные аспекты русского синтаксиса / Г.А. Золотова. - Москва: Наука, - 1982. - 368 с.
2. Halliday, M.A.K., Hasan R. Linguistic Function and Literary Style: An enquiry into the language of William Golding's "The Inheritors" // Literary Style: a Symposium, - London-New York: Oxford University Press, -1971, - pp. 330-368.
3. Поспелов, Н. С. Проблема сложного синтаксического целего в современном русском языке // - Москва: Уч. Записки Моск.Гос.ун-та.,-1948. Вып.137, - с.120-133.
4. Зильберман, Л.И. Лингвистика текста и обучение чтению английской научной литературы / Л.И. Зильберман. - Москва: Наука, -1988. - 158 с.
5. Васильев, Л.М. Современная лингвистическая семантика / Л.М. Васильев. - Москва: Высшая школа, - 1990. - 176 с.
6. Нечаева, О.А. Функционально-смысловые типы речи (описание, повествование, рассуждение) / О.А. Нечаева. - Улан-Уде: Бурятское книжное изд-во, - 1974. - 261 с.
7. Новиков, А.И. Семантика текста и ее формализация / А.И. Новиков. – Москва: Наука, -1983. - 216 с.
8. Шендельс, Е.И. Грамматика текста и грамматика предложения // - Москва: Иностранные языки в школе, - 1985. №4, - с. 80-89.
9. Abdullayev, K.M.Azərbaycan dili sintaksisin nəzəri problemləri / K.M. Abdullayev. - Bakı: Maarif, - 1999. - 281 s.
10. Abdullayev, Ə.Ə. Aktual üzvlənmə və mətn / Ə.Ə. Abdullayev. - Bakı: Xəzər Universitetinin Nəşriyyatı, - 1998. - 190 s.
11. Məmmədov, A.Y. Dilçiliyin müasir problemləri / A.Y. Məmmədov. - Bakı: Elm, - 2008. - 91 s.
12. Кибрик, А.А. Когнитивные исследования по дискурсу // - Москва: Вопросы языкознания, - 1994. №5, - с.126-139.
13. Леонтев, А.А. Проблема субъективности в когнитивной лингвистике // - Москва: Известия РАН. Серия литературы и языка, - 2005. №1, - с.111-120.
14. Николаева, Т.М. Лингвистика текста // - Москва: Современное состояние и перопективы. Новое в зарубежной лингвистика, - 1977. №2, - с. 5-22.

15. Гиндин, С.И. Советская лингвистика текста // - Москва: Вестник АН СССР. Серия языка и литературы. – 1977. т. 136, №4, - с. 348.

16. Виноградов, В.В. Понятие синтагмы в синтаксисе русского языка. // - Москва: Вопросы синтаксиса современного русского языка, - 1950. №2, - с. 23.

Н.А.Гасанова

Зарождение и развитие лингвистики текста

Резюме

С конца 1940-х гг. он изучается в текстово-фонетическом, морфологическом и других направлениях и стал объектом лингвистических исследований. Впервые в лингвистике в 1952 году американский ученый З.Харрис в своей статье «Анализ текста» наряду с определением больших составных слов из речи отметил, что текст называется большим фрагментом речи. Вскоре после З.Харриса французский учёный З.Бенвенист интерпретировал речь как речь о говорящем. По мнению З.Бенвенист, это выражение сказанного.

По мнению Н.С.Росколева одного из первых исследователей в области текстовой лингвистики, истинная синтаксическая единица текстовой речи – это не простое и сложное предложения, а сложная синтаксическая единица, которая сохраняет свое синтаксическое бикини и независимость при удалении от нее контекст родственной речи.

Л.И.Зильбегман указывал, что одно из основных причин появления текста была вызвана экстралингвистическими факторами, связанными с научно-технической революцией и «информационным взрывом». Есть две основные причины возникновения и развития текстовой лингвистики:

1) Совершенствование текста (устный перевод, обучение чтению текста, лингвистическое обеспечение информационной системы), а также развитие соответствующих прикладных лингвистических дисциплин-лингвистической информатики, лингводидактики, лингвосемиотики под влиянием научно-технических революциях.

2) Неадекватность структурных и порождающих лингвистических методов без учета их использовании особенностей дискретных языковых единиц. Набор причин породил проблемную ситуацию-противоречие между языковой практикой и существующими языковыми концепциями.

Возникновение проблемных ситуаций и лингвистики текстов происходило в разное время в разных странах и особенности освоения национальной лингвистики не нашли своего отражения.

N.A.Hasanova

The Emergence and Development of Text Linguisties

Summary

Since the late 1940s it has been studied in text-phonetic, morphological and other directions and has become an object of linguistic research.

In 1952, for the first time in linguistics, the American scientist Z.Harris named the text larger unit than sentence, along with the definition of larger compounds than speech in his article “Analysis of the text”. Interestingly, shortly after Harris’ publication, the French scientist Emily Benvenist interpreted the statement as considering the speaker’s speech.

According to N.S. Pospelov, one of the first researchers in the field of text linguistics, the text, the true syntactic unit of related speech is not a simple and complex sentence, but a complex syntactic whole that retains its syntactic exhaustion and independence when removed from the context of related speech. Z.L. Zilberman painted out that one of the main reasons for the emergence of the text was caused by extralinguistic factors associated with the scientific and technological revolution and the “information explosion”.

We can say that there are two main interrelated reasons for the emergence and development of text linguistics:

1) Improving the text (interpretation, teaching to read the text, inguistic support of the information system), as well as the development of appropriate applied linguistic disciplines – areas of

activity related to linguistic informatics, linguodidactics, and linguosemiotics under the influence of the scientific and technological revolution;

2) In the context of the study of the characteristics of discrete language units inadequacy of structural and generative linguistic methods without taking into account their use. This set of reasons has led to a problematic situation – a contradiction between language practice and existing linguistic concepts.

The emergence of problem situations and of textual linguistics took place at different times in different countries, and the features of the development of national linguistics were not reflected there.

Rəyçi: filol.f.d., dos. S.Mustafayeva

Redaksiyaya daxil olub: 06.12.2021

S.HƏSƏNOVA
e-mail: sevda_teach@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

C.SELİNCERİN "ÇOVDARLIQDA UÇURUMDAN QORUYAN" ƏSƏRİNDƏ İŞLƏNMİŞ ARQOLARIN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ YOLLARI

Açar sözlər: *Jarqon, arqo, sleng, vulqarizm, xüsusi danışıq dili,*
Ключевые слова: *жаргон, арго, сленг, вульгаризм, особая разговорная лексика*
Key words: *Jargon, argo, slang, vulgarism, special colloguial vocabulary*

Həm arqo, həm də jarqonların yaranma tarixi Fransaya gedib çıxır. Fransız mənbələrində bildirilir ki, jarqon sözlər müəyyən peşə, fəaliyyət və ya qruplar tərəfindən işlədilən sözlərdir. Arqolar daha çox kriminal aləmdə *(underworld*) cinayətkarlar, oğrular tərəfindən gizli danışıqlar zamanı başqaları tərəfindən anlaşılmasın deyə istifadə olunan *"gizli dil"*dir *("secret language").* Gündəlik həyatımızda işlətdiyimiz bəzi ümumişlək sözlər kriminal aləmdə başqa mənalarda işlədilərək arqo sözlərə və ya başqa sözlə desək "*kriminal jarqonlar*"a (*criminal jargons*) çevrilir. "Məsələn, ingilis dilli kriminal aləmdə "*death*" və ya "*dead*" (*ölüm* və ya *ölü*) sözlərinin əvəzinə, "*raw*" (çiy ət), "*certain one*" (*müəyyən bir kəs*), "*thin*" (*zəif, gücsüz*) sözləri işlədilir" (4, s. 77) .

Arqoların, yəni kriminal jarqonların, əsasən, cinayətkarların polisə yaxalanmaması üçün yaratdığı söz və ifadələr olduğu deyilsə də, onların yaranmasının başqa səbəbləri də var. İngilis dilli bədii ədəbiyyatda, hətta poeziyada bu qəbildən olan jarqonlara rast gəlirik. Azərbaycan alimləri arqo və jarqon sözlərlə bağlı araşdırmaları zamanı rus mənbələrinə istinad etdiklərindən bu mövzuyla bağlı ziddiyyətli fikirlər də meydana gəlmişdir. Sovet dövründə fəhlə sinfinin dili arqo, əsilzadələrin isə jarqon adlandırıldığından bu anlayış tədricən dəyişmişdir. Bu iki terminr arasında çox incə fərqlər var. "Daha geniş mənada isə arqo hər hansı ixtisaslaşmış sözlər və ya müəyyən sinif və ya qrup tərəfindən istifadə olunan, lakin bütün cəmiyyət tərəfindən anlaşılmayan ifadələrdir" (3, s. 85).

Dildə çox istifadə olunan arqolara bədii ədəbiyyatda da rast gəlmək mümkündür. İndi isə C.Selincerin "Çovdarlıqda uçurumdan qoruyan"əsərində işlənmiş arqo sözlərin təsnifatı ilə tanış olaq: "If you get on the side where all the hot-shots are, then it's a game, all right - I'll admit that. But if you get on the other side, where there aren't any hot-shots, then what's a game about it?" (5, s. 9). "Yenə güclü olan tərəfə düşsən, bir təhri var, onda, doğrudan da, deyərsən ki, oyundur, mən razı. Bəlkə, o biri, zəif tərəfə düşdün, bəs onda necə olsun?" (2, s. 14).

Verilmiş nümunədə müəllif sinfi arqo nümunəsi işlətmişdir. Bu isə baş obrazın üsyankar xarakterinin üzə çıxarılmasında mühüm rol oynayır. "Hot-shot" sözünün ədəbi dildəki sinonimi "winner" sözüdür. Hərfi mənada "güclü", "qalib" deməkdir. Tərcüməçi sözügedən arqonu hərfi mənada "güclü" kimi tərcümə etmişdir. Lakin tərcümənin obrazlılıq dərəcəsini artırmaq naminə dilimizdə həmin arqoya ekvivalent olan bir sinfi arqodan istifadə etmək daha məqsədəuyğundur. Məsələn, "güclü" sözünün əvəzinə "cibi qalın" və ya "vəziyyəti saz" tipli arqolar tərcümənin daha obrazlı edərdi. Məsələn: "You should see old Ossenburger. He probably just shoves them in a sack and dumps them in the river. Anyway, he gave Pencey a pile of dough, and they named our wing alter him" (5, s. 17) "Kaş bu Ossenberger dediyimin özünü görəydiniz! İnandırıram ki, beləsi o yazıq ölüləri kisələrə doldurub çayyuxarı axıdar, heç uf da deməz. Nəsə, hər halda, o, Pensiyə bir kisə pul bağışlamışdı, onlar da buna görə bir korpusa onun adını vermişdilər" (2, s. 23)

Mətndə işlənmiş “dough” arqo kimi Amerika danışıq dilinə xas olan, sıx-sıx rast gəlinən bir nümunədir. İngilis dilində sinonimi “money” və “income” sözləridir. Mütərcim bu arqonun tərcüməsini “pul” şəklində vermişdir. Burada bir daha arqo sözün tərcüməsinin adi sözlə verilməsinin şahidi oluruq. Hər halda mütərcim həmin sözü dilimizdəki arqo ekvivalenti ilə verə bilər, və ya söz səviyyəsində tərcümə etmək yerinə “pul saymaq”, “cibini doldurmaq” kimi ifadələrdən istifadə edə bilərdi. Məsələn: “I didn't have anything special to do, so I went down to the can and chewed the rag with him while he was shaving” (5, s. 28). “Elə bir işim olmadığına görə mən də durub əl-üz yuyulan otağa getdim. İstəyirdim, o üzünü qırxıb qurtaranacan bir az laqqırtı vuraq” (2, s. 35).

Nümunədə işlənmiş “chewed the rag” ifadəsi arqo səciyyəlidir. Ədəbi dildəki sinonimi “to chat”-dir. Mütərcim ifadənin tərcüməsini ekvivalent üsuldan istifadə edib “laqqırtı vurmaq” ifadəsi ilə verməklə ifadəliliyi təmin etmişdir.

“Jane said he was supposed to be a playwright or some goddam thing, but all I ever saw him do was booze all the time and listen to every single goddam mystery program on the radio” (5, s. 34).“Ceyn deyirdi ki, yazıçıdır, pyes-zad yazır. Amma düzünü Allah bilir, çünki mən onu həmişə möhkəm içən və sarsaq radio-detektivlərə qulaq asan görmüşəm” (2, s. 42).

Nümunədə işlənmiş “booze” sözü arqodur və Amerikanın danışıq dilində geniş istifadə olunur. Ədəbi dildəki sinonimi “to drink” və “to be drunk” sözləridir. Müəllif sözün tərcüməsini “möhkəm içmək” şəklində vermişdir. Bunun yerinə “içib dəmlənmək” kimi arqo səciyyəli ifadədən istifadəsi daha məqsədəuyğundur.

“It was supposed to be a big deal, because they gave you steak. I'll bet a thousand bucks the reason they did that was because a lot of guys' parents came up to school on Sunday, and old Thurmer probably figured everybody's mother would ask their darling boy what he had for dinner last night, and he'd say, "Steak." What a racket. You should've seen the steaks. They were these little hard, dry jobs that you could hardly even cut” (5, s. 37). “Bu, bizim üçün əsl bayram sayılırdı, çünki hər şənbə axşamı şama bifşteks verirdilər. Bunu qəsdən eləyirdilər. İstəsəniz, lap min dollardan mərc gələrəm, çünki hər bazar valideynlərin çoxu məktəbə, öz uşaqlarını görməyə gəlirdi və çox güman, qoca Termer əlinin içi kimi bilirdi ki, hər bir ana öz əziz-xələf oğlundan axşam nə yediyini soruşacaq. Onda o da deyəcək ki: «Bifşteks». Fırıldağa bax! Kaş siz o bifştekləri öz gözlərinizlə görmüş olaydınız. O qədər xırda və o qədər bərk idilər ki, onları heç bıçaq da kəsmirdi” (2, s. 45).

Bu nümunədə üç arqo işlənmişdir. Birinci arqo ifadə tərkibində işlənmiş “bucks” sözüdür. Bu sözün ədəbi dildəki sinonimi “dollar” sözüdür. Mütərcim bu arqonun tərcüməsini elə “dollar” olaraq verməklə söz səviyyəsində tərcümə etmişdir. İkinci arqo isə “What a racket” ifadəsidir. Bu ifadə eyni zamanda frazeoloji birləşmədir. Müəllif bu ifadəni cümlə səviyyəsində ekvivalent üsulu ilə tərcümə edərək “Fırıldağa bax!” şəklində verməklə obrazlılığı qorumağa nail olmuşdur.

“He was really furious. "You always do everything backasswards." He looked at me. "No wonder you're flunking the hell out of here," he said. "You don't do one damn thing the way you're supposed to. I mean it. Not one damn thing."” (5, s. 43). “Özündən çıxdı. – Hər işi tərsinə görürsən. – Dönüb üzümə baxdı. – Elə yaxşı eləyib səni bayıra atıblar, – dedi. – Heç vaxt heç bir işi adam kimi görmürsən. Heç vaxt. Heç bir işi!” (2, s. 51).

Bu nümunədə isə həm vulqar söz, həm də arqo səciyyəsi daşıyan iki söz işlənmişdir. Bunlardan biri “backasswards” sözüdür ki, ədəbi dildə qarşılığı “backwards” sözüdür. Bu söz “tərsinə” sözü ilə tərcümə etmişdir. Burada obrazlılığı saxlamaq üçün “kəllə-mayallaq” və ya “baş-ayaq” ifadələrindən istifadə etmək daha yaxşı olardı. Digər arqo isə “flunking the hell out” birləşməsində özünü göstərir. “Flunk” sözünü hərfi tərcüməsi “axsamaq”, “geridə qalmaq”, “uğursuzluğa düçar olmaq”dır. Mütərcim həmin ifadənin tərcüməsi zamanı söz birləşməsi səviyyəsində ekvivalent tərcümədən istifadə edərək ifadəni “bayıra atıblar” şəklində vermiş və obrazlılığı qismən saxlaya bilmişdir. Dilimizdə həmin ifadənin ekvivalent formaları

“cəhənnəmlik etmək”, “rədd etmək” birləşmələri bu ifadənin daha obrazlı verilməsində faydalı ola bilərdi: “Relax," I said. "Nobody's making any cracks about your goddam religion." I got up off Ely's bed, and started towards the door” (5, s. 53). “Yaxşı, yaxşı. Çıxma özündən. Heç kim sənin dinini lağa qoymaq fikrində deyil. – Elin çarpayısından durub qapıya sarı yollandım” (2, s. 62).

Burada işlənmiş arqo “crack” sözüdür. Bu sözün ədəbi dildə qarşılığı “to make fun of” ifadəsidir. Müəllif bu sözün tərcüməsini ekvivalent üsulla “lağa qoymaq” şəklində vermişdir. Məsələn: “After I got all packed, I sort of counted my dough. I don't remember exactly how much I had, but I was pretty loaded. My grandmother'd just sent me a wad about a week before. I have this grandmother that's quite lavish with her dough. She doesn't have all her marbles any more - she's old as hell - and she keeps sending me money for my birthday about four times a year” (5, s. 55). “Şeylərimi yığışdırandan sonra pullarımı saydım. İndi yadımda deyil nə qədər idi, amma onu bilirəm ki, çoxdur. Nənəm mənə elə keçən həftə pul göndərmişdi. O, pula qızırqalanan adam deyil. Həm də başı da bir balaca xarab olub, yaşı yüzü çoxdan haqlayıb – ildə düz dörd dəfə mənə pul göndərib ad günümü təbrik eləyir” (2, s. 64).

1-ci cümlədəki “dough” sözü əsərin ayrı hissələrində də işlənmişdir. Tərcüməçi həmin sözü “pul” kimi tərcümə edib. 2-ci cümlədə işlənmiş “loaded” sözü də arqodur və ədəbi dildə mənası “to have a lot of money”-dir. Mütərcim həmin sözün tərcüməsini kompensasiya üsulundan istifadə etməklə əvvəlki cümləyə əsasən “çoxdur” şəklində verib. 3-cü cümlədə verilmiş “wad” sözü də arqodur, “dough” sözünün sinonimidir. Həmin söz də hədəf mətndə “pul” şəklində verilmişdir. 4-cü cümlədə “lavish” sözü arqotizmdir və ədəbi dildə qarşılığı “abundant”, “excessive” sözləridir. Həmin cümlə ümumilikdə antonim tərcümə olunduğundan həmin söz də antonim tərcümə üsulu ilə “pula qızırqanan deyil” şəklində verilib.

“One of those stories with a lot of phony, lean-jawed guys named David in it, and a lot of phony girls named Linda or Marcia that are always lighting all the goddam Davids' pipes for them. I can even read one of those lousy stories on a train at night, usually” (5, s. 57). “O hekayələri ki, onlarda, adətən, Linda və ya Marsiya adlı qızlar Devid adlı yastısifət oğlanlara qəlyan yandırırlar. Gecə qatarında hətta bu cür zirzibilləri oxumaq da məni bezikdirmir” (2, s. 66).

Bu nümunədə üç arqo işlənmişdir. Birincisi “phony” sözüdür. Bu arqo baş qəhrəmanın filində çox işlənməklə onun xarakterini üzə çıxaran sözlərdən biridir. Sözügedən arqonun ədəbi dildə qarşılığı “fake” sözüdür və əsərdə ən çox istifadə olunan arqolardan biridir, insanların psixoloji durumu ilə əlaqədar işlənir. Verilmiş nümunədə də elədir, lakin mütərcim həmin arqonu ixtisar etməyə üstünlük verib. İkinci arqo isə “lean-jawed” sözüdür. Arqo kimi bu sözün ədəbi dildə qarşılığı yoxdur. Hədəf mətndə onun əvəzinə “yastısifət” sözünü işlətməklə mütərcim obrazlılığı saxlamağa nail olub. Üçüncü arqo “lousy stuff” birləşməsidir. Ümumiyyətlə, “lousy” və “stuff” sözləri ayrılıqda da əsərdə olduqca çox işlənmişdir. Birləşmənin tərcüməsi “zirzibil” olaraq verilib və ifadəlilik təmin olunub: “I hate saying corny things like "traveling incognito." But when I'm with somebody that's corny, I always act corny too” (5, s. 65). “Bu cür “inkoqnito” kimi çeynənmiş sözlərdən zəhləm gedir. Ancaq səfeh adamla, gərək, səfeh dilində danışasan” (2, s. 74).

Əsərdəki “corny” sözünün ədəbi dildə qarşılığı “old-fashioned” və “outdated” sözləridir. Bu söz tərcümə mətnində “çeynənmiş” kimi verilmişdir və obrazlılığın qorunması cəhətdən qənaətbəxşdir. Sözügedən jarqon isə “incognito” sözüdür. Bu söz italyan mənşəlidir və dilimizə də transkripsiya üsulu ilə tərcümə olunur. Əsərdə söz istifadə olunduqdan sonra yenidən sözə istinad olunduğu üçün tərcümədə transkripsiya üsulundan istifadə qaçılmaz olmuşdur. Məsələn: “It's no fun to be yellow. Maybe I'm not all yellow. I don't know. I think maybe I'm just partly yellow and partly the type that doesn't give much of a damn if they lose their gloves” (5, s. 97). “Ağciyər olmaq da bir şey deyilmiş. Bəlkə də, mən heç o qədər ağciyər deyiləm. Mən haradan bilim? Bəlkə də, bunun bir səbəbi qorxaqlığımdadırsa, o biri səbəbi, sadəcə, əlcəyimin itdiyini vecimə almamağımdır” (2, s. 107).

Mətndə verilmiş “yellow” sözü hərfi mənada rəng bildirsə də, mətndəki kontekstdə “qorxaq” deməkdir və ədəbi danışıq dilində qarşılığı “coward” sözüdür. Müəllif burada ekvivalent tərcümədən istifadə etməklə həmin arqonun tərcüməsini dilimizdəki arqo ekvivalenti ilə “ağciyər” şəklində vermiş, bədii obrazlılığın qorunmasına və məna ekvivalentliyinə nail olmuşdur.

Beləliklə, arqo sözlər bir dildən başqa bir dilə tərcümə edilərkən mütərcim həm millilikdən, bədii əsərin kontekstindən uzaqlaşmamalı, həm də hədəf dilin tələblərinə cavab verməli, məxəz mətn yazarının düşüncəsinə yol tapmalıdır.

Ədəbiyyat

1. Bayramov, Q. Tərcümə sənəti. – Bakı: OKA Ofset nəşriyyatı, 2008. – 218 s.
2. Selincer, C.D. Çovdarlıqda uçurumdan qoruyan. – Bakı: Qanun nəşriyyatı, - 2015. – 256 s.
3. Bussmann, H.Routledge dictionary of language and linguistics; translated and edited by Gregory Trauth and Kerstin Kazzazi.-Taylor & Francis e-Library, -1998. – 1335 s.
4. Lombroso, C. – Duke University press, 2006. – 334 s.
5. Jerome David Singer-Catcher in the rye. “Penguin Group”. London, 2010, 230 p.

С.Гасанова

Перевод слов арго в произведении Сэлинджера «Над пропастью во ржи» на азербайджанский язык

Резюме

Статья представляет собой попытку изучить группу слов под названием арго. Автор изучает историю и современное состояние изучения этой категории слов и пытается описать их роль и значение в переводе, приводя примеры из разных языков, в частности из английского и азербайджанского.

S.Hasanova

Translation of argo words in Salinger`s “The catcher in the Rye” into Azerbaijani

Summary

The Article is an attempt to study a group words, which are termed as argos. The author makes an excursion into the history and the present state of studies concerning of this category of words and tries to describe their role and importance in translation by demonstrating examples from different languages, particularly from English and Azerbaijani.

Rəyçi: filol.f.d. C.M.Babayev

Redaksiyaya daxil olub: 24.10.2021

R.K.HEYDƏROV
baş müəllim
e-mail: heyderovrafael@ gmail.com

Lənkəran Dövlət Universiteti
(Lənkəran şəh., general Həzi Aslanov xiyabanı, 50)

İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞDİRİLMƏSİNDƏ İDİOMLARIN ROLU

Açar sözlər: *lüğət tərkibi, idiomlar, sintaksis, zənginləşmə, rol*
Ключевые слова: *словарный состав, идиомы, синтаксис, обогащение, роль*
Key words: *vocabulary, idioms, syntax, enrichment, role*

Məlumdur ki, dildə olan sözlərin hamısı o dilin lüğət tərkibini təşkil edir. Dilçilik ədəbiyyatnda dilin lüğət tərkibindən danışarkən, onu lüğət tərkibi və əsas lüğət fondu kimi iki hissəyə ayırırlar.

Dilin lüğət tərkibində lüğət fondunun mühüm rolu vardır. Əsas lüğət fondu qrammatik quruluşla birlikdə dilin əsasını, onun spesifikasının mahiyyətini təşkil etdiyi kimi, dilin sabitliyini, orijinallığını saxlayır və xarici təsirə qarşı güclü müqavimət göstərir.

Bildiyimiz kimi, sözü xalq yaşadır. Sözün yaranma tarixi hər bir xalqın əmək fəaliyyətinin nəticəsidir. Dildə olan sözlərin yaranmasının bir sıra spesifik xüsusiyyətləri vardır. Dil, istisnasız olaraq, insanın hər cür əmək fəaliyyəti ilə əlaqədardır. Buna görə də, dilin lüğət tərkibi daim inkişaf və dəyişmə halında olur. Dil, birinci növbədə dilin lüğət tərkibi, cəmiyyətin tərəqqisi ilə əlaqədar olaraq inkişaf edir, dəyişir.

Dilin lüğət vahidi olan söz və onun quruluşu, onların nitq hissələri üzrə qruplaşdırılması morfologiyada öyrənilirsə, sintaksisdə söz birləşmələrinin bir ünsürü və cümlənin üzvü kimi öyrənilir.

Sözlərin bir-biri ilə əlaqələnməsi nəticəsində söz birləşmələri və cümlələr əmələ gəlir ki, bunun nəticəsində də insan fikirləri maddi dil şəklinə düşür.

Söz birləşmələrindən danışarkən, qeyd etmək lazımdır ki, onların sərbəst söz birləşmələri və sabit söz birləşmələri kimi iki növü var.

Tərkib hissələrinə parçalandıqda mənasını saxlayan söz birləşməsinə sərbəst söz birləşməsi deyilir. Məsələn: *a green leaf – yaşıl yarpaq.*

Bildiyimiz kimi, sərbəst söz birləşmələrini təşkil edən sözləri hər vaxt dəyişdirmək olur və bununla yeni söz birləşməsi yaranır. Məsələn: *a dry leaf -quru yarpaq.*

Tərkib hissələrinə parçalandıqda mənasını itirən söz birləşməsinə sabit söz birləşməsi deyilir. Məsələn: *to put off – təxirə salmaq, to give up – tərkitmək (2, s. 114).*

Sabit söz birləşmələrində isə tərəflərin heç birini dəyişdirmək olmur. Dəyişdirdikdə isə, birləşmənin mənası tamamilə dəyişir. Məsələn: *to put on –geyinmək, to get on with – yola getmək* (5, s. 164).

Məlum olduğu kimi, idiomlar sabit söz birləşmələrinin bir növüdür.

Həqiqi mənalı sözlərin qarşılığı olub, onu məcazi məna ilə bildirən sabit söz birləşməsinə idiom deyilir (3, s. 89).

Başqa sözlə, idiomlar sözün lüğəti mənasından fərqli işlənən variantıdır. İdiomlar idiomatik vahidlər də adlanır. İdiomlar söz və ya cümlə şəklində işlənə bilər.

İdiomlar öz quruluşu və semantikasına görə sabit söz birləşmələrinin mürəkkəb sözlərə daha yaxın olan ən maraqlı və həm ədəbi, həm də şifahi dildə çox işlənən bir qrupunu təşkil edir.

İdiomlar bir çox cəhətdən sabit söz birləşmələrinin başqa qruplarına oxşasalar da, onlardan özünəməxsus bir xüsusiyyəti ilə fərqlənir.

İdiomların ifadə etdiyi məfhum başqa sabit söz birləşmələrinə nisbətən konkret olur. İdiomlar bu və ya digər sözün ekvivalenti, məcazi məna ilə verilən sinonimi kimi dildə özünü göstərir və formaca mürəkkəb sözlərə oxşayır.

Məsələn: *to pick out – seçmək, to take one's time – tələsməmək, to get along(with) – xasiyyəti düz gəlmək, yola getmək, to take part in – iştirak etmək, to go on – davam etmək, to break up - əlaqəni (münasibəti) kəsmək, üzülüşmək. in no time – çox tezliklə, sürətlə, to give up – tərkitmək, to catch up – ayaqlaşmaq, to take one's time – tələsməmək, to break up - əlaqəni kəsmək, to catch up – ayaqlaşmaq, to make head or tail of – başa düşmək, to take something easy – ürəyinə salmamaq, in the same boat – oxşar vəziyyətdə, in spite oneself – özünün iradəsinə qarşı, all along – lap əvvəldən* (4, s. 43)**.**

İngilis dili idiomlarla zəngin bir dildir.Yerli adamlar, demək olar ki, hər iki-üç cümlədən bir idiom işlədirlər.Hətta onlar idiomu işlədəndə bunun fərqinə varmırlar ki, onlar sözləri əsl mənada, yoxsa idiom kimi məcazi mənada işlədirlər.Çünki bu dili yaxşı bilənlər çoxlu idiom da bilirlər və bu idiomlar o qədər tez-tez işlənir ki, onların əsl və ya məcazi məna daşıdığının fərqinə fikir vermirlər.

Məsələn: *to drive at – eyham vurmaq, to keep (a thing) dark – bir şeyi sirr kimi saxlamaq, to be at one's wits' end – nə etdiyini və ya dediyini bilməmək, to put one's foot down – öz münasibətində möhkəm olmaq, to make a point of – təkid etmək, to wash one's hands of – məsuliyyəti üstündən atmaq, in no time – sürətlə, to cut down on – azaltmaq, to figure out – həll etmək, to look out – ehtiyatlı olmaq, to get over – xəstəlikdən sağalmaq, to call off – təxirə salmaq, to be in (someone's) shoes – başqa birisinin vəziyyətində olmaq, to take out – kənarlaşdırmaq, to brush up on – yaddaşını təzələmək, to get rid of – canını qurtarmaq, to come from – mənşəyini götürmək, on the ball – diqqətli* (4, s. 190).

İdiomlar bizə fikrimizi daha ifadəli və aydın çatdırmaqda kömək edir. İngilis dilində bir sıra məfhumlarla bağlı çoxlu idiomlar vardır. Bu idiomların bəzilərinə açıqlama versək, aydın olar ki, Azərbaycan dilində də bu idiomların qarşılığı vardır.

Bu idiomların Azərbaycan dilinə tərcüməsini üç qrupa bölmək olar.

Birinci qrupa daxil olan idiomların Azərbaycan dilində eyni sözlərdən ibarət qarşılığı vardır. Məsələn: *an act of God* idiomunda *act – hərəkət, iş* və *God – Allah* sözləri dilimizə "Allahın işidir" kimi tərcümə olunur ki, hər iki dildə bu idiom eyni mənada işlənir. Bu idiom insanın gücü, qüdrəti xaricində olan hadisələr barədə - zəlzələ, yağış, qar, tufan kimi təbiət hadisələrində və ya təsadüflər barədə işlədilir.

Məsələn: It will rain or not. I can't say. It is *an act of God – Yağış yağacaq, ya yox. Deyə bilmərəm.Allahın işidir.*

Başqa bir idiom yaranmış xoşagəlməz vəziyyəyti bir qədər də pisləşdirməyə çalışanlar barəsində işlənir. Məsələn: to *add fuel to the fire – odun üstünə yanacaq tökmək.*

Hər iki dildə olan bu idiomun tərkibinə daxil olan sözlər həm hərfi, həm də məcazi mənada eynidir.

Daha bir neçə idioma nəzər salaq. Məsələn: *to give somebody a hand –kiməsə əl tutmaq, kömək etmək, to break somebody's heart – kimisə pərt etmək, ümidsiz etmək, qəmləndirmək və s.* mənalarda işlənir. Azərbaycan dilində işlənənvariant *kiminsə ürəyini qırmaq, qəlbinə dəymək* idiomu da eyni sözlərdən ibarətdir. John *broke hismother's heart* when he dropped out of school – Con məktəbi atmaqla *anasının qəlbinə dəydi*.

*By oneself – tək, heç bir kömək olmadan, müstəqil.*I can't *do* this work *by myself.* Can you help me? – Mən bu işi *tək* edə bilmərəm. Sən mənə kömək edə bilərsənmi? *To change one's mind – fikrini dəyişmək.*I *changed my mind.* I don't come with you – Mən *fikrimi dəyişdim*. Mən sənlə gəlmirəm.

İkinci qrupa daxil olan idiomlar eyni sözlərdən təşkil olunmuş, eyni mənaları verən, müxtəlif dillərdə işlənən idiomlardır. Məsələn: *to zip one's lip – ağzını qıfıllamaq, sirr saxlamaq*. Yenicə deyilmiş, yenicə eşidilmiş bir fikrin başqasına deyilməməsinə söz vermək

mənasında işlənən bu idiom *zip – qıfıl, lip – dodaq* sözlərindən qurulub. Eyni mənada Azərbaycan dilində *Ağzını qıfılla* idiomu işlənir ki, hər iki dildə eyni sözlərdən ibarət idiomun şahidi oluruq.Misalların sayını çox uzatmaq olar. Lakin tərcümə yollarına görə ikinci növ adlandırdığımız idiomlardan da danışmaq mıqsədilə bu idiomların bir neçəsini araşdıraq.

Məsələn*: I'm all thumbs - yöndəmsiz, iş bacarmayan adamlar* barəsində işlənir.

Azərbaycan variantında *"əlləri bişib"* idiomu işlənir ki,bu da ingilis variantından bir sözlə-*bişib* sözü ilə fərqlənir.

He is asleep at the switch – Onun heç nədən xəbəri yoxdur. Azərbaycan variantında *a switch - ox* sözü *fil qulağı* ilə əvəz olunur. Azərbaycan dilinə *O, fil qulağında yatır* kimi tərcümə olunur.

Tom is a real ball of fire – Tom əsl od parçasıdır. Bu idiom yaxşı mənada işlənir. İdiomu fərqləndirən *a ball – top* sözüdür ki,Azərbaycan variantında *parça* sözü ilə əvəz olunur.

All ears – nə barədəsə eşitməkdə marağı olanlar barədə işlənir. Hərfi tərcüməsi *bütün qulaqlar* olan bu idiomun yerində Azərbaycan dilində *qulaqlar üstə qalmaq* idiomu işlənir.

Məsələn: *I'm all ears to know when they will come – Qulaqlar üstə qalmışam ki, onlar nə vaxt gələcəklər.*

A fool at 40 is a fool forever – bu idiomun hərfi tərcüməsi *40 yaşında axmaq həmişəlik axmaq olaraq qalacaq* deməkdir. Azərbaycan dilində də bu mənada *Qırxında öyrənən gorunda çalar* idiomu işlənir ki, bu da həm bəzi sözlər, həm də işlənmə yerinə görə bir qədər fərqlənir.

As easy as a pie – çox asan mənasını verən idiomun Azərbaycan variantı *a pie - piroq*sözünün *su* sözü ilə əvəzlənməsi vasitəsilə düzəlir. As easy as a pie – su kimi asan.

To be fed up with – kimdənsə, nədənsə bezəndə işlədilir. Azərbaycan dilində eyni sözlərdən ibarət olan *cana doymaq, bezmək, boğaza yığılmaq* kimi variantı işlənir. Məsələn: *I am fed up with you – Məni bezdirmisən.*

Növbəti idiomda *tofill - doldurmaq* sözü *geyinmək* sözü ilə əvəz olunan *No one can fill his shoes – Heç kim onun ayaqqabılarını doldura bilməz* idiomu Azərbaycan dilində *Onun ayaqqabılarını heç kim geyinə bilməz* kimi işlənir. İşlənmə yerləri isə hər iki dildə eynidir. *Kiminsə heç kim tərəfindən əvəz oluna bilməməsi* mənasında işlənir.

Məsələn: He is a very talented actor.No one *can fill his shoes* – O, çox istedadlı aktyordur.Heç kim onu *əvəz edə bilməz.*

Daha bir neçə idiomu da nəzərdən keçirməklə fikrimizi tam təsdiqləmiş olarıq.

1. *Go fly a cat – Çıx get buradan.*

2. *Don't darken my door* again – Bir daha *buralarda görünmə.*

3. It happens *once in a blue moon* – Bu,*heç vaxt* baş vermir.Bu mənada Azərbaycan dilində *qum göyərəndə* ifadəsi işlənir.

4. Mother*will hit the ceiling* when she sees this mess – Ana bu qarışıqlığı görsə, *çox əsəbiləşər*.

5. *To be still on the fence – Hələ havadan asılı qalıb.* Bir işin və yaxud məsələnin necə həll olunmasına qərar verilməyən zaman işlənir.

Üçüncü qrupa daxil olan idiomlar adlandırdığımız, yəni mənalarına görə eyni, söz tərkiblərinə görə isə tamamilə fərqlənən idiomların bəzilərinə müraciət edərək, fikrimizi təsdiqləməyə çalışaq.

İngilis dilində elə idiomlar vardır ki, onların işləndiyi mənalarda Azərbaycan dilində də idiomlar var. Amma mənaca tam eyni olan belə idiomlar tamamilə ayrı – ayrı sözlərdən yaranmışdır. Məsələn: 1. *Keep the ball rolling – İşində ol.*

2. *To do on a shoestring – Sıfırdan başlamaq.*

3. *It is raining cats and dogs – Şıdırğı yağış yağır.*

4. *He lost his shirt on that bet – O, bir həsirdir, bir Məmmədnəsir.*

5. *I would give my right arm to know what he said – Həyatımdan keçərdim.* Bu idiom bir kəsin nə dediyini bilməkdən ötrü çox qiymətli varından əl çəkmək niyyətində olanlara aiddir.

Qeyd etdiyimiz kimi, idiomlardan bütün üslublarda istifadə olunur, lakin idiomların ən çox və hərtərəfli istifadə meydanı bədii üslubdur.

İdiomların üslubi imkanları, hər şeydən əvvəl, onların ayrı- ayrı sözlərə, ifadələrə sinonim ola bilməsi ilə izah edilir və məhz sinonimliklə də onların üslubi məqamları müəyyənləşir.

İdiomların xüsuyyətlərindən biri də budur ki, onlar milli formanın əlamətdar cəhətlərindəndir, hətta bəzi idiomlar bu və ya digər tarixi hadisə, etnik ənənə, təfəkkür tərzi və dünyagörüşünün tipik izini saxlayan, əks etdirən vahidlərdir. Elə buna görə də idiomlar, əsasən, başqa dilə kəlmə - kəlmə tərcümə edilməz. Məsələn: *to be at one – razılaşmaq, kiminsə fikrini bölüşmək.I am at one with* you – *Mən səninlə razıyam.*

Əgər idiomları başqa bir dilə kəlmə - kəlmə tərcümə etsək, bu idiomlarda ifadə olunan məna təhrif edilər, hətta çox əcayib ifadələr yaranar. Buna görə də idiomlar hər bir dilin xüsusi milli rəngi hesab olunur.

Deməli, idiomlar milli kolorit vahidləri kimi də bu və ya digər üslubda, xüsusən bədii üslubda istifadə edilə bilər.

Belə bir faktı da qeyd etməliyik ki, bəzən eyni mənbə ilə əlaqədar olaraq meydana çıxan bu və ya digər anlayış müxtəlif dildə ya eyni lüğəvi tərkiblə, ya oxşar halda idiomlaşmış olur; bəzən isə müxtəlif dildə olan belə eyni lüğəvi tərkibli idiomlar kalka əsasında tərcümə nəticəsində də yaranmış olur.

İdiomların üslubi məqsədəuyğunluq əsasında istifadəsi onların həm quruluş, həm də ekspressivlik cəhətləri ilə üzvi surətdə bağlı olur. Belə cəhətlər isə, ümumiyyətlə, sözlərin üslubi cəhətlərinə görə təbəqələşdirilməsində nəzərə alınan əlamətlərə az-çox müvafiq gəlir; buna görə də idiomların üslubi qrupları sözlərin üslubi qruplarından az fərqlənir.

İdiomların quruluşundan bəhs edərkən, qeyd etmək lazımdır ki, ümuləşmiş halda onları üç qrupa bölmək olar:

1) İdiomatik sözlər,
2) İdiomatik ifadələr,
3) İdiomatik cümlələr.

İdiomatik sözlər müasir ingilis dilində çox məhdud miqdardadır, həm də belə sözlər daha çox məcazi mənalı sözlərin müxtəlif çalarlıq növlərinə mənsub olduqlarından, üslubi məqsədlə istifadə xüsusiyyətləri də məcazi mənalı bu və ya digər sözə müvafiqdir. (6, s. 170).

İdiomatik ifadələrin quruluşu ilə əlaqədar bir sıra əlamətdar cəhətlər var ki, bunlar idiomatik ifadələrin üslubi məqsədəuyğun istifadəsində mütləq nəzərə alınmalıdır. Belə əlamətdar cəhətlər isə aşağıdakılardan ibarətdir:

İdiomatik ifadələr ya iki söz, ya üç söz, bəzən dörd və daha artıq sözlərin birləşməsindən ibarət olur. Belə birləşmələrdəki sözlərin (xüsusən iki və ya üç sözdən ibarət olan ifadələrdə) hamısı, yaxud bir qismi müstəqilliyini ya tamamilə, ya da qismən itirmiş olur. Buna görə də idiomatik ifadələrin bəzisi öz lüğəvi müstəqilliyini itirmiş olan sözlərdən düzəlir və üzvlərinə ayrılmayan vahid halında sabitləşmiş olur (6, s. 170).

İdiomatik cümlələr idiomatik vahidlərin quruluşca üçüncü qrupunu təşkil edir. Doğrudur, belə idiomlar azdır, çünki ümumiyyətlə son hissəsi feillərdən olan cümlə nümunəli idiomlar məsdər şəklinə salınaraq idiomatik ifadələr qrupuna daxil edilir.

Belə idiomların məqamdan asılı olaraq, gah cümlə, gah ifadə halına salına bilməsi məhz bunların üslubi imkanlarındandır.

Lakin elə idiomlar da var ki, bunları quruluşca ancaq cümlə kimi tanımaq lazımdır. Belə idiomatik cümlələrdən bəzisinin birinci hissəsi ya müstəqil xəbərlə, ya feili bağlama ilə, bəzən də feili sifətlə, feili isimlə ikinci hissəyə bağlanır. İkinci hissəsi isə ya feildən, ya da başqa nitq hissəsindən düzələn xəbər olur. Belə idiomlarda feillə bitən ikinci hissəni məsdər şəklinə

salmaq mümkün olsa da, bunlar ümumilikdə idiomatik ifadələrdən quruluşca fərqlənir və cümlə mahiyyəti daşıyır (6, s. 172).

Beləliklə, yuxarıda qeyd olunanlardan aydın olur ki, ingilis dilinin lüğət tərkibinin zənginləşdirilməsində idiomların xüsusi rolu vardır.

Ədəbiyyat

1. Аракин В.Д. Англо-русский словарь. Москва: Русскийязык, 1980
2. Arnold I.V. The English Word. Moscow: Visshaya shkola, 1973
3. Cəfərov S.Ə. Müasir Azərbaycan dili (II hissə). Bakı: Şərq-Qərb, 2007
4. Robert J.Dixon. Essential Idioms in English.Fifth Edition.Longman. longman.com
5. Stuart Redman. English Vocabulary in Use. Cambridge University Press-2011
6. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: 1962
7. www.junglepub.org
8. www. learn-english-today.com
9. www. learnenglish.de
10. www. spellzone.com

Р.К.Гейдаров

Роль идиомов в обогащении словарного состава английского языка

Резюме

Статья посвящена роли идиомов в обогащении словарного состава английского языка. Обьясняется роль идиомов в обогащении словарного состава английского языка на основе конкретных примеров. С этой целью многие идиомы исследуются.

R.K.Heydarov

The role of idioms in enrichment of the English vocabulary

Summary

The article deals with the role of idioms in enrichment of the English vocabulary. The role of idioms in enrichment of the English vocabulary is explained and concrete examples are provided. With this purpose many idioms reinvestigated.

Rəyçi: filol.e.f.d., dos. Y.Cavadova

Redaksiyaya daxil olub: 15.12.2021

İ.Ç.İBRAHİMOVA
e-mail: iradeibrahimova51@gmail.com

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec
(Bakı şəh., Heydər Hüseynov küç., 19)

İNGİLİS DİLİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ ZƏNGİNLƏŞMƏ YOLLARI

Açar sözlər: *ingilis dili, leksika, lüğət tərkibi, alınmalar, söz yaradıcılığı*
Ключевые слова: *английский язык, лексика, словарный состав, заимствования, словообразования*
Key words: *the English language, lexis, vocabulary, borrowings, word formation*

Müasir dövrdə ingilis dili bütün dünyada böyük nüfuza malik olan bir dildir. Beynəlxalq dil statusuna malik olan ingilis dili, demək olar ki, artıq bu gün insan fəaliyyətinin bütün sahələrində geniş istifadə olunur. İngilis dilinin dünya miqyasında geniş yayılması və onun mövqeyinin get-gedə daha da güclənməsi bu dilin hər tərəfli araşdırılmasına zəmin yaradır. Ən çox maraq doğuran məsələlərdən biri də ingilis dilinin tarixi, onun yaranması ilə bağlı olan faktlar və zənginləşməsi yollarıdır.

İngilis yazılı dilinİN yaranması bir sıra əsaslı amillərlə bağlı olmuşdur. Hələ XIII əsrdən başlayaraq feodalizmin inkişafı nəticəsində ölkədə tamamilə yeni iqtisadi münasibətlər formalaşmağa başlamışdır. Ticarət, sənət, mədəniyyət hərtərəfli inkişaf etmişdir. XV-XVI əsrlərdə tamamilə başqa ictimai-iqtisadi münasibətlər ortaya çıxmış, dağılmaqda olan feodalizm münasibətlərini yeni yaranmaqda olan burjua münasibətləri əvəz etməyə başlamış, kapitalist istehsal üsulu meydana gəlmişdir. İqtisadi və ictimai münasibətlərin inkişafı öz növbəsində ölkənin müxtəlif regionlarının əhalisinin qarışmasına, yeni dil şəraitinin yaranmasına gətirib çıxarmışdır. Bütün dünyada kapitalizmin feodalizm üzərində qələbəsi xalqın millətə çevrilməsinə səbəb olduğu kimi, bu proses İngiltərədə də baş vermişdi. Kapitalizmin İngiltərədə sürətlə inkişafı ucqarların, digər regionların əhalisinin vahid millətə çevrilməsinə və beləliklə də, ingilis dilinin milli dilə çevrilməsinə şərait yaratmışdır. XV-XVI əsrlərdə qərbi Avropada klassik mədəniyyətə maraq artmış, təhsil və elm inkişaf yoluna qədəm qoymuşdu. XII əsrdə əsasları qoyulmuş Oksford və Kembric Universitetləri elm mərkəzlərinə çevrilmişdir. VIII Henri öz sarayına görkəmli alim və sənətkarlar toplamış, ilk çayxanalar meydana çıxmışdır. Çap olunan ədəbiyyatın yazıldığı dil ingilis ədəbi dilinin London dialekti olmuşdur. Kitab çapının ingilis dilinin inkişafına təsiri çox böyük olmuşdu.

İngilis dilinin 15 əsrlik tarixi vardır. Bu dil eramızın V əsrində Britaniya adalarını işğal etmiş anqlo-sakson və başqa german tayfalarının dilləri əsasında formalaşmışdır. Daha sonra ingilis dilinin formalaşmasında və zənginləşməsində başqa işğalçıların dilləri (normanların, skandinavların və s.) iştirak etmişdir. Ümumiyyətlə, ingilis dilinin formalaşmasında ölkədəki etnik proseslərin böyük rolu olmuşdur.

İngilis dilinin meydana çıxmasında və zənginləşməsində başqa amillərin də böyük rolu olmuşdur. İngilis adət-ənənləri ingilislərin özünəməxsus həyat tərzinin bir aspekti kimi inkişaf etdikcə, həmin adət-ənənələri əks etdirən söz və ifadələr də meydana çıxmış və bu söz və ifadələrin hesabına ingilis dili getdikcə zənginləşmişdir.

Renessans dövrünün hadisələri ingilis dilinin leksik tərkibində aydın əks olunmuşdur. Həmin dövrdə klassik filologiyanın, latın və yunan müəlliflərinin kütləvi şəkildə öyrənilməsi geniş vüsət almışdı. Dövrün qabaqcıl ölkələri ilə, xüsusilə İtaliya ilə əlaqələrin canlanması, italyan ədəbiyyatı və incəsənəti ilə tanışlıq, yeni dünya ilə əlaqələr, ingilis dilinin lüğət tərkibinə söz axınına səbəb olmuşdur. Dilin lüğət tərkibinə yeni söz və ifadələrin daxil olması dilin inkişafına və zənginləşməsinə səbəb olmuşdur.

Əcnəbi sözlərin alınma səbəblərinin öyrənilməsi bir çox dilçilərin tədqiqat obyektinə çevrilmişdir. Bu mövzu L.P.Krısinin elmi əsərində tədqiq edilmiş və bir sıra səbəblər qeyd edilmişdir: psixoloji, sosial, linqvistik, yeni dil formalarının yaranmasına ehtiyac, onların tətbiqinin rahatlığı və s. (4).

İngilis dilinin lüğət tərkibinə italyan və ispan dillərindən, eləcə də Amerika hindularının dillərindən xeyli sözlər keçmişdir. İngilis dilinə daxil olmuş italyan sözləri, əsasən, incəsənət sahəsinə aid idi. Misal üçün italyan dilindən *violin* (skripka), *freska* (freska), *costume* (kostyum), *studio* (studiya), *model* (model), *aria* (ariya), *concerto* (konsert), *duet* (duet), *opera* (opera), *trio* (trio), *piano* (piano), *solo* (solo), *sonata* (sonata) və s. tipli sözlər daha çox alınırdı.

İspan dilindən alınmış sözlər müxtəlif sahələrə aid idi: *desperado* (başkəsən, dəliqanlı), *neqro* (zənci), *saraband* (sarabanda), *tornado*(qasırğa), *mosquito* (ağcaqanad), *guitar* (gitara), *matador* (matador), *parade* (parad) və s.

Fransız dilindən qədim ingilis dilinə daxil olan *damage* (zərər), *prison* (həbsxana), *marriage* (evlilik); incəsənət və ədəbiyyatla bağlı *ballet* (balet), *ensemble* (ansambl), *silhouette* (siluet) və s. kimi sözləri də nümunə göstərmək olar.

Portuqal dilindən: *mandarin* (mandarin), *zebra* (zebra), *tank* (tank) və s.

Rus dilindən: *samovar* (samovar), *shuba* (şuba) və s. terminlər də ingilis dilinin lüğət tərkibinə daxil olmuşdur.

Alınma terminlər arasında kulinariya terminlərinə də rast gəlmək olur. Artıq bizə məlumdur ki, İngiltərə kulinariyasının iki min il tarixi vardır və bu dövr ərzində onun işlənmə sahəsi olduqca genişlənmiş və zənginləşmişdir. İngilis dilinin kulinariya terminlərinin zənginləşməsində həm milli mənşəli terminlər, həm də alınma terminlər mühüm rol oynayır. Qonşu xalqlarla əlaqə nəticəsində ingilis dilinin lüğət tərkibində fransız *sugar* (qənd), *orange* (portağal), *salad* (salat), *soup* (sup), *compote* (kompot), *café* (kafe), *restaurant* (restoran), *menu* (menyu), *champaign* (şampan) və s., latın dilindən *pepper* (istiot), *plum* (gavalı), *cheese* (pendir), *fruit* (meyvə) alınma terminlərə rast gəlmək olar.

İngilis dilinə məxsus olan kulinariya terminləri uzun müddət dilçilərin tədqiqat obyektinə çevrilmişdir. Uzun və gərgin səylər nəticəsində onlar kulinariya terminlərinin regional-lokal inkişafını, dialektlərdə inkişaf xüsusiyyətlərini ətraflı öyrənməyə, onların semantik, morfoloji sintaktik yaranma üsullarını müəyyənləşdirməyə müvəffəq olmuşlar.

İngilis dilində kulinariya terminlərinin yaranması yalnız alınmalar sayəsində deyil, eləcə dilin daxili qanunları sayəsində baş vermişdir. Bunlardan ən məhsuldarı söz köklərinə şəkilçilər artırmaqla yaranan düzəltmə terminlərin əmələgəlmə üsuludur. Məsələn, *boiled* (soyutma), frying (qızartma), *roasted* (qovrulmuş) və s.

İngilis dilində kulinariya terminlərinin yaranmasında iştirak edən digər üsul sintaktik üsuldur, yəni iki və daha artıq leksik vahidin birləşməsi üsulu ilə yaranan kulinariya terminləri. Bunlara misal olaraq *mushroom* (göbələk), *salad cream* (mayonez), *sour cream* (xama) və s. terminləri nümunə göstərmək olar. Müasir ingilis dilində də yeni terminlərin yaradılmasında bu üç üsuldan geniş istifadə olunur.

XVII əsrin sonunda və XVIII əsrdə ingilis dilinin normal inkişafını təmin etmək üçün dilçilər arasında meyllər artmağa başlamışdı. Renessans təsiri ilə əlaqədar olaraq lüğət tərkibinin zənginləşməsində özünü göstərən "linqvistik azadlıq" yəni dilin ucdantutma kənar sözlərlə doldurulması dövrü "normalaşdırma" dövrü ilə əvəz edilməyə başladı. Dilçilər həm tələffüz, həm də lüğət tərkibi sahəsindəki ağırlıqları, yanlışlıqları aradan götürmək üçün müəyyən işlər görməyə başladılar. Misal üçün yazıçı Conatan Svift (Jonathan Swift) (1667-1745) ingilis dili qrammatika əsərlərinin müəllifləri və başqaları bu "normalaşdırma" istiqamətində fəaliyyətə başladılar. Misal üçün, Robert Lowth tərəfindən 1762-ci ildə nəşr olunmuş "*A short introduction to English Grammar*" əsəri ingilis dilində olan qeyri-normal vəziyyəti aradan qaldırmaq məqsədi ilə yazılmışdır. O öz əsərində doqquz nitq hissəsi müəyyən edir, hərf, heca, söz və cümlələrin ardıcıl təsvirini verirdi.

Beləliklə, gördüyümüz kimi, ingilis dilinin vahid milli dil kimi formalaşmasına çox əsrlər sərf edilmişdir. Bu proses eramızın V əsrindən başlayaraq yeni ingilis dövrünə qədər davam etmişdir.

İngilis dilinin lüğət tərkibinin zənginləşməsində bir çox amillərin rolu olmuşdur. Bunlar arasında tarixi, ictimai, siyasi, mədəni və s. amillər böyük əhəmiyyət daşımışdır.

Milli ədəbi dil XIX əsrdə tam formalaşmağa başlamış və hətta XIX-XX əsrlər arasında tarixi şəraitlə bağlı olaraq ingilis dilinin variantları da meydana çıxmışdır.

Ədəbiyyat

1. Антрушина Г.Б., Афанасьева О.В., Морозова Н.Н. «Лексикология английского языка», Высшее образование, Дрофа, 1999
2. Вольнова Д.Н. Иностранные заимствования как один из источников словарного состава английского языка // Современные научные исследования и инновации. 2014. № 12.
3. Заботкина В.И. «Новая лексика современного английского языка», М., Высшая школа,1989
4. Крысин Л. П. «О причинах лексического заимствования»// Русский язык в школе. М., 1965, с. 11-15
5. Розенцвейг В. Ю. Языковые контакты. Наука, 1972
6. Щерба Л. В. «Язык и Путь его развития»// Сб. ст.: «Избранные работы по русскому языку», М., 1957, с. 158

И.Ч.Ибрагимова

Этапы развития и способы обогащения английского языка

Резюме

На формирование английского языка как единого национального языка ушло много веков. Этот процесс начался в V веке нашей эры и продолжается по сей день. Многие факторы сыграли роль в обогащении словарного запаса английского языка. Среди них исторические, социальные, политические, культурные и другие факторы сыграли важную роль. Еще одним фактором, способствующим развитию языка, является включение новых слов и выражений в словарный запас языка. В разное время из разных языков (французского, итальянского, испанского и др.) много слов было добавлено в словарь английского языка. Среди зарегистрированных нами терминов преобладают кулинарные термины. Обогащение словарного запаса происходило также за счет внутренних возможностей языка (морфологических, синтаксических и др.). Английский язык начал формироваться в 19 веке, и даже появилось множество его вариантов.

I.Ch.Ibrahimova

Stages of development and ways of enrichment of the English language

Summary

Many centuries have been spent on the formation of English as a single national language. This process began in the 5th century AD and has been continued till today. Many factors have played a role in enriching the vocabulary of the English language. Historical, social, political, cultural and other factors among them have played a significant role. Another factor that contributes to the development of the language is the inclusion of new words and expressions in the vocabulary of the language. Many words from different languages (French, Italian, Spanish, etc.) were added to the vocabulary of the English language at different times. Culinary terms predominate among the terms we have registered. Enrichment of the vocabulary also occurred at the expense of internal features of the language (morphological, syntactic, etc.). The English language began to form in the 19th century, and there were even a number of its variants.

Rəyçi: filol.f.d., dos. Y.M.Orucova

Redaksiyaya daxil olub: 17.11.2021

M.S.İSGƏNDƏROVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MÜASİR ALMAN DİLİNDƏ İNKARLIQ SAHƏSİ VƏ ONUN QURULUŞ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *Alman dili, inkar, funksiya, forma, semantika*
Ключевые слова: *Немецкий, отрицание, функция, форма, семантика*
Key words: *German, negation, function, form, semantics*

Təsdiq və inkar bir-birinə əks olan məfhumlardır. İnkar məntiqi olaraq bir fikrin rədd edilməsi və ya cümlə daxilində doğru ifadənin əksinə çevrilməsidir. Dil fenomeni olan "inkar" bütün dillərdə var və bu, linqvistik universal sayılır.(6, 19) Ancaq hər bir dilin inkar etmək üçün öz vasitələri var. Universal sayıldığına baxmayaraq, bu universal fenomen öz xüsusiyyətlərinə və ifadə formalarına görə dil və mədəniyyət baxımından fərqlənir.

İnkarlıq alman dili qrammatikasının mürəkkəb sahələrindən biridir. Müasir alman dili inkarı ifadə etmək üçün müxtəlif vasitələrə, imkanlara malikdir və bunların tətbiqi qismən müəyyən qaydalardan, qismən danışanın üslubundan və niyyətindən asılıdır. Müəyyən bir fikrin inkarı yalnız dilin özü ilə deyil, eyni zamanda jestlər, mimikalar və intonasiya ilə də mümkündür. (8, 4) Jestlər dedikdə buraya baş ilə işarə eləmək, baş silkələmək, yox mənasını bildirən şəhadət barmağını yelləmək aiddir. Əlavə olaraq onu da qeyd edək ki, jestlər fərqli ölkələrdə fərqli mənalara sahibdir. Şimal və şimal-qərbi Avropada inkar əlaməti olaraq baş silkələmək geniş yayılmışdır. Digər tərəfdən cənub-şərqi Avropada inkar etdiyini ifadə etmək üçün baş sürətli bir hərəkətlə geri atılır, başı silkələmək isə müsbət cavabın siqnalı ola bilər. (10)

Ümumiyyətlə, inkarlıq problemləri ilə bağlı olan bütün mövcud müzakirələrin əsas məqsədi, inkar kateqoriyasını ifadə edə bilən və ya inkar hərəkətləri edə biləcəyimiz xüsusi dil vasitələri haqqında suala konkret cavab tapmaqdır. Linqvistik inventar daxilində inkarın gizli və açıq növləri fərqləndirilir. Gizli inkar cümlədə hər hansı inkar elementinin, yəni inkar sözləri olan "kein", "nicht", "niemand" və s. kimi sözlərin olmaması deməkdir. Gizli inkarın nitqdə aşkar edilməsi asan deyil, amma hazırkı inkişaf mərhələsində mədəniyyətlərarası iş əlaqələri sahəsində gizli inkar özünü sübut etmişdir. İnkarın bu forması birbaşa rədd edilmənin hörmətsizlik təzahürü ola biləcəyi ölkələrdə işgüzar münasibətlərdə xüsusilə yayğındır. (13) Ünsiyyət prosesində gizli inkarın ifadə edilməsi üçün lazımi vasitələrin seçilməsi söhbətin mövzusundan, kommunikativ məzmun şərtlərindən asılıdır. Nümunə olaraq aşağıdakı cümləyə nəzərə sala bilərik:

"Er leugnet, die Katze getötet zu haben". – "O, pişiyi öldürdüyünü inkar edir".

Verilmiş cümlədə heç bir inkarlıq əlaməti yoxdur, amma cümlə inkarlıq bildirir və bu „leugnen" feilinin köməyi ilə gizli şəkildə ifadə olunmuşdur. Biz bu cümləni digər bir formada aşağıdakı kimi verə bilərik:

"Er sagt, dass er die Katze nicht getötet hat". – "O, pişiyi öldürmədiyini dedi".

Bu cümlədə isə inkar açıq şəkildə "nicht" inkarlıq elementi ilə ifadə olunub. Gizli inkar cümlədə leugnen, verhindern, verzichten, untersagen kimi inkarlıq bildirən feillərdə gizlənir. Eyni zamanda inkarın gizli formasını müxtəlif sözönlərinin (ohne, außer) köməyi ilə də ifadə etmək mümkündür.(5, 8) Nümunələrə nəzər salsaq görərik ki, ilk cümlələrdə işlədilən inkarlıq elementləri növbəti cümlələrdə sözönləri ilə əvəz edilib:

ohne - *Peter trinkt immer einen Kaffee. Er nimmt keine Milch und keinen Zucker.*
Peter trinkt den Kaffee immer ohne Milch und Zucker.
Peter qəhvəni həmişə südsüz və şəkərsiz içir.

außer *- Alle Studenten haben die Prüfung bestanden. Nur Heiner nicht.*
Alle Studenten außer Heiner haben die Prüfung bestanden.
Haynerdən başqa bütün tələbələr imtahanı verdilər.

Eyni zamanda alman dilində feilin sadə (1) və keçmiş (2) zamanın konjuktiv formaları ilə də biz gizli inkar formasını ifadə edə bilərik:

(1) Wenn ich Zeit hätte, würde ich sie besuchen.
Əgər vaxtım olsa, sənə baş çəkərəm. (Demək ki, vaxtım yoxdur)
(2) Wenn wir zu dritt gewesen wären, hätten wir Volleyball gespielt.
Üç nəfər olsaydıq, voleybol oynayardıq. (Demək ki, üç nəfər deyilik)

İnkarın gizli formasının növbəti şəkli antonimlərin istifadəsi ilə mümkündür: (3, 12)

Ist das Zimmer groß ? - Nein, es ist klein.
Otaq böyükdür?- Yox, otaq balacadır.

İnkarın forma və funksiyası ilə bağlı suala biz morfoloji və funksional cəhətdən inkişaf etmiş açıq inkar vasitələrinə diqqət yönəltdikdə asanlıqla cavab verə bilərik. Açıq inkar forması cümlədə konkret inkarlıq elementinin istifadə olunması deməkdir. Yalnız inkarlıq bildirən sözlər yox, eyni zamanda inkarlıq elementləri də, çünki təkcə sözlər yox, eyni zamanda inkarlıq bildirən digər elementlər də cümləyə asanlıqla inkarlıq mənası verə bilir. Ştefan Firkanta görə, alman dilində inkar dörd fərqli şəkildə həyata keçirilə bilər: leksik, morfoloji, intonasiya və idiomatik. (7, 29) Cümlənin intonasiya ilə inkar edilməsində vurğu həlledici rol oynayır. Fərqli vurğu tələffüzü ilə inkar ayrı-ayrı cümlə üzvlərinə istinad edə bilər.

İnkarın idiomatik forması sözün ifadə etdiyi mənadan kənara çıxaraq idiomalara, yəni birləşmələrə əsaslanır. Ayrı-ayrı cümlə üzvlərinin ifadə etdiyi məna yox, sabit sintaqma burada əsas rol oynayır. Sabit sintaqma əsas rol oynadığı üçün inkar sözünün bu birləşmədə olması mütləq deyil. Aşağıda verilmiş cümləyə nəzər salsaq məhz ümumi idiomatik ifadənin inkar effektini müəyyən etdiyini görə bilərik:

Das kümmert mich einen Dreck!(Das interessiert mich nicht) – Bu, məni maraqlandırmır.
Das geht dich einen Dreck(Das geht Dich nichts an!)- Bunun sənə aidiyyatı yoxdur!

Morfoloji inkar formaları dedikdə, suffiks və prefikslərin istifadəsi və onların köməkliyi ilə yaranmış yeni sözlər nəzərdə tutulur. Sözdüzəltmə sahəsində inkar etməyə səbəb olan bəzi suffiks və prefikslər var. Alman dilində inkarlıq bildirən prefikslər aşağıdakılardır: (5, 11)

a-anational, amoralisch, atonal, atypisch, asozial
an- andächtig, angeekelt, anmaßend
des- desinteressiert, desorganisiert, desinfiziert
dis- Diskriminierung, dissonant, Disqualifikation
in- inkompetent, inakzeptabel, intolerant, instabil
miss- misslingen, Misserfolg, mißverständlich
nicht- nichtlesbar, nicht einfach, nicht geeignet
un- unpraktisch, unmöglich, unbeliebt, Unruhe
ir- irregulär, irreal, irrelevant, irrational
il- illegal, illuminiert,
non- Nonstopflug, nonverbal, Nonstop, nonfigurativ

Aşağıdakı suffikslər isə alman dilində inkarlıq elementləri hesab edilir :

los- schmerzlos, gedankenlos, sinnlos, kostenlos
frei- schmerzfrei, hitzefrei, alkoholfrei, giftfrei
leer- menschenleer, inhaltsleer, blutleer, luftleer

Leksik inkar vahidlərinə müxtəlif inkarlıq bildirən sözlər aiddir. Alman dilində tam və qismən inkar etmə mövcuddur. İnkarlıq bildirən sözlərin vasitəsi ilə cümlə tam formada və ya cümlənin hər hansı üzvü qismən inkar oluna bilər. Gerhard Helbigə görə, alman dilində aşağıdakı sözlər inkarlıq bildirir: (1,45)

nicht, nichts, nie, niemals, niemand, nirgends, nirgendwo, kein-(Ø, -e, -er, -es), nirgendwohin, nirgendwoher, keinesfalls, keineswegs, nein, weder-noch

İnkar məhz bu leksik vahidlərin vasitəsi ilə reallaşır. Sintaktik cəhətdən təhlil edilərkən onlar fərqli qrammatik kateqoriyaya aid edilməlidir, çünki inkar sözlər müxtəlif pozisiyadan və funksiyadan çıxış edərək, kontekstdən asılı olaraq müxtəlif nitq hissələrini təmsil edir. Məs: "kein" cümlədə isim, əvəzlik və ya bir artikılı, "keineswegs" und "keinesfalls" zərf və ya bir cümləni, "nicht" isə zərf və ya xəbəri inkar edən inkar sözüdür. Ortaq cəhətləri müsbət bir vəziyyəti inkar etmək qabiliyyətidir. Bu o deməkdir ki, inkar semantik vahid kimi də başa düşülə bilər. Ayrı-ayrı inkar sözlərinin cümlədə istfadə yerini bilmək üçün sintaktik sinif bölgüsü kifayət etmir. Burada onların eyni zamanda semantikasına da nəzər yetirmək lazımdır.

Alman dilində mövcud olan inkar sözlərinin əksəriyyəti "*nein, nicht, nichts, nie, niemals, nirgends, nirgendwo, nirgendwohin, nirgendwoher, weder-noch*" dəyişilməzdir, yəni onlar hala görə dəyişmir və heç bir artikıl sonluğu qəbul etmir. Bu qayda yalnız "kein" və "niemand" inkar sözlərinə aiddir. "Kein" artikıl sonluğunu qəbul etmək göstəricisi olduğu üçün hər üç cinsə görə dəyişir: (10)

Der-kein
Nominativ: kein
Akkusativ: keinen
Dativ: keinem
Genitiv: keines
Das-kein
Nominativ: kein
Akkusativ: kein)
Dativ: keinem
Genitiv: keines
Die-keine
Nominativ: keine
Akkusativ: keine
Dativ: keiner
Genitiv: keiner

"Niemand" üçün yalnız aşağıdakı forma var :

Nominativ: niemand
Akkusativ: niemand(en)
Dativ: niemandem
Genitiv: niemandes

Yuxarıda da qeyd etdiyim kimi, alman dilində olan inkar sözləri müxtəlif pozisiyada çıxış edərək müxtəlif funksiyaları yerinə yetirir. İnkarlıq bildirən sözlər arasındakı fərq təkcə onların fərqli sintaktik siniflərə mənsub olmasında deyil, həm də semantik xüsusiyyətlərindədir. (1.39) Semantik xüsusiyyət dedikdə, yəni onların ifadə etdiyi məna nəzərdə tutulur. Məs: "Nirgendwo" və "nirgends" yer mənasında, "nie" və "niemals" zaman mənasında, "keiner" və "niemand" isə insana aid olan mənalarda işlənilir.

"Nicht"-i alman dilində ən geniş yayılmış inkar sözü hesab etmək olar, çünki onun vasitəsi ilə biz bütöv bir cümləni və ya cümlə daxilindəki ayrı-ayrı sözləri inkar edə bilərik. Bu zaman o cümlənin inkar ediləcək üzvündən əvvəl gəlir. (9)

Ich komme nicht. (Feil)
Ich komme nicht heute. (Zaman zərfi)
Ich bin nicht dumm. (Sifət)
Ich komme nicht aus Deutschland.(Yer zərfi)
Ich heiße nicht Clara. (İsim)

"Sondern" sözü ilə işləndikdə isə nicht istisna hal olaraq cümlənin əvvəlində gəlir və cümlənin yalnız müəyyən bir hissəsi inkar olunur.

Nicht Emili hat meine Brille kaputt gemacht, sondern Leila.

"Nicht" inkar sözündən fərqli olaraq "nein" verilmiş bir cümləyə tam cavab olaraq göstərilə bilər və buna görə də o hətta cümlə ekvivalenti də adlandırılır. "Nein" vasitəsi ilə biz bir sualın inkar formasını müsbət (1) və ya mənfi(2) şəkildə cavablandıra bilərik:

(1) "*Gehst du heute mit ins Kino?* "

"*Nein!* "*, oder „Nein, ich gehe heute nicht mit ins Kino*".

"*Bu gün bizimlə kinoya gedirsən?* "

"*Yox*" *və ya"Yox, mən bu gün kinoya getmirəm*

(2) "*Kommst du heute nicht mit ins Kino?* "

"*Nein, ich komme nicht mit ins Kino*".

" *Bu gün bizimlə kinoya gəlmirsən?* "

"*Yox, mən bu gün kinoya gəlmirəm*".

Alman dilində inkar etməyin digər bir yolu da "kein" inkarlıq komponenti ilə mümkündür. O, cümlədə iki fərqli qrammatik funksiyanı yerinə yetirir: qeyri-müəyyən artikılı əvəz edən inkarlıq sözü və qeyri-müəyyən əvəzlik kimi. "Kein" inkar cümlələrində qeyri-müəyyən artikılı əvəz edən söz olaraq, hər üç cins isim üçün işlənə bilir: *(ein Auto-kein Auto, eine Flasche-keine Flasch, ein Computer-kein Computer).* Qeyri-müəyyən artikıllardan fərqli olaraq "kein" həm tək, həm də cəm formasına malikdir *(kein Buch – keine Bücher)*. "Niemand" isə jemand, man, irgendwer kimi qeyri-müəyyən əvəzliklərin inkarlıq bildirən ekvivalenti olaraq işlənir. O, hər zaman təkdədir və alman dilində hala görə dəyişir. "Nichts" və "keiner" hər ikisi inkarlıq əvəzliyi sayılır və hər ikisnin forması dəyişilməzdir. Keiner canlı isimləri, "nichts" isə cansız bir cismi əvəz edir *(Wir sehen nichts-Keiner will das Bad sauber machen).* "Weder…..noch" isə ikiqat inkarlıq bildirən bağlayıcıdır. (13) O, inkarlıq bildirən baş və budaq cümləni və ya cümlə hissələrini birləşdirir. *(Im Sommer macht es Spaß, weder Schuhe noch Strümpfe zu tragen).*

Ümumiyyətlə, alman dili cümlənin bütün qrammatik tərkibdə və funksiyada ifadə edilə biləcəyi sintaktik inkarçı daşıyıcıların ən böyük inventarına malikdir. Qeyd etmək lazımdır ki, inkarın semantik kateqoriyasının reallaşması dilin sintaktik təşkilinə əsaslanır, yəni inkarın reallaşması dil tipinin xüsusiyyətlərinə uyğun olur.

Ədəbiyyat

1. Helbig, Gerhard / Buscha, Joachim: Deutsche Grammatik- ein Handbuch für den Ausländerunterricht, Berlin/München -2001.

2. Suna Ioannidis-Aykan: "Die Negation im heutigen Deutsch und ihre Entsprechungenim Türkeitürkischen und Neugriechischen", Mannheim-2005

3. Meryem Tekin "Untersuchung zu Negationsfehlern im Bereich DaF", Istanbul -1994

4. T.A.Temirova "О некоторых способах выражения отрицания в немецком языке"

5. Jens Metz "Die Negation im Deutschen und sich daraus ergebende Schwierigkeiten für Deutschlernende mit spanischer Muttersprache" (Artikel)

6. W.Köller "Formen und Funktionen der Negation", Kassel-2016

7. Stefan Vierkant "Probleme der Negation bei der Übersetzung des Deutschen ins Italienische", Berlin-2007

8. de.wikipedia.org

9. www.sprachschule-aktiv-hamburg.de/verneinung-im-deutschen/

10. www.mein-deutschbuch.de/negation-verneinung.html

11.www.google.de

12. translate.google.com

13. https://easy-deutsch.de/satzbau/verneinung/

14. uni-potsdam.de

15. www.geschichte-projekte-hannover.de

М.С.Исгандарова

Поле отрицания в современном немецком языке и его структурные особенности

Резюме

«Отрицание» как языковой феномен существует во всех языках. Это считается лингвистически универсальным. В каждом языке есть свои средства отрицания. Отрицание - одна из самых сложных областей немецкой грамматики. В немецком языке форма открытого отрицания бывает морфологической, интонационной, идиоматической и лексической. Форма морфологического отрицания основан на использовании суффиксов и префиксов, лексическое отрицание-слова, обозначающие отрицание, интонация отрицания на различном произношении слов, а идиоматическое отрицание основано на сочетаниях. Отрицательные слова в немецком языке выполняют разные функции в разных позициях.

M.S.Isgandarova

Category of negation and its characteristics in contemporary German

Summary

The "denial" of the language phenomenon exists in all languages. It is considered a linguistic universal. Each language has its own means of denial. Denial is one of the most complex areas of German grammar. In German, the form of open negation is morphological, intonational, idiomatic and lexical. The form of morphological negation is based on the use of suffixes and prefixes, lexical negation is words denoting negation, the intonation of negation is based on different pronunciations of words, and idiomatic negation is based on combinations. Negative words in German perform different functions in different positions.

Rəyçi: filol.f.d., dos. S.Zeynalova

Redaksiyaya daxil olub: 29.10.2021

S.Ə.KADİYEVA
filologiya üzrə fəlsəfə doktoru

DOI:10.48652/z5581-4465-8963-o

Azərbaycan Tibb Universiteti
(Bakı şəh., Səməd Vurğun, 167)

TİBBİ NATİQLİKDƏ DİALOQUN VƏ MONOLOQUN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *tibb, xəstə, dialoq, monoloq, xüsusiyyətlər*
Ключевые слова: *медицина, больной, диалог, монолог, особенности*
Key words: *medicine, patient, dialogue, monologue, features*

Tibbi ritorika - danışıq, söhbət və mübahisə aparmaq bacarığı haqqında bir elmdir, gələcək həkimin kommunikativ səviyyəsinin formalaşdırılması və tərbiyyəsidir. Həkimlik peşəsi, həkimin natiqlik sənətinə yiyələnməsinə ehtiyac duyduğu mənada "ritorikdir". Peşəkar etika tibb işçilərinə, həkimlərin xəstələrə və bir-birlərinə düzgün münasibət qurmaq normalarını mənimsəməyi öyrədir. Həkim xəstəsi ilə sağlam həyat tərzi yolları, insan orqanizminin ehtiyacları haqqında, mənəvi və əxlaqi cəhətlərdən daimi bir dialoq aparmalıdır.

Həkimin xəstə ilə ünsiyyətinin məhsuldar olması üçün həkim tibb sahəsində müəyyən bilik və bacarıqlara sahib olmalıdır. Xəstə ilə əlaqə və ünsiyyət qurma bacarığını mənimsəmək həkimin əsas peşə problemlərindən biridir. Bu, hər mütəxəssis üçün yalnız faydalı deyil, həm də onu dəyərli edən, nüfuzunu artıran cəhətdir. Xəstə ilə həkim arasındakı əlaqə yalnız xəstənin fərdi xüsusiyyətlərindən, psixikasından deyil, həkimin şəxsiyyətindən və davranışından, ümumi və peşə mədəniyyətindən, etika və fəaliyyət prinsiplərinə uyğunluğundan da asılıdır. Həkimin birbaşa vəzifəsi xəstə ilə təmasda olan psixoloji baryeri məhv etmək, xəstənin etimadını qazanmaq, müalicədə xəstənin iştirakını təmin etmək və isti atmosfer yaratmaqdır. Həkim üçün diaqnostik proses xəstəni gördüyü andan başlayır: görünüşü, yerişi, nitq xüsusiyyətləri və s. Məşhur deyimi xatırlayaq: "Xəstə həkimlə ilk görüşdən sonra özünü yaxşı hiss etmirsə, deməli bu pis həkimdir". Buna görə söhbət zamanı ilk sözlərdən dostluq, təşəbbüs, kömək etməyə hazır olmaq təəssüratı yaratmaq lazımdır. Laqeyd ton, quru davranış, diqqətsizlik burada məhvedici olur. Qeyd etmək lazımdır ki, xəstə, xüsusən də həkimlə ilk görüşündə, hər jestini, üz ifadəsini və nitqini diqqətlə izləyir, sözlərində və davranışında inam və səmimiyyət olan bir məqamı tutmağa çalışır. İlk söhbət zamanı həkim ilə xəstə əlaqəsinin davamlılığı xəstənin özü haqqında danışmaq istəyinin nə qədər başa düşüləcəyindən və dəstəklənəcəyindən asılıdır. "Söhbət zamanı leksik təkrarlara, suala sualla cavabvermə, cümlədə söz sırasının pozulması, pauzalar və s. özünü göstərə bilir" (1,s.104). Xəstənin suallarını cavablandırarkən ümumi ifadələrlə məhdudlaşmaq olmaz, çünki bu, xəstəliyin nəticəsi ilə bağlı narahatlığa, həkimin ixtisas biliyinə şübhə yarada bilər. Xəstə həyəcanlanırsa və ya ağrıdan, nəfəs darlığından əziyyət çəkirsə, əvvəlcə onu inandırmalı, kömək edəcəyinizi vəd etməlisiniz, məsələn: "İndi, əzizim, mən sizə kömək etməyə çalışacağam, lakin əvvəlcə mən sizi müayinə etməli və bəzi suallar verməliyəm. Odur ki, bir az səbr eləyin". Eyni zamanda, xəstəni əks ekstremal vəziyyətə gətirmək olmaz - ilk növbədə, həqiqətən ağır əziyyət çəkəndə xəstə yalnız rahatlanma deyil, həqiqi kömək gözləyir. Həkimin xəstə ilə söhbəti onun mədəni səviyyəsi, təhsili, fərdi xüsusiyyətləri, dominant təcrübələri barədə müəyyən bir fikir yaradır. Bu bilik təmas qurmağa və xəstəyə fərdi bir yanaşma tapmağa kömək edir.

Xəstə həkimdən nə gözləyir? Yalnız dərman müalicəsinimi? Xəstə onunla nə baş verdiyini bilmir və buna görə xəstəliyin adını, diaqnozu eşitmək istəyir: bütün bunlardan sonra qorxu hissi qeyri-müəyyənlik, qaranlıqlıq kimi hislər onu narahat edir. Bundan əlavə,

xəstə dəqiq bir diaqnoz qoymadan həkimin onu müalicə edə bilməyəcəyinə əsaslı şəkildə inanır. Xəstə sağalmaq üçün nə etməli olduğunu da bilmək istəyir: hansı rejimə riayət etməli, hansı dərmana və ya prosedura ehtiyac duymalı, müalicənin nə qədər davam edəcəyini, sağalma və bərpa perspektivləri nədir və s. Nəhayət, xəstə sakitlik, təskinlik istəyir; xəstəliyinin o qədər də dəhşətli olmadığını, ona kömək edilə biləcəyini eşitmək istəyir. Bütün bunlar xəstə ilə danışarkən nəzərə alınmalıdır. Diaqnozu izah edərkən həkim sadə, başa düşülən bir dildə danışmalı və bəzi terminlərin dəhşətli, qorxulu və buna görə arzuolunmaz olduğunu unutmamalıdır. Xəstəyə diaqnozu barədə məlumat verməyə gəldikdə, ilk növbədə nəzakət və humanizm olmalıdır. Peşəkar qərarlar qəbul edərkən həkim, əsasən, aktiv rol oynayır, xəstə isə passiv olur. Həkimlə pasiyentin arasında olan ünsiyyətdə həkim liderdir, xəstə – əsasən, tibbi savadı olmayan asılı tərəfdir. Müasir pasiyentlər passiv rolu ilə kifayətlənmir, onlar aktiv danışığa can atırlar, həkimin onlara qulaq asmağı və anlamağını istəyirlər.

Həkimlik "linqvoaktiv" peşədir. Həkimin nitq bacarığı müxtəlif xəstələrlə ünsiyyət prosesində təkmilləşir. Adresatdan, məqsəddən, mövzudan və ünsiyyət şəraitindən asılı olmayaraq həkim həm dialoqu, həm də monoloqu lazımı səviyyədə qura bilməlidir. O dinləməyi, qeyri-verbal ünsiyyət vasitələrindən – mimikadan, jestlərdən və s. istifadə etməyi, düzgün diaqnozun qoyulması üçün verilən məlumatı təhlil və müqayisə etməyi, nitqini həm maarifləndirici, həm də profilaktik məzmunda qurmağı bacarmalıdır. Tibbi kommunikasiya, onun uğuru və nəticəsi davranışın verbal və qeyri-verbal formalarından asılıdır. "Həkim-pasiyent" sistemində həkim kommunikativ lider kimi çıxış edir. Məsələn, "həkim-həkim", "həkim-aptek müştərisi", "həkim-pasiyentin qohumu", "həkim-tibb işçisi-xəstə", "tibb işçisi – pasiyent", "dil müəllimi – tibb universitetinin tələbəsi" və s. kommunikativ situasiyalarda özünü daha aydın büruzə verir. "Həkim-pasiyent" ünsiyyətində aparıcı rol həkimə məxsus olsa da, hər ikisinin insani münasibətlərinin rolu böyükdür. Dialoqun aparılmasına təkCə həkimin şəxsi istəkləri deyil, pasiyentin davranışı da təsir edir: onun həkimlə açıq danışmaq istəyi, hislərini açıq və aydın çatdırma bacarığı, həkimin suallarına ətraflı cavabları və s. Effektiv ünsiyyət, həmçinin pasiyent tərəfindən informasiyanın dərketmə qabiliyyəti bütün müalicə prosesinə təsir edir.

"Həkim-pasiyent" dialoqunun uğurlu keçməsi üçün həkim pasiyentlərlə elə söhbət qurmağı bacarmalıdır ki, bu, xəstələrin müalicə olunmasına kömək etsin və onların ümüdlərini boşa çıxartmasın. Həkim danışığında aşağıdakılardan istifadə etməlidir: 1) pasiyentə adı ilə müraciət etməlidir; 2) mehriban təbəssüm; 3) xoş ünsiyyət yaratmaq üçün mimika və jestlərin istifadəsi; 4) ruhlandırma və sakitləşdirmə taktikası; 5) səbr və diqqətlə xəstənin şikayətlərini dinləməsi.

Adətən, nitqin onda iştirak edənlərin sayına görə təsnifi aparılır və bu təsnif üç tipi ayırmağa imkan verir:1) monoloji nitq; 2) dialoji nitq; 3) poliloji nitq (4, s.18). "Dialoji nitqdə sual-cavab forması əsas rol oynayır. Buradakı cümlələrin əksəriyyəti yarımçıq, bitməmiş ifadələrdir. Dialoq üçün xarakterik əlamətlərdən biri də replika, emosionallıq, yığcamlıqdır... Qeyd etməliyik ki, dialoji nitq prosesində mimika və jestlər hər hansı sözü, cümləni və ya ifadəni asanlıqla əvəz edir....Dilçilikdə qısa və sadə sintaktik quruluşa malik olan replika dedikdə dialoq nitqinin əsas struktur vahidi nəzərdə tutulur...." (3, s.75).

Tibdə dialoji nitqin əsasən "sual-cavab" formasından istifadə olunur. Nitqin bu tipində cümlələrin əksəriyyəti yarımçıq, bitməmiş replikalardır. "Dialoq replikalardan təşkil olunur. Replika dialoqun ibtidai, ilkin ünsürüdür. O, xüsusi tərzdə təşkil olunmuş replikalar sistemidir. Replika nitqin ümumi situasiyası və mətni ilə sıx əlaqədardır.... Nitqin bu növündə jest, mimika, əl-qol hərəkəti və s.geniş istifadə olunur. Dialoji nitqdə intonasiya mühüm rol oynayır " (2, s.61).

Həkimlə pasiyent arasında da ünsiyyət 3 formada keçə bilər:1) dialoq şəklində: "həkim – xəstə"; 2) poliloq şəklində: "həkim-xəstə- xəstənin qohumu", ya da "həkim-tibb işçisi-xəstə"; 3) monoloq (həkim tərəfindən epikrizin yazılması, diaqnozun qoyulması; pasiyent tərəfindən – şikayətlərin bildirilməsi).

Tibdə istifadə olunan elmi üsluba aid monoloqlar leksik və sintaktik vahidlərin birləşməsindən ibarət, əsas məqsədi informasiyanı ötürən əlaqəli kompleksidir. Lakin bu kompleks hansı informasiyanın kimə ötürülməsi cəhətindən də fərqli xüsusiyyətlərə malikdir. Həkimlər öz danışığında elmi fikirlərin ardıcıl, geniş şərhindən istifadə edirlər, ən vacib məqamlara aydınlıq gətirirlər Bu cəhət pasiyentlər tərəfindən bəzi tibbi ixtisas terminlərinin başa düşülməməsindən irəli gəlir. Tibbi ünsiyyətdə monoloji nitqin aşağıdakı növlərindən istifadə olunur: məlumatverici monoloq (xəstəliyə gətirən səbəblər, simptomlar haqqında həkim tərəfdən), inandırma (sağalması barədə), nəsihət (müalicənin əhəmiyyəti barədə, sağalması üçün müalicənin etməsi), təbliği monoloq. Əgər həkim sadə dillə xəstəlik haqqında izah edir, müalicəni xəstənin başa düşəcəyi dildə izah edirsə, heç bir maneə ola bilməz.

"Həkim-pasiyent" ünsiyyətində informasiyanın qəbul olunmasının xüsusiyyətləri aşağıdakılardır: həkim diqqətlə, səbrlə, təmkinlə pasiyentin bütün şikayətlərini dinləməlidir, xəstəni müayinə etməlidir. Burda səhvə yol vermək olmaz. Deyirlər: "Həkim ancaq dinləməyi yox, həm də eşitməyi bacarmalıdır". Düzgün eşidilməyən, ya da lazımi dərəcədə nəzərə alınmayan şikayət düzgün olmayan müalicəyə səbəb ola və gələcəkdə fəsadlara gətirə bilər. Etik davranış xəstəyə çox təsir edir. Xəstə ilə əlaqə qurarkən həssaslıq çox vacibdir, yəni həkimin xəstəni dinləmə, onun narahatlığını anlama bacarığı olmalıdır. Xəstəni dinləmək və anlamaq istəyi tibdə çox vacibdir. Bu münasibət əhval-ruhiyyəni qaldırır, xəstəni xəstəliyin mümkün bir mənfi nəticəsi barədə qaranlıq düşüncələrdən yayındırır. Xəstəyə xoş bir sözlə təsir etmək, qorxularının əsassız olduğuna inandırmaq vacibdir. Buna misal olaraq xəstə uşaqlarla ünsiyyəti göstərmək olar. Uşaqlar sevgi münasibətlərinə çox həssasdırlar və böyüklər arasındakı münasibətlərin mahiyyətini hiss edirlər. Pediatriya şöbəsinin tibb işçilərinin xüsusilə yumşaq danışıq tonunu hiss edir, mehriban, səmimi bir təbəssümünü müşahidə edə bilərik. Uşaqda qorxunun aradan qaldırılması böyük əhəmiyyət kəsb edir. Xəstə uşağın yaxınlarıyla söhbət zamanı həkimin xəstənin hər zaman yanında olduğunu, ona lazımi məqamda köməklik göstərəcəyini bildirməyi əhəmiyyətlidir.

Gələcək həkimlər, tibb universitetinin tələbələri üçün tədris prosesində etik və nitq tələbləri hansılardır? Tələbələrdən tələb olunan əsas şey dinləmək, müşahidə etmək və anlamaq bacarığıdır. Nitq hazırlığı ön plana çıxır. Tələbə özünə qapanmalı deyil, ətrafında baş verənləri başa düşməlidir. Xəstəni necə qəbul etmək, söhbəti nədən başlamaq lazımdır? Xəstə ilə ünsiyyətin ilk mərhələsi utancaqlığı və xəcaləti aradan qaldırmaqdır, onun etibarını qazanmaqdır. Bunun üçün, əlbəttə ki, müşahidə və təhlil etmək, dərhal düzgün yolu tapmaq, ünsiyyətə girmək lazımdır. Bir xəstə ilə ünsiyyət müəyyən bir psixoloji istiqamət tələb edir. tibb universitetinin hər bir tələbəsi bunu bilməli və öyrənmə müddətində xəstə ilə təmas və əlaqə qurmaq bacarığını mənimsəməlidir. Bu şəkildə həkimin peşə fəaliyyəti "həkim - xəstə" arasında peşəkar ünsiyyət sənəti kimi tibb və ritorika sənəti ilə birləşir. Praktik dərslərdə və mühazirələrdə mehribanlıq, nəzakət və mərhəmət qabiliyyətinin bir həkim üçün xarakterik olduğunu daim qeyd etmək lazımdır. Tələbələr etik münasibətləri unutmamalıdırlar və həmişə gözləməlidirlər. Tələbələr yadda saxlamalıdırlar ki, əgər düzgün ünsiyyət qurmağı bacarmırlarsa, danışıq mədəniyyətinə yiyələnə bilmirlərsə, yaxşı karyera qura, həmkarlarının və xəstələrin etibarını və hörmətini də qazana bilməyəcəklər. Həkimin və bütövlükdə tibb müəssisəsinin əhali arasında yüksək nüfuzuna tibb işçiləri təkcə peşə bacarığıyla deyil, eyni zamanda etika və deontologiya prinsiplərinə ciddi riayət etməklə, xəstə ilə canlı və məhsuldar əlaqə qurmağı bacarmaqla nail olurlar. Beləliklə, həkimlik - bu böyük məsuliyyət, daim mütəxəssisdən ixtisas və dil biliklərini artırmağını tələb edən "linqvoaktiv peşədir".

Ədəbiyyat

1. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı,2014, 278səh.
2. H.Ə.Həsənov. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, 2003, 384səh.

3. A.Qurbanov. Ümumi dilçilik. II cild (2 cilddə), Bakı, “Nurlan”, 2004, 582səh.
4. Niftəliyeva F. Nitq mədəniyyəti. Dərs vəsaiti.-Bakı:Mütərcim, 2019.-100 səh.

С.А.Кадиева

Специфика диалога и монолога в медицинском общении

Резюме

Профессиональная этика учит медицинских работников осваивать нормы должного отношения врачей к пациентам и друг к другу. Чтобы общение врача с больным было продуктивным, врачу следует иметь определенные знания и навыки в области медицины. Овладение мастерством установления контакта и общения с больным является одной из основных профессиональных проблем врача. В медицинской практике общение может проходить в трех формах. Эти формы: диалог, полилог и монолог. Медицина - это "лингвоактивная" профессия. Независимо от адреса, цели, темы и среды общения, врач должен иметь возможность установить диалог и монолог на соответствующем уровне. Для постановки правильного диагноза врач должен уметь слушать, анализировать и сравнивать предоставленную информацию, правильно строить свою речь, использовать невербальные средства коммуникации. Профессиональная деятельность врача сочетается с искусством медицины и риторикой как искусством профессионального общения «врач-пациент».

S.A.Kadiyeva

The specifics of dialogue and monologue in medical communication

Summary

Professional ethics teaches medical workers to master the norms of the proper attitude of doctors to patients and to each other. In order for the doctor’s communication with the patient to be productive, the doctor should have certain knowledge and skills in the field of medicine. Establishing contact with the patient is an art that must be attributed primarily to speech. Mastering the skill of establishing contact and communication with the patient is one of the main professional problems of the doctor. In medical practice, communication can take place in three forms: dialogue, polylogue and monologue. Medicine is a "linguistic" profession. The speech skills of a physician are improved in the communication process with various patients. Regardless of the address, purpose, subject and communication environment, the physician should be able to establish both the dialogue and the monologue at the appropriate level. He should be able to listen, use non-verbal communication tools - gestures, gestures, etc., to analyze and compare the information provided to make the correct diagnosis. The doctor's professional activity is combined with the art of medicine and rhetoric as the art of professional communication between the "doctor-patient".

Rəyçi: dos. M.A.Gərayzadə

Redaksiyaya daxil olub: 24.11.2021

V.A.LƏTİFLİ
baş müəllim
e-mail: vafalatifli@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

İNGİLİS VƏ AZƏRBAYCAN DİLİNDƏ KOLOKEYŞNLƏRİN (SÖZ BİRLƏŞMƏLƏRİNİN) MÜQAYİSƏLİ TƏHLİLİ

Açar sözlər*: kolokeyşn,, klişe, dialekt, sabit söz birləşmələri,idioma.*
Ключевые слова: *фразы, клише, диалект, фраелогические единицы, идиома.*
Key words*: cliche, dialect, phraseological combinations, idiom.*

Dil cəmiyyətlə bağlıdır. İnsan cəmiyyətində elə bir fəaliyyət sahəsi tapılmaz ki,orada dildən istifadə olunmasın.Buna görə də insanlar dil haqqında fikir və rəylər irəli sürmüşlər. Nəticədə dil haqqında elm – dilçilik yaranmışdır.Dilçiliyin şöbələrindən biri leksikologiyadır. Leksikologiya söz və söz birləşmələrini öyrənir. Söz birləşmələri hər bir dildə zəngin ehtiyata malikdir. (12, s.5).

Linqivistikada belə bir termin var - kolokasiya .Bu sahəyə söz birləşmələri aiddir. Bunlar söz birləşməsi olaraq bir kompenentin mənaya gorə seçilməsi ,digəri isə bu seçimlə uzlaşaraq yaranan söz kombinasiyasıdır. Ümimiyyətlə Kolokasiya -- sabit birləşmələr olaraq hər bir dildə mövcuddur. Dil daşıyıcıları daima onlardan istifadə edərək hər bir öyrəndikləri dilin zənginliyi ilə tanış olurlar. Bu birləşmələrdə ifadələr sinonimlərlə əvəz olunduqda belə effektli alınmir və yaxşı səslənmir. Kolokeyşnlər - (collocations) hən leksik , həm də qrammatik cəhətdən düzgündür. Onlar bütün dillərdə mövcuddur (1, 25). Sinonimlərin işlənməsi ilə əvəzolunan kolokeyşnlərə nəzər salsaq görərik ki, burda qeyri təbiilik yaranır. Məsələn: Biz bilirik ki, "fast və quick", "do və make" sinonimlərdi: amma aşağıdakı nümunələrə baxaq

Natural English	Unnatural English
a quick shower/a quick meal	a fast shower/ a fast meal
do homework/do his best	make homework/make his best

Nümunələrdən göründüyü kimi ifadələrin sinonimlərlə bu şəkildə işlədilməsi düzgün hesab edilmir.

İngilis dilində belə söz birləşmələri işlədilir: high temperature, (yuksək hərarət), amma yuksək sözünün digər sinonimi olan - tall temperature (hündür hərarət) işlənməsi mümkünsüzdür. Bu ifadəni eyni ilə Azərbaycan dilində də müqayisə etsək bu nəticəni əldə etmiş oluruq. Hər iki didə müqayisə apararaq söz birləşmələrinin əsas nitq hissələrindən ibarət oduğunu görürük. Söz birləşmələri müstəqil sözlərdən ibarət olur. Əgər tərəflərdən biri köməkçi nitq hissəsi olarsa artıq onlar söz birləşməsi hesab olunmur: bizə tərəf, evə sarı və s. Amma sözlərin məna və qrammatik cəhətdən birləşməsi isə: yaşıl yamac, uca dag, dağ qartalı həqiqi söz birləşmələridir. Söz leksik, söz birləşməsi sintaktik vahiddir Yəni sözlər dilimizdə hazır şəkildədir.Söz birləməsi isə nitq prosesində sintaktik əlaqələrlə formalaşır. Hər iki dildə göstərdiyimiz oxşarlıqdan biri də söz birləşmələrin konkret məna ifadə etməsidir. həyat - dedikdə ümumi və geniş mənalı sözdür, amma gözəl həyat və ya həyat gözəldi - ifadələrində isə konkret məna var.

Kolokeyşnlərin öyrənilməsi vəya tədqiqi bizə nə verir ? Bu məsələyə aydınlıq gətirək: Verilmiş materiallar əsasında araşdırma apararkən beləfikirlərlə qarşılaşırıq (9, 59). Bizim kolokeyşnləri öyrənmə səbəblərimizi aşağıda göstərilən misallarda aydinlaşdıraq.

Biz kolokeyşnləri oyrənirik ki:

1. Təbii danışmaq üçün.

Biz ingilis dilində düzgün danışmaq və fikirlərimizi ifadə etmək üçün bu söz birləşmələrini daha dərindən öyrənməliyik. Məsələn: do a mistake (səhv etmək) , make exercise (hərəkət etmək) - bu birləşmələr qrammatik cəhətdən düzgündür. Buna baxmayaraq dil daşıyıcıları tərəfindən bu ifadə düzgün hesab olunmur, belə ki - make a mistake və do exercise daha təbii və hesab olunur.

2. Sözləri daha asan yadda saxlamaq üçün.

Verilmiş mətndən sözləri öyrənmək və yadda saxlamaq verilmiş sabit söz birləşmələrindən daha çətin olur. Bizim beynimiz əlaqəli məlumatı daha asan qavrıyır nəinki ayrica, parçalanmış bilikləri. Bir növ sözlər də buna bənzəyir, ayrılıqda onları öyrənərkən onları necə düzgün ifadə etməyimizi bilmirik. Əgər biz bütöv bir materiala nəzər yetirsək , bəzən orda geniş sayda verilən sözləri müəyyən bir konstruksiyaya uyğun qruplaşdıra bilmirik. Onları ayrılıqda öyrənmək çətinlik törədir.Amma kolokeyşnləri bildikdə, müəyyən şablonlarla qarşılaşırıq və hətta cumlələri yarı şəkildə əldə etmiş oluruq (6, 443) Beləliklə də müəyyən ifadələri yaratmaq və ya tərcumə etmək daha asan olur.

İngilis dilində kolokeyşnlər necə olur?

İngilis dilində bir neçə növ kolokeyşnlər olur.Onlari bilmək ,yeni sözlərin öyrənilməsini və bu yeni birləşmələrin hansı nitq hissələri ilə düzgün uygunlaşmasını dəqiqləşdirməkdən örtü cox vacibdir. Kolokeyşnlərin ən sadə öyrənmə yolu onları əlaqəli şəkildə öyrənməkdir. Biz sözləri ya mövzuya görə ya da sözə görə qruplaşdıraraq onların daha rahat yadda saxlanılmasına nail ola bilərikSözlərin kombinasiyası onların düzgün əlaqələnməsi anlamına gəlir. Belə əlaqələnən ifadələr də kolokeyşnləri əmələ gətirir. Başqa ifadələrlə desək dilin hissəcikləri - özüdüzələn kərpiclər vasitəsi ilə nitqi yaradır. Əslində hər bir dildə ifadələrin necə əlaqələnməsi hansı şəkildə uygunlaşmasını bilməliyik. Məsələn : Azərbaycan dilində söz birləşmələrin işlənməsinə baxaq: yuksək vəzifə birləşməsini, hündür vəzifə kimi işlədə bilmərik. Başqa ifadəyə baxaq: uşağın könlünü almaq ifadəsini uşağın qəlbini almaq kimi işlədə bilmərik. Eyni zamanda dil öyrənciləri də ingilis dilini öyrənərkən o dilin özünəməxsus ifadə qaydalarına riayət etməlidirlər. İngilis dilini öyrənərkən öyrənci mütləq şəkildə bu kombinasiyaların düzgün uyğunlaşma qruplarını tam şəkildə öyrənməlidi.

Kolokeyşnların təsnifatı və analizi ilə bir daha sübut etmiş oluruq ki, fikirlırimizin düzgün səslənməsi və ifadəsi üçün onları dərindən və əhatəli şəkildə öyrənməyimiz mütləqdir.Dil daşıyıcılarının sabit söz birləşmələrindən düzgün şəkildə istifadə etməsi onların ingilis dilini səlist bilməsini təsdiq edir.Sözsüz ki, bu ətrafda gözəl təəssürat yaradır.Belə ki, əgər siz dil daşıyıcıları olmayan biriləri ilə danışdıqda kolokeyşnlardan istifadə etmə bacarığına maliksinizsə bu onların vacibliyini bir daha artırır.İngilis dilində sabit söz birləşmələrinin çox geniş mənbəyi mövcuddur.Bu mənbəyi tanımaq, öyrənmək ingilis dilində azad və səlist danışmaq bacarığımızı artırır.

Ədəbiyyat

1. John S. Justeson, Slava M. Katz. (1995). "Technical terminology: some linguistic properties and an algorithm for identification in text." Natural Language Engineering 1: 9-27.

2. Frank Smadja (1993). "Retrieving collocations from the text: Xtract." Computational Linguistics 19: 143-177.

3. Hirosi Nakagawa (2001). "Corpus-based extension of a terminological semantic lexicon."In Recent Advances in Computational Terminology. John Benjamins, : 327-351.

4. Kenneth Ward Church and Patrick Hanks. Word association norms, mutual information and lexicography.(PDF) 76-83 (1989).

5. Kenneth W. Church and A. Gale. William (1991)."Concordances for parallel text."(PS). In Proceedings of the Seventh Annual Conference of the UW Centre for the New OED and Text Research, Oxford: 40-62.

6. Fred J.Damerau (1993). "Generating and evaluating domain-oriented multi-word terms from texts." Information Processing & Management 29: 433-447.

7. Kenneth Church. Gale William, Patrick Hanks, and Donald Hindle (1991)."Using statistics in lexical analysis." In Uri Zernik (ed.) Lexical Acquisition: Exploiting On-Line Resources to Build a Lexicon, Hillsdale, NJ: Lawrence Erlbaum.: 115-164.

8. Robert M. Fano (1961). "Transmission of information; a statistical theory of communications." NewYork: MITPress.

9. Борисова Е.Г. Коллокации. Что такое и как их изучать? М.: 1996

10. Борисова Е Г. Слова в тексте. Словарь коллокаций русского языка. М.: 1991.

11. XəlilovB. Müasir Azərbaycan dilinin Leksikologiyası. Bakı 2008

12. Məmmədov H., Axundov. A. Dilçiliyə giriş . Bakı 1980.

В.А.Летифли

Сравнительный анализ разговорных фраз в английском и азербайджанском языках

Резюме

Представленная статья посвящена лексиологии, одной из основных частей языкознания. Лексиология – это изучение слов и словосочетаний. Исследовательская статья подтверждает эффективность и действенность словосочетаний в устной и письменной речи. Он рекомендует изучающим язык уделять больше внимания этой области. Изучение словосочетаний глубоко раскрывает богатство языка. В то же время это улучшает языковые навыки.

V.A.Latifli

Comparative analysis of collocations (phrases) in English and Azerbaijani

Summary

The presented article deals with the department of lexiology,one of the main departments of linguistics. Lexiology is the study of words and phrases. The research work confirms the effectiveness and efficiency of word combinations in oral and written speech. It recommends that language learners pay more attention to this area. Studing word combinations deeply reveal richness of language. At the same time it improves language skills.

Rəyçi: dos. A.X.İsayeva

Redaksiyaya daxil olub: 30.11.2021

G.T.MƏMMƏDOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MÜASİR İNGİLİS DİLİNDƏ İŞLƏNƏN SUAL CÜMLƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *sual cümlələri, ümumi suallar, xüsusi suallar, alternativ suallar, diskanktiv suallar*
Ключевые слова: *вопросительное предложение, общий вопросы, специальный вопросы, альтернативный вопросы, разделительный вопросы*
Key words: *interrogative sentences, general questions, special questions, alternative questions, disjunctive questions*

Bilmədiklərimizi öyrənmək məqsədilə işlətdiyimiz cümlələrə sual cümlələri deyilir. (4, s. 357) Sual cümlələrindən danışarkən diqqətimizi cəlb edən bir məsələyə toxunmaq istərdik. Bu da sual cümlələrinin hökm bildirib-bildirməməsi məsələsidir. Başqa cümlə növlərinin hökm bildirməsi məsələsi dilçilikdə mübahisəli məsələ deyildir. Lakin sual cümlələrinin hökm bildirib-bildirməməsi mübahisələrə səbəb olmuş və hələ də mübahisəli məsələ olaraq qalmaqdadır. Danışan adam sual cümləsi işlətməklə başqa bir insandan müəyyən bir şeyi öyrənmək, hər hansı məsələyə münasibəti bilmək məqsədilə işlədir. Sual cümlələri, əsasən, başqasından cavab almaq məqsədilə meydana çıxmış və bu məqsədlə də işlənməyə başlamışdır. Sual cümlələrini başqa cümlə növlərindən fərqləndirən onların özünəməxsus intonasiyasının olmasıdır. Amma intonasiya sual cümlələrinin yeganə əlaməti deyildir, sual cümlələrinin yaranmasında intonasiyadan başqa digər qrammatik vasitələrdən də istifadə olunur.

Ünsiyyət zamanı ifadə edilən suallar müxtəlif cür olur. Biz bəzən ifadə edilən fikrə bütövlükdə, bəzən isə o fikrin ayrı-ayrı hissələrinə suallar veririk. Bəzən də biz iki fikirdən birinin həqiqətə uyğun olub-olmamasını müəyyənləşdirmək məqsədilə, bəzən danışanın şübhəsini dəqiqləşdirmək üçün suallar veririk. Bütün bu deyilənlərə əsasən deyə bilərik ki, ingilis dilində işlədilən sual cümlələri dörd yarımqrupa ayrılır: 1.ümumi suallar 2. xüsusi suallar 3.alternativ suallar 4.diskanktiv suallar

Bütövlükdə cümləyə aid olan, bəli (yes) və xeyr (no) cavabları tələb edən sual növünə ümumi suallar deyilir. Belə növ sual cümlələri ya köməkçi feillər, ya modal feillər, bəzən də bağlayıcı feillər vasitəsilə düzəldilir. Müasir Azərbaycan dilindən fərqli olaraq müasir ingilis dilində sual cümlələrinin özünəməxsus sintaktik quruluşu, yəni söz sırası vardır. Sual cümlələrinin növündən asılı olaraq onlarda söz sırası da fərqli olur. Bəzən şifahi nitqdə, danışıq dilində bu söz sırası pozulur. Belə olan halda ümumi suallara aid olan bu söz sırası nəqli cümlədəki söz sırasından fərqlənmir. Məsələn,

"You will do everything you can for me?" she said pitifully.

You are going to see your nurse, I suppose?

"You have your friends safe and sound?"

B. İliş belə sual cümlələrini yarımçıq sual cümlələri (semi-interrogative) adlandırır və belə bir misal göstərir. *"Well, I dare say that's more revealing about poor George than you. At any rate, he seems to have survived it." "Oh, you've seen him?" She did not particularly mark her question for an answer, but it was, after all, the pivot-point, and Bone found himself replying – that indeed he had.*

O göstərir ki, bu misalda *Oh, you've seen him?* cümləsi təsdiq nəqli cümlə ilə sual cümləsi arasında qərarlaşır. Nəqli cümlə kimi *You have seen him* və sual cümləsi kimi *Have you seen him?* Gəlin bu iki cümlələri bir-biri ilə müqayisə edək. Sintaktik nöqteyi-nəzərdən, yəni mübtəda və xəbərin vəziyyətinə görə, bu cümlə nəqli cümlədir, *You have seen* kimi, *have*

you seen kimi yox. Əgər *have you seen* kimi olsaydı sual cümləsi olardı. Bəs bu cümlə nəyinə görə nəqli cümlədən fərqlənir? Cümlənin sonunda sual işarəsinin qoyulması göstərir ki, bu intonasiya nəqli cümlə intonasiyası deyil. Bu cümləni ifadə edərkən müəllif nəyisə deməyə tərəddüd edir və digər şəxsin bu faktı təsdiq etməsini gözləyir. (6, s. 186)

Bu halda sual cümləsinə xas olan kommunikativ yük, xüsusən şifahi nitqdə bütövlükdə intonasiyanın üzərinə düşür, intonasiya sualın yeganə vasitəsi olur. Sual cümlələrindəki bu növ söz sırasını biz inversiya hesab edirik. (4, s. 415)

İntonasiya ilə yaranan sual cümlələri zahirən heç bir cəhətdən nəqli cümlələrdən fərqlənmir. İntonasiyanı dəyişməklə onları asanlıqla nəqli cümlələr kimi işlətmək olar. Yazıda isə cümlələrin sonundakı sual işarəsi atılarsa, həmin cümlələr nəqli cümlələr kimi oxunar. Bu o deməkdir ki, belə cümlələrin sual cümləsinə çevrilməsində heç bir qrammatik dəyişiklik edilməmiş, sözlərin sırası, əlaqə vasitələri, bir-birinə münasibəti eyni ilə qalmış, yalnız onların intonasiyası başqalaşmışdır. (12, s.87)

Bəzən biz cümlənin hər hansı bir üzvünə sual veririk. Belə növ suallara xüsusi suallar deyilir. Bu qəbildən olan sual cümlələri ya sual əvəzliyi, ya da sual zərfləri vasitəsilə düzəldilir. Xüsusi sual cümlələrinin əmələ gəlməsindəki müxtəlifliyi nəzərə alaraq belə cümlələri iki qrupa bölmək olar: 1. sual əvəzlikləri vasitəsilə düzələn xüsusi sual cümlələri, 2. sual zərfləri vasitəsilə düzələn xüsusi sual cümlələri. Xüsusi sualları söz sırasına görə də iki qrupa bölmək olar: 1) mübtəda və onun təyininə aid olan suallar, 2) cümlənin digər üzvlərinə aid olan suallar. Birinci qrupa daxil olan suallarda, yəni mübtəda və onun təyininə sual verərkən heç bir digər köməkçi feildən istifadə olunmur, söz sırası dəyişmir, sadəcə sual verəcəyimiz sözün yerinə sual sözü yazılır. Söz sırası belə olur. *mübtəda + xəbər + ikinci dərəcəli üzvlər*. Sual əvəzlikləri vasitəsilə əmələ gələn sual cümlələrində gah subyekt, gah obyekt, gah predikativ və s. məlum olmur, danışan məlum olmayan həmin şey və hadisələri, əlamətləri və s. meydana çıxartmaq üçün onları qeyri-müəyyən şəkildə ifadə edən sual əvəzliklərindən istifadə edir. (12, səh. 90) Sual əvəzlikləri ilə əmələ gələn sual cümlələrində məntiqi vurğu, əsasən, sual bildirən sözlərin üzərinə düşür. (12, s. 90)

İkinci qrupa daxil olan sual cümlələrində, yəni cümlənin mübtədasına deyil, digər üzvlərinə, məsələn təyinə, tamamlığa və s. sual verərkən isə söz sırası dəyişir, belə olur: *sual əvəzliyi, ya da sual zərfi + köməkçi feil və ya modal feil + mübtəda + xəbərin əsas hissəsi + ikinci dərəcəli üzvlər*. Xüsusi sual cümlələri sual əvəzlikləri, ya da sual zərfləri vasitəsilə həyata keçirilir. Müasir ingilis dilində aşağıdakı sual əvəzlikləri vardır: *who, whom, whose, what, which*. Sual əvəzlikləri xüsusi sual cümlələri yaratmaqla bərabər, həm də cümlədə hər hansı sintaktik funksiya daşıyır, yəni cümlə üzvü olur.

Müasir ingilis dilində işlənən sual zərfləri bunlardır: *when, where, how, why*. Bu sual zərfləri də sual əvəzlikləri kimi xüsusi sual cümlələri yaratmaqla bərabər, həm də cümlədə müəyyən sintaktik funksiya yerinə yetirir, cümlə üzvü olur.

Danışanın bu və ya digər hadisə və ya hal haqqında öz şübhə və tərəddüdünü qətiləşdirmək məqsədilə işlətdiyi suala diskanktiv sual deyilir. (4, s. 359) Belə sual cümlələri iki hissədən ibarət olur. Onun birinci tərəfi nəqli cümlə, ikinci tərəfi isə qısa ümumi sualdan ibarət olur. Birinci hissə təsdiqdə olduqda ikinci hissə inkarda, birinci hissə inkarda olduqda isə ikinci hissə təsdiqdə olur. Məsələn, *They are students, aren't they?* Diskanktiv sual növləri adətən danışıqda və qeyri-formal söhbətlərdə işlədilir. Bəzən bu tipli sual cümlələrinin birinci tərəfində, yəni nəqli cümlə hissəsində *little, few, hardly, scarcely, rarely, seldom, never* və s. inkar sözlər işlədilir. Bu zaman həmin cümlənin birinci tərəfi təsdiqdə olur. Məsələn,

Few people knew the answer, did they?

Little progress has been made, has it?

We could scarcely hear what he said, could we?

Only zərfi isə həm təsdiq, həm də inkar söz kimi işlədilə bilir. Məsələn,

There were only six people present, were there?

There were only six people present, weren't there?

Bundan başqa baxmayaraq ki, *everybody* və *everyone* əvəzlikləri tək əvəzliklər hesab olunur, onlar diskanktiv sualın birinci tərəfində işləndikdə, ümumi sualda onlar *they* əvəzliyi ilə əvəz olunur. Məsələn,

Everybody can't be present at the meeting, can they?

Everybody wanted to go to the cinema, didn't they?

I am birləşməsi discanktiv sualın ikinci tərəfində inkarda olanda *am I not* kimi deyil, *aren't I* kimi işlədilir. Məsələn, I'm rather late, aren't I? I'm older than you, aren't I?

Sual cümlələri quruluşuna görə iki qrupa ayrılır:1) sadə sual cümlələri, 2) mürəkkəb sual cümlələri

Sadə sual cümlələrinin bir mübtədası və bir xəbəri olur, söz sırası haqqında isə yuxarıda qeyd etmişdik. Məsələn, *When are you going away?* Mürəkkəb sual cümləsi isə iki hissədən: baş və budaq cümlələrdən ibarət olur. Bu tipli cümlələr, adətən tamamlıq budaq cümləli mürəkkəb cümlələr olur. Mürəkkəb sual cümlələrinin birinci tərəfinin söz sırası sadə sual cümləsinin söz sırası ilə eynidir, ikinci tərəfində, yəni budaq cümlədə söz sırası nəqli cümlələrdə olduğu kimidir, çünki bu zaman xüsusi sualları yaratmağa xidmət edən sual əvəzlikləri və ya zərfləri artıq bağlayıcı sözlər olur. Məsələn,

Can you tell me if this is anybody's seat?

Will you tell me how long it will take you to do it?

Bu sözlər mübtəda, tamamlıq və predikativ budaq cümlələrdə işlənərək budaq cümləni baş cümləyə bağlayır, eyni zamanda cümlədə müəyyən sintaktik funksiya yerinə yetirir.

Məsələn, *I don't know when he will come* cümləsində *when* bağlayıcı zərfdir, çünki o tamamlıq budaq cümləsini baş cümləyə bağlayır, amma eyni zamanda cümlədə sintaktik funksiya yerinə yetirərək cümlənin zaman zərfliyi funksiyasında işlənir. Başqa bir cümlə nümunəsinə nəzər salaq. *Do you realize what it means to me?* cümləsində işlənən *what* bağlayıcı əvəzliyi tamamlıq budaq cümləsini bağlamaqla yanaşı həm də cümlənin tamamlığı funksiyasında işlənir. Müasir ingilis dilində işlənən bu sözlər təyin budaq cümləsini baş cümləyə bağladıqda isə nisbi əvəzliklər və ya nisbi zərflər olur. Nisbi zərflərin də ikili xüsusiyyəti vardır. Onlar da bağlayıcılar kimi həm budaq cümləni baş cümləyə bağlayır, həm də cümlədə müəyyən sintaktik funksiya yerinə yetirirlər. Məsələn, *The dog whom you see in the yard has a keen sense of smell* cümləsində *whom* əvəzliyi təyin budaq cümləsini baş cümləyə bağlamışdır. Cümlədə funksiyası isə tamamlıqdır.

Bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, yuxarıda adları çəkilən əvəzlik və zərflər omonimlik yaradır. Onlar sual sözləri kimi işlənərək həm xüsusi sual cümlələri yaradır, həm bağlayıcı sözlər kimi işlənərək mübtəda, tamamlıq və predikativ budaq cümlələri baş cümləyə bağlayır, həm də nisbi əvəzlik kimi işlənərək təyin budaq cümlələrini baş cümləyə bağlamağa xidmət edirlər. Lakin bu zərflərdən *when* zaman budaq cümləsini, *where* isə yer budaq cümləsini baş cümləyə bağlayarkən onlar zərf deyil, bağlayıcı olurlar, çünki bu zaman onların cümlədə heç bir sintaktik funksiyası olmur. Məsələn, *When he comes, I'll tell him everything. They went where the children were waiting for them.*

Ədəbiyyat

1. Abasquliyev T. İngiliscədən Azərbaycan dilinə tərcümənin əsasları, Bakı, 1971.
2. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis, IV hissə, Bakı, 1972.
3. Hüseynzadə M. Müasir Azərbaycan dili, Bakı, 1963.
4. Musayev O. İngilis dilinin qrammatikası. Maarif nəşriyyatı, Bakı, 1996.
5. Müasir Azərbaycan dili, sintaksis, Bakı, 2000.
6. Ilysh B.A. History of the English Language, Leningrad, 1973.
7. Jesperson O. Modern English Grammar on Historical Principles,London, 1961.

8. Kaushanskaya B. L., Kovner R. L. and others, Grammar of the English Language, Leningrad, 1973.
9. Khaimovich B.S., Rogovskaya B. I. A Course of English Grammar, Moscow, 1967.
10. Kobrina N.A., Korneyeva E.A., Ossovskaya M. I., Guzeyeva K. A. An English Grammar, 1985.
11.http://buludxan-xelilov.com › pdf › azerb-dilinini...

Г.Т.Мамедова

Характеристика вопросительных предложений в современном английском языке

Резюме

В современном английском языке различают 4 вида вопросительного предложения общий, специальный, альтернативный, разделительный. Некоторые вопросительные местоимения и наречия омонимы с соединительными и относительными словами. Они выполняют некоторые синтаксические функции в предложении. Если вопросительные слова *when* и *where* встречаются в придаточных предложениях времени и места, то они не являются наречиями, они просто подчинительные союзы.

G.T.Mammadova

The characteristics of the interrogative sentences in modern English

Summary

There are four interrogative sentences in modern English: general questions, special questions, alternative questions and disjunctive questions. Some interrogative pronouns and adverbs are homonumous with conjunctive words and relative words. They perform some syntactic functions in the sentence. If the interrogative words *when* and *where* introduce adverbial clauses of time and place they are not adverbs, but simply subordinating conjunctions.

Rəyçi: f.f.d., dos. İ.M.Nuriyeva

Redaksiyaya daxil olub: 29.10.2021

L.M.PİRİYEVA

AMEA-nın Gəncə Elm Mərkəzi
(Gəncə şəh., Heydər Əliyev, 419)

AŞIQ YARADICILIĞINDA FOLKLOR DİALEKTİNİN ÜSLUBİ FUNKSİONAL ROLU

Açar sözlər: *vestonimlər, aşıq poeziyası, folklor dialekti, geyim estetikası, funksional-üslubi aspekt.*
Ключевые слова: *Вестонимы, ашугская поэзия, фольклорная диалектика, эстетика одежды, стилитическо-функциональный аспект.*
Key words: *Westonyms, ashug poetry, folk dialectic, clothing aesthetics, stylistic and functional aspect*

Azərbaycan xalq yaradıcılığının əsas istiqamətlərindən olan aşıq şeiri qədim genezisə və özünəməxsus dil-üslub təkamülünə malikdir. "Sazın-sözün əzəli və əbədi missiyası xalqın dilini, ruhunu yaşatmaq, arıdıb durultmaq, tarixi-mənəvi kimliyini, etnoqrafik yaşam tərzini, folklor dəyərlərini, fikir-düşüncə özünəməxsusluğunu, könül gözəlliklərini sirli-sehirli bir ecazkarlıqla sabahlara daşımaqdır" (9, s.5). Azərbaycan aşıq şeiri öz tarixi inkişafında həm yazılı ədəbiyyatın, həm şifahi xalq yaradıcılığının, dini – mistik mənaların, inanc sistemlərinin (şamanizm, sufizm) təsirinə məruz qalmış və bu da onun üslub imkanlarını genişləndirmişdir.

Aşıq mətnlərinin leksikasının öyrənilməsi Azərbaycan dilinin inkişaf mərhələlərini izləməyə imkan verir. Folklor dili ədəbi dildə monofunksionallığı ilə, normaların variativliyi və şivə-dialekt stixiyasına yaxınlığı ilə fərqlənir. Folklor özünəməxsus dilə də poetik-üslubi xüsusiyyətlərə malikdir.

Müasir Azərbaycan dilçiliyində ədəbi dilin tarixi inkişaf yolu, leksik, qrammatik və üslub xüsusiyyətləri yazılı mətnlər əsasında öyrənilmişdir. Görkəmli dilçi Q.Kazımov bu istiqamət nəzəri-metodoloji cəhətdən yanlış hesab edir: "Milli ədəbi dilimizin inkişaf yolunun tədqiqi prosesində biz daim başqa bir yanlış yolu rəhbər tutmuşuq – el sənətini, el ədəbiyyatını, xalqın öz dilində danışan, ədəbi əsl səviyyəsini, təbii mənzərəsini əks etdirən ədəbiyyatı dördüncü, beşinci plana keçirmiş, savadlı təbəqə üçün, bəlkə də, qəsdən ağır və zəhmli dildə, arxaik formaları qoruya-qoruya yazan klassik sənət ustalarının dilini ədəbi dilin inkişafı üçün əsas meyar kimi götürmüşük" (5, s.125).

Z.Məmmədov da aşıq poeziyası dilinin araşdırılmasının ədəbi dil tarixi üçün aktuallığını qeyd edir: "Aşıq poeziyasının dil-üslub xüsusiyyətlərinin öyrənilməsi bütövlükdə aşıq sənətinin tədqiqi işinin tərkib hissəsi kimi mühüm bir funksiya yerinə yetirir. Yəni bu tədqiqatlar ilk növbədə aşıq sənətinin daha dolğun öyrənilməsi üçün lazımdır" (12, s.5).

XVI əsrdən başlayaraq, aşıq yarardıcılığı Azərbaycan ədəbi dilinin xəlqiləşməsi, milliləşməsi prosesində fəal rol oynayır, folklor üslubunun aparıcı istiqamətə çevrilməsinə təkan verir. Akademik N.Cəfərovla razılaşırıq ki, "Ədəbi dil xəlqiləşdikcə məişət leksikası ilə daha çox təmin olunur" (1, s.131).

Aşıq şeirinin üslubi xüsusiyyətləri şeir poetikasının vacib komponentləri (dil, janr, vəzn, ideya-məzmun, forma-təhkiyə və s.) ilə sıx bağlıdır. Aşıq şeirində üslub xüsusiyyətlərin araşdırılması etnik təfəkkürün estetik səviyyəsinin öyrənilməsi baxımından əhəmiyyət daşıyır. Aşıq şeirinin üslub zənginliyi klassik poetik təfəkkürün folklor təfəkkürünə təsirini izləməyə imkan verir.

Folklor üslubu estetik-bədii düşüncənin demokratikləşməsində mühüm rol oynayır. Aşıq üslubu folklor üslubunun tərkib hissəsi olub, ümumxalq dilinin daxili imkanlarından yararlanmasını mümkün edir.Aşıq poeziyasında da "folklor bədii üslubu yeni keyfiyyət və potensialını aşkarlayır, həm yeni ictimai-ideoloji meylləri ifadə etməklə bərabər, eyni

zamanda etnik milli dəyərlərin, dünyagörüşün daşıyıcısı olmağa davam edir, hətta bunları yazılı ədəbiyyata da gətirir" (6,s.13).

Aşıq şeiri özündə etnomədəni kontekstin səciyyəvi xüsusiyyətlərini əks etdirməklə yanaşı, ədəbi dilimizi üslubi koloritlə zənginləşdirmişdir. Şübhəsiz, aşıq şeirini çoxəsrlik etnomədəni kontekstdən, xalq şeirinin fəlsəfəsindən ayırmaq olmaz: "xalq şeiri (aşıq şeiri-L.P.) söyləyici-yaradıcı şəxsin daxili aləmini aşkarlasa da, burada ənənəvi etnopoetik model, universal semantik sistem, başqa sözlə, etnolinqvopoetik kontekst üstünlük təşkil eidr" (6,s. 31).

Aşıq poeziyasında folklor üslubunu şərtləndirən prinsiplərdən biri də "etnoqrafik konkretlikdir" (N.Cəfərov). Etnoqrafik konkretliyi təmin edən sahələrdən biri də məişət leksikasıdır. Məhz aşıqların yaradıcılığında məişət leksikası, xüsusən geyim leksikası bədii portret yaratmada fəal iştirak edir, geyim adları ümumişlək vahidlər kimi bədii-estetik təfəkkürünün normalarını nümayiş etdirir.

Aşıqların dilini araşdırarkən müxtəlif etnomədəni, coğrafi məkanlarda mövcud dil-üslub mühitinin aşıq şeirinə təsir miqyası da nəzərə alınmalıdır. Məsələn, Şirvan aşıq mühitində klassik bədii üslubun folklor üslubu ilə sintezi qaçılmaz olmuşdur. Amma Azərbaycanın qərb bölgələrində (Qazax, Borçalı, Gəncəbasar) isə klassik poetik üslubun folklor üslubuna "məğlubiyyət"ini görürük. "XVIII əsrdə klassik üslubun tənəzzülü, ardıcıl olaraq, folklor üslubunun özünütəsdiqi ilə tamamlanır" (1, s.154) və XIX-XX əsrlər aşıqlarının dili "həmin özünütəsdiq prosesinin məntiqini (və nəticəsini) əks etdirir" (1,s.154).

Bir məsələni də qeyd etməliyik ki, aşıq şeirində folklor üslubunun özəlliyi mətndə kanonik elementlərin, "ümumi yerlərin" və sabit formulların funksionallığı ilə müəyyən olunur, "ümumi yerlərdə strukturluğun aşkarlanması onların folklor genezisindən xəbər verir. Bu baxımdan, folklorluğun ən etibarlı meyarı ümumi yerlərin sonradan bölünməsi, onlarda "formul" tipli bir sıra elementlərin tapılmasıdır" (14, s.272).

Aşıq təhkiyə sənətində önəmli fiqur müəllif-söyləyici obrazıdır. Aşıq yaradıcılığının ümumi mövzu – motiv sisteminə, formul-klişe kataloquna baxmayaraq, aşıq şeirində fərdi müəllif üslublarının, intonasiya-ifa, təhkiyə tərzinin fərqliliyini aşkar etmək mümkündür. Aşıq şeiri özündə fərdiliyi və ümumiliyi, şəxsi və ictimai başlanğıcları birləşdirir. Aşıqlar ilk növbədə etnik-mədəni dəyərlərin daşıyıcısıdırlar. Aşıqlar vəsf etdiyi bütün hadisələrə və predmetlərə toplumun gözü ilə baxır, onun etik-estetik dünyagörüşünün süzgəcindən keçirir. Aşıq poeziyasının əsas obyektini xalqın həyatı, təsərrüfat fəaliyyəti, məişəti təşkil edir.

Müşahidələr göstərir ki, aşıq şeirində müxtəlif mücərrəd anlayışlar, mistik poetizmlər, zaman-məkan obrazları ilə yanaşı, geyim obrazları da artıq ənənəvi formullar kimi təşəkkül tapmışdır. Geyim adları aşıq şeirinin formul sisteminə daxil olaraq, üslubi mən imkanlarını genişləndirmişdir.

Azərbaycan aşıq şeirində geyim və geyim detallarının adları folklor üslubunun prinsiplərinə müvafiq olaraq işarələşir, üslubi formullar – klişelər səviyyəsində funksionallaşır.Üslubi formullar yaddaş tipi və poetik informasiyanın ötürülməsi ənənəsi ilə bağlıdır. Formul səciyyələr yaradıcılığının spesifikliyini iki meylin-ənənəvi və fərdi mövqelərin ziddiyyəti təşkil edir, xalq şeirimiz ədəbiyyata xeyli yaxın olduğundan və birbaşa canlı ünsiyyətdə, ifada səsləndiyindən burada fərqlilik olduqca güclüdür. Fərdilik isə formul prinsipi ilə təzad yaradır və nəticədə şeir üslubi dinamiklik, çeviklik qazanır" (6, s.47-48).

Aşıq poeziyası xalqın zəngin düşüncə və dil mədəniyyətini özündə mükəmməl surətdə əks etdirir. Şifahi danışıq dilinin obrazlılığı öz yüksək ifadəsini tapır. Bu poeziyada, S.Orucova demişkən, "Azərbaycan xalq şifahi danışıq dilinin leksik-semantik vahidləri sanki başdan-başa obrazlar üzərində qurulub. Burada sözün müstəqil, lüğəvi mənalarının əksəriyyəti, mühüm faizi bədii ekspressiv çalara malikdir" (13, s.180).

Göyçə Azərbaycan aşıq sənətinin möhtəşəm və klassik mühitlərindən biridir.

Göyçə aşıq mühitində klassik aşıq sənətinin Aşıq Alı, Ağ Aşıq, Aşıq Musa, Aşıq Ələsgər kimi qüdrətli nümayəndələrini yetişdirmişdir. "Göyçə folklor həyatının ecazkar qüdrəti ilə" (M.Qasımlı) yetişmiş böyük sənətkarlardan biri də Aşıq Ələsgərdir. "Göyçə Azərbaycan türklüyünün ən saf bölgələrindən biri olduğu üçün orada saz və söz sənəti həmişə güzəranın ayrılmaz tərkib hissəsi olmuş və ulusun mənəvi yaşam sistemində aparıcı mövqeyə yiyələnmişdir. Şübhəsiz ki, əzəmətli ozan sənətində əsas məskənlərdən biri olmuş bu qədim türk yurdu öz misilsiz koloritini, bulaq kimi qaynayan obrazlı danışıq tərzini milli ruhun ən saf və ən dərin qatlarından şirə çəkərək yaratmışdır. Orta yüzilliklərdə aşıq sənəti təşəkkül tapdıqdan sonra Göyçədə qüdrətli mühitlərdən birinin meydana gəlməsi oradakı folklor həyatının ecazkar qüdrəti ilə bağlıdır" (7, s.169).

Aşıq Ələsgərin yaradıcılığı XIX əsr Azərbaycan dilinin mənzərəsini mükəmməl əks etdirir. Şifahi danışıq dilinin canlı stixiyası, poetik - irfani yaddaşın özünəməxsusluğu, poetik formulların ötürülmə və qorunub saxlanılma ənənəsi, aşıq sənətinin və dilinin demokratikliyi Aşıq Ələsgər sözünün vüsətini ifadə edir.

Klassik aşıqların dil və üslubuna həsr olunmuş araşdırmalar o qədər də çoxluq təşkil etmir. Bunların arasında M.Hüseynovun Aşıq Ələsgər dilinin poetik və estetik xüsusiyyətləri "Aşıq Ələsgərin söz ümmanı" haqqında monoqrafiyası fərqlənir. Aşıq Ələsgərin dili xalqın dilidir.

Aşıq poeziyası xalqımızın poetik təfəkkürünün və dil zənginliyimizin parlaq ifadəsidir. Xalq dilinin bədii estetikası aşıq dilinin bütün səviyyələrində (ritm0 intonasiya, semasioloji zənginlik, ekspressivlik) özünü göstərir.

Monoqrafiyada Aşıq Ələsgərin leksikasına xüsusi diqqət yetirilir. Ustad aşığın omonimlər, sinonimlər vasitəsilə yaratdığı səs palitrası və "mənalar oyunu" Aşıq Ələsgərin dil zənginliyində xalqımızın ruhu, mənəvi-estetik idealları əksini tapmışdır, bədii düşüncəmizin dərinliyi boy verir. İ.Məmmədli doğru olaraq qeyd edir: "Bədii dilin, üslubun ən gözəl nümunələrini daha çox aşıq yaradıcılığında, aşıq şeirində görmək olar" (11,s. 197-198).

Aşıq şeirinin üslubi özəlliyi ondadır ki, poetik mətnlər etnik toplumun canlı danışıq nitq fəaliyyətindən, dövrün estetik-mədəni, ictimai-siyasi, sosial fonundan kənarda təsəvvür olunmur. Aşıq şeir üslubu bir sistemdir və bu sistemin bütün səviyyələri bir-birilə əlaqədar olub, işlənmə məntiqi aşığın mənsub olduğu etnik-mədəni mühitlə, təhkiyəçi-söyləyici fərdiliyinin spesifikliyi müəyyən edilir.

Etnoqrafik leksika, xüsusən onun tərkib hissəsi olan geyim adları bədii portretin yaradılmasında mühüm rol oynamışdır. Bu haqda aşıq şeirinin dərin bilicilərindən olan prof.M. Qasımlı yazır: "Etnoqrafik təsvir el gözəlinin xəlqi koloritli portretini yaratdığı kimi aşığın (A.Tufarqanlının L.P.) şeir dilinə də bir axıcılıq gətirmişdir. Abbas Tufarqanlı etnoqrafik detalları portret üzərinə elə köçürür ki, onun təsvir-təqdiminin hazırladığı el gözəli canlı təsir bağışlayır..." (8, s. 48-49). Aşıq şeirində etnoqrafik elementlərin intensivliyi ənənədən gələn məsələdir. "Bu sahədə poetik nümunələr həm çoxsaylılığı, həm də bədii sisteminin mükəmməlliyi, üslub rəngarəngliyi və obraz zənginliyi ilə digər mövzulardakı aşıq şeirlərindən nəzərə çarpacaq üstünlüklə seçilir" (10, s.157).

Aşıq şeirində geyim adlarının estetik funksionallığı mərasim dirkursu ilə sıx əlaqə-dardır. "Qopuz götürüb eldən-elə gəzən" ulu ozanlar da, üç gün üç gecə toylar keçirən ustad aşıqlar da toy xronotopu ilə bağlı olmuşlar.

Geyim adlarının poetik sistem daxilində başqa leksemlərlə qarşılıqlı münasibətləri əhəmiyyətli məsələlərdən biridir. Üslubi fəallıq baxımdan seçilən geyim adları obrazların etnik-mədəni yaddaşda qorunub saxlanılmasını şərtləndirir. Geyim leksemləri poetik üslubun karkasına daxil edilməsi bədii mətnin realizm potensialını artırır, aşıq şeirinin üslubyaradıcı çevrəsini genişləndirir.

Bədii üslubun cilalanmasında, mənalar dünyasının zənginləşməsində geyim leksikasının rolu və əhəmiyyəti folklorşünaslar tərəfindən yüksək dəyərləndirilir. Aşıqların geyim

adlarından cinas, təşbeh, metafora səviyyələrində "poetik mənalandırma ustalığı"nı söz sənətimizin və dilimizin yüksək estetik təntənəsi kimi qiymətləndirir. Məsələn, A.Tufarqanlının "Gülgəzindi" rədifli cinas gəraylısında ağ libasın cinasyaratma prosedurunda iştirakını belə şərh edir:

"Yarı ağ libada gördüm,
Yarı ağlı bada gördüm,
Yarı ağlı bada gördüm,
Gülgəz, indi, Gülgəz, indi

Aşıq birinci misrada yarını – sevgilisini ağ libada –ağ paltarda gördüyünü deyir. İkinci misrada isə yarının ağlı bada getmiş-ağlını itirmiş vəziyyətdə olduğunu söyləyir. Bunun səbəbini isə üçüncü cinas misrada açıqlayır: Aşıq Abbasın sevgilisi əlində yarıya qədər ağı-zəhər doldurulmuş badə ilə ona yaxınlaşır. Düşmənlərin bu məkrli fəndi Haqq aşığı Abbasa əyan olduğu üçün o, ağ libada-ağ paltarda ağılı-zəhərli badə gətirən sadəlövh sevgilisi Gülgəzə bu barədə xəbərdarlıq edir" (9, s.10-11).

Ustad aşıqların bədii sənətkarlığı ümumtürk, əcnəbi və dialekt leksikasından məharətlə istifadə etməsində özünü göstərir. Bütün leksik laylar bir-biriləharmonik qovuşur ki, bu da sənətkarlara aşıq dilinə xas olan "dil naxışlarını" yaratmağa imkan verir. Aşağıda gətirdiyimiz örnəklər aşıqların dil-üslub sənətkarlığını nümayiş etdirmir, həm də onların xalq məişətinə, geyim estetikasına və davranış mədəniyyətinə dərindən bələd olduqlarını göstərir. Aşıq poeziyasında geyim leksikası xalqın tarixi yaddaşı, milli mənəvi dəyərləri, milli xarakteri və s. haqqında məlumat verir.

Ədəbiyyat

1. Cəfərov N. Molla Pənah Vaqif. Bakı: "Rennesans-A" Nəşr Evi, 2017.-240 s.
2. Hüseynov M. Aşıq Ələsgərin söz ümmanı.-Bakı: "Elm", 2017.-312 s.
3. Hüseynov M.A. Aşıq Ələsgərin söz ümmanı. –Bakı: Elm və Təhsil, 2017.- 312 s.
4. İslam Ələsgər. Haqq aşığı Ələsgər. – Bakı: Maarif, 1990. -264 s.
5. Kazımov Q. Qurbani və poetikası. Dərs vəsaiti. Bakı: N.Tusi adına ADPU-nun nəşri, 1996, 196 s.
6. Qafarova S. Azərbaycan xalq şeirində bədii üslub. Bakı: Mütərcim, 2006.- 156 s.
7. Qasımlı M. Aşıq – ozan sənəti. Bakı: Uğur, 2003.
8. Qasımlı M. Azərbaycan aşıq ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2019, 200 s.
9. Qasımlı M. Dədə Qorquddan üzü bəri // Aşıq ədəbiyyatı antologiyası. 3 cilddə. I c. Bakı, 2017, s.5-12.
10. Qasımlı M. Ozan-aşıq sənəti. Bakı; Uğur, 2007, 304 s.
11. Məmmədli İ. Aşıq Şəmşirin dil sənətkarlığı// Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda Beynəlxalq Elmi konfransın materialları. Bakı:"Nurlan", 2013, s.192-206.
12. Məmmədov Z. Klassik aşıq poeziyasının leksik-semantik xüsusiyyətləri. Bakı: "Avropa", 2006.
13. Orucova S. Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri (QƏXTMT-SMOMPK materialları əsasında). Bakı:"Elm və təhsil", 2012.-536 s.
14. Велиева М. Поэтическая фонетика азербайджанской народной поэзии.-Баку: Элм, 1986.

Л.М.Пириева

Стилистико-функциональная роль фольклорного говора в ашугском творчестве

Резюме

Обьектом исследования является лексико-семантическая группа «одежда», выявленная в языке азербайджанских ашугов. Интерес к вестонимам обусловлен тем, что данные наименова-

ния является ценным источником для изучения быта и историко-культурных явленый азербайджанского народа. Изучение слова в тесной взаимосвязи с историей вещи позволяет проникнуть в этнокультурный контекст эпохи.

В статье анализируются приемы введения наименования одежды в ткань художественного произведения, исследуются особенности использования наименований одежды в портретных описаниях ашугов. Как элемент художественного произведения наименования одежды несут в тексте определенную семантическую, функциональную и стилистическую нагрузку. Изучение вестонимов в функционально – стилистическом аспекте может способствовать построению адекватной коммуникации между поэтом ашугом и читателем/слушателем.

L.M.Piriyeva

Stylistic functional role of folklore dialect in ashug's creativity

Summary

The object of the research is the lexical-semantic group “clothes”, revealed in the language of the Azerbaijani ashugs. Interest in westonyms is due to the fact that these names are a valuable source for the study of everyday life and historical and cultural manifestations of the Azerbaijani people. The study of the word in close connection with the history of the thing allows you to penetrate into the ethnocultural context of the era.

The article analyzes the methods of introducing the name of clothing into the fabric of a work of art, examines the features of the use of names of clothing in portrait descriptions of ashugs. As an element of a work of art, names of clothing carry a certain semantic, functional and stylistic load in the text. The study of vestonyms in the functional and stylistic aspect can contribute to the construction of adequate communication between the poet ashug and the reader / listener.

Rəyçi: akad. N.Q.Cəfərov

Redaksiyaya daxil olub: 11.11.2021

A.F.QASIMOVA
baş müəllim
e-mail: a-qasimova1973@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

FRANSIZ DİLİNDƏ QRAMMATİK KATEQORİYALAR

Açar sözlər: *qrammatik kateqoriya, nitq hissəsi, dəyişkən sözlər, dəyişməz sözlər, isim, sifət*
Ключевые слова: *грамматическая категория, часть речи, переменные слова, неизменяемые слова, существительные, прилагательные*
Key words: *grammatical category, part of speech, variable words, invariant words, noun, adjective*

Konkret maddi - əşyavi mənasını nəzərə almadan sözlərin, söz birləşmələrinin və cümlələrin quruluşunu və dəyişmək qaydalarını öyrənən dilçilik bölməsi qrammatika adlanır. (6, s.3)

Dilçilikdə həmcins qramm atik hadisələrin məcmusuna qrammatik kateqoriya deyilir. Bəzi qrammatika kateqoriyalar yalnız bir nitq hissəsinə aid olur (məsələn, zaman və felin məna növləri kateqoriyası yalnız felə aiddir), bəzi kateqoriyalar iki nitq hissəsinə aid olur (məsələn, dərəcə kateqoriyası sifət və zərfə aiddir).

Bəzi qrammatik kateqoriyalar isə eyni zamanda bir neçə nitq hissəsinə aid olur. Belə qramm atik kateqoriyalar ümumi qrammatik kateqoriyalar adlanır. Ümumi qrammatik kateqoriyaiar öz formal xüsusiyyətlərinə görə (kök və şəkilçilərə ayrılmalarına, şəkilçi qəbul etmələrinə görə ümumiyyətlə, dəyişmə xüsusiyyətlərinə görə) morfoloji kateqoriyalardır, lakin vəzifələrinə, funksiyalarına görə - sözlər arasında əlaqələrinə, sözlərin birləşmələrinə xidmət etdiklərinə görə sintaktik kateqoriyalardır.

Məlum olduğu kimi hər hansi bir dilin morfoloji və sintaktik qurulusuna dair ideyalar toplusu olan qrammatika nəzəriyyəsi sözlər, söz birləşmələri və cümlələrin özünəməxsus geniş qrammatik məna, forma və şəkil, sintaktik konstruksiyalara malikdir. Bunlarsiz dil ünsiyyət vasitəsi rolunu oynaya bilməz. Bu baxımdan hər hansi bir dilin qrammatik quruluşunu öyrəndikdə onun özünəməxsus dil qanunauyğunluqlarını, qrammatik kateqoriyalarını öyrənmək gərəkdir.

Qrammatik kateqoriya dedikdə oxsar qrammemlərin cəmi nəzərdə tutulur. Qrammem isə qrammatik mənanın hər bir ünsürü deməkdir. Məsələn, evdən sözü ismin çıxıslıq halındadır və dilçilik baxımından bir qrammem təşkil edir. Deməli , ismin hər hali bir qrammem əks edir və bunların cəmi vahid qrammatik kateqoriyanı – ismin hal kateqoriyasini təskil edir.

Ümumən dünya dillərini bir- birindən fərqləndirən onların hər birinin özünəməxsus qrammatik kateqoriyalara malik olmasindan irəli gəlir.

Qrammatik kateqoriya birüzvlü ola bilmir, həmişə birbirinə qarşı duran tərəflərdən ibarət olur. Məsələn, isimlərdə kəmiyyət kateqoriyası ikiüzvlü (tək və cəm isimlər), hal kateqoriyası altıüzvlü (ismin altı halı), fellərdə inkar və təsir kateqoriyası ikiüzvlü (təsdiq və inkar; təsirli və təsirsiz), zaman kateqoriyası üçüzvlüdür (keçmiş, indiki, gələcək zamanlar). Qrammatik kateqoriyalar ayrı-ayrı nitq hissələri üçün xarakterik olub, onları bir-birindən fərqləndirir.

Dilimizdəki nitq hissələrinə xas olan qrammatik kateqoriyalar əhatəsinə görə iki qrupa ayrılır: 1.Ümumi qrammatik kateqoriyalar; 2. Xüsusi qrammatik kateqoriyalar.

Ümumi qrammatik kateqoriyalar dedikdə iki və daha çox nitq hissəsi üçün xarakterik olan kateqoriyalar başa düşülür. Dilimizdə hal, kəmiyyət, mənsubiyy ət, xəbərlik kateqoriya-

ları ismə məxsus olmaqla bərabər, isimləşə bilən digər nitq hissələrinə də aid olduğundan ümumi qrammatik kateqoriyalar adlanır.

Xüsusi qrammatik kateqoriyalar isə yalnız bir nitq hissəsi üçün xarakterik olur. Sifətin dərəcə kateqoriyası, eləcədə felə məxsus bütün qrammatik kateqoriyalar təkcə həmin nitq hissəsinə aid olduğundan xüsusi qrammatik kateqoriyalar adlanır. (5, s.74) Qrammatikanın köməyi ilə dilin qrammatik quruluşu, onun fonunda bütün qrammatik kateqoriyalar öyrənilir.

Fransız dilində 10 qrammatik kateqoriya var və onlar əsas iki hissədən ibarətdir:

Dəyişkən sözlər. Dəyişməz sözlər

Dəyişkən sözlər cinsə (kişi və qadın cinsi) və kəmiyyətə (tək və cəm) görə dəyişir.

Dəyişməz sözlər heç vaxt dəyişmir.

Dəyişən sözlər bunlardır: isim, təyinedici sözlər, sifət, əvəzlik və fellər.

Dəyişməz sözlər bunlardır: tabesizlik bağlayıcıları, tabelilik bağlayıcıları, sözönülər, zərflər və nidalar



Dəyişkən sözlər

1.İsim öz mənasına görə əşyalıq bildirir.Əşyalıq adı altında yalnız maddi varlıqları, deyil,eyni zamanda müxtəlif mücərrəd məfhumları da anlamaq lazımdır. Fransız dilində isimlər aşağıdakı qrammatik kateqoriyalarla səciyyələnir: (3, s.27)

Cins kateqoriyası: Fransız dilində isimlərin iki cinsi var:Kişi cinsi (masculin) və Qadın cinsi (féminin). (la fourmi, l'été, un morceau).

Kəmiyyət kateqoriyası: Fransız dilindəki isimlər təkdə (singulier) və cəmdə (pluriel) işlədilə bilər. (les fourmis, les morceaux).

2.Fransız dilində təyinedicilər ismin qarşısında işlənir.Təyinedicilərsiz cümlənin mənası yoxdur. *cigale chante chanson.* Təyinedicilər ismin cinsi və kəmiyyəti haqqında məlumatlar verir. (*un élève*, *une élève*, *ces élèves*...)

3.Sifət ismə aid olur, cinsə və kəmiyyətə görə dəyişir.İsmin qarşısında və isimdən sonra gəlir. (*un seul petit morceau*, *la lettre courte*).

4.Əvəzlik ismi əvəz edir. *La cigale a chanté, elle va danser maintenant*

Müxtəlif növ əvəzliklər var: şəxs əvəzliyi (*je, tu, il, y, en, le, lui*...) nisbi *əvəzlik* (*qui, que, quoi, dont*...), işarə *əvəzliyi* (*ça, celui, celui-ci*...) et mənsubiyyət *əvəzliyi* (*le mien, le tien, les nôtres*...).

5.Feil cümənin əsas hissəsidir. Feil təsrif olunur, feilin zamanı və şəkli var.

Que faisiez-vous au temps chaud ?

faisiez – faire felindən düzəlmişdir. O l`imparfait zamanında işlənmişdir.

Dəyişməz sözlər.

Ils ne varient jamais, ils ne changent jamais. Les mots invariables n'ont donc pas de singulier ou de pluriel, de féminin ou de masculin. (3, s.35)

Dəyişməz sözlər heç vaxt dəyişmir, tək və cəm halda, kişi və qadın cinsində olmur.

1.Tabesizlik bağlayıcılar bunlardır: *mais, ou, et, donc, or, ni, car*.

İki sözü və iki cümləni birləşdirir.

2.Tabelilik bağlayıcıları bunlardır: puisque, lorsque, bien que, tandis que, alors que

3.Sözönülər bunlardır: *à, dans, par, pour, en, vers, avec, de, sans, sous*.

sur, chez, derrière, devant, avant, etc.

Onlar ismin qarşısında (*un morceau de mouche)*

Məsdərdə olan feilin qarşısında (*Elle demande à la cigale de prêter un peu de nourriture.*)

Əvəzliyin qarşıında (*chez lui*) işlənir.

4.Zərflərbunlardır: tərzi–hərəkət zərfliyi

lentement, rapidement, méchamment, agréablement...

Zaman zərfliyi

(*longtemps, maintenant, aujourd'hui, hier, demain...*)

Yer zərfliyi (*là, là-bas, ici...*)

5.Nidalar bunlardır: Hélas, Ah,Ouf,Ohé,Eh

Nəticə: Məlum olduğu kimi hər hansi bir dilin morfoloji və sintaktik qurulusuna dair ideyalar toplusu olan qrammatika nəzəriyyəsi sözlər, söz birləşmələri və cümlələrin özünəməxsus geniş qrammatik məna, forma və şəkil, sintaktik konstruksiyalara malikdir. Bunlarsiz dil ünsiyyət vasitəsi rolunu oynaya bilməz. Bu baxımdan hər hansi bir dilin qrammatik quruluşunu öyrəndikdə onun özünəməxsus dil qanunauyğunluqlarını, qrammatik kateqoriyalarını öyrənmək gərəkdir.

Ədəbiyyat

1. Le Nouveau Sans Frontières, Jacky Girardet, Michel Verdelhan, I-II hissə
2. Campus, Jacky Girardet, Jacques Pécheur.
3. Manuel de Français J. A. Kazakova, I.N. Рщрova
4. Le Français Juridique, Azelma Hassanova, Khadidja Abdoullayeva.
5. Məmmədov. Ə. S. Ərəb dili. Bakı. Maarif, 1998.s.429-430
6. Buludxan Xəlilov. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə, Bakı – 2000

А.Ф.Гасымова

Грамматические категории во французском языке

Резюме

Как известно, теория грамматики, представляющая собой собрание идей о морфологической и синтаксической структуре любого языка, имеет широкий спектр грамматических значений, форм и изображений, синтаксических конструкций слов, фраз и предложений. Без них язык не может играть роль средства общения. С этой точки зрения при изучении грамматической структуры любого языка необходимо изучать его специфические языковые закономерности и грамматические категории.

A.F.Gasimova

Grammatical categories in French

Summary

As it is known, grammar theory, which is a collection of ideas on the morphological and syntactic structure of any language, has a wide range of grammatical meanings, forms and pictures, syntactic constructions of words, phrases and sentences. Without them, language cannot play the role of a means of communication. From this point of view, when studying the grammatical structure of any language, it is necessary to study its specific linguistic regularities and grammatical categories.

Rəyçi: filol.f.d., dos. U.B.Mürşüdova

Redaksiyaya daxil olub: 30.11.2021

G.Q.QURBANOVA
dissertant
e-mail: mirzoyeva_86@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

TEMATİK TƏSNİFATA ƏSASƏN İNSANIN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİNƏ DAİR SLƏNQLƏR

Açar sözlər: *slənq, təsnifat, etimologiya, dilçilik, xarakter.*
Ключевые слова: *сленг, классификация, этимология, языкознание, персонаж.*
Key words: *slang, classification, etymology, linguistics, character.*

XX əsr və XXI əsrin əvvəlləri təkcə tarixçilər üçün deyil, həmçinin dilçilər üçün olduqca maraqlı idi. Dildə baş verən dəyişikliklərin sosial səbəbləri və bu dəyişikliklərin nəticələri müasir dilçiləri maraqlandıran mövzular olub. Slənq terminin araşdırılması dilçiləri maraqlandıran mövzulardan biri olmuşdur. İngilis dili leksioqrafiyasında slənq termini XIX əsrin əvvəllərində geniş istifadə olunmağa başlandı. Bu terminin etimologiyası çox mübahisəli məsələdir və bunun araşdırılması ilə məşğul olan dilçilər bu terminin dəqiq tərifini verməmişlər. Slənqlər dilə heç bir xələl gətirmir, əksinə müasir danışıq dilinin lazımi hissəsidir. O daimi dəyişir, inkişaf edir, bir anda formalaşa bilər və birdəfəlik yoxa çıxa bilər. Slənqlərin yaranması ilə əlaqəli dildə baş verən dəyişikliklər şifahi nitqi daha asan və anlaşıla bilən edir. Slənq özü insan həyatının müxtəlif sahələrində istifadə olunan canlı və dinamik bir sistemdir. Bunlar mədəniyyətin bir sıra sahələrində işlənə bilirlər. Son dövrlərdə elə bir insan yoxdur ki, şifahi nitqində slənqdən istifadə etməsin. Bəzən loru sözlər və jarqonların yanlış istifadəsi insan arasındakı ünsiyyəti poza bilər və hətta həmsöhbəti təhqir edə bilər. Slənqlər həmçinin bədii ədəbiyyatda əsərlərin təsir gücünü qüvvətləndirmək üçün istifadə olunur.

Dilin lüğət tərkibi müəyyən xüsusiyyətlərə görə təsnif olunur. "Təsnif olunma" və "təsnif" anlayışları dilçilik elmində mühüm yer tutur və bunun vasitəsilə biz asanlıqla hərfləri, sözləri, ifadələri və cümlələri müəyyən edə bilərik.

Vebsterin praktik məktəbli lüğətində "təsnif " anlayışını belə izah edir:siniflərə görə sistemli şəkildə yerləşməsidir, məsələn, heyvanlar və bitkilər onların təbii qarşılıqlı əlaqəsi əsasında tiplərə, siniflərə, ailələrə, cinslərə və növlərə bölünürlər (12).

Təsnifat sözünü belə şərh etmək olar:

1). Təsnifat- oxşarlıq və fərqli cəhətlərinə görə elmi cəhətdən bölgüsüdür.

2). Sözlərin qarşılıqlı əlaqəsinə görə qruplaşmasıdır.

3).Təsnifat- sözləri digər sözlərdən fərqləndirən xüsusiyyətlərinə görə bölgüsüdür.

İngilis dilində slənqlərin tematik prinsipə görə aşağıdakı kimi təsnif olunur:

1). İnsanın səciyyəvi xüsusiyyətlərinə dair slənqlər

2). İnsanların peşə və fəaliyyətinə dair slənqlər

3). Kulinariya slənqləri

4). Musiqi, rəqs, məclis və mərasimlərə dair slənqlər

5). Məişət slənqləri

Bu qruplara daxil olan slənqlər özləri də yarımqruplara ayrılır. İnsanın səciyyəvi xüsusiyyətlərinə dair slənqlər bədən üzvlərinə, ağılsızlıq və dəlilik, fırıldaqçılıq, səmimiyyət, zənginlik, xəsislik, dostluq, sevgi, çətinlik, bədən üzvləri haqqında slənqlərə ayrılır. İnsanların peşə və fəaliyyətinə dair slənqlər polis, dedektiv, məhbuslar, oğurluq, ticarət, cinayətkarlıq və canilər, məlumat ötürmək haqqında slənqlərə bölünür. Yemək, qida, içkilər, sərxoşluq haqqında slənlər kulinariya slənqlərinə aiddir. Ölümə dair slənqlər mərasimlərə dair slənqlər-

di. Məişət slənqlərinə bunlar aiddir:qadınlara, qızlara, evliliyə, pullara, yaşayış yerlərinə dair slənqlər.

Ağılsızlıq və ya dəlilik- cəmiyyətin düzgün düşünən üzvlərinin fikir və bilik səviyyələrinə zidd olan xüsusiyyətdir. Bütün insanlarda ağılsızlıq və dəlilik səviyyəsi fərqlənir. Bəzi insanlar vaxtaşırı və ya müvəqqəti olaraq ağılsız olurlar, bəziləri isə həmişə və ya daima ağılsız olurlar. Ağılsızlıq və ya dəlilik bir insanın öz psixoloji vəziyyətini və ya emosiyalarını idarə edə bilməməsidir.

Ağılsızlıq və dəliliyə dair bir çox slənqlər var. *Ass* (sifət) – səfeh, ağılsız insan slənqinin bir sıra sinonimləri vardır: *bone-head, fat-head, bucket-head, dumb-head, bubble-head, sap-head, crew, stiff, muscle-head* və s.

"Don't you hear me, bubble-head?" she snapped (6, s. 45).

Ass slənqinin antonimi *whiz* (sifət) slənqidir. *Whiz* slənqinin tərcüməsi ağıllı insan deməkdir.

He was a whiz in science and always had something unusual to add to discussions (9, s. 69).

1. *Ass*- səfeh, qanmaz və ya ağılsız insan
2. *Asiatic*- dəli: kobud və ya qeyri-adi.
3. *bone head*- axmaq.
4. *boob*- ağılsız
5. *bubble* – head- ağılsız insan
6. *bucket* – head- ağılsız insan
7. *bullhead*- ağılsız və inadcıl insan.
8. *crazy* – cat- dəli
9. *cuckoo*- dəli
10. *dippiness*- dəlilik
11. *dippy*- dəli, axmaq, ağılsız
12. *dumb*- head- ağılsız hərəkət.
13. *dizzy*- ağılsız, dəli
14. *donkey act*- ağılsız hərəkət
15. *fat – head*- ağılsız insan
16. *jack ass*- axmaq
17. *jerk*- ağılsız insan
18. *jay*- axmaq, təcrübəsiz insan, əsasən kənd əsilli insan
19. *lame* – brain- ağılsız insan
20. *lard* – head- axmaq insan

Sevgi və dostluq qarşılıqlı əlaqəlidir. *"Love"* (sevgi) anlayışının müxtəlif mənaları var. *"Love"* həm isim, həm də sifət kimi də istifadə oluna bilər. *"Love"* kiməsə və ya nəyəsə qarşı xoş hisslərdi. *"Love"* dedikdə nəyəsə və ya kiməsə qarşı dərin maraq nəzərdə tutulur.

Dostluq dost olmaq deməkdir. Dostlar bir birini dəstəkləyən və ya kömək edən iki və ya çox insanlardı. Dostlar ortaq fikirləri və ya məqsədləri olan və problemlərinə dair kollektiv qərarlar verən insanlardı. Dostluq və sevgiyə aid sadə və mürəkkəb slənqlər var. *Sugar* (isim) - sevgili slənqinin sinonimləri bunlardır: *sweet pea, sweets, sweet potatoes, patootie, one and only sunshine.*

Spark (feil) – pərəstişkarlıq etmək, öpmək, sevişmək slənqinin sinonimləri bunalardır: *pet, neck, spoon*.

1. *single*- subay, ailə qurmamış qadın və kişiyə aid olunur
2. *to be taken* – münasibətdə olmaq
3. *to hit it off, hit off (with smb)*- ilk baxışdan bir-birini bəyənmək
4. *puppy love*- yeniyetməlik sevgisi
5. *to fall head over heels*- dəlicəsinə aşiq olmaq

6. *to hook up*- gizlincə başqası ilə görüşmək
7. *to be on a break*- ayrılmaq üzrə olmaq
8. *to cheat on smb*-kiməsə xəyanət etmək
9. *to pop the question*- kiməsə evlənmək təklifi etmək
10. *to tigh the knot*- evlənmək

Dostluğa dair slənqlər:

1. *Dawg*- yaxın dost
2. *Chum*- yaxın dost
3. *bestie –"best friend"* ifadəsinin qısaltmasıdır
4. *Homeboy*-yaxın kişi dostu
5. Homegirl- yaxın qız dostu
6. *Homie*- "homeboy" və "homegirl" sözlərinin qısaltmasıdır
7. *BFF*- "best friend forever"ifadəsinin akronimidir
8. *buddy*- ən yaxın dost
9. *brotato chip*- dost
10. *Chap*-yaxın dost

Anlama, başa düşmə nəsə haqqında fikir söyləmək, mühakimə etmək bacarığıdır. Anlama haqqında olan slənqlərin də sinonimləri vardır. *Tumble* (feil) (anlamaq) slənqinin sinonimləri bunlardır: *feature, savvy, savvey, read, parley-voo* və s.

They had to tumble to it. I still don't understand it (5, s.15).

1. *feature* - anlamaq
2. *savvy* = savvey -anlama
3. *tumble* - anlamaq
4. *the light* – anlamaq, nəticəyə gəlmək
5. *read*- anlamq, dərk etmək
6. *slow on the draw* –zəif anlamaq
7. *parley - voo* – anlamaq, başa düşmək

Bədənin müxtəlif hissələrini ifadə etmək üçün müxtəlif slənqlərdən istifadə olunur. *Bean* (isim) (baş) sözünün sinonimləri bunlardır: *brain box, fin, noggin, potatom pumpkin, top story, upstairs, upper story, pimple.* Məsələn,

"Do you think I 'm wrong in my upper story?" asked Paul, as if his very existence depended on his reply (7, s. 256).

Mask, index, puse, mush, lug və s. *map* (isim) (üz) slənqinin sinonimləridir.

Stash, stache, tickler və s.*strainer* (isim) (bığ) slənqinin sinonimləridi.

For several years Titus has been the only player to wear a "soup strainer". (8, s.568)

Raw (sifət) (çılpaq) slənqinin sinonimləri bunlardır: *in the raw, buck naked* (tam çılpaq)

1. *bean*-baş
2. *brain box* – baş
3. *fin*- baş
4. *noggin* – baş
5. *potato* –baş, üz, əsasən çirkin üz
6. *pumpkin or pumpkin* – insan baş
7. *top story* – baş
8. *upstairs* – baş, beyin bə ya ağıl
9. *upper story* – baş, beyin
10. *think box* –beyin
11. *thinker* – beyin, ağıl
12. *think tank* – beyin, baş
13. *little gray cells* – beyin
14. *pimple*- baş

15. *smush*- ağız
16. *mush* – ağız, üz
17. *puse*- ağız, üz
18. *satchel mouth* – böyük ağzı olan insan
19. *index*- üz
20. *laugh on the other side of one's face* – qışqırmaq

Miser (xəsis) şəxsi əşyasını və ya pulunu başqa adamlara vermək istəməyən adamdı. *Miser* (xəsis) slənqi həmçinin pul yığmaq üçün acınacaqlı həyat tərzi keçirən simic və bədxah insan kimi də başa düşülür. *Mingy* (sifət) (çılpaq) slənqinin sinonimləri bunlardır: *pinny-pincher, piker, pinch-gut, Scotchman, small, squeezer, sticky-fingered, tightwad* və s.

So....don't be so mingy (10, s.240).

1. *mingy* – xəsis və acgöz
2. *penny - pincher* – xəsis və ya qənaətcil insan
3. *piker* – xəsis və acgöz
4. *pinch - gut* – xəsis
5. *Scotchman* – qənaətcil və ya xəsis. Şotlandlar çox qənaətcil olmaları faktından törəmişdir bu slənq
6. *small* – xəsis
7. *squeezer* – heç kimə pul hədiyyəsi etməyən insan, xəsis.
8. *sticky - fingered* – xəsis
9. *tightwad* – çoxlu pulu olan lakin heç kimlə bölüşməyən xəsis insan

Yalan, hiylə və ya fırıldaq insanları yanıldan hərəkətlərdir. Bu anlayışı ifadə edən bir sıra sadə və mürəkkəb slənqlər var. *Meat, quick push, soft touch, sucker* slənqləri *lobster* (isim) (yalanın qurbanı) slənqinin sinonimləridir.

That was the only soft touch about him (3, s.24).

Take someone for a ride (aldatmaq) slənqinin sinonimi isə bunlardır: *rook, robe in, pull on (something or person), stuff, stung, skin, throw the hook into* və s.

If you believe everybody, they'll take you for a ride (11, s. 58)

1. *lobster* – asanlıqla aldadılan insan
2. *meat* – tez təsir altına düşən, asanlıqla aldadılan insan
3. *monkey shines* – hiylə
4. *pull on (something or person)* – kimisə aldatmaq
5. *quick push* - asanlıqla aldadılan insan
6. *take (someone) for a ride* - aldatmaq
7. *rook* – aldatmaq
8. *robe in* - aldatmaq
9. *sharp* – hər cür aldatmaq bacarığına malik insan
10. *slippery* – güvənilməyən insan
11. *soft touch* - asanlıqla aldadılan insan
12.sting –aldatmaq .
13. *stuff* - aldatmaq
14. *stung* – qiymətləri artıran satıcılar tərəfindən aldadılmaq
15. *sucker* - asanlıqla aldadılan insan
16. *suck list* – tez- tez aldadılan insanların siyahısı
17. *suck (someone) in* – yalan vədlərlə aldatmaq
18. *skin*- yalan
19. *throw the hook into* – aldatmaq

Qəzəb güclü narazılıq hissidir. *Peeved* (sifət) (əsəbi)slənqinin sinonimləri bunlardır: *loaded for beer, steamed, low, mad, red necked, sore, steamed up* və s.

But I like things out in the open, and he's peeved enough with me as it is, though I don't know why (1, s.50).

Miff, pain, peeve və s. slənqlər rise (isim) (qəzəb) slənqinin sinonimləridir.

1. *flare up* -əsəbləşmək
2. *jump salty* - əsəbi olmaq
3. *lather* – tez qıcıqlanan
4. *loaded for beer* - əsəbi, dalaşmağa hazır olan
5. *low* – qəmli, melanxolik
6. *miff* –xətrinə dəymək.
7. *miffed*- təhqir olunmuş
8. *pain* –dilxorluq
9. *pain in the neck* – qıcıqlandıran insan
10. *mad* - əsəbi
11. *put out* - əsəbi hiss etmək
12. *peeved* - əsəbi
13. *peeve*- əsəbi olmağın səbəbi
14. *raise cain* – qəzəblənmək.
15. *red necked* - əsəbi
16. *rhino* –qəmli olmaq.
17. *nrise* – qəzəb
18. *see red* -əsəbi
19. *sore* - əsəbi
20. sore head – tez əsəbləşən adam
21. *steam* - əsəbləşmək
22. *steamed up* - əsəbi, səbrsiz
23. *sweat it* – nəyəsə görə narahat hiss etmək
24. *throw a fit* – hədsiz dərəcədə əsəbləşmək

Xoş hisslər haqqqında olan slənqlər çox istifadə olunan slənqlərdəndir. *Smooth* (sifət) (xoş, çox gözəl) slənqinin sinonimləri bunlardır: *stunning, tip-top, top-notch, terrible, sunny, sanitary, bully* və s.

For the last three years, my daughter Laura (who is a top-notch trainer) and I have worked in a special program for inner-city kids ages fourteen, fifteen, and sixteen (2, s.23).

1. *bully* – yaxşı, çox gözəl
2. *goody* – həddindən artıq yaxşı
3. *going some* – özünü yaxşı hiss etmək, uğur qazanmaq
4. *jake* – qənaətbəş, yaxşı
5. *pip*- çox gözəl insan və ya əşya
6. *sanitary*- çox yaxşı
7. *smooth*- çox gözəl
8. *strictly*- çox gözəl
9. *stunning*- çox gözəl
10. *stunner*- cəlbedici qadın
11. *sunny* – xoşbəxt, xoş
12. *sweet*- qonaqpərvər, xoş və rahat.
13. *tawny*- .çox gözəl
14. *terrible*- əla.
15. *trerrific*- gözəl
16. *tickled pink* – həddindən artıq sevincli
17. *tip- top* – çox gözəl
18. *top - notch* - çox gözəl, yaxşı

19. *vow*- böyük uğur

20. *wax* -üstün gəlmək, öhdəsindən gəlmək

Pis iş, pis hadisə, çətinlik və problem anlayışını ifadə edən slənqlər gündəlik həyatda tez – tez istifadə olunan slənqlərdi. *In deep water* (isim) (problem) slənqinin bir sıra sinonimləri var: *hot water, jam, stinger, dust* up və s.

The Democrats are in deep water over their plans for tax increases.

[dictionary.cambridge.org/dictionary/english/be-in-deep-water]

1. *in deep water* – pis vəziyyətdə olmaq.
2. *hot water* – pis vəziyyətdə olmaq
3. *double - trouble* – olduqca pis vəziyyətdə olmaq
4. *jam* – çətinlik, pis vəziyyət
5. *jammed up* – pis vəziyyətdə
6. *rugged* – çətinlik, pis vəziyyət
7. *sticky* – çətin, inad
8. *stinger* - maneə, həll olunmamış problem
9. *raise sand* – narahat etmək
10. *dust up* – narahatçılıq, səs-küy, həyəcan

Səmimilik və doğruluğa aid olan slənqlər insanların səciyyəvi xüsusiyyətlərinə dair slənqlər qrupuna aiddir. *Straight* (sifət) (səmimi) slənqinin sinonimləri bunlardır: *up and up, level, one way guy, square shooter, white* və s.

Their straight talk is now being applied in my own retirement walk (4, s. 5).

1. *talk turkey* – heç bir şey gizlətmədən danışmaq.
2. *up and up* – səmimi, ədalətli
3. *level* – vicdanlı olmaq, doğrunu söyləmək
4. *one way guy* – vicdanlı, ədalətli insan
5. *square shooter* – səmimi və düz adam
6. *straight* –dürüst, səmimi.
7. *straight talk* – səmimi söhbət.
8. *straight goods* – həqiqət.
9. *straight from the shoulder* –təmiz və səmimi söhbət
10. *white* – namuslu, etik, səmimi

İngilis və Amerikan slənqlərinin tematik qruplara bölünərək sosiolinqvistik xüsusiyyətlərinin araşdırılmasının mühüm cəhətlərindən biri odur ki, bədii ədəbiyyatoxuyan, ingilis dilində film izləyən insanlar həmin slənqlərin hansı mənada işləndiklərini başa düşəcəklər. Slənqləri sosioıonqvistik xüsusiyyətlərinə görə qruplaşdırılaraq lüğət hazırlanması nəzərdə tutulur.

Ədəbiyyat

1. Barclay T. A Lovely Illusion. Severn House, 2001 -314p
2. Biech E. 90 World-Class Activities by 90 World-Class Trainers. Pfeiffer, 2006-420p
3. Brand M. The rangeland Avenger. The floating Press, 2017 . 322p
4. Donald R. Draayer. Retirement Straight Talk: Stories and Wisdom from Educators. R&L Education, 2003. - 208p
5. Garfield B. Checkpoint Charlie. New York, 2011 43p
6. Iacovelli R. The Adventures of Corker Larue. Baltimore, 2003. 466p
7. Montgomery B.M. L. M. MONTGOMERY Ultimate Collection: 20 Novels & 170+ Short Stories, Poems . OK Publishing, 2017, 6875p
8. Morris P. A Game of Inches: The Stories Behind the Innovations That Shaped Baseball . Ivan De Publisher, 2010. 628p
9. Oliver C.L Rachel Mason Hears the Sound. N.L. Associates, 2005. 145p

10. Penhall J. Penhall Plays: 1: Some Voices , Pale Horse, Love and Understanding, The Bullet. Bloomsbury Academic, 2008, 352p

11. Portney M. K Have Fun: Learn To Speak and Understand American English: or What You Don't ..., USA, 2013 158p

12. Webster's New Practical School Dictionary, Springfield (USA). 1969 984p

Г.Г.Гурбанова

Сленг о характеристиках человека по тематической классификации

Резюме

Социальные причины изменений в языке и последствия этих изменений представляют интерес для современных лингвистов. Изучение термина сленг было одной из тем, интересующих лингвистов. Термин сленг стал широко использоваться в английской лексикографии в начале 19 века. Этимология этого термина весьма противоречива, и лингвисты, изучавшие его, не дали точного определения термина. Сленг не вредит языку, наоборот, является необходимой частью современной разговорной речи.

Практический школьный словарь Вебстера объясняет понятие «классификация» следующим образом: систематическое расположение классов, например, животные и растения делятся на типы, классы, семейства, роды и виды на основе их естественных взаимодействий.

Сленг в английском языке классифицируется по тематическому принципу следующим образом:

1) Сленг о человеческих качествах
2) Сленг о профессиях и занятиях людей
3) Кулинарный сленг
4) Сленг для музыки, танцев, вечеринок и церемоний
5) Бытовой сленг

G.G.Gurbanova

Slang on the characteristics of a person according to the thematic classification

Summary

The social causes of changes in language and the consequences of these changes have been topics of interest to modern linguists. The study of the term slang has been one of the topics of interest to linguists. The term slang began to be widely used in English lexicography in the early 19th century. The etymology of this term is very controversial, and linguists who have studied it have not given an exact definition of the term. Slang does not harm the language, on the contrary, it is a necessary part of modern spoken language.

Webster's practical school dictionary explains the concept of "classification" as follows: the systematic arrangement of classes, for example, animals and plants are divided into types, classes, families, genera, and species based on their natural interactions.

Slang in English is classified according to the thematic principle as follows:

1) Slangs about human characteristics
2) Slang about people's professions and activities
3) Culinary slang
4) Slang for music, dance, parties and ceremonies
5) Household slang

Rəyçi: prof. Ç.Qaraçarlı

Redaksiyaya daxil olub: 09.12.2021

S.Ə.RÜSTƏMOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ ÜSLUBLARARASI QARŞILIQLI ƏLAQƏLƏR

Açar sözlər: *üslub, ünsiyyət, termin, əlaqələr, obrazlılıq, publisist xalq ədəbiyyatı, oçerk.*
Ключевые слова: *стиль, коммуникация, термин, отношения, образность, публицистическая народная литература, очерк.*
Key words: *style, communication, term, relations, imagery, journalistic folk literature, essay.*

İnsanların təfəkkür prosesi ilə bağlı olaraq müəyyən məqsədə xidmət edən funksional üslubları tamamilə bir-birindən tədric etmək olmaz. Leksik tərkib və qrammatik formaların işləkliyinə görə bir-birindən fərqlənən funksional üslublar həmişə bir-birilə qarşılıqlı münasibətdə olur. Müəyyən bir üslubda digər üslubların elementlərini görmək mümkündür.

Üslubların qarşılıqlı münasibəti Azərbaycan dili üçün də tarixi bir haldır. Azərbaycan ədəbiyyatının müəyyən dövrlərində elmi səciyyəli bir çox əsərlər: tarix, dilçilik və s. bədii üslubla idarə edilərək şeirlə yazılmışdır. Deməli, burada bədii üslub, həm də elmi üslub xüsusiyyətləri özünü göstərir. Lakin başqa üslub elementləri o üslubun ümumi istiqamətinə xələl gətirməməlidir. Bir üslubda işlənən başqa üslub elementləri həmin üslubla nə qədər qaynayıb-qarışsa da, öz əvvəli xüsusiyyətini itirmir.

Azərbaycan dilçiliyində üslubi əlaqələrdən ilk dəfə bəhs edən Ə.Dəmirçizadə hələ 60-cı illərdə qeyd edirdi ki, bu və ya digər üslubun yaranması heç də bunların daim təcrid olunmuş halda işlədilməsi demək deyildir. Bir üslub içərisində digər ünsürlər ola bilir və çox zaman bunların belə qovuşuq işlədilməsi, xüsusən, bədii, siyasi, ictimai üslublarda zəruri sayılır. Müşahidələr, tədqiqatlar göstərir ki, üslublar arasındakı qarşılıqlı münasibətlər tarixən ya zəifləmiş, ya da əksinə müxtəlif səbəblərdən möhkəmlənmişdir. Məsələn, müasir dövrümüzdə epistolyar üslub elementlərinə elmi əsərlərdə təsadüf edilmədiyi halda, elmi üslubla bədii üslubların əlaqəsi daha da möhkəmlənmişdir. Çünki elmin və texnikanın inkişaf etməsi ilə əlaqədar müxtəlif elm sahələrinə məxsus terminlər digər üslublara daha intensiv şəkildə daxil olmağa başlamışdır. Əlbəttə, üslubların keçən əsrlərdəki qarşılıqlı əlaqəsi ilə müasir dövrümüzdəki qarşılıqlı əlaqəsi arasında müəyyən fərqlər özünü göstərir. Məsələn, əgər XIX əsrdə çıxan "Kəşkül" qəzetindəki publisist yazılarda rəsmi üsluba məxsus termin olan "qanun" terminin rusca qarşılığı "zakon" termini ilə paralel işlənməsi təbii hal sayılırdısa, müasir dövrümüzdə belə hal üslub səhvi hesab edilir. Bu əlbəttə ki, dilin illər keçdikcə kənar ünsürlərdən təmizlənməsi ilə əlaqədardır. Hal-hazırda belə sinonimlik məhz müəllif tərəfindən müxtəlif məqsədlərlə bədii əsərə daxil edilir. Belə fərqlərə baxmayaraq, üslubların qarşılıqlı əlaqəsi müasir dövrümüzdə də mövcuddur. Üslubların bir-birinə yaxınlaşması prosesi artıq üslub birləşmələrinin yaranmasına gətirib çıxartmışdır. Hazırda elə nitq nümunələri var ki, onlarda müxtəlif ünsürlərin sintezi özünü göstərir. Bu, xüsusilə də, bədii və ictimai-siyasi üslub janrlarının bir araya gəlməsi ilə müşahidə olunur. Məsələn, S.Dağlının "Yaylaq qayğıları" adlı roman-felyetonu var. Əslində, roman bədii üsluba, felyeton isə ictimai-siyasi üsluba aid olan janrdır. Lakin üslub birliyi və ya yaxınlığı üçün janr ölçüsü deyildir. Müxtəlif janrların bir araya gəlməsi, eyni əsərdə janr və üslub vəhdətində birləşməsi ədəbi dilin tərkib hissələri arasındakı əlaqələrin möhkəmlənməsi ilə bağlıdır. Bu ayrı-ayrı üslublardan başqa, üslub birləşmələrindən də danışmağa haqq verir.

Üslub birləşmələrinin yaranmasında aparıcı rol bədii üslubun üzərinə düşür. Bu bədii dilin elmi və ictimai-siyasi dilə nisbətən daha fəal olması ilə əlaqədardır. Bədii dil bütün yenilik və dəyişmələri daha tez mənimsəyir. "Ədəbi dilimizin əsas xüsusiyyətlərindən biri də onun bütünlüklə bədiiləşməsidir. Bədii üslubun ünsürləri ədəbi dilin bütün sahələrinə güclü nüfuz etməyə başlamışdır". Bunun nəticəsidir ki, çox zaman publisist üslubda yazılan əsərlər bədii cəhətdən qiymətləndirilir və hətta bədii janr hesab edilir.

Məsələn, Mir Cəlal yazır: "Oçerk də bədii əsərdir. Müəllifdən yalnız yazı vərdişi yox, dürüst bilik, yüksək siyasi şüur, bədii təfəkkür, ayıq mühakimə qabiliyyəti tələb edən ciddi bir əsərdir".

Ümumiyyətlə, fikrin dürüst, dəqiq ifadəsi bütün üslublardan tələb olunur, lakin bunun üçün bədii və elmi üslubun qarşılıqlı əlaqəsi vacibdir. Hər üslubun özünəməxsus forması vardır. Elmi üslubda dəqiqlik, dürüstlük ümumi və abstrakt olduğu halda, bədii üslubda, əksinə, daha çox konkretdir, tarixidir və hətta müəyyən üslubla üzvi surətlə bağlıdır.

Bədii üslubda, ümumiyyətlə, təsviri dil, yaxud dildə obrazlılıq da konkretdir, tarixidir: yəni ədəbi dilin bütün dövrləri üçün ümumi və eyni deyildir. Ayrı-ayrı üslubi qollarda obrazlılıq müxtəlif təzahürə malik olduğu kimi, onun ünsürləri-təşbeh, məcaz, qiyas və s. də tam eyniyyət təşkil etmir. Elmi üslubda da obrazlılıq az və çox yer tuta bilər.

Bədii üslubda bütün üslubların nümunəsinə rast gəlmək olar. Başqa üslub ünsürlərinin bədii üslub daxilinə girməsi bədii üslubla üzvi surətdə qaynayıb-qarışması şərti ilə mümkündür; mexaniki surətdə köçürmə ola bilməz. Eyni qayda ilə bədii üslubun və ya başqa üslubların ünsürləri də az-çox elmi üslub daxilinə keçə bilər ki, burada da əsas üsluba tabe olmaq, əsas üslubla üzvi surətdə uyuşmaq vacib şərtdir.

Bədii üslubda müxtəlif elmi terminlərin işlədilməsi XIX ərsdə də özünü göstərir. Azərbaycan xalqının qabaqcıl fikirli ziyalılarından olan A.Bakıxanov, M.F.Axundov, Q.Zakir, S.Ə.Şirvani, C.Məmmədquluzadə və başqalarının əsərlərində ictimai-siyasi, hərbi və s. terminlərə təsadüf olunur. Belə terminlər M.F.Axundovun əsərlərində daha çox işlənmişdir: aktyor, qubernator, drama, despot, kompaniya, komanda, konsul, konstitusiya, kratika, knyaz, general, liberal, naçalnik, politika, parlament, fanatizm filosof və s.

D.N.Şmelyev dil vasitələrinin üslublar arasında diferensiyasından danışarkən göstərir ki, dil vasitələrindən istifadə üslubun "qapalı üsluba" çevrilməsində mühüm rol oynayır"; ifadələr, sözlər standartlaşır. Belə standartlaşma, birinci növbədə, rəsmi üslubda, sonra isə elmi üslubda qabarıq nəzərə çarpır.

Bədii ədəbiyyatın bir janrı olan elmi-fantastik janr elmi üslub xüsusiyyətləti ilə bədii üslub xüsusiyyətlərini özündə birləşdirir. Azərbaycan ədəbiyyatında elmi fantastik əsər nümunələri, məsələn, E.Mahmudovun "Neptunun əsirləri", N.Abdullayevin "Kölgələr", Z.Quliyevin "Uzaq planetin yollarında" elmi-fantastik hekayələri, Anarın "Əlaqə", Ə.Səmədovun "Kibrit çöplərinin macəraları" elmi-fantastik povestləri elmi üslubla bədii üslubun sinkretik növü kimi özünü göstərir. V.Babanlının "Vicdan susanda" romanının qəhrəmanı professor Günəşlinin nitqində, yaxud onun elmi fəaliyyəti ilə əlaqədar olan hissələrdə istənilən qədər elmi üslub elementləri tapmaq olar.

Publisistik üslubu bəzən "müasir sinkretik ədəbiyyat" adlandırırlar. Bundan başqa, publisist üslubun bir qolu bədii publisist üslubdur. Bədii publisistika siyasi, ictimai və s. aktual problemləri lirik-emosional vasitələrə təsvir edən ədəbiyyatdır. Mehdiyev yazır ki, bədii üslubda faktik material bədii obrazın yaradılmasına xidmət edirsə, publisist üslubda əksinə obrazlılıq faktik materialın, real həyatın daha qabarıq və obrazlı verilməsinə xidmət edir.

Tarixə nəzər salsaq, "Füyuzat" jurnalının publisistikasının şairanə tərzdə yazdığını görərik. N.Xudiyev qeyd edir ki, 1920-30-cu illərdə elmi və publisist, bədii və publisist üslublar arasındakı əlaqə digər üslublar arasındakı əlaqələrdən daha möhkəm idi.

Publisistikada obrazlılıq ilk növbədə başlıqlardan başlayır. Publisist əsər adları şeir misrası ilə verilir, məsələn E.Umudlu A.İslamzadəyə həsr etdiyi oçerki müğənninin məhşur

mahnılarından birinin "Ötən günlərimi qaytaraydılar" sözləri ilə adlandırılmışdır, yaxud bəstəkar C.Quliyevə həsr olunan oçerk onun mahnı bəstələdiyi şeirin birinci "Bura Vətəndir" misrası ilə adlanır: İslamzadəyə həsr olunmuş oçerkin onun oxuduğu mahnının sözləri ilə, bəstəkar C.Quliyeva həsr olunmuş oçerkin isə bəstəkarın mahnı bəstələdiyi şeirin sözləri ilə başlanması başlıqla əsərin məzmunu arasında vəhdət yaradır. Məlumdur ki ritmik-qafiyəli sözlər bədii üsluba, xüsusi ilə, poeziyaya məxsusdur. Ümumiyyətlə, bütün funksional üslublar içərisində belə sözlərə yalnız bədii və publisist üslublarda rast gəlmək olar. Publisist üslubda ritmik sözlərdən istifadə olunmasına misal olaraq bir məqalə başlığını misal göstərə bilərik: "Ziyalı, yoxsa ziyanlı?", "Ziyalı" və "ziyanlı" sözləri kontekst daxilində bir-birilə əlaqədar deyil, lakin onlar qafiyəli sözlər kimi qulağa xoş səslənirlər.

Publisistik üslubda bədii üslubun müxtəlif elemetlərindən istifadə olunmaqla yanaşı, poeziya və nəsr əsərlərindən götürülmüş ayrı-ayrı parçalarada təsadüf olunur. Məsələn: R.Rzanın "Nağıl gecəsi" oçerki Azərbaycan xalq nağıllarından götürülmüş bir parça ilə başlanır. Publisist üslubda bədii parçalardan aşağıdakı məqsədlərlə istifadə olunur: A) Əsəri daha da oxunaqlı etmək; B) Emosionallıq, ehtirası gücləndirmək; C) Əsərin məzmunundan irəli gələn tələblə əlaqədar.

Publisist əsərlərin əvvəlində və sonunda bədii üsluba məxsus təsvirlər ya daxili-psixoloji vəziyyəti əks etdirən proloqlar, epiloqlar olur; Publisist oçerklərdə məqalələrdə xatirələrdə bəzən haqqında yazılan şairin şeirindən epiloq kimi istifadə edilir. M.Rahim S.Rüstəmə həsr etdiyi oçerki şairin şeirindən götürülmüş misra ilə başlamışdır: "Oxuyun, bir qızıl kitabəm mən"

Epistolyar və publisist üslubun qarşılıqlı əlaqəsi dünya publisistikasında Platon və Sokratın dövründən götürülür. Bundan başqa ilk ingilis qəzetlərində publisist xəbərlərin epistolyar üslubda verildiyi qeyd olunur. Azərbaycanda bu üsluba M.F.Axundov da, müraciət etmiş, siyasi görüşlərini məktub formasında olan publisistik yazılarla vermişdir. Müəllif bunu mətbuat və nəşriyyatın yoxluğu ilə izah edir. Lakin mətbuatın və nəşriyyatın yayıldığı müasir dövrümüzdə belə əlaqənin mövcudluğu əlbətdəki bəzi publisistik janrların xarakterindən irəli gəlir. Oxucu məktubları əsasında yaranan "məktublar rubrikası "altında oxucu məktubu şəklində verilən məqalələr,məktub formasında yazılmış felyetonlar, məktub formalı oçerklər: R.Rza "Qaralmış sətirlər"; S.Abdullayev "Anama məktub", məktub formasında yazılmış müraciətlər – Azərbaycan xalqının Azərbaycan döyüşçülərinə məktubu, məktubların icmalı və s. janrlarda məhz epistolyar üslub formasından, ünsürlərindən istifadə ediləmsi zəruridir. Qeyd edək ki publisist janrda olan gündəliklər də epistolyar formada yazılır.

Ölkəmizdə baş verən dəyişikliklər yenidənqurma prosesləri ilə əlaqədar olaraq sözü açıq demək dəb olmuşdur. Buna görə də son dövrdə açıq məktublar mətbuatda özünə daha geniş yer tapmışdır.

Epistolyar üslubla publisit üslubun bir əlaqəsi də özünü orda göstərir ki, bəzən publisist öz əsərini epistolyar formada yazır. Həmin səbəbdən də epistolyar üslub üçün səciyyəvi olan leksik-sintaktik vahidlər publisit üsluba gətirilir. Buna misal olaraq, R.Rzanın Ə.Ələkbərov haqqında yazdığı oçerki göstərmək olar. Müəllif bu kiçik oçerki epistolyar üslubda qurmuş, burada hadisələr I şəxsdən II şəxsə nəql edilir: "Sənətkar dostum... biz sənlə bir ailədə anadan olmuşuq, ancaq nədəndirsə, mən hər zaman sənin yaşlı, uzun bir ömür yolu keçmiş, lap çoxdan beləcə görüb belə tanıdığım bir adam təsəvvür edirəm". Başqa bir məktub M.Rahimin "Cavan şairə məktub"unda epistolyar üslub əlamətləri ilə yanaşı, publisist üslub əlaqələri də özünü göstərir: "Yeni yazanlar poemalarında nə üçün hələlik müvəffəq ola bilmirlər? Çünki onlar təcrübəsizdirlər, məsələni özləri üçün tamamilə həll etmədən qələmi ələ alırlar, misralar bir-birinin ardınca axdıqca yazırlar. Nə yazırlar? Axırı hara çıxacaq? Bunu özləri də aydın bilmirlər".

Burada müəllifin problem şərh edərkən fikrini ardıcıl sual cümlələri ilə tamamlaması isə həmin parçanın emosional təsirini daha da artırır. Çünki onun müəllifi yazıçı-publisistdir. Lakin elə nəzərdən keçirilən parçaların özü göstərir ki" Yazıçı-müəlliflərin işgüzar məktubları

publisist, yaxud da işgüzar üsluba yaxınlaşsa da, yeni birşey deyildir. Bunlar adətən, "ədəbi məktublar" adlanır. Xüsusi epistolyar ədəbiyyatın tərkibinə daxil olur.

Rəsmi və bədii üslubun qarşılıqlı əlaqəsi öz kökünü şifahi xalq ədəbiyyatından götürmüşdür. Nağıllarda-məsələn, "Daşdəmirin nağılı"nda, atalar sözlərində hökmdarın, dövlətin idarəedici qatına (vəzir, vəkil və s.) qayda-qanunlarına, üsul-idarəyə qarşı siyasi mübarizəsinin təsviri, ifadəsi rəsmi üsluba məxsus dil vahidlərinin işlənməsini tələb edirdi. Qeyd edək ki, rus ədəbiyyatşünaslığında da müasir siyasi əsərlərin rüşeymi kimi nağıllar, xüsusilə də, sehrli nağıllar götürülür. Poeziyada siyasi mövzuların, bununla əlaqədar da rəsmi üslub elemetlərinin işlənməsi "Kitabi-Dədə Qorqud" dastanlarından başlayaraq (Qorqud atanın qanunvericiliyi, Bayandır xanın daxili və xarici siyasəti) xüsusi yer tutur. "Koroğlu" dastanında, Nizami əsərlərində (müxtəlif şah surətləri, onların ölkə üçün qoyduğu qayda-qanunlar, bununla əlaqədar işlənən rəsmi terminlər – "rütbə" və s.), Füzuli qəsidələrində, qitələrində ictimai-siyasi motivlər (məsələn, "Padişahi-mülk" qitəsi), Vaqif, Azərbaycan ədəbiyyatı tarixində yeni inqilabi satirik şeirin yaradıcısı olan Sabir şeirində, "Dövlət himni"mizi yaradan Ə.Cavad, M.Müşfiq, S.Rüstəm və digər şairlərimizin yaradıcılığında da siyasi lirika, bu təmayülün tələbilə rəsmi üslub terminlərinin geniş planda istifadəsi mühüm yer tutur.

Mən fəqət bir sinfin şairiyəm. (M.Müşfiq)

Sinfimin top-tüfəngli şairiyəm. (S.Rüstəm)

Ə.Dəmirçizadə rəsmi üslub üçün obrazlılığı, məcazi mənalılığı bir sistem kimi qəbul etmir, lakin bunların tək-tək xüsusi nümunələrindən istifadə edilməsini bu üslub üçün təbii və qanuni sayır.

Rəsmi və bədii üslubun qarşılıqlı əlaqəsinə dövrün təsirini xüsusi qeyd etmək istərdik. S.Vurğunun yaradıcılığını təhlil edən M.Arif yazır ki, "Zəncinin arzuları"ndan sonra S.Vurğun "Muğan" poemasını yazdı. Hər iki əsər şairin son illərdəki yaradıcılığında, xüsusilə, mərkəzi komitənin ədəbiyyat haqqındakı qərarından sonra əhəmiyyətli hadisələrdir. Hər iki əsərdə siyasi kəskinlik, məfkurəvi dolğunluq vardır. Şair öz əsərlərinin bədii keyfiyyətini azaltmadan əsərlərinin ideya məzmununu oxucuya çatdırmağa müvəffəq olmuşdur. S.Rüstəm öz poeziyasında mənsub olduğu keçmiş "Kommunist" partiyasını vəsf etdiyini dəfələrlə özü də söyləmişdir. Halbuki, Xəlil Rza ondan sonrakı partiyanın "Qurtuluş" partiyasının ideologiyasını tərənnüm edirdi. Belə siyasi mövqeyi olan şairlərin yaradıcılıqlarında isə istənilən qədər rəsmi üslub elementləri tapmaq mümkündür (əlbəttə, poeziyanı tamamilə siyasətə çevirmək də nöqsan sayılır). Eləcə də rəsmi üslubda bədii üsluba məxsus elementlərin məhz müharibə və inqilablar dövründə-siyasi qeyri-sabitlik illərində müraciət və bəyanatların sayı nəzərə çarpacaq dərəcədə çoxalır. Onlar isə rəsmi üslub janrları içərisində bədii üslub elementlərinin əsas daşıyıcılarıdır. Rəsmi üslubda bədii üslub elemetlərinin işlənməsi ötəri, epizodik xarakter daşıyır Məsələn, qərarların giriş hissələrində, məhkəmə sənədlərinin dilində, səfirliklər arasında gedən yazışmalarda və s. Yəni bu üslubun funksiyasına obrazlılıq daxil deyil.

Üslublar arasındakı qarşılıqlı əlaqələrdə konkret üslublara məxsus elementlər öz funksiyalarını qoruyub saxlayır. Yəni bir üsluba məxsus elemetlər digər üslubun bütün janrlarında işlənə bilmir. Burada janr xüsusiyyətləri mühüm rol oynayır.

Ədəbiyyat

1. Abdullayev A. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında, Bakı, Azərnəşr, 1968, 249 s.
2. Abdullayev N. Nitq mədəniyyətinin əsasları, Bakı, MBM, 2013, 277 s.
3. Ağayeva İ. Bədii və elmi üslub, Bakı, Maarif, 1988. 84 s.
4. Babayev A. Müasir Azərbaycan dilinin funksional üslubları, Bakı, İşıq, 1988, 258 s.
5. Babayev N.Açıq söhbət, Bakı, Gənclik,1982, 308 s.
6. Bağırov Ə. Ədəbi dilin üslubları haqqında, Bakı, 1967, 24 s.
7. Dəmiçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, Azərtədrisnəşr, 1962, 270 s.
8. Əliyev K. Üslubiyyat məsələləri, Bakı, Bakı Universiteti,1990. 103 s.

С.А.Рустамова

Межстилевые взаимодействия в азербайджанском литературном языке

Резюме

В статье исследуются межстилевые взаимодействия в азербайджанском литературном языке. Показаны уникальные аспекты каждого стиля. Затрагивается история изучения стилей. Приводятся примеры произведений наших поэтов и творцов, написанных в разных стилях. Анализируются межстилевые связи в произведениях классических и современных художников.

S.A.Rustamova

Interstitial interactions in the Azerbaijani literary language

Summary

The article examines interstitial interactions in Azerbaijani literary language. Unique aspects of each style are shown. The history of the study of styles is touched upon. Examples of the works of our poets and creators written in different styles are given. Interstitial connections in the works of classical and modern artists are analyzed.

Rəyçi: filol.f.d., dos. Ə.Axundova

Redaksiyaya daxil olub: 12.11.2021

X.R.SƏFƏROVA
filologiya üzrə fəlsəfə doktoru
e-mail: xuramanmammadova87@gmail.com

DOI:10.48652/g9508-4381-9224-x

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

NEYROLİNQVİSTİKANIN TƏTBİQİ SAHƏLƏRİ VƏ ONLARIN AUDİTORİYADA İSTİFADƏSİ

Açar sözlər: *neyrolinqvistika, ünsiyyət, təhsil, qorxu, NLP metodları*
Ключевые слова: *нейролингвистика, общение, образование, страх, методы НЛП*
Key words: *neurolinguistics, communication, education, fear, NLP methods*

İnsanın daxili dünyasına nüfuz etmək çoxlarının arzusudur və aparılan tədqiqatlar nəticəsində tədricən buna çatmaq mümkündür, çünki ünsiyyət və davranışa dərindən bələd olmaqla ətraf aləmi rahat şəkildə dəyişirik. Neyrolinqvistik proqramlaşmanın bizə bəxş etdiyi metoproqramlar sayəsində biz insanları hərəkətlərinə görə fərqləndirə bilirik. Bəzən qərəzli hesab etdiyimiz davranış əslində məxsus olduğu şəxsin hər kəsə göstərdiyi xasiyyətinin nəticəsi olduğunu anlayırıq. Bununla da yaranmış problemləri rahatlıqla həll edirik.

Peşəsindən asılı olmayaraq hər bir mütəxəssis insanları anlamağa çalışır. Cəmiyyətin qarşısında duran əsas vəzifə də bundan ibarətdir. Beləliklə, insan tərəf müqabilinin münasibətini, hərəkətlərini, niyyətlərini proqnozlaşdırmağa saatlarını sərf edir. Bunun üçün kitablar oxuyur, seminarlarda iştirak edir. Bütün bunlarla biz nə əldə edirik? Heç olmasa özümüz özümüzü tam dərk etməyə müvəffəq oluruq?

Məlumdur ki, bizim davranışlarımız xüsusi strukturlar üzərində qurulub. Neyrolinqvistik proqramlaşdırma bu strukturları davranış, düşüncə və ünsiyyətə görə müəyyən edir. Buna görə insanları temperament tiplərinə ayıraraq onları anlamaq prosesini asanlaşdırmaq istəmişlər. Çünki çoxları tez-tez belə suallara cavab axtarır: qarşımdakı insan nəyi necə düşünür və emosiyalarını necə biruzə verir, nə danışır və özünü necə aparır, anlama prosesində beynində hansı əməliyyatlar gedir, hansı inandırıcı vasitələrdən istifadə edir? Belə nəticəyə gəlmək mümkündür ki, insan təkcə mövcud deyil, eyni zamanda daim fəaliyyətdədir. Biz əbəs yerə fəaliyyətə fokuslanmırıq, bununla insanın iç dünyasına nüfuz edə bilirik. Sonra müqayisə etdiyimiz nəticələri analiz edərək təkmilləşirik, yəni reallığı olduğu kimi qəbul etməyib onu rahat şəkildə dəyişirik.

Heç kimə sirr deyil ki, insan müxtəlif vəziyyətlərə görə dəyişir və müxtəlif rollarda çıxış edir. Bu da onların davranışlarının mürəkkəbləşməsinə gətirib çıxarır. Amerikalı linqvist Con Qrinder və amerikalı psixoloq Ricard Bendler insanları dərk etmək üçün bir sıra modellər işləyib hazırlamışlar. Beləliklə, metoproqramlar (insanın emosiyalarını və qavramasını müəyyənləşdirir) yaranır.

NLP-nin istifadə olunduğu sahələr çoxdur.

Təhsildə – daha surətli öyrətmək və öyrənmək, yaddaşı gücləndirmək, imtahan stresini azaltmaq, şüuraltı öyrənməyi və öyrətməyi asanlaşdırmaq, öyrənmə zamanı yaranan maneələri azaltmaq.

İş həyatında – uğurlu lider olmaq, idarəetməni modelləşdirərək tədbiq etmək, satış strategiyalarını istifadə etmək, doğru qərarların modelləşdirilməsi, yaradıcı olmaq.

Fərdi inkişafda – motivasiya olunmaq, vərdişlər və davranışları dəyişmək, fikirlərin açıq şəkildə ifadə etmək, insanın özünə lap çox güvənməsi, stressiz yaşamaq, həyatdan daha çox zövq almaq.

Terapiyada – panikanı azaltmaq, depressiya, fobiyalardan uzaq olmaq və digər psixoloji xəstəliklərin müalicəsində istifadə etmək.

Bütün bunları daha rahat başa düşmək üçün istifadəsi bir çox yerlərdə mümkün olan metodlara nəzər salaq:

1) Şirnikləndirmək – bəziləri tərəfindən qeyri-etik hesab olunur, lakin bu beynə nəzarətin bir formasıdır. Buna misal olaraq, kiməsə çiçək almağı, parfum istifadə etməyi, kimisə nahara dəvət etməyi qeyd etmək olar. Düşünsək ki, adi bir çiçək hədiyyəsilə insanın beyninə necə hakim kəsilmək mümkündür, cavab çox sadədir. Qadına təqdim olunan gülün xoş ətri hədiyyə edən qarşı cinsin nümayəndəsilə assosiasiya təşkil edir. Həmin qoxu birbaşa beyində saxlanılaraq emosiyalara müsbət təsir edir. Növbəti dəfə həmin qadın o kişi haqqında düşünəndə xoş qoxunu və emosiyaları da hiss etmiş olur. Bu proseslər assosiasiyalara görə məhz şüuraltında baş verir. (4, s. 33)

2) İnsanlara yanaşmaq – çoxumuzda tanış olmayan birinə nəsə demək və rədd edilə bilmək qorxusu mövcuddur. Kiməsə yaxınlaşmaq məsələnin bir tərəfidirsə, digər tərəfi onun təhlükəsiz tərzdə etmək, yəni ürkütməməkdir. (4, s. 36) Digər bir misal, bir bəy kafedə tək oturan bir xanımdan sorusur ki, yanınızda əyləşmək olar? Təbii ki, xanım qısa müddət ərzində xarici görünüşünün yaraşıqlı olmasına baxmayaraq tanımadığı insana yox cavabı verəcək. Səbəb isə sanki ona təzyiq olunaraq tez bir zamanda qərar vermək hissini yaşamasıdır. Diqqət çəkən məqam odur ki, heç kimə təhlükə yaradacaq insan kimi görünmək lazım deyil. Səmimi görünmək üçün, gülümsəmək, çox da ciddi dayanmamaq, bəzən ovucların içini göstərmək, ünsiyyət zamanı birbaşa danışanın üzünə baxmamaq kifayət edir. Mağazada nəsə almaq istədiyimiz zaman biri bizə yaxınlaşaraq düz üzümüzə baxıb söhbətə başlasa, çox narahat olarıq, ancaq digər bir obyektə fokuslanıb danışsa daha rahat ünsiyyət alınar. Eyni hal avtobusda da baş verə bilər, kimsə bizim üzümüzə baxaraq danışır, yaxud da bizim baxdığımız istiqamətə yönələrək söhbətə başlayır. Eyni istiqamətə baxmaq, eyni komandada olmaq, birbaşa üzə fokuslanmaq isə rəqib olmaq təsiri bağışlayır.

3) Özünə güvənmək – həyatın bütün sahələrində vacib əhəmiyyət daşıyır və şəxsi təcrübə ilə müqayisədə NLP vasitəsilə rahat şəkildə əldə oluna bilir. Lakin bəziləri üçün bu çətin olur, səbəb isə əvvəlcə öz inanclarını formalaşdırmaq əvəzinə başqaları tərəfindən psixoloji hücuma məruz qalmaqlarıdır. (4, s.41) Misal üçün, kimsə güzgüyə baxıb özünü çox gözəl hesab edirsə, ətrafdakılar onda bu əminliyi görüb onu elə də qəbul edəcəklər. Özünə əminliyin mənfi və müsbət tərəflərini də yaddan çıxarmaq olmaz. Özünəinam yaratmaq üçün ilk növbədə qorxu hissini boğmaq lazımdır. Təsəvvür edək ki, Əhməd adlı bir nəfər yığıncağa dəvət olunub və oradakı insanlarla asanlıqla ünsiyyət yarada bilib. O, çox mehriban davranır, hər kəs də onu bəyənir. Aydındır ki, söbhətə başlamamışdan əvvəl Əhməd hamı tərəfindən qəbul olunacağını bilirdi, ona baxarkən də həmin xoş auranı görmək mümkün idi. Bu onun özünə əminliyindən qaynaqlanır. Təbii ki, xoş auradan ətrafdakılar da faydalanıb rahat davrana bilərlər.

Yadımıza salmağa çalışsaq ki, özümüzü harada daha rahat hiss edirik, ola bilsin sahildə kitab oxuyarkən, çox yaxın dostumuzla ünsiyyət zamanı və bu zaman nələr hiss edirik? Beynimizdə həmin hislərlə əlaqə yaradaraq onu xəyalən yenidən yaşamaq mümkündür. Bu rahatlıq isə hər dəfə özünəinamı möhkəmləndirməyə xidmət etməyə qadirdir. Beləliklə, aşağıdakı nəticəyə gəlirik: özünə inam hiss etməklə, özünəinamlı görünürük, elə görünməklə insanların bizimlə xoş rəftar etməsinə nail oluruq, belə davranış isə özümüzə daha çox güvənmək hissini gücləndirir.

Bədən dili, duruş tərzi, səs tonu, bir az ciddilik, eyni zamanda yumor hissi də, başqalarıyla qərəzsiz ünsiyyət və s. yarana biləcək konfliktlərdən bizi qoruyaraq özümüzə inam hissini möhkəmləndirə bilir.

4) Ətraf aləmlə uyğunluq yaratmaq – ən vacib məqamlardan biri insanın qarşısındakı tərəf müqabilinə baxaraq onunla çox yaxşı münasibət quracağını düşünməsidir. (4, s. 46) Birinə nəzər salanda onun gözlərindəki gülüş, mərhəmət dolu təbəssümü, başının aşağı doğru cüzi əyilməsi bizə mehribanlıq və xoş rəftarın ilkin xüsusiyyətlərindən xəbər verir. Gələcək üçün güclü silah rolunu oynayan bu detallar ilkin vəziyyətin təməl daşları funsiyasında çıxış edir.

Bəs bu uyumluluq yarananda beyində hansı proseslər baş verir? Gülərüz sima gördüyümüz zaman həmin obraz beynin arxa hissəsində yaranır və sinir uclarına doğru ötürülür, sonra şüurumuzda canlanaraq beynin ön hissəsinə doğru istiqamətlənir. Burada isə şüuraltı qeydlər nəticəsində analiz prosesi başlayır, məsələn, gördüyümüz təbəssüm və üzün hər bir əzası emosiyaları daha da gücləndirir. Bütün bu məlumatlar beyində emal olunandan sonra yaddaşda qalıb digər emosional vəziyyətlərlə müqayisə olunur. Beynimizdəki bu funksiyanın sayəsində qarşımızdakı insanın hislərini hiss etmək mümkündür, yəni kimsə bizi gördüyü zaman xoşbəxtdirsə avtomatik şüuraltında biz də eyni reaksiya verməyə başlayırıq. Beləliklə, qarşılıqlı anlaşma, uyumluluq yaranır.

Üz cizgiləri qarşımızdakı insanla əlaqəmizi tənzimləyən əsas faktorlardan biri hesab olunur və burada üzdə əks olunan şübhəli baxışdan, özünə əminlikdən, dominantlıqdan çox etibarlı görünmək xüsusilə bəyənilən haldır.

İnsan özlüyündə həmin məkanda olmaqdan, qarşısındakı insanı görməkdən şüuralatında məmnunluq hissi duymalıdır. Bunun üçün isə kiminləsə qarşılaşanda ancaq səmimi gülüş, səmimi sevinc hissi olmalıdır.

Səmimi əlaqələr üçün doğru geyim tərzi də vacibdir. Parlaq rənglər, bədəndəki əzaları bildirən dar yaxud açıq model paltarlar diqqət çəkmək üçün faydalı olsa da, cəmiyyətdə birmənalı qarşılanmır. Sadə və ciddi geyim tərzi insanı daha çox sanballı göstərməyə qadirdir.

Duruşa görə də insanlar haqqında fikir yürütmək maraqlıdır, məsələn əlləri sinə ətrafında bükmək, ya belə qoymaq, yaxud dizləri qatlamaq müdafiə vəziyyətində olmağı bildirir. Qamətin şux olması bəyənilən haldır. Görüşdüyümüz insanlarla həmişə salamlaşmağa, əl sıxmağa hazır olmaq lazımdır. Başın hansı bucaq altında əyilməsi, çiyinlər, qollar insanın aqressiv, utancaq, müdafiə, təhlükəli və s. vəziyyətlərini müəyyən edən əsas predmetlərdəndir.

Hamıya məlumdur ki, müxtəlif vəziyyətlər üçün milyonlarla sözlər və jestlər mövcuddur, konkret bir sözün bütün hallarda doğru olması kimi bir reallıq da yoxdur. Uğurlu ünsiyyətlər müəyyən prinsiplərə əsasən qazanılmış təcrübəyə əsaslanır. Səmimi, mehriban, qərəzsiz nitq əksər insanlarla xoş münasibətin qurulmasına kömək edir. Lakin qarşı tərəfin əhvalına, yumor hissinə, rahatlıq dərəcəsinə, həmçinin üz cizgilərinə, geyim və duruş tərzinə də xüsusi diqqət etmək olduqca labüddür.

5) Söhbət əsnasında bəzi əlamətlərə əsasən qarşı tərəfin yalanını hiss etmək – bu çoxlarının arzusudur. Təbii ki, onu tam müəyyən edən cihaz hələ kəşf olunmayıb, lakin bir sıra xüsusiyyətlərə əsasən müəyyən etmək mümkündür. Yalanı öyrənmək nə qədər çətin olsa da, yalana kimisə inandırmaq ondan da çətindir. Çünki yalan danışanda beyində istifadə olunan proseslər doğrunu ifadə edəndə işlədilən proseslərdən çoxdur. Belə ki, doğrunu deyəndə yaddaşda mövcud olan həqiqəti xatırlayaraq dilə gətiririk. Lakin yalan danışanda isə mövcud olmayan həqiqəti canlandırmağa və ya gizlətməyə ehtiyac yaranır və onu əlavə vasitələrlə yaratmaq lazım gəlir. Bu zaman şüur inandırıcı səviyyədə alternativ cavab üzərində işləməyə fokuslanır. Paralel olaraq qarşı tərəfin reaksiyası nəzarətdə saxlanılır, əgər hələ lazımi dərəcə inanmayıbsa, bədən dili köməyə çatır. Əksinə reallığı deyəndə bütün bu proseslərə ehtiyac qalmır və məhz sadalanan incəliklərdən xəbərdar olan insan danışılanın yalan olduğunu hiss edə bilir, bəzən də üz cizgilərinə baxmaq kifayətdir. Gözlərin baxmaq istiqaməti, qaşların, dodaqların vəziyyəti yaxud üzün müəyyən hissəsinə qeyri-ixtiyari şəkildə toxunmaq xüsusilə vacib məqamlardan hesab olunur. Məsələn, kimsə yalan danışanda gözləriylə yuxarı sağa baxırsa, deməli beyninin sağ yarımkürəsində istədiyi həqiqəti yaratmağa çalışır, sonra onu canlandırıb sol tərəfə baxır. Qaş alnın orta hissəsinə doğru istiqamət alırsa,

bu qorxu əlaməti sayılır. Dodaqların aşağı istiqamətə əyilməsi də qorxu bildirən digər əlamətdir, çünki bu əzələ qeyri-ixtiyari aktivləşir. Bununla yanaşı istedadlı professional yalançılar elə inandırcı yalan söyləyə bilirlər ki, heç bir əlamətlə onu müəyyən etmək olmur. (4, s. 50)

6) Qorxulara NLP vasitəsilə qalib gəlmək mümkündür. Fobiyalar bizim beynimizdə formalaşır, NLP isə beyni idarə etmək xüsusiyyətinə malikdir. Sirr deyil ki, qorxular sonradan qazanılır, yəni anadangəlmə olmur. Ola bilsin ki, kiminsə uşaq vaxtı yadında qalan bir hadisə sonradan onda müxtəlif fobiyaların əmələ gəlməsinə şərait yaratsın. Məsələn, təyyarə ilə səyahət və ya yüksəklik qorxusu çoxlarına məlumdur. Bununla bağlı bir filmi izləməklə həmin fobiyanın necə itməsinə nəzər yetirək. Əvvəlcə kino başlamamışdan onu tam ekran yox kiçik ekran edək, fonda əyləncəli bir musiqi yerləşdirək, görüntünü bir az bulanıq rejimə salaq, sonra rahat şəkildə gülərək özümüzə inamı artıraq. Bu hissi getdikcə daha da gücləndirək, sonra gülərək filmi izləyək və həmin an qorxunun xeyli azalmasının şahidi olacağıq. Eyni qaydanı iş mühitində xoşlamadığımız insanlarla ünsiyyət qurarkən, auditoriya qarşısında çıxış edərkən də tətbiq etmək olar. Belə ki, fobiya hiss etdiklərimizin təsir gücünü beynimizdə kiçildərək mövcud problemi dəf edirik. (4, s. 52)

7) Gündəlik həyatımızı zəbt edən artıq çəki problemini NLP ilə avtomatik həll etmək alınmasa da, bəzi psixoloji priyomlarla çəki azaltmaq realdır. (4, s. 56) Düşünək ki, şüyüd şokolad tamı verir, dondurma iyrənc dadır, qaçmaq hansısa qənnadı mağazasına getməkdən yaxşıdır – bundan sonra arıqlamaq nə qədər asandır? Dondurma dadlıdır, onu necə bəyənməmək olar? Elə indicə onun müsbət xüsusiyyətlərini mənfiyə çevirək! Dondurmanın ağızda qalan tamına diqqət yetirək, təsəvvür edək ki, soyuq bərk şəkər dişlərimizə kley kimi yapışıb, sonra mədəmizə gedib çatan heyvan mənşəli kiçik yağ dairələri qanımıza keçir və dərimizdəki piylənməyə yol açır. Bundan sonra "dondurma" necə səslənir? Eyni metodla xoşlamadığımız faydalı məhsulları ləzzətli etmək mümkündür. Ümumiyyətlə, müəyyən qidaları yeməyə beyni süni şəkildə məcbur etmək olar. Bunun üçün beynə istədiyimiz əmri vermək kifayətdir. Məsələn, mən kök yeməyi xoşlamıram, çünki dadını bəyənmirəm, lakin bunun yanlış olduğunu düşünürək sanki öz-özümü aldadaraq və əksinə kökün dadlı olduğunu zənn edirəm. Bu zaman həmin reaksiyanı beynin ön hissəsi bütün bədənə ötürür, dərhal beyin qabığında yerləşən əvvəlki məlumata əsasən onun dadlı olmadığını bildirir. Nə qədər təəccüblü olsa da, süni şəkildə beyin yarımkürələrində məmnunluq hissini bildirən refleksiv siqnallar yaranır. Bir sözlə, xoşladığımız qidanı yediyimiz zaman aldığımız zövq imitasiya olunmağa başlayır. Təbii ki, bu zaman beyin qabığı çaşqın hala düşür, lakin tez bir zamanda istədiyimiz istiqamətə yönəlir. Beyində gedən milyon proseslərə baxmayaraq bizi bu hissə daha çox cəlb edir. Nəticədə kökə qarşı təbii münasibətimiz həmişəlik dəyişməsə də, bir dəfə fərqli yanaşma əldə etmiş oluruq.

Zərərli vərdişlərdən qurtulmaq üçün də NLP effektiv təsir gücünə malikdir. (4, s. 60) Məsələn, siqarəti tərgidən zaman kimyəvi maddələr müqavimət göstərmək üçün xeyirlidirsə, NLP ilə hətta növbəti siqareti görmək dözülməzdir. Özümüzə sual veririk, həqiqətən siqaretə ehtiyacımız yoxdur? Cavab "hə"-dirsə, nikotinlə aparılan bu müharibəni udmaq asandır. Bir halda ki, döyüş meydanı bizim bədənimizdir, bədənimizi də beynimiz idarə edir, onda ən güclü silah da elə odur. Siqaretin əks təsirini, bədənə olan ziyanlı tərəflərini düşünməyə fokuslanıb, hər gün bunu daha da gücləndirməklə onu tərgitmək asanlaşa bilər. Sonda insan özü-özünü nail olduğu nəticəyə görə mükafatlandırmağı unutmamalıdır. Eyni zamanda, özünü daha güclü hiss edib əzmlə irəliləməlidir.

NLP ilə biz insanları müşahidə edib anlayaraq davranmağı öyrənirik. Bu məqamda söz seçimi çox vacibdir, çünki bununla kiminsə həm xoşuna gəlmək, həm qərarını dəyişmək, həm də nəyəsə inandırmaq mümkündür. NLP-nin geniş istifadə olunduğu sahələrdən biri də auditoriyadır, yəni sinif otaqlarındakı adi dərslərdən tutmuş, dinləyici kütləsi olan reklam çarxlarına qədər hamısını bura daxil edə bilərik. Bu zaman nitqi maraqlı edən bir sıra məqamlardan xəbərdar olmaq uğurlu nəticələr əldə etməyə kömək edir.

Yəqin çoxları bilir ki, nitqi şəxsi təcrübəylə bağlı bir faktdan, statistik məlumatlardan, sitatlardan, oxunmuş bir məqalədən başlamaq daha yaxşıdır. Burada əsas olan auditoriyadakıların emosialarına təsir etməkdir. Yəni, verilən mesajı elə sözlərlə ifadə etmək lazımdır ki, dinləyicilərin duyğu orqanlarına toxuna bilsin. Məsələn, eşitmək üçün – harmoniya, səsləndirmək, musiqi; görmək üçün – canlandırmaq, aydın, solğun; anlamaq üçün – hiss etmək, kobud, incə; dad bilmək üçün – dadlı, şirin, qoxu və s. sözlər işlədilə bilər. Eyni zamanda diqqət cəlb etmək üçün jestlərdən istifadənin rolu da danılmazdır. Auditoriyadakıların vizual, auditor və kinestetik dinləyicilər olaraq 3 yerə bölündüyünü nəzərə almaq lazımdır, yəni kimsə prezentasiya zamanı gördüyü şəkillərdən, yaxud toxunduğu obyektlərdən qaynaqlanaraq nitqdən ilham ala bilir. Daha bir vacib məqam isə səslənə biləcək ümumi fikirlərdən çox konkret müddəalar dinləyiciyə maraqlıdır. Məsələn, ümumi nəqliyyat vasitələrindən deyil, müəyyən maşın modelindən danışmaq auditoriyaya faydalı ola bilər. Bütün yuxarıda sadalanan xüsusiyyətlərlə bərabər təcrübəli natiqlər bədən dili, səs tonundan istifadə edib nitq zamanı dinləyicidə maraq oyadaraq müsbət emosiyaların yaranmasına nail olurlar. (1)

İndi isə insan kütləsinin psixi durumunu idarə etməyin bəzi üsullarını nəzərdən keçirək. Bunun üçün qarşımızdakı insanın təcrübəsi, təhsil səviyyəsi, tərbiyəsi, genetikası və digər faktorlar mühüm əhəmiyyət kəsb edir. Bir çox psixoterapevtlər, siyasi xadimlər, hipnozçular, dələduzlar həmin üsullardan istifadə edərək lazımi kütləni asanlıqla manipulyasiya edirlər. Belə priyomlardan xəbərdar olmaq artıq özünü müdafiəni təşkil etmək deməkdir.

Süni şəkildə dəqiqləşmələr aparmaq, məsələn, kimsə hər hansı bir məlumatı sanki qeyri-ixtiyari şəkildə yenidən aydınlaşdırır. Bu zaman müsahib çox diqqətlə qarşı tərəfi dinləyib, sonra öz mövqeyi bildirməlidir, hətta lazım gəlsə, hiss etdirmədən digər mövzuya keçid almalıdır.

Qısa zamanda çox məlumat vermək, yəni bir mövzudan digərinə surətli keçid edib şüurun funksiyasını zəiflətməklə, istənilən məlumatı şüuraltına yerləşdirmək mümkündür. Sonra şüurlatından şüuru manipulyasiya etmək daha asandır.

Nəzərə alsaq ki, istənilən müəllimin qarşısındakı tələbənin şüurunu manipulyasiya etmək imkanları çoxdur, bu zaman maraqlı məqamlara diqqəti çəkmək yerinə düşər. Məsələn, universitet auditoriyasında nitq söyləyən zaman dinləyicini fəth etmək hər kəsin arzusudur, lakin bunun üçün nələrə fikir vermək lazımdır? Əvvəlcə çıxış və ya nitqin başlanğıcı və sonu hər kəsin yadında qalır bu faktı nəzərə almaq, ötürülən məlumatın 7 faizi yaddaşlarda həkk olunmamasını unutmamaq və s. Müəllim və ya natiq verdiyi məlumatın məqsədini və dinləyicidə hansı təsiri formalaşdırıb lazımi nəticəni göstərəcəyini əvvəlcədən müəyyənləşdirməlidir.

Bəzən müəllimlər kütlə önündə, akademik mühitdə nitq söyləməkdən çəkinirlər. Araşdırmalara görə, auditoriya qarşısında çıxış etmək çoxlarına kabus kimi görünür, lakin bunun öhdəsindən gəlmək elə də çətin deyil. Əgər narahatçılığın səbəbi aşkarlansa və düzgün strategiya seçilsə bu qorxunu dəf etmək mümkündür. Bir çox hallarda deyiləcək fikirlərin unudulacağı və yaxud tələffüz zamanı xətalara yol veriləcəyi kimi problemləri sadə şəkildə həll etmək olar, məsələn, qısa qeydlər aparmaqla və 5-6 dəfə məşq etməklə. Bəzi hallarda kənardan necə görünmək qorxusu yaranır, üz cizgilərini və jestləri daha aydın görmək üçün həmin çıxışı video ilə qeydə almaq, qüsurları aradan qaldırmaq üçün ən optimal yol hesab olunur.

Uğurlu çıxışlar üçün nələrdən çəkinməli olduğumuzu anlasaq, daha effektiv nəticə ala bilərik, məsələn, auditoriyaya "Üzr istəyirəm, amma məndən yaxşı natiq çıxmaz" kimi ifadələr işlədib təcrübəsizliyi vurğulamaq, arasıkəsilməz irəli-geri getmələrlə əminsizliyinizi göstərmək, yavaş, asta danışıb dinləyicini qəzəbləndirmək, danışığa pauza verməmək, nitqi darıxdırıcı monoloqa çevirmək, "Vəssəlam, demək istədiklərim elə bunlar idi" kimi sözlərlə çıxışı bitirmək və s. Bunların əvəzinə isə hər bir hərəkətə diqqət yetirmək və nəzarətdə saxlamaq, səsin ucalığı və gücündən, tonundan düzgün istifadə etmək, düzgün pauza vermək, sözlərin yoxluğunu nidalar və parazit-sözlərlə doldurmamaq, auditoriya ilə kontakta girib, sual vermək, sualları cavablandırmaq, çıxışı qısa və tutumlu edib məntiqli şəkildə sonlandırmaq daha faydalıdır. (2)

Toplum önündə böyük çıxışlar tez-tez olmur, odur ki, gündəlik vəziyyətlərdə praktika etməyə başlamaq lazımdır. (2)

– Həmkarlarla danışan zaman. Çay içərkən özünə olduqca əmin görsənməyə ehtiyac olmasa da, həmkarlarla adi söhbət – qorxu və narahatlıq olmadan nitq bacarıqlarını təcrübədən keçirmək üçün əla fürsətdir.

– İclaslar zamanı ideyaları təklif edən zaman. Səsin eşidilərək hörmətlə qarşılanması çox zaman ideyanın nə qədər özünə əmin şəkildə izah etməkdən asılıdır.

– Kiminsə işini şərh edən zaman. Digər əməkdaşın işini və ya bacarıqlarını qiymətləndirmək lazım olanda, qətiyyətli görünmək və səslənmək olduqca vacibdir.

– Sual verən zaman. Bu variantda praktika üçün çoxlu fürsətlər var, çünki biz tez-tez sual veririk: görüşlərdə, iclaslarda, təlimlərdə, seminarlarda və s. (2)

XXI əsrin informasiya, texnologiyalar əsri olduğunu nəzərə alaraq, ünsiyyətin vacibliyi və onun düzgün şəkildə qurulması öz aktuallağını qoruyub saxlamaqdadır, çünki bütün hallarda insanlar bir-birini anlayıb başa düşməlidir. Bunun üçün bir sıra proqramlar hazırlanır, araşdırmalar aparılır, kitablar yazılır. Tədqiqatçıların təklif etdiyi ən son metodları öyrənib həyatın müxtəlif sahələrinə tətbiq etmək və uğur qazanmaq isə hər mütəxəssis üçün çox prioritet məsələdir. Gənc nəsli belə yeniliklərlə tanış etmək, onları həvəsləndirib yeni üfüqlər açmağa şövq etmək müəllimlərin bir nömrəli vəzifəsidir. Bu sahədə NLP-nin imkanlarından istifadə etmək və müvəffəqiyyət əldə etmək daha asan və effektivdir.

Ədəbiyyat

1. http://www.knigikratko.ru/articles/10-sovetov-nlp-dlya-publichnogo-vystupleniya
2. https://www.facebook.com/KarnegiKlub/
3. NLP FOR BEGINNERS. An Idiot-Proof Guide To Neuro-Linguistic-Programming. https://metaphysicsociety.files.wordpress.com/2014/10/nlp-for-beginners-an-idiot-proof-guide-to-neuro-linguistic-programming.pdf
4. Pete Casale. NLP Secrets: Upgrade Your Mind with Neuro-Linguistic Programming. Creative Media NZ Ltd. 2012
5. Дроган А.В. НЛП с нуля, или Игры разума. Вектор, 2006
6. Ирина Германовна Малкина-Пых. Техники позитивной терапии и НЛП. Москва, 2004
7. Котлячков Александр и Горин Сергей. Оружие – слово. Оборона и нападение с помощью. www.koob.ru
8. Майкл Холл • Боб Боденхамер. 51 метапрограмма НЛП. Прайм-ЕВРОЗНАК, 2007
9. Стивен Р. КОВИ. Семь навыков высокоэффективных людей. Free Press, 1989

Х.Р.Сафарова

Области применения нейролингвистики и их использование в аудитории

Резюме

Учитывая, что XXI век - век информации и технологий, важность коммуникации и ее правильной организации остается актуальной, потому что во всех случаях люди должны понимать друг друга. Для этого разрабатывается ряд программ, проводятся исследования, пишутся книги. Изучение и применение новейших методов, предложенных исследователями в разных сферах жизни, и достижение успеха - приоритетная задача для каждого специалиста. Первостепенная задача преподавателей - познакомить подрастающее поколение с такими нововведениями, поощрить их и побудить открывать новые горизонты. В этой области проще и эффективнее использовать потенциал НЛП и добиться успеха.

Kh.R.Safarova

Fields of application of neurolinguistics and their use in the auditorium

Summary

Considering that the 21st century is the century of information and technology, the importance of communication and its appliance remains vital, because in all cases people must understand each other. For this reason, a number of programs are being developed, research is being conducted, and books are being written. Studying and applying the latest methods proposed by researchers in different spheres of life, and achieving success is a priority task for every specialist. The primary task of lecturers is to acquaint the younger generation with such innovations, to encourage them and to open up new horizons. In this area, it is easier and more effective to use the potential of NLP and achieve success.

Rəyçi: dos. Y.Orucova

Redaksiyaya daxil olub: 20.09.2021

F.S.SƏLİMOVA
filologiya üzrə fəlsəfə doktoru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

DİL, MƏDƏNİYYƏT VƏ ONLARI BAĞLAYAN TELLƏR

Açar sözlər: *dil, mədəniyyət, təfəkkür, konsept, konseptosfer, linqvokulturologiya.*
Ключевые слова: *язык, культура, мышление, концепт, концептосфера, лингвокультурология.*
Key words*: language, culture, thinking, concept, conceptual sphere, cultural linguistics.*

Ötən əsrin sonlarından başlayaraq linqvistikada bir sıra yeni istiqamətlər formalaşmışdır. Bunun da əsas səbəbi dilçilikdə antroposentrik yanaşmanın ön plana çıxması, dilin ayrılıqda deyil, digər hadisələrlə vəhdətdə və eyni zamanda bir sıra elmlər tərəfindən öyrənilməyə başlaması oldu. Belə ki, dil öz-özlüyündə daşıdığı məna yükündən ayrı nəzərdən keçirilsə, o, müəyyən səs yığımını bildirən işarələr sistemi kimi nəzərdən keçirilə bilər. Dil müəyyən funksiyalar yerinə yetirir və bunlardan biri fərdlər (nəsillər, xalqlar) arasında kommunikasiyanın qurulması ilə bağlıdır. Digər tərəfdən, dil müəyyən yazılı işarələr şəklində əldə olunan təcrübəni, bilikləri sistemləşdirib, fiksə etməyə və gələcək nəsillərə ötürməyə imkan verir. Bu funksiya bəşəriyyətin inkişafının müəyyən mərhələsində sözügedən prosesi xeyli sürətləndirir. Belə ki, əgər XIX əsrdə informasiya və biliklərin yayılması əsasən kitablar və mətbu orqanları tərəfindən həyata keçirilirdisə, XX əsrdə bura radio, sonra televiziya əlavə olundu, əsrin sonunda internet geniş yayılmağa başladı. Hazırda isə internetdəki sosial şəbəkələr hesabına informasiya yayımı son dərəcədə intensiv gedir və son nəticədə istifadəçilərin özlərinin bilik dairəsini genişləndirir, onların müəyyən baxımdan inkişafını sürətləndirir. Bu prosesdə dil zahirən bilikləri şifrələmək üçün vacib olan işarələr sistemi kimi çıxış edir. Amma bu həqiqətənmi belədir?

İşarələr öz-özlüyündə mövcud olmur. Onlar müəyyən məna yükü daşıyında dil vahidlərinə çevrilir. Həmin məna yükü insan şüurunda müəyyən yer alandan, yəni konsept kimi formalaşandan sonra saxlanılır, zamanda yeni çalarlar, mənalar kəsb edir və toplanmış məna yükünü başqa dil daşıyıcısına çatdırmaq lazım gəldikdə dil vahidlərində əks olunur və adresata çatdırılır. Bu isə göstərir ki, dil vahidləri biliklərin adlandırılması, təfəkkürə çatdırılıb "adlandırılmış bilik klasteri" kimi saxlanılmasında iştirak edir və digər dil daşıyıcısına çatdırıldıqda yenə də əsas kommunikasiya funksiyasını yerinə yetirir.

Eyni zamanda dildə xalqın mədəniyyəti də əks olunur. Dili mədəniyyətin daşıyıcısı adlandırsalar da, yəqin ki, dil olmasa, mədəniyyət öz-özlüyündə yarana, inkişaf edə, yayıla və dərk oluna bilməzdi.

Dil və mədəniyyət bir-biri ilə sıx bağlıdır. Bu bağlılıq ən müxtəlif səviyyələrdə və şəkillərdə təzahür edir.

İnsan real aləmdə məhz onun qavrayışı ilə təfəkkürü ziddiyətə girəndə onu düzəltməyə qabil olduğuna görə yaşaya bilir. Buna görə mədəniyyət "dil örtüyündə" yaşayır və inkişaf edir, yəni dil örtüyü mədəniyyətin məzmununu diktə etmir. Amma bu tezisi birmənalı və mütləq həqiqət kimi qəbul etmək olmaz, çünki onlar arasında "hərəkət" birtərəfli deyil, əgər mədəniyyət dildə mövcud olur, dildə saxlanılır və dildə realizə olunursa, dil özü də mədəniyyətə təsir edir, onu formalaşdırır, ən müxtəlif səviyyələrdə saxlayır və ötürür.

Dil yalnız dünyanı əks etdirmir, həm də insanın şüurunda ideal aləm qurur. Buna görədir ki, dil və dünyagörüşü sıx bağlıdır. Kulturoloji ədəbiyyata görə, dil:

- *mədəniyyətin güzgüsüdür* və bu güzgüdə yalnız insanın ətrafındakı real gerçəklik deyil, həm də xalqın mentaliteti, onun milli xarakteri, adət-ənənələri, mənəviyyatı, normalar və dəyərlər sistemi, dünyanın mənzərəsi əks olunur;

- *mədəniyyətin saxlanc yeridir*, çünki xalqın əldə edib topladığı bütün biliklər, bacarıqlar, maddi və mənəvi dəyərlər onun dil sistemində – folklorunda, kitablarda, şifahi və yazılı nitqində saxlanılır;

- *mədəniyyətin daşıyıcısıdır*, çünki məhz dilin köməkliyi ilə o, nəsildən-nəslə ötürülür. Uşaqlar doğma dilin öyrənilməsi prosesində həm də əvvəlki nəsillərin ümumiləşmiş təcrübəsini mənimsəyirlər;

- *mədəniyyətin insanın şəxsiyyətini formalaşdıran alətidir*, çünki insan məhz dil vasitəsilə xalqının mentaliteti, adət və ənənələrini mənimsəyir.

Qeyd olunur ki, "dil eyni zamanda mədəniyyətin həm məhsulu, həm onun tərkib hissəsi, həm də mədəniyyətin mövcudluq şərtidir. Bundan əlavə, dil mədəniyyətin mövcudluğunun spesifik üsulu, mədəni kodların formalaşmasının amilidir" (1, s. 48). Bu deyimdə dil və mədəniyyətin nə qədər sıx bağlı olduğu nəzərə çarpdırılsa da, onların qarşılıqlı münasibətləri tam açılmır, çünki bu, əslində, mümkün də deyil.

Dil və mədəniyyəti birgə, qarşılıqlı münasibətdə və qarşılıqlı "nüfuzda" linqvistikanın ötən əsrin sonlarında formalaşmış yeni elm sahəsi olan linqvokulturologiya öyrənir. "Bir elm sahəsi kimi linqvokulturologiya linqvistika və kulturologiyanın sərhəddində yaranıb, xalqın mədəniyyətinin dildə əksini tapmış və təsbit olunmuş təzahürlərini öyrənir. Bu yeni elm iki elmin sərhəddində yaransa da, sadəcə onların imkanlarının cəmindən ibarət deyil. Linqvokulturoloji faktlara yeni bucaq altında baxmağa və onları qeyri-ənənəvi izah etməyə imkan verir" (2, s. 122).

Linqvokulturologiya kompleks elmi fənn olub, dil və mədəniyyətin işlədilmə prosesində qarşılıqlı əlaqəsini öyrənir və bu prosesi elementlərin bitkin strukturu kimi onun dil və qeyri-dil (mədəni) məzmununu sistemli metodların köməkliyi ilə əks etdirir (6, s. 47). Linqvokulturologiya dilin əsas funksiyalarından birinin – mədəniyyətin yaradılma, inkişaf etdirilməsi, saxlanılması və yayımlanmasının necə həyata keçirilməsini müəyyənləşdirməyə və izah etməyə imkan verir.

Linqvokulturologiyanın əsasında bunlar durur:

dil və mədəniyyətin sıx qarşılıqlı əlaqəsinin;

dilin mədəniyyəti dərk etmə aləti olmasının;

mədəniyyətin dilində mütləq etnosun əksinin dərki.

Linqvokulturologiya hüdudlarında mədəniyyət komponentinin yalnız nominal vahidlərdə deyil, həmçinin kommunikasiya taktikalarında, nitq davranışında, daha geniş – dünyaduyumu və dünyanın dərkinin daha aydın duyulduğunu qəbul etmək vacib məqamlardandır. Buna görədir ki, müxtəlif mədəniyyətlərin nümayəndələrinin kontaktları kommunikantın linqvokulturoloji xüsusiyyətləri haqqında biliklər olmasa, məhsuldar ola bilməz (4, s. 342-343.)

Hazırda linqvokulturologiyada bir neçə istiqamət fərqləndirilir:

1. Müqayisəli linqvokulturologiya – müxtəlif, lakin qarşılıqlı əlaqədə olan etnosların linqvokulturoloji təzahürlərini öyrənir;

2. Diaxronik linqvokulturologiya – ayrıca götürülmüş bir etnosun linqvomədəni vəziyyətinin müəyyən zaman kəsiyi ərzində dəyişmələrini öyrənir;

3. Ayrıca sosial qrupun linqvokulturologiyası – konkret situasiyanı nəzərdən keçirir;

4. Linqvokulturoloji leksikoqrafiya – müvafiq lüğətlərin tərtibi ilə məşğul olur;

5. Müqayisəli linqvokulturologiya – iki və daha çox milli dil mənzərələrini qarşılaşdıraraq onların ümumi və fərqli cəhətlərini müəyyənləşdirir və bununla da, digər istiqamətlərdən köklü şəkildə fərqlənir. Bu səbəbdən mütəxəssislərin bir qismi hətta müqayisəli linqvistikanı ayrıca elm sahəsi kimi nəzərdən keçirməyə çalışır və bildirirlər ki, müqayisəli linqvokulturologiya "müstəqil, kompleks, elmi, beynəlmiləlləşən sintezləşdirici tipli elm sahəsidir" (5).

Amma alimlərin çoxu müqayisəli linqvokulturologiyanın müstəqil elm sahəsi olduğu ilə razılaşmır, onu ümumi linqvokulturologiya çərçivəsində nəzərdən keçirirlər (8, s. 29).

V.V.Vorobyovun fikrincə, müqayisəli linqvokulturologiya ümumi linqvokulturologiyanın tətbiqi aspekti olub (7, s. 13), müqayisəli dilçiliklə linqvokulturologiyanın qovuşuğunda yaranıb.

Linqvokulturologiya dil və mədəniyyətin qarşılıqlı əlaqəsini, onların bir-birindən bağlılığını öyrənən elm olub, dilin mədəniyyətdə və mədəniyyətin dildə öyrənilməsinə imkan verir. Lakin həm dil, həm də mədəniyyət öz-özlüyündə, bir-birindən təcrid olunmuş şəkildə mövcud deyil, çünki dilin mədəni informasiyanı, hadisəni əks etdirməsi çox mürəkkəb prosesdir və bu bilavasitə adı çəkilməyən və insanı bütün canlılardan fərqləndirən bir xüsusiyyətlə bağlıdır.

Belə deyək, dili və mədəniyyəti vahid "zəncirin" həlqələri kimi götürsək onların əlaqəsini mümkün edən əsas "həlqə"yə diqqət yetirməliyik. Bu həlqəsiz ayrılıqda nə dilin, nə də mədəniyyətin mövcudluğu mümkün deyil.

Dil və mədəniyyət arasında birləşdirici, əlaqələndirici "həlqə"yə adətən ciddi diqqət yetirilmir, halbuki məhz bu "həlqə" dünyanın, gerçəkliyin dərki prosesində ən vacibdir, amma çox üzdə olduğundan adi bir hal kimi qavranılır və bu səbəbdən gözə çarpmır, diqqətdən kənarda qalır.

Ayzek Azimovun "Akademiya" ("Təməlçilər") silsiləsinin sonuncu romanında ("Təməlçilər və Yer") robototexnikanın üç qanununa göz qabağında olan və bu səbəbdən diqqətdən kənarda qalan sıfırıncı qanun əlavə edilir. İyirmi min il mövcud olmuş və mövcudluğunu bəşəriyyətin xilasına sərf etmiş robot Daniyel bu haqda belə deyir: "Sonundan əvvəl Jiskar öz gücünə görə birinci qanundan üstün olan qanun fikirləşdi və onu "Sıfırıncı Qanun" adlandırdı, çünki bundan daha uyarlı başqa bir şey fikirləşib tapa bilmədik. Sıfırıncı Qanunda deyilir: "Robot bəşəriyyətə zərər verə bilməz və ya özünün fəaliyyətsizliyi ilə bəşəriyyətə zərər verilməsinə yol verə bilməz" (9).

Dil və mədəniyyətin qarşılıqlı münasibətlərinin nəzərdən keçirilməsində bu ən vacib, dil və mədəniyyətin hər birindən vacib olan "qanun" nəzərə alınmalıdır. Bu, təfəkkürdür. Dil vasitədir, alətdir, mədəniyyət nəticədir, o təfəkkürdə gedən proseslər nəticəsində formalaşır və dildə öz əksini taparaq "gerçəkləşir", belə demək mümkünsə, predmetləşir, öyrənilməyə gəlir. Və bu zaman nəzərə almaq lazımdır ki, təfəkkür prosesdir, onun tərkibində formalaşan və dünyanın mənzərəsinin canlandırılması, əks edilməsində bilavasitə iştirak edən vahidlər konseptdir. Qeyd edək ki, konseptlər gerçəkliyin predmetləri və hadisələri haqqında bilikləri özlərində ehtiva edir, insanın bilik dairəsi, "söz ehtiyatı" genişləndikcə, konseptlər də mürəkkəbləşir, lakin onların mürəkkəbliyinin yalnız bir çaları, bir xətti bilavasitə mənanın realizəsi zamanı işlədilir, təzahür edir və kontekstdə, daha geniş – diskursda tam realizə olunur.

"Konsept dedikdə gerçəkliyin (sözün ən geniş mənasında) hər hansı predmeti, hadisəsi, hərəkətinin insan şüurunda əksi, təsəvvürü, obrazlı "klasteri" nəzərdə tutulursa, həmin konseptin gerçəklikdəki prototipinin şüura proyeksiyası, yəni qavranılıb şüurda müəyyən proseslərdən keçərək konseptləşməsi, bu şəkildə saxlanılması və lazım gəldikdə gerçəklikdəki konkret hadisələrlə müqayisəsi, işlədilməsi (praktik tətbiqi) ən ümumi şəkildə koqnitivlik adlandırıla bilər" (3, s.153-154).

Konseptlərin məcmusu isə konseptosferdir. Konseptosfer təfəkkür deyil, təfəkkürdə gedən dərketmə proseslərinin nəticəsində formalaşmış biliklərin məcmusudur. Nə konseptlər, nə də onların məcmusunun daxil olduğu konseptosfer birdəfəlik verilmiş, statik nəsə deyil, çünki insanın dünyanı dərki prosesi davam edir, onun bilik dairəsi, sözün ən geniş mənasında genişlənir, konseptlərin "realizə oluna biləcəyi" məna çalarları çoxalır, zənginləşir. Bunu eyni bir dilin daşıyıcılarının dillə ifadə olunmuş konteksti fərqli qavramasının timsalında görmək olar. Bu da ondan irəli gəlir ki, hər bir fərdi şüurda formalaşmış konseptlər başqa dil daşıyıcılarının konseptosferindəki konseptlərlə tam üst-üstə düşmür. Kommunikasiya prose-

sində isə qarşılıqlı anlaşma üçün bu çox vacibdir. Daha dəqiq desək, konseptlər fərqli qavranıldıqda qarşılıqlı anlaşmadan danışmaq olmaz. Bu, "İki karın söhbəti" lətifəsini andıra bilir:

– Hara gedirsən?

– Bazara gedirəm.

– Get, get, elə bildim bazara gedirsən.

Bu misalda bir-birini tamamilə eşitməyən iki şəxsin söhbəti diqqət mərkəzindədir. Amma Azərbaycan folklorunda bir çox misallar var ki, onlarda danışanla dinləyənin, yəni kommunikantların konseptosfer səviyyəsində bir-birinə müvafiqliyi qarşılıqlı anlaşmanı mümkün edir. Buna bir misal gətirək:

"Padşahın biri vəziriylə birlikdə təğyiri-libas gəzintiyə çıxır. Bir kənddə evin qabağında corab hörən bir qız görürlər. Padşah qızdan soruşur:

– Salam, qızım, atan evdədimi?

Qız: – Atam evdə yoxdu, azı çox etməyə gedib

Padşah: – Bəs anan?

Qız: – Anam biri iki etməyə gedib.

Padşah: – Eviniz gözəldi, amma bacası əyridi.

Qız: – Bacası əyri olsa da, tüstüsü düz çıxır.

Padşah: – Sənə bir qaz yollasam, yolarsan?

Qız: – İzninizlə ən incə tüklərinə qədər yolaram!" (10)

Padşahla qız arasında gedən bu mükamiləni vəzir başa düşmür, padşahın əmri ilə deyilən hər bir ifadənin mənasını öyrənmək üçün qızın yanına qayıdıb xeyli qızıl xərcləməli olur. Qız deyimlərin mənasını belə açır:

Vəzir:

– Aman qız, xanım qız!… Bu gün yanımda biriylə sənin yanına gəlmişdik. Yanımdakı kişi səninlə söhbət etdi. Nə danışdığınızı izah edə bilərsənmi? Onları mənə de, istədiyini verim.

Qız:

– Razıyam. Hər cavaba on qızıl verərsən.

Vəzir razılaşır. Qız izah edir:

– O kişi məndən atamı soruşanda "Azı çox etməyə gedib" dedim. Atam cütçüdü, toxum əkməyə gedib.

Vəzir on qızıl verir. Qız davam edir:

– "Anam biri iki etməyə getdi" deyəndə anamın hamilə olduğunu, doğuma getdiyini anlatmaq istədim.

Qız vəzirdən on qızıl da alıb davam edir:

– Kişi "Eviniz gözəldi, amma bacası əyridi" deyəndə mənim gözəl olduğumu, amma gözlərimin çaş olduğunu deyirdi. Mən də: "Bacası əyridir, amma dumanı düz çıxar" deyərək çaş olsam da, gözlərim yaxşı görür demək istədim.

Vəzir qıza on qızıl verib:

– Yaxşı, "Sənə bir qaz yollasam, yolarsanmı?" nə deməkdi?

Qız təbəssümlə:

– O qaz da sizsiniz, deyə cavab verir (10).

Bu kimi mükamilələr Azərbaycan nağılları, el məsəlləri və lətifələrində dəfələrlə təkrarlanır və müxtəlif fərdlərin konseptosferlərinin fərqli olduğunu bariz göstərir və bunu söyləməyə əsas verir: 1) ünsiyyətə girənlərin konseptosferləri arasında oxşarlıq, yaxınlıq olmasa, onların ünsiyyəti iki karın söhbətindəki kimi olar; 2) dil və mədəniyyətin qarşılıqlı əlaqəsi və birgə mövcudluğunda əsas amil təfəkkürdür. Gerçəkliyin predmet və hadisələri təfəkkürdən keçib "tanınır", dildə adını alır və təfəkkür vasitəsilə formalaşaraq mədəni informasiya kimi dildə əksini tapır. Bu da göstərir ki, onları bir-birindən təcrid olunmuş şəkildə nəzərdən keçirmək, öyrənmək düzgün deyil, çünki onlar eyni bir "zəncirin" həlqələridir.

Ədəbiyyat

1. Aydəmirova A. Dil və mədəniyyətin qarşılıqlı münasibətləri linqvokulturoloji problem kimi // Elmi xəbərlər. Azərbaycan Dillər Universiteti. 2014.- № 2- s.43-49

2. Aydəmirova A. Linqvokulturologiya yeni elm sahəsi kimi // Dil və ədəbiyyat. Azərbaycan Dillər Universiteti. 2013 - № 1 - s.122-127.

3. Cahangirov F., Quliyeva N. Koqnitivlik və diskurs məsələsinə dair bəzi qeydlər. Koqnitiv və tətbiqi dilçiliyin aktual problemləri. Beynəlxalq elmi konfransın tezisləri. Bakı, ADU, 20-21 oktyabr, 2016.

4. Актуальные проблемы американистики: Материалы 6 международного научного семинара "Российско-американские отношения: исторический ракурс и перспективы", Российская ассоциация международных исследований; под общ. ред. Колобова О.А. - Н. Новгород: ИФ ННГУ, 2001. - С. 342-343.

5. Алимжанова Г.М. Сопоставительная лингвокультурология: взаимодействие языка, культуры и человека / http: //gendocs.ru/v25157 /алимжанова_г. м._сопоставительная_ лингвокультурология

6. Воробьёв В.В. О понятии лингвокультурологии и её компонентах. - Язык и культура. - Киев - 1993.- С. 47

7. Воробьёв В.В. Сопоставительная лингвокультурология как новое научное направление // Вестник Российского университета дружбы народов. Серия Русский и иностранный языки и методика их преподавания. - 2012. - №2. - С. 13.

8. Маслова В.А. Лингвокультурология: Учеб пособие для студентов высших учеб. заведений. - М.: Академия, 2001.

9. https://royallib.com/book/azimov_ayzek/osnovanie_i_zemlya.html

10. http://kamilinfo.net/?p=984

Ф.С.Салимова

Язык и культура и нити, связующие их

Резюме

В настоящее время пристальное внимание уделяется на связь языка и культуры и тому, как происходит процесс образования картины мира в сознании человека, как зашифровывается усвоенное знание в словах, а затем реализуется в речи и доносится до другого (других) носителя языка. При этом на конкретном примере из азербайджанской народной сказки показывается, что восприятие «послания» адресата лишь пройдя через концептосферу адресанта, т.е. пройдя в его мышлении процесс распознавания, расшифровывается соответствующим образом. Язык и культура тесно взаимосвязаны, но при этом ключевым является мышление, посредством которого происходит узнавание и познавание действительности. Отмечается, что при исследовании языка и культуры, их взаимосвязи, на процесс мышления почти внимание не уделяется. Утверждается, что если между концептосферами коммуникантов нет соответствия, взаимопонимание между ними проблематично, и что основным связующим звеном между языком и культурой является мышление.

F.S.Salimova

Language and culture and the threads connecting them

Summary

Nowadays, close attention is paid to the connection between language and culture and how the process of forming a picture of the world takes place in a person's mind, how the acquired knowledge is encrypted in words, and then implemented in speech and conveyed to another (other) native speaker.

At the same time, using a concrete example from an Azerbaijani folk tale, we can see that the perception of the addressee's "message" only after passing through the addressee's conceptual sphere, i.e., after passing through the recognition process in his thinking, is deciphered accordingly.

Language and culture are closely interrelated, but the key is thinking, by means of which there is recognition and cognition of reality. It is noted that in the study of language and culture, in the study of their interrelationships, almost no attention is paid to the process of thinking. It is claimed that if there is no correspondence between the conceptual spheres of communicants then mutual understanding between them is problematic, and that the main connecting link between language and culture is thinking.

Rəyçi: filol.f.d. A.Seyidova

Redaksiyaya daxil olub: 26.10.2021

G.E.TAHİRZADƏ
e-mail: gunay802002@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MƏTNİN FORMALAŞMASINDA MORFOLOJİ VASİTƏLƏRİN ROLU

Açar sözlər: *aktuallaşma, sintaktik kateqoriya, mətn, morfoloji amillər, reduplikasiya*
Ключевые слова: *актуализация, синтаксическая категория, текст, морфологические факторы, редупликация*
Key words: *actualization, syntactic category, text, morphological factors, reduplication*

Müxtəlifsistemli dillərdə olduğu kimi ingilis və Azərbaycan dillərində də mətnin formalaşmasında nəinki intonasiya və söz sırası, həm də formal-qrammatik vasitələr böyük rol oynayır. Söz sırasının aktuallaşması mətnin həm kommunikativ, həm də informativ planda formalaşmasına səbəb olur. Aktuallaşma cümlədə söz sırasının subyektiv reallaşması və obyektiv ardıcıllığının pozulması anlamına gətirib çıxarır.

Obyektiv söz sırası deyərkən müəyyən dil üçün invariant söz sırası nəzərdə tutulur. Qeyd edək ki, mətnin formalaşmasında formal-qrammatik vasitələrin rolu həm də əvəzsizdir.

Bildiyimiz kimi mətn ayrı-ayrı cümlələr toplusu sayıla bilməz. Bir çox müəlliflər sintaktik kateqoriya kimi özünü göstərən mətni ümumi semantik və formal əlaqələrlə birləşən iki və daha çox cümlənin birliyi kimi qəbul edirlər. Bu şəkildə müəyyənləşdirmə zamanı onlar, əslində, tekst termininin ilkin leksik mənasından çıxış etmiş olurlar. Amerikalı linqvist Con Kox mətnlə bağlı belə bir yanaşma irəli sürür: ”Zaman və məkanda təşkil olunmuş bir bütövü nəzərdə tutan hər hansı cümlələr ardıcıllığını mətn kimi qəbul etmək mümkündür” (1, s.202)

Digər mətn tədqiqatçısı Y.Kelemenin belə hesab edir ki, cümlələrin birliyi öz-özlüyündə hələ mətn yaratmır. Burada mütləq təşkiledici prinsip olmalıdır ki, onun da əsasında mətn son dərəcə özünəməxsus, başqa təşkiledici vahidlərə bölünməyən ancaq öz-özünə bərabər olan bir birlik kimi ortaya çıxsın. (2, s.99)

Deməli, mətni formalaşdıran cümlələr bir-birilə səbəb, nəticə, qarşılaşdırma, müqayisə, zaman və s. məna münasibətlərində olur. Dilçi tədqiqatçıların əsərlərini nəzərdən keçirdikdə görürük ki, onların əksəriyyəti mətni mənanın və müəyyən struktur qanunauyğunluqların birləşməsindən əmələ gələn cümlələr qrupu kimi müəyyənləşdirirlər. Mətndəki cümələlər müəyyən məntiqi ardıcıllıqla, qanunauyğun şəkildə sıralanır. Mətndə olan cümlələrin biri digəri üçün şərt, başqa birisi digərinin nəticəsi, davamı və s. olur. Həmin zəncir biri digərindən asılı olan fikirlərin vəhdətidir (3, s.119). Hətta eyni cümlə modeli öz assosiativ semantik xüsusiyyətlərinə görə müxtəlif mətnlərin tərkibində özünü müxtəlif cür aparır, başqa sözlə desək, mətn daha yüksək təşkil olunmuş sintaktik vahid olmaq etibarilə, öz tərkibində olan cümlənin semantik və assosiativ strukturunu istədiyi şəkildə dəyişdirmə gücünə malikdir (4, s.101).

Mətnyaradan formal-qrammatik vasitələr dedikdə qrammatik və leksik elementlər, sintaktik vasitələr, xüsusi növ modal sözlər, əvəzliklər, ədatlar və s. nəzərdə tutulur. Eyni zamanda adları çəkilən bu mətnyaradan elementlər həm də mətnin sərhədlərinin müəyyənləşdirilməsində böyük rol oynayır.

Mətnin təşkilində mühüm rol oynayan morfoloji amillər aktuallaşmanı qabartdıqlarına görə onlar dildə **aktualizatorlar** adlanır. Aktualizatorlar cümləyə daxil olduqda bu zaman söz sırası artıq aktuallaşmağı qabardan üsul kimi öz əhəmiyyətini itirir. Əsas yükü aktualizator çəkir, yəni remanı göstərən əsas əlamət məhz aktualizator olur.

İndi isə, bir sıra aktualizatorların cümlədə işlənmə yerini keçirək:

"Ancaq", "yalnız", "fəqət" aktualizatorları – bu köməkçi sözlər semantik planda aid olduqları cümlə üzvünün funksional mənasını daraldaraq onların xüsusiləşməsinə, yəni remalaşmasına şərait yaradırlar. Məsələn,

Bilirsən, mən ancaq Səliminn irəli sürdüyü fikri dəstəkləyirəm?

Yalnız böyüklər bu problemin çıxış yolunu bilirlər.

Verilən nümunələrdən göründüyü kimi, köməkçi sözlər aktualizator kimi işlənərkən funksional baxımdan bir-birindən fərqlənmirlər və onların birini digəri ilə əvəz etmək mümkündür.

Azərbaycan dilində olduğu kimi, ingilis dilində də bu və ya digər cümlə üzvünün rema kimi çıxış etməsində, müəyyən məna çalarlarının verilməsində ədatlar mühüm rol oynayır. Bunlardan qüvvətləndirici ədatlar *just, even,* eləcə də *namely, such as,* mübtədanın əvvəlində işlənərək remalaşdırma funksiyasını yerinə yetirir. Bu ədatlar aid olduğu mübtədanın mənasını ya qüvvətləndirir, ya da məhdudlaşdırır, ya da inkar edir. İşlənmə dairəsinə görə ingilis dilində mübtədanın qarşısında nisbətən çox işlənən remalaşdırıcılar *"only"* və *"even"* ədatlarıdır. Məsələn,

John's only reaction was to come out of the room and say nothing. Even he knew the solution to the problem he thought it as a trifle thing.

"Even" ədatı da ingilis dilində nəqli, təsdiq və inkar, mövcudiyyət bildirən there is, there are ifadəli cümlələrdə mübtəda remanın əvvəlində işlənir.

Yeri gəlmişkən qeyd edək ki, modal sözlərin aktuallaşmağa xidmət göstərən vasitələr kimi özünü göstərməsi müşahidə edilir. İlk baxışda modal sözlər də sanki cümlələrdəki sintaktik mövqeyinə görə şərait yarada bilir. Modal sözlər prinsip etibarilə aktuallaşmağa xidmət göstərə bilməz. Çünki modal sözlər cümlənin konkret bir üzvü ilə deyil, bütövlükdə bütün tərkibi ilə əlaqəyə girir. İşlənmə mövqeyindən asılı olmayaraq cümlənin bütün məzmununa aid olurlar. Aktualizator kimi ayırdığımız elementlər isə ən müxtəlif nitq hissələrinə aid olsalar da, aid olduqları üzvlərdən əvvəl və ya sonra işlənsələr də, bir cümlə üzvünün informasiyasının gərginləşməsinə xidmət edirlər.

Reduplikasiya aktualizator funksiyasında: qeyd etmək lazımdır ki, cümlə üzvünün reduplikasiyası da aktualizator kimi özünü göstərir. Reduplikasiya nədir? Reduplikasiya cümlə üzvünün cümlə daxilindəki təkrarına deyilir. Məsələn, böyük və böyük-böyük; çox və lap çox; gözəl və gözəl-gözəl və s.

Göründüyü kimi, cümlə üzvünün ikiləşməsi ona diqqəti artırır, diqqəti bir qədər də çox onun üzərində saxlayır və onu cümlənin digər üzvləri arasından seçib ayırır, remalaşdırır. Məsələn, *Böyük-böyük kişilər heç sənin kimi danışmır.*

Bu cümlədə ən neytral vəziyyətdə istər-istəməz diqqət *böyük-böyük* üzvünün üzərində sanki ilişib qalır. Bu təkrar cümlənin əsas mərkəzinə dönür. Bəzən reduplikasiyaya uğrayan cümlə üzvünün təkrar komponentləri arasına bəzən şiddətləndirici ədatlar da daxil ola bilir ki, bunun özü də, bizim fikrimizcə, bu cümlə üzvünün xüsusi olaraq, quruluşundan və təbii olaraq remalaşmasından xəbər verir. Belə şiddətləndirici ədatlara "lap" ədatını misal gətirmək olar.

Nifrət edirəm, lap çox nifrət edirəm sənə, bunu bil!

Həm Azərbaycan, həm də ingilis dilində mətnyaratmaya xidmət edən morfoloji vasitələrdən biri də "nəhayət" modal sözüdür. Bu aktualizator mətndə nəticə və davamiyyət anlami ifadə edir. Azərbaycan dili mətnlərində "nəhayət" aktualizatoru sıralanmada cümlənin əvvəlində işlənir. Məsələn:

Nəhayət, son mərhələ normadan bir addım da o tərəfə ayaq basmaqla ölçülür.

At last he tried to stand up and went away.

Hər iki dildə bu modal söz mətndəki mənanın açılmasında müəyyən rol oynayır.

Azərbaycan dilində olduğu kimi, ingilis dilində də bu və ya digər cümlə üvlərinin rema kimi çıxış etməsində, müəyyən mətnyaratmaya xidmət edən digər morfoloji vasitələrdən olan bağlayıcıların işlənməsinə nəzər yetirək:

Bildiyimiz kimi bağlayıcılar mətni təşkil edən söz və cümlələri bir-birinə bağlayır və bütöv sintaktik tama çevirir. Bununla yanaşı qeyd olunmalıdır ki, dildə mövcud olan bütün bağlayıcılar və söz birləşmələri mətnin təşkilində iştirak edir.

İrihəcmli mətnləri və mətn komponentlərini bir-biri ilə əlaqələndirən ən dinamik morfoloji vasitələrdən biri də "və" bağlayıcısıdır. Bu bağlayıcını məhsuldar bağlayıcı hesab etmək olar, çünki "və" bağlayıcısı feili sifət və feili bağlama tərkiblərinin daxilindəki həmcins üzvlər arasında əlaqə yaratmaqla yanaşı, komponentlər arasında məna münasibətləri ilə müvafiq işlənərək mürəkkəb tam, birləşmiş cümlə daxilində sərhəd rolunu oynayır. Bundan əlavə, cümlənin həmcins üzvləri, sadə və mürəkkəb cümlələr, tabesiz mürəkkəb cümlənin hissələri arasında, ikinci və üçüncü növ təyini söz birləşməsinin tərəfləri arasında əlaqə yaradır.

Çevik element olaraq "və" bağlayıcısı mətnin əvvəlində və ortasında işlənməklə nəticə hissəsində nəticə mənasının açılmasına kömək edir. Məsələn:

Sənin nəzərdə tutduğun problemin həlli yolunda bir sıra obyektiv və subyektiv maneələr ortaya çıxır.

Və bu da son. Sözün bitdiyi yer!

And I can add that he never interferes in other people's affairs.

Mike put the basket on the table and went away.

Qeyd edək ki, "və" aktualizatoru mətn komponentləri arasında təkrarlanaraq, cümlə və digər sintaktik vahidləri həm qrammatik, həm də semantik cəhətdən bir-birinə bağlayır, beləliklə də, fikri bir nöqtəyə cəmləşdirir.

Əgər "və" aktualizatoru üç dəfə təkrar olunursa onda mətnin real semantik tutumu çərçivəsində söyləmlər arasında məna əlaqələri məntiqi şəkildə qurulur.

Məsələn: *I entered the room and greeted the guests, and Kate and Jim were there too.*

Göründüyü kimi, köməkçi nitq hissələrindən olan bağlayıcılar, ədatlar, qoşmalar, modal sözlər mətnin komponentləri arasında formal-qrammatik elementlər kimi iştirak etməklə mətnin mənasının açılmasında və əlaqəli mətnlərin təşkilində birbaşa fəal rol oynayır. Ədat və modal sözlər nitqin subyektiv tutumunu üzə çıxarmaqda mühüm rola malikdir. Modal sözlər nəinki özündən sonra gələn bir sözə və ya söz birləşməsinə, eləcə də bütün cümlənin intonativ strukturuna aksentli təsir edə bilir.

Deyilənlərdən aydın olur ki, istər ingilis, istərsə də Azərbaycan dilində mövcud olan sabit mətnlər bağlayıcıların köməyi ilə formalaşır və müxtəlif informativ mərkəzlər arasında əlaqə yaratmaqla bərabər, məntiqi-semantik əlaqələri reallaşdırır, mövcud münasibətləri dəqiqləşdirir və istiqamətləndirir. Mətni yaradan söyləmlərin hər biri semantik-qrammatik münasibətlər əsasında təmasda olduğu cümlə ilə əlaqəyə girir. Bununla yanaşı komponentlərin daha geniş informasiya mənbəyi kimi qruplaşan qütblərini bağlamaqda isə bağlayıcıların rolu əvəzsizdir.

Ədəbiyyat

1. John Koch. The Celts: History, Life and Culture. Oxbow Books, 2016
2. Келемен Я. Текст и назначение. Ленинград, 1977.
3. Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs. Bakı, 2011
4. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, 1999.

Г.Э.Тахирзаде

Роль морфологических средств в формировании текстов

Резюме

Актуализация словосочетания приводит к формированию текста как в коммуникативном, так и в информативном плане. Актуализация приводит к субъективному осознанию смысла словосочетания и нарушению объективной последовательности. Формально-грамматические средства из текста включают грамматические и лексические элементы, синтаксические средства, особые типы модальных слов, местоимения, обычаи и т. д . Это предназначено. В то же

время элементы этого текста также играют важную роль в определении границ текста. Морфологические факторы, играющие важную роль в организации текста, в языке называются актуализаторами, потому что они преувеличивают актуализацию. Когда актуализаторы вводят предложение, порядок слов теряет свою актуальность как метод чрезмерной актуализации. Основную нагрузку несет актуализатор, т.е. основным признаком ремы актуализатор является.

G.E.Tahirzadeh

The role of morpholocial means in the formation of text

Summary

The actualization of the phrase leads to the formation of the text both in the communicative and informative terms. Actualization leads to a subjective understanding of the meaning of the phrase and a violation of the objective sequence. Formal-grammatical means from text include grammatical and lexical elements, syntactic means, special types of modal words, pronouns, usages, etc. This is intended. At the same time, the elements of this text also play an important role in defining the boundaries of the text. Morphological factors that play an important role in the organization of the text are called actualizers in the language, because they exaggerate actualization. When actualizers introduce a sentence, word order loses its relevance as a method of over-actualization. The main load is carried by the actualizer, i.e. the main feature of the rema is the actualizer.

Rəyçi: filol.e.d., prof. Ç.Qaraşarlı

Redaksiyaya daxil olub: 26.11.2021

G.F.YUSİBOVA

DOI:10.48652/e5510-7180-5259-n

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

MÜRƏKKƏB SİNTAKTİK BÜTÖVLƏR VƏ YADDAŞ

Açar sözlər: *MSB, yaddaş, aktuallaşma, freymlər, sxemlər.*
Ключевые слова: *ССЦ, память, актуализация, фреймы, схемы.*
Key words: *CSU, memory, actualization, frames, schemes.*

Psixolinqvistikanın əsas kateqotiyalarından biri də yaddaşdır. Yaddaş insan fəaliyyətinin mahiyyətini – həyat təcrübəsini, elmi və məişət təcrübəsini, ümumən desək, mədəniyyəti özündə yaşadan psixoloji fenomendir. İnsanın qeyd olunan fəaliyyət sahəsində ünsiyyəti təmin edən nitqin törəməsi və qavranılması, uşaq nitqinin formalaşması, nitqin hansısa sosioloji sferada optimallaşdırılması yaddaş faktoru ilə bağlıdır. Yaddaş biliyin qorunub saxlanılması və gələcək nəslə ötürülməsi, fəaliyyət obrazlarının yaradılması, qorunub saxlanılan biliyin işlənilməsi və s. problemlərin fəaliyyət bazasıdır, onun çıxış nöqtəsidir. Psixoloqlar yaddaşın bir çox növlərini müəyyənləşdirmişlər. Məsələn, genetik yaddaş, biliyin yaddaşı, ruhun yaddaşı, situasiyanın yaddaşı, hadisələrin, sosial davranışın, yaddaşı, motor yaddaş, emosional yaddaş, dil yaddaşı və s. (5).

İnsanın mədəniyyəti, hansısa cəmiyyətə aid qanun kodeksi, dil kollektivində davranışı, müdrik sözlər, poeziya və s. yaddaş sisteminə aid olan mnemik yaddaşa aiddir. Adətən, yaddaşda mühafizə olunanlar keçmişlə bağlı olduğundan keçmiş zamanda verilir. Yaddaşla dil bir-biri ilə üzvi şəkildə bağlıdır. Hətta insan səssiz fikirləşirsə də, şüur forması kimi onun yaddaşında saxlanılan dil quruluşu və onun balansında olan dil vasitələri qeyi-verbal vəziyyət-də olsa da, mühüm rola malikdir. Yadasalma və unutmadan danışarkən L.S.Vıqotski və A.N.Leontyev belə hesab edirlər ki, yaddaşın formalaşma prinsipində xarici və daxili faktorlar baza rolunu oynayır. Bəşəriyyət tarixi-mədəni fəaliyyəti dövründə çalışmışdır ki, gördüklə-rini, şahidi olduqlarını öz bioloji yaddaşına tabe etsin və ya oraya köçürsün. Tarixi-mədəni in-kişafda yaddaşın formalaşmasının və inkişafının iki parametri xüsusi olaraq fərqləndirilir: yaddaşın natural psixi funksiyası və ali psixi funksiya kimi. Yaddaş ali psixi funksiya kimi tarixi-sosial mahiyyət daşıyır. L.S.Vıqotski belə hesab edir ki, yaddaş semantik kodlaşmadır. Yaddaş strukturuna görə yaddaşayazma və xatırlamaya bölünür. Qeyd olunan bu iki faktor bir-biri ilə sıx bağlıdır. Yaddaşayazma tarixi-mədəni inkişaf məsələlərini əhatə etməklə insa-nın sosial mühitdə normal fəaliyyətinin təmin olunmasıdır. Psixoloqlar xatırlamanın mərhələ-lərindən danışırlar. Məsələn, onlar birinci mərhələyə insanın tarixi-mədəni inkişafı prosesində bioloji yaddaşı öz məqsədlərinə tabe edən vasitə və üsullar işlməsindən bəhs edirlər. Hecala-rın və ya sözlərin assosiasiyalarının qurulması bu mərhələ üçün əsas əlamətdir. İkinci mərhələ isə fərdlərin yaddaşının formalaşması ilə bağlıdır (2).

Yaddaşın inkişafının iki istiqaməti vardır:

1. Qıcıq yaradan xarici vasitələrin təkmilləşməsi;
2. Bu vasitələrin daxili formasının yaranması – daxili məntiqi yaddaşın inkişafı).

Ali məntiqi yaddaşın formalaşması psixi proseslər fonunda dinamik fenomendir, orada mühafizə olunan biliklər, həyat təcrübəsi ünsiyyət prosesində qurulan informasiyaların təcrü-bə bazasıdır:

"***Dəmir ağacdan asılan beşik.*** *Daşın uzü soyuq olur. Nə Günəş şüası ilə qızır, nə insan hənirtisi ilə isinir. Bu soyuq, qara, üzü parıltılı daş bir deyildi, iki deyildi... Minlərlə daşı*

çaylaqlardan götürmüşdülər, karxanalarda yonmuşdular, qabar gücünə, taqətdən düşən diz hesabına dağın sıldırım yalına qaldırmışdılar. Burada yumurta sarısından yoğrulan palçıqla biri-birinə bənd etmişdilər. Bürclər ucaltmışdılar, tağlı darvazalar hörmüşdülər, işıqsız zindanlar qurmuşdular. Buludlara ilişib onları yun əlçimi kimi parçalayan qaya da buz kimi soyuq idi. Quzey divarı çayın sahilindən qartal uçuşu hündürlüyünə qalxan qayanın zirvəsində bünövrə tutmuşdu. Oradan da iyirmi beş, otuz qulac qalxırdı. Ensiz, uzun pəncərəsi lap yuxarıdaydı. Divarı mamır basmışdı, pəncərədən az aralıda daşların arasından dağdağan kolu bitib aşağı sallanmışdı. Pəncərənin yoğun dəmir barmaqlığını pas basmış, pasın üstünü isə daş xınası örtmüşdü.

Pəncərənin aşağısı nov kimi yarıq idi. Bu pəncərədən aşağıya baxmaq hər adamın işi deyildi. Aşağılarda səsi eşidilən çayı həmişə görmək mümkün deyildi. Duman dərəyə yüngül, ağ pərdə çəkirdi. Bəzən də elə qalınlaşırdı ki, sanki o dərələr ağızbaağız qarla dolub .Düz baxanda meşəli təpələr, dağlar görünürdü. Bu meşələrin üstündə isə bir zirvə ucalırdı. Başı kəllə qəndə oxşayırdı, aşağı getdikcə qarlı şırımlar açılırdı. Nəhəng ağ saqqallı bu zirvə Savalan dağı idi.

– Ana, Savalanın zirvəsinə çıxsan hara görünər?

– Sən ora çıxa bilməzsən, oğlum. Çox ucadı.

– De görüm hara görünər?

– Haranı görmək istəyirsən, oğlum?

*– **Bu yanda Təbrizi, o yanda Dəmir qapı Dərbəndi.***

Aləmşahbəyim ağlayırdı. Ceyran gözlərindən – qarası mavi, ağı boynundakı "Emruzi bikr"incisi kimi ağ yaş axırdı. O incinin danələrinə bənzəyən gilələr yuvarlanıb düşürdü. Amma yanaqlarında kədər əvəzinə şuxluq, alnında, çatma qaşları arasındakı düyündə ağrı əvəzinə qürur hissi vardı.

– Niyə ağlayırsan, ana? Qorxursan yıxılam?

– Yıxılmağından qorxmuram, oğul. Sənin Savalana çıxmağını gözlərimin qabağına gətirəndə sevindiyimdən ürəyim kövrəldi.

– Adam sevindiyindən də ağlayarmı, ana?

– Ağlayar, oğlum, ağlayar.

– Onda məni Savalana kimi apar, ətəyinə çatdır, özüm qalxacağam.

Проблеме развития устной речи посвящены труды видных советских методистов К.Б.Бархина, В.В.Голубкова, А.В.Текучева, Т.А.Ладыженской, Л.П.Федоренко и многих других ученых. В их работах освещены важные приемы и формы работы, позволяющие успешно решать вопросы развития речи на уроках русского языка. Так, к примеру, в формировании навыков связной речи, по мнению Т.А.Ладыженской (3; 4), определяющее значение должно отводиться работе над отдельными коммуникативными умениями (умение раскрывать тему высказывания, его основную мысль, собирать материал к высказыванию, систематизировать собранный к высказыванию материал, строить высказывание в определенной композиционной форме).

Многие положения и рекомендации, содержащиеся в трудах названных методистов, по вопросу развития устной связной речи русских учащихся могут успешно применяться и применяются (с некоторой коррекцией) в национальной школе и вуза.

Важным вкладом в методику преподавания русского языка азербайджанским студентам, где вопрос развития русской речи был и остается одним из центральных, явились труды таких ученых-методистов, как А.В.Миртов, В.М.Чистяков, П.И.Харакоз, М.А.Зальдинер, М.Н.Мангадаев, К.В.Мальцева и других.

Методика преподавания русского языка в азербайджанском вузе находится в тесной связи с методикой преподавания иностранного языка, а также с методикой преподавания русского языка студентам. Это в первую очередь касается методики работы по развитию речи студентов-иностранцев с учетом специальности, работы с типовыми текстами, речевыми ситуациями и т.д.

Среди ряда причин слабого владения студентами устной монологической речью мы называем следующие:

1. Неразработанность в достаточной степени проблемы развития устной связной речи в методической литературе и как следствие этого – отсутствие учебников, учебных пособий, составленных в соответствии с современными научно-методическими требованиями обучения русскому языку азербайджанских студентов.

2. Неадекватность используемых на занятиях по русскому языку упражнений, преобладание языковых упражнений и отсутствие, в частности, упражнений, формирующих собственно речевые навыки и умения.

3. Недостаточное внимание преподавателей русского языка к развитию русской речи студентов на материале текстов по специальности, в частности – однообразие методических приемов, используемых ими при работе над текстов.

Ответы студентов (в эксперименте принимали участие в основном студенты вторых курсов) записывались на магнитофонную ленту и анализировалась с точки зрения содержательности и композиционной организации речевого материала.

Для проверки степени владения устной монологической речью студентами были избраны такие виды речевой деятельности, как пересказ и рассказывание. Мы пользовались следующими показателями, характеризующими уровень развития русской связной речи студентов:

1) умение понять характер темы высказывания (текста) и определить ее границы;

2) умение выделить основную мысль высказывания;

8) умение изложить мысли в определенной логической последовательности;

4) умение логически верно соединить предложения в связное целое;

5) умение завершить высказывание.

Данные, полученные в результате проведенного эксперимента, позволили выделить следующие виды речевых ошибок студентов:

1. Неумение определить содержание высказывания, представить себе те факты, события, о которых надлежит говорить. Это проявляется в отклонении от заданной темы, фиксации внимания на второстепенных детелях, мало касабщихся темы. В результате, высказывания студентов недостаточны по объему и не раскрывают темы (правильнее ответы – 77,5% по отношению к общему числу студентов, охваченных экспериментом).

2. Отсутствие единого замысла высказывания, неумение подчинитъ ему все имеющееся содержание (правильные ответы – 20,6%).

3. Нарушение стройности, последовательности при передаче содержания, что проявляется в неожиданных переходах от одной мысли к другой, возврату к прежней и т.д. (правильные ответы – 65,5 %).

4. Неумелое использование языковых средств связи, что объединяет речь, лишает ее связности, нарушает логичность, плавность (правильные ответы – 22,4%).

Введением к методике обучения азербайджанских студентов устной монологической речи на материале текстов по специальности явилось краткое изложение психолого-дидактических основ развития речи азербайджанских студентов.

Нам представляется возможной организация обучения устной научной речи студентов на материале письменных источников, поскольку научный монолог характерен как для письменной, так и для устной речи, к тому же устная научная речь производив от письменной (5, с.67). Как и письменная, устная научная монологическая речь характеризуется строгим, логическим изложением мысли, точностью языковых средств (лексика научного стиля устной и письменной речи используется в ее прямом, предметно-логичееком значении), отсутствием эмоционально-экспрессивной окраски, изобразительно-выразительных средств. Конечно, при обучении необходимо считаться и с речевыми особенностями, обусловленными характером устного существования научной речи.

Исходя из требований, предъявляемых к целостному монологическому высказыванию, а также из современного понимания синтаксиса как учения о словосочетании, предложении и структуре целого текста, мы построили систему упражнений, неправленных на формирование тех речевых умений, без которых невозможно построение любого монологического высказывания.

Согласно принятым нами трем этапам в процессе формирования навыков монологической речи, нам представляется целесообразным выделение упражнений трех типов: языковых, рече-подготовительных и речевых. Методическое обоснование системы упражнений сводилось к тому, что упражнении располагались в определенной последовательности, а именно, умения, приобретенные во время выполнения упражнений I этапа, являлись условием для перехода к упражнениям II этапа, умения, приобретенные во время выполнения упражнений II этапа, являлись условием для выполнения упражнений III этапа. Такая последовательность в выполнении предлагаемых упражнений позволяла формировать навык порождения монологического высказывания поэтапно.

Языковые упражнения (I этап). По нашему мнению языковые упражнения должны носить коммуникативную направленность, так как выполнение языковых упражнений, носящих коммуникативную направленность, создает предпосылки для формирования более прочных речевых умений и навыков.

Изучение особенностей как письменной, так и устной формы научной речи, лингвистический анализ текстов из учебников по специальности студентов показали, что для овладения устной научной монологической речью необходимо;

1) знать основные лексические единицы терминологического характера;

2) знать правила образования отглагольных существительных;

3) знать различные варианты определения предмета, явления, процесса и т.д.;

4) уметь строить предложения, содержание конструкции с составным именным и составным глагольным сказуемым;

5) использовать в своей речи односоставные предложения;

6) владеть практическими навыками использования сложных конструкций, выражающих различные отношения (условные, причинно-следственные, сравнительно-сопоставительные и др.). Уметь трансформировать сложные предложения в простые;

7) уметь осуществлять замены (если позволяют грамматические условия) предложно-падежных сочетаний предложениями и наоборот;

8) владеть практическими навыками построения предложений с причастными оборотами, уметь трансформировать их в придаточные предложения.

Рече-подготовительные упражнения (II этап). Для успешного обучения связной научной речи необходимо выявить и четко представить себе все компоненты, обеспечивеющие функционирование говорения (устной речи) как вида речевой деятельности и, следовательно, составляющие объект обучения. Данный вид упражнений позволяет формировать умения, овладение которыми позволит отудентам строить собственные монологические высказывания. Это: а) умение определить тему высказывания, б) умение выделить основную мысль высказывания, в) умение видеть структуру текста, составляющие его компоненты, г) умение, определить средства связи, обусловливающие логические переходы от одной мысли к другой и объединяющие высказываемые мысли в одно связное целое.

Литература

1. Леонтьев А.А. Некоторые проблемы обучения русскому языку как иностранному (психолингвистические очерки). М., изд-во Московского ун-та, 1970.

2. Виноградов В.В. Стилистика. Теория поэтической речи. Поэтика. М., изд-во АН СССР, 1963.

3. Ладыженская Т.А. Система работы по развитию связной устной речи учащихся. М., «Педагогика», 1975.

4. Определьные уровня развития связной речи учащихся. В сб.: «Исследование по развитию связной речи учащихся». Под ред. Т.А.Ледыженской. М., «Педагогика», 1974.

5. Пумпянский А.Л. О логико-грамматическом членении предложения. «Вопросы языкознания». М., 1972, №2.

K.H.Nəbiyeva

Tələbələrdə şifahi monoloji nitqin inkişafı

Xülasə

Araşdırmanın obyekti olaraq biz şifahi elmi monoloji nitqi seçmişik. Birincisi, elmi nitqə geniş mənada nitqin monoloq forması xasdır, ikincisi, monoloji nitq dioloji nitqlə müqayisədə daha mürəkkəb formadır. Şifahi elmi monoloji nitq fikrin ciddi, məntiqi çatdırılması ilə, dil vasitələrinin (şifahi və yazılı nitqdə elmi üslubun leksikası birbaşa, predmetli – məntiqi mənada istifadə olunur) dəqiqliyi ilə səciyyələnir. Burada emosional-ekspressiv çalarlara, bədii təsvir vasitələrinə yer verilmir. Əlbəttə, tədris zamanı şifahi elmi nitqin xarakteri ilə şərtlənmiş nitq xüsusiyyətləri ilə hesablamaq lazımdır. Elmi nitqin şifahi formalarının, ixtisas üzrə mətnlərin linqvistik təhlili göstərir ki, şifahi elmi monoloji nitqi mənimsəməsi üçün terminoloji xarakterli əsas leksik vahidləri, isimlərin feildən yaranma qaydalarını bilmək, öz nitqində təktərkibli cümlələrdən ismi və feili xəbər konstruksiyalı cümlələrdən və s. istifadə etmək vacibdir. Monoloji nitqin formalaşması üç mərhələdən ibarət olub üç tip tapşırıqlardan istifadə olunur: dil, nitq hazırığı və nitq üzrə tapşırıqlar.

K.H.Nabiyeva

Development of oral monological speech of students

Summary

As the object of we have chosen oral scientific monologue. First, scientific speech is characterized by a monologue form of speech in the broadest sense, and second, monologue speech is a more complex form than diological speech. Oral scientific monologue speech is characterized by a serious, logical delivery of ideas, the accuracy of language means (lexicon of scientific style in oral and written speech is used in a direct, subject-logical sense). Emotional-expressive shades and means of artistic description are not included here. Of course, it is necessary to calculate the characteristics of speech conditioned by the nature of oral scientific speech during teaching. Linguistic analysis of oral forms of scientific speech, texts on the specialty shows that in order to master oral scientific monologue, to know the basic lexical units of terminological nature, to know the rules of formation of nouns from verbs, nouns and verb constructions, etc. It is important to use. The formation of monologue speech consists of three stages, using three types of tasks: language, speech preparation and speech tasks.

Rəyçi: filol.e.d., prof. R.K.Rəsulov

Redaksiyaya daxil olub: 08.12.2021

G.A.ALEKBEROVA
e-mail: milana-milana@bk.ru

Baku Slavic University
(Baku, S.Rustam street, 25)

TRANSLATION PROBLEMS OF PHRASECOLOGICAL UNITS IN ENGLISH

Key words: *phraseological units, classification of phraseological units, translation difficulties, methods of translation, proverbs, idioms*

Açar sözlər: *frazeoloji birləşmələr, frazeoloji birləşmələrin klassifikasiyası, tərcümənin çətinlikləri, tərcümənin metodları, idiomlar, atalar sözü*

Ключевые слова: *фразеологизмы, классификация фразеологизмов, трудности перевода, способы перевода, пословицы, идиомы*

Introduction

This article discusses linguistic features of phraseological units, their classification, difficulties in translation of phraseological units, techniques for their translation .Translation is the process of converting an original text in one language into an identical text in another. L.S. Barkhudarov defines translation as the process of converting a speech work (text) in one language into a speech work in another language while maintaining an unchanged content plan" (1, p.174). However, translation goes beyond simply replacing units of one language with units of another. Various cultures, traditions and customs interact in the process of translation. Translation is a great source of information about the languages involved in the translation process and the cultures to which these languages belong. Many phraseological phrases remind of the events of bygone days. At the same time, the new text should be easy to interpret and comply with all the norms of the language into which it has been translated. Thus, the translator plays an important role as a guide between cultures. According to A.D. Schweitzer: “Translation is not only the interaction of languages, but also the interaction of cultures ... The process of translation“ crosses” not only the boundaries of languages, but also the boundaries of cultures. (2, p.8)

The main part

The process of translating phraseological units is considered as one of the most difficult and controversial tasks in the theory and practice of translation, this process requires a great responsibility from the translator, creative quest, attentiveness and skill. In terms of the study of phraseological units, the creation of an adequate translation, the author's style and style of translation, the reflection of national color in translation and the study of important theoretical problems are of great importance. Translation of phraseological units are of great importance in reflecting the individual author's style in translation. In this regard, it would be advisable to mention the following ideas of the translator Ya. I. Retskir: “When translating for a clear transfer of the author's style, the decisive element is the correct choice of lexical phraseological means”. Thanks to literary translation, the phraseology of the language is enriched. The role of phraseology in reflecting the national spirit expressed in the language of fiction is considered incomparable. In translation activities, the translation of phraseological units takes the main place. Therefore, the translator himself must be personally aware of this problem. The scientific translator A. B. Fedorov considers it expedient to use the following methods when translating phraseological units: 1. Accurate translation of phraseological units with full preservation of the meaning of their structure. 2. With a partial change in the meaning or form of phraseological units of the original 3. The possibility of translating phraseological units by selecting the phraseological units to the originals of their

corresponding analogs in the target language At the direction of the author, in cases of inapplicability of the first and second methods of translating phraseological units, it is considered acceptable to replace them with the expressions available in the target language with a figurative meaning. This method takes a huge place in the translation process. Each expression or phrase used with a figurative meaning is considered valid for the translator. Knowledge of phraseology greatly facilitates the perception of both modern journalism and classical fiction. And the use of phraseological units in colloquial speech makes it more expressive. Phraseological unit is lexically indivisible unit of language, stable semantically related combination words, holistic in meaning, characterized by imagery, expressiveness, stylistic and emotional coloring, completely or partially rethought. Phraseological units have evaluative function, they express the speaker's attitude to one or other object or phenomenon, give speech liveliness and expressiveness and a powerful tool for influencing the audience.

Phraseological units, proverbs and sayings exist in all cultures of the world! For thousands of years, peoples have been polishing their national wisdom, honing their proverbs and sayings, and knowledge of the proverbs and sayings of this or that nation contributes not only to a better knowledge of the language, but also to a better understanding of the way of thinking and character of the people.

Proverbs should be distinguished from sayings. Proverbs are folk utterances that reflect the centuries-old socio-historical experience of the people, having a stable, laconic, rhythmically organized form and instructive meaning. The ubiquity of proverbs is striking - they relate to all objects, invade all areas of human existence, human hopes, thoughts, assessments of neighbors - relatives, neighbors, authorities, small and big bosses, public order, institutions, laws, court, desired and real justice, everyday customs, the course of life, the soul of a person, his health, temper, character, causes and consequences of his various actions. This topic is as vast as the life of the people. Sayings, figurative expressions, turns of speech, aptly defining any phenomena. Unlike proverbs, they are devoid of a generalizing instructive meaning. Proverbs and sayings are a widespread genre of oral folk art. They have accompanied people since ancient times.

Idioms are expressions whose meaning is not equal to the meaning of their constituent words. If you translate idioms verbatim, you get nonsense. For example: "I always get itchy feet at this time of year, in the spring." Literally it will be translated as: "My feet are itching all the time at this time of the year, in the spring", but in fact, it will sound like "I always want to go somewhere at this time of the year, in the spring." There are also idioms in Russian. For example: "You work carelessly!" a foreigner may not understand what exactly this expression means. In idioms, sometimes only in them, there are so many old, now incomprehensible words, and without them the idiom will crumble as an integral unit, and itself will not mean anything. An idiom is the ultimate result of the development of the meaning of whole phrases. They disappear at once, entirely - the whole idiom. And not the individual words that make it up.

English phraseology presents difficulties in translation due to the lack of a standard method for translating phraseological units. The presence of a phraseological dictionary does not guarantee complete reproduction of all shades of the meaning of the structure. Therefore, translators have to look for other methods for translation. One of the most common mistakes a translator makes is the inability to notice phraseological units and their literal translation. Thus, a phraseological unit is often taken for a free combination of words. This leads to gross errors and distortion of the meaning of the statement. “John set a great store by the town where he grew up” - John opened a huge store in the city where he grew up. (Instead of - The City in which John grew up was of great importance to him). “After the resounding success she decided to hang up her ax” - After the resounding success she decided to hang up her ax. (Instead of - After a resounding success, she decided to retire). The next difficulty is the difficulty of perceiving a phraseological unit. The translator should choose the translation

option depending on the context. This is a problem, as the expression can be used with a touch of irony, sarcasm, resentment, bitterness or irritation. Also, the translator should take into account the fact that most of the English phraseological units have polysemy. For example, the expression “to take the floor” in the political sphere means “to take the floor”, “to speak”, and in colloquial speech, “to go dance”. Depending on the situation, “you never can tell” can be translated “how to know” and “what the hell is not joking”. (3, p.136) Often, phraseological units have false counterparts, i.e. phraseological units that coincide with them in form, but completely diverge in content. For example, “wind in the head” - empty imagination, conceit (and not “wind in the head”); “Run smb. to earth ”- to find, get out of the ground (and not“ drive, bury someone in the ground ”); “Stew in one’s own juice” - to suffer because of your own stupidity, to clean up the porridge that you have made yourself (and not “stew in your own juice”). The English expression “to be born with a silver spoon in one’s mouth” is close in meaning to the Russian phraseological unit “to be born in a shirt (shirt)”, i.e be lucky. Often these expressions are given as matches. But the English version cannot be used in the same situations as the Russian one, because means "come from a wealthy family." From a translation point of view, English phraseological units can be divided into two groups: 1. Phraseological units that have equivalents and analogues in Russian. These are Russian expressions and proverbs that coincide with English in content, expressiveness, grammatical composition and stylistic coloring. Such phraseological units include: stable comparisons (“like two peas in a pod” - like two peas in a pod, the Russian equivalent - are similar, like two drops of water; “like a red rag for a bull” - like a red rag for a bull; “As thick as thieves” - you can't spill water), proverbs and sayings (“revenge is sweet” - revenge is sweet; “a first time for everything” - everything happens for the first time; “the road to hell is paved with good intentions "- hell is paved with good intentions), verb phrases (" to take the bull by the horns "- take the bull by the horns;" bite one's tongue "- bite your tongue;" rest on one's laurels "- rest on laurels; "kill time" - kill time; "to be green with envy" - turn green with envy). 2. Non-equivalent phraseological units. Many English expressions have no analogues in Russian. Basically, these are realities that do not exist in our country. For example, "a hot potato" is a matter that you want to get rid of as soon as possible, or a hot topic; “To hear something straight from the horse’s mouth” - to hear first-hand, from a reliable source; “To be the apple of someone’s eye” - to be loved by someone. When translating non-equivalent phraseological units, you can use tracing or descriptive translation (3: p.138). Based on the foregoing, it can be concluded that when translating, the translator must take into account the fact that phraseological units are polysemantic. The translator, understanding the meaning of the statement, can use such translation techniques as interpretation and description, choosing the option depending on the context.

Literature

1. Artemova A.F. English Phraseology. M.; Higher school, 2009. 208
2. LS Barkhudarov. Language and translation. M.: International relations, 1975. 240 p.
3. Interuniversity collection of scientific papers. - Chelyabinsk, 1985.
4. Komissarov V. N. and others. Manual for translation from English into Russian, part I, M., 1960, 118 p.
5. Kunin A. V. English phraseology. M., 1970, 343 p.
6. Schweitzer A.D. Translation theory: Status, problems, aspects. Moscow: Nauka, 1988. 215 p.
7. Shadrin. LN Semantization of PU components as a translation problem - In the book: Phraseological system of the English language
8. Telia V.N.Russian Phraseology. Semantic, pragmatic and linguocultural aspects. M., 1996. 228 p.2

G.Ə.Ələkbərova

İngilis dilində frazeoloji birləşmələrin tərcümə çətinlikləri

Xülasə

Bu məqalə frazeoloji vahidlərin tərcümə problemlərindən bəhs edir. Frazeoloji vahidlərin tərcüməsindəki çətinlikləri araşdırır. Frazeologiyanın 20-ci əsrin əvvəllərindən bəri dilçilərin diqqət mərkəzində olduğunu bildirir. Atalar sözləri və deyimlər frazeoloji vahidlərin qollarıdır. Onlar millətin zəkasının məhsulu sayılır. Məqalədə frazeoloji vahidlər tərcümə edilərkən kontekstin əhəmiyyəti də bildirilir. Kontekstdən asılı olaraq eyni frazeoloji vahidlərin tərcüməsinin fərqli ola biləcəyini iddia edir. Müxtəlif dil mənbələrindən istifadə edərək atalar sözləri ilə deyimlər arasındakı fərqlər də izah edilib. Frazeoloji vahidləri tərcümə edərkən yuxarıda göstərilən üsulların çox vacib olduğu qənaətinə gəlinib. Məqalədə ünsiyyət prosesində frazeoloji vahidlərin, yəni atalar sözləri və deyimlərin əhəmiyyəti də bildirilmişdir.

Г.А.Алекперова

Проблемы перевода фразеологических единиц в английском языке

Резюме

В статье рассматриваются проблемы перевода фразеологизмов. Исследуются проблемы перевода фразеологизмов. В нем говорится, что фразеология находится в центре внимания лингвистов с начала 20 века. Пословицы, поговорки и идиомы - это ответвления фразеологизмов. Они считаются продуктом национального интеллекта. В статье также отмечается важность контекста при переводе фразеологизмов. Утверждается, что в зависимости от контекста перевод одних и тех же фразеологизмов может отличаться. В статье также объясняется различия между пословицами и идиомами, используя различные лингвистические источники .Можно прийти к выводу, что вышеперечисленные приемы очень важны при переводе фразеологизмов. В статье также отмечается важность фразеологизмов, а именно пословиц и идиом в коммуникативном процессе.

Rəyçi: dos. N.O.Babayeva

Redaksiyaya daxil olub: 19.10.2021

İ.ƏLİYEV
e-mail: ilqar-500@mail.ru

Lənkəran Dövlət Universiteti
(Lənkəran şəh., general Həzi Aslanov xiyabanı, 50)

MÜASİR AZƏRBAYCAN NƏSRİNDƏ MİFOPOETİK TƏHKİYƏ STRUKTURU (Yusif Səmədoğlunun "Qətl günü" romanı əsasında)

Açar sözlər: *mifologiya, mifopoetika, mətn strukturu, təhkiyə, Azərbaycan nəsri, Yusif Səmədoğlu, roman*
Ключевые слова: *мифология, мифопоэтика, структура текста, проза, азербайджанская проза, Юсиф Самедоглу, роман*
Key words*: mythology, mythopoetics, text structure, prose, Azerbaijani prose, Yusif Samedoglu, novel*

Postsovet məkanında cərəyan edən ədəbi prosesin səciyyəvi cəhətlərindən biri də bu idi ki, sovet geçəkliyində həyat həqiqətini, obyektiv fikri, eləcə də sosialist ideologiyası ilə üst-üstə düşməyən dəyərləri açıq ifadə etmək mümkün deyildi. Buna görə də yazıçılar və şairlər sətiraltı, şərti, məcazi vasitələrdən istifadə edir, əsərin məzmun və ideyasını alleqorik, rəmzi, işarəvi vasitələrlə oxucuya çatdırırdılar. Bu prosesin siqləti və əhatə genişliyi sayəsində keçmiş sovet respublikalarında xüsusi ədəbi cərəyan olaraq formalaşmış yaradıcılıq meylləri, ilk növbədə, mifoloji qavrayışa əsaslanan şərti-metaforik və ya mifopoetik nəsr təşəkkül tapmışdı. Lakin bu proses yalnız keçmiş sovet və postsovet xalqlarının ədəbiyyatında deyil, Amerika, Avropa və digər regionları da əhatə edirdi. Təbii ki, mifopoetik çalar müxtəlif regionlarda fərqli amillər və bədii-estetik özünəməxsusluqla təzahür edirdi. Bu baxımdan Latın Amerikası ölkələrində, ilk növbədə Q.Q.Markesin yaradıcılığında mifopoetikadan bəhs etdikdə, söhbət yaradıcılıq metod və üslubunu ehtiva edən magik realizmdən gedirdisə, Şərqi Avropa və Sovetlər Birliyində totalitar rejimdə azad sözü və milli idealları ifadə etməyə imkan verən metaforik-məcazi vasitələrin aktuallaşmasından, Qərbi Avropada təhtəlşüur psixoloji intibaların ifadəsindən gedirdi. Bu baxımdan keçmiş sovet respublikalarında Ç.Aytmatov, T.Pulatov, T.Zülfüqarov, V.Rasputin, V.Astafyev, Ç.Amiredjibi, O.Çiladze, B.Şinkuba kimi yazıçıların yaradıcılığında izlənən bu meyl Azərbaycan nəsrində də aşkarlanaraq özünəməxsus ədəbi-estetik hadisə kimi inkişaf edirdi. Bu baxımdan İ.Hüseynov, Anar, Elçin, S.Əhmədli, Y.Səmədoğlu, M.Süleymanlı, K.Abdulla, M.Oruc, E.Hüseynbəyli, N.Əbdürrəhmanlı, İ.Fəhmi kimi bir çox yazıçıların yaradıcılığında aşkarlanan mifopoetik ədəbi meyl və üslub Azərbaycan mühitində ictimai-mənəvi aktuallığı ilə bərabər, həm də milli idealları ifadə edir, beləliklə, çoxqatlı, sinkretik, dinamik xarakter daşıyırdı. Bu xüsusiyyətlər ilk növbədə müəlliflərin cəmiyyətə münasibətində, dünyabaxışında və qavrayış tərzində və beləliklə, təsvir, təhkiyə, nitq, üslubda təzahür edirdi.

Bu deyilənlər baxımından, görkəmli ədib Yusif Səmədoğlunun "Qətl günü" romanı öz novatorluğuna, bədii xüsusiyyətlərinə, məzmun dərinliyinə və çoxmənalılığına görə yeni dövr mifopoetik nəsr nümunəsi kimi maraq doğurur. Əsərin sinkretik təbiəti, burada milli, mənəvi, tarixi və müasir mətləblərin çulğaşması mövcud tədqiqatlarda vurğulanmış, bu məna layları arasında assosiativ əlaqə qeyd olunmuşdur. Professor Asif Hacıyev obrazlılıq və təhkiyə

baxımından "çoxqatlı romanın bədii tamlığının müəllif obrazının fəal qurucu fəaliyyətindən yarandığını... müəllif baxışının çoxcəhətli və polifonik olduğunu, burada acı sarkastik ironiya ilə yüksək patetikanın, çıxılmaz qüssə ilə qanadlandıran şənliyin birləşdiyini" (3, s.40) deyir və mətnin "məna özəyinin şair və hökmdar, repressiya olunmuş yazıçı Sədi Əfəndi və çekist Salahov, xəstə alim-filoloq və titullu ədib Muxtar Kərimli arasında oppozisiyada təcəssüm olunmuş "ürək poeziyası" və "həyat prozası" arasında konfliktdə (hegelvari anlamda)" (yenə orada) aşkarlayır. Eyni zamanda tədqiqatçı bu konfliktin kökünü arxaik türk mifoloji təsəvvürlərində, lider və çıxdaş haqqında süjetlərdə tapır (4, s.110-117).

Tədqiqatçı Günel Əhmədova bu romana həsr olunmuş monoqrafiyasında mətn təhkiyəsinin çaxqatlılığını aparıcı xüsusiyyətlərdən biri kimi tarixi dövrlər, tarix və müasirlik arasında assosiativ əlaqələrə bağlayır: "Əsərdə müxtəlif yaddaş qatlarına müraciət olunmuşdur... milli-mənəvi dəyərlər, tarixi yaddaşda olan ağrılı hadisələr öz əksini tapmışdır... tarixi hadisələr müasir nöqteyi-nəzərdən qiymətləndirilmiş, müxtəlif tarixi dövrlər bir-biri ilə assosiativ əlaqədə göstərilmişdir" (1, s.3).

Fikrimizcə, tədqiqatçıların Y.Səmədoğlunun romamında aşkarladığı dəqiqliklə vurğuladığı bu xüsusiyyətlər tipoloji səciyyə daşıyır və həmin dövrdə nəsr yaradıcılığında gedən qanunauyğun evristik prosesləri – qabaqcıl ədiblərin sosialist realizmindən uzaqlaşaraq, gerçəkliyi, insanın mənəvi və ictimai varlığını geniş dairədə, mədəniyyətin köklü analayışları, bəşəri dəyərlər, universal baxışla təqdimi zərurətindən doğurdu. Bu universal tipologiyanın, bəşəri anlamların qaynağı isə mifologiya idi. Mifologiya və mifopoetik bədii qavrayış tarixin yaratdığı fərqlilikləri, çoxyönlü və çoxqatlı mənaları, baxış və dəyər sistemlərini ortaq məxrəcə gətirməyə, sovet ədəbiyyatının sinfilik və partiyalılığından uzaqlaşaraq, gerçəyi, insanı milli və bəşəri, universal və əbədi mətləblər baxımından dəyərləndirib ifadə etməyə imkan yaradırdı. Yusif Səmədoğlunun "Qətl günü" romanının semantik qatında qeyd olunan bu çoxqatlılıq da məhz buna görə romanın kompozisiya, süjet quruluşunda və ilk növbədə, müəllifin bədii təxəyyülünü, qavrayış və özünüifadə tərzini əks etdirən təhkiyədə təzahür edir.

Keçmiş sovet ədəbiyyatında keçən əsrin 20-30-cu illərində sosialist realizmi metodu zəminində ədəbiyyata yeridilən doqmatik, avtoritar təhkiyə üsulu azad mövqe və düşüncəni, mahiyyətcə milliliyi ("məzmunca sosialist" ədəbiyyatın "formaca milliliyi" ancaq zahiri səciyyə daşıya bilərdi) istisna edirdi. Təbii ki, sətiraltı mənalar, azad fikir məcazi şəkildə sovet imperiyasının bütün dövrlərində milli ruhlu ədiblərin yaradıcılığında ifadə olunurdu. Lakin keçən əsrin 60-cı illərindən realist ədəbi yaradıcılıqda başlayan yeniləşmə, demokratikləşmə 80-ci illərin əvvəllərindən yeni fəlsəfi zəminə və yaradıcılıq meyarlarına əsaslanan, sosialist realizmindən uzaq, bəşəri, milli ruhlu ədəbi meylin, xalq yaradıcılığına, mif və folklordan qaynaqlanan mifopoetik ədəbi istiqaməti yetişdirdi.

Yusif Səmədoğlunun öz dövrünün ədəbi hadisəsinə çevrilmiş "Qətl günü" romanında mif artıq müasir roman mətninin struktur, semantik, praqmatik laylarının əsas amilinə çevrilir. Baba Kaha, Kirlikir kimi mifoloji obrazlar mətnin obrazlar sisteminin fəal ünsür olur. Mifin semantik-funksional rolu da şaxələnir. Bir tərəfdən, tədqiqtçı Günel Əhmədovanın dediyi kimi, "mifoloji motivlər yaddaşla, xalqın taleyi ilə bağlanır. Rəvayətlər və əfsanələr xalqın öz tarixinə, hətta deyərdim ki, öz taleyinə baxış fəlsəfəsidir" (1, s.14). Bu fəlsəfi səciyyəli mətndə söhbət arxaik rəvayət və əfsanələri, eposu dirçəltməkdən, yeni əsərə hərfi mənada daxil etməkdən və klassik mənada "müdrikləşməkdən" getmir. Epos dövrü Orta əsrlərlə birlikdə tarixə qovuşub. İntibah və maarifçilik azad təfəkkürlü yeni insanı dümyaya gətirib. Yusif Səmədoğlunun "Qətl günü"ndə də söhbət müasir insandan, onun mənəvi aləmindən, şər və günahın universal mahiyyətindən, tarixin fərqli mərhələlərində aşkarlanan əbədi ideya və obrazlardan gedir. Yusif Səmədoğlu romanında polifonik, çoxsəsli, dinamik müəllif-təhkiyəçi obrazı yaradır. Bu obrazın qavrayışında fərqli zaman və məkanlar bir məhvərdə qovuşur, metaforik və qrotesk bədii aləm yaranır. Lakin bu sinkretiklik donuq deyil və substansional konflikt – maddi gerçəklik və ideal aləm arasında həllolunmaz oppozisiyanı əks etdirir. Bu universal

konflikt mətndə situativ və mənaca fərqli ziddiyyətlərdə ifadə olunur. Mətnin çoxlaylı süjet qatlarında şair və hökmdar, xəstə filoloq və adlı-sanlı ədib Muxtar Kərimli, yazıçı Sədi Əfəndi və çekist Salahov, Kirlikir və cəmiyyət və sairə. Bu əks qüvvələrin təzadı – yalnız mövqe və təsvirdə deyil, ilk növbədə təhkiyə üsulunda, qəhrəmanların nitqində təzahür edir. Şairin, xəstə filoloqun, Sədi Əfəndinin, Kirlikirin nitqi, bu personajların xarakteinə uyğun olaraq, şəxsiləşmiş, sərbəst, azad və eyni zamanda çoxmənalı, assosiativ nitqdir. Təhkiyəçinin nitqi də bu personajların danışığına yaxındır. Lakin əks personajlar rəsmi-standart, hökmlü, şablon nitqdir. Bu nitq sahibləri fərdilikdən, daxili zənginlikdən uzaq, mərasimləşmiş ierarxik ictimai sistemdəki mövqelərinə uyğun rəsmi, quru, ətalətli nitqdir. Bu personajların şəxsilikdən məhrum olan nitqi onların həm qavrayış tərzinin, həm daxili aləminin, həm də ictimai mövqeyinin kasadlığını aşkarlayır.

Əsərin mifopoetik aləminin mühüm birləşdirici obrazı məhz təhkiyəçidir. Təhkiyəçi nəinki romanın bədii aləminin mifoloji və tarixi, keçmiş və müasir laylarına bələddir, o, gılıcıyi də görür və öz nitqində də bu mofoloji qabiliyyəti təsbitləyir. Deyək ki, əsərin əsas personajını mətnin dar bir fraqmentində bir neçə dəfə "Xəstə olası adam" adlandırmaqla gələcəyə nüfuz edə bildiyini aşkarlayır:

"Xəstə olası adam Kirlikirlə üzbəüz vedrənin üstündə əyləşdi və arağı açıb özünə süzdü... Xəstə olası adam yeməkdən bir qismət ağzına alıb... Xəstə olası adam əlini şalvar cibinə salıb, o vaxtlar dəbdə olan "Avrora"nın əzik qutusunu çıxardı..." (2, s.69).

Burada gerçəkliyin mifləşdirilməsi ilə rastlaşırıq. Real personaj və zahirən obtektiv təhkiyəçi həyatın adi axarını mifoloji tərzdə labüdləşdirir, öncədən axırını görür. Lakin yazıçı gerçəyin, tarixin mifləşdirilərək universal proses kimi dərki ilə yekunlaşmır. Mətndə təhkiyə və bütöv poetik strukturun mifopoetk təfsirinin digər aspekti – mifin gerçəkləşdirilməsi, tarixiləşdirilməsi, real həyati çalara salınması ilə qarşılaşırıq. Müəllif Kirlikirin nitqinə bu mifopoetik personajın, klassik mifdə zamanın rəmzi olan siçovulun danışığını nəinki adiləşdirir, insaniləşdirir, hətta yüksək elmi üslub aşılayaraq, adilikdən çıxarır, müasir intellektualın gerçə nitqi kimi təqdim edir:

"Hə, indi otur. Afərinlər. Görürsən, qonşu, sənnən mən həm üzbəüz oturmuşuq, həm də yox. Daha doğrusu, aramızda... – O yenə bir gözünü yumdu. – Ha, aramızda düz altmışüç dərəcəli üçbucaqlı bir sahə əmələ gəlib. Deməli, sən arağı içdikcə, mən özümə lazımi dərəcədə alkaloidləri havadan qanıma çəkəcəyəm...

Xəstə olası adam açıqca maraqla Kirlikirə baxırdı. – Bunu necə elədiyini başa sala bilərdim, amma düzü, birinci, hövsələm yoxdu, ikinci də... bir az ağır olar sənə belə şeyləri başa düşmək. Yox, nə telekinezdi, nə parapsixologiya. Məkanın dördüncü vektorunda qravitasiyanın bir xüsusiyyəti də özünü büruzə verir... Qonşu, gözlərindən görürəm ki, qandığın qrafa yoxdu.

Xəstə olası adamın həqiqtən heyrətdən gözləri dəyirmilənib hərəsi bir gavalı boyda olmuşdu. – Sən heç əşşi! Sizin o məşhur alim var e... fizik, bu yaxınlarda da arvadı da onu baldızıynan yaxalayıb ha, onu deyirəm... Nədi, bundan da xəbərin yoxdu..." (2, s.67-68).

Bu ikiistiqamətli proses, mifoloji personajların nitqinə ironik, məzhəkəvi görünən leksik vasitələrin, ifadələrin daxil edilməsi, eyni zamanda, real personajların şəxsiləşmiş üslubunun mifik aləmdə səslənməsi əsərin daxili aləmini dinamikləşdirir. Nitqin yalnız məzmunu deyil, forması, ovqatı, pafosu, leksik tərkibi özü-özlüyündə situasiyanı, personajları, hadisələri səciyyələndirən, mifopoetik mühitdə gerçəklikdən fərqli mənalandıran, mif və reallıq arasında dinamik təmas yaradan, sosialist realizminə xas yüksək pafos, müdrik mülahizələrlə deyil, ironik, məzhəkəvi, irreal və reallığın qovuşduğu idrak və dəyərləndirmə konteksti yaradır. Beləliklə, bu mifopoetik təhkiyə quruluşu tarixin, müasirliyin, millinin, bəşərinin universal qavrayış mexanizmi vasitəsi ilə və universal dəyərlər işığında obyektiv dərki və qiymətləndirilməsinə imkan yaradır. Müəllif oxucunu idraki fəallığa, keçmişi və bu günü həm dəyəri və həm də ziddiyyətləri ilə dərkə, milli və bəşərinin tənasübünü anlamağa və bununla da

mifopoetik qavrayışda bütövləşən milli-bəşəri dünya mənzərəsini obyektiv təsəvvür etməyə yönəldir.

Bütün bu xüsusiyyətlər, Yusif Səmədoğlunun "Qətl günü" romanının bir mifopoetik mətn olaraq bütövlükdə və modern təhkiyə quruluşunun da xüsusi olaraq, ədəbiyyatımızda sosialist realizmi meyarlarına son qoyan və bir çox məqamları ilə postmodernist ədəbi yaradıcılığın qaynaqlarından olan novator əsər olduğunu təsbitləyir.

Ədəbiyyat

1. Əhmədova Günel. Yusif Səmədoğlunun "Qətl günü" romanında tarixi, mədəni yaddaş qatları. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2018, 64 s.

2. Səmədoğlu Yusif. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 320 s.

3. Гаджиев Асиф. Поэтика современной прозы. Вопросы мифологического и фольклорного генезиса. – Баку: "Мутарджим", 1997. – 204 с.

4. Сагалаев А.М., Октябрьская И.В. Традиционное мировоззрение тюрков Южной Сибири. Знак и ритуал. – Новосибирск, 1990. – 200 с.

5. The structure of mythopoetic prose in modern Azerbaijani prose (Based on Yusif Samadoglu`s novel "Day of Murder")

И.Алиев

Мифопоэтическая структура текста в современной азерайджанской прозе

Резюме

В статье анализируется структура мифопоэтической прозы в современном азербайджанском тексте на примере романа великого писателя Юсифа Самедова "День убийства". Отмечается что, в советское время было невозможно выразить реальность жизни, объективную мысль, а также ценности, несовпадающие с социалистической идеологией, поэтому писатели прибегали к тонким, метафорическим, образным средствам выражения, и в этом процессе. С этой точки зрения в литературе последних десятилетий XX века и периода независимости, авторского восприятия и своеобразия текста магии зачарована роль использования мифа. Отмечено, что использование мифа в азербайджанской прозе 70-х и 80-х годов прошлого века уже распространилось на поэтическое мышление и структуре художественного стиля. "День убийства" Юсифа Самедоглу анализируется как своеобразный образец прозы, глубоко и высокохудожественно описывающей эти процессы, использующей в тексте романа многослойную образность и композицию, включающей в реалистическое исследование мифопоэтические образы и выразительные средства. В этом романе, прежде всего, показано обновление образа автора, иррациональный отбор структурно-авторского восприятия, синкретическая множественность композиции и структуры, переплетение сакрального, мифологического и исторического уровней. В результате сообщается, что структура мифопоэтической поэзии должна дойти до универсальности событий, описанных в романе Юсифа Самедоглу "День убийства" отходя тем самым от учения советского соцреализма, отразить вечные моральные ценности, общечеловеческие ценности и придавать ценность современному обществу.

I.Aliyev

Mythopoetic text structure in modern Azerbaijani prose

Summary

The article analyzes the structure of mythopoetic criticism in modern Azerbaijani prose on the basic of the novel "Day of Murder" by prominent writer Yusif Samadoglu. It is noted that in the Soviet past, as it was impossible to openly express the realities of life, objective thought, as well as values that do not coincide with socialist ideology, writers resorted to subtextual, figurative, symbolic means of expression, and folklore traditions and mythological techniques were widely used. In this regard, the role of the use of myth in the literature of the last decades of the twentieth century and the

period of independence is explained. It is noted that the use of myth in Azerbaijani prose since 70s and 80s of the last century has already influenced the authors` poetic style. Yusif Samadoglu`s novel "Day of the Murder" is analyzed as an example of original prose, which reflects these processes in depth and with high artistry, uses multilayered prose and composition in the structure of the novel, incorporates mythopoetic image and means of expression into realist prose. In this novel,first of all, the renewal of the author`s image , the irrational nature of the explorer-author`s perception, the syncretic multiplicity of the exploration and composition, the intertwining of sacred, mythological and historical planes are shown. As a result, it is stated that the structure of mythopoetic research allows to reach the universal essence of the events described in Yusif Samadoglu`s novel "Day of the Murder", thus moving away from the doctrines of Soviet socialist realism, reflecting eternal moral values, universal values.

Rəyçi: dos. K.Ş.Kazımov

Redaksiyaya daxil olub: 20.12.2021

Ü.T.ƏSGƏROVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

U.QOLDİNQİN "İKİLİ DİL" ROMANINDA MİF SEMİOTİK STRUKTUR KİMİ

Açar sözlər: *U.Qoldinq, "İkili dil", Delfi kahini, mif, neomifoloji roman*
Ключевые слова: *У.Голдинг, «Двойной язык», Дельфийский оракул, миф, неомифологический роман*
Key words: *W.Golding, "Double Tongue", Delphic oracle, myth, neomythological novel*

Görkəmli ingilis yazıçısı, Nobel mükafatı laureatı (1983) Uilyam Cerald Qoldinq (1911-1993) özünün qırx illik yaradıcılığı boyunca on iki roman "Milçəklərin hökmdarı" (1954), "Varislər" (1955), "Cibgir Martin" (1956), "Sərbəst eniş" (1959), "Mil" (1964), "Piramida" (1967), "Hörümçək tanrı" (1971), "Görünən zülmət" (1979), "Hərəkətli hədəf" (1982), "Kağız adamcıqlar" (1984), "Üzgüçülük mərasimi" (1980), "Sıx qonşuluq" (1987), "Aşağıda yanğın" (1989), "İkili dil" (1995) yazmışdır. "Milçəklərin hökmdarı" adlanan ilk romanı XX əsr dünya ədəbiyyatının ən gözəl əsərlərindən biri hesab olunur və yazıçıya dünya şöhrəti gətirmişdir.

Yazıçının yaradıcılığına və ömrünə yekun vuran "İkili dil" romanının onun yaradıcılığında xüsusi yeri vardır. Bu roman özünün məzmunu, forması, müəllif niyyəti və ideyası, bədii kompozisiyası, məkan-zaman strukturu və semantikası baxımından sanki bir tapmacadır. U.Qoldinq bu romanla sanki bir tapmaca-labirintin içərisinə düşmüş, əsərə simvol və işarələr yeritmişdir. Yazıçı özünün bədii niyyətini həyata keçirmək üçün daim yeni formalar və bədii fəndlər axtarmış, nəticədə əsərin iki nüsxəsi meydana çıxmışdır. Lakin romanın mətnindən belə görünür ki, U.Qoldinq öz niyyətini axıracan reallaşdıra bilməmişdir. O hətta romana qəti bir ad da fikirləşə bilməmiş, müxtəlif ad variantları yaratmışdır. Belə məlum olur ki, ölümü (1993) ona bütün bu işləri tamamlamağa imkan verməmişdir. Lakin bu, gerçəkdən belədirmi? Əsərin semantik strukturu, ondakı bədii işarə layları başqa qənaətə gəlməyə imkan verir. Görünür, müəllif özü bədii "tapmaca-labirint" yaratmaq istəmişdir. Hər halda, əsərin ingilis nəşrinə yazılmış qısa müqəddimədən də bu nəticələrə gəlmək olur. Müqəddimədə deyilir: "Uilyam Qoldinq özünə məxsus olan evdə 1993-cü ildə baş vermiş ölümünə qədər bu romanın iki qaralama variantını işləmiş və üçüncü variantı başlamaq niyyətində olmuşdur. İş dəftərlərindəki qeydlərə və gündəliyində öldüyü günə qədər yazdığı yazılara əsaslansaq, bizim nəşr etdiyimiz variant romanın yazıçının həmin ilin payızında naşirlərə yollamaq istədiyi bitkin formasına uyğundur... O, əsərin başlanğıcını bir neçə dəfə yazmış və biz burada ilkin səhifələrin onun kağızları içərisindən tapılmış ən son variantlarını seçdik... Əsərin "İkili dil" adı redaktor tərəfindən əlyazmanın əvvəlində öz əli yazdığı bir neçə başqa adın içərisindən seçilmişdir. Yazıçı öz gündəliyində bu kitabı yazdığı yarım il ərzində bu adların gah birindən, gah da o birindən istifadə etmişdir"(9, s.4)

Müqəddimədən göründüyü kimi müəllif romanın əlyazması üzərində işi tamamlamağa nail olmamışdır. İki qaralama variantını işləsə də, üçüncüsünü də yazmaq istəmişdir. Bu, o deməkdir ki, U.Qoldinq yazmaq istədiyi, niyyətində olduğu mətni sonadək reallaşdırmağa imkan tapmamışdır. Müəyyən hissələri (konkret olaraq: romanın başlanğıcını) dəfələrlə işləsə də, "başlanğıc" onu qane etməmişdir. Bu halda böyük bir "niyə?" sualı meydana çıxır. Romanın əlimizdə olan variantında "giriş" bədii cəhətdən çox mükəmməl işlənmişdir. Bədii təsvirlər, ifadə vasitələri, fərqli məkan-zaman fraqmentlərinin bir-biri ilə əlaqələndirilməsi vəhdət halındadır. Bu halda yazıçı əsərin başlanğıcını nəyə görə dəfələrlə işləmişdir?! Lakin

əsərin "İkili dil" adlandığını nəzərə alsaq, romanın "girişinin" yazıçı üçün niyə bu qədər əhəmiyyət kəsb etməsi hətta həmin "girişi" təhlil etmədən də müəyyən nəticələrə gəlməyə imkan verir. Roman başdan-başa semiotik (işarəvi) konstruksiyadır. Giriş həmin "iki dilli" konstruksiyanın açarı, ilk pilləsidir. Yazıçı oxucunu əsərin elə ilk səhifəsindən "bədii tapmaca" aləminə daxil etmək istəmişdir.

Yazıçının öz ölümünə qədər son romanına qəti bir ad qoya bilməməsi də U.Qoldinqin yaradıcılıq sirləri haqqında dərin məsələlərdən soraq verir. Əsərin rus nəşrindəki kiçik "təqdimat" da buna işarə edir. Orada yazılır ki, "İkili dil" – Uilyam Qoldinqin axırıncı romanıdır. Əsər aldadıcı dərəcədə "tarixi" olduğu kimi, "qavrama baxımından" da aldadıcı dərəcədə "sadədir". Göründüyü kimi, yazıçı "tarix"lə, sözün həqiqi mənasında, bədii oyun oynamış, zahirən "sadə" görünsə də, əslində, oxucudan və tədqiqatçıdan mürəkkəb qavrayış, təfəkkür tələb edən mətn yaratmışdır. Bu mətndə təsvir olunan "tarix" bizim hərfi mənada qəbul etdiyimiz "tarix" yox, müəllif tərəfindən "uydurulmuş" bədii işarədir. Oxucu və tədqiqatçı bütün hallarda bu bədii işarənin mənasını anlamağa çalışır. Ancaq buna hərə öz səviyyəsində nail olur. Lakin heç kəs də axıradək nail ola bilmir. Mətn bütün hallarda "davamı olan", "anlaşılmaz", "yarımçıq"... qalır. Bu da öz növbəsində postmodern mətn texnologiyasını yada salır. Oxucu və tədqiqatçı reseptiv estetikada olduğu kimi, mətnin davamını özü fikirləşməli olur. Bütün bunları U.Qoldinqin bu əsəri haqqında intellektual oxucuların internet resenziyalarından da görmək olur. Həmin fikirlərdən bəzilərinə tədqiqatımızın yol verdiyi dərəcədə və çox qısa şəkildə nəzər salaq.

Resenzentlərdən biri yazır: "Bu, qəhrəmanlarının parlaq cizgiləri olan və qəsdən sadələşdirilmiş kitabdır. Vurnuxma, axtarışlar var. Hər yerdə və heç yerə. Mən bu yanaşmalarla bir qədər tanışam. Ancaq bu kitabda elə bir tutacaq tapa bilmədim ki, ona söykənərək əsəri lazımı şəkildə şərh edə bilim..." (19)

Bu fikir mətnin oxucuda yaratdığı təəssüratlardan bir fraqmentdir. Oxucu mətnə aludə olmuş, onu böyük bir maraqla oxumuş, daim süjet hadisələrinin "içərisində olmuş", amma sanki heç nə görməmiş, heç nə başa düşməmişdir. Bu hal U.Qoldinqin son əsərində hansı fenomenal məqama yüksəldiyindən də soraq verir.

Başqa bir resenziyada romanın oxucu düşüncəsinə hesablanaraq yazıldığı, oxucunu cavablarını məhz özünün tapa biləcəyi suallar qarşısında qoyduğu vurğulanır: "Əsərin finalında isə biz nəyin gözəl olduğunu özümüz üçün müəyyənləşdirməli oluruq: qədim sirri etibarlı şəkildə gizlədən bağlı qapı, yoxsa, arxasında ancaq lal daş divarın olduğu açıq qapı"(19).

Göründüyü kimi, bütün roman boyu süjet hadisələrinin "əsl" mahiyyətini anlamaq üçün əsərin sonunu "gözləyən" oxucu sonda daha böyük suallar qarşısında qalır və romanın gücü ondadır ki, bu suallar oxucunun düşüncəsində zamanla "tapmacalara" çevrilib mətni daha cazibədar, daha düşündürücü edir. Və maraq "yanğısının" içinə düşən oxucu əsərdə hansısa mühüm bir məqamı, yaxud məqamları nəzərdən qaçırdığını düşünüb onu yenidən oxumaq istəyir. Başqa biz resenzentin yazdığı kimi, "içimdən başlanğıca qayıdıb əsəri təkrar oxumaq istəyi keçir" (1, s.45).

Beləliklə, mətnin bütün "sirlərinin" arxasında müəllifin öz yaradıcılıq fenomeni durur. O, ömrünün sonunda yazdığı əsəri ilə, sözün həqiqi mənasında, fenomenal mətn yaratmaq istəmiş və fikrimizcə, buna nail olmuşdur. Həmin mətnin U.Qoldinqin özünü nə dərəcədə təmin edib-etməməsi, yəni müəllifin öz mətnindən nə dərəcədə razı qalıb-qalmaması ayrı bir məsələdir. Əlyazmalardan göründüyü kimi, o, mətnin fenomenliyini daha da gücləndirmək istəmiş, lakin ölüm ona bu imkanı verməmişdir. Bu halda mətn bizə "yarımçıq" təsir bağışlayır. Ancaq əsər doğrudanmı "yarımçıqdır"?

Yaxud sualı başqa cür də qoymaq olar. Axı biz U.Qoldinqin öz əsərinin üçüncü variantını işləmək istəməsi haqqında məlumatı ingilis nəşrinə yazılmış kiçik müqəddimədən öyrənmişik. Əgər naşir(lər) bu məlumatı verməsə idilər, o halda biz mətni yenədəmi "yarımçıq" hesab edəcəkdik?!

Bizcə, romanın bədii-estetik "tapmacası" məhz bu "yarımçıqlıq" nöqtəsi ilə bağlıdır. Bizim suala cavabımız belədir ki, əgər U.Qoldinq hətta mətnin üçüncü variantını da yazsa idi, mətn yenə də "yarımçıq" qalacaqdı. O, hətta, dördüncü, beşinci... variantı da yazsa idi belə, mətn öz "yarımçıqlığını" yenə də qoruyacaqdı.

Məsələ burasındadır ki, bu "yarımçıqlıq" mətnin qurulmasının əsas poetik prinsipini təşkil edir. Mətn zahiri planda "yarımçıqdır". U.Qoldinq mətni özü belə qurmuş və bu "yarımçıqlığı" tamamlamağı oxucunun öz öhdəsinə buraxmışdır. Hər kəs mətni öz bildiyi kimi tamamlayır. Özü də bu "yarımçıqlıq" heç də mətnin sanki sonunun olmamasına aid deyildir. Bütöv mətn bu poetik model əsasında qurulmuşdur. Əslində, bir insanın – Ariekanın həyatından bəhs edən romanın süjeti çox sadədir. Xəyallarla yaşayan qız on beş yaşından sonra ömrünü qalan hissəsini özündən asılı olmadan məbəddə davam etdirməli olur. Əsərin süjeti sadə olduğu kimi, süjetdəki hadisələr də rahat anlaşılan sintaqmatik struktura malikdir. Arieka/Pifiya bəzən keçmiş hadisələri xatırlayır, lakin zamanın bu geri sıçramaları süjet dolaşıqlığı yaratmır. Bəs bu halda oxucunu və tədqiqatçıları müəmmalar qarşısında qoyan nə(lər)dir?

Suala belə cavab verə bilərik: mətnin müəllif tərəfindən semiotik (işarəvi) sistem kimi qurulması. U.Qoldinq çoxqatlı struktura malik işarələr sistemindən ibarət mətn yaratmışdır. Çoxqatlılıq bu mətnin əsas struktur ölçüsüdür. Mətni anlamaq üçün burada məzmun və formasından asılı olmayaraq hər bir elementə işarə kimi baxmaq lazımdır. İşarələr diaxron planda sadədən mürəkkəbə doğru getdiyi kimi, sinxron planda qapalı, təkrarlanan sistemi təşkil edir. Əsas dörd lay var: mif, tarix, gerçəklik və bədii qatlar.

1. Mif mətndə görünən (eksplisit) və görünməyən (implisit) planlara malikdir.

2. Tarix burada üç plana malikdir: həqiqi tarixi zaman, personajları nəzərdə tutan zahiri tarix və müəllifin öz təxəyyülü ilə yaratdığı bədii tarix.

3. Gerçəklik mətndəki hadisələri bütün hallarda oxucu düşüncəsi ilə bağlayan məna qatıdır. Süjetdəki hadisələr bütün zahiri tarixi şəkli ilə daim oxucu yaddaşını oyadır və onu öz yaddaş potensialı ilə birlikdə mətnə daxil edir.

4. Bədii qat mətndəki bütün məna layları və onları təşkil edən poetik elementləri özündə birləşdirən vahid sistemdir.

Təbii ki, mətni təşkil edən məna laylarını dörddən çox da, az da götürmək olar. Burada məsələ tədqiqatçının tətbiq etdiyi universallaşdırma ölçüsündən asılıdır. Ancaq mətndəki işarə sistemləri bununla məhdudlaşmır. Bütöv mətn onun adında vahid semiotik struktura – "İkili dil"ə çevrilir.

"İkili dil", sözün həm həqiqi, həm də məcazi mənasında, mətnin açarıdır. Müəllif mətndə "ikili dil" konseptinə dair müxtəlif işarələr vermişdir. Bu işarələrə diqqət yetirdiyimizdə "ikili dil" semanteminin mətnin konseptual strukturu, ideya əsası və müəllif niyyəti ilə bağlı olduğunu görürük. Məsələn, romanın əvvəlində artıq qocalmış Arieka/Pifiyanın xatirələrində "ikili dil" politeist tanrı (Apollon) ilə ünsiyyət modeli kimi təqdim olunur: "Atam deyirdi ki, falçının o vaxtdan bəri dəyişərək başqa cür olması tamamilə düzdür. O həm də deyirdi ki, muzdlular Delfdə bir neçə bina yandırdılar və bu, kifayət elədi ki, insanlar falçının qışqıraraq dediyini həqiqət hesab eləsinlər. Axı görücülük adi bir şey deyil. Dünyanın düz vaxtlarından qalma əlamətdar nümunələr var. Bir nəfərə demişdilər ki, onun ölümü evinin uçması ilə olacaq. O da buna görə açıq havada yaşayırdı. Ancaq bu, bir qartalın onun keçəl başına tısbağanı salana qədər davam elədi. Tanrı Delfdə öldürdüyü nəhəng ilandan aldığı tutqun haça dillə danışır. Əgər düzünü desəm... özüm başa düşdüm ki, Pifiya: "Od, od, od!" – deyə qışqıranda dilin ikinci tərəfini nəzərdə tuturdu" (9, s.31).

Bu parçada söhbət falçının (pifiyanın) danışdıqlarının ikili mənaya malik olmasından gedir. Yəni falçının dediklərini olduğu kimi yox, həmin sözlərin altında yatan ikinci məna layını anlamağa çalışaraq qəbul etmək lazımdır. Bu, bir növ, tərcüməyə bənzəyir. Falçının danışıqları gərək insanların danışdığı adi dilə tərcümə olunsun.

Romanda "ikili dil" konsepti eyni zamanda tanrı ilə insanlar arasında vasitəçilik etməli olan Ariekanın (Pifiyanın) davranış modeli, özünüifadə tərzi kimi təqdim olunur. Ariekanı məbədə gətirən kahin İonid ona özünü necə aparmalı olduğunu belə başa salır:

"– Bağışla ki, çox inad edirəm. Ancaq məndə belə bir təəssürat yarandı ki, sən falın saxta olduğunu düşünürsən. Yox, yox, mənim əzizim. Mən insan dili ilə danışıram. Sənsə ilahi xəbərçilərin dili ilə danışmalısan. Ancaq, – burada o, özünün möcüzəli kədərli təbəssümü ilə gülümsədi, – əgər bizə biri verilməyibsə, heç olmasa, o birisindən istifadə edək.

– Yaxşı. Daha heç nə deməyəcəyəm.

– Sən iki səviyyədə yaşamalısan! Mən, təəssüf ki, yalnız birini bilirəm. Əgər Roma məsələsi səni narahat edirsə, onu bir qırağa qoy. O barədə unut və iki səviyyədə yaşa, bu, fövqəladə dərəcədə zəruridir"(9, s.72).

Göründüyü kimi, burada "ikili dil" həm də iki davranış səviyyəsi ilə bağlıdır. Arieka məbədin qoca pifiyalarını (falçıları) əvəz edəcək yeni pifiya kimi iki dünya arasında vasitəçilik, mediatorluq etməlidir. Bu halda o, bir tərəfi ilə tanrılar aləminə, o biri tərəfi ilə insanlar aləminə bağlıdır. O, tanrı Apollonla ünsiyyətə girib, onun dediklərini insanlara çatdırmalıdır. Tanrılar və insanlar fərqli səviyyələri (göy və yer) təmsil edirlər. Bu səviyyələr romanda həm də "ikili dil" metaforası ilə işarə olunur.

Ədəbiyyat

1. McCarron K. From Psychology to Ontology: William Golding's Later Fiction. In: MacKay M., Stonebridge L. (eds) British Fiction After Modernism. Palgrave Macmillan, 2007. London. https://doi.org/10.1057/9780230801394_15
2. Dyson A.E. "William Golding": Novels 1954 - 67 Case Book Series.London: MacMillan, 1985. p.11-13.
3. Golding W. 'Belief and Creativity'. A Moving Target.London:Faber &Faber,1982. p.185–202.
4. Golding W. Lord of the Flies. Madras: Madras Oxford University Press, 1986. 239p.
5. Golding W. The Inheritors. London: Faber and Faber, 1955.
6. Golding W. Pincher Martin. London: Faber and Faber, 1956.
7. Golding W. Free Fall. London: Faber and Faber, 1960.
8. Golding W. The Spire. London: Faber and Faber, 1964.
9. Golding W. The Double Tongue. London: Faber and Faber, 1995.
10. McCarron K. William Golding.London: North Cote House, 1994.
11. Kermode F. "Golding's Intellectual Economy". London: Macmilan, 1985. p.49- 51.
12. "The Nobel Prize in Literature 1983". Nobelprize.org. 9 Apr 2012 n.p.18 May'12.web.<http://www.nobelprize.org/nobel_prizes/literature/laureates/1983/
13. Tiger V. William Golding: The Dark Field of Discovery. London: Maryon Boyars, 1974.
14. Bakhtin M.M. The Dialogic Imagination: Four Essays; Caryln Emerson, C., Holquist, M., Eds.; University of Texas Press: Austin, TX, USA, 1988. 156p.
15. Campbell J. Myths to Live. Viking Press: New York, USA, 1972. p.105.
16. Baker J.R. An interview with William Golding.// Twentieth Century Literature. 1982. p.130-170.
17. Baker J.R. Golding and Huxley: the fables of demonic possession. //Twentieth Century Literature . 2000. p.311-327.
18. Granofsky R. "Man at an extremity": elemental trauma and revelation in the fiction of William Golding.// Modern Language Studies. 1990. p.50-63.
19. Отзывы о книге Двойной язык – https://www.livelib.ru/book/1000005352-dvojnoj-yazyk-uilyam-golding

У.Т.Аскерова

Миф как семиотическая структура в романе
“Двойной язык” Уильяма Голдинга
Резюме

Статья написана как обзор семиотической структуры текста в творчестве Уильяма Голдинга, в частности его последнего романа "Двойной язык". Сложная метафорическая основа произведений его письма допускает возможность их различных толкований. В его произведениях сочетаются различные мифологические типы, писатель, как правило, не предлагает готовых решений, не дает однозначных ответов на поставленные в его произведениях вопросы. Хотя у некоторых читателей они могут вызывать сомнения, у некоторых-прямые возражения, можно с уверенностью сказать, что ни один читатель не останется равнодушным к этим произведениям. Двойная структура пронизывает по всему творчеству писателя. Каждое произведение неизбежно опирается на переживания двух протагонистов, на их жизненные пути, протекающие в сложных географических и исторических условиях, на фоне этих двойственных идеологий отражаются мысли, философия и идеология писателя.

U.T.Asgarova

Myth as a semiotic structure in William Golding’s Double Tongue
Summary

The article sheds light on a semiotic structure of the text and the hidden layers in the William Golding’s novels, especially in his latest novel *Double Tongue*. The complex metaphorical basis of his novels allows the possibility of their various interpretations. In his works, various mythological types are united. The writer, as a rule, does not offer ready-made decisions, does not give definite answers to the questions posed in his works. Although they may cause doubts and direct objections, it can be definitely said that not a single reader will remain indifferent to these works. The dual structure permeates to all his novels. Each novel is inevitably based on the experiences of two protagonists, their life journey in difficult geographical and historical conditions which reflects the writer's thoughts, philosophy and ideology.

Rəyçi: filol.f.d., dos. Y.Abdullayeva

Redaksiyaya daxil olub: 27.11.2021

E.İ.İSMAYILOVA
e-mail: elmira@rambler.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

XVIII ƏSRİN II YARISINDA ALMANİYA VƏ Y.V.GÖTENİN ŞAİR KİMİ FORMALAŞMASI

***Açar sözlər**: Göte, mədəniyyət, poeziya, mədəniyyətlərarası əlaqə, peşəkar şəxsiyyət.*
***Ключевые слова**: Гете, культура, поэзия, межкультурное общение, профессиональная идентичность.*
***Key words**: Goethe, culture, poetry, intercultural communication, professional personality.*

XVIII əsrdə Almaniyada ziddiyyətli vəziyyət olduğuna görə inkişaf etmiş iqtisadiyyatdan danışmaq olmazdı. Bundan ən çox əziyyət çəkən təhkimli kəndlilər idi. Geri qalmış metodlar aclığa gətirib çıxartmışdı. Siyasi təzyiq və ərazi məhdudluğu ruhi həyatda, insanın mənəvi zənginliyinə təsir edirdi. Mənəvi inkişafa xidmət edən fikir mübadiləsi çox məhdud dairədə aparılırdı. Mədəniyyət saray çərçivəsində inkişaf edir, incəsənət, memarlıq, şair və bəstəkarlıq, müğənnilər xalqa deyil hakimiyyətə xidmət edirdi. Y.V.Götenin də yaşayıb yaratması bu dövrə təsadüf edir. Y.V.Göte 28 avqust 1749-cu ildə Frankfurt am Maynda, izdihamlı imperiya şəhərində anadan olmuşdur. Şəhər qədim idi. O çox şeydə Roma üslubunu saxlamağa çalışırdı. Dar küçələr, döngələr, bir-birinin üstündən tikilən yaşayış evləri; hətta günorta çağı belə qatı kölgələrin hökm sürdüyü daş döşənmiş küçələr. Əhalinin əksəriyyətinin lüteran vəkilinin etimadı əsasında çıxış edə bilərdi. Bir sözlə, Frankfurt öz daxili, ictimai-məişət quruluşuna görə orta əsrləri xatırladırdı.

Qaydaya bu patrisi respublikanın Frankfurt şəhər şurasında üç deputat yeri vardı. İlk ikisi patris tacirlərinə və şəhər dvoryanlarına alim və hüquqşünaslarına aid idi. Yalnız ilk iki yerin deputatları şəhər vəzifələri ilə məşğul ola bilərdilər. Üçüncü yer tam hüquqlu olmayanlar-şəxslər pleybey üçün təyin edilmişdi.

Patrislər (Romanın yerli əhalisi) və pleybeylər (Roma ərazisində yaşayan gəlmələr) şəhər hökumətində tutduqları dərəcəyə görə paltar geyirdilər. Şəhər qala divarları və torpaq səngərlə əhatə olunmuşdu. Qədim adətlərə görə şəhər darvazalarının açarı gecələr burqamistrə təhvil verilirdi. Günün hər bir vaxtında baş qüllə üzərində şəhər hakimiyyətinə qarşı üsyan etmiş kasıbların edam edilmiş dörd başçılarından birinin nizəyə keçirilmiş kəlləsi hələ də ağarırdı, digər nizələr çoxdan boş qalmışdı.

Frankurt şəhər meydanında xalqın tamaşası ilə edamdar icra olunurdu. O, qanunsuz uşaq doğmaqla dinə zidd hərəkət edən və uşaq qətlində günahlandırılan anaların başı kəsilirdi. "Poeziya və həqiqət" də bu barədə kədərlə deyilir; Biz bir çox bədən cəzalarının şahidi olurduq, mən hətta kitabların cəzalarının şahidi olurduq, mən hatta kitabların yandırılmasını da görmüşəm.

Bunlar dövlət qaydalarına, dinə və adətə qarşı ideyalarla səsləşən romanların Frankfurta gətirilən nüsxələri idi. Yanmış səhifələr harada uşur və izdiham onu acgözlüklə tuturdu.

Uşaq qətlində günahlandırılan Anna Mariya Freylik və Susanna Marqarita Brandin edamı barədə isə heç nə deyilmir. Faustun aləmi, Marqaritanın aləmi şair tərəfindən uydurulan demokratiya deyildi, bu aləmdə "Faustun" müəllifinin uşaqlığı və gəncliyi yaşayırdı. Götenin uşaqlığı yeniyetməliyi belə bir miskin əyalətdə keçmiş gənclik illəri isə alman ədəbiyyatının coşğun vüsət alaraq çiçəkləndiyi dövrə təsadüf etmişdi.

XVIII əsrin 70-ci illərində gənc yazıçılar nəsli yetişdi. Onlar ədəbi əsərləri və nəzəri yazıları ilə cəmiyyət hadisələrinə qarşı döyüşə girmək, qəti tədbir görmək istəyirdilər. Göte

1828-ci ildə yazırdı; Hər şey çox təmkinli, soyuqqanlı, incəliklə idarə edilən bir xalqın çalışqan, məntiqli, ağıllı, yüksələn mədəniyyətinə işarə edirdi.

1775-ci ildə Göte Vaymara gəlir. Bu dövrdə şəhərin nə yüngül, nə də ağır sənayesi var idi. Ona görə də şair ilk gəlişində özünü kənddə hiss etdiyini söyləmişdi. Öz fikrini belə ifadə etmişdi: "Vaymar kəndlə şəhər malikanəsi arasında orta bir şey idi" (2).

XVIII əsrin sonunda Vaymar klassisizmi inkişaf edir. Göte və Şiller əl-ələ verərək humanist antik idealları dincəlməyə can atırdılar. Fəaliyyətinin müəyyən seyrçi istiqamətlərinə baxmayaraq əsasən maarifçi realizminə sadiq qalıb, mürtəce romantiklər və başqa cızma-qaraçılar əleyhinə mübarizə aparırdılar. Məhz alman klassiklərinin nəhəng istedadı və səyi nəticəsində ədəbi alman dili böyün ədəbi - bədii qüdrət kəsb edir, alman ədəbiyyatı və satiralarının bir sıra nümunələri bəşər mədəniyyətinin xəzinəsinə daxil olur, insanları gözəl gələcək, sülh və humanizm uğrunda mübarizəyə ilhamlandırırdı. Bu səbəbdən də "Vaymar" adının çəkilməsilə söz önünə Göte, Şiller (1759-1805), Herder (1744-1804), Viland (1733-1813) kimi böyük mütəfəkkirlərinnin siması gəlir. Məhz bu simalar tərəfindən dünya ədəbiyyatının "Faust" (1772), "Tasso" (1790), "Maria Stüart" (1810) , "Vilhelm Tell" (1804) kimi məşhur əsərləri Vaymarda yazılmışdır. Lakin Vaymar təkcə alman klassiklərinin yaradıcılığı və alman milli ədəbiyyatının öz yüksək zirvəsinə çatması ilə deyil, ictimai arenada əhəmiyyətli sayılmışdır. Xalqın feodal asılılığından xilası üçün göstərilən səylər tərəqqipərvər şair və mütəfəkkirlərin nəinki əsərlərində, həm də demokratiya, vətənpərvərlik carçılarının əməlində də özünü göstərirdi.

Bu mədəni, iqtisadi dirçəliş hərəkatında üç qüvvə birləşirdi: azadlıq, buna can atan bürqerlik və bir sıra dahi adamlar. 1775-ci ildə İlm sahilində yerləşən şəhərə baş çakan Göte birdaha oradan qurtula bilmədi. Vaymar onun ikinci şəhərinə çevrildi. Dövlət adamı və tədqiqatşı kimi o burada canlı və məhsuldar tasir dairəsi yaradan şair və sənətkar kimi ölməz əsərlərini yaratdığı vətən tapır. 1787-ci ildə Şiller "İlm Atena" *(Əfsanəvi Afina)* -ya yol tapdıqdan sonra burada özünün böyük milli dramını yazır, həmçinin bərabərliyinin və azadlığının ifadəsi kimi tamaşaya qoyulur. Bu dördlüyün bir yerə camlənməsi Götenin sözlərini bir daha təsdiq edir: "Qiymətli adamlar qiymətli adamları irəli çəkər". Vaymarın tarixində böyük rol oynayan geniş dairə belə yaranır. Böyük əksəriyyəti bürqerlərdən ibarət sadə adamların və Vaymarin nümunəvi olmasında xidmətləri var. Bununla da feodalizm addımbaaddım geri çəkilirdi. Göte calışırdı ki, vətəndaşların istəyi hökumət tərəfindən gerçəkləşdirilsin. Onun dövlətdə tutduğu vəzifə buna imkan verirdi.

"Aşağıdan" arzu olunan və əl çatmaz olan hər şeyin yuxarıdan izahat yolu ilə əldə edilməsinə çalışırdı. O dövlət xadimi kimi bütün ölkəni qarış-qarış gəzmiş və harada nəyə ehtiyac olduğunu yaxşı öyrənmişdi. Xalqın bütün təbəqələrinin səviyyəsini qaldırmağı gücü çatan qədər vəzifəsindən onların xeyrinə istifadə etməyə çalışırdı.

Göte dövlət adamı kimi bir çox işlər görür. Lakin Göte düşündüyü izahatın həyata keçmədiyini gördükdə addımlar atır, hersoqa heç nə demədən öz postunda fərarilik edir. Baş nazir Göte İtaliyaya qaçır, amma hersoq başa düşür ki, öz azad iradəli "yaxınını" itirməklə (bu qaçış Götenin qələbəsi idi) onun knyazlığı şan şöhrətindən məhrum olacaq. Görünməmiş bir Konkrodata (Roma papası ilə bağlanmış müqavilə) imza atır. Göte baş nazir rütbə və maaşını saxlamaqla asudə vaxtını üstün tutduğu xalqın maariflənmə işinə sərf etmək şərti ilə Vaymara qayıdır. Göte dəfələrlə nazir rütbəsinin onun yaradıcılığını sıxışdırdığını qeyd etmişdi. Onun bütün şüurlu həyatı xalqa xidmət idi.

Göte Harsdan göndərdiyi məktubunda vurğulayır ki: "Mən bu fürsətdən istifadə edərək xalq kütlələrini daha yaxından tanıdım, gördüm ki onlar adamların ən yaxşısıdır. Baxın onları nə qədər alçaldırlar, təhqir edirlər ancaq onlar sözsüz Allah dərgahında ən yüksək yer tuturlar" (1, s.116).

Götenin böyüklüyü onda olmuşdur ki, özündən əvvəlki yaxın adamlarından fərqli olaraq humanizm ideyalarına səhifələr açmışdır. Göte yazırdı: "Burada, Vaymarda, alman humanist

hərəkəti ilə milli şüuru yüksək inkişaf etmiş mənəvi birliyinin təməli qoyulmuş və ən yaxşı mənəvi dalğalar bütün dünyaya yayılmışdır..” (1, s.124).

XIX əsrin əvvəllərində kimyagərliyi kimya elmi əvəz edir va həyatda sənayenin rolu artırdı. Yeni elmi fikirlər və kəşflər yaranırdı. Hamin dövrdə texniki fikrin sürətli inkişafı başlandı. Götenin Vaymardaki muzeyi xatırladan evini təkcə antik heykəlciklər, bəzəklər məşhur rəssamların üzü köçürülmüş əsərləri, qravüralar, mineralfilizlər deyil, həm də ilk qatarın və dəmir yolunun da modelləri bəzəyirdi. Hər yerdə Suveyyş və Panama kanallarının, həmçinin Reynlə Dunayı birləşdirəcək kanalın qazılması barədə söhbətlər gedirdi.

Qoca yaşlarında olan Göte həyəcanla deyirdi: “Onların həyata keçməsini görmək üçün ömrü bir əli də uzatmaq lazımdır” (2).

Səkkiz onillikdən artıq dövrü əhatə edən Götenin həyatı Almaniyada böyük silkələnmələr və dəyişikliklər dövrünə düşür. Avropa, dünyanın hər iki yarımkürəsi bu vəziyyətdə idi. Dünyanın siyasi xəritəsi qərb yarımkürəsində Britaniya müstəmləkəsinin üsyanı və ABŞ -nın müstəqilliyinin təntənəli elanı, Böyük Fransa inqilabi və XVI Lyudovikin edamı, çox yaşamayan Respublika, həmçinin Napoleon Bonapartən əbədi olmayan imperiyası, onun məğlub edilməz ordusu və dünya hökmranlığı, "Böyük ordu"-nun Rusiyanın qarlı düzlərindəki məhvi, azadlıq müharibələri və əsir edilmiş "Korsika canavarı” uzaq Peterburqda dekabristlərin üsyanı və Götenin ömrünün sonuna yaxın lyul inqilabı və proletariatın ilk çıxışları.

1832-ci il 22 mart tarixlərində, ölümünə bir neçə saat qalmış, Göte bu fövqəladə hadisələr barədə fransız kitabından bir neçə sətir oxudu və çox zəiflədiyi üçün onu kənara qoyaraq dedi: "Tarix barədə o kəslər mühakimə edər ki, ... onun təsirini özündə hiss etsin”.

Götenin böyüklüyü ondadır ki, o yalnız öz zəmanəsindəki inkişaf edən elmlərin əsasını öyrənməklə kifayətlənməmiş, eyni zamanda yunan və şərq poeziyası ilə dərindən maraqlanmış, yeddi dil öyrənmişdir.

Bir çox mütəfəkkir sənətkarların həyatında olduğu kimi, Götenin həyat və yaradıcılığında da yaşadığı mühitə ziddiyyət, ictimai mövqeyi ilə şəxsi inamı arasında daimi mübarizə dərin izlər buraxmış, bir növ ikililik yaratmışdır. Biri öz vətənininsevən, o biri isə müharibələr üzündən şəhərlərin, kəndlərin viran olmasına acıyan, səfalətdə yaşayan xalqın vəziyyətindən qanı qaralan Götedir. Dövlət işləri ilə məşğul olan Götenin həssas sənətkar qəlbi gördüklərindən hayəcanlanır və bir şair kimi öz dərin humanist hisslərinin yaşadığı zamanadəki feodalizm cəmiyyətinin qayda qanunları ilə bir araya sığmadığını hiss edirdi. Buna görə də Göte insanın qəlb aləmindən, hisslərindən danışarkən həmişə sakitliyi sükunəti, insanlara qarşı laqeyd münasibəti rədd etmiş, soyuq hisslərdən uzaqlaşmış, insanları həyata səsləmiş, yalnız sənətin xatirinə yaratmamış öz qələmini olan bir hadisə kimi başa düşmüş, insanın fikir və hisslərinin azadlığı uğrunda fəal mübarizəyə həsr etmişdir. Göte poeziyanı ictimai mənası öz məhəbbətini ən səmimi lirik əsərlərdə ifadə edərkən yenə də ətrafındakı həyatı və cəmiyyəti heç bir zaman unutmamışdı. Heç bir şeyə ehtiyacı olmayan, 7 dil bilən 24 yaşından bütün Avropada tanınan hüquqşünas , varlı bir ailənin oğlu Göteni bu ruhun azadlığı və daxili müstəqillik fikirləri ilə, o, Kant fəlsəfəsinə yaxınlaşırdı.

Göte azad idi; öz ruhu, daxili aləmi, sevgiyə münasibətilə azad idi. O yazırdı: “Qanunabənzər və hökumət xalqı yox, xalqçılığı düşünməlidir. Və bu mənada qanun xalqçılığın aydın hiss edilən iradasi ola bilər" (4, s.46). Günorta saat 12-də özünü rahatsız hiss etdi va "mehr Licht" işığı artırın deyə tələb etdi. O ölərkən belə çox işıq arzuladı. Göte öz sənətini insanla qırılmaz surətdə bağlamış, əsərləri ilə insanın mənəvi aləmini işıqlandırmağa ciddi əhəmiyyət vermişdir. Saflığını qoruyub saxladı. O, sadə insanlardanonların öz dilində yazmaqla alman dilini bədii dil səviyyəsinə qaldırdı.

Ədəbiyyat

1. Geschichte der deutschen Literatur - Von den Anfangen bis zur Gegenwart 1806-1830.
2. Duden - Das grosse Wörterbuch der deutschen Sprache in 8 Bänden. Mannheim, Leipzig Wien, Zürich.
3. Damm S. Christiane und Goethe Eine Recherche Frankfurt am Main und Leipzig Insel Verlag Frankfurt 1998.
4. Гете Й.В. Из моей жизни. М.Художественная литература 1969.

Э.И.Исмаилова

Германия и формирование И.В.Гете как поэта во второй половине XVIII в.

Резюте

В связи с тем, что экономически положение Германии XVIII века было не на высоком уровне, в науке не было каких-либо достижений. Среди молодых поэтов Германии XVIII века был поэт И.В.Гете. Он хотел осуществить ряд мероприятий направленных на борьбу с событиями происходящими в обществе.

E.I.Ismayilova

Germany and the formation of J.W.Goethe as a poet in the second half of the XVIII century

Summary

No progress was observed in science due to lover level of German economy during the same period. Young poets of XVIII centure also include J.W.Goethe. He intended to take different measures participating in the struggle against events of the society. Thats why Goethe attached significante to englighten the moral world of the human in his works.

Rəyçi: dos. K.B.Hacıyeva

Redaksiyaya daxil olub: 06.12.2021

S.B.MƏMMƏDOV
e-mail: memmedov.subhan@gmail.com

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

USMAN AVANQIN HƏYAT VƏ YARADICILIĞI

Açar sözlər: *Malayziya ədəbiyyatı, Usman Avanq, Utih ata, Ah müəllimlər*
Ключевые слова: *малазийская литература, Усман Аванг, Утих ата, учителя Ах.*
Key words: *Malaysian literature, Usman Awang, Father Utih, Teacher, oh, teacher.*

Malay xalqı bəşəriyyətə çoxlu sənətkarlar, mütəfəkkirlər bəxş etmişdir ki, bunlardan biri də şair, yazar, publisist, dramaturq Usman Avanqdır. Avanqın yaratdığı bədii irs malay xalqının zövqünü oxşamış və xalq içərisində geniş oxucu kütləsi qazanmışdır. Xalqın sevgisi nəticəsində Usman malay xalqının milli şairi səviyyəsinədək yüksəlmişdir. Qeyd edək ki, Avanq şairin təxəllüsüdür və Usman adı ilə birlikdə çəkilməlidir.

O, 12 iyun 1929-cu ildə Malaziyanın Kuala Sedili əyalətnin Johor bölgəsində anadan olmuşdur. Onun ailəsi həddən artıq yoxsul idi. Qeyd edək ki, yoxsulluğun üzündən Usman orta məktəbdə cəmi 6 il oxuya bilmişdir. Yaponların bu bölgələri işğal etməsi Usmanın yeniyetmə çağlarına təsadüf etmişdir. İşğal zamanı yapon əsgərləri Usmanı oğurlayıb özləri ilə aparmış, onu istismar edərək əməyindən faydalanmışlar. Müharibə bitdikdən sonra Usman polis qüvvələrinə qatılaraq 1946-1951-ci illərdə Johor və Malakkada polis kimi fəaliyyət göstərmişdir. 1951-ci ildə Sinqapura köçən Usman burada "Melayu Raya" qazetində fəaliyyətə başlamış, daha sonralar həftəlik "Mingguan Melayu"ya qoşulmuşdur. 1952-ci ildən gündəlik olaraq "Utusan Melayu" qəzetində malayca şeirlərini və təmsillərini çap etdirməyə başlayır. Malayziyanın 1957-ci ildə müstəqillik qazanmasından sonra Usman Kuala Lumpurda yaşamağa başlayıb. 1985-ci ilə qədər "Devan Bahasadan Pustaka" adlı beynəlxalq dil redaksiya mərkəzində əmək fəaliyyətinə davam edib.

Şairin ictimai fəaliyyəti də diqqətəlayiqdir. O, 1961-ci ildən 1965-ci ilədək "Pena" ədəbiyyat təşkilatının ilk rəhbəri olub. 1964-cü ildə başqa əqidədaşları ilə birlikdə malay dilinin Malayziyanın rəsmi dili kimi "Keranda 152" olaraq bilinən statusunun ləğv edilməsinə qarşı bir ictimai hərəkat yaratmışdır. 1986-ci ildə hazırki "İnstitut Terjemahan Buku Malaysia" olaraq bilinən Malaziya Tərcümə və Yaradıcı Əsərlər Şurasının yaradılması təşəbbüsü ilə çıxış edib. 1992-ci ildə yaradıldığı andan etibarən "Malayziya-Çin" Dostluq Cəmiyyətinə sədrlik etmişdir. Ədib 29 noyabr 2001-ci ildə 72 yaşındaykən ürək infarktından vəfat etmiş və Bukit Kiara müsəlman məzarlığında dəfn edilmişdir.

Yaradıcılığa XX əsrin əllinci illərindən başlayan ədib ilk vaxtlar öz əsərlərində "Tongkat Emri" ("Baton") təxəllüsünü işlətmişdir. Cəmiyyət üçün ədəbiyyatın vacibliyini müdafiə edən "Asas-50" hərəkatının yaradıcılarından biri olan şair bir neçə şeirlər toplusunun, iyirmidən artıq pyesin, bir romanın (Tulang-Tulang Berserakan – "Dağınıq sümüklər"), çoxlu sayda qısa hekayə və qəzet məqalələrinin müəllifi olmuşdur. Onun əsərləri ondan artıq xarici dilə tərcümə edilmişdir.

Qeyd edək ki, Usman Avanq ictimai mövzuları əks etdirən əsərləri ilə daha çox tanınmışdır. Onun qələmə aldığı mövzular, əsasən, xalqın yoxsul və cahil olması, dövlət idarəçiliyində mövcud olan naqisliklər, məmurların özbaşınalığı və müftəxorluğunu, xurafatı və s. əhatə edir. Şair dövrünün problemlərini dilə gətirmək üçün əsasən sajak və poema janrlarında əsərlər yazmağa üstünlük vermişdir. Onun "Quşlar cəmiyyətindən valiyə məktub", "Utih ata" və s. poemaları deyilənlərə misal ola biləcək əsərləridir.

Sənətkarın 1954-cü ildə qələmə aldığı "Utih ata" poeması ictimai məzmun kəsb edir və yaradıcılığında bu baxımdan önəmli yer tutan nümunələrdən sayılır.

Əsər iki hissədən ibarətdir: birinci hissəsində baş qəhrəman Utih ata haqqında məlumat verilir, Utih atanın ailəsi haqqında danışılır. Onun timsalında malay kəndlisinin şəxsi keyfiyyətləri, sosial vəziyyəti və güzəranı təsvir edilir.

İkinci hissədə isə rəhbər vəzifədə olanların zəngin həyat tərzləri, seçki uğrunda mübarizələri və yenidən seçilmək üçün sadə xalqı necə aldatmaları əks olunur. Birinci hissədə tanıdılan, həyatı haqqında danışılan insanların ikincilərlə zidd olan sosial vəziyyətləri nəzərə carpdırılır.

Ölənədək sevən bir arvadı vardır onun,
Hər gün yemək tələb edən beş övladı vardır onun.

Göründüyü kimi, Utih atanın beş uşaqlı böyük ailəsi vardır. Onlar yoxsulluqla imtahan olunsalar da çox xoşbəxtdirlər. Sadə kəndli həyatı Utih atanı o qədər də narahat etmir. Çünki o həyat yoldaşından və uşaqlarından böyük sevgi və ehtiram görür.

Onun cəmi varidatı əkin üçün quru torpaq,
Nağıllardan miras qalmış köhnə daxma vardı ancaq.

Bu ailənin bütün mirası köhnə daxma və əkinə tam da yararlı olmayan bir az şoranlaşmış quru torpaqdır. Utih ata da digər kəndlilər kimi öz torpağını əkib becərir və ailəsini bu yolla ərzaqla təmin edir. Qeyd edək ki, bu cür məşğuliyyət adi malay kəndlisi üçün xarakterikdir.

İşləməkdən qabar olmuş, ləkə düşmüş əllərinə,
Zəhəmət təri, alın təri-bu yazılıb qədərinə.

Poemada Utih atanın zəhmətkeşliyindən danışılır. Qızmar Günəş altında əkinlə məşğul olan zəhmətkeş ata işləməkdən tərləyir. Onun əllərinin içi işləməkdən qabar-qabar, dərisi qapqaradır.

Utih ata-sadə kəndli düşür ağır isitməyə,
Çarə olmur sehr, dua, təbib gəlir köməyinə.

Bu sadə kəndlinin xoşbəxtliyi uzun sürmür. Əhali arasında yayılmış malyariya xəstəliyi Utih atanı da öz cənginə alır. Xəstəliklə mübarizə aparan ailə rahibə müraciət edir və Utih atanın həyatda qalması üçün çoxlu sehrlər edilir, dualar oxunur. Bunların təsirsiz olduğunu görən ailə daha sonra kənd təbibini köməyə çağırır.

Təbib başlarkən işinə, sehr, cadu lənətlənir.
Kənd təbibi pul və çolpa, mükafatla evə gedir.

Təbib öz işinə başlayır, eyni zamanda cadu, sehr kimi cahil adətlər lənətlənir. Kənd həkimi işini uğurla bitirir, evinə pul və hədiyyələrlə uğurlanır.

Poemanın ikinci hissəsində isə, əsasən, seçki uğrunda mübarizə aparan liderlərlə bağlı lövhələr təsvir edilir.

Şəhərlərdə liderlərin qışqırığı davam edir,
Azad seçki, müstəqillik, firavanlıq vəd edilir.

Böyük şəhərlərdə gedən seçki təbliğatı insanlar arasında həyacana və canlanmaya səbəb olur. Liderlər və onların təbliğatçıları bir-birinin ardınca qışqıraraq insanları seçkiyə səsləyirlər. Xalqa azadlıq, firavan güzəran vəd edirlər.

Suverenlik ölkəsində firavanca yaşamaqdır
Axirətə qızıl körpü, zəfər parlaq işıq saçır.

Liderlər xalqda inanc formalaşdırmağa çalışırlar ki, bu dünyanın azad seçkisi və firavan həyatı axirət dünyasına keçid edən qızıl körpüdür.

Maşınlarında liderlər addım-addım irəliləyir,
Sinələri genişlənir, əllərini yelləyir.

İnsanlara azadlıq, arxayınlıq aşılayan liderlər öz maşınlarında sinələrini qabağa verərək özlərinə əmin şəkildə irəliləyirlər.

Hər tərəfdə ziyafət var, hər tərəfdə şadyanalıq,
İnsanlara ismarlanır qızardılmış ləziz toyuq.

Vəzifəyə seçilmək üçün şəhərlərdə bayram əhvali-ruhiyyəsi yaradan liderlər Utih ata kimi sadə, zəhmətkeş, məzlum kəndlilərin min bir zəhmətlə bəslədiyi körpə çolpaları qızardılmış formada insanlara paylayaraq özlərinə xalq arasında hörmət qazanırlar.

Kənddən gələn bu toyuqlar firavanlıq vəd edirlər,
Ata Utih bax hələ də rahiblərdən dua gözlər.

İnsanlara bir anlıq elə gəlir ki, bu liderlər rəhbər olarsa, kəndlilərin güzəranları hər zaman yaxşı olar və onlar həmişə dadlı, qızardılmış toyuq yeyərlər. Liderlər bu yolla xalqa firavanlıq vəd edirdilər. Utih ata kimi kəndlilərsə dünyaya öz pəncərəsindən baxaraq, sadəlövhcəsinə rahiblərdən dua gözləyirlər, gələcək gözəl günlərə hələ də ümid bəsləyirlər.

Hər tərəfdə ziyafət var, hər tərəfdə var şənliklər,
Özlərinin limuzinində hara gedir bu liderlər? (3).

Bu izdihamlı şənliklərdə liderlər öz limuzinlərində küçələrdə böyük kütlə arasında irəliləyirlər. Şair bununla liderlərin sadə xalqdan fərqli həyat tərzinə malik olmasına, həddən artıq zənginliklərinə işarə edir.

Modern poetik üslubda yazılmış poemanın məzmunu anlaşıqlı, dili isə xalqın anladığı şəkildədir. Zamanın nəbzinə uyğun olaraq bu əsərdə lider, suveren, seçki kimi siyasi terminlərdən istifadə olunmuşdur. Poema realist səlis bir dillə yazılmışdır. Bənzətmə və simvollara, başqa bu kimi bədii vasitələrə az yer verilmişdir.

Müəllifinin çoxsaylı əsərləri arasında "Ah müəllimlər" adlı sajakı da xüsusi əhəmiyyətə malikdir. Bu əsərində müəllif müəllimin cəmiyyətdəki roluna toxunur, onun önəmini göstərir, fikirlərini poetik dillə şərh edir. Həmin şeirdə şairin lirik qəhrəmanı müəllimdir. Müəllim bütün elmlərin sütunu və açarı rolunda təqdim edilir. Şair bu peşəni müxtəlif şəkildə nəqşləndirir, açılmamış qönçələri, körpəcə çiçəkləri-uşaqları qoruyan, böyüdən, zəkalarını aydınladan şam kimi təqdim edir.

Usman Avanq burada müəllim peşəsinin ucalığından və müqəddəsliyindən danışır və müəllimin daşımalı olduğu şəxsi keyfiyyətləri özünəməxsus şəkildə dəyərləndirir, onun mənəvi yüksəkliyini birmənalı olaraq dilə gətirir. Sajakda müəllim olduqca dürüst və səmimi xarakterdir. O, öz şagirdləri üçün həm ata, ana, qardaş, həm də dost və sirdaşdır.

Müəllim sədaqət və məsləhət mənbəyidir. Şairə görə bütün insanların öndəri olan müəllim bilgəliyin min ilin bəhrəsi olduğunu söyləyir və şagirdlərinə zəkalı olmalarını tövsiyə edir. Bu gün bir məmur müvəffəq şəkildə xalqına xidmət edirsə, yaxud bir vəkil yüksək natiqlik nümayiş etdirərək məhkəməni qazanırsa, başqa bir insan müdriklik səviyyəsinə yetişirsə, ya da tanınmış bir yazar olursa, belə şəxsiyyətlərin hər birinin yetişərək ərsəyə gəlməsində müəllim zəhməti vardır. Bu cür insanların peşə tarixçəsi adi bir müəllim tərəfindən başladılmışdır. Müəllim incəliklə və səbirlə öz şagirdlərinə oxumağı, yazmağı öyrədir. Məkandan aslı olmayaraq müəllim istər Hulu Terengganunun qədim məktəb binasında, istərsə də paytaxtın ən görkəmli məktəbində şagirdinin qarşısında çox əzəmətli görünür, çünki o, min kitabı təmsil edən müqəddəs bir zatdır.

Şair sajakının sonunda müəllimlərin yaşlandığı zaman yalnızlığa çəkilməsini məyusluqla ifadə edir və onlara xitab edərək ömürlərinin sonlarınadək ölkəyə faydalı olmalarını tövsiyə edir.

Qeyd etməliyik ki, şeirin bədii-poetik dili olduqca təsirlidir. Belə ki, öz oxucusuna yüksək səviyyədə estetik həzz bəxş edir. "Qönçə çiçəyin başlanğıcı olduğu kimi, müəllim də elmin başlanğıcıdır" bənzətməsi şairin incə duyğularından xəbər verir və dəqiq, yerində işlədilmiş bədii vasitədir.

Bundan başqa müəllim işığa bənzədilir ki, bu da yerində işlədilmiş bədii ifadədir. Çünki işıq qaranlıqda parladığı ilk andan hər tərəf aydınlanır. Müəllim də qaranlıq beyinlərə sanki bir işıqdır, insan zəkasını aydınlatmaq onun xilqətindədir.

Qeyd edək ki, müəllim mövzusu dünya ədəbiyyatında da çox aktualdır. Demək olar ki, əksər xalqların ədəbiyyatında müəllimə həsr edilmiş şeirlərə rast gəlmək mümkündür. Eləcə də Azərbaycan ədəbiyyatında bir çox şairlər müəllimlərə gözəl şeirlər həsr etmişlər. Belə şairlərdən Bəxdiyar Vahabzadə, Nüsrət Kəsəmənli və başqalarının adlarını çəkmək olar.

Ziyalı olmasa kor olar millət,
Caynaqlar altında hey çəkər zillət.
Sənətin hamısı gözəldir əlbət,
Bütün peşələrin gözüdür müəllim.

Nüsrət Kəsəmənliyə aid olan yuxarıdakı bənddən aydın olur ki, istər Azərbaycan, istərsə də, malay ədəbi fikir tarixində müəllim tipi eyni əhəmiyyətə malikdir və bu peşə müqəddəs hesab edilir. Müəllim xarakteri həm Azərbaycan, həm də malay ədəbiyyatında insanlıq, ləyaqət və xeyirxaqlıq mücəssəməsi kimi təqdim edilir və kamil bir şəxsiyyət kimi hörmətlə anılır.

Göründüyü kimi şairin müxtəlif mövzularda qələmə aldığı bir-birindən dəyərli əsərlər hər zaman olduqca maraqlıdır və həmişə öz yüksək qiymətini alır. Bu qiymət həm onun yazdığı əsərlərə verilən oxucu və tənqidçi qiyməti, həm də müxtəlif nüfuzlu təşkilatların layiq gördüyü mükafatlardır.

Görkəmli sovet şərqşünası B.B.Parnickel Usman Avanqın fəaliyyətinə aşağıdakı kimi qiymət vermişdir: "Zəngin, nəşəli və ənənəyə sadiq bir üslubla, vətəni, sevgisi, azadlığı haqqında çox və coşqulu bir şəkildə yazır. Onun duyğularının dalğası oxucularına, həqiqətən də, sehrli bir şəkildə təsir edir"

Usman Avanq ədəbi fəaliyyəti dövründə bir çox mükafatlara layiq görülmüşdür. Bunlardan bir neçəsinin adlarını aşağıda sıralamağı məqsədəuyğun hesab edirik:

• SEA Yazma mükafatı (1982)
• Dövlət Ədəbiyyat Mükafatı (1983)
• Malaziya Beynəlxalq Mükafatı sahibi (1983)
• Malayzyia Universiteti Fəxri Doktoru
• Darjah Kebesaran, Perak Sultanı və "Dato" ünvanı (1991)

Qeyd edək ki, malay xalqı ilə yanaşı Malayziya dövləti də ədibə yüksək dəyər vermişdir. Malayziyanın müstəqil olduğu dövrdən etibarən bu daha da çox nəzərə çarpmağa başlamışdır. Onun adının əbədiləşdirilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilmişdir. Ədibə hörmət əlaməti olaraq Malayziyada aşağıdakılar da daxil olmaqla bir çox məkan və müəssisələrə hökümət tərəfindən Usman Avanqın adı verilmişdir: Sekolah Kebangsaan Dato Usman Awang (Usman Avanq adına ibtidai məktəb), Sekolah Menengah Kebangsaan Dato Usman Awang (Usman Avanq adına orta məktəb), Jalan Dato Usman Awang Sedili (Johorda bir yol).

15 May 2014-cu ildə Kuala Lumpurda Usman Avanq adına bir fond təsis edildi. Həmin fond tərəfindən hər il Usman Avanqın adını daşıyan Beynəlxalq İnteqrasiya Mükafatı layiq olan şəxslərə təqdim edilməyə başlanılmışdır. 2016-ci ilin aprel ayında ədibin fotoşəklini əks etdirən marka və zərf çap olunmuşdur.

Ədəbiyyat

1. B.B. Parnickel. The hard truth of Usman Avang. Usman Awang. Tam Gde Ikh Nastigla Pulya (Where they were hit by a bullet). Translation from Malay. M.: Nauka, 1984.
2. usman awang guru oh guru
https://www.academia.edu/13789415/SAJAK_GURU_OH_GURU
3. usman awang "pak utih"
http://sitisenang.blogspot.com/2013/01/sajak-pak-utih-usman-awang.html
4. usman awang deritapak utih
http://matsejarah.blogspot.com/2019/10/usman-awang-derita-pak-utih-dan.html

С.Б.Мамедов

Жизнь и творчество Усмана Аванга

Резюме

В статье исследуется жизнь и творчество выдающегося малазийского писателя Усмана Аванг. Анализируется жизнь писателя от детства до смерти, доводится до сведения читателей и приводятся отдельные примеры его творчества. Обсуждаются колоритные стихи поэта, изучаются его стихи. Кроме того, было проанализировано стихотворение поэта «Ах учителя» и переведены части стихотворения «Утих ата» на азербайджанский язык.

S.B.Mammadov

Life and work of Usman Avang

Summary

The article examines the life and work of prominent Malaysian writer Usman Avang. The author's life from childhood to death is analyzed, brought to the readers' attention and certain examples of his work are given. The poet's colorful poems are discussed and his poems are studied. In addition, the poet's poem "Teacher, oh, teacher" was analyzed and parts of the poem "Father Utih" were translated into Azerbaijani.

Rəyçi: filol.e.d., prof. C.Nağıyev

Redaksiyaya daxil olub: 09.10.2021

S.PAŞAYEVA
dissertant

Naxçıvan Dövlət Universiteti
(Naxçıvan şəh., Universitet şəhərciyi)

MARK TVEN VƏ M.F.AXUNDOVUN TƏNQİDİ REALİZMİ VƏ FƏLSƏFİ BAXIŞLARI
(“Aldanmış kəvakib” povesti və “Kral Arturun sarayında Konnektikutlu Yanki” romanının müqayisəli təhlili əsasında)

Açar sözlər: *Mark Tven, Mirzə Fətəli Axundov, roman, Kral Artur, Yanki, Aldanmış kəvakib, Yusif Sərrac, satira, tənqid, realizm, parodiya*
Ключевые слова: *Марк Твен, Мирза Фатали Ахундов, роман, Крал Артур, Янки, Обманутые звезды, Юсиф Саррадж, сатира, критика, реализм, пародия*
Key words: *Mark Twain, Mirza Fatali Akhundov, novel, King Arthur, Yankee, A Deceived Star, Yusif Sarraj, satire, criticism, realism, parody*

1880-ci illəri Amerika yazıçısı Mark Tven yaradıcılığının ən məhsuldar dövrü hesab etmək olar. O, bu illərdə daha fəal idi. Bu dövrdə gərgin ictimai-siyasi vəziyyət Mark Tvenin “Kral Arturun sarayında Konnektikutlu yanki” (1889) romanında öz əksini tapdı. Burada orijinallıq ondan ibarət idi ki, yazıçı müxtəlif bədii janrları romanda sintez etdi. Romanda həm sosial-utopik macəra janrı, ayrı-ayrı epizodların real mənzərəsi fantastika ilə birləşdirilir, həm də Yankinin qətiyyətli ideloloji “məqsədləri” intibah dövrünün fəlsəfi povestləri ilə səsləşirdi. Yazıçı obrazla bərabər “İdrak əsri”nin ənənələrinə uyğunlaşırdı, həm də əsərdə tarix və müasirlik problemlərini qabardırdı.

Müəllif romanın ön sözündə qeyd edir ki, burada məqsəd təkcə “kobud qanun və ənənələri” ifşa etmək deyil, həm də öz təbəələrini idarə edən kralların “ilahi hüquqlarını” şübhə altına qoymaqdır.

Romanın ideyası 1880-ci ilin ortalarında yaranmışdı. O zaman Mark Tven Tomas Melorinin məşhur “Arturun ölümü” romanını oxumuşdu. Qəhrəman seçimi də maraqlıydı: milli xarakteri olan adi bir amerikalı Henk Morqan! O, sağlam düşüncəli bir adamdır, yankidir[1], onun atası dəmirçidir, əmisi veterinardır, özü də bir neçə ixtisas öyrənib. Sonra silah zavoduna işə girir. Yanki gözəl ustadır, tüfəng, tapança, top, paravozlar, dəzgahlar düzəldir...” *Mənim əlimdən hər şey gəlirdi, lazım olan bütün şeyləri düzəldirdim, dünyada nə cür şey varsa, hamısını düzəldə bilirdim...”* Romanın süjeti fantastik situasiya ilə müəyyən olunur: Herkules Yanki adında bir nəfər bir cavanla mübahisə edərkən başından zərbə alır, huşunu itirir, özünə gələndə 528-ci ilə düşür, əfsanəvi kral Arturun dövrünə və sarayına...

Əsərdə qəhrəmanlıq romanlarından bizə tanış olan bir çox persanojlar var: kral Artur, kraliça Hinevera, fen Morqan, cəngavərlər Lanselot, Qalahad, sehirbaz-cadugər və münəccim Merlin və başqaları. Yazıçı bütün bu obrazlara şarj, bəzilərinə isə parodiya yaradıb. Burada cəngavər əxlaq və dəyərləri, adətləri, möcüzələrə inam, uydurma və magiyalara aldanmaq, demək olar ki, hər şey kinayəli gülüş doğurur, gülməli və absurddur. Yanki praqmatik və saf qəlbli adamdır, XIX əsrin sağlam düşüncəli insanıdır, düşüb bu feodal təfəkkürlü insanların arasına, görür ki, burada hər şey insanın istismarına yönəlib, soyğunçuluq və qanunsuzluq baş alıb gedir.

Yeri gəlmişkən, elə burada da qeyd edək ki, tədqiqata cəlb etdiyimiz Azərbaycan yazıçısı Mirzə Fətəli Axundovun “Aldanmış kəvakib” povestində də Yusif Sərrac Yanki kimi eyni situasiyaya düşür. Zaman və məkan fərqinə baxmayaraq, hər iki qəhrəmanın amalı və

[1] Yanki (ing. Yankee): Amerikada Yeni İngiltərə sakinlərinin təxəllüsüdür; daha sonralar şimal ştatlarında yaşayanlara da “Yanki” deyirdilər. Bu termin XVIII əsrdən başlayaraq yayılmağa başladı, əsasən ABŞ-ın şimal-şərq regionlarında məskunlaşmış sakinlərə deyirdilər (-S.-P.-).

məqsədi birdir: despotizmə, ədalətsizliyə, nadanlığa və soyğunçu məmur özbaşınalığına, qəddar üsul-idarəyə qarşı çıxır.

Məlumdur ki, Azərbaycan ədəbiyyatında dramaturgiyanın və realist ədəbi tənqidin banisi, materialist filosof və "müsəlman Molyeri" kimi tanınmış M. F. Axundov (1812-1878) Mark Tvenin yaradıcılığının ən fəal vaxtı dünyadan köçmüşdü, lakin onun çoxşaxəli yaradıcılığı, maarifçilik ideyaları, avamlığa, dini xurafata, mədəni geriliyə, despotizmə və feodalizm qalıqlarına qarşı mübarizəsi, humanist fəlsəfi və dini baxışları müəyyən mənada Mark Tvenlə və onun ədəbi-estetik və fəlsəfi baxışlarıyla üst-üstə düşür. M. F. Axundovun idealları və ideyaları hələ X1X əsrin ortalarında, ədibin yaradıcılığının məhsuldar dövrlərində meydana gəlmişdi – Mark Tven hələ yeniyetməlik çağlarını yaşayırdı. Nəzərə alsaq ki, M. F. Axundov Şərqdə, Mark Tven isə okeanın o biri üzündə yaşayırdı və hələ ədəbiyyata gəlməmişdi, Azərbaycan ədibinin daha orijinal olduğu və novatorluğu aşkara çıxar. Lakin biz Axundovun "Aldanmış kəvakib"ə qədərki dövrünün xarakterisitkasını da nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik. Çünki M.F. Axundov "Aldanmış kəvakib" əsərini Mark Tvendən əvvəl, 1857-ci ildə yazmışdı və bu əsərin meydana çıxması da müəyyən tarixi, ictimai-siyasi və sosial səbəblərlə bağlıydı.

Mirzə Fətəli Mark Tvendən fərqli olaraq povestinin mövzusunu tarixçi İsgəndər bəy Munşinin I Şah Abbasın hakimiyyətindən bəhs edən "Tarixi-aləmarayi-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") adlı kitabından götürmüşdür. Yazıçının istinad etdiyi hadisənin qısa məzmunu belədir: münəccim Mövlanə Cəmaləddin Yəzdi I Şah Abbasa xəbər verir ki, yaxın vaxtlarda göydə ulduzlar toqquşacaq və bundan şaha bədbəxtlik üz verəcək. Şahı bu bəladan qorumaq üçün cəzaya layiq bir adamı müvəqqəti olaraq onun yerinə taxta əyləşdirmək qərara alınır. Çöp Yusif Sərrac adlı bir nəfərə düşür və o, şah elan edilir. Üç gündən sonra axtarış zamanı Yusif Sərracın evindən şərab tapılır, beləliklə, o, dinə xəyanətdə suçlanaraq edam edilir. I Şah Abbas yenidən öz taxtına əyləşir.

Bu, tarixi hadisədir və yazılanlardan belə görünür ki, həqiqətən baş vermişdir. Lakin Mirzə Fətəli tarixi hadisəni yeni ruhda təqdim elədi, onu öz dövrü ilə əlaqələndirdi. Yəni, tarixdə baş vermiş məlum hadisə maarifpərvər yazıçıya öz mütərəqqi dünyagörüşünü, humanist ideyalarını, siyasi-fəlsəfi baxışlarını ifadə etmək üçün bir platforma rolunu oynadı.

Mirzə Fətəli belə hadisələrin timsalında nadanlığa və despotizmə, feodal qayda-qanunlarına əsaslanan şərq üsul-idarəsini satira atəşinə tutdu, eyni zamanda, öz humanist dünyagörüşünün, maarifçilik ideyalarının təcəssümü kimi ədalətli şah obrazı, mütərəqqi idarəetmə nümunəsi yaratdı.

Burada Mark Tveni Azərbaycan yazıçısı ilə ümumi bir xətt birləşdirir: feodal qayda-qanunlarına əsaslanan dövlət üsul-idarəsinin tənqid edilməsi.

Forma və məzmun baxımından "Aldanmış kəvakib"lə "Kral Arturun sarayında Konnektikutlu Yanki" biri birindən fərqlənsə də, bu əsərləri birləşdirən bir sıra cəhətlər də mövcuddur: "Aldanmış kəvakib"də Axundovun əsas tənqid hədəfi olan Şah Abbasdır, onun üsul-idarəsidir. Bu səbəbdən ölkə acınacaqlı vəziyyətə düşüb: kəndlər, şəhərlər viran qalıb, insanlar aclıq və səfalət içində yaşayırlar. Məhz buna görə də Yusif Sərrac taxta çıxandan sonra "*baxıcıları hüzura istəyib dedi: vilayətlərin hakimlərinə mənim tərəfimdən elan edərsiniz ki, Allahdan qorxsunlar, nahaq iş tutmasınlar, xalqı talayıb-dağıtmasınlar, rüşvət almasınlar. Yəqin bilsinlər ki, bu növ hərəkətlər axırda onların özlərinin bədbəxtliyinə və ölümünə səbəb olar…*".

Mark Tvenin "Kral Arturu"da da Yanki eyni hədəflərlə köhnə əsrdəki kral sarayına düşür və onun da eyni hədəfi var: kral Arturun üsul-idarəsi, köhnə qaydalar! Kral Arturun idarə etdiyi əyalətdə də tərəqqi yoxdur, insanlar işsizdir, məmurlar tənbəl, soyğunçudurlar. Yanki onları yenidən qurmaq istəyir.

Şah Abbas ölkəni idarə etməkdə aciz olduğu qədər də zalım və qəddardır. Onun hakimiyyətinin gücü despotizmdə və istibdaddadır. Kral Artur da ölkəni idarə etməyin yolunu gücdə və despotda görür. Cadugərlərlə, magiya ilə məşğul olan adamlarla oturub-durur, Yankiyə və onun azsaylı tərəfdarlarına həqarətlə baxır, yeniliklər, islahatlar aparmaq istəmir.

Feodal üsul-idarəsinin tipik hakimi kimi, Şah Abbasın xarakterini tamamlayan digər bir mənfi cəhət isə onun nadanlığıdır. Münəccimlər, baxıcılar, mollalarla oturub-durur. Şahın dövlət idarəçiliyini yaltaq, ikiüzlü, bacarıqsız məmurlara həvalə etməsi ilk növbədə onun nadanlığından irəli gəlir. Kral Artur da eyni dərəcədə neqativdir, onun idarə etdiyi ölkədə də eyni vəziyyətdir.

Azərbaycan yazıçısı saray əyanlarının daxili aləmini onların öz nitqləri vasitəsi ilə açıb rüsvay edir. Şah Abbasın ətrafında xalqı düşünən müsbət fikirli bir nəfər də məmur yoxdur ki, bu da ölkədəki üsul-idarənin mahiyyəti barədə konkret təsəvvür yaradır.

Göründüyü kimi, Amerika yazıçısı ilə Azərbaycan yazıçısını birləşdirən həm də hər iki əsərdəki obrazlardır, onların əməlləridir. Yusif Sərracla Yankidə oxşar cəhətlər çoxdur. Mark Tvenin "orta əsrlərə atılmış" islahatçı Yankisi kimi Yusif Sərrac da Mirzə Fətəlinin arzuladığı, həyatda görmək istədiyi, xalqa yaxın olan ağıllı və ədalətli hakim obrazıdır. Yusif ruhani təhsili alsa da, din xadimlərinin ikiüzlülüyü onu bu sahədən üz döndərməyə məcbur edir. O, sərraclıq (at yəhəri düzəltmək) sənətini özünə peşə seçir. Yanki də bir çox sənətləri mənimsəyir, dəmirçilik edir, əlindən hər iş gəlir. Yusif Sərrac həm də cəsarəti ilə fərqlənir. O, şahın zülmü, məmurların özbaşınalıqları, ruhanilərin ikiüzlülüyü barədə hər yerdə söhbət salır. Elə buna görə də ulduzların toqquşması təhlükəsi yarananda saray əyanları Yusif Sərracı şahlıq taxtına əyləşdirirlər ki, xətər ona dəysin. Paralel olaraq kral Arturun ölkəsində Yankini nazir vəzifəsində oturdurlar. Nazir olandan sonra Yanki də öz ətrafına tərəfdarlar toplayır, onların əksəriyyəti islahat görmək istəyən gənclərdir.

Hər iki povestdəki hadisələrin inkişafı və süjetdə baş verən dəyişikliklər təxminən eyni sonluqla bitir. Mark Tvenin təsvir etdiyi Yanki də əsl cənagavərdir, böyük ürək sahibidir, xeyirxahdır, inadcıldır, dekorativ personajlara, sentimental-romantik ədəbiyyatın təbliğ etdiyi obrazlara bənzəmir. Romanda satirik başlanğıc aydın nəzərə çarpır. Yanki cəngavərləri işə qoşur, onları məcbur edir ki, ticarətlə məşğul olsunlar, məhsulları satsınlar. Kral və saray məmurları barədə deyir ki, onlar müftə yeyənlərdir, tənbəl və yararsız adamlardır. Mark Tven şəxsiyyətə pərəstişi də kəskin tənqid edir. Yanki ateist deyil, lakin o, dəqiq anlayır ki, kilsə xadimləri arasında da şöhrətpərəst, lovğa, çirkaba bulaşmış və pis adamlar var.

Aşağıdakı sxemlərdə hər iki əsərdəki personajların oxşar və fərqli cəhətlərini görmək olar.

Sxem 2. "Kral Arturun sarayında Konnektikutlu Yanki" romanında
və "Aldanmış kəvakib" povestində əsas personajların oxşar cəhətləri



Sxem 3. "Kral Arturun sarayında Konnektikutlu Yanki" romanında və "Aldanmış kəvakib" povestində əsas personajların fərqli cəhətləri



Mark Tvenin romanı, əlbəttə, satirik xarakter daşıyır. Müəllif burada ekstralinqvistik və linqvistik üsullardan istifadə etmişdir. Bu da satirik effekti şərtləndirir. Əsər parodiya formasında yazılıb.

Romanda bir sıra epizodlar var ki, onlar XIX əsr Amerikasının ifşasıyla bilavasitə əlaqəlidir. Misal üçün, Yanki kral Arturu "əhliləşdirir", kəndli paltarı geyinir, çalışır ki, krala insanın nə qədər hüquqsuz olduğunu, yoxsul və miskin vəziyyətdə olduğunu, alçaldılmış və təhqir olunmuş olduğunu göstərsin. Demək istəyir ki, kral Artur onu itaətkar qul vəziyyətinə salıb, onu simasız edib. Yanki ona izah edir ki, VI əsrin İngiltərəsində kəndli dözülməz şəraitdə yaşayır, lakin bu zaman Yanki XIX əsrin leksikasından istifadə edir. *"Now make believe you are in debt, and caten up by relentless creditors; you are out of work – which is horse shoeing let us say – and can get none, and your wife is sick, your children are crying because they are hungry".*

Məlumdur ki, tarixdə Kral Artur olub; o, 5-6-cı əsrlərdə Britaniyanin əfsanəvi hökmdarı kimi tanınmışdı. Onu hətta mifləşdirmişdilər, barəsində cəngavərlik romanları yazılmışdı. Onu ideal kral adlandırmışdılar, müharibə və sülh dövründə ən yaxşı rəhbər kimi təqdim eləmişdilər. Lakin Mark bu mifləri dağıtdı.

Şah Abbas da Səfəvilər dövlətinin V hökmdarı olmuşdu. Şah İsmayıl Xətaidən sonra hakimiyyətə gəlmişdi və Avropada onu "Böyük Abbas" adlandırırdılar. O da tarixi şəxsiyyətdir, 1587-ci ilin oktyabrında Qəzvinin Cehelsütun sarayında 16 yaşında Səfəvi taxt-tacına gətirilmişdi. Onun haqqında tarixdə çoxlu ziddiyyətli fikirlər, biri-birini təkzib edən rəvayətlər də mövcuddur. Göründüyü kimi, iki tarixi şəxsiyyət – biri Avropada, biri də müsəlman Şərqində ədəbiyyata gətirilir və onların obrazlarına parodiya yazılır, hər ikisi satira atəşinə tutulur.

Bu məqamda da hər iki sənətkar birləşir və həm romanda, həm də povestdə bu tarixi şəxsiyyətlərin obrazlarına qarşı satirik və parodiya çalarlarının olması da bunu sübut edir.

Obrazların dilində fərqli cəhətlərdən biri budur ki, Axundov obrazları öz dilində, yəni 15-16-cı əsrdəki insanların dili ilə danışdırır. Lakin Mark Tven Yankini V1 əsrə gətirsə də,

burada o, müasir leksikadan istifadə edir; burada parodiya məqsədli leksika var. Bundan başqa Mark Tvenin yaratdığı satira çoxplanlıdır. Misal üçün, romanda demokratik Amerika mətbuatı satirayla təsvir edilir, digər tərəfdən orta əsr cəngavərlik romanlarına da lağ edilir. Mark Tven Amerika qəzetlərinə rişxəndlə gülür, mətbuatın savadsızlığına, iddialarına və kortəbii üslubuna qarşı çıxır, onun puldan asılı olduğunu qeyd edir. Çoxplanlı satira deyəndə biz bunu nəzərdə tuturuq, əsərdə ironiya Markın skeptisizmi kimi görünmür; sarkazm və ironiya heç vaxt yazıçının ictimai ideallarına qarşı ola bilməzdi. İroniya sadəcə bir vasitəydi, onun köməkliyi ilə yazıçı əsərdə daim fantastik süjetin şərtiliyini vurğulayır, romanın eyham və kinayəli xarakterini qeyd edir. Kinayə süjetin çərçivələrini daha da genişləndirir, oxucunu ümumiləşdirmələr aparmağa vadar edir.

Bu məqamda Azərbaycan yazıçısı ilə Amerika yazıçısı ayrılırlar: "Aldanmış kəvakib"də satira çoxplanlı deyil, orada müasir İran cəmiyyəti, ümumiyyətlə, çar Rusiyası ilə bağlı gəzişmələr yoxdur. Povestin daimi və sabit süjeti var, obrazlar və situasiyalar bir məkana və zamana aiddir. Şəxsiyyətə pərəstişə gəlincə, Axundov da eyni dərəcədə Şah Abbasın şəxsiyyətə pərəstişini ifşa edir. Mark Tven kral Aruturu adi adam kimi, zəif və nöqsan cəhətləri çox olan bir insan kimi təsvir edir. Mirzə Fətəli də Şah Abbası öz hakimiyyətini itirməkdən qorxan, sadəlövh, yuxulara inanan və ölkəni məmur özbaşınalığının qurbanına çevirən nöqsanlı insan kimi təsvir edir. Mark Tvendə belə bir səhnənin şahidi oluruq: kral Artur və onun əyanları cadugər Merlinin zəhlətökən nağılına qulaq asmamaq üçün ziyafət zamanı yatırlar: *"... the rats swarmed softly out from a hundred holes, and pattered about, and one of them sat up like a squirrel on the King's head and held a bit of cheese in its hands and nibbled it, and dribbled the crumbs in the King's face with naïve and impudent irreverence. It was a tranquil scene, and restful to the weary eye and the jaded spirit*."

"Aldanmış kəvakib"dəki Şah Abbasın yuxuya qulaqasma səhnəsi daha acı və kinayəli gülüş doğurur. "…*Şah bu vaxt çox cavan idi. Ömründən ancaq iyirmi iki il keçmişdi. Məlumdur ki, bu yaşda həyat necə şirin və əzizdir. Xüsusən yüksək bir mənsəbdə və səltənən taxtının üstündə olanlar üçün. Bu səbəbdən münəccimbaşının xəbəri cavan şahı qorxuya saldı. Haman saat rəngi qaçıb, guya ki, bihuş oldu. Bir dəqiqədən sonra başın qaldırıb Mirzə Sədrəddinə buyurdu ki:*

– Xub, mürəxxəsən, get!

Münəccimbaşı baş əyib qayıtdı. Şah yalqız qəsrdə yarım saat fikrə getdi, sonra xacə Mübarəki səslədi. Xacə hüzura daxil olduqda buyurdu ki:

– Fərraş göndər, bu saatda vəzir Mirzə Möhsünü və sərdar Zaman xanı və müstövfi Mirzə Yəhyanı və mollabaşı Axund Səmədi mənim hüzuruma çağırsın!..".

Göründüyü kimi, bu epizodun özü həm gülüş, həm də kinayə doğurur və ifşaedici xarakter daşıyır.

Mark Tvendə rəsmi katolik kilsəsinin sosial əhəmiyyəti satirayla açılır, bu zaman cadugər və sehrbaz, fırıldaqçı Merlin obrazından istifadə edilir. Merlin daim yalan danışır, inanclı və sadəlövh adamları daim aldadır.

Mirzə Fətəlidə də sehirbaz və ya cadugərə bənzəyən tiplər var: münəccimbaşı və molla. Onlar da yalançıdırlar, öz məqsədlərini həyata keçirmək üçün şaha yalan danışırlar. Camaatı aldadırlar. Burada müəllifləri birləşdirən ümumi tənqid hədəfi fanatizm, mövhumat və cəhalətdir.

Beləliklə, hər iki əsəri satirik adlandırmaq olar. Lakin amerikalı yazıçının romanında elə əlamətlər var ki, onlar başqa satirik əsərlərdən kəskin fərqlənirlər. Qeyd olunan romanı əyləncəli adlandrmaq olmaz – roman dərin pessimist əhval-ruhiyyəli əsərdir. Bunu da qeyd edək ki, yazıçı romanı elə bir dövrdə yazıb ki, o dövr Amerikada fəaliyyət göstərən hər iki siyasi partiya – həm demokratlar, həm də respublikaçılar onun ümidlərini doğrultmamışdılar. Belə bir siyasi iflas yazıçını dərindən məyus etmişdi. Elə romanda siyasi sistemin kəskin tənqid edilməsi də bununla izah olunmalıdır.

Şah Abbas Şərq despotizminin, onun başında duran monarx hökmdarların bütün səciyyəvi xüsusiyyətlərini öz varlığında əks etdirən real bir obrazdır.

Hər iki yazıçı tarixi fakt və hadisələri ədəbi faktura kimi istifadə edərək bədii ümumiləşdirmələr aparmış, dünya ədəbiyyatı tarixinə yeni töhfələr vermişdir. Əslində bədii həqiqət bundan ibarətdir.

Beləliklə, Azərbaycan yazıçısı "Aldanmış kəvakib"lə xalq hakimiyyətinin konsepsiyasını yaratdı. Təxminən ondan otuz il sonra isə Amerika yazıçısı Mark Tven "Kral Artur"da Yankinin dilindən yazacaqdı: *"Təbəqə və silk olan ölkədə insan – yalnız yarım insandır"*. Yanki kədərlə bildirirdi ki, heykəlləri krallara yox, ixtiraçılara qoymaq lazımdır, misal üçün Quttenberqə, Vatt, Arkrayta, Vitniyə, Morzeyə, Stefansona, Bellə... Romanın final hissəsində isə Mark Tven elə bir cəmiyyət təsvir edir ki, burada sosial ədalət var, respublika tipli demokratik qayda-qanunlar hökm sürür. Bu da Mark Tvenin konsepsiyası.

Bizim qənaətimizə görə, Axundov da, Mark Tven də müxtəlif kontinentlərdə yaşamalarına, müxtəlif inanclara və mənəvi-əxlaqi dəyərlərə tapınmalarına baxmayaraq yaratdıqları əsərlər həm dini-fəlsəfi nöqteyi-nəzərdən, həm də tarixilik baxımından ədəbiyyatda hadisə idi. Adıçəkilən əsərlərin ədəbiyyatşünaslıqda hələ bundan sonra da müxtəlif aspektlərdən araşdırılmasına ehtiyac olacaq.

Ədəbiyyat

1. Əlimirzəyev Xalid. M.F. Axundovun ideal və sənət dünyası. Bakı, Nurlan, 2007. 228 s.
2. Axundzadə Mirzə Fətəli. Seçilmiş əsərləri. 3 cilddə, Şərq-Qərb, Bakı, 2005, 296 s.
3. Axundov M.F. Əsərləri (üç cilddə), 3-cü cild. Bakı, Elm, 1988, 264 s.
4. Twain, M. A Connektickut Yankee at King Arthur's Court. M. Twain. M., 1992. P.33
5. Münşi İsgəndər bəy, Dünyanı bəzəyən Abbasın tarixi, Bakı, 2010, cild I, s.672 (s.372)
6. Hirst, Robert H. The Making of The Innocents Abroad: 1867–1872. Ph.D. diss., University of California, Berkeley, 1975, 95 p.
7. Friedman, Matt. New Jersey lawmakers want schools to stop teaching 'Huckleberry Finn'. October 7, 2019, 93 p.

С.Пашаева

Критический реализм и философские взгляды М.Твена и М.Ф.Ахундова
(На основе аналитических сопоставлении материалов повести "Обманутые звезды" и "Янки из Коннектикута при дворе короля Артура")
Резюме

В статье рассматриваются различные факторы, влияющие на творчество и мировоззрение Марка Твена и М. Ф. Ахундова. В литературно-теоретических установках, прозаическом творчестве и идейно-философских взглядах обоих художников на основе примеров показаны определенные сходства и различия. Анализируются средства и приемы, используемые Марком Твеном и Мирзой Фатали для создания смеха, обосновываются их типологическое сходство и различие. На наш взгляд, образ Юсифа Серраджа в рассказе "Обманутая звезда" и образ Янки в романе "Коннектикутский янки при дворе короля Артура" оба писателя в свое время выдвинули концепцию народной власти. В этом основная философская суть обоих произведений.

S.Pashayeva

Critical realism and philosophical views of Mark Twain and M.F.Akhundov
(Based on the comparative analysis of the novels "A Deceived Star" and "A Connektickut Yankee at King Arthur's Court")
Summary

The article deals with various factors affecting the works and worldviews of Mark Twain and M. F. Akhundov.In the literary-theoretical attitudes, prose creation and ideological-philosophical

views of both artists, certain similarities and differences are shown on the basis of examples.The means and methods used by Mark Twain and Mirza Fatali for creating laughter are analyzed, and their typological similarities and differences are substantiated. In our opinion, the image of Yusif Serraj in the story “Deceived Star” and the image of Yankee in the novel “A Connektickut Yankee at King Arthur’s Court” both writers put forward the concept of people's authority in their time.This is the main philosophical essence of both works.

Rəyçi: filol.f.d. K.İ.Nəzirli

Redaksiyaya daxil olub: 09.12.2021

T.RƏSULOVA
e-mail: tansu.kamal.94@mail.ru

DOI:10.48652/c1565-9260-0405-u

AMEA-nın Folklor İnstitutu
(Bakı şəh., İçərişəhər, Kiçik qala, küç., 31)

AŞIQ RƏVAYƏTLƏRİNDƏ YUXU MOTİVİ

Açar sözlər: *rəvayətlər, aşıq, yuxu, motiv, davranış modelləri, epik sujet.*
Ключевые слова: *предания ашуг, вещий сон, мотив, поведенческие модели, эпический сюжет.*
Key words: *ashug legends, prophetic dream, motive, behavioral models, epic plot.*

Yuxu fenomeni insan həyatının ən sirli hadisələrindən biridir. Yuxu bir çox elm sahələrində - fəlsəfədə, folklorşünaslıqda, ədəbiyyatşünaslıqda, semiotika etnologiya, psixologiya, psixososiologiya, son zamanlar isə yeni texnologiyaların köməyi ilə neyropsixika aspektində öyrənilir. Yuxulara dərin inamla bağlı C.Frezer yazır: "Yuxularda allahın insana görünməsi və ona öz iradəsini bildirməsi inamı qədimlərdə geniş yayılmışdır. Ona görə də insanlar təbii olaraq məbədlərə və digər müqəddəs yerlərə üz tutur, yuxuda allahları görmək və onlarla söhbətləşmək ümidilə orada uzanıb yatırdılar. Həm də belə güman edirdilər ki, tanrı və ya ölmüş insanın ilahiləşdirilmiş ruhu kult yerlərində görünə bilər" (12, s.267).

D.A.Neçayenkonun fikrincə, "Yuxular arxaik dövrün insanlarında dini inancların və ruh haqqında ideyaların yaranmasına səbəb olmuşdur. İbtidai insanın təsəvvürlərinə görə, poetik təb, sevgi, təbiət stixiyaları kimi, yuxu da ilahi, ali qüvvələrin sakral mistik təzahürüdür" (1, s.9). Y.M.Meletinski ibtidai qəbilələrin folklorundan bəhs edərkən onu "mifik "yuxu" "zaman" adlandırır (2,s. 26).

Əski zamanlarda yuxuların tayfa – qəbilə ağsaqqalları tərəfindən yozulması yuxunun sakrallığından xəbər verir, çünki yuxuyozma ritualı özlüyündə bir sıra tabulardan ibarət idi və qəbilə-tayfa üzvlərinin sakral hərəkətləri ilə müşayiət olunur. Yuxudakı işarətlərinin yozulması üçün tayfa ağsaqqalları çağırırdı, əcdad ruhlarına və müqəddəs yer-suya qurbanlar kəsilirdi.

Azərbaycan folklorşünaslığında dastan ənənəsində (xüsusən məhəbbət dastanlarında) yuxu motivləri geniş öyrənilsə də, aşıq rəvayətlərində, xüsusən ustad aşıqların həyatı ilə bağlı sujetlərdə oneyromotivlər bir qədər diqqətdən kənarda qalmış kimi görünür.

Azərbaycan şifahi xalq yaradıcılığının janr sistemində aşıq rəvayətləri özünəməxsus yer tutur. "Ustad aşıqların başına gələn maraqlı əhvalatlar, qarşılaşdıqları hadisələr, şəxsi həyatları ilə bağlı qeyri-adi məqamlar el-elat arasında yayıldıqca folklorlaşma prosesi sürətlənir. Istər etnosun sıravi nümayəndələri, istərsə də peşəkar folklor daşıyıcıları – aşıqlar tərəfindən müxtəlif ünsiyyət formaları (yolüstü söhbət, çayxana söhbəti, ocaqbaşı söhbət və s.) zamanı xüsusilə etnoqrafik mərasim içərisində təqdim olunur" (9, s.62).

Azərbaycan aşıq mühitində belə təsəvvürlər formalaşıb ki, aşığa söyləyicilik sənəti ilahi qüvvələr tərəfindən verilir. ustad yanında çəyirdlik təcrübənin empirik ötürülməsi və mənimsənilməsi buna mane olmur. Epik sözün sehrli-magik mahiyyətinə inam qədim dövrlərdə aşıq mühitində qorunub saxlanılır.

Yuxuda müqəddəs varlıqların, pirlərin, ağsaqqalların, ustadların və b. görünməsi ən qədim yuxu tiplərinə aiddir, yuxu ruhun "o" dünyada gerçək varlığı kimi düşünülür, yuxu personajları isə mövcudluq statusuna malik olurlar" (11, s.12). Məhz yozum yuxuları "öncəgörənlik" edir. "Yozum yalnız işarə mətnini dekodlaşdırmır, həm də, əksinə, yuxunun obraz mətnini "bildirir" (10, s.41). Bu baxımdan Azərbaycan aşıq sənətinin böyük nümayəndəsi Abbas Tufarqanlı ilə bağlı bir rəvayət maraq doğurur: " Anasının xəstələndiyini eşidib Təbrizdən

Tufarqana qayıdan Abbas yolda bərk susayır. Tufarqana çathaçatda bir yandan yol yorğunluğu, bir yandan da susuzluq aşığı haldan salır. Abbas bir daşın dibində oturur ki, bir az nəfəsini dərib yoluna davam eləsin. Bu vaxt onu yuxu tutur. Abbas yatıb yuxusunda görür ki, hər yan göy çəmənlikdi. Çəmənliyin ortasında da bir bulaq qaynayır. O, bulaqdan doyunca su içib əl-üzünü yuyur.

Abbas qəfildən yuxudan ayılıb görür ki, çəmən nə gəzir, su hardadı? Susuzluqdan ciyəri alışıb yanır. Abbas üzünü Haqqın dərgahına tutur: "Ya Allahım, ya Şahi-Mərdan, özün köməyim ol!" Abbas haqq aşığı olduğundan duası Haqqın dərgahına çatır. Abbas bir də görür ki, daşın dibindən bir bulaq qaynamağa başladı. O, su içib Tanrının kərəminə şükürlər oxuyur. Camaat bu vaqeədən xəbər tutub heyrətlənir.

Abbas bir neçə gündən sonra qayıdıb bulağın üstünə gəlir. Onun ətrafını daşla hörüb suyun axarı boyunca tinglər basdırır. Tufarqan camaatı bu bulağa "Abbas bulağı" adını qoyur. "Abbas bulağı" Tufarqanda indi də çağlamaqdadır. Deyilənə görə, bulağın üstündəki divar da Abbasın öz əlləri ilə hördüyü divardır" (3, s.766). Qazaxlarda jırau söyləyiciliyi ilahi qüvvələrin təlqini ilə mümkündür. Musiqiçilərin əcdadı və hamisi hesab olunan Qorqut ömründə çalıb oxumağı bilməyən adamın yuxusuna girib dombrada çalıb oxumasını əmr edir. Əgər həmin şəxs bundan imtina edərsə, əzablara, xəstəliyə və bədbəxtliyə düçar olar. Aşıqlıq vergisinin verilməsində sirli qüvvələrin iştirak etməsi ilə bağlı mifoloji başlanğıc Aşıq Abbas Tufarqanlı, Qurbani ilə bağlı rəvayət sujetlərinin əsasını təşkil edir.

Dastanlarda olduğu kimi, aşıq rəvayətlərində də yuxu hadisəsi əyan olma, buta, öncəgörməlik, aşıqlıq vergisi motivləri ilə bağlı olur. "Yuxu motivi haqq aşiqliyi ilə bağlı olub onun sakral səciyyə daşıması, haqq aşiqlərinin aşiqlik və aşıqlıq keyfiyyətlərinin ilahi təqdir və Haqqdan gələn bir vergi olması məzmununu ifadə edir" (3, s.772).

Folklorşünas M.Hacıyeva türk tədqiqatçısı Umay Günayın "Türkiyədə aşıq tərzi şeir ənənəsi və yuxu motivi" adlı araşdırmasına istinadən Aşıq Şenliyə yuxuda aşıqlıq vergisi verilməsi ilə bağlı bir rəvayəti örnək gətirir: "Deyilənə görə, Həsən bir gün Tüfəngini götürüb Suhara kəndi yaxınlığındakı Qaragölə çöl ördəyi ovlamağa gedir. Elə oradaca onu yuxu tutur. Yuxuda görür ki, bir pir onu cənnət bağçasına aparır və ona cənnət bağçasından su içirir. Həsən bu bağçada Salatın adlı sevgilisini də görür. Burada ilahi bir qüdrətdən ərəbcə və farscanı öyrənir və ona "Şenlik" adı verilir.

Yuxudan oyana bilməyən Şenliyi atası və kəndlilər tapıb oyadırlar. Şenlik gözlərini açır, lakin heç nə danışmır. Onu kəndə gətirirlər. kəndin axundu ona nə olduğunu, niyə danışmadığını soruşduqda Şenlik başına gələnləri belə söyləyir:

Röyayi-aləmdə yatdığım yerdə,
Neçə yüz min xəyal guşuma gəldi.
Üğ və üğ cismimə saldı bir atəş,
Sevdiyim Salatın duşuma gəldi.

Əyninə geymişdi qaflet lüzumu,
Kor oluban açmayaydım gözümü.
Bir tağayyır keyflə gördüm özümü,
O qədər möhübbəti xoşuma gəldi.

Şenliyəm, xakinə getdim yüzünən,
Bir kəlmə danışdım şirin sözünən.
Hayıf ki, baxmadım qiyar gözünən,
Sürahi qaməti qarşıma gəldi".

Kənd imamı ondan Şenliyin kim olduğunu soruşduqda cavabında o, başına gələnləri belə ifadə edir:

Yığılın ahbablar, yarü - yoldaşlar,
Bir sağalmaz dərdə düşdüm bu gecə.
Hikməti pir ilə abı Zülaldan,
Lüğəti-imranı seçdim bu gecə.

Səfil Şenlik haqdan büldü kamalı,
Bu fikirdə vəsfi-halın deməli.
Bədirlənmiş gördüm gözəl camalı,
Tağayyır haoluf şaşdım bu gecə (4, s.57-58).

"Gejə yol gəldiklərindən Xəstə Hasan heç yatmamışdı. Tək qalan kimi başladı əsnəməyə. Gördü ki, yuxu onu aparır, öküzlər də yorulub yatır. Haravanın içində çuvalın 2-3-nü altına sərdi, 1-2-də başının üstünə kölgəliy eləyib yatdı. Öküzlər qalxıf otdaya-otdaya gəlib bir kişinin əkininə düşdü. Yediklərini yedilər, yemədiklərini də ayaxlarının, haravanın təkərlərinin altında qalıf çığnandı.

Sən demə, bu zəminin sahıvının da aman-zaman bir qızı vardı, özgə uşağı yoxdu deyə çox ərkəsöyündü. Ata-anası həyət-bacaya göz-qulaq olmağı qıza tafşırıf getmişdilər toya. Qızın da başı qarışmışdı qonşunun qızdarınnan oynamağa. Qızda bir də onda xəvər tuturlar ki, harava zəmidə tutar qoymuyuf. Qızdar başı alovlu qaçıllar haravanın üstünə. Əllərinə keçən daş-kəsəklə öküzdəri vurub zəmidən çıxarmağa çalışırlar. Səs-küyə Hasan yuxudan oyanır. Qızdar onu da daş-kəsəyə tutuflar ki, niyə zəmini korluyuf (5, s. 180).

Aşıq Ələsgərə məhz yuxuda əyan olur ki, aşıq Hüseyn Şəmkirli Ağkilsəyə qonaq gəlir və qonağı qarşılamaq üçün hazırlıq görür:

"Bəli, mənim əzizlərim, Aşıq Hüseyn Zodda söhbət eləməkdə olsun, sizə deyim Aşıq Ələsgərdən. Aşıq Ələsgər həmin gecə Aşıq Hüseynin gəlməyini yuxuda gördü.

Dağ otu biçilirdi. Aşıq Ələsgər də biçinə gedirdi. Bu gün o, biçinə getmədi. Arvadı Anaxanım onun yanına gəlib dedi:

-A kişi, camaat biçinə getdi, sən niyə yubanırsan?

- Arvad, mən bu gün getməyəcəm.

- Niyə?

- Bu gün Şəmkirli Aşıq Hüseyn bizə qonaq gələcək.

Anaxanım daha bir söz soruşmadı. Başladı ev-eşiyi səliqəyə salmağa. Aşıq Ələsgər qardaşı Məhəmədi yanına çağırıb dedi:

- Məhəmməd, durma, get yaylaqdan heyvan gətir.

- Ay qağa, xeyirdimi?

- Bu gün Şəmkirli Aşıq Hüsyen bizə qonaq gələcək.

- Ay qağa, kim dedi?

- Yuxuda görmüşəm. Sən durma, get heyvan gətir. Gerçək olar, qonağımıza kəsərik, qonaq gəlməsə, özümüzə kəsərik.

Məhəmməd atı mindi, heyvan gətirməyə getdi.

Aşıq Ələsgər qapı-bacada hərlənib, qonağın yolunu gözləməyə başladı. Bir də gördü ki, Zod yolu ilə bir atlı gəlir" (6, s.352).

Tədqiqatçı T.Qurbanov XIX əsr Ağbaba aşığı Aşıroğlu haqqında Aşıq Qəmbərdən yazıya aldığı bir rəvayətdə Elləzin (aşığın əsl adı) ustad yanında şəyirdliyə verilməsi bir dərviş yuxusunun köməyi ilə baş tutur: "Elləzin babası Dəli Calal bir gün eşikdə oturmuşdu. Baxdı bir dərviş gəldi. Dərviş onun yanına çatan kimi dedi:

- Ay Dəli Calal, mən Gümrüdən gəlirəm. Yatmışdım, yuxuda mənə dedilər:

-Dur, get, Dəli Calala de ki, nəvəsi Elləzi Gümrüyə, Tümənoğlunun yanına yollasın. Yollasa da peşman olacax, yollamasa da.

Bu sözləri eşidəndə Dəli Calal dəli-dəli deyindi:

- A kişi, sən yatıb özünə yuxu görübsən, bunnan bizə nə.

Maraqlıdır ki, Dəli Calal evə gedəndə canavar əhvalatını eşidəndən sonra dərvişin dediklərini xatırlayıb nəvəsini Tümənoğlunu yanın gətirir. Tümənoğlu Elləzi 7-8 il yanında şəyird saxlayır. Sonralar Elləz el-oba arasında Aşıroğlu kimi tanınır" (8, s.78).

Rəvayətlərə görə, aşıq bir dastan epizodu, ya şeir haqqında düşünərkən, adətən onu yuxusunda görür və əzbərləyir.

Tədqiqatçı V.Hacılar araşdırmasında Aşıq Feydayinin "Məndədir" rədifli divanisinin yaranma tarixi haqqında bir rəvayəti misal gətirir. Aşıq Feydayi özü danışırmış ki, "bir dəfə Kutsaya oxuyanlar (aşıqlar nəzərdə tutulur) gəldi və məni çağırıb soruşdular ki, oğlan, deyirlər sən yaxşı mahnı oxuyursan, öz sözlərindən oxuya bilərsənmi? Oxudum, güldülər və mən pərt olub evə qaçdım. Axşam yuxuda gördüm ki, Kutsanın kilsəsindən axsaqqallı bir kişi çıxıb məndən soruşdu:

- Niyə yatırsan? Dedim: -Xəcalətimdən. – Qorxma, - dedi, sənə üç bəndlik bir şer öyrədəcəyəm, amma mənim öyrətdiyimi heç kəsə deməyəsən. O biri gün həmin aşıqların yanına gedib bu divanini dedim, aşıqlar söz tapa bilmədi və utandıqlarından çıxıb getdilər. Qonşularım heyrətlənib məndən soruşdular ki, bu şeri sənə kim öyrədib. Mən də yuxuda gördüyümü danışdım. İkinci gün həmin kişi yenidən yuxuma girdi və dedi ki, niyə mənə qulaq asmadın, əgər sən istedadlı olmasaydın, səni bağışlamazdım, yaxşı oxuduğuna görə səni bağışlayıram" (7, s.170).

Beləliklə, aşıq rəvayətlərinin sujetinə yuxu motivlərinin daxil edilməsi ənənəsi arxaik təsəvvürlərlə bağlıdır. İstənilən motiv kimi, yuxu motivi də əcdadlarımızın magik ritullarından və mifoloji düşüncəsindən gəlir. Aşıq rəvayətlrəində öncəgörmə yuxuların rolu ondadır ki, süjetyaradıcı motiv olub, estetik funksiyanı yerinə yetirir və, əlbəttə, mətnin struktur elementi olur.

Ədəbiyyat

1. Нечаенко Д.А. Сон, забетных иеполнемных знаков. – М., 1991.
2. Мелетинский Е.М. Происхождение героического эпоса.- М., 2004.
3. Azərbaycan ədəbiyyatı tarixi. (On cilddə). Şifahi xalq ədəbiyyatı. -Bakı: "Elm",- 2018,I c. - 1072 s.
4. Hacıyeva M. Folklor işığında. Bakı, Elm və təhsil, 2019, -220 s.
5. Şamil Ə. Axısqalı Xəstə Hasan (şeirləri və şeirlərinin yaranması haqqında rəvaytlər). Bakı, Elm və təhsil, 2012, - 248 s.
6. Aşıq Ələsgər (Əsərləri, dastan – rəvayətlər, xatirələr...). Bakı, Şərq-Qərb, 1999, 578 s.
7. Hacılar V. Gürcüstanda türk xalq ədəbiyyatı ənənələri. Bakı, "Səda" nəşriyyatı, 2005, 303 s.
8. Qurbanov T. Ağbaba aşıq mühiti, Bakı, Elm və təhsil, 2014, 196 s.
9. Xəlilova A. Aşıq rəvayətlərindən dastana doğru. //"Qobustan" dərgisi, 2005, II.
10. Лурье С.В. Историческая антропология. – М.2001: http: // svlourie.narod.ru / hist-ethnology
11. Бессонов И. А. Мотив вещего сна в славянсом фольклоре.-М., 2004.
12. Фрэзер Дж. Фольклор в ветхом завете.-М. 1989.

Т.Расулова

Мотив сна в ашугских преданиях

Резюме

С древних времен сновидческая модель в литературе становится одной из наиболее эффективных форм воплощения коллективного бессознательного. В снах человеческое подсознание максимально открыто Миру, в нем прояваяется Божественное и/или Дьявольское начала.

Сновидчество суфийских преданиях одной из наиболее популярных форм диалога высшими силами. Проведники, святые и сказители всегда видели вещие сны. Такая традичия

прослеживается в жизни героев ашугских преданий. В этих преданиях все действия героя предопределяется сновидчеством.

В эпической традиции вешие сны восходят к архетипическим представлениям о сне как о второй реальности, параллельной обыденному. Вещий сон, который играл важную роль в сознании эпического персонажа, являается одним из сюжетообразующих мотивов. Как один из распространенных мотивов в ашугских преданиях, вещий сон содержит в себе несколько сюжетообразующих целей.

T.Rasulova

The motive of dream in ashug legends

Summary

Since ancient times, the dream model in literature has become one of the most effective forms of embodiment of the collective unconscious. In dreams, the human subconscious is maximally open to the World, the Divine and / or Devilish beginnings are manifested in it.

Dreaming of Sufi legends is one of the most popular forms of dialogue by the higher powers in the Messengers, saints and storytellers have always seen prophetic dreams.

This tradition can be traced in the lives of the heroes of the ashug legends. In these legends, all the actions of the hero are predetermined by the dream.

In the epic tradition, hanging dreams are admired by the archetypal ideas about sleep as an out-of-the-box reality, parallel to the ordinary. The prophetic dream, which played an important role in the consciousness of the epic character, is one of the plot-forming motives. As one of the common motives in ashug legends, a prophetic dream contains several plot-forming goals.

Rəyçi: prof. R.K.Rəsulov

Redaksiyaya daxil olub: 11.11.2021

R.V.VƏKİLOVA
e-mail: ruba.vekil@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İ.V.GÖTE YARADICILIĞINDA "FIRTINA VƏ HÜCUM" DÖVRÜNÜN TƏZAHÜRÜ

Açar sözlər: *fırtına və hücum, cəngavər, müharibə, sentimentalizm, nikah*
Ключевые слова: *буря и натиск, рыцарь, война, сентиментализм, брак*
Key words: *storm and attack, knight, war, sentimentalism, marriage*

İohann Qottfrid Herder Götedə milli keçmişə elə bir qarşısıalınmaz bir maraq yaratmışdır ki, o, mütəmadi olaraq tarixi öyrənməyə başlamışdı. Özünün "Poeziya və həqiqət" adlı məşhur avtobioqrafik əsərində şair xüsusilə XV-XVI əsrlərin tarixi ilə çox məşğul olduğunu xatırlayırdı. Bu maraq ona gətirib çıxardı ki, o öz əsəri üçün yeni mövzular, yeni qəhrəmanlar axtarmağa başladı. Şairin diqqətini xüsusilə iki süjet Qöts fon Berlixinqen və Doktor Faust haqqındakı süjetlər daha çox cəlb edirdi. Beləliklə, Göteni "Fırtına və hücum" hərəkatının liderlərindən birinə çevirən "Qöts fon Berlixinqen" (Götz von Berlichingen, 1773) dram əsəri yarandı. Əsərə müvəffəqiyyət qazandıran bircə amil vardı: Qöts öz dövrünün zülmünü, istibdadını, haqsızlıqlarını "Fırtına və hücüm" ruhunda ifşa edirdi. Bundan əlavə, bu əsər alman ədəbiyyatı tarixində ilk realist tarixi dramı idi. Hadisələr Böyük kəndli müharibələri, cəngavərlərin üsyanı zamanı cərəyan edir və burada knyazlara, din xadimlərinə, krala qarşı mübarizə təsvir olunmuşdu.

Əsərin qəhrəmanı Qöts tarixi şəxsiyyətdir. O XVI əsrin sonuna yaxın knyazların hökmranlığı ilə barışmayan azsaylı cəngavərlərdən biri olmuş və özü haqqında dillər əzbəri olmuş əfsanə yaratmışdır. Qöte demək olar ki, bu əfsanənin əsas süjetini saxlamış, yalnız əsrin sonunda onu faciəvi qəhrəman kimi təsvir etmişdir. Əsərin qısa məzmunu belədir: Qöts satqın Bişof fon Bamberqdən qisas almaq istəyir. Ağır döyüşdən sonra o Bişofun sağ əli hesab olunan Vayslingeni əsir alır və onu öz tərəfinə çəkir. Vayslingen Qötsün ən yaxın dostuna çevrilir və hətta onun bacısı ilə nişanlanır. İkinci pərdə, oğlunu Bişofa verdikləri üçün Qöts Nürnberq tacirlərinə hücum edir, onları cəzalandırır. Qötsdən krala şikayət edirlər. Gözəl və cazibədar Abelhaydn fon Valldorfa vurulan Vayslingen nişanlısına və Qötsə xəyanət edir. Üçüncü pərdədə onun əsirlik həyatı, kralın adamları ilə mübarizəsi təsvir olunur. Kral Qötsü qiyamçı kimi zindana salmaq istəyir. O sadiq dostunun köməyi ilə xilas olunur. Vayslingenin etibarsızlığından məyus olan Qöts öz qəsrinə çəkilib bütün çəkişmələrə son qoymaq qərarına gəlir. Axırıncı pərdədə kəndli müharibəsi ön plana çəkilir. Kəndlilər istəyirlər ki, Qöts onlara başçılıq etsin. Verdiyi sözü götürmək Qöts üçün çətin olur, ancaq o, razılıq verir. Ancaq kəndlilər verdikləri vədə əməl etmir, soyğunçuluqla, talançılıqla məşğul olurlar. Qöts onlardan ayrılmaq qərarına gəlir. Ancaq artıq gecdir, onun qəsri mühasirəyə alınır. Qöts qəhrəmanlıqla vuruşur, yaralanır və əsir düşür. O, Haylbronida-zindanda "Azadlıq, Azadlıq!"-deyərək son nəfəsini verir.

Əsərdə Qöts orta əsrlər cəngavərlik səltənəti yaratmağa çalışan bir igid kimi təsvir olunur. Ancaq başa düşülür ki, artıq o dövr keçib getmişdir, cəngavərlər cəmiyyətdə əvvəlki rolu oynaya bilmirlər. Qöts burada tarixin inkişaf qanunauyğunluğunu ön plana çəkir və göstərir ki, onun qəhrəmanı qalib gələ bilməz, o məğlubiyyətə, ölümə məhkumdur. Buna görə də Qöts faciəvi, həm də ziddiyyətli bir obrazdır. O da, kəndlilər də azadlıq uğrunda mübarizə aparırlar. Hər ikisi də bunu sözdə deyil, əməldə həyata keçirməyə çalışırlar. Qöts bir tərəfdən knyazların zülmünə qarşı çıxır, digər tərəfdən də kəndliləri, bürgerləri istismar edir.

Göte öz qəhrəmanını ideallaşdırır, onu kübar dünyasına qarşı qoyur, onu "Fırtına və hücüm" ideyalarının carçısına çevirir. Qöts knyazların nifrət etdiyi, kasıbların, köməksizlərin dar ayaqda üz tutduqları bir cəngavərdir. O, dövrünün siyasi tələblərini öz əməlləri ilə ifadə edir. Kübarlara adi adamların həyat tərzini bir-birindən fərqləndiyini əsərdəki obrazlardan birinin dilində Göte belə səsləndirir: "Ağa, mən çarpayılar haqqında yalnız əfsanələrdə eşitmişəm, bizim evdə samandan başqa heç nə olmur". (2, s.41)

Düzdür, əsərdə Qöts bir cəngavər kimi məhv olur, ancaq o, öz əməli, istəyilə bir ştürmer kimi yüksəklərə qalxır. O, müsbət bir obraz kimi xalqın nümayəndəsidir, xüsusilə kəndlilərə rəğbət bəsləyir. Əsərin əvvəlindən axıradək kəndli üsyanı geniş təsvir olunur. Kəndlilər istismarçılara, zülmkarlara qarşı mübarizə apardıqları üçün bu müharibənin ədalətli olduğuna inanırlar. Buna görə də onlar Qötsü istismar edən sinfin nümayəndəsi hesab edir və ona çox da inanmırlar. Kəndlilər mülkədarların malikanələrini dağıdıb var yoxlarını talan edəndə, mülkədarları öldürəndə Qöts onlara qarşı çıxır, ancaq özünün Nürnberq tacirlərinə basqın etməsini ədalətli hesab edir. Buna görə də kəndlilərin başçısı Metsler deyir: "Biz mərhəmət dilədik, ancaq xeyri olmadı. Onda göydə Allah yox idi, indi də olmamalıdır". (2, s.51) Kəndlilər arasında narazılıq onların məğlubiyyətini şərtləndirir.

Əsərdəki ayrı-ayrı obrazların təsviri də Götenin "Fırtına və hücum" ideyalarının daha qabarıq, daha dəqiq ifadəsini tamamlayır. Bu baxımdan Abelhayd fon Valdorf və hüquqşünas Olman surətləri diqqəti cəlb edir. Saray intriqalarının başında duran Abelhayd orada hökm sürən əxlaqsız həyatın simvoluna çevrilmişdir. Onun cinayətlərlə dolu həyat yolu feodal ağalarının vəhşiliyinin, siyasi savadsızlığının rəmzi kimi səciyyələnir. Və XVIII əsrin oxucuları – şairin çağdaşları görürdülər, indiki alman knyazlarının, hersoqlarının həyat tərzi, əməlləri heç də XVI əsrdə yaşamış sələflərinin həyat tərzi və əməllərindən fərqlənmir. Bu mənada Götenin "Qöts fon Berlixinqen" dramı Lessinqin "Emiliya Qalotti" pyesinə çox yaxın idi. Eyni sözləri sarayın hüquqşünası Olman haqqında demək olar. Artıq başqa bir dövrdə yaşamasına baxmayaraq, o hələ "orta əsr qanunları" ilə yaşayır və həmin "qanun"ların dəyişilməz olduğunu sübut etməyə çalışır.

Əsərin final səhnəsi birbaşa Götenin öz çağdaşlarına ünvanlanmışdır. Əslində son nəfəsində Qötsün dediyi sözlər gələcəyə aid idi. O kədərlə Almaniyanı gələcəkdə gözləyən bədbəxtliklər barədə düşünür. O, arvadına belə deyir: "Səni bu çirkab dolu dünyada qoyub gedirəm. Bir azdan alıb-aldatma dünyası başlayacaq, çünki ona tam sərbəstlik verilib. Dünyanı hiyləgərlər, yaramazlar idarə edəcək, namuslu adamlar da onların toruna düşəcəklər (2, s.189).

"Qöts fon Berlixinqen" gənc ştürmer Götenin ilk cəsarətli çıxışı idi. Əsər təkcə öz məzmunu ilə deyil, həm də orijinal quruluşu ilə seçilirdi. Hadisələrin dramatikliyi, obrazların canlılığı, çoxlu personajların olması, səhnələrin tez-tez dəyişməsi, demək olar ki, alman dramaturgiyasında yeni idi.

"Fırtına və hücum" hərəkatının ən önəmli nümayəndələrindən biri olan Qotfrid Auqust Bürger də bu əsər haqqında öz müsbət fikirlərini söyləmişdi.

"Gənc Verterin iztirabları" romanından sonra Göte yaradıcılığında çox aktiv bir dövr başlayır. O, nəzmlə məzəli pyeslər, şeirlər, dramatik səhnələr, fastnaxtşpillər (xalq yaradıcılığı üsulunda səhnəcik) yazır. Maraqlıdır ki, bu yazıların, xüsusilə satirik səhnəciklərin, dəqiq ünvanları vardır. Məsələn "Allahlar, qəhrəmanlar və Viland" (Götter, Helden und Wieland, 1773) adlı satirası tanınmış alman maarifçisi Vilanda, onun antik dövr haqqındakı fikirlərinə qarşı yönəlmişdi. Həcmindən, kimə qarşı yönəlməsindən asılı olmayaraq Göte burada da "Fırtına və hücum" dövrünün fəlsəfi prinsiplərinə söykənirdi.

Bu dövrdə Göte iki məişət dramı da yazmışdır: "Klaviqo" (Clavigo, 1774) və "Stella" (Stella, 1776). Birinci dramı şair öz dostlarına "Memuarlar"dan parçalar oxuyandan sonra səkkiz günə yazmışdır. Şönbruna yazdığı məktubda Göte qeyd edirdi ki, "Klaviqo" faciəsində o "müasir lətifəni son dərəcə sadəliklə, həqiqətə uyğun şəkildə dramatikləşdirmişdir". Əsərin məzmunu belədir: İspaniyalı Klaviqo Bomarşenin gözəl bacısı Mariya ilə nişanlanır, ancaq

tezliklə də sözündən qaçır, çünki bu izdivac onun saraydakı karyerasına mane olur. Bu hadisə Mariyaya ağır təsir edir və o, bərk xəstələnir, hadisəni qardaşına danışır. Qardaşı bacısının ləyaqətinə ləkə vurmuş adamdan qisas almaq üçün İspaniyaya gəlir. Qardaşının işə qarışdığını görən Mariya Madriddən Fransaya qayıdır. Şair hadisələri faciəli sonluqla təsvir edir. Klaviqo Bomarşenin təhrikilə Mariya ilə evlənəcəyinə söz verir. Ancaq bir neçə saatdan sonra yenə fikrini dəyişir. Bu cür xəyanətə dözə bilməyən Mariya ölür. Bomarşe bacısının dəfn mərasimində Klaviqonu öldürür.

"Stella" dramı isə tamamilə başqa ruhda yazılmışdır. Bu əsər ştürmer sentimentalizmi ilə sıx bağlıdır. İnsan və təbiət, ehtirasların toqquşması bu əsərin bədii-estetik xüsusiyyətləridir.

Əsərin əsas mövzusu məhəbbət və nikah problemləridir. Burada "Verter"də olduğu kimi məhəbbətə mane olan sosial problemlər deyil, Fernandonun ona vurulmuş iki qadınla olan mürəkkəb münasibətləri ön plana çəkilmişdir. O, bir vaxtlar tərk etdiyi qadınlarla – əvvəlcə Sesilya, sonra isə Stella ilə yenidən görüşür və hiss edir ki, onların hər ikisini sevir. Əsərin finalında Sesilya orta əsrlər cəngaməri qraf Qlayxenin həyatını danışır. Cəngavər təhlükəli xaç yürüşündən bir müsəlman qızı ilə qayıdır. Məlum olur ki, həmin qız bütün döyüşlərdə Qlayxeni müşayiət edib xəstələnəndə, yaralananda qulluğunda durub. Ərini çox sevən qadın qısqanclıq hislərini ataraq qıza Qlayxenin həyatını qoruduğuna görə təşəkkür edir və deyir: "Biz hər ikimiz səninik!". Öz məhəbbəti ilə hər iki qadına kədər, iztirab gətirən Fernando əsərdə "qadın ovçusu" kimi deyil, sentimental səhvini başa düşən yumşaq, həlim xasiyyətli bir gənc kimi təsvir olunur. O əvvəlcə Stelladan əl çəkərək Sesilyanı axtarır və müflis olmuş qadının birdən-birə yoxa çıxdığını biləndə çox məyus olur. O, istəmədən hər iki qadına bir yerdə rast gəlir. Əslində, Fernando qadınların heç birinin xətrinə dəymək istəmir. Ancaq buna baxmayaraq ilk sevgisinə sadiq qalmaq istəyir və məlum olur ki, Sesilyanın bir qızı da var. Sesilya Stellanın məhəbbətini başa düşür, ona yazığı gəlir, hiss edir ki, zavallı qızcığaz Fernandosuz yaşaya bilməz və öz xoşbəxtliyini başqasının bədbəxtliyi üzərində qura bilməz. Stella da öz növbəsində Sesilyanın məhəbbətinə şərik çıxmaqla, onu əzab-əziyyətə düçar etməklə xoşbəxt olacağına inanmır. Məhz bu anda Sesilya cəngavər haqqındakı əfsanəni danışır. Əsər hər üçünün barışığı ilə sona yetir. Əsərin sonluğu ciddi tənqidə məruz qalsa da, bir çox dillərə tərcümə olunmuş və bir çox ölkələrin səhnələrində göstərilmişdir.

Əsərdə diqqəti ən çox cəlb edən Götenin insan hislərinə yüksək qiymət verməsidir. Əsərin əsas qayəsi də elə budur ki, yüksək hislər, duyğular insanı saflaşdırır. Hadisələrin emosional təsviri, qəhrəmanların keçirdiyi gərgin psixoloji anlar, monoloqlar tamamilə "Fırtına və hücum" hərəkatının ruhunu ifadə edir. Lakin Göte 1806-cı ilə qədər əsər üzərində yenidən işləmiş, sonluğu dəyişmişdir. Yeni redaksiyada əsər faciə ilə bitir. Fernando və Stella intihar edirlər.

Göründüyü kimi Göte yaradıcılığının "Fırtına və hücum" dövrü təkcə şairin öz yaradıcılığında deyil, ümumiyyətlə, alman ədəbiyyatında çox mühüm yer tutur. Başqa sözlə desək, onun yaradıcılığının ilk dövrü eyni zamanda alman milli ədəbiyyatında yeni bir mərhələnin başlanğıcı oldu.

Götenin tədqiqatçıları, ümumiyyətlə, onun 1770-1775-ci illərdəki yaradıcılığını məhsuldar dövr adlandırırlar. Doğrudan da, o həmin dövrlərdə müxtəlif janrlarda əsərlər yaratmış və hər janrda da yeni söz deyə bilmişdir. Şairin lirik əsərlərinin mayası saf və incə duyğulardan, poetik hislərdən yoğrulmuşdur. Dram əsərlərində isə çılğınlıq, coşqunluq, ehtiraslar ön plana çəkilmişdir.

Böyük şairin bu dövr yaradıcılığını səciyyələndirən əsas cəhətlərdən biri, şübhəsiz ki, onun əsərlərinin bilavasitə gerçəkliklə bağlı olması, xəlqiliyi, sadəliyi idi. Başqa sözlə, gənc Göte gördüklərini, hiss etdiklərini, keçirdiyi iztirabları qələmə almışdır. Lakin şair heç vaxt şəxsi intim duyğuları çərçivəsində qalmamış, onları zəmanəsinin ictimai-siyasi, sosial həyatı ilə bağlamışdır. Onun lirik "Mən"i, nə qədər saf, incə, kövrək qəlbə malik olsa da, o qədər də mübarizdir, dövrünün ictimai ədalətsizliyi ilə barışmazdır.

Ədəbiyyat

1. Н.А.Гуляев. История немецкой литературы Издательство «Высшая школа» 1975
2. Johann Wolfgang von Goethe. Götz von Berlichingen mit der eiserne Hand, DTV Deutscher Taschenbuch, 1962
3. Deutsche Literaturgeschichte: Von den Anfangen bis zur Gegenwart Gebundene Ausgabe Wolfgang Beutin: September 2001
4. Geschichte der deutschen Literatur Bd 1: Vom Mittelalter bis zur Romantik: von Bengt Algot Sorensen 2, durchgesehene Auflage 2003
5. M.D.Stossel, Geschichte der deutschen Literatur. Moskau 1984
6. Richard Maria Werner: Die erste Auffuhrung des Gotz von Berlichingen. Goethe-Jahrbuch, Band 2 (1881), Digitalisat.

Р.В.Векилова

Проявление периода «Буря и натиск» в творчестве И.В.Гете

Резюме

В статье рассматривается первый период творчества великого немецкого мыслителя, писателя и поета Гете. В этот период, получивший название “Буря и атака”, анализируются его просизведения. Использованы драмы “Гетс фон Берлихинген”, “Стелла” и “Клавиго”. События происходят во время Великих крестьянских войн и рыцарского восстания. Здесь описывается борьба с князьями, духовенством и королем.

R.V.Vakilova

The reflection of “Storm and Attack” period in Goethe’s creative activity

Summary

The article examines the first period of work of the great German thinker,writer and poet Goethe. His works are analysed during this period called “ Storm and Attack”. There were used the dramas “ Götz von Berlichingen”, “Stella” and “Clavigo”. Events take place during the Great Peasant Wars and the Knight’s Uprising. It describes the struggle against princes, clergy and king

Rəyçi: filol.f.d., dos. V.Hacıyev

Redaksiyaya daxil olub: 27.11.2021

X.Y.ZAMANOVA
e-mail: xalidazamanova2@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

S.RÜSTƏMXANLININ "ŞAİR VƏ ŞƏR" ROMANINDA HADİ OBRAZI

Açar sözlər: *S.Rüstəmxanlı, roman, Hadi, faciəli tale, obraz, şair*
Ключевые слова: *С.Рустамханлы, роман, Хади, трагическая судьба, образ, поэт*
Key words*: S.Rustamkhanli, novel, Hadi, tragic fate, image, poet*

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məhəmməd Hadinin (1879-1920) yaradıcılığı həmişə olduğu kimi, indi də ədəbi-ictimai fikrin aktual problemlərindəndir. Ölümündən sonra uzun bir müddət yada düşməyən şair 40-cı illərin sonlarından başlayaraq araşdırılmağa başlanmışdır. Lakin şairin sovet dövründə özünü təsdiq etməsi üçün müəyyən bir zaman keçməsi lazım gəlmişdir. Ona görə ki, digər romantiklər kimi, M.Hadinin yaradıcılığı da sosialist realizminin prinsiplərinə uyğun gəlmirdi. Yəni M.Hadinin yaradıcılığında daha çox Vətənin, millətin, xalqın tərənnümü başlıca yer tuturdu. Mövcud ədəbiyyatşünaslıqda romantizm iki yerə bölünürdü: mütərəqqi və mürtəce romantiklər. Xoşbəxtlikdən M.Hadinin yaradıcılığı mütərəqqi romantiklərə aid edilirdi. Bunun əsas səbəblərindən biri, fikrimizcə, M.Hadi yaradıcılığının görkəmli tədqiqatçısı Əziz Mirəhmədovun bu sahədə apardığı tədqiqatların istiqamətinin düzgün olmasıdır. Ə.Mirəhmədov 40-cı illərin sonu – 50-ci illərin əvvəllərində, nə qədər çətin olsa da, özünün tədqiqatları ilə şairin yaradıcılığına bəraət ala bilmişdi. Nəticədə "Azərbaycan ədəbiyyatı tarixi" üçcildliyinin ikinci cildində şairin yaradıcılığı oçerk şəklində yer almışdır. Halbuki bu baş verməyə də bilərdi, çünki sosialist realizmi tənqidi, ümumiyyətlə, romantiklərin yaradıcılığına o qədər də sıcaq baxmırdı. Ə.Mirəhmədov həm də şairin yaradıcılığı ilə bağlı dissertasiya müdafiə etmişdir. Lakin bütün bunlar Ə.Mirəhmədovun şəxsi fədakarlığı sayəsində baş vermişdir. Tədqiqatçı M.Hadi yaradıcılığındakı ziddiyyətləri qeyd etməsinə rəğmən, şairi mürtəce romantiklərdən fərləndirərək həqiqi qiymətini verirdi: "Mütəfəkkir şair Məhəmməd Hadinin yaradıcılığında mütərəqqi romantizmin, demək olar, bütün əsas cəhətləri öz əksini tapmışdır. Dünyagörüşündəki kəskin ziddiyyətə baxmayaraq, Hadinin ədəbi irsi həm ideya-məzmunu, həm də sənətkarlıq cəhətindən bir çox orijinal, qiymətli xüsusiyyətlərə malikdir. Şairin ən yaxşı xüsusiyyəti ondakı azadlıq ideyaları, zülm və haqsızlığa qarşı alovlu üsyankarlıq, işıq, tərəqqi arzularıdır" (1, s.796).

M.Hadi irsinin araşdırılmasının aktuallığını sual altında qoyan məsələlərdən biri də şairin "Füyuzat" dərgisində çıxış etməsi idi. Çünki "Füyuzat" burjua mətbuatı, onun redaktoru Əli bəy Hüseynzadə isə ən qatı burjua ideoloqlarından biri hesab olunurdu. Sovet dövründə "Füyuzat" dərgisi və onun redaktoru haqqında ya yazılmır, yazıldıqda isə ancaq tənqid edilirdi. Bütün bunlar Ə.Hüseynzadəyə yaxın olan M.Hadinin ədəbi irsinin gələcək taleyinə də öz təsirini göstərirdi. Təkcə bunu göstərmək lazımdır ki, sovet dövründə XX əsrin böyük şəxsiyyətləri N.Gəncəvi, M.Ş.Vazeh, M.F.Axundzadə, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət haqqında bədii əsərlər yazılsa da, M.Hadi yaradıcılığı bədii əsər üçün obyekt ola bilmirdi. Hətta onun nə zaman və hansı şəraitdə vəfat etdiyi, qəbrinin harada olduğu belə məlum deyildi. Halbuki M.Hadinin həyatı, yaradıcılığı və faciəli taleyi bədii əsər üçün zəngin material verirdi. Bu cür imkanlar yalnız müstəqillik dövründə yarandı.

Yazıçı Sabir Rüstəmxanlı "Şair və şər" romanında ilk dəfə olaraq şairin həyatını bədii düşüncə orbitinə daxil edir. Yazıçı əsəri "düşüncələr romanı" kimi qələmə almışdır. Hadisələrin bu kontekstdə təsviri müəllifə şairin taleyini təsirli şəkildə qələmə almağa imkan vermişdir. Romanın "düşüncələr" kontekstində yazılmasına diqqət çəkən tənqidçi Vaqif Yusifli bunu

nəzərdə tutaraq yazır: "Düşüncələr romanı" Azərbaycan nəsrində yeni bir roman tipidir və bu səpkidə yazdığı əsərlərində Sabir Rüstəmxanlı mövzuya məhz fəlsəfi-publisistik aspektdən yanaşır, təsvir etdiyi hadisələr dövr və zaman, insan obrazları düçüncələr axınından keçir. Təbii ki, bu əsərlərdə roman janrına xas olan süjet və kompozisiya paralelləri, janrın özəl xüsusiyyətləri də qorunub saxlanır..." (2, s.24).

S.Rüstəmxanlının "Şair və şər" romanının süjet xətti çox genişdir; dövrün mənzərəsi, ədəbi, ictimai proseslərdə baş verən hadisələr, Hadi, Sabir, Səhhət, Əli bəy Hüseynzadə, A.Şaiq və b. onlarla ədəbi şəxsiyyətin obrazı ilə yanaşı, yazıçı bədii təxəyyülünün məhsulu olan hadisələr və obrazlar da yaradılır. Bu obrazların yaradılması romanın baş qəhramanı Hadinin mürəkkəb, ziddiyyətli xarakterinin açılmasında mühüm rol oynayır. Romanın əsas süjet xəttində Hadinin həyatı və taleyi dayansa da, əsəri bütünlüklə bioqrafik roman adlandırmaq da düzgün olmazdı. Çünki yazıçı Hadinin taleyi fonunda dövrün xarakterini, dünyada baş verən prosesləri də süjet xəttinə daxil edir.

S.Rüstəmxanlı Hadinin obrazını yaratmaq üçün həyatının ən mühüm məqamlarını təsvir edir. Məlum olduğu kimi, şairin həyatında belə anlar çox olmuşdur və bu anlar onun faciəli taleyinə doğru bir-birini izləyir. Bu izləmə xronoloji ardıcıllıqla davam edir. Hadi uşaq ikən atasının arzusu onu oxutmaq olmuşdur. Lakin Molla Səmədin uşaqları döyməsi onu incitdiyinə görə məktəbindən çıxır. Atası onu Abbas Səhhətin atası Molla Əlabbasın məktəbinə gətirir. Atası tacir olsa da, dünyada baş verən proseslərdən müəyyən dərəcədə xəbəri var idi, ona görə də oğlunun oxumaq həvəsini tədqir edirdi. Özü də fikirləri ilə onun formalaşmasına təsir göstərməyə çalışır, tez-tez həyatdan, dünyadan söhbət salır, Şirvan şairləri haqqında danışırdı. Bütün bunlar Hadini həyata açıq gözlə baxmağa sövq etmişdi. Lakin hadisələr gözlənildiyi kimi getmir, gənc Məhəmmədin həyatında dramatik hadisələr baş verir. Əvvəlcə atası vəfat edir, onun ardınca anası "atasının qəbri soyumamış var-dövləti dillərdə gəzən uzaq qohumlarından birisinə" qoşulub qaçır. Bu Məhəmmədin həyatına ağır bir zərbə olur. Məhəmməd bacıları Əsmayla, Sahibəylə nənəsinin umuduna qalır. Üç uşağa baxan Teyyibə xanım onların böyümələri üçün əlindən gələni edir. Üstəlik Məhəmmədin atasından qalma dükanı da işlətməli olur. Yazıçı Məhəmmədin mədrəsədə də müəllimlər tərəfindən yaxşı qarşılanmadığını göstərir. Artıq müəllimlərin dediyi onu təmin etmir, cəfəngiyyat kimi gəlirdi. Müəllimlər də onun suallarından bezmiş, cavab verə bilmirdilər. Buna görə də nənəsinə daha məktəbə getməyəcəyini, özünə iş axtaracağını bildirir. Artıq yeniyetmə yaşına çatsa da, onu daha ağır günlər gözləyirdi: onlara həyan olan əmisi də vəfat edir. Əmisinin ölümü ona daha böyük zərbə vurur. Ona görə ki, artıq əmisi qızı Əminəyə qarşı özündə müəyyən münasibət hiss edirdi. Bacıları da, Əminə də onun fikrindən xəbərdar idilər. Artıq əmiqızısının taleyini anası həll edirdi. Əmisinin "başıma bir iş gəlsə, ocağımızı sönməyə qoymazsan", – sözləri onu tərk etmir. O, indi pis vəziyyətdə qalmışdı, istədiyi qızı ona verməmişdilər: "Əmisigilə gedə bilmirdi. Ürəyi sınmışdı o evdən. Aclıq və ehtiyac nənəsinin yanında qalmağa da imkan vermirdi. Nənəsinin tutulmaqda olan gözləri nəvəsindən imdad umurdu. Bu gözlərdəki sual onun vücudunu titrədirdi. "Mən bu halla sənə, bacılarına necə baxım, bala! Dağıldı, tifağımız dağıldı. Allah bizi göydən yerə vurdu. Daha əlimdən heç nə gəlmir" (3, s.44).

Nənəsinin vəfatı ilə onun həyatı yenə də boşluğa düşür. Bacılarının hərəsi bir qohum evinə gedir, o isə ata yurdunda qalır. Qohumu Mustafa Lütfi nə qədər çalışsa da, onu evə apara bilmir. Məhəmmədin gəncliyi çətin, ziddiyyətli düşüncələrlə keçir. Yazıçı onun başına gələn hadisələrərlə yanaşı, ətrafında baş verən hadisələrə də münasibət bildirir. Dostu Şövqü ilə söhbətlərində həyatın bu gedişindən narazılıq edir, oxumamasından rəncidə olur. Onda cəmiyyətə, şəxsiyyətə aid ictimai fikir də formalaşır. Dərvişlərin daha Şirvanın ictimai həyatına heç bir qatqısı olmadığını ilk dərk edənlərdən olur. Şekspir, Gete, Şiller, Hüqo, Volter, Jan Jak Russo kimi dahilərlə cahil dərvişləri müqayisə edərək nə qədər geridə qaldıqlarının fərqinə varır. Özünü və dünyanı anlamaq, xalqını zillətdən qurtarmaq haqqında düşünür. Nəhayət, Şamaxıda bir qiraətxana açır. Buraya Türkiyədən, Tehrandan kitablar gətizdirərək

oxucular yığır. Sabir, Abbas Səhhətlə də burada tanış olur. Tezliklə bu dairə genişlənir, Məhəmməd Tərrah, Ağalı bəy Naseh də onlara qoşulur. Şamaxı ədəbi mühitində artıq nədən yazmaq, necə yazmaq haqqında söhbətlər gedirdi. Səhhətin Sabirlə söhbətində "Mirzə, atama yazığım gəlir. Ana dilimizdə beş dənə uyğun şeir tapa bilmir ki, uşaqlara əzbərlətsin", – sözlərindəki həqiqət onu çox narahat edir. Bütün bunlar Hadiyə öz yolunu, üslubunu tapmaqda müəyyən rol oynayır. "Amali-tərəqqi" şeirində gənc şair mövzu və problematikanı düzgün müəyyənləşdirir. Şeirdə millətin gələcəyindən, inkişaf yolundan bəhs edilir, onun istiqbalı və istiqlalından danışılırdı. Şeirini Sabir və Səhhətin qarşısında oxuyur. Hər iki şair onun şeirini təqdir edirlər.

Şamaxıda baş verən zəlzələ dağılmış ailəni bir qədər də dağıdır. Hadi əvvəlcə ata yurdunu tərk etmək istəmir. Lakin camaatın köçü onu da buradan köç etməyə məcbur edir. Məhəmmədin Kürdəmirdə müəllimlik etməsi, burada Ağa əfəndi ilə birgə çalışması, xalqı maarifləndirmək istəyi inandırıcı detallarla verilir. Ağa əfəndi də Hadi kimi maarif aşiqi idi, həyatı, siyasəti dərindən bilirdi. O da xalqın, millətin gələcəyini elmdə, maarifdə görürdü. Yaxınlaşan ictimai zəlzələni hiss edirdi. Söhbətlərində Hadiyə də bunları anladırdı. Məhz bu söhbətlərin nəticəsi idi ki, Hadinin ilk şeirlərindən xalqın azadlığı, hürriyyəti mövzusu əsas yer tuturdu. Onun ilk şeirlərinin əsas mövzusunu maarif və hürriyyət təşkil edirdi. Buna baxmayaraq şairin buradakı fəaliyyətindən narahat olanlar da var idi.

S.Rüstəmxanlı Hadini daha sonra Həştərxanda təsvir edir. Mustafa Lütfi onu Həştərxanda çıxardığı "Bürhani tərəqqi" qəzetinə aparır. Tezliklə Hadi burada qəzet işini öyrənir, şeirlərini yazır. Çox keçmir ki, Mustafa Lütfi qəzeti tamamilə onun ixtiyarına verir. Qəzet Osmanlı türkcəsində nəşr edilirdi. Məqsədi türklər arasında ümumi bir ədəbi dil formalaşdırmaq idi. Yazıçı Hadinin Həştərxan həyatını göstərərkən Qəmər adlı bir qıza rast gəldiyini və ona vuruluduğunu təsvir edir. Qəmərin ailəsi buraya Şuşadan sürgün edilmişdi. Atası Ayxanla söhbətdə həm ailənin həyatını öyrənir, həm də öz həyatını danışır. Yazıçı Qəməri Hadinin əmisi qızından sonra daşa dəymiş ikinci sevgisi kimi göstərir. Onların münasibətində qarşılıqlı məhəbbət yaranır. Lakin günlərin birində Hadi Azərbaycana qayıdası olur. O, Ayxanın evinə gedib onlarla sağollaşır və onları Azərbaycanda gözləyəcəyini bildirir. Bununla da, Hadinin ikinci sevgisi də uğursuzluqla başa çatır.

Hadinin Bakı həyatı qızğın keçir, Həştərxandan göndərdiyi məqalə və şeirlər "Həyat" qəzetində və "Füyuzat" jurnalında dərc edilirdi. İndi Ə.Hüseynzadə ilə bir yerdə çalışır və ortaq ədəbi dil layihəsini bir yerdə həyata keçirirdilər. Azərbaycan ədəbi, ictimai mühitində Hadinin yeri getdikcə daha aydın görünürdü. Şairin Bakı həyatı ictimai hadisələr fonunda təlatümlü keçir. Məktəb, maarif, elm, təhsil, hürriyyətlə bağlı şeirləri Azərbaycanı dolaşır. Lakin o, Bakıda axıradək qərar tuta bilmir. İstanbul ümidi ilə Türkiyəyə gedir. Yazıçı Hadinin İstanbula getməsinə səbəb olaraq Əhməd Kamalın "Gedəcəksən! Heç olmasa bir kaç sənə İstanbulda yaşa! Sənin yerin oradır! İndi Türkiyənin ehtiyacı var sənin kimilərə! İki ildən sonra səsin bütün islam aləmini bürüyəcək! Buralar sakitləşəndə dönərsən" (3, s.265) sözlərinə istinad edir. Əli bəy Hüseynzadənin də Türkiyədən bəhs etməsi də onu bu fikrə gətirə bilərdi. Ə.Hüseynzadədən əvvəl Əhməd bəy Ağaoğlunun İstanbulda gələcəyini araması da şair üçün bir stimul ola bilərdi. Hadinin İstanbul həyatı da ziqzaqlı keçir. Əvvəlcə "Tənin" qəzetində işə düzəlir. Bu qəzeti çoxdan izləyirdi, onun yolunu və mövqeyini bəyənirdi. Ə.Hüseynzadənin Hadi ilə bağlı qəzetin redaktoru Cahid bəyə teleqramı da öz işini görmüşdü.

Hadi ömrünü parlaq bədii təfəkkür işığında təsvir edən Sabir Rüstəmxanlı onun İstanbul həyatını da təlatümlü təsvir edir. "Tənin" qəzetindəki "Şərq postası" oxucuların gözündə bir Türküstan xəritəsi cızmışdı. İstanbulda olduğu müddətdə İslam aləmindəki bütün bəlaların Avropadan qaynaqlandığına əmin olmuşdu. İstanbulda baş verən ictimai-siyasi proseslər Hadini də bu müzakirələrin içinə atır. Qərbçilər, ittihad və tərəqqiçilər, hakimiyyəti müdafiə edənlər Hadi üçün bir mübarizə meydanı idi. Balkan savaşı, Ədirnə ətrafında gedən qarışıqlıqlar və s. Hadiyə indi başqa cür görünürdü. Qaçqınlar dəstəsi İstanbula gəlir, camelərdə, mey-

danlarda, qəzetlərdə dünyaya hökm edən Osmanlının taleyi müzakirə olunurdu. Tanıdığı İttihad və Tərəqqi liderləri və hərbçi dostları indi ona başqa cür görünürdülər. Bütün bunlar Hadini Balkan savaşlarına aparır. Kənan Hacı romanla bağlı "Şərin məğlubiyyəti" məqaləsində İstanbul həyatında baş verən prosesləri belə ümumiləşdirir: "Hadinin İstanbulda ümidləri suya düşür. Burda daha əcaib mənzərələrlə qarşılaşır, kökündən ayrı düşmüş insanlar, ingilis, fransız heyranları, hərəsi bir geyimdə, ayrı-ayrı qiyafədə..." (4, s.28).

Aparılan məktəb islahatı ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisini yaxşılaşdırmağı, müasir fiziki tərbiyə sisteminin daha səmərəli qurulmasını tələb edir. Bu baxımdan qeyd etmək istərdim ki, indiki mərhələdə ümumtəhsil məktəblərində fiziki tərbiyənin tədrisi məsələləri, fənnin məzmunu və mahiyyəti elmi əsaslar üzərində qurulmalıdır. Pedoqoji metodiki və psixoloji ədəbiyyatlarda fiziki tərbiyə ilə bağlı yeniliklər şərh edərkən qabaqcıl məktəblərin iş təcrübəsinə əsaslanmaq lazımdır. Məktəbdə fiziki tərbiyə və idman işlərinin müasir tələblər baxımından həyata keçirilməsinin müxtəlif forma və metodları vardır. Tədris prosesində əsas biliklər sırasında duran bölmələrlə yanaşı gimnastika, mütəhərrik və idman oyunları, atletika elementlərinin proqram tələbləri baxımından şagirdlərə öyrədilməsi uşaqlarda fizikitərbiyə dərslərinə marağın artması, ayrı-ayrı idman növləri üzrə bilik, bacarıq və vərdişlərin aşılanması, eləcədə bu sahədə müxtəlif idman yarışlarında fəallıqla meyil göstərmələri yaxşılaşır. Fənnin tədrisi zamanı şagirdlərə hərəkəti əyani göstərməzdən əvvəl onun haqqında izahat vermək, hərəkəti hissə-hissə göstərmək, sonra isə onu bütövlükdə nümayiş etdirmək lazımdır. Bütün bunlar bədən tərbiyəsi məşğələlərinin maraqlı olmasına, şagirdlər tərəfindən hərəkətlərin şüurlu şəkildə yerinə yetirilməsinə imkan yaradır. Bir məsələni də qeyd etmək lazımdır ki, ümumtəhsil məktəblərində şagirdlər üçün fiziki tərbiyə üzrə dərsliyin və müəllim üçün metodiki vəsaitin olması orta ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin səmərəli təşkil edilməsinə müsbət təsir göstərəcək. Fiziki tərbiyə dərslərində qazanılmış bacarıq və vərdişlər, sinifdənxaric və məktəbdənkənar şəraitdə aparılan kütləvi bədən tərbiyəsi və idman tədbirləri vasitəsilə tamamlanır və daha da möhkəmləndirilir. Fiziki tərbiyənin hər üç təşkilat formasından səmərəli istifadə etmək fiziki tərbiyənin tədrisi qarşısında duran vəzifələrin daha müvəffəqqiyətlə yerinə yetirilməsinə zəmin yaradır. Həmin formalar üçün müəyyənləşdirilmiş tədbirlər müntəzəm və ardıcıl aprılmalı, biri o birini tamamlamalıdır. Lakin sinifdənxaric və məktəbdənkənar fiziki tərbiyə işləri nə qədər məzmunlu, maraqlı və rəngarəng qurulmuş olsa da, heç vaxt dərsi əvəz edə, onun qarşısında qoyulmuş vəzifələri bütövlükdə yerinə yetirə bilməz. Fiziki tərbiyənin tədrisi prosesində uşaqlara dərsdə iformasiya təminatı nəzəri biliklərin verilməsi ilə yanaşı hərəki qabiliyyətlərin inkişafına nail olmaq şagirdlərdə marağın artırılmasına gətirib çıxarır. Mövzular üzrə uşaqların hər bir hərəkətdən müstəqil baş çıxarması

imkanı, eləcə də verilən ev tapşırıqlarınını müstəqil yerinə yetirməsi üzrə bilik, bacarıq və vərdişlərin aşılanması vacib komponentlərdəndir. (1)

Məktəbdə fiziki tərbiyə dərslərində müəllim yaradıcı, innovativ metodlardan və təlim üsullarından səmərəli şəkildə istifadə etdikdə fiziki tərbiyə dərslərinə maraq daha da artır. Dərsdənkənar bədən tərbiyəsi və idman məşğələlərində şagirdlər tərəfindən hərəkətlərin müstəqil yerinə yetirilməsinə, bunların mahiyyətinə, təsnifatına diqqət artırılmalıdır. Fiziki tərbiyə dərslərində şagirdlərin zehni və əməli fəaliyyətini təşkil etmək üçün yaxşı imkanlar vardır. Bunun üçün hər bir müəllim mövcud olan imkanlardan səmərəli istifadə etməli, özünün pedaqoji ustalığını müntəzəm olaraq artırmalı, eləcə də öz işlərinə tələbkarlıqla və yaradıcılıqla yanaşmalıdır.

Hər şeydən əvvəl, fiziki tərbiyə dərsləri elə təşkil edilməlidir ki, şagird fəaliyyətinin bilavasitə və yaxud dolayı yolla əxlaq tərbiyəsinə yönəldilməsinə geniş şərait yaratmış olsun. Burada müəllimin nəzəri hazırlığı, pedaqoji, metodiki ustalığı, nəhayət dərsin əvvəlindən axıra kimi məqsədyönlü və mütəşəkkil keçirilməsi xüsusi rol oynayır. Yeni dərs əvvəlki dərslərin davamı olmalı, sonrakılar isə növbəti dərs üçün özül təşkil etməlidir. Öyrədilən fiziki hərəkətlərin şagirdlərin yaşına uyğun olması çox vacibdir. Tədris materialları bölüşdürülərkən hissə-hissə və ardıcıllıqla mənimsədilməsinin iki cəhətdən faydası var. Əvvəla şagirdlər hərəkətləri icra etməkdən qorxmur, ona inamla yanaşırlar. Bu, bir tərəfdən şagirdlərin tapşırıqları yerinə yetirmələrinə imkan verir, onların həm dərsə olan marağını, həm də ona şüurlu münasibətini artırır, digər tərəfdən isə dərsdə şagirdlərin emosionallığını yüksəldir.

2005-ci ildən artıq müstəqil Azərbaycanın müxtəlif sahələrdə o cümlədən təhsildə özünə məxsus olan siyasəti müəyyənləşib ki, burada dövlətin ümumi təhsil standartlarını Milli Kurikulum sənədinin müəyyənləşdirdiyi xüsusi olaraq vurğulanır. Belə ki, dövlət ümumi təhsil standartlarını müəyyən edir. Bütün təcrübi dərslər fənn kurikulumunun məzmun xətlərinin qarşılıqlı əlaqəsi üzərində qurulur. Dərsdə istifadə olunan vasitələr, metodlar məzmun xətlərinin reallaşmasına şərait yaratmalı dərslik və metodik vəsaitlərdən istifadə edərək yaradıcı dərslər qurmağa nail olmalıdır. Təhsil nazirliyi tərəfindən hazırlanmış, təhsilin 2003-2013-cü illəri əhatə edən inkişaf strategiyasına əsasən ümumi təhsilin məzmunu ilə bağlı, təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu komponenti üzrə kurikulum islahatı lahiyəsi həyata keçirilir. Bu baxımdan da Fiziki tərbiyə fənninin yeni məzmununa əsasən dörd məzmun xətti verilmişdir:

- İnformasiya təminatı və nəzəri biliklər
- Hərəki bacarıq və vərdişlər
- Hərəki qabiliyyətlər
- Şəxsiyyətin mənəvi iradi xüsusiyyətlərinin formalaşdırılması.

Burada məzmun materialları bacarıqlar formasında ifadə edilmiş və nəticəyönümlü xarakterə malikdir. Bu zaman fiziki tərbiyə fənninin təlimi prosesində şagirdlərin idraki, emosional, xüsusən də psixomotor fəaliyyətlərin nəzərə alınması diqqət mərkəzində saxlanılmışdır. Fiziki tərbiyə dərslərinin səmərəli təşkil olunması üçün aşağıdakı təklifləri qeyd etmək istərdim.

1. Fiziki tərbiyə müəllimləri, eləcə də ibtidai sinif müəllimləri fiziki tərbiyə üzrə dövlət standartlarına istinad edərək dərslərini qurmalı.

2. Fiziki tərbiyə fənn kurrikulumlarında təqdim olunan metod və üsullarla aparılan dərs prosesində şagirdyönümlülüyə, inkişafyönümlülüyə, şagird fəaliyyətinin stimullaşdırılmasına, dəstəkləyici mühitin yaradılmasına və pedaqoji prosesin tamlığına daha çox imkanlar yaranır.

3. Fiziki tərbiyə fənn kurrikulumlarında təqdim olunan dərs nümunələri, müəllim üçün vəsait və dərsliklər müəllim və şagird fəaliyyətinin istiqamətləndirilməsində əsas rol oynayır. Müəllimlər bu dərs nümunələrinə istinadən fəaliyyətlərini yaradıcı şəkildə qura bilərlər.

4. Fiziki tərbiyə fənn kurrikulumlarının mahiyyəti və xüsusiyyətləri ilə bağlı tədqiqatlarda məzmun standartları Milli Kurrikulumda ifadə olunmuş ümumi təlim nəticələrini fənnin imkanları baxımından xüsusiləşdirir. (2)

Hər bir standart iki mühüm komponentdən ibarətdir: məzmun (bilik) və fəaliyyət (bacarıq). Standartlar təlim ediləcək məzmundan xəbər verir və bacarığın xüsusiyyətini göstərir. Yəni nəyin öyrədiləcəyi və öyrədilənlərin necə nümayiş etdiriləcəyi aydın təsvir edilmişdir. Müşahidələr göstərir ki, fiziki tərbiyə fənnin əhəmiyyətini, onun mahiyyətini nəzəri və praktik cəhətdən düzgün bilmədən fiziki cəhətdən ahəngdar inkişaf etmiş insan yetişməsinə nail olmaq çətindir. Bu baxımdan ümumtəhsil məktəblərinin I-XI sinif şagirdləri fiziki tərbiyə və idman məşğələlərində ən zəruri fiziki və iradi keyfiyyətlərə yiyələnməlidirlər. Fiziki tərbiyə dərslərində qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirmək üçün şagirdlərin fəaliyyətini bu prosesdə düzgün və mütəşəkkil olaraq təşkil etmək vacib şərtlərdəndir. Aparılan təhsil islahatı ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisini yaxşılaşdırmağı, müasir fiziki tərbiyə sisteminin daha səmərəli qurulmasını tələb edir. Bu baxımdan qeyd etmək lazımdır ki, ümumtəhsil məktəblərində fiziki tərbiyənin tədrisi məsələləri, fənnin məzmunu və mahiyyəti elmi əsaslar üzərində qurulmalıdır. Fiziki tərbiyə və idman işlərinin müasir tələblər baxımından həyata keçirilməsinin müxtəlif forma və metodları vardır.

Tədris prosesində hərəki qabiliyyətləri inkişaf etdirməklə bərabər əsas biliklər sırasında duran bölmələrlə yanaşı gimnastika, idman oyunları, atletika elementlərinin proqram tələbləri baxımından şagirdlərə öyrədilməsi məqsədəuyğundur. Bu zaman uşaqlarda fiziki tərbiyə dərslərinə marağın artması, onların ayrı-ayrı idman növləri üzrə bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsi ön planda durmalıdır. Fənnin tədrisi zamanı şagirdlərə hərəkəti əyani göstərməzdən əvvəl onun haqqında izahat vermək, hərəkəti hissə-hissə göstərmək, sonra isə onu bütövlükdə nümayiş etdirmək lazımdır. Bütün bunlar fiziki tərbiyə məşğələlərinin maraqlı olmasına, şagirdlər tərəfindən hərəkətlərin şüurlu şəkildə yerinə yetirilməsinə imkan yaradır.

Bu gün respublikamızın bir sıra ümumtəhsil məktəblərində fiziki tərbiyə fənninin tədrisi zamanı şagirdlərin potensial imkanları nəzərə alınmır, onların yaradıcı təxəyyülünə və təfəkkürünə lazımınca diqqət yetirilmir. Bu baxımdan uşaqlara təkcə biliklər lazım deyil, onların fiziki cəhətdən harmonik inkişafını təmin etmək, uşaqları vətənin müdafiəsinə, şəxsi həyata hazırlamaq, professional peşə fəaliyyəti üçün hazırlıqlı və hərəki fəaliyyət mədəniyyəti tərbiyə etmək gərəklidir. Fiziki tərbiyənin məzmununa nəzər yetirsək görərik ki, ənənəvi təhsil dövründə informasiya təminatı və nəzəri biliklər müəllim tərəfindən aparılırdı, bacarıq və vərdişlər müəllimin tədrisi metodikasına əsaslanırdı. Hərəki qabiliyyətlərin inkişafı, mənəvi-iradi xüsusiyyətlərin tədrisi prosesi dərsdə nəzərdə tutulmurdu. Çox zaman müəllimlər tərəfindən uşaqların yaş imkanlarının, maraqlarının, ətraf aləm haqqında təsəvvürlərinin zənginləşdirilməsi unudulur və onların biliklərinin konkret təcrübi fəaliyyətlə əlaqələndirmək arzuları nəzərə alınmırdı. Ənənəvi dərslərdə müəllim fiziki tərbiyə fənni ilə əlaqədar təşkil edəcəyi oyunların növlərini, qaydalarını, sağlamlaşdırıcı təsirini, təşkil olunma qaydasını bilmədiyindən quru və cansıxıcı dərslərlə kifayətlənirdi.

Ənənəvi dərslərdən fərqli olaraq müasir kurikulumlara əsaslanan fiziki tərbiyə dərslərinin tətbiqi informasiya təminatı və nəzəri biliklər, bacarıq və vərdişlər əvvəlcədən müəyyənləşdirilmiş standartlar əsasında aparılır. Bu bacarıqlar fiziki, funksional və altı hərəki qabiliyyətlər əsasında aparılır. Altı hərəki qabiliyyətə gəldikdə isə sürət, sürət-güc, bədənin əyilmə qabiliyyəti, qüvvə, çeviklik və dözümlülük qabiliyyətlərinin inkişafı şagirdlərin aid olduğu yaş qrupu üçün müəyyən olunmuş hərəki normativlərlə müvafiq inkişaf etdirilir. Mənəvi iradi xüsusiyyətlər şagirdlərin dərs prosesində ünsiyyət qurması, əməkdaşlıq etməsi, dərsin məzmununa daxil edimiş məzmun standartlarında əks olunmuşdur.

Təlimin məqsədinə müvafiq olaraq fiziki tərbiyə dərsləri fərdi, frontal və qrup şəklində həyata keçirilir. Bu zaman ciddi reqlamlaşdırılmış, hissə-hissə öyrətmə, oyun, yarış, nəzarət, söz, əyani təlim üsullarından istifadə olunur. Dərsin istiqamətindən və təlimin vəzifələrindən asılı olaraq dərs giriş, hazırlayıcı, əsas və tamamlayıcı-nəzarət istiqamətli olmalıdır. Fiziki tərbiyə fənninin tədrisi zamanı müəllim hərəki bacarıqların və vərdişlərin formalaşmasına, hərəki qabiliyyətlərin inkişafına istiqamətlənmiş təlim üsulları ilə yanaşı, həm də idraki və emo-

siaonal bacarıqların formalaşmasına xidmət göstərən metodlardan istifadə etməlidir. Bunun əsasını isə məzmun xətləri üzrə müəyyənləşdirilmiş standartlar təşkil edir. Təlim prosesi idraki, emosional və psixomotor bacarıqların inkişafını təmin edən ayrı-ayrı metodlardan dərsin məqsədinə müvafiq istifadə etməklə həyata keçirilir.

Ədəbiyyat

1. Nəsrullayev M. Məktəblilərin fiziki tərbiyəsi, Bakı, 2003, 85 s.
2. Azərbaycan Respublikası Ümumi Təhsilin Milli Kurikulumu, Bakı, 2006.
3. Ашмарин Б.А. Теория и методики физического воспитания. М.: Просвещение, 1990. - 287 с.

М.С.Алыев

Эффективная организация занятий по физическому воспитанию

Резюме

В данной статье затронуты вопросы эффективной организации уроков физического воспитания, повышение у учащихся средних школ интереса к урокам физической культуры, привития у них знаний, умений и навыков в различных видах спорта, а также повышение активности участия на спортивных соревнованиях.

M.S.Aliyev

Effective organization of physical education classes

Summary

The article deals with the efficient forming of the physical training lessons, raising of the interest to physical training lessons in pupils in middle general education schools, forming of the habits, knowledge, ability to different kinds of sport and displaying interest to different sport competitions in this area.

Rəyçi: ped.f.d., dos. Ə.X.Ramazanov

Redaksiyaya daxil olub: 28.09.2021

A.İ.ƏLİYEVA
e-mail: agabikaaliyeva47@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

FRANSIZ DİLİNDƏKİ OMONİMLƏRİN TƏDRİSİ ZAMANI YARANAN ÇƏTİNLİKLƏR

***Açar sözlər**: omonim, omoqraf, fonetika, kateqoriya*
***Ключевые слова**: омоним, омограф, фонетика, категория*
***Key words**: homonym, homograph, phonetics, category*

Fransız dili mənşəyini latın danışıq dilindən götürmüşdür. Zaman keçdikcə bu dilə başqa dillərdən sözlərin daxil olması ilə leksik fond böyümüşdür. 10 əsrdən çox davam edən təkamül nəticəsində minlərlə bir-birinə oxşar söz əmələ gəlmişdir.

Bu gün də fransız dilində orfoqrafiya və ya orfoepiya baxımından oxşar, lakin mənaca kəskin fərqlənən minlərlə söz mövcuddur. Bu vəziyyət dil öyrənənlər üçün ciddi çətinlik yaradır. Ana dili (tədris dili) fransız dili ilə heç bir qohumluq əlaqəsi olmayan azərbaycanlı tələbələr üçün çətinliyin miqyası daha böyükdür.

Azərbaycan dili dərsliklərində omofon və omoqraflar demək olar fərqləndirilmir, hər 2 kateqoriyaya aid sözlər omonimlər adı altında ümumiləşdirilir. Bu yanaşma bəzən özünü doğrultmur. "Elektrik" və "eléktrik" sözləri omoqraf olsa da, omofon deyil, məna fərqləri də kifayət qədər böyükdür.

Təəssüf ki, dilimizdə mənası vurğu ilə dəyişən sözlər çox olsa da, omonimlər lüğətinə (2) yalnız ümumişlək sözlər daxil edilir. Mənası vurğu ilə dəyişən terminlərin istər izahlı (1), istərsə də omonimlər lüğətinə daxil edilməməsi (ikidilli lüğətlərdə də vəziyyət çox da fərqli deyil) konseptual yanaşmanın köhnə və yanlış olduğunu göstərir ki, bu da ayrıca tədqiqat mövzusudur. Belə yanaşmanın orta məktəb dərsliklərinə yol tapması sonradan xarici dil öyrənənlər üçün çətinlik yaradır.

Fransız dilindəki omonimlərin yaratdığı çətinliklərin aradan qaldırılması üçün fonetika, qrammatika və leksikanın tədrisi bir-biri ilə uzlaşmalıdır. Omofon və omoqrafların yaranmasının leksik, qrammatik və fonetik tərəfləri tədris planında geniş əks olunmalı, onların oxşar və fərqli cəhətləri göstərilməlidir.

Omonimlərin yaranmasının səbəblərinə gəlincə:

- **leksik səbəblər**: dilin təkamülü nəticəsində söz yeni məna kəsb edir. Bu proses davamedicidir.

- **fonetik səbəblər**: islahat nəticəsində sözün yazılışı dəyişir, bəzi hallarda eyni məna daşıyan sözün birdən çox yazılış şəkli saxlanılır. Tələffüz baxımından eyni, yazılışca tam fərqli sözlər meydana çıxır. Proses indi də ardıkəsilməz şəkildə davam edir.

- **qrammatik səbəblər** başlıca olaraq feilin zaman formaları ilə bağlıdır. Başqa sözlə, zaman şəkilçiləri orfoepiya baxımından oxşar, orfoqrafiya cəhətdən isə tam fərqlidir. İsmin cinsinin dəyişməsi də yeni omoqrafların yaranmasına səbəb olur.

Leksik səbələrin öyrədilməsi fonetika və leksika fənlərində eyni vaxtda aparılmalıdır ki daha səmərəli nəticə əldə edilsin. Sözün yeni məna kəsb etməsi əksər hallarda terminologiya ilə bağlı olur. Yəni, ümumişlək yeni məna kəsb edərək termin kimi istifadə edilir:

Lumière ***f***. – işıq; araboşluğu (texnika); boşluq (anatomiya, tibb)

Təcrübə göstərir ki, leksik səbəblər ciddi çətinlik yaratmır. Fransızca-azərbaycanca lüğətlərdə məsələ kifayət qədər dəqiq əks olunub.

Qrammatik səbəblər. Fransız dilindəki isimlərin çox az qismi (təxminən 300) hər 2 cinsdə işlənir. Bu zaman orfoqrafiya və tələffüz dəyişməsə də, məna tamamilə başqa olur.

MODE: ***m.*** istifadə qaydası; feilin növü / ***f****. moda, dəb*

LITRE: **m.** litr (ölçü vahidi) / ***f****. matəm lenti*

Bu halda tələbə həm də cinsə görə uzlaşmanı düzgün etməyi bacarmalıdır.

La livre turque s'échangeait à 8,75 livres pour un dollar et à 10,26 livres pour un euro jeudi après-midi (Le Figaro).

Cümə axşamı günortadan sonra 1 dollar 8,75 **türk lirəsinə**, 1 avro isə 10,26 **türk lirəsinə** dəyişdirilirdi.

Voici **le gros livre** des histoires qui font peur ! (amazon.fr)

Budur, böyük hekayələr **kitabı** qorxu yaradır!

Fransız dilində çox az sayda ismin mənası kəmiyyətə görə dəyişir ki, bunların da tədrisinə qrammatika dərslərində xüsusi diqqət yetirilməlidir:

Lettre – məktub; Lettres - ədəbiyyat

Échec – məğlubiyyət; échecs – şahmat.

Bu qəbildən olan sözlər azlıq təşkil etdiyi üçün bəzən onlara əhəmiyyətsiz yanaşılması ciddi məna təhriflərinə səbəb ola bilər.

Qrammatik kateqoriyanın dəyişməsi ilə yaranan omonimlər də çox vaxt tələbələri çaşdırır:

Avoir ***v.*** – malik olmaq; avoir ***m.*** – borc sənədi, çek

Être ***v.*** – olmaq; être ***m.*** – varlıq

Droit ***m.*** – hüquq; droit ***adj.*** – düz

Tədris prosesində feilin təsriflənən formaları ilə bağlı çətinliklərə xüsusi diqqət yetirilməlidir. Vəziyyəti aydın təsəvvür etmək üçün deyək ki "Larousse" nəşriyyatının 300 səhifəlik "Dictionnaire des homonymes" lüğətinin təxminən yarısını feil təsrifləri tutur:

Casque ***f.*** – dəbilqə (4, s.45)

Je casque; tu casques; il casque; ils casquent (***casquer*** (dəbilqə geyinmək) feilinin indiki zaman forması).

Məsələ təkcə indiki zamanla bitmir. *İmparfait* və klassik ədədbiyyatda geniş işlənən *passe simple* zamanı da çətinlik yarada bilər.

Doublet ***m.*** dublikat

Je, tu doublais; il doublait; ils doublaient (***doubler*** (ikiqat artırmaq, ötüb keçmək) feilinin *imparfait* forması).

Damas ***m.*** sadə ipək parça (4, s.73)

Tu damas; il/elle/on dama (***damer*** (mat etmək) feilinin *passé simple* forması).

Digər zaman formaları ilə bağlı dolaşıqlıq yaradan hallar mövcud olsa da, bunlara az rast gəlinir.

Leksik və qrammatik omonimlərin yaratdığı çətinliklərə tərcümə fakültəsində tədris zamanı xüsusi diqqət yetirilməlidir.

Tədris prosesində çətinlik yaradan fonetik səbəblər də kifayət qədərdir ki, bunlar da, əsasən, omofonlarla (yazılışı fərqli, tələffüzü eyni olan sözlər) bağlıdır. Fransız dilində omofonlar kifayət qədər çoxdur və daha çox dolaşıqlığa səbəb olur (4, s.44):

Carte Kart Quarte Quarte	*f.* *m.* *adj., f.* *f.*	Xəritə, açıqca Kartinq avtomobili Kvart (ingilisdilli ölkələrdə həcm vahidi) 4-lük kabel, kvart (qədim ölçü vahidi)
Ce Se	*pron.* *pron.*	Bu (işarə əvəz.) Öz (qayıdış əvəz.)
Cet Cette Sept	*pron.* *pron.* *adj.*	Bu (işarə vəzliyi) Bu (işarə vəzliyi) Yeddi

Set	*m.*	Set (tennis)
Mon Mont	*adj.* *m.*	Mənim (məns. əvəz.) Dağ
Mur Mûr Mûre	*m.* *adj.* *f.*	Divar Yetişmiş Tut

Omofonların yaranma səbəblərinin izah edilməsi (xüsusən də, alınma sözlərdə: carte – kart, quarte) tələbələrin mövzunu daha dərindən qavramasına imkan verir.

Fonetik səbəblər arasında omoqraflar (yazılışı eyni, tələffüzü fərqli sözlər) da yer alır:

un affluent [aflyã] çayın qolu

(ils) affluent [afly], affluer [aflye] axmaq, tökülmək feili, xəbər şəklinin indiki zamanında, 3-cü şəxsin cəmi (3, s.15).

Fransız dilində 1740, 1835, 1878 və 1935-ci illərdə ciddi orfoqrafiya islahatları aparılmışdır. Sonuncu islahat 1990-cı ildə qəbul edilib, 2016-2017-ci tədris ilindən Fransada tətbiq olunur. İslahat nəticəsində yüzlərlə sözün yazılışı dəyişib, sadələşib, bir neçə formada yazılan sözlər üçün vahid orfoqrafiya müəyyən edilib: oignon – ognon, joaillier – joailler, revolver - révolver və sair (6).

Fransızca bir neçə formada yazılan sözlər qalmaqdadır ki, bu da tələbələri çaşdıra bilər: cary, carry, curry (hind sousu).

Omonimlərin bütün formaları tələbələr üçün çətinlik yarada bilər. Çıxış yolu vaxtaşırı olaraq aşağıdakı tipdə tapşırıqların işlənməsidir:

Elle (*s'est, ces, ses, sait*) levée très tôt ce matin.

Tu (*est, es, et, ai*) encore en retard !

Le terrain est très petit : environ un ***are***.

La peinture est un ***art***.

Bu tip çalışmalar doğru cavabları ilə birgə internet resurslarda kifayət qədər çox olsa da, bir vacib məqam diqqətdən kənarda qalmamalıdır. Fransa, Kanada və İsveçrə mütəxəssislərinin hazırladığı bu çalışmalar, əsasən, ana dili fransızca olanlar üçün nəzərdə tutulur. İnternet resurslarında bu tip çalışmaların bolluğu həm müəllimlərə, həm də tələbələrə kömək etsə də, milli dərsliklərin hazırlanmasını istisna etmir. Sözügedən mənbələrdəki çalışmalar ümumi xarakter daşıyır, hər hansı ölkənin tələbələrinin qarşılaşdığı çətinliklər xüsusi olaraq nəzərə alınmır (bütün ölkələri eyni zamanda nəzərə almaq ümumiyyətlə mümkün deyil).

Milli dərsliklərimizdə isə məhz azərbaycandilli tələbələrin rastlaşdığı çətinliklər nəzərə alınmalı, çalışmaların həcmi və xarakteri dərs saatlarına uyğunlaşdırılmalıdır. İkidilli lüğətlərdə omofonlar (xüsusən də, ikicinsli isimlər) xüsusi diqqətlə işlənməli, bütün lüğət məqalələri "Le Grand Robert" və ya Fransa Akademiyasının lüğətləri ilə tutuşdurulmalıdır. Fransızca-azərbaycanca omonimlər lüğətinin tərtib olunması həm dil öyrənənlərə, həm də mütəxəssislərə kömək edər.

Tələbələr də daim müstəqil işləməyə alışmalı, rastlaşdıqları ziddiyyətli məqamları araşdırmalıdırlar. Yalnız bu yolla fransız dilinin xüsusiyyətindən doğan çətinlikləri dəf etmək mümkündür.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti, 4 cilddə, B. 2006
2. Azərbaycan dilinin omonimlər lüğəti, B. 2006
3. Ələsgərov V. Tərcüməçinin "yalançı dostları": Fransız və Azərbaycan dillərinin nümunəsində. B. 2012
4. Dictionnaire des homonymes. P. 2003.
5. Ferrand Ludovic. 640 homophones et leurs caractéristiques. Persée, N°4, 1999, pp.687-708.

6.https://www.lefigaro.fr/actualite-france/2016/02/04/01016-20160204ARTFIG00080-la-reforme-de-l-orthographe-de-1990-fait-son-entree-dans-les-manuels-de8230-2016.php
7. https://www.ccdmd.qc.ca/fr/exercices_pdf/?id=38#

А.И.Алиева

Трудности, возникающие
при преподавании омонимов французского языка
Резюме

В данной статье анализируются виды омонимов французского языка, указываются трудности, возникающие при их преподавании. Отмечается, что для хорошего усвоения азербайджаноязычными студентами французского языка должны быть составлены специальные упражнения. В то же время фонетика, грамматика и лексика должны преподаваться координированно.

A.I.Aliyeva

Difficulties arising when teaching homonyms in French
Summary

This article analyzes homonyms in the French language, points out difficulties arising when teaching them. It is written that special exercises are to be provided for the Azerbaijani-speaking students to master French well. Moreover, phonetics, grammar and lexis are to be taught in a coordinated manner.

Rəyçi: f.f.d., dos. R.M.İsayeva

Redaksiyaya daxil olub: 18.10.2021

Y.B.ƏSKƏROVA
e-mail: y.askerova @inbox.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

AİLƏ VƏ NİKAH SOSİAL-PSİXOLOJİ PROBLEM KİMİ

Açar sözlər: *ailə, nikah, mənəvi dəyər, məhəbbət, evlilik, qısqanclıq, zorakılıq, boşanma*
Ключевые слова: *семья, брак, нравственная ценность, любовь, брак, ревность, насилие, развод*
Key words: *family, marriage, moral value, love, marriage, jealousy, violence, divorce*

Ailə özündə sosial təşkilatın, strukturun, institutun və kiçik qrupun xassələrini birləşdirən sosial qurum hesab olunur. A.O.Xarçiyev ailəyə belə tərif verir: "Ailə həyat yoldaşları, valideynlər və övladlar arasında tarixən konkret münasibətlər sistemi olub, üzvləri nikah və qohumluq əlaqələri ümumi məişət və məsuliyyət hissi ilə birləşmiş əhalinin fiziki və mənəvi artımına cəmiyyətin tələbatı ilə şərtlənən kiçik qrupdur ". (3, s.8)

Ailə mənəvi dəyərlərin əsrlər boyu qorunub gələcək nəsillərə saxladığı, maddi münasibətlərin tənzimləndiyi sosial qurumdur. Ailədəki münasibətlər ailənin həyatına böyük təsir göstərir və onlar arasında əlaqə nə qədər sıx olarsa, ailə dayaqları da bir o qədər möhkəm olar. Ailə münasibətləri özündə müxtəlif həyat şərtlərini, qaydalarını birləşdirir və bu münasibətlərə psixoloji, sosial, iqtisadi, mənəvi və bioloji amillər təsir edir. Ailə cəmiyyətdə hamı tərəfindən sosial qrup kimi qəbul edilən birlik hesab olunur. O, vahid məqsəd uğrunda birləşən və hər birinin müəyyən vəzifələr icra etdiyi qohum-əqrabaların cəmidir. (2, s.5-6)

Ailə problemi sosial-fəlsəfi fikir tarixində daim üstün rola malik olmuşdur. VII-IX əsrləri əhatə edən "Kitabi-Dədə -Qorqud dastanında " türk xalqlarının ailə-nikah münasibətlərinin təsvirinə, valideyn, övlad, ailə və cəmiyyət haqqında ideyalara geniş yer verilmişdir.

Ailənin mənəvi-istehlak və tərbiyəvi funksiyalarından bəhs edən, cəmiyyətdə qadının rolunu yüksək qiymətləndirən Nizami Gəncəvi ailənin cəmiyyətdə böyük rol oynadığını qeyd etmişdir.

Məhəbbət aləmində kişi və qadın arasında sevgidən bəhs edən, əsərlərində yaşadığı dövr üçün səciyyəvi olan bir çox məsələlərə yer verən Məhəmməd Füzuli ailəyə aid ibrətamiz fikirlər irəli sürmüşdür.

Ailənin yaranmasında adət-ənənələrin, idarəçilik vərdişlərinin, sosial-psixoloji mühitin mühüm rol oynadığını vurğulayan filosof, astronom N.Tusi ailədə idarəetmə funksiyasının icra olunmasında ailə başçısının əsas rola sahib olduğunu qeyd etmişdir.

Görkəmli filosof S.Urməvi də öz əsərlərində ailə münasibətlərini araşdırmış və ailə üzvlərinin hər zaman bir-birilə qarşılıqlı məsuliyyət və hörmət şəraitində davranmalı olduğunu bildirmiş, ailədaxili münasibətlər və problemlərin həlli məsələlərinə toxunmuş, ailə başçısının ailənin idarə olunmasında böyük məsuliyyətə sahib olduğunu qeyd etmişdir. (5, s.13-14)

Aristotel ailəni tarix boyu dəyişməyən birlik və insanların birgə yaşayışının ilk təbii forması hesab etmişdir.

Platon ailə münasibətlərinin tənzim etmək rolunun dövlətə məxsus olduğunu bildirirdi. Onun təlimində cəmiyyətin bəzi üzvləri ailə qurmaq hüququndan məhrum edilir, ailə quranların isə öz həyatını, uşaqlarının tərbiyəsini dövlətin mənafeyinə həsr etməli olduğu vurğulanırdı.

E.From ailənin mənəvi funksiyasının sosial-psixoloji təhlilini aparanlardan biri olmuşdur. 1956-cı ildə dərc olunmuş "Sevmək sənəti" əsərində qeyd edirdi ki, sevmək həm sevilmək, həm də sevməyi bacarmaq deməkdir.

Ailə öz inkişafında bir neçə mərhələdən keçərək indiki səviyyəyə gəlib çatmışdır. Quldarlıq dövründə qullar ailə qurmaq hüququndan məhrum idilər. Feodalizm dövründə ailə mü-

nasibətləri və nikah cəmiyyətin silki quruluşunun altında olmuş, ev təsərrüfatının idarə olunmasında və uşaqların tərbiyə olunmasında qadının rolunun artması nəticəsində kişilərin hökmranlığı bir o qədər zəifləmişdi.

Kapitalizm cəmiyyətində monoqam ailə daha da inkişaf etmiş, qadının iqtisadi müstəqilliyinin artması nəticəsində yeni mərhələyə yüksəlmişdir.

Ailə ictimai-tarixi hadisə hesab olunmaqla cəmiyyətin inkişafının təsiri ilə daima inkişaf edir. Qadın ailə münasibətlərində çox əhəmiyyətli rola sahib olmuşdur. Cəmiyyətin inkişafı qadının sosial mühitdə də rolunu artırmışdı. Hər bir qadın ailədə həyat yoldaşı, ana, cəmiyyətdə isə müəllim, həkim, alim kimi rollara sahib olmaqla həm ailənin, həm də cəmiyyətin həyatında müstəsna rola malikdir. Qadının ailə və cəmiyyətdəki rolu, öhdəlikləri ailə qurmağa hazırlaşan hər bir gənc qızdan yüksək psixoloji hazırlıq tələb edir. (6, s.10)

Psixoloqlar və sosioloqlar araşdırmalar nəticəsində belə qənaətə gəlmişlər ki, insanların təqribən 70 faizi bir-birini sevərək, 30 faizi isə qohumlarının və valideynlərinin vasitəsilə aralarında sevgi olmadan ailə qururlar. Sevgi gözəl hisdir, lakin bir insanı sevmək onunla ailə qurmaq üçün hazır olmaq demək seyil. Həyatda səhv etməmək üçün ömür yoldaşını düzgün seçmək kifayətdir. (7, s.4)

Nevzat Tarhan "Ailə okulu" adlı kitabında qeyd edir ki, insan həyatında ən əhəmiyyətli iki qərar verməlidir: peşə seçimi və həyat yoldaşı seçimi. (11, s.132) Təəssüf ki, evlənənlərin 80-85 faizi nə üçün evləndiyini bilmədən ailə qurur və ailə qurmaq məsələsini sadəcə təbiətin hökmü kimi qəbul edir. Ailə əxlaq kimi dəyərli dirəyə sahib olub məhəbbət, inam və sədaqət bağları ilə mövcudluq tapır. Əgər bu bağlardan biri qırılarsa, ailə sanki bir gözünü itirir, ikinci bağın qırılması ilə ailə hər iki gözünü itirir. Əgər hər üç bağ qırılarsa, o zaman ailə məhv olur (9, s.9). Ailə münasibətlərinin yalnız romantika ilə qərar tutması çətindir. Buna görə də ümumi maraqlardan, məqsəd birliyindən qaynaqlanan dostluq ailə münasibətlərində üstün rola malikdir. Evlilik mərhələsində əksliklər üzərində qurulmuş tamamlama məhəbbəti kifayət etmədiyi üçün ümumi cəhətlər üzərində qurulmuş eyniyyət məhəbbətinə ehtiyac yaranır. Ailə məhəbbəti bu iki məhəbbət növünün sintezindən yaranır və övladlara olan məhəbbətin ortaqlığı onun daha da güclənməsinə səbəb olur. İsinişmə eyniyyət məhəbbətinin yaranmasında çox əhəmiyyətlidir. (10, s.25-26)

Məhəbbət anlayışına filosofların yanaşması da fərqli olmuşdur. Platon məhəbbəti ilahi qüvvə hesab edirdi. O, məhəbbət konsepsiyasında bu hissi – "Təmiz məhəbbəti" açmağa çalışmış və insan həyatının fizioloji instinktdən fərqləndiyini anlamışdır.

Stendal "Məhəbbət haqqında" fəlsəfi-psixoloji oçerkində-essesində məhəbbəti dörd növə ayırır: məhəbbət iztirabdır; məhəbbət həvəsdir; məhəbbət gözlənilməz instinktdir; məhəbbət düşünülmüş hisdir (4, s.18-19).

Məhəbbət mənəvi kamilliyin təməlidir. Ailəni dayanıqlı edən ər-arvad arasındakı eyniyyətdən daha çox fərqdir və məhəbbət də elə bu fərqin nəticəsi kimi doğulur. Ər-arvad arasında bağlanmış nikah ailənin əsasıdır. O, ər-arvad münasibətlərini və onların qarşılıqlı öhdəliklərini hüquqi yolla rəsmiləşdirən müqavilə olub sevgiyə və dostluğa arxalandıqda daha da möhkəm olur. Xoşbəxt evliliklər dərin dostluğa əsaslanır (14, s.19). Bu bir reallıqdır ki, "nikah " və "ailə" bir çox hallarda sinonim sözlər kimi işlədilən əlaqəli anlayışlardır. Ancaq bu anlayışlar arasında həm ümumi, həm də xüsusi fərdi xüsusiyyətlər var. Alimlər müəyyən etmişlər ki, nikah və ailə müxtəlif tarixi dövrlərdə yaranmışdır. Sosioloqlar nikahı "kişi və qadın arasında mövcud olan münasibətlərin tarixən dəyişən sosial forması kimi" nəzərdən keçirirlər. Ailə nikahla müqayisədə münasibətlərin daha mürəkkəb sistemini özündə birləşdirərək həm ər-arvadı, həm də onların uşaqlarini, digər qohumları, yaxud ər-arvadın yaxın adamlarını və onlar üçün əhəmiyyətli insanları birləşdirir. (12, s.66)

Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi "İqbalnamə" əsərində nikahın yeganə formasının təknikahlılıq-monoqamiya olduğunu göstərir və bildirirdi ki, kişi üçün bir arvad kifayət edər, əgər onun çoxlu arvadı olarsa, deməli heç biri yoxdur. Nizami Gəncəvi

təknikahlılığı ən ideal nikah forması hesab edərək türk qadınlarının gözəlliyini təbliğ edərək öz demokratik fikirlərini Qıpçaq ağsaqqallarının məsləhətlərində belə ifadə edir: "Əgər qadına baxmaq günahdırsa, sən gözlərini ört, qadını yox" (8, s.53).

Nikaha daxil olmanın bir çox motivləri vardır və onların arasında məhəbbət, daimi cinsi tərəfdaşın olması istəyi, uşaqlara sahib olma arzusu, məişət probleminin birgə həlli və bu kimi amillər əhəmiyyətli yer tutur. Öz həyat yoldaşına inam bəsləyən, ona etibar edən, sədaqətli olan və ailəyə sevgi ilə yanaşan insanlar arasında nikah daha uğurlu olur. N.Çələbiyev vurğulayır ki, "İdeal nikah"da cütlüklər, adətən, şəxsiyyətin dözümlülük, təmkinlilik, əməksevərlik, qayğıkeşlik, fədakarlıq və çevik davranışa sahib olma kimi keyfiyyətlərə böyük əhəmiyyət verirlər (3, s. 237).

Rus psixoloq və sosioloqları B.Y.Şapiro, A.N.Volkova, L.Y.Qozman, L.P. Pankova, M.A.Abalakina və başqaları öz tədqiqatlarında nikahaqədərki və nikahöncəsi dövrlərdə tərəfdaş seçimi məsələsini araşdırmışlar. Həm rus, həm də Qərb psixoloqlarının nəzəriyyələrində nikah üçün tərəfdaş problemi iki əsas ideya baxımından üst-üstə düşür. Birincisi, demək olar ki, nəzəriyyələrin hamısı sosial-mədəni homoqamiya prinsipinə əsaslanır. İkincisi, tərəfdaş seçimi mexanizmi filtr sistemi kimi təqdim olunur. Filtrlər ardıcıl olaraq mümkün seçilənlərin dairəsini sıxışdırır, uyğun olmayanları kənarlaşdırır. Yekun mərhələdə elə cütlük qalır ki, onlar nəzəri olaraq ər-arvad cütlüyü kimi bir-birinə tam uyğun hesab olunurlar.

Ailə qurduqdan sonra nikaha daxil olanların qarşısında ailə münasibətlərində iştirakçılıq üçün bir çox zəruri vəzifələr durur. Bu vəzifələrin hər biri ailənin funksiyaları ilə şərtlənir və onlarla sıx bağlıdır. Hər bir vəzifənin müvəffəqiyyətlə həlli üçün ailə üzvləri müəyyən psixoloji keyfiyyətlərə malik olmalıdırlar. Psixoloqlar bu cür keyfiyyətlərin cəmini "zəruri ailə keyfiyyətləri" adlandırırlar. Bu keyfiyyətləri tələbatlar adlandırmaqla 3 qrupda cəmləşdirmək olar. Birinci tələbatlar: fərdin ailə həyatında iştirakını, çətinliklərin və problemlərin həllini motivləşdirən tələbatlar; atalıq və analığa olan tələbat; ər-arvadın qarşılıqlı münasibətləri gedişində təmin edilməli olan sevgiyə, simpatiyaya, seksual-erotik, məişət-təsərrüfat həyatı ilə bağlı tələbatlar və s. İkinci tələbatlar: qabiliyyət, bacarıq və vərdişlərin geniş dairəsi; başqa adamı-ailə üzvünü anlamaq qabiliyyəti: uşaqların tərbiyəsi və ər-arvad münasibətlərinin qorunub saxlanması üçün zəruri olan bacarıq və vərdişlərin məcmusu; üçüncü tələbatlar: frustrasiya halında öz emosional və iradi vəziyyətini tənzim etmək üçün zəruri olan keyfiyyətlərin geniş dairəsi; bugünkü istəkləri qarşıya qoyulmuş məqsədə tabe etmək bacarığı; ər-arvadlıq münasibatlərində va tərbiyə məsələlərində səbir və dözümlülük.

Ailəyə sistemli yanaşdıqda demək olar ki, burada hər şey bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdədir. Ailə həm bioloji, həm psixoloji, həm də canlı sosial orqanizmdir. Ailəni ilk dəfə canlı sistem kimi təhlil edən amerikan alimi C. Cekson olmuşdur və o, vurğulamışdır ki, "ailə qaydalarla idarə olunan sistemdir". O qeyd etmişdir ki, ailə üzvləri çoxcəhətli və geniş, mümkün davranış növlərindən yalnız bir qismindən istifadə edirlər. Öz davranışlarında bu davranış üsullarından davamlı istifadə edən azlığın davranışını o, "ailə qaydaları" adlandırmışdır. Ailə qaydalarına ər-arvadın bir-birinə yanaşma tərzi, ailə büdcəsinin xərclənməsi ilə bağlı məsələlər, evdə səliqə-sahman, bazarlıq, uşaqların bağçaya, məktəbə aparılıb gətirilməsi və s. kimi vəzifələrdən irəli gələn qaydalar daxildir (3, s. 244-248). Ailədaxili münasibətlərə mənfi təsir göstərən amillərdən biri də ailədaxili konfliktlərdir. Konflikt (latınca confliktus-toqquşma) insanların bir-birinə münasibətdə mənafe, görüş və meyllərinin toqquşması, son nəticədə qarşıdurmaya gətirib çıxaran ciddi ixtilaf, kəskin mübahisədir.

Müəyyən olunmuşdur ki, müasir dövrdə gənc ailələrdə konfliktə səbəb olan əsas problemlərdən biri də maddi təminatdır. Ailələrdəki konfliktlərin əsas sahəsi pulla əlaqələndirilir. Cütlüklərin 95%-i pulla əlaqəli mövzularda mübahisə edirlər (13, s.267). Ailə münasibətləri sistemində tarixən geniş yayılmış və problemlərə, konfliktlərə, hətta boşanmaya səbəb olan ən mühüm amil qısqanclıqdır. N. Çələbiyevə görə, emosional reaksiyalar doğuran qısqanclıq insan ona məxsus olan "mülkiyyətinə" başqa birinin sahiblik iddiası ilə üzləşdiyi zaman mey-

dana gəlir. Ər-arvad qısqanclığı təbii və normal hisdir. Qısqanclığın təbii və normal formasından başqa, onun psixi xəstəlik hesab olunan patoloji forması da mövcuddur (3, s.289-291) .

Nevzat Tarhan "Ailə okulu" kitabında qeyd edir ki, qısqanc insanlar (xüsusilə kişilər) adətən bu ifadəni işlədirlər: "Mən sənə güvənirəm, amma başqalarına güvənmirəm" (11, s.153-155)

Ailədə ən mühüm problemlərdən biri də zorakılıqdır. Tarixən bütün camiyyətlərdə və ailələrdə müxtəlif formalarda zorakılıq halları mövcud olmuşdur. Aparılmış tədqiqatların nəticələrinə istinad edərək demək olar ki, ailədə ən çox zorakılığa məruz qalan qadınlardır. Hər il 25 noyabr bütün dünyada "Qadın zorakılığına qarşı mübarizə günü" kimi qeyd olunur. Müasir dövrdə cəmiyyətdə kişilərin qadınlara qarşı zorakılığının fiziki, psixoloji, emosional, seksual, iqtisadi formaları geniş yayılmışdır. Ailədə mövcud olan zorakılığın ən geniş yayılmış forması isə fiziki zorakılıqdır. Qadınlarla kişilər arasında münasibətləri, davranış və hərəkətləri müəyyən qaydalar əsasında tənzimləyən cinsi normalar intim normalar hesab olunur. Hər bir cəmiyyət özünəməxsus intim norma və qanunlara sahibdir. Bu norma və qanunlar təbiilikdən və sağlam düşüncədən məhrum olduqda, insanın intim tələbatlarının ödənilməsinə imkan vermədikdə insanın şüurunda təbii intim enerjinin qarşısında maneələr yaranır və bu, ruhi müvazinətin pozulmasına-günah hissinə, narahatlığa, məyusluğa, həyatdan küskünlüyə və son nəticədə, hansısa xəstəliyin yaranmasına səbəb olur.

Nikah yaşı 5 ildən az olan ailə "gənc ailə" hesab olunur. Bu dövr gənclərin bir birinə uyğunlaşması ilə xarakterikdir. İlk 5 illik müddət ailədə uşaqların dünyaya gəlməsindən və ya gəlməməsindən asılı olmayaraq ən məsuliyyətli dövr hesab olunur. Tədqiqatlar sübut edir ki, ailə qurmağa hazırlaşan, yaxud "gənc ailə" hesab olunan cütlüklərin heç də hamısı iqtisadi və sosial-psixoloji cəhətdən ailə həyatına hazır olmurlar. Mənzil, məişət, iş və maddi təminatla əlaqəli çətinliklər gəncləri müəyyən müddət valideynlərdən asılı edir.

Gənc ailə hayatının keçdiyi əsas mərhələlər adaptasiya və inteqrasiya mərhələləridir. Ər-arvadın bir-birinə, həmçinin ailənin iqliminə uyğunlaşması adaptasiya mərhələsini əhatə edir. Adaptasiya olmadan inteqrasiya mümkün deyil. Bu iki proses bir-biri ilə qarşılıqlı əlaqədədir və biri digərini tamamlayır.

Ailədaxili münasibətlərə və nəsillərarası inteqrasiyaya təsir göstərən amillər arasında müasir ailələrin daha çox iki nəsildən (ata-ana və onların övladları) ibarət olması xüsusi vurğulanmalıdır. Bir çox tədqiqatlara əsasən qeyd etmək olar ki, ailə və karyera arasında seçim etmək gənclərin üzləşdiyi əsas problemlərdir. Müasir dövrdə təhsilə və karyeraya ailə həyatından daha çox əhəmiyyət verən qadınların sayı artmışdır. Bir çox hallarda qadınların təhsil almaq və karyera qurub iş hayatında irəliləmək istəyi dəstəklənsə də, qadınların cəmiyyətdə layiqli mövqe tutmaları üçün ümumilikdə ictimai təfəkkürdə geniş yayılmış stereotipləri dağıtmaq zəruridir.

Ciddi narahatlıq yaradan aktual problemlərdən biri sayılan erkən nikah sosial hadisə olub ailə quran tərəflərin yaşlarının rəsmi nikah üçün müəyyən olunmuş yaş haddindən aşağı olması ilə səciyyələnir. Nikahın müxtəlif səbəblərdən pozulması, xəstə, problemli uşaqların dünyaya gəlməsi erkən nikah vasitəsi ilə qurulmuş ailələrdə ən çox rast gəlinən haldır. Bir çox hallarda gənclərin yetkinlik yaşına çatmalarına baxmayaraq nikaha o qədər də əhəmiyyət verməməsi onların nikahı rəsmiləşdirmədən el adəti, ata-ana xeyir-duası ilə ailə qurmağına səbəb olur. Erkən nikahlar zamanı çox vaxt oğlan nikah üçün uyğun yaşa sahib olsa da, qızların yaşının azlığı onları nəinki erkən ailə qurmağın yol açdığı fəsadlarla, həmçinin təhsil almaq hüququndan da məhrum olmaq kimi acınacaqlı bir halla üz-üzə qoyur. Belə qızlar təkcə ali təhsil almaq şansını itirmir, çox zaman tam orta təhsil almaqdan da məhrum olurlar.

Erkən nikahla paralel ailələrimizdə qan qohumluğu problemi də cəmiyyətimizi ciddi narahat edən məsələdir. Qan qohumluğunun səbəb olduğu problemlər haqqında tibb elmi tərəfindən ortaya qoyulmuş faktlar bu cür ailələrin cəmiyyətdə nə qədər acınacaqlı fəsadlar yaratdığını bir daha təsdiqləyir. Əgər gənclər yüksək əxlaqi dəyərlərə əsaslanan məhəbbətin, ailənin hüquqi əsası hesab olunan nikahın, ailə həyatının və gələcək övladlarını tərbiyə

etməyin mahiyyətini və məsuliyyətini düzgün dərk edərlərsə, ailə həyatına uğurla hazırlana bilərlər və möhkəm təmələ malik olan xoşbəxt ailələrin qurulması üçün zəmin yaranar.

Ədəbiyyat

1. Abbasov .N., Əhmədov H.H. Qız gəlin köçür. Bakı:Gənclik, 1992, 44 s
2. Bünyadova Ş.T. Orta əsr Azərbaycan ailəsi. Bakı:Elm, 2012, 384 s
3. ÇələbiyevN.Z.Ailə psixologiyası. Bakı:Mütərcim, 2015, 422 s
4. Eminov A.İ. Şərq ailəsinin sirləri. Bakı:Sabah, 1992, 152 s
5. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusisyyətlərin nəzərə alınması. Bakı:Maarif, 1995, 104 s.
6. Əlizadə Ə.Ə. Məhəbbət aləmi. Bakı:Azərbaycan Ensiklopediyası. 1995, 263s.
7. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə :IX siniflər üçün dərs vəsaiti. Bakı: Maarif, 1986, 272 s
8. Əfəndiyeva Ü.A. Əsrin gender konsepsiyası: Dərs vəsaiti. Bakı: 2017, 288 s
9. İskəndər Etibar. Gənc ailə üçün yaddaş. Bakı: MBM,2009.76s.
10. Xəlilov S. Məhəbbət və intellekt. Bakı: Nurlan, 2006, 176 s
11. Nevzat T. Ailə okulu. İstanbul:Timaş Yayınları, 2012, 192 s
12. Харчев А.Г. Брак и семья в СССР. М.:1979, 217 с
13. Barbara A. Riggs and Cynthia Benn Tweedell. Marriage and family. USA: Triangle Publishing, 2010, 458 p
14. Jonh M. Gottman and Nan Silver. The seven prinsiples for making marriage work. New-York: Crown Publishers, 2000, 288 p

Е.Б.Аскерова

Семья и брак как социально-психологическая проблема

Резюме

В статье отмечается, что семья представляет собой сложную систему, характеризующуюся взаимодействием супругов, родителей и детей, братьев и сестер, бабушек и дедушек и других родственников. Когда отношения между членами семьи основаны на любви, уважении, заботе, внимании, вежливости, взаимных компромиссах, доверии и уверенности, они лучше понимают друг друга, и растущие дети формируются как личности со здоровой моралью и воспитанием. Неблагоприятный морально-психологический климат, необоснованные конфликты, неспособность супругов выполнять свои обязанности, конфликты и измены расшатывают основы семьи, оставляют детей без присмотра и приводят к разводу. Говорят, что подготовка молодых людей к семейной жизни очень важна для нормального развития и интересов общества. Потому что семейные и брачные отношения занимают особое место среди человеческих отношений.

Y.B.Askarova

Family and marriage as a socio-psychological problem

Summary

The article notes that the family is a complex system characterized by the interaction of spouses, parents and children, siblings, grandparents and other relatives. When relationships between family members are based on love, respect, care, consideration, courtesy, mutual compromise, trust and confidence, they understand each other better, and growing children are formed as individuals with healthy morals and upbringing. An unfavourable moral and psychological climate, unreasonable conflicts, the inability of spouses to fulfil their responsibilities, conflicts and adultery undermine the foundations of the family, leave children unattended and lead to divorce. It is said that preparing young people for family life is very important for the normal development and interests of society. Because family and marriage have a special place among human relationships.

Rəyçi: dos. N.T.Rzayeva

Redaksiyaya daxil olub: 27.11.2021

K.F.MAHMUDOVA
pedaqogika üzrə fəlsəfə doktoru
e-mail: konul-mahmudova@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

BACARIQLAR, VƏRDİŞLƏR VƏ BİOLOGİYA MÜƏLLİMİNİN HƏDƏFLƏRİ

Açar sözlər: *bilik, bacarıq, vərdiş, müəllim hazırlığı, həyati bacarıqlar*
Ключевые слова: *знания, умения, навык, подготовка учителей, жизненные навыки*
Key words: *knowledge, skills, habit , teacher training, life skills*

İnsan fəaliyyəti onun müəyyən bacarıq və vərdişlər qazanmaqla bunlardan istifadə etməsini tələb edir. Bu baxımdan bu bacarıq və vərdişlərin uşaq yaşlarından formalaşdırılmasına başlanılır. Bilik, bacarıq və vərdişlərin formalaşdırılması ilk növbədə ailədən başlanır, məktəbəqədər təhsil, ümumtəhsil müəssisələrində davam etdirilir.

Şagirdlərdə formalaşdırılan bacarıqlar əvvəlcədən müəyyənləşdirilməklə həm indiki dövrdə, həm də gələcəkdə gündəlik həyatda tələb olunanı nəzərdə tutmalıdır. Bacarıqların yalnız akademik səviyyədə olmaması, həyati əhəmiyyət kəsb etməsi şagirdlərin daha fəal öyrənməsinə, dərsə marağına səbəb olmaqla yanaşı həm məktəbdə, həm də həyatda müvəffəq olmasına səbəb olur.

Vərdiş və bacarıqların fəaliyyətdəki yeri haqqında tədqiqatçı alimlər tərəfindən müxtəlif fikirlər irəli sürülür. Bəzi tədqiqatçılar vərdişlərin bacarıqlardan əvvəl formalaşmasına, bəziləri isə əksinə bacarıqların vərdişlərdən əvvəl meydana gəldiyinə inanırlar. Bu cür uyğunsuzluğa səbəb kimi "bacarıq" anlayışının birmənalı yanaşılmaması və fəaliyyət növlərinin müxtəlifliyidir. Bacarıq həm hərəkətlərin yerinə yetirilməsinin ən elementar səviyyəsi, həm də insanın istənilən növ fəaliyyət qabiliyyətidir. Bacarıq fəaliyyətlə artıq təkmilləşdirilmiş vərdiş, bilik və yaradıcı yanaşma əsasında yaranır. Elementar bacarıqlar əldə olunan bilik əsasında və yaxud müşahidə və təqlid nəticəsində yarana bilir. Buna hüceyrənin və yaxud çiçəyin quruluşunun müşahidəsi əsasında təsvir edilməsi misal ola bilər.

Bacarıqlar – əldə edilmiş biliklərə əsaslanan hərəkətləri uğurla yerinə yetirmək, verilən şərtlərə uyğun olaraq qarşıya qoyulan tapşırıqları həll etmək imkanlarıdır. Məsələn, bir tipin müxtəlif siniflərinə aid heyvan növlərini müqayisə etmək (adi amöb və yaşıl evqlena), canlıların quruluşundakı oxşar və fərqli cəhətləri müəyyənləşdirmək, preparat hazırlamaq və s.

Bacarıq eyni zamanda müəyyən fəaliyyətin məqsədi, həyata keçirilmə şərtləri və metodları arasındakı əlaqəni anlamaqdır. Buna görə də bacarıqların psixoloji strukturuna həm bilik, həm də yaradıcı düşüncə daxildir. İstənilən yeni fəaliyyəti öyrətməyə başlayarkən əvvəlcə onun məqsədi müəyyənləşdirilməli, sonra bu məqsədin həyata keçirilməsi yolları, ardıcıllığı, həyata keçirilməsi texnikası haqqında fikir formalaşdırılmalıdır. Şagird işi mənimsəyərkən onu mövcud bacarıq və vərdişlərə uyğunlaşdırmalı, eyni zamanda da hər hansı bir yeni şəraitdə tətbiq edə biləcəyi barədə düşünməlidir. Hər hansı bir bacarığın formalaşdırılması o qədər də asan bir proses olmayıb təhsilverəndən peşəkarlıq tələb edir və bir sıra mərhələlərdən keçir ki, bu mərhələlər özü də özünəməxsus psixoloji struktura malikdir.

Hər hansı bir bacarığın dəfələrlə təkrarı nəticəsində get-gedə bu bacarıq daha tez, sürətli, eyni zamanda da daha mükəmməl şəkildə yerinə yetirilir, sanki avtomatlaşdırılır. Və bu, demək olar ki, beyin tərəfindən xüsusi nəzarət olmadan həyata keçirilir, şagirddən çox az zehni əmək tələb edir. Bu isə artıq bacarığın vərdişə çevrildiyini göstərir. Lakin vərdiş tamamilə qeyri-şüuri hərəkət hesab edilə bilməz. Çünki, tələb olunan anda şüur hərəkətə müdaxilə etməklə onu yönləndirə bilər.

Formalaşma prosesindəki hər bir bacarıq vərdiş vəziyyətinə qədər bir neçə mərhələdən keçir:

- bacarığın dərk edilməsinin başlanğıcı;
- şüurlu, lakin bacarıqsız icra;
- məşq yolu ilə bacarıqların vərdişlərə çevrilməsi;
- vərdişin yüksək dərəcədə avtomatlaşdırılmış (qeyri-şüuri) hərəkət kimi tətbiq olunması.

Bəzi hallarda hər hansı bir bacarığın formalaşması üçün artıq qazanılmış vərdişlər böyük rol oynayır. Məsələn, biologiya dərslərində müvəqqəti preparatların hazırlanması, onlardan istifadə edilməklə obyektlərin öyrənilməsi mühüm bacarıqlardan biridir. Şagirdlər nə qədər çox preparat hazırlasalar, bu bacarıq o qədər də tez bir zamanda vərdişə çevrilmiş olar. Bu vərdişi formalaşmış şagird hazırladığı soğan qabığı və yaxud yarpaq üzərində müşahidə aparmaqla onun quruluşunu öyrənmiş olur. Beləliklə, qeyd edə bilərik ki, mikroskopla işləmək vərdişlərinə sahib olmaq mikroskopik obyektlərin xüsusiyyətlərini anlamaq, dəyişiklikləri izah etmək kimi bacarıqların formalaşmasına imkan yaradır.

Psixoloqlar bacarıqların bir neçə növünü fərqləndirirlər. Bunlara: *əqli* (düşüncə və yaddaş), *duyğu* (qavrayış üzrə hərəkətlər) və *hərəkət* bacarıqları aiddir.

Biologiya fənni üzrə formalaşdırılmalı bacarıqlar aşağıdakı kimi qruplaşdırılır:

- *əqli və ya zehni* (analiz, sintez, ümumiləşdirmə, abstrakt və s.)
- *təcrübi* və ya *əmək* (bitki yetişdirmək, heyvanlara qulluq və s.)
- *xüsusi* və ya *predmet* (mikroskopla işləmək, bitkilərin, heyvanların xüsusiyyətlərini müəyyənləşdirmək, toxumlar cücərtmək və s.)
- *ümumi təhsil* (kitabla işləmək, plan tərtib etmək, özünənəzarət, və s.)

XXI əsrdə yeni tipli məktəbdə bioloji biliklərin təcrübi olaraq tətbiq olunması, həyati bacarıqların formalaşdırılması baxımından tədris fənləri içərisində xüsusi yer tutur. Ümumtəhsil fənləri içərisində özünəməxsus yeri olan biologiya şagirdlərə canlı təbiətin maddiliyini, qanunauyğunluqlarını, canlıların yaranması, quruluşu, yayılması, inkişafı, qorunması, ən başlıcası isə biososial varlıq olan insanın öz orqanizminin quruluşu və həyati xüsusiyyətlərinin öyrənilməsinə şərait yaradır. İnsanın davamlı inkişafı və sağlamlığının qorunması ilə bağlı zəruri bilik, bacarıq və əməli vərdişlər verir.

Lakin aparılan sorğular şagirdlərin anlamaqda çətinlik çəkdiyi fənlər sırasında biologiya fənninin də olduğunu göstərir. Bunun səbəbini yalnız məzmunda deyil, onunla yanaşı təlimin təşkilində, müəllim hazırlığında, ümumtəhsil məktəblərinin infrastrukturunda, maddi texniki bazasında, təhsilverənlərin keyfiyyət göstəricilərində, dərsliklərdə və s.-də axtarmaq daha düzgündür.

Şagirdlər biologiya dərslərində təcrübələri, praktiki işləri icra edərək, bioloji obyektlər üzərində müşahidələr apararaq nəticələr çıxarmaq, rastlaşdığı bioloji hadisələri, gigiyenik qaydaları, sağlamlıq problemlərini, ətraf mühitin çirklənməsinin səbəblərini, qarşısının alınma yollarını, aqro və zootexniki üsulları izah etmək üçün bioloji qanunauyğunluqları tətbiq etmək bacarıqlarına yiyələnməlidirlər.

Fənnin tədrisi zamanı nəzəri biliklər şagirdlərin ehtiyaclarının ödənilməsinə yönəlməli, ən vacib amil kimi onların, bilik, bacarıq və yaradıcılıq bacarıqları ilə vəhdət təşkil etməlidir. Şagird həyatda rastlaşdığı hadisələrin izahını əldə etdiyi bilik və bacarıqlarla əlaqələndirməyi bacarmalıdır. Bir nümunə üzərində qeyd olunanlara aydınlıq gətirmək olar. Belə ki, şagirdlər bioloji qanunauyğunluqları bilməklə həyatda rastlaşdıqları bir çox hadisələrə cavab tapa bilərlər. Məsələn: Arı ailəsinin məhv olmasının digər canlılara nə kimi təsirinin ola biləcəyini müəyyən etmək üçün şagirdlərin çiçəkli bitkilərdə tozlanma, heyvanların qidalanması barədə müəyyən biliklərə sahib olmalıdırlar. Əks halda bir arı ailəsinin məhvinin həşəratla tozlanan

bitkilər, bitki toxumları, meyvələri ilə qidalanan quşlar üçün təhlükə yartdığını, bunun elmi izahını verə bilməzlər.

Müşahidələr onu deməyə əsas verir ki, məktəblərimizdə bəzən mövzular yalnız nəzəri materialların verilməsi, məlumatların çətin, həyatla əlaqəsi olmayan bir şəkildə öyrənilməsinə səbəb olur. Beləliklə də, biologiya fənni gündəlik həyatda yer alan məsələlərin təhsildə istifadə olunmaması səbəbindən şagirdlərin anlamaqda, dərk etməkdə çətinlik çəkdikləri fənlərdən birinə çevrilir. Şagirdlər öyrədilən və öyrəndikləri zaman çox çətinlik çəkdikləri, dəfələrlə təkrarladıqları halda öyrənə bilmədikləri məlumatları niyə öyrənməli olduqlarını, onları harada və necə istifadə edəcəklərini bilmədən əzbərləyirlər. Halbuki nəzəri biliklər ətrafımızdakı fakt və hadisələri açıqlamağa, öyrəndiklərimizi tətbiq etməyə imkan verməlidir.

Həyatın təməli, gündəlik həyatla məktəbdə öyrənilən fənlər arasındakı əlaqəni şagirdlərə göstərmək təhsilverənlərin başlıca vəzifəsidir. Hər bir müəllimin hədəfi şagirdlərə elmi bilikləri gündəlik həyatla əlaqəli tədris etməkdən ibarət olmalıdır ki, bu şagirdlərin motivasiyasını, elm öyrənmə istəklərini artırsın.

Şagirdlər gündəlik həyatda qarşılaşdıqları problemləri məktəbdə – dərs prosesində qarşılaşdıqları problemlərdən daha müvəffəqiyyətli şəkildə həll edirlər. Bu səbəbdən şagirdlərin nailiyyətlərini daha uyğun məzmun seçimi ilə daha çox yüksəltmək mümkündür. XXI əsrdə bioloji təhsilin əsas hədəflərindən biri məhz cəmiyyətin hər bir üzvündə həyat üçün zəruri bilik və bacarıqların formalaşdırılması, canlı və cansız varlıqların bilinməyən tərəflərini araşdırmaqdan ibarətdir.

Biologiya fənninin bünövrəsi tədrisin ilk günündən sağlam qoyulmalıdır. Şagirdlər araşdırmalar aparmalı və təbiətdə baş verən bioloji hadisələri müşahidə edərək onları gündəlik həyatları ilə əlaqələndirməyi bacarmalıdırlar. Belə olduğu təqdirdə şagirdlər həm özlərinə, həm də cəmiyyətə daha faydalı olacaqlar.

Şagirdlər onlara verilən ümumi bioloji biliklər nəticəsində təbiəti, ekoloji tarazlığı, biosferdə olan digər canlıların və insanların önəmli və qorunmalı olduqlarını dərk edirlər. Bütün dünyanı risk altına alan ekoloji və sağlıq problemlərinə və ortaya çıxan xəstəliklərə çarə tapmaq axtarışı digər elm sahələri qədər biologiyanın da vəzifəsidir. İnsanlığı çox yaxından maraqlandıran bu mövzular haqqında gələcək nəsillərin məlumatlandırılması, biologiyanın tədrisi ilə həyata keçirilir.

Həqiqətən də hədəfin düzgün müəyyən olunması əldə edilən bilik və bacarıqlar sayəsində bir sıra həyat əhəmiyyətli məsələlərin həllinə yol aça bilər.

Məqalənin aktuallığı: Şagirdlər əldə etdikləri bioloji bilik və bacarıqlara yiyələnməklə gündəlik həyatda qarşılaşdıqları problemləri həll edə, həyatda rastlaşdıqları bir çox hadisələrə cavab tapa bilərlər. Bu baxımdan biologiya fənninin tədrisilə XXI əsrin tələbinə uyğun, həyat üçün zəruri bilik və bacarıqların formalaşdırılması məsələlərinə toxunulduğundan məqalə aktual hesab olunur.

Məqalənin elmi yeniliyi: Elmi yenilik ondan ibarətdir ki, məqalədə bioloji bilik və bacarıqların vərdişə çevrilməsi yolları, biologiya fənni üzrə formalaşdırılmalı bacarıqlar, bu bacarıqların formalaşdırılması nəticəsində qazanılacaq nəticələr göstərilir.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi: Biologiya fənninin yeni məzmunu, təlimin təşkili məsələlərinə istinadən məqalədən ali, orta ixtisas və ümumtəhsil müəssisələrinin müəllimləri, tələbə və magistrantlar faydalana bilərlər.

Ədəbiyyat

1. Верзилин Н.М., Корсунская В.М. Общая методика преподавания биологии: Учеб. для студ. пед. ин-тов. 4-е изд. М., 1983.

2. Пономарев И.Н., Соломин В.П., Сидельникова Г.Д. Общая методика обучения биологии: учеб. пособие для студ. пед. вузов. М., 2003

3. Зверев И.Д., Мягкова А.Н. Общая методика преподавания. М., 1985.

4. Подласый И.П. Педагогика. Учебник. М.: Высшее образование, 2007, 540 с.
5. Методика обучения биологии / В.С. Конюшко, С.Е. Павлюченко, С.В. Чубаро. Мн.: Книжный дом, 2004
6. Митина Л.М. Учитель как личность и профессионал. М.: 1994

К.Ф.Махмудова

Навыки, привычки и цели учителя биологии

Резюме

В данной статье представлена классификация умения и навыков, их место в деятельности, перечисляются умения, которые необходимо сформировать по предмету биология, мероприятия, принимаемые для формирования жизненных навыков, пути и способы формирования какого-либо умения. В XXI веке основные цели биологического образования, а также умения и навыки, приобретенные через четко определенные цели, охватывают решения жизненно важных вопросов. Наряду с этим, дается информация о специфике предмета биологии в формировании жизненных навыков, а также организации учебного процесса.

K.F.Mahmudova

Skills, abilities and goals of biology teacher

Summary

This article presents the classification of skills and abilities, their place in activities, lists the skills that need to be formed in the subject of biology, the activities taken to form life skills, ways and ways of forming any skill. In the 21st century, the main goals of biology education, as well as the skills and abilities acquired through clearly defined goals, encompass solutions to vital issues. Along with this, information is given about the specifics of the subject of biology in the formation of life skills, as well as the organization of the educational process.

Rəyçilər: b.e.d., prof. R.L.Sultanov,
p.f.d. İ.A.Cavadov

Redaksiyaya daxil olub: 21.09.2021

S.İ.MANSUROVA
psixologiya üzrə fəlsəfə doktoru
e-mail: mansurova_sevda@ mail ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

AİLƏDƏ PSİXİ SAĞLAMLIĞIN UŞAQ ŞƏXSİYYƏTİNİN İNKİŞAFINA TƏSİRİ

Açar sözlər: *ailə, cəmiyyət, təlim, elm, problem, faktor*
Ключевые слова*: семья, общество, обучение, наука, проблема, фактор.*
Key words*: family, society, learning, science, problem, factor.*

Ailə bir qayda olaraq olaraq tərbiyədə əsas faktor hesab edilir. Hər bir uşaq doğulduğu ilk andan etibarən ailədə əldə etdiklərini bütün həyatı boyunca qoruyub saxlayır. Tərbiyəvi mənada ailənin əhəmiyyəti, uşağın inkişafının və formalaşmasının ən vacib hissəsinin burada olması ilə bağlıdır. Bu baxımdan uşaq şəxsiyyətinin inkiaf səviyYəsinə və bu inkişafa təsir dərəcəsinə görə ailə heç bir tərbiyə qurumları ilə yanaşı tutula bilməz. Uşaq ailədə hələ cəmiyyətə inteqrasiya etməmişdən əvəl ilkin imkanlara yiyələnir. Onun genetik imkanları ilə yanaşı böyüdüyü ailənin iqlimi, ab-havası, yəni psixoloji mühiti daxilində böyüyür, formalaşır və inkişaf edir. Bu təsir hərtərəfli şəkildə uşağın hansı istiqamətdə inkişaf etməsini istiqamətləndirəcəkdir. Bu baxımdan ailə quran hər bir cütlük valideyn olmağa hazırlaşan zaman mütləq şəkildə münasibətlərinə yenidən baxmalı, özlərinə "çəki-düzən verməli", lazım gələrsə, yenidən tərbiyələnməlidirlər. Çünki tərbiyəli övlad görmək istəyən valideyn, zərurət duyularsa, ilk növbədə özünü tərbiyələndirməlidir.

Uşaq ailədə bir sıra keyfiyyətlərə sahib olur. Ünsiyyət qurmaq, münasibətlər sisteminin formalaşmasının ilkin təməli, ətraf mühitə, cəmiyyətə münasibət, özünə və ətrafdakılara verdiyi dəyər və s bu kimi vacib xüsusiyyətlər və təbii ki, xatakterinin də formalaşması məhz ailənin hüdudlarında baş verir. Bu baxımdan uşağın böyüyüb formalaşdığı ailənin psixi sağlamlıq səviyyəsinin uşağın inkişafına nə dərəcədə təsir etməsi xüsisilə diqqət mərkəzində olmalıdır.

Məlum olduğu kimi müasir cəmiyyətdə baş verən dəyişikliklər böyüməkdə olan nəslin şəxsiyyət kimi formalaşmasında və inkişafında müəyyən dəyişikliklərin baş verməsi ilə bağlı bir sıra problemlərə səbəb olmuşdur. Bu da öz növbəsində uşaq aqressiyasının, həyəcanlılığının artmasına gətirib çıxardır. Bildiyimiz kimi, bunun da səbəbini ailədə axtarmaq lazımdır. Hər bir uşaq məhz ailədə ilkin sosiallaşmadan keçir. Ailə sosial institut kimi həm də aqressiv davranış nümayiş etdirə və onun möhkəmlənməsini şərtləndirə bilər. Emosional qeyri-sabitlik əlamətləri ilə səciyyəvi olan uşaqların vaxtında aşkar edilməsi onların əlverişsiz inkişafının qarşısını almaq məqsədi ilə zəruridir. Bu, xüsusilə kiçik yaşlı məktəblilərin şəxsiyyətin davranışında və emosional sferasında baş verən dəyişikliklərin qarşısının alınması üçün ən diqqətəlayiq haldır.

Uşağın normal psixi vəziyyətinin formalaşması valideynlərdən çox asılıdır. Artıq valideyn olan ər-arvad münasibətlərini elə qurmalıdırlar ki, onların bütün hərəkətləri və davranışı bütövlükdə uşaq şəxsiyyətinin formalaşmasına kömək etsin. Belə bir tərbiyə prosesi olduqca şüurlu hesab edilə bilər, çünki insanın davranışı, digər insanlara münasibət üzərində daimi nəzarət, ailə həyatının təşkilinə diqqət uşaqları hərtərəfli və ahəngdar inkişafı üçün ən əlverişli şəraitdə böyütməyə imkan verir.

Azərbaycan psixoloqlarının əsərlərində bu problemin həllinə xüsusilə diqqət yetirilmişdir və bu sahədə çoxsaylı araşdırmalar mövcuddur. Bu araşdırmalardan Ə.Əlizadə, Ə. Abbasov (1),

N.Z. Çələbiyev (2), L. M. Qurbanova (3) və s. alimlərin əsərlərini göstərə bilərik. Onlar öz araşdırmalarında ailənin psixoloji və pedaqoji aspektləri, onun etik prinsipləri, Azərbaycan ailələrində uşaqların inkişafının və formalaşmasının milli xüsusiyyətlərini nəzərdən keçirmişlər.

Bildiyimiz kimi, kiçik bir sosial institut kimi ailə ən məhsuldar tərbiyəvi mühitdir. Buna baxmayaraq ailənin strukturu, onun tərkibində qarşılıqlı münasibətlərinin vəziyyəti, valideyn statusları ilə bağlı bəzi amillər ailənin tərbiyəvi qabiliyyətinin azalmasına yol açа bilər. Belə mənfi nüanslar uşaqların davranışında pozuntulara səbəb ola bilər və eyni zamanda onların bir şəxsiyyət kimi formalaşmasına və inkişafına mənfi təsir göstərə bilər.

Ailənin struktur baxımından tərkibinin dəyişməsi də ailənin tərbiyə funksiyalarının pozulmasına səbəb ola bilər. Məlum olduğu kimi uşaqlara münasibətdə tərbiyə funksiyasının yerinə yetirilməsində ata və ana və ər-arvad cütlüyü çox böyük rol oynayır. Bu sağlam ailə təməlinin ən vacib ünsürlərindən biri hesab oluna bilər. Bu baxımdan, tam ailə və tam olmayan bir ailənin uşaq şəxsiyyətinin inkişafında hansı istiqamətdə təsit etməsi məlum məsələdir. Belə ki, ailə mühitinin sabitliyi uşağın psixi sağlamlığı və emosional tarazlıq üçün mühüm amildir.

Qeyri-sağlam ailələrdə baş verən boşanma hallarının və ya valideynlər arasında mövcud olan qeyri-sağlam ər-arvad münasibətlərinin nəticəsində uşaqlarda həmişə dərin sarsıntıya səbəb olur. Bu problem hal-hazırda təkcə bir ailənin poblemi deyil, bütöv cəmiyyəti əhatə edən sosial problemdir. Bu əlamətlərin ortaya çıxması böyüklər ilə ünsiyyət çətinliklərinə gətirib çıxarır, uşaq özlərinə qapanırlar, nəzarətsiz olurlar (4, 475).

Ailədə valideynlərdən birinin ayrılması uşaqda bir sıra həm psixoloji, həm də dolayısı ilə fizioloji problemlər yarada bilər. Bu kimi problemlərə uşaq qorxuları, depressiya və bir sıra digər nevroz simptomlarının yaranmsını aid edə bilərik. Valideyinlər arasında mövcud olan gərginlik və münaqişə atmosferi uşağın psixi inkişafına çox mənfi təsir göstərir. Yaşadığı ev onun qalası hesab olunurdusa, artıq onun müdafiə qalasının dağılması baş verir. Bu da onun özünəinamına və özünüqiymətləndirməsinə təsir edir. Uşağın valideynləri ilə emosional əlaqəsi azalır, ailə dəyərləri itir və onun ailəsini təqlid etmək istəyi yox olur. Belə halların yaşanması da uşaqlarda, xüsusilə yeniyetmə və gənc yaşlarında kənar yerlərdə dayaqların axtarışına yol açа bilər. Bu da təbii ki, demək olar ki, hər zaman mənfi təsir kimi özünü göstərir. Çünki qeyri-sağlam ailələrdə böyüyən uşaqlar xarici təsirlərə daha tez məruz qalırlar. Bu onlarda ailədəki mövcud vəziyyətdən dolayı yaranmış daxili gərginliyi azaltmağa kömək edir. Xüsusilə yeniyetmələrin kənar qruplara qoşulması və bunun da xoşagəlməz hallarla nəticələnməsinin səbəblərindən biri məhz budur. Məhz buna görə yadda saxlamaq lazımdır ki, ailədəki ziddiyyətlər nə qədər uzun olarsa, onların uşağa mənfi təsiri də bir o qədər güclü olar.

Ailə, bildiyimiz kimi, mənəvi-psixoloji baxımdan uşağın təməl inkişafının özülüdür. Uşaqların gələcəkdə insanlarla münasibətinin məhz hansı istiqamətdə olmasının təməli də məhz burada qurulur. Belə ki, uşaqlarda xeyirxahlıq və şər, saflıq, maddi və mənəvi dəyərlərə hörmətlə yanaşılmaq haqqında təsəvvürlər məhz ailədə yaranır. Uşaq yaxınlarına qarşı mərhəmət, sevgi, dost, borc, məsuliyyət, ədalət hislərini öyrənir. Bu kimi hislərin və xüsusiyyətlərin inkişafına təbii ki, ailədəki tərbiyə üslubunun da təsiri böyükdür. Ailə - "bir tərəfdən insanı cəmiyyətin manipulyativ təsirlərindən qorumaq, digər tərəfdən isə onu bu cəmiyyətdə həyata uyğunlaşdırmaq, normal inkişaf və fəaliyyət üçün imkan verən şəxsiyyətlərarası qarşılıqlı təsirlər sistemidir" (5, 47).

Liberal ailələrdə bəzi valideynlərin çox nadir hallarda tərbiyə prosesinə müdaxilə etmələri, uşağın istədiyi kimi davranmasına imkan verir. Uşaq özünə qarşı diqqətsizlik və sevgisizlik hiss edir. Bu da uşaq psixologiyasına son dərəcə mənfi təsir göstərir. Uşağın sevgi, güvən və müdafiə hissi ilə böyüməsi onun özünə inamını yüksəldir, gələcəkdə öz ayaqları üzərində möhkəm durmağa zəmin yaradır. Bəzi valideynlərin isə əksinə, uşaqlarının həyatlarına tez-tez müdaxilə etmələri, onların bütün məsələlərdə müstəqil qərar qəbul etmələrinə imkan verməmələri, onlar üzərində həddən artıq qəyyumluq hissinin olması da uşağın müstə-

qil bir şəxsiyyət kimi formalaşmasına mənfi təsir göstərir. Bəzən də valideynlər tərəfindən uşaqlara həddən artıq azadlığın verilməsi də mənfi təsirlərə səbəb ola bilir.

Müasir dövrdə, müasir ailələrdə valideynlərin asudə vaxtının olmaması, stress altında keçən iş şəraiti, psixoloji yüklənmələr, digər neqativ faktorların olması valideynlərdə gərginlik, qıcıqlanma, aqressivlik, xroniki yorğunluq kimi sindromların yaranmasına səbəb olur. Bu kimi problemlər təbii ki, valideynlərin emosional durumuna, ümumi əhval-ruhiyyəsinə təsir edəcəkdir. Belə vəziyyət isə, təbii ki, öz növbəsində uşaqların psixi inkişafına və emosional rifahına olduqca pis təsir edəcəkdir.

"Emosional sahənin dəyişməsilə, uşağın məktəb həyatına qədəm qoymasıyla başlanan sevinc və kədərə səbəb, nə oyun fəaliyyəti prosesindəki oyun, nə də uşaqlarla oyun zamanı ünsiyyət və ya nağıl personajı deyil, tədris fəaliyyətinin prosesi, onun nəticəsidir, başqa sözlə desək, burada qane edilən tələbatlar, ilk növbədə müəllimin onun uğuruna və uğursuzluğuna verdiyi qiymətdir və ətrafdıkılarla münasibətdir" (6, 128).

Ailədə şəxsiyyətlərarası münasibətlərin aktuallığı və onların şəxsiyyətin formalaşmasına və uşaqların davranışına təsiri aşağıdakılardan ibarətdir: uşağın emosional müvazinəti və psixi sağlamlığı üçün çox vacib amil ailə mühitinin sabitliyidir. Ailənin "keyfiyyəti", onun tərbiyə qabiliyyəti böyük əhəmiyyət kəsb edir. Tərbiyə edə bilməyən ailə uşağın sosiallaşması prosesində ciddi pozuntulara səbəb olur.

Valideynin uşaq üzərində hakim olması, onun real tələbatlarına məhəl qoymaması, uşağın emosional cəhətdən rədd edilməsi, onun imkanlarının aşağı salınması, zəif kimi münasibət göstərilməsi şəklində özünü göstərən qeyri-adekvat tərbiyə tərzi uşaqda həyəcanlılıq səviyyəsinin artmasına gətirib çıxarır.

Uşaq üçün böyüklərin münasibətinin ən məqbul növünü valideynin uşağın fərdiliyini qəbul etməsi və ona hörmət etməsi, onun maraq və planlarını bəyənməsi, onunla əməkdaşlıq etməsi, ona kömək etməsi, intellektual və yaradıcılıq qabiliyyətlərini yüksək qiymətləndirməsi, təşəbbüs və müstəqilliyi təşviq etməsi, onunla bərabər olmağa çalışması adlandırmaq olar. Ailənin strukturu elə qurulmalı və ailə münasibətləri elə təşkil olunmalıdır ki, həmin ailədə doğulub böyüyən uşağın tam bir şəxsiyyət kimi formalaşmasına və inkişafına əngəllər yaranmasın. Ailənin natamam olması, valideynlərin birinin olmaması, valideynlərdən birinin və ya hər ikisinin pis vərdişlərinin olması, psixoloji problemlərinin olması, ailədaxili qarşılıqlı münasibətlərin düzgün qurulmaması, aqressiv, şiddətəmeylli davranışların olması və s. bu kimi neqativ halların mövcudluğu qeyri-sağlam ailədən xəbər verir. Təbii ki, belə şəraitdə böyüyən uşağa ailənin psixoloji cəhətdən sağlamlıq səviyyəsi təsir edəcəkdir. Qeyri-sağlam ailədə böyüyən uşaqlar isə cəmiyyət üçün sağlam şəxsiyyət kimi yetişməyəcəklər.

Bildiyimiz kimi uşaqların emosional sahəsi olduqca həssasdır və müxtəlif situasiyalarda onların reaksiyaları müxtəlif ola bilər. Bu fərqlilik təbii ki onların fərqli sinir tipinə malik olması, fərqli temperament xüsusiyyətlərində olmasından asılıdır. Təbii ki, ailə tərbiyəsi və ailənin psixoloji iqlimi də uşaqların emosional durumlarının müxtəlifliyini şərtləndirir. Belə olan halda isə həm valideynlərdən, həm də müəllimlərdən, tərbiyəçilərdən, psixoloqlardan xüsusi diqqət tələb olunur. Bu diqqət, təbii ki, uşaqlara qarşı fərdi yanaşmada özünü göstərməlidir. Düzgün yanaşma şagirdin əlverişli inkişafına və formalaşmasına, daxili potensialının və qabiliyyətlərinin açıqlanmasına kömək edəcəkdir.

Ədəbiyyat

1. Əlizadə Ə.Ə., Abbasov A. Ailə həyatının etika və psixologiyası – müəllim üçün vəsait. Bakı, 2000, 378 s.

2. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı, 2005, 324 s.

3. Qurbanova L.M. Ailənin psixoloji problemləri və həlli yolları. Sumqayıt: "Bilik" nəşriyyatı, 2012, 240 s.

4. Макаренкова И.В.. Социальная дезадаптация детей и подростков (психолого-педагогические основы коррекционно- профилактической работы). Москва: АРГУС, 2004, 267 с.

5. Фурманов, И. А., Аладьин, А. А., Фурманова, Н. В. Психологические особенности детей, лишенных родительского попечительства [Текст]. Мн.: «ТЕСЕЙ», 1999, 160 с

6. Волков Б.С., Волкова Н.В. Детская психология: Логические схемы. Москва: ВЛАДОС, 2003, 265 с.

С.И.Мансурова

Влияние психического здоровья семьи на развитие личности ребенка

Резюме

В статье рассказывается о влиянии психического здоровья семьи на развитие личности ребенка, представлены исследования ученых, работающих по данному направлению.

Структура и взаимоотношенияв здоровой семье,оказывают положительное влияние на воспитание детей. Правильный выбор стиля семейного воспитания, тип родительского отношения к ребенку, отношение обоих родителей как друг к другу, так и к своим детям, психологически благоприятный климат в семье, обуславливают развитие и формирование личности ребенка.

Вместе с тем, в статье отражается и эмоциональное состояние детей в нездоровых семьях, негативные моменты в которых влияют на эмоциональную и поведенческую сферу личности.

S.I.Mansurova

The impact of family's mental health on the development of the child's personality

Summary

The article talks through the influence of family's mental health on the development of the child's personality, and also about the researches of scientists working in this field.

The structure and relationships in a healthy family have a positive effect on the upbringing of children.The correct choice of the style of family education, the type of parental attitude towards the child, the relationship of both parents towards each other and towards their children, a favorable psychological climate in the family determines the development of the child's personality.

Moreover, the emotional state of children in an unhealthy family, the unpleasant eventswhich affect the emotional and behavioral sphere of the individuals are also presented in the article.

Rəyçi: dos. G.A.Həsənova

Redaksiyaya daxil olub: 15.10.2021

N.R.MƏMMƏDOV
doktorant, müəllim
e-mail: mammedli.nurlan@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

SOVET DÖVRÜNDƏ AZƏRBAYCANDA MÜƏLLİMLƏRİN VƏ MAARİF İŞÇİLƏRİNİN ƏLAVƏ TƏHSİL PROBLEMLƏRİ

Açar sözlər: *Sovet dövründə əlavə təhsil, qısamüddətli kurslar, ixtisasartırma, yenidənhazırlanma, pedaqoji kadrlar, müəllimlərin təkmilləşdirilməsi, müəllim hazırlığı, müəllimlər qurultayı*

Ключевые слова: *дополнительное образование в советский период, краткосрочные курсы, переподготовка, педагогические кадры, повышение квалификации учителей, подготовка учителей, съезд учителей*

Key words: *additional education in the Soviet period, short-term courses, advanced training, refresher training, pedagogy staff, preparation of teachers, qualification improvement, teachers' congress*

Azərbaycanda strateji əhəmiyyət kəsb edən təhsilin inkişafı dövlətin həmişə diqqət mərkəzində olmuşdur. Sovet hakimiyyətinin ilk illərində müəllim kadrlarının çatışmaması, həmçinin onların bilik və pedaqoji ixtisas səviyyəsinin çox aşağı olması məktəb quruculuğunda başlıca problem kimi qiymətləndirilmişdir. Həmin illərdə müəllimlərin sayı çox az - cəmi iki min nəfərə yaxın idi. İldən-ilə durmadan artan yeni sovet ibtidai və orta məktəbləri isə getdikcə daha çox müəllim tələb edirdi. 1998-ci il sentyabr ayının 25-də Azərbaycan müəllimlərinin Bakı şəhərində keçirilmiş XI qurultayında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev keçən əsrin 20-ci illərində Azərbaycan maarifinin vəziyyətindən bəhs edərək demişdir: "... Azərbaycanda iki paralel proses gedirdi. Bir tərəfdən, o vaxt Azərbaycanda mövcud olan kiçik bir müəllim dəstəsilə məktəblər, təhsil ocaqları yaratmaq, insanların savadsızlığını ləğv etmək lazım idi. Ancaq bu böyük işi görmək üçün eyni zamanda kadr potensialı, müəllim ordusu yaratmaq lazım idi. Böyük xoşbəxtlikdir ki, o dövrün bir çox mənfi cəhətləri ilə, Azərbaycan xalqına dəyən ziyanlarla yanaşı, bu sahədə daim inkişaf olubdur" (1, s.146).

1920-1927-ci illərdə qısa və uzunmüddətli pedaqoji kurslar, pedaqoji texnikumlar, müəllim institutları, pedaqoji institutlar şəbəkəsi yaradılmaqla, müəllim kadrlarına olan tələbat qismən ödənildi. Həmin dövrdə 1347 müəllim hazırlandı ki, onların 587 nəfərini ali təhsillilər təşkil edirdi. 7 il ərzində müəllimlərin sayı 3 dəfə artmış, onların intellektual səviyyəsi qat-qat yüksəlmişdir. Müəllimlər arasında orta və ali təhsilli kadrların xüsusi çəkisi yeddi il əvvəlki 3 faizdən 43,6 faizə qalxmışdı (2, s.94). Bütün bunlar ölkədə ümumi icbari ibtidai təhsilə keçməyə imkan yaratdı. Pedaqoji kadr hazırlığı ilə yanaşı, müəllimlərə elmi və metodik kömək göstərilməsi sahəsində də müəyyən işlər görülürdü. Lakin ilk illər bu işlər, əsasən, pərakəndə şəkildə həyata keçirilirdi.

1922-ci ildə həm müəllimləri yenidən hazırlamaq, həm də məktəbəqədər və məktəbdənkənar müəssisə işçilərinin ixtisasını artırmaq məqsədilə Bakı Xalq Maarifi İnstitutu yaradıldı. Həmin institut 1924-cü ilədək fəaliyyət göstərmişdir (3, s.219).

1920-1927-ci illərdə Xalq Maarif Komissarlığı xüsusi pedaqoji hazırlığı olmayan ibtidai sinif müəllimləri üçün 2 aydan 6 ayadək davam edən kurslar təşkil etmişdir (ibtidai sinif müəllimləri arasında xeyli ev təhsili alanlar vardı). Hər il təşkil edilən bu kurslar, əsasən, ümumtəhsil xarakterli olurdu. Bir çox hallarda 3-4 dəfə eyni kursa təkrar cəlb edildiyindən, məlum proqram materialım yenidən nəzərdən keçirmək məcburiyyəti qarşısında qalırdı. 1924-cü ildən sonra mərkəzi və qəza müfəttişliyi idarəsi, faktik olaraq, müəllimlərə metodik rəhbərliyi həyata keçirən orqana çevrildi. 1925-1926-cı tədris ilindən etibarən hər bir dairənin

kənd rayonlarında istinad məktəbləri təşkil edildi. Bu məktəblərdə həmin dairənin müəllimləri ilə lazımi metodik iş aparılır, ixtisasartırma ilə əlaqədar tədbirlər (qısamüddətli kurslar, seminarlar, müəllim konfransları, müşavirələri və s.) həyata keçirilirdi.

1925-ci ildən başlayaraq, qəza təhsil şöbələri nəzdində metodik bürolar təşkil edildi. Metodik bürolar, həmçinin istinad məktəbləri müntəzəm olaraq, iki həftədən bir toplanır və burada müəllimlər təlim-tərbiyə işinin müxtəlif məsələlərini müzakirə edirdilər. Ara-sıra keçirilən müəllim konfransları və müşavirələri elmi-metodik yeniliklərin yerlərə çatdırılmasında, eləcə də, qabaqcıl iş təcrübəsinin yayılmasında müəyyən rol oynayırdı (4, s.137).

Qeyd etmək lazımdır ki, bu dövrdən etibarən müəllimlərin yenidən hazırlanması işində müəyyən sistem yaranmışdı. Yay yenidənhazırlanma kursları üçün vahid tədris proqramları işlənib hazırlanmışdı. Həmin proqramlara əsasən, eyni dinləyici kontingenti üç il ardıcıl olaraq bu kurslara cəlb edilərək pedaqoji fənlər də əlavə olunmaqla, yeddillik məktəb səviyyəsində biliklər qazanırdı. Bu kurslarda "Evdə pedaqoji texnikum" üçün hazırlanmış material və dərsliklərdən istifadə olunurdu. Ümumiyyətlə, bu dövrdə müəllimlərin bütün yenidənhazırlanma işi faktik olaraq "Evdə pedaqoji texnikum"da cəmlənmişdi.

Beləliklə, Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından 1929-cu ilə qədər pedaqoji kadrların ixtisasının atrırılması tarixini 3 mərhələyə ayırmaq olar:

1. 1920-ci ildən 1927-ci ilə qədər olan dövr. Bu dövrdə Xalq Maarif Komissarlığı hər il ümumtəhsil xarakteri üstünlük təşkil etməklə, kütləvi məktəblərin müəllimləri üçün qısamüddətli (2-6 aylıq) kurslar təşkil edirdi. Kursa cəlb olunanların bir qismi, demək olar ki, nə ümumtəhsil, nə də pedaqoji hazırlığa malik idi. Kurslar hər il I dərəcəli müəllimlər üçün təşkil edilirdi. Müəllimlərin bir çoxu həmin kursa 3-4 dəfə cəlb olunurdu və eyni proqramla kurs keçirdi.

2. Bunlara 1500 müəllim cəlb olundu. Kursun məqsədi qiyabi təhsil yolu ilə orta pedaqoji təhsil səviyyəsində kadr hazırlamaq idi. 1927-ci ildə, eyni zamanda, yenidənhazırlanma kursları müəyyən üstünlük qazandı: yay yenidənhazırlanma kursları üçün vahid proqram hazırlandı; eyni kontingent üçün nəzərdə tutulmuş 3 illik (3 yay) kursların məqsədi yeddiillik təhsil səviyyəsində hazırlıq verməklə yanaşı, pedaqoji fənləri öyrətmək idi. Həmin kurslar "evdə pedaqoji texnikumlar" üçün işlənmiş material və dərsliklərlə işləyirdi. Bu illərdə müəllimlərin bütün yenidənhazırlanma işləri "evdə pedaqoji texnikumlar "da cəmlənmişdi.

3. 1929-cu ildən bütün pərakəndə ixtisasartırma tədbirləri vahid formada - Pedaqoji Kadrların İxtisasartırma İnstitutunda cəmləşdi, ciddi və planlı xarakter aldı. İnstitutun tərkibinə "evdə pedaqoji texnikum", sabiq pedaqoji fakültə və qiyabi metod-kurslar daxil oldu. Əvvəllər institut yalnız pedaqoji kadrların yenidən hazırlanması ilə məşğul olmuşdu. Yenidənhazırlanma yalnız qiyabi şəbəkə ilə (ali və orta) və qısamüddətli kurslar vasitəsilə həyata keçirilirdi. Yenidənhazırlanma ilə bütün kateqoriyalardan olan təhsil işçiləri əhatə olunurdu. Bu illərdə qiyabi pedaqoji təhsil güclü inkişaf etmiş, azlıqda olan xalqların qiyabi təhsil şəbəkəsi genişlənmişdir. Digər respublikaların Pedaqoji Kadrların İxtisasartırma İnstitutları ilə əlaqə möhkəmlənmişdir.

Azərbaycanda məktəb şəbəkəsinin sürətlə genişlənməsi və bütün təlim-tərbiyə işinin səviyyəsinin yüksəlməsi baxımından həmin dövrdə müəllimlərin ixtisasının artırılması işinin daha yüksək səviyyəyə qaldırılması mühüm problem olaraq qarşıda dururdu. Azərbaycan Kommunist (b) Partiyasının 1928-ci ildə keçirilmiş VIII qurultayının qəbul etdiyi qərarda mövcud kənd müəllim kadrlarının yenidən hazırlanması və sistematik iş aparmaqla onlara dolğun biliklər verilməsi məsələsi Xalq Maarif Komissarlığı qarşısında təxirəsalınmaz vəzifə olaraq qoyulmuşdur.

VI Ümumazərbaycan Sovetlər qurultayının qəbul etdiyi qərarda deyilirdi: "Maarif Komissarlığı tərəfindən müəllimlərin ixtisasının artırılması (yay kursları, konfranslar, evdə türk (Azərbaycan - N.Məmmədov) dilində pedaqoji texnikumlar, evdə metodik kurslar) üzrə aparılmış geniş işə böyük əhəmiyyət verərək, qurultay təhsil, ümumi siyasi və aqronomik

hazırlığın inkişafı sahəsində müəllimlərin ixtisasının artırılmasına, həmçinin onun özünütəhsil işinə köməyinin gücləndirilməsinə xüsusi diqqət yetirməyi tələb edir. Bu məqsədlə qiyabi pedaqoji fakültə və xüsusi müəllimlərin ixtisasının artırılması institutu təşkil etmək lazımdır" (5, s.117-118).

Həmin qərara əsasən, Xalq Maarif Komissarlığı Kollegiyasının 13 iyul 1929-cu il tarixli qərarı ilə həmin il oktyabnn 1-də Azərbaycan Pedaqoji Kadrların İxtisasımn Artırılması İnstitutu (PKİAİ) yaradıldı. Bu, Azərbaycanda xalq təhsilinin inkişafı baxımından yeni bir mərhələnin başlanğıcı oldu. O vaxta qədər səpələnmiş halda fəaliyyət göstərən bir sıra tədris müəssisəsi (evdə pedaqoji texnikum, Qiyabi pedaqoji fakültə və Qiyabi metodik kurslar) bir təşkilatda-Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması İnstitutunda birləşdirildi.

İlk vaxtlar institut yalnız pedaqoji kadrların yenidən hazırlanması ilə məşğul olurdu. Yenidənhazırlanma bütün kateqoriyadan olan maarif işçilərini əhatə etməklə, qiyabi yolla (ali və orta təhsillilər üçün) və qısamüddətli kurslar vasitəsilə həyata keçirilirdi. Bu zaman qiyabi pedaqoji təhsilin inkişafına xüsusi fikir verilirdi. Bakı və respublikanın rayon məktəblərində işləyən müəllimlərin ixtisasının artırılması üçün institut tərəfindən ildə iki dəfə-noyabr və dekabr aylarında qiyabiçi aylığı keçirilirdi. Bu tədbirin nəticəsində qiyabi təhsilə daha çox müəllim cəlb edilirdi. Belə ki, 1932-ci ilin sonunda institut artıq 3363 qiyabiçi ilə iş aparırdı. Həmin il institutda müəllim hazırlayan 6 aylıq kurslar təşkil edildi. Kursları 1645 nəfər müəllim bitirdi (6, s.44).

1938-ci il iyun ayının 1-dək Maarif Komissarlığı sistemində işləyən 15071 müəllimdən 11714 nəfərinin attestasiyası zamanı biliyi yoxlamlanların, demək olar ki, təxminən yarısı (6029 nəfər) attestasiyadan müvəffəqiyyətlə keçib orta məktəb müəllimi (1170 nəfər) və ibtidai məktəb müəllimi (4859 nəfər) adım ala bilmişdi. Attestasiyadan keçə bilməyən müəllimlərdən 5079 nəfərinə müvafiq təhsil almaq üçün möhlət verilmiş, qalan 606 nəfəri isə pedaqoji işin öhdəsindən gələ bilmədiyi üçün işdən azad edilmişdi. Müəllimlərin hamısını vaxtaşırı olaraq ixtisasartırma kurslarına cəlb etməyin mümkün olmaması, həmçinin kurslarda dərs demək üçün yüksək ixtisaslı kadrların olmaması sözsüz ki, yenidənhazırlanmanın keyfiyyətinə mənfi təsir göstərirdi.

1941-1945-ci illərdə - Böyük Vətən müharibəsi illərində, digər sahələr kimi, müəllimlərin ixtisasartırma və təkmilləşdirmə kursları da ciddi çətinliklər qarşısında qaldı. Kursların tədris proqramlarında müharibə ilə əlaqədar müəyyən dəyişilkliklər edildi. Proqramlar kimya üzrə: partladıcı və zəhərləyici maddələr; riyaziyyat üzrə: riyaziyyatın hərbi texnikada tətbiqi; fizika üzrə: elektroradiotexnika və müharibədə onun rolu; təbiət üzrə: dərman bitkiləri; coğrafiya üzrə: SSRİ-nin təbii sərvətləri və onun iqtisadi gücü; ibtidai hərbi hazırlıq üzrə: taktiki, topoqrafiya, silahlı və əlbəyaxa vuruş və s.

1946/1947-ci tədris ilində sentyabr ayından başlayaraq respublikanın 16 rayonunda ibtidai məktəb və fənlər üzrə müxtəlif müddətli təkmilləşdirmə kursları təşkil edilmişdi. Kursları nəzərdə tutulan 1063 nəfər əvəzinə cəmi 228 nəfər bitirmişdi. Azərbaycan SSR Maarif nazirinin "Orta məktəbdə məntiq və psixologiyanın tədrisi haqqında" 11 fevral 1947-ci il tarixli 15 nömrəli əmrinə əsasən, həmin il fevralın 20-dən iyulun 15-dək Bakı məktəbləri üçün istehsalatdan ayrılmaqla 16 nəfər məntiq və psixologiya müəllimi kimi yenidən hazırlanmışdı.

1949/1950-ci tədris ilində 3466 nəfər, 1950/1951-ci tədris ilində 3003 nəfər, 1951/1952-ci tədris ilində 3247 nəfər, 1952/1953-cü tədris ilində 2511 nəfər, 1953/1954-cü tədris ilində 3892 nəfər, 1954/1955-ci tədris ilində 3106 nəfər müəllim müxtəlif müddətli təkmilləşdirmə kursları ilə əhatə edilmişdir. Kursların tədris-tematik planları və proqramlarında marksist-leninçi klassiklərin əsərlərinin, partiya və dövlət sənədlərinin öyrənilməsinə xüsusi yer verilirdi.

1952/1953-cü tədris ilindən etibarən fizika, riyaziyyat, kimya, təbiət və coğrafiya müəllimlərinin illik və aylıq kurslarında politexnik təlimə diqqət artırılmışdı. Kursların tədris planları və proqramlarına 44 saat praktik məşğələ salınmışdı. Praktik məşğələlər tədris-təcrübə sahələrində, fabriklərdə, zavodlarda, laboratoriyalarda, emalatxanalarda aparılırdı.

1954/1955-ci tədris ilində 110 nəfər fizika və təbiət müəllimi üçün Bakıda təşkil edilmiş 6 günlük seminar-praktikumda kənd təsərrüfatının əsaslan, elektrotexnika və avtomobil işi üzrə məşğələlər keçirilmişdir. Politexnik təlimin səmərəliliyini təmin etmək və bu sahədə iş təcrübəsini öyrənmək məqsədilə 88 nəfər müəllim və məktəb rəhbəri Leninqrad-Moskva, Kiyev-Xarkov, Tbilisi-Batumi şəhərlərinə, Mingəçevir-Göygöl-Daşkəsən marşrutlan üzrə ekskursiyaya göndərilmişdir.

Azərbaycan SSR Maarif nazirinin "Ümumtəhsil məktəblərinin müəllimləri üçün metodik iş haqqında" 8 mart 1961-ci il tarixli 57 nömrəli əmri pedaqoji kadrların ixtisasartırma təhsilinə yeni istiqamət verdi. 1963/1964-cü tədris ilində birillik kurslan 739 nəfər, səkkizaylıq kursları 2133 nəfər, 7 günlük kursları 1173 nəfər, 1 aylıq kurslan 1300 nəfər (cəmi 5245) bitirmiş, 42 elmi-praktik konfansda ümumlikdə 5412 nəfər iştirak etmişdir.

Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra təhsilin bütün pillələrinə, o cümlədən ixtisasartırmaya xüsusi əhəmiyyət verildi. Təhsilin keyfiyyətinə təsir edən ən mühüm amili ixtisasartırma təhsili hesab edən Heydər Əliyev Azərbaycan müəllimlərinin IX qurultayında demişdir: "Müasir şəraitdə pedaqoji kadrların təkmilləşdirilməsi və onların ixtisasının artırılması sisteminin rolu yüksəkdir. Bu sistem qabaqcıl təcrübəni yaymaq, müasir tədris metodologiyasını öyrənmək, müəllimin bilik səviyyəsini yüksəltmək üçün səmərəli vasitədir. Bu yaxınlarda Azərbaycan KP MK institutun maddi-tədris bazasını möhkəmləndirmək, orada tədrisin səviyyəsini yüksəltmək haqqında da qərar qəbul etmişdir. MK-nın qərarında nəzərdə tutulan tədbirlər qısa müddətdə həyata keçirilməli, partiya orqanlarımız və sovetlər, respublika Maarif Nazirliyi, yerli xalq maarif orqanları müəllimlərin təkmilləşdirilməsinə və onların ixtisasının artırılmasına ciddi nəzarət etməlidirlər" (7, s.4).

Yeni tədris planlarına keçilməsi 1971-ci ilə qədər başa çatdırılmalı idi. Bu vəzifənin öhdəsindən gəlmək üçün ali təhsil müəssisələrinin nəzdində ixtisasartırma strukturlarının yaradılması zərurəti yarandı. 1968-ci ilin mart-aprel aylarında V.İ.Lenin adına APİ-də 23 nəfər dil-ədəbiyyat, 291 nəfər coğrafiya müəllimi 10 günlük, H.B.Zərdabi adma KPİ-də 467 nəfər müəllim 15 günlük kursları bitirmişdir. Ümumiyyətlə, 1966-1970-ci illərdə əvvəlki beşilliklə müqayisədə kursdan keçənlərin sayı 2,7 dəfə artaraq 15100 nəfərdən 42100 nəfərə çatmışdır.

1972-ci ildə Azərbaycan MTİ (Müəllimləri Təkmilləşdirmə İnstitutu) Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutuna (MMTİ) çevrildi. Bununla bağlı ixtisasartırma təhsilinin təşkilində bir sıra dəyişikliklər baş verdi. Naxçıvan MSSR MTİ, Kirovabad Zona MTİ, Bakı şəhər MTİ, ali məktəblərin nəz- dində fəaliyyət göstərən müvafiq qurumlarda da ixtisasartırma kursları təşkil olunurdu. Nəticədə kurslara cəlb olunanların kəmiyyəti artırdı. 1972/1973-cü tədris ilində 4599 nəfər aylıq, 1051 nəfər qısamüddətli, 2648 nəfər illik əyaniqiyabi, 103 nəfər ABİ-nin nəzdindəki kurslardan keçmiş, 1510 nəfər seminarlara cəlb olunmuşdur (cəmi 10210 nəfər).

1979-cu ildə məhz rus dilini zəif bilən 1000-dən artıq rus dili müəllimi üçün M.F.Axundov adma Rus dili və ədəbiyyatı institutunda (indiki Bakı Slavyan Universitetində) ikiaylıq kurslar təşkil edilmişdir. Bu dövrdə səyyar yay kurslarının təşkifi də həyata keçirildi. Şuşa şəhərində 243 nəfər Azərbaycan dili və ədəbiyyat, tarix-ictimaiyyat müəllimi üçün aylıq yay kursları təşkil olundu.

1980-ci ildə aylıq kursları 8229 nəfər (204 nəfər artıq), illik əyani-qiyabi kurslan 2419 nəfər (cəmi 10648 nəfər) bitirmişdi. Ümumiyyətlə, 1976-1980-cı illərdə kurs tədbirləri nəzərdə tutulduğundan 820 nəfər artıq - yəni 38235 nəfər icra olunmuşdur. 1982-ci ildə Sumqayıt şəhərində illik əyani kursların təşkilinə başlanmış, ilk dəfə olaraq axşam və qiyabi məktəblərdə müstəqil işləyən fənn müəllimləri, habelə ərəb və fars dili müəllimləri üçün aylıq kurslar açılmışdır.

Azərbaycan SSR Xalq Təhsili Nazirliyinin "Respublikada xalq təhsili işçilərinin ixtisasının artırılması və yenidən hazırlanması sistemi və strukturunun daha da təkmilləşdirilməsi haqqında" 11 avqust 1989-cu il tarixli 930 nömrəli əmrində ixtisasartırmanın şəbəkəsinin ya-

radılması nəzərdə tutulurdu. Azərbaycan SSR Nazirlər Sovetinin 4 oktyabr 1989-cu il tarixli 398 li qərarı ilə Azərbaycan MMTİ (Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutu) Azərbaycan Baş Pedaqoji Kadrlann İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutuna (Azərbaycan BPKİA və YHİ) çevrilmiş və birinci dərəcəli ali təhsil müəssisəsi statusu almışdır.

XX əsrin axırıncı onilliyində Avrasiyada mühüm siyasi dəyişikliklər baş verdi. Bu dəyişiklik bir çox sahələrdə oludğu kimi təhsil sahəsindən də təsirsiz ötüşmədi. SSRİ-nin süqutu nəticəsində Azərbaycanın müstəqillik qazanması, Konstitusiyanın, Təhsil Qanununun qəbul olunması, ölkədə bir sıra ictimai-sosial islahatların, o cümlədən təhsil sahəsində islahat Proqramının həyata keçirilməsinə zəmin yaratdı.

Ədəbiyyat

1. Azərbaycan müəllimlərinin XI qurultayının stenoqrafik hesabatı. Bakı, Çaşıoğlu, 1999
2. N.Paşayev Azərbaycanda sosialist mədəniyyətinin inkişafı (1920-1955-ci illər). Bakı, Azərnəşr, 1957
3. M.Mehdizadə, Azərbaycanda xalq maarifinin sürətli inkişafı, "Maarif" nəşriyyatı. Bakı, 1980
4. М.М.Мехтизаде. Очерки истории советской школы в Азербайджане. М.: 1962
5. Рекомендации и постановления съездов Азерб. ССР (1921-1937 гг.) Баку, 1961
6. Кузница педагогических кадров. Азернешр. Баку, 1975
7. Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun 75 yaşı tamam olur // Azərbaycan müəllimi.- 2014.- 28 noyabr.- s.4.

Н.Р.Мамедов

Дополнительные образовательные проблемы учителей и воспитателей в Азербайджане в советский период

Резюме

В статье рассмотрена развития системы дополнительного образования в Азербайджанской Республики. В статье обоснована важность этапы исторического развития некоторый направлений дополнительного образования. Рассмотрены и проанализированы концептуальные основы и проектирования в контексте законодательства дополнительного образования в 1920-1991 гг. Автор также прокомментировал предстоящие задачи, затронул исторические аспекты системы непрерывного образования в Азербайджанской Республики.

N.R.Mammadov

Additional educational problems of teachers and educators in Azerbaijan during the Soviet period

Summary

The article examines the development of the system of additional education in the Republic of Azerbaijan. The importance of stages in the historical development of some directions of additional education was substantiated in the article. Considered and analyzed the conceptual framework and design in the context of the legislation of additional education in 1920-1991. The author also commented upon the tasks ahead and touched upon the historical aspects of the continuous education system in the Republic of Azerbaijan.

Rəyçi: prof. K.Məmmədov

Redaksiyaya daxil olub: 20.12.2021

A.F.MİRİYEVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

AŞAĞI SİNİF ŞAGİRDLƏRİNDƏ İNGİLİS DİLİNDƏ OXU BACARIQLARININ FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRİ

Açar sözlər: *dil tədrisi, oxu bacarıqları, nitq mədəniyyəti, oxunun növləri*
Ключевые слова: *обучение языку, навыки чтения, культура речи, виды чтения*
Key words: *language teaching, reading skills, speech culture, types of reading*

Müasir təhsilin qarşısında duran ən mühüm tələblərdən biri gənc nəsildə oxu vərdişlərinin formalaşdırılmasıdır. Gənc nəsli oxumağa alışdırmaq lazımdır. Əslində bu işin təməli orta məktəbdə qoyulmalıdır. Müşahidələr göstərir ki, müstəqil düşünmək qabiliyyətinə malik olan şagirdlərimizin sayı azdır. Şagirdlər fikirlərini çatdıra bilmirlər. Ən böyük problem ondan ibarətdir ki, xarici dildə verilən cümlənin mənasını şagirdlər hətta anlasalar da belə, onu öz ana dilində nə şifahi, nə də yazılı formada konkret və düzgün şəkildə çatdıra bilmirlər. Bunun səbəbi ondan ibarətdir ki, şagirdlər oxu vərdişlərinə yiyələnməyiblər. Nəticədə isə həmin şəxslər öyrəndikləri xarici dildə ünsiyyət yarada bilmirlər. Bu problemi aradan qaldırmaq üçün xarici dil dərslərində ev oxusuna çox vaxt ayırmaq lazımdır.

Oxu nitq fəaliyyətinin bir növüdür. Oxunun məqsədi isə tədris olunan leksik və qrammatik material əsasında təqdim olunan mətni oxuyub hərfi tərcümə etmədən mənasını başa düşməkdir. Bu da hələ işin yarısıdır. Həmin mətnin məzmununu şifahi formada çatdırmaq lazımdır. Burada söhbət təkcə xarici dildən getmir.

Xarici dildə verilən cümləni tərcümə edəndən sonra onun mənasını ana dilində stilistik və qrammatik nöqteyi nəzərdən savadlı, dolğun səsləndirməkdən ötrü şagirdlər ana dilində də müntəzəm olaraq kifayət qədər ədəbiyyat oxumalıdırlar. Təcrübələr göstərir ki, ana dilində müəyyən vərdişlərin yaranması xarici dildə də oxu vərdişlərinin yaranmasına təsir göstərir.

Tanınmış alim L.İ.Botoviç yazır: "Oxu danışıq kimi fəal bir prosesdir. O, ifadələr yaradır və formalaşdırır. Danışanla oxuyan arasında fərq yalnız ondan ibarətdir ki, birincisi öz şəxsi dil materialından və öz şəxsi planı üzrə nitq nümunələri yaradır. Oxuyan üçün isə həm dil materialı, həm də onun təşkili müəllif tərəfindən verilir. Oxuyan bənnaya bənzəyir. Belə ki, o, arxitektorun (müəllifin) çəkdiyi rəsmə uyğun nəzərdə tutulan binanı (mətni) tikinti materiallarından (dil vasitələrindən) yaratmalıdır. Burada fəallıqsız heç nə etmək olmaz" (7, s.27).

Ev oxusunun növündən asılı olmayaraq oxu materialı dünyagörüşünün inki-şafına və nitq mədəniyyətinin yüksəlməsinə yönəldilməlidir. Burada iş üç istiqamətdə aparılır:

1) qeyri-müstəqil iş, yəni lüğətdən və müəllimin müəyyən tövsiyyələrindən bəhrələnməklə;

2) yarı-müstəqil iş;

3) tam müstəqil iş.

Ev oxusunun həm lüğətli, həm də lüğətsiz növündən istifadə olunmalıdır. Şagird oxu vərdişlərinə birbaşa ayditoriyada alışmalıdır. Dərs zamanı 15-20 dəqiqə mətn oxunmasına ayrılmalıdır. Şagirdlər maraqalandırmaq məqsədilə onlara kiçik və ən əsası maraqlı hekayələr vermək lazımdır. Hekayənin bir hissəsini auditoriyada oxuduqdan sonra onlar istər-istəməz hadisələrin ardıcıllığı ilə maraqlanaraq hekayənin ardını evdə oxumağa maraq göstərəcəklər. Və beləliklə, get-gedə məqsədyönlü şəkildə müstəqilliyə alışaraq, şagirdlərdə yaradıcılıq meylləri artacaq və informasiya toplamaq bacarığı yaranaraq formalaşacaq. Burada bir məqama da fikir vermək lazımdır ki, oxu mətnini və ya hekayələri seçərkən şagirdlərin maraq dairəsi, bilik səviyyəsi və yaş dövrü nəzərə alınmalıdır.

Görkəmli metodist C.Harmer oxu fəaliyyətinin əhəmiyyətini araşdırarkən qarşısında aşağıdakı sualları qoymuşdu:

- Why teach reading?
- What kind of reading should students do?
- What reading skills should students acquire?
- What are the principles behind the teaching of reading?
- What do reading sequences look like?

Eyni zamanda metodist həmin sualları cavablamağa da çalışmışdır: "Mətni oxumaqla dil, lüğət, qrammatika, punktuasiya, cümlə, paraqraf və mətn yaratmaq imkanı əldə olunur" (5, s.68).

Ədəbiyyatın hansı məqsədlə oxunması məsələsinin bu məqalədə açıqlanmasını məqsədəuyğun bildik. Mətnlə ümumi tanışlıq zamanı şagird mətndəki əsas informa-siyanı əldə etməyi bacarmalıdır. Burada əsas mövzu və əsas faktlar üzə çıxarılmalıdır. Mətni təhlil etmək üçün onu bütün xırdalıqları ilə diqqətlə oxuyub məzmununu başa düşmək lazımdır. Burada necə əsas, eləcə də ikinici dərəcəli informasiyanı başa düşərək əldə etmək lazımdır. Nəzərdən keçirtməklə oxu mətndəki ümumi mövzunu əldə etmək məqsədini daşıyır.

Xarici dilə ünsiyyət vasitəsi kimi yiyələnməkdə oxunun sintetik və analitik növlərinin rolu danılmazdır. Sintetik oxu təlimi prosesində müəllimin qarşısında bir sıra vəzifələr durur:

1) şagirdə oxunulan materialı tərcümə etmədən onun ümumi məzmununu başa düşməyi öyrətmək;

2) tədris olunan dilə şagirdin marağını oyatmaq;

3) əldə etdiyi bilik və bacarıqları təcrübədə tətbiq etmək üçün şagirdə imkan yaratmaq.

Şagird bu vəzifələrin öhdəsindən gəldikdə yeni informasiya əldə etməkdən əlavə oxu prosesinin özündən belə zövq almış olacaq. Həm sintetik, həm də analitik oxu şagirdlərin düşünmək qabiliyyətini formalaşdırır, lüğət ehtiyyatını zənginləşdirir, şifahi nitqini inkişaf etdirir. Sintetik oxu fərdi xarakter daşıyırsa, analitik oxu xorla keçirilir. Burada şagirdlərdə düzgün intonasiya, ritm, vurğunun yerli-yerində işlənməsi vərdişləri yaranır. Mətni daha yaxşı qavramaq məqsədilə mətn üzərində fəal iş aparılmalıdır.

Burada söhbət tapşırıqlardan gedir. Məsələn:

1) mətni plan üzrə bir neçə hissəyə bölün;

2) hər hissəni adlandırın;

3) mətn üzrə verilən suallara cavab verin;

4) mətnin qısa şərhini verin;

5) mətndəki idiomları və ya frazeoloji ifadələri tapın;

6) qəhrəmanların daxili vəziyyətini, xasiyyətini, problemlərini, mənfi və müs-bət cəhətlərini təsvir edin;

7) mətnə bir neçə sual verin;

8) mətndəki isim və sifətləri sinonim və antonimlərlə əvəz edin.

Günümüzdə həm orta, həm də ali məktəblərdəki xarici dil kitablarında oxu vərdişimizi inkişaf etdirmək üçün verilən mətnlər müəyyən qədər asan və orta həcmli olsalar da, akademik oxu sınağını keçmək üçün verilmiş mətnlər isə mürəkkəb, kifayət qədər bir sıra frazeoloji söz birləşmələri ilə zəngindir. Belə sınaqlardan keçmək üçün sadaladığımız kriteriyalardan əlavə, imtahan verən şəxslər öncədən öz oxu sürətlərini artırmalı, gözlərini məşq etdirməklə daha sürətli bir oxucuya çevrilməlidirlər. Buna sadəcə ilk olaraq mətnlərin yalnız ümumi mənasını və bəzi spesifik xüsusiyyətlərini əldə etmək üçün ilk olaraq qəzet və bədii əsərləri yüksək sürətlə oxumaqla başlamaq olar. Eləcə də, mətnləri oxuyub-anlama, tez oxuyub, gözucu nəzər yetirməklə mətn haqqında ümumi dünyagörüşü əldə etmək də çox vacibdir (9).

İnkişaf etmiş dünya ölkələrində inteqrasiya milli-mənəvi dəyərlərimizin inkişaf etdirilməsi, yeni keyfiyyətlərin daşıyıcıları olan gənclərin yetişdirilməsi, təhsilin şəxsiyyətyönümlü olması bu gün Azərbaycan təhsilinin qarşısında duran başlıca vəzifələrdən biridir.

Oxu təliminin əsas vəzifəsi şagirdlərin bədii-estetik və idrak qabiliyyətlərini inkişaf etdirmək, onlarda geniş dünyagörüşü formalaşdırmaq, habelə onlara mənəvi-iradi və mənəvi-əxlaqi keyfiyyətlər aşılamaqdır. Oxu materialları şagirdlərin hiss və duyğularını zənginləşdirir, onlarda söz ehtiyatını artırır, nitq və təfəkkür qabiliyyətlərini formalaşdırır.

Oxu şagirdlərdə mütaliə maraqları yaradır. Onların mütaliə mədəniyyətinin təşəkkül tapmasına və formalaşdırmağa xidmət edir.

2. Oxunun növləri.

Oxunun iki növü var:

1) Səsli oxu. Səsli oxu ilkin oxu priyomudur. Tədrisin ilk saatlarından başlayaraq, oxu dərslərinin əsas prinsipi şagirdlərin nitq vərdişlərini inkişaf etdirməkdir. Ucadan oxu və tələffüz savad təlimi dövrünün əsas prinsipidir.

Ucadan oxu şagirdlərin nitq vərdişlərini inkişaf etdirir. I-II siniflərdə ucadan oxuya üstünlük verilir. Səsli oxu təlim metodikasında xüsusi əhəmiyyət daşıyır. Sinif oxusu zamanı şagirdlər sözləri, mətni dinləyir və tələffüzə diqqət yetirir, məzmunu yadda saxlayırlar. İfadəli oxu səsli oxu deməkdir: müəllim növbə ilə bütün şagirdləri ifadəli oxudur. Sözləri xorla tələffüz etmək, rollar üzrə oxu da səsli oxu növlərindəndir. Bütün sinif oxuları səsli oxudur (1, s.24).

Səsli oxu şagirdlərin oxu qabiliyyətlərini formalaşdırır, gələcəkdə irihəcmli mətnlərin səssiz oxusuna zəmin yaradır. Səsli oxu ilə şeirləri, hər hansı bədii parçanı əzbərləmək mümkündür.

2) Səssiz oxu. Səssiz oxu eşidilməyən, tələffüz edilməyən oxudur. Səssiz oxuda nitq hərəkəti olmur. Səssiz oxu şagirdlərin sürətli oxu vərdişlərini inkişaf etdirir. Səssiz oxu, əsasən, gözlə oxudur: bu zaman söz bir işarə kimi görünür, sürət artır. Səssiz oxu zamanı gözün görmə və hərəkət fəallığı artır. İlk illərdən başlayaraq, şagirdlərdə səssiz oxu bacarıqları getgedə artırılmalıdır. Evə verilmiş tapşırıqlara əsasən, səssiz oxudan geniş istifadə edilməlidir. İrihəcmli əsərlərin oxusu üçün səssiz oxu xüsusi yer tutur. Səssiz oxu şagirdi yormur, onun psixoloji əhvalında bir sakitlik yaradır.

İnkişaf etmiş dünya ölkələrində inteqrasiya milli-mənəvi dəyərlərimizin inkişaf etdirilməsi, yeni keyfiyyətlərin daşıyıcıları olan gənclərin yetişdirilməsi, təhsilin şəxsiyyətyönümlü olması bu gün Azərbaycan təhsilinin qarşısında duran başlıca vəzifələrdən biridir.

İbtidai siniflərdə oxunun müxtəlif növlərindən istifadə etmək, şagirdlərdə düzgün, sürətli və ifadəli oxu vərdişləri yaratmaqla onun şüurluluğuna da təsir göstərir. Oxu prosesi həm səsli, həm də səssiz gedir. Oxunun bu növünün təlim prosesində öz yeri və əhəmiyyəti var. Müəllim şagirdlərə oxunun məzmununu dəqiq çatdırmaq, onların eşitmə və dinləmə bacarıqlarını inkişaf etdirmək, yol verdikləri nöqsanları tutmaq və aradan qaldırmaq, nitqlərinin canlı danışıq formasındakı səhvlərin düzəldilməsi üçün sistemli və ardıcıllıqla iş aparmalıdır (10).

Xarici dildə oxumanı öyrənən zaman belə avtomatizmin formalaşması üçün tez-tez təkrar olan hərəkətlər öyrənilən bütövün həqiqi təbiətinə uyğun gəlməlidir. Oxumanın öyrənilməsi metodikasını hazırlayan müəlliflər qəbul edirlər ki, nitq qabiliyyətində olduğu kimi oxuma zamanı da "oxunanın başa düşülməsində əsas rolu mətnin sintaqmatik bölünməsi, hər bir sintaqmın düzgün tələffüz formalaşması və ifadə vurğularının yerləşdirilməsi oynayır" (2, s.15)

İbtidai siniflərdə oxunun müxtəlif növlərindən istifadə etmək, şagirdlərdə düzgün, sürətli və ifadəli oxu vərdişləri yaratmaqla onun şüurluluğuna da təsir göstərir. Oxu prosesi həm səsli, həm də səssiz gedir. Oxunun bu növünün təlim prosesində öz yeri və əhəmiyyəti var. Müəllim şagirdlərə oxunun məzmununu dəqiq çatdırmaq, onların eşitmə və dinləmə bacarıqlarını inkişaf etdirmək, yol verdikləri nöqsanları tutmaq və aradan qaldırmaq, nitqlərinin canlı danışıq formasındakı səhvlərin düzəldilməsi üçün sistemli və ardıcıllıqla iş aparmalıdır.

I. Mətnin hissə-hissə oxunması. Müəllim bədii mətnləri əvvəlcədən hissələrə ayırır. Sonra bir hissəsini bir şagirdə oxumağını tapşırır. Oxunun sonunda bir növ təhlil-müsahibə aparır, çətin sözləri izah edir və s. işi aparır.

I sinifdə oxunu ayrı-ayrı obrazların oxunması üzrə də aparmaq olar. Şagirdlərin oxu vərdişləri, müşahidə və qavrama qabiliyyətləri inkişaf etdikcə obrazlardan məntiqi cəhətlərdən bitmiş hissələrə doğru hərəkət artır, mətn mənimsənilir.

Burada məqsəd oxunacaq mətndəki faktları, hadisələri, onlar arasındakı qarşılıqlı səbəb və nəticə əlaqələrini şagirdlərə dəqiq və anlaşıqlı şəkildə çatdırmaqdan ibarətdir. Hissə-hissə oxu prosesində mətnin hissələri şagirdlərin diqqətini tez və dəqiq səfərbər etməyə, söylənilənləri gözləri qarşısında konkret şəkildə canlandırmağa imkan verir. Onlar həmin hissədəki üç-dörd faktı tez tutur, araşdırır, oxşar və fərqli cəhətlərini müəyyənləşdirirlər. Az vaxt ərzində oxunan hissəni mənimsəyir, növbəti hissəni öyrənməyə hazırlaşırlar.

II. Mətnin bütöv oxunması

Buradakı əsas məqsəd şagirdlərə oxunan mətnin məzmununun şüurlu mənimsətmək və ifadəli oxu nümunəsi aşılamaqdır. I-II siniflərdə bütün mətnləri, III-IV siniflərdə isə tərkibində çətin anlaşılan söz və ifadələr, mürəkkəb cümlələr işlənmiş hekayələri müəllim oxumalıdır. Oxu aydın və ifadəli getməlidir, şagirdlər kitabı örtüb müəllimi dinləməlidirlər. Hər sözün, ifadə və cümlənin necə deyilməsinə, onların hərəkətlərinə, bir hissədən digərinə keçid əlaqələrinə diqqət yetirilməlidir. Müəllim şagirdlərin diqqətini yoxlamaq məqsədi ilə suallar verməlidir. Bu prosesdə şagirdlər müxtəlif hissələr arasındakı əlaqələri görür və öyrənirlər. Hər hissə özündən əvvəlkinin məzmun və məntiqi cəhətdən davamıdır, sonrakı hissənin meydana çıxmasına zəmin yaradır. Bunun əsasında şagirdlər bir hissədən digərinə keçməklə məzmunu bütövlükdə şüurlu mənimsəyirlər. Mətnin bütöv oxunması prosesində şagirdin oxusunu müəllim və yoldaşları dinləyir, onun nöqsan və müvəffəq cəhətlərini müəyyənləşdirirlər. Nöqsanlarına müəllim və yoldaşları tərəfindən düzəliş verilir.

Mətnin bütöv oxunması bir neçə cəhətdən əhəmiyyətlidir: ifadəli oxu vərdişlərinin yaranması, məzmunun şüurlu mənimsənilməsi və şifahi nitqin inkişaf etdirilməsi.

III. Mətnin təkrar oxunması

Bu prosesdə əsas məqsəd mətnin məzmununun mənimsənilməsini daha da möhkəmləndirməkdən ibarətdir. Bəzən müəllim mətni təkrar-təkrar oxuyur, bu işə heç bir yaradıcı xarakter vermir, şagirdi düşündürmür. Belə mexaniki oxunun təlimə xeyri olmur, əksinə, şagirdləri yorur, bezdirir. Təkrar oxu zamanı şagirdlərə düşündürücü suallar vermək, onların diqqətini əsas məsələlərin bütövlükdə məzmunun açılmasına yönəldilməlidir. Əgər mətn həcmcə kiçikdirsə və obrazlı ifadələrlə o qədər zəngin deyildirsə, onu bütöv oxumaq məsləhətdir.

Təkrar oxuda əsas məqsəd bədii obrazları şagirdlərin təsəvvüründə canlandırmaqdırsa, məzmunu şüurda möhkəmləndirmək, emosional təsir qüvvəsini artırmaqdır.

IV. Müəllimin tapşırığı əsasında mətnin səssiz oxunması

Mətnin müəllimin tapşırığı əsasında oxunması, əsasən, III sinifdən başlanır. O, 10-12 dəqiqə müddətində aparılmalıdır. Mətnin səhnələşdirilib oxunması da vacibdir. Bu, şagirdlərdə yaradıcılığı artırır. Bu məqsədlə də I sinif şagirdləri üçün sadə hekayələr, nağıl və təmsillər oxumaq lazımdır. Şagirdlər sinifdən-sinfə keçdikcə, bilik və bacarıqları möhkəmlənir. Müəllim rollar üzərində oxuya imkan yaratmalıdır. Bu zaman çıxış edən şagirdin səs tonuna və hərəkətlərinə fikir verməlidir. Şagirdlərə oxu nümunəsi vermək, sərbəst tapşırıqları yerinə yetirməsinə nəzarət etmək lazımdır. Bu, şagirdlərin idrak fəallığını artırır, onları düşündürür, müstəqil qərarlar çıxarmağa yönəldir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Ümumtəhsil Məktəbləri üçün Xarici Dil Fənni Üzrə Təhsil Proqramı (Kurikulumu), 2013.

2. Folomkina S.K. Xarici dildə oxuma tədrisinin əsasları.- “Sb.MQPİİYA elmi işlər toplusu, buraxılış 85, M., 1974, 15 s.

3. Kərimov Y. Oxu təlimi, Müəllimlər üçün vəsait, Bakı.2005

4. Alderson, J.C. Reading in a foreign language: A reading problem or a language problem?, 1984.

5. Harmer J. The Practice of English Language Teaching. Third Edition. Longman, 2001, 371 pp.
6. Smith, Frank. Reading. Cambridge: Cambridge University press. 1978
7. Ботович Л.И. Общая характеристика детей младшего школьного возраста. Проблемы формирования личности. Избранные труды. Под.ред. Д.И.Эльконина. Воронеж, 1995
8. Леонтьев А.А. Предисловие- В сб: Очерки по методике обучения чтению на иностранных языках. Под. ред. проф. И. М. Бермана. Киев, 1977.
9. https://jkurikulum.wordpress.com/
10. https: //scholar.google.com/

А.Ф.Мириева

Проблемы формирования навыков чтения на английском языке у младших классов

Резюме

Одним из важных требований, стоящих перед современным образованием является формирование навыков чтения у молодого поколения**.** В нынешние дни, тексты, представленные в книгах по иностранному языку для развития навыков чтения как в средней школе, так и в высшем учебном заведении, встречаются в определенной степени легкие и средние по объему, в то время как тексты для академического чтения, предложенные на экзаменах, усложнены и богаты фразеологизмами. Для преодоления вышеизложенных трудностей, кроме перечисленных критерий необходимо тренировать скорость чтения, практиковать все виды чтения, также развивать свои стратегии.

Педагог должен доносить до учащихся точный контекст, вести работу по улучшению навыков прослушивания, определять проблемы и устранять их, вести системную работу по улучшению навыков устной речи.

В этот процесс может быть вовлечено частичное, полное, повторное чтение, а также тихое чтение по ролям, уделяя внимание тону и поведению в процессе чтения.

Следует предложить учащимся работу по тексту с произвольными упражнениями. Это позволить развить у учащихся познавательную деятельность, заставит их задуматься и направить на принятие решений.

A.F.Miriyeva

Issues of reading skills formation in the pupils of lower grades

Summary

To form and develop the reading habit in young generation is one of the essential issues of modern education. Nowadays, the texts are given in the coursbooks of schools as well as of high schools for developing reading habits are although somewhat easy and medium long, but the texts for passing the academic reading test are complicated and rich of phraseological word combinations and collacations. Learners should practice all reading skills, increase their reading speed to become a good reader using all reading strategies, besides all criteria listed above.

The teacher must work systematiclly and consistently to convey the content of the reading to the students, to improve thier listening skills, to find and eliminate the mistakes they have made in live speech.

Thus, reading in parts by streaming, reading for general understanding, silent reading of the text on the instructions of the teacher can include systematic and consistent system of work. The teacher should allow reading on roles. In this case, the speaker should pay attention to the tone of voice and action of the student. Students need to be given a reading example and supervised to complete independent assignments. It increases students' cognitive activity, makes them think, and encourages them to make independent decisions.

Rəyçi: ped.f.d. F.Ş.Şükürova

Redaksiyaya daxil olub: 06.12.2021

T.Ə.NƏBİYEVA
pedaqogika üzrə fəlsəfə doktoru
e-mail: tahmina_nabiyeva@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

ŞAGİRDLƏRİN GƏLƏCƏK AİLƏ HƏYATINA HAZIRLANMASININ PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *tərbiyə, təfəkkür, şəxsiyyətin formalaşdırılması, ailə tərbiyəsi, yaş xüsusiyyətləri.*
Ключевые слова: *воспитание, воображение, формирование личности, семейное воспитание, возрастные особенносте .*
Key words: *education, imagination, the formation of personality, family education, age peculiarities.*

Gənc nəsli ailə həyatına və gələcək uşaqlarının tərbiyəsinə hazırlamaq prosesi, hər şeydən əvvəl, məqsədyönlü prosesdir. Həmin proses həm də çoxcəhətlidir və ona ailə, ayrı-ayrı müəllimlər və tərbiyəçilər, bütün məktəb həyatı və kollektivi, cəmiyyət, eləcə də məktəbdənkənar tərbiyə müəssisələri təsir göstərir.

Ailə həyatına hazırlıq prosesi müəllimin (valideynin) rəhbərliyi altında tərbiyəçi ilə tərbiyə olunanın fəal qarşılıqlı əlaqəsi və təsiri kimi başa düşülür. Ona görə də şagirdləri ailə həyatına hazırlamaq vəzifəsini müvəffəqiyyətlə həll etməkdən ötrü bütün qüvvələr öz səylərini birləşdirməlidir.

Məktəbliləri ailə həyatına hazırlamaq kompleks prosesdir. İnsan şəxsiyyəti bir-birindən təcrid olunmuş şəkildə deyil, kül halında formalaşdırıldığından ailə başçısına, evdar kişiyə və qadına, ər və arvada, ata və anaya xas olan müvafiq keyfiyyətlərin inkişafı da kompleks halında aşılanır. Lakin bu o demək deyildir ki, hər hansı bir mərhələdə bu və ya digər tərbiyəvi vəzifələrin həllinə diqqət artırıla bilməz. İnsanın səviyyəsindən və inkişafından asılı olaraq tərbiyəvi vəzifələr mürəkkəbləşir və dərinləşir.

Ümumtəhsil məktəbi şagirdlərinin ailə həyatına hazırlanması uzunsürən, həm də fasiləsiz prosesdir. Bu iş uşaq artıq məktəbə gələnə qədər başlanır, təhsil illərində davam etdirilir. Gənclər müstəqil həyata atılanda – ali və orta ixtisas məktəblərində, texniki-peşə məktəblərində təhsil alanda, ordu sıralarında xidmətdə olarkən və yaxud istehsalatda daha da inkişaf etdirilir. Bu vaxt yalnız müxtəlif tərbiyəvi amillərin rolu, qarşılıqlı əlaqəsi, münasibəti və nisbəti dəyişir. Belə ki, uşaq məktəbə gələnə qədər onun ailə həyatına hazırlanması ilə yalnız valideynlər və məktəbəqədər tərbiyə müəssisələri məşğul olur, sonra məktəb ailənin köməyinə yetir, daha sonra texniki-peşə məktəbləri, ali və orta ixtisas məktəbləri, əmək kollektivləri bu və ya digər dərəcədə ailənin müttəfiqinə çevrilirlər.

Ailə həyatına hazırlıq prosesində məktəbli həm tərbiyənin obyekti, həm də subyekti olur. Birinci halda o, müəllimlərin, tərbiyəçilərin, eləcə də valideynlərin, böyük bacı və qardaşlarının, baba və nənəsinin rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərir. İkinci halda isə o özü müstəqil surətdə müəyyən fəaliyyətdə olur, müəllim və tərbiyəçilərlə, ata-anaları ilə, sinif yoldaşları ilə, kollektivlə, qızlarla (oğlanlarla), habelə ətrafdakı adamlarla münasibətlərdə bu və ya digər xətti özü seçir və s.

Gənc nəsli ailə həyatına hazırlamaq prosesinin mühüm səciyyəsi onun ikitərəfliliyindədir. Yəni bu prosesdə hökmən iki tərəfin: müəllim-tərbiyəçi və şagird-tərbiyə olunanın iştirakı və qarşılıqlı təsiri vacibdir.

Şagirdlərin fərdi fərqlərindən və sosial təcrübələrindən asılı olaraq müxtəlif tərbiyəvi nəticələr əldə etmək mümkündür. Eyni tərbiyəvi tədbirin bu və ya digər məktəbliyə müxtəlif şəkildə təsir göstərməsi təbii hal sayılmalıdır. Ailə həyatına hazırlıq üzrə işdə ən yaxşı üsul və

metodun aşkara çıxarılması nəzərdən keçirilən problemin yaxın, əlaqədar və xüsusi təzahürlərlə tutuşdurulmasını nəzərdə tutur. Bu baxımdan tərbiyə prosesi ilə təlim prosesini müqayisə etmək, tutuşdurmaq məqsədəuyğundur.

Təlim prosesində müəllimin fəaliyyətinin məqsədyönlülüyü əsas etibarilə dərsin məqsəd və vəzifələrindən asılı olur, tərbiyəçinin tərbiyə olunana təsiri isə proqram materialı və dərs çərçivəsi ilə məhdudlaşır. Təlimdə nəticə nisbətən asanlıqla aşkara çıxarılır. Belə ki, şagirdə müəyyən bilik və məlumatlar çatdırıldıqdan az sonra yoxlama keçirib müvafiq qənaətə gəlmək mümkündür. Tərbiyədə isə bu nəticələri əldə etməkdən ötrü müəyyən vaxt lazımdır. Eyni sözləri ümumtəhsil məktəbi şagirdlərini ailə həyatına hazırlamaq işinə də aid etmək mümkündür.

Ümumtəhsil məktəbi şagirdlərinin ailə həyatına hazırlanması üzrə iş müəyyən qanunauyğunluqlarla səciyyələnir. İnsanın sosial həyatını xeyli dərəcədə onun fəaliyyəti və digər adamlarla ünsiyyəti müəyyən edir. Başqa sözlə, fəaliyyət və ünsiyyət tərbiyəvi prosesin əsası olub şəxsiyyətin mənəvi keyfiyyətlərini formalaşdıran başlıca mənbədir.

Gənc nəslin ailə həyatına hazırlanmasında fəaliyyətin rolu çox böyükdür. İnsan məhz fəaliyyət prosesində lazımi biliklərə, xalqın mənəvi sərvətlərinə yiyələnir. Şəxsiyyətin qabiliyyətləri, onun yaradıcı qüvvələri, istedadı yalnız və yalnız fəaliyyət prosesində inkişaf edir. Ona görə də faydalı hərtərəfli fəaliyyət tərbiyəvi prosesin əsasında dayanır, ağıllı fəaliyyətə cəhd isə cəmiyyətə gərəkli insanın formalaşmasının təməlidir.

Müxtəlif, rəngarəng fəaliyyət prosesində təcrübə qazanılır. Gənc nəsl baba-nənələrimizin, ata-analarımızın ailə münasibətləri sahəsindəki mənəvi sərvətlərinə yiyələnirlər. Fəaliyyət baxışların, mühakimə və qiymətvermənin formalaşmasına kömək göstərir.

Məktəblilərin başqa şəxslərlə ünsiyyəti onun sosial həyatına digər mühüm formasıdır. Əgər fəaliyyət insanın mənəvi və fiziki qüvvəsini qüvvətləndirir və hərtərəfli inkişaf etdirirsə, ünsiyyət bu qüvvəni çoxaldır və həm də fəaliyyətin istiqamətini müəyyənləşdirir. Ünsiyyət şəxsiyyətin fəal həyat mövqeyi qazanmasına şərait yaradır. Ünsiyyətdə şəxsiyyətin inkişafından ötrü olduqca zəruri sayılan çox müxtəlif və çox səciyyəvi cəhət, o cümlədən, ailə həyatında insanların bir-birinə münasibəti (borc və cavabdehlik hissi, təşkilatçılıq və icraçılıq münasibətləri, səmimiyyət və xeyirxahlıq və s.) yaranır. Bütün bunlarla yanaşı, ünsiyyət prosesində həm də rəğbət, yoldaşlıq və dostluq, məhəbbət, insana qayğıkeş, diqqətli münasibət kimi şəxsiyyətlərarası münasibətlər meydana gəlir ki, bu artıq həqiqi mənəvi münasibətlər xarakteri daşıyır.

Məktəbli-gənclərin bir sıra mənafeləri məhz ünsiyyət prosesində inkişaf edir. Bu prosesdə birinci qanunauyğunluq ondan ibarətdir ki, ailə həyatına hazırlıq üzrə iş nə qədər məqsədyönlü təşkil edilərsə, onların ünsiyyəti də bir o qədər ağıllı olar və tərbiyə prosesi də daha səmərəli gedər. Fəaliyyət, ünsiyyət və münasibətlər təcrübəsinə yiyələnmək və bu təcrübəni zənginləşdirmək həm də şəxsiyyətin "daxili aləminin", onun motivlərini, emosional və intellektual sahəsini, tələbatlarını zənginləşdirir.

İkinci qanunauyğunluq ondan ibarətdir ki, tərbiyəvi təsir şəxsiyyətin daxili aləminə nə qədər güclü təsir edərsə, onun nəticəsi bir elə yüksək olar.

Üçüncü qanunauyğunluq haqqında isə onu demək olar ki, tərbiyənin məqsədyönlü prosesi nə qədər tərbiyə olunanların verbal (şifahi) və hissedici-hərəki proseslərinə təsir kompleksinə əsaslanırsa, uşağın hərtərəfli inkişafı bir elə səmərəli olar.

Ailə həyatına hazırlıq üzrə işdə tərbiyənin subyekti və obyekti arasında müxtəlif əlaqələr yaranır. Buraya məlumati əlaqəni (tərbiyəçi və tərbiyə olunan arasındakı məlumat mübadiləsi), kommunikativ əlaqəni (ünsiyyət), təşkilati-fəaliyyət əlaqəsini (birgə fəaliyyət), idarə və özünüidarə əlaqələrini daxil etmək mümkündür. Gənc nəslin ailə həyatına hazırlanmasının müvəffəqiyyəti həmin əlaqələrə necə münasibət göstərilməsindən, nəzarət və özünənəzarətin roluna hansı şəkildə diqqət yetirilməsindən çox asılıdır. Nəzarət zamanı tez bir vaxtda nəticə çıxarmağa tələsmək lazım deyildir. Uzunmüddətli müşahidə tərbiyə olunanın hərəkətlərinin zahiri təzahürlərini deyil, məhz motivlərini öyrənmək məqsədə müvafiqdir.

Ailə həyatına hazırlıq prosesində şəxsiyyətin inkişafının ən mühüm psixoloji qanunauyğunluğu öz ifadəsini tapır: zahiri, xarici cəhət daxili cəhətə çevrilir.

Y.K.Babanski və V.A.Slastenin pedaqoji prosesin qanunauyğunluqlarından danışarkən iki səciyyəvi qanunauyğunluğu qeyd edirlər:

1. Tam (bütöv) pedaqoji proses, onun məqsədi, vəzifələri, məzmunu, forma və metodları, cəmiyyətin sosial-iqtisadi tələbatları, onun ideologiyası və siyasəti ilə şərtlənir.

Müəlliflərin fikrincə, pedaqoji proses özünün bu ilk qanunauyğunluğunu tam şəkildə yerinə yetirməzsə, o, həyatdan geri qalacaqdır, həyatla ziddiyyətə giricək və söz yox ki, yenidən qurulacaq, təşkil olunacaqdır.

2. Pedaqoji prosesin vəzifələri, məzmunu, metod və formaları nəinki təkcə cəmiyyətin tələbatlarından, həm də onun imkanlarından, bu prosesin cərəyan etdiyi şəraitdən asılıdır.

Müəlliflər bu iki qanunauyğunluğun pedaqoji prosesin zahiri əlamətləri ilə şərtləndiyini qeyd etməyi də unutmur və eyni zamanda həmin prosesin daxilində, yəni onun əsas komponentləri arasında mövcud olan əlaqələri də nəzərdən keçirirlər. Onlar buraya əsasən aşağıdakıları daxil edirlər: a) tam (bütöv) pedaqoji prosesin tərkib komponenti kimi təlim, təhsil, tərbiyə və inkişaf prosesləri arasında əlaqə; b) tərbiyə və özünütərbiyə, pedaqoji rəhbərlik və tərbiyə olunanların özfəaliyyəti, tədris və təlim, yəni pedaqoji prosesin subyektinin və obyektinin fəaliyyəti arasındakı əlaqə; c) şəxsiyyətin fəaliyyəti və ünsiyyəti, onun inkişafının nəticələri arasındakı əlaqə.

Ədəbiyyat

1. Педагогика: Учеб. пособие для студентов пед.ин-тов (Ю.К.Бабанский, В.А.Сластенин, Н.А.Сорокин и др. Под ред. Ю.К.Бабанского. 2-е изд., доп.и перераб. М.; Просвещение, 2008, с.36-37.

2. Ə.Ə.Əlizadə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı, Maarif, 1986.

3. R.Ə.Əliyev. Xalq müdrikliyi. Bakı, Azərnəşr, 1986.

4. H.Ə.Əliyev. Ailə və məktəb ənənələri sağlam nəsil tərbiyə edir. B., Maarif, 1988.

T.A.Набиева

Педагогические особенности подготовки школьников в семейной жизни

Резюме

В статье прояснены проблемы подготовительных работ школьной молодежи к семейной жизни, выявлены и обоснованы педагогические особенности по решению данных проблем. Статья очень актуальна для учителей – практики и для родителей. Статьей также могут пользоваться и исследователи.

T.A.Nabiyeva

Pedagogical features of preparing of pupils to the future family life

Summary

In article researched the problems of preparing of pupils to the family life, also the solving of these problems and their pedagogical basis with these charac – also to parents. Also from article can use the researchers.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 06.12.2021

X.R.QOCAYEV
baş müəllim

R.A.ƏKBƏROV
baş müəllim
e-mail: rufat-akperov@rambler.ru

V.V.MƏMMƏDOVA
baş müəllim
e-mail: m.vefa77@gmail.com

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

SAĞLAM GƏNC NƏSLİN FORMALAŞMASINDA İDMANIN ROLU VƏ PROBLEMLƏRİ

Açar sözlər: *gənclər, idman, idman siyasəti, gənc nəsil, sağlam həyat tərzi, idmançının qidalanma rejimi, məşq, fiziki tərbiyə.*
Ключевые слова: *молодежь, спорт, спортивная политика, молодое поколение, здоровый образ жизни, режим питания спортсмена, тренировка, физическое воспитание.*
Key words: *young people, sport, sports policy, the younger generation, healthy lifestyle, athletes nutrition regime, workout, physical education.*

Azərbaycanda bədən tərbiyəsi və idmanın tarixi çox qədimlərə dayanır. Bu sahə xalqımızın həyat tərzi, yaşayışı və mədəniyyəti ilə sıx bağlıdır. Azərbaycan folklorunda, xüsusilə "Kitabi-Dədə Qorqud" dastanında igidlərin oxatma, atçapma, güləş və başqa xalq oyunlarında hünər göstərmələri əks olunmuşdur. Digər bir tərəfdən əcdadlarımız Qobustanda və Gəmiqayada qaya üzərində müxtəlif fiziki hərəkətlər təsvir etmişdir. Bütün bunlar Azərbaycanda idmanın qədim tarixindən xəbər verir.

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyi dövründə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirmiş, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi qayğısına qalmışdır. Ulu Öndərin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkədə idmanın inkişafına güclü təkan verdi. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilmiş, 1997-ci ildən gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Həmin il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra ölkəmizdə idman hərəkatı daha da genişlənmiş, bu sahənin inkişafına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Son illər ölkə iqtisadiyyatının sürətli inkişafı bədən tərbiyəsi və idmanı da əhatə etmişdir. Ölkə başçısının diqqət və qayğısı ilə Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulmuş, maddi-texniki baza möhkəmləndirilmişdir. Peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlərin ildən-ilə artması, beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunması və ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi dövlətin bu sahəyə olan qayğısının nəticəsidir.

Bu gün Azərbaycanda gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması işləri diqqət mərkəzində saxlanılır. Bu işlərin davamlı həyata keçirilməsi gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır, idman klublarının və federasiyaların heyəti ilbəil genişlənir. Bu gün respublikamızda minlərlə yeniyetmə və gənc aktiv şəkildə idmanla məşğul olur. Onların respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir. Bütün bunların

nəticəsidir ki, yeni idmançılar nəsli yetişir, müxtəlif idman növləri üzrə uğurların sayı daha da artır.

İdmanla məşğul olmaq maraqlı və məsuliyyətli işdir. İdmançı əhəmiyyətli fiqur kimi həmişə diqqət mərkəzindədir. Bu səbəbdən davranışları qədər, estetik baxımdan cəlbediciliyi vasitəsilə də cəmiyyətin təqdirini qazanmalıdır. Fəal hərəkətlərə əsaslanan idman növlərinin nümayəndələrinin fiziki göstəriciləri, bədən quruluşu qəbul olunmuş standartlara uyğun gəlməlidir. Hər zaman formada qalmaq, həyat tərzinə görə nümunə olmaq müəyyən qidalanma rejiminə riayət etməyi şərtləndirir. İdmançı orqanizmi daim enerji almalı, həmçinin onu səmərəli istifadə etməyi öyrənməlidir (4). Düzgün seçilmiş qida rasionu arzulanan nəticələr zəncirinin ilk həlqəsidir. Əzələ tonusunun saxlanması, zehni çeviklik əldə etmək üçün gündəlik qidanın 50 %-i karbohidrat, 20%-i zülal, 30%-i isə yağlardan ibarət olmalıdır.

Yeniyetmə və gənc idmançıların qidalanma rejimi adətən şəxsi məşqçilər tərəfindən müəyyənləşdirilir. Detallara həssas olan gənclər peşəkar dietoloqlar və fitness məşqçilərinin hazırladığı proqramlara da müraciət edirlər. Analoji qidalanma cədvəlinin tərtib olunması ödənişli olmaqla orqanizmin fərdi xüsusiyyətlərindən asılı olaraq müxtəlifdir. Amerikalı psixoloq Herbert Şeldon bədən quruluşunun ektomorf (arıq, sürətli, enerjili), mezomorf (orta, əzələli) və endomorf (kökəlmiş, ləng) tipləri üzrə təsnifatını təklif etmişdi. Bir qayda olaraq, insanlarda həmin tiplərə vahid deyil, qarışıq hallarda rast gəlinir. Mütəxəssislər rejim və məşq proqramı tərtib etməzdən əvvəl müraciət edən tərəfin bu xüsusiyyətlərini nəzərə alırlar.

Yeniyetməlik sərbəstliyə meylli, hesablaşmadan qərar verməyi sevən dövr olduğundan qidalanmada ciddi pozuntular meydana çıxa bilər. Müasir dövrdə populyar olan fast-fud, steyk, yarımfabrikatlar, şirniyyat məmulatları, ədviyyatlı qəlyanaltılar, şəkərli qazlı içkilərdən peşəkar idmanı düşünən hər kəs uzaq durmalıdır. 2019-cu ildə tanınmış tibb jurnalı “The Lancet” yeməklərlə bağlı araşdırmasının nəticəsinin dərc etmişdi. Nəşrin gəldiyi nəticəyə əsasən, qeyri-sağlam qida siqaretdən daha zərərlidir və dünyada hər 5 adamdan biri məhz bu səbəbdən dünyasını dəyişir. Xüsusilə “ağ ölüm” adlandırılan şəkər və duz artıq miqdarda qəbul edilərsə, insana ciddi problemlər yarada bilər. Hazırda idmançı uşaqlar belə, fast-fuda daxil olan dönəri həddindən artıq istehlak edirlər. Halbuki paytaxtımızda hazırlanan dönərlərin standartlara uyğun hazırlanmadığı, orqanizmə zərər vurduğu barədə dövri mətbuat və televiziyada xeyli danışılıb. Ətin yetəri qədər bişməməsi, bəzi hallarda mənşəyinin məlum olmaması dönərdən imtina üçün kifayət qədər ciddi səbəblərdir. Düzgün qidalanma sağlam həyat tərzinin ilkin şərtlərindən biridir, çünki vitamin, mikroelement və həyat enerjisini qidalardan alırıq. Bunu nəzərə alaraq kalorili, faydalı və ekoloji cəhətdən təmiz qidalar qəbul edilməsinə xüsusi fikir vermək lazımdır (2).

İdmançının qidalanma rejimi zəngin səhər yeməyindən başlamalıdır. Məşqdən 2-3 saat öncə zülal tərkibli, 1-2 saat sonra isə vitaminli qidalardan istifadə tövsiyə olunur. Orqanizmin maddələr mübadiləsinə kömək etmək üçün mümkün qədər maye qəbul etmək faydalıdır.

Məşqlər və fiziki yüklənmə fərdin yaşından əhəmiyyətli dərəcədə asılıdır. Yeniyetmə və gənclərin enerji ehtiyatı lazımi səviyyədə olduğundan onlara tədricən çətinləşən məşq proqramları yazılır. Uşaqlara sadə fiziki məşğələlər, üzmək və qaçmaq məsləhət görülür. Həkimlər 8 yaşına kimi uşaqların parklarda, təmiz havada daha çox vaxt keçirməsində israr edirlər. 8-21 yaşına qədər sürət, cəldlik, dözümlülük üzərində işləmək üçün optimal dövrdür. İdman karyerasının kulminasiya mərhələsi, bir qayda olaraq 20-30 yaş intervalına təsadüf edir. Təxminən 25 yaşda fiziki forma pik dövründə olur, sonra hər il əzələ kütləsi azalmağa başlayır (1).

Yeniyetmə və gənclərin zərərli vərdişlərdən uzaq olması sağlamlığa zəmanətdir. Ümumiyyətlə, zərərli vərdişlər həyat fəaliyyətinin aşağı düşməsinə ciddi təsir göstərən səbəblərdən sayılır. Meşədə, təmiz havada gəzmək, Günəş vannası qəbul etmək də çox faydalıdır (2).

Uşaq və yeniyetmələrin məşq zalları, klublara, futbol akademiyalarına getməsi əlavə vaxt tələb edir. Məşqlər, əsasən, dərs vaxtından sonraya, günün ikinci yarısına düşür. Saat 18:00-20:00 aralığında ictimai nəqliyyatda sıxlıq, yollarda tıxaclar olur. Bu səbəbdən uşaqlar

gecikir, bəzən enerjilərinin bir hissəsini nəqliyyatda sərf edirlər. Avropanın əksər ölkələrində böyük şəhərlərdə nəqliyyat yüklənməsini azaltmaq və insanların sağlamlığı məqsədilə velosiped cığırları yaradılıb. Eni 2 metr olan bu yollar seçilməsi üçün qırmızı, sarı rənglərə boyanır. Velosipedçilər üçün xüsusi işıqforlar quraşdırılmış şəhərlər də var. Azərbaycanda daha çox istirahət parklarında velosiped sürülür. Şəhərsalma planında piyada səkilərinin bir hissəsi velosiped nəqliyyatı üçün ayrılması maraqlı addım olardı. Belə ki, uşaqlar yaxınlıqdakı idman obyektlərinə moped və ya velosipedlə getmək imkanı qazanardı. Hazırda bunu həyata keçirmək risk deməkdir. Çünki hərəkət üçün avtomobil yollarına düşmək lazım olur. Bəzi hallarda isə velosipedçilər işıqfora məhəl qoymadan hərəkətini davam etdirir.

Paytaxtda nəqliyyatın intensivliyi problem yaradırsa, regionların başqa dərdi var. Kəndlərlə rayon mərkəzlərini birləşdirən yollar yararsız, nəqliyyat təminatı zəifdir. Bəzi hallarda idman qurumları bu problemləri imkanları daxilində həll etməyə çalışır. Məsələn, "Qəbələ" Futbol Akademiyası tərəfindən təqribən 20 kəndi əlaqələndirən avtobus xətti yaradılıb. Lakin məskunlaşma dağınıq olduğundan bir sıra yaşayış məntəqələrindən istedadlı uşaqları akademiyaya qazandırmaq asan deyil. Nəqliyyat xərclərini şəxsi büdcəsindən ödəyən valideynlər də var. Region əhalisinin sosial-iqtisadi durumu bunu mütəmadi həyata keçirməyə çətinlik törədir.

Azərbaycanda idman məşqləri uşaq və gənclərin fiziki tərbiyəsi ilə yanaşı, həmçinin biznes kimi nəzərdən keçirilir. Belə ki, karyerasını başa vurmuş, idmançı keçmişinə malik şəxslərin müəyyən qismi məşq keçməklə maddi ehtiyaclarını ödəməyi düşünürlər. Kapitalizmin idmana nüfuz etdiyi indiki şəraitdə bütün növ hazırlıqlar ödəniş əsasındadır. Unutmaq olmaz ki, zalların icarəsi, inventarın alınması və yenilənməsi üçün vəsait lazımdır. 2020-ci ilin hesabatına əsasən, ölkəmizdə 47 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir. Lakin onların olduqca məhdud hissəsində idman növləri üzrə məşqlər keçirilir. Bu mərkəzlər Gənclər və İdman Nazirliyinin balansında olsa da, məşqlərin qiyməti adi zallardan aşağı deyil.

Bir sıra akademiyalarda məşqlərə görə ödəniş alınmır. Onların arasında həm yarıhəvəskar, həm də peşəkar kateqoriyada olanlar vardır. Son illər AFFA-nın lisenziyalaşdırma qaydalarına əsasən Premyer Liqa klubları uşaq futbol komandalarına müəyyən qədər fikir verirlər. "Neftçi" və "Qarabağ" artıq akademiyalarının yetirmələrinə Avrokuboklarda şans verməkdədir. Futbol akademiyasından söhbət gedirsə, "Qəbələ"ni unutmaq olmaz. Klub maliyyə çətinlikləri ilə üzləşdiyi vaxtlarda belə, büdcəsinin 10%-ni akademiya üçün xərcləyib. Vaxtilə britaniyalı mütəxəssislərin təcrübəsi əsasında qurulan akademiya uşaqların geyim, hazırlıq, nəqliyyat məsələsini diqqətdə saxlayır. Son dövrlər UEFA Gənclər Liqasında "Qəbələ"nin U19 komandasının nəzərəçarpan nəticələri görülən işlərin boşa getmədiyini göstərir.

Yerli futbol məktəblərində məşqlərin ödənişsiz olması sponsor dəstəyindən xeyli dərəcədə asılıdır. Ölkəmizdə uşaq futboluna maliyyə yatırımı zəif olduğundan hazırlıqlar əksərən pullu və standartlardan aşağıdır.

Uşaqların idmanla kütləvi məşğul olması prioritet kimi nəzərdən keçirilirsə, maliyyə amilini yaddan çıxarmaq olmaz. Təhsillə idman fəaliyyətini uzlaşdırma, intellektual şəxsiyyət kimi yetişmə birbaşa uşağın özündən asılı məsələlər olduğu halda, məşqlərin maliyyə tərəfləri ailə büdcəsi hesabına həll edilməlidir. Ona görə uşaq idmanına investisiyaların cəlb olunması, dövlətin inkişaf proqramları hazırlayıb icra etməsinə ehtiyac var. Xüsusilə komanda idman növlərində istedadlı uşaqlara gələcəkdə karyera qurmaq imkanı yaratmaq münasib variantdır. Digər növlərdə isə aztəminatlı ailələrin uşaqlarını mümkün qədər məşq xərclərindən azad etmək yaxşı olardı.

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində şagirdlər ən zəruri fiziki və iradi keyfiyyətlərə malik olmaq naminə fiziki tərbiyə və idman məşğələlərindən zövqünə və imkanına müvafiq şəkildə faydalanmalıdırlar. Fiziki tərbiyə dərslərində qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirmək üçün şagirdlərin fəaliyyətini bu prosesdə düzgün və mütəşəkkil olaraq təşkil etmək vacib şərtlərdəndir. Aparılan məktəb islahatı ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisini yaxşılaşdırmağı, müasir fiziki tərbiyə sisteminin daha

səmərəli qurulmasını tələb edir. Məktəbdə fiziki tərbiyə və idman işlərinin müasir tələblər baxımından həyata keçirilməsinin müxtəlif forma və metodları vardır. Tədris prosesində əsas biliklər sırasında duran bölmələrlə yanaşı gimnastika, mütəhərrik və idman oyunları, atletika elementlərinin proqram tələbləri baxımından şagirdlərə öyrədilməsi uşaqlarda fiziki tərbiyə dərslərinə marağın artması, ayrı-ayrı idman növləri üzrə bilik, bacarıq və vərdişlərin aşılanması, eləcə də bu sahədə müxtəlif idman yarışlarında fəallıqla meyl göstərmələri yaxşılaşır (3).

Gələcəyimiz olan gənclərin fiziki cəhətdən sağlam böyüməsində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Ona görə də respublikada bu sahənin inkişafı mühüm və qabaqcıl istiqamət kimi müəyyənləşdirilmişdir. Sevindirici haldır ki, bu gün Azərbaycanda idmanın hərtəfəli inkişaf etdirilməsinə dövlət səviyyəsində yüksək qayğı var. Təsadüfi deyil ki, idmana göstərilən yüksək diqqət və qayğı nəticəsində respublikada yeni idmançılar nəsli yetişir və hər il bu idmançılar müxtəlif yarışlarda ölkəmizi yüksək səviyyədə təmsil edərək çoxsaylı medallar qazanırlar. İnanırıq ki, idmana olan bu sevgi tezliklə onun daha da kütləviləşməsinə şərait yaradacaq.

Ədəbiyyat

1. Babayev M.Ə., Əliyev S.A., Kərimov R.M. “Uşaqların və yeniyetmələrin sağlamlığının funksional və gigiyenik xüsusiyyətləri”, metodiki vəsait. Bakı, 2014, 84 s.

2. Əliyev E.A. “Sağlamlaşdırıcı fiziki tərbiyə” (magistrlar üçün dərs vəsaiti). B., 2018, s. 128.

3. Əliyev İ.M. və həmmüəlliflər. Fiziki tərbiyə nəzəriyyəsi və metodikası, dərs vəsaiti, B., 2018, 191 s.

4. Məcidov N.B. İdman nəzəriyyəsi, dərslik, B., 2009, s. 148.

Х.Р.Годжаев, Р.А.Акперов, В.В.Мамедова

Роль и проблемы спорта в формировании здорового молодого поколения

Резюме

В последние годы ускоренное развитие экономики страны охватывает физическую культуру и спорт. Благодаря вниманию и заботе главы государства во всех регионах Азербайджана построены и сданы в эксплуатацию современные спортивные комплексы, существующие спортивные объекты модернизированы в соответствии с новыми требованиями, укреплена материально-техническая база. Физическая культура и спорт играют важную роль в воспитании здорового молодого поколения. Поэтому развитие этой сферы в республике определено как важное и передовое направление.

Kh.R.Gojayev, R.A.Akbarov, V.V.Mammadova

The role and problems of sports in the formation of a healthy young generation

Summary

In recent years, the accelerated development of the country's economy covers physical culture and sports. Thanks to the attention and care of the head of state, modern sports complexes have been built and put into operation in all regions of Azerbaijan, existing sports facilities have been modernized in accordance with new requirements, and the material and technical base has been strengthened. Physical culture and sports play an important role in the upbringing of a healthy young generation. Therefore, the development of this sphere in the republic is defined as an important and advanced direction.

Rəyçi: ped.f.d. M.Z.Heydərova

Redaksiyaya daxil olub: 05.10.2021

S.A.QURBANOVA
e-mail: sebine.qurbanova54gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., H.Əliyev pr., 429)

TOLERANTLIQ TARİXİ SOSİAL-PEDAQOJİ PROBLEMDİR

Açar sözlər: *dözümlülük tərbiyəsi, kiçikyaşlı məktəbli, metodoloji yanaşma, tolerantlıq tərbiyəsinin sosial şərtləri, tolerant şəxsiyyət, milli münaqişələr.*

Ключевые слова: *воспитания терпимости, младший школьник, методологический подход, условия социального воспитания толерантности, толерантная личность, национальные столкновения.*

Key words: *tolerance culture, younger pupil, methodological approach, social features of tolerance education, tolerant personality, national conflicts.*

Cəmiyyətdə müxtəlif qarşıdurmaların kəskinləşməsi, sosial və dini münaqişələrin artması hər bir ölkənin xarakterik xüsusiyyətlərindəndir. Belə bir şəraitdə gənclərdə tolerantlığın tərbiyə olunması müasir təhsilin ən vacib və aktual vəzifələrindən biridir ki, məhz bəşəriyyətin yaşaması onun həllindən asılıdır. Mövcud faktın danılmazlığı bununla yanaşı uzun müddət tolerantlıq tərbiyəsi (və ya tolerantlığın formalaşdırılması) üsulları ətrafında gedən gərgin mübahisələrə də son qoymamışdır.

Qeyd etmək lazımdır ki, fəlsəfəyə ilk öncə tərbiyə problemlərini, o cümlədən tolerantlıq münasibətlərini dərk etmək xarakterik olsa da, bu keçmiş dövrün mütəfəkkirləri üçün mərkəzi problem olmamışdır. Antik dövrün fəlsəfəsi müxtəlif pedaqoji fikirlərlə zəngindir. Xüsusən də, gənclərin tərbiyəsinə Demokrit, sofistlər, Sokrat, Platon, Aristotel və başqaları daha çox diqqət yetirmişlər (5).

Antik dövrdə insanlarda olan etiqadçılığa əsasən alimlər bu qənaətə gəlmişlər ki, tərbiyə cəmiyyətə daxil olan proseslərin tərkib hissəsidir (yaxud da sosiallaşmasıdır). Ona görə də, müasirlik nöqteyi nəzərdən antik dövrdə vətəndaşın "böyüməsi" mənzərəsini, yaşlı nəsil tərəfindən dəyərli etik norma və qaydaların kiçik yaşlı nəslə məqsədyönlü ötürülməsi kimi şərh etmək olar. Antik dövrdə incəsənətə vətəndaş və insan tərbiyəsinin ən güclü vasitəsi kimi baxılırdı, fərdin milli, mədəni, və ya dini mənşəyindən asılı olmayaraq antik dövrün sonlarında insan şəxsiyyətinin mütləq dəyəri anlayışı tədricən formalaşmağa başlayır. Belə ki, Apuleyin traktatında və "Qızıl eşşək" ("XI kitabda Metomorfozalar") adlı məşhur romanında ardıcıl şəkildə insan şəxsiyyətinin ayrılıqda dəyəri və digər xalqlara, dinlərə və mədəniyyətlərə qarşı hörmət etməyin vacibliyi barədə fikirlər vardır.

Antik dövrdən bu günə qədər pedaqogikanın inkişaf məsələləri, o cümlədən şəxsiyyətlərarası və millətlərarası münasibətlər fəlsəfi məsələlər ilə birbaşa bağlı olmuşdur. Bu, ümumiyyətlə elmi biliklərin, xüsusən də fəlsəfə və pedaqogikanın formalaşması və inkişafının ümumi xüsusiyyətlərindən irəli gəlir.

Fəlsəfə meydana gəldiyi gündən onun tərkibində bütöv insan fəaliyyəti haqqında bir elm olan tərbiyəyə dair biliklər sistemi inkişaf etmişdir: insanda dünyaya, cəmiyyətə, adamlara, əməyə, təbiətə, sevimli peşəyə, özünə qarşı müəyyən münasibətlərin formalaşmasına dair. Bununla yanaşı, fəlsəfi biliklər həm də insanın ətraf aləmlə, cəmiyyətlə əlaqəsinin yaranmasına, şəxsiyyətin özünü dərketməsinin inkişafına köməklik edir. Təbiidir ki, fəlsəfi əsaslardan kənarda həqiqi tərbiyə nəzəriyyəsi mövcud deyildir. Ona görə də pedaqoji fikir bütün tarix boyu müxtəlif xalqların təlim-tərbiyə sistemlərinə dair çoxlu empirik təcrübə ilə zənginləşərək, şəxsiyyətin tərbiyəsinə yönəlmiş şəxsi pedaqoji sistemini hazırlamış və yaratmışdır.

Pedaqoji fikir tarixinin görkəmli tədqiqatçısı prof. F.A. Rüstəmovun araşdırmalarından da (4) görünür ki, XII-XIII əsrlərin sxolastik fəlsəfəsi (Pyer Abelyar, Foma Akvinski və b.),

Qərbi Avropaya nüfuz etmiş VIII-XIV əsrlərin şərq-müsəlman fəlsəfəsi də ("Qurani Kərim", Nizami Gəncəvi, Nəsirəddin Tusi və b.) Avropa pedaqoji fikrinin (həm də dünyəvi) inkişafına təkan vermişdir. Orta əsrlər dövründə tərbiyə məsələləri Şərqdə Mədrəsələrlə, Avropada isə Kilsələrlə sıx bağlı olub, əvvəlcə filosof-ilahiyyətçilər tərəfindən inkişaf etdirilmiş, tam dini çalarlar daşımış pedaqoji ideyalar müsəlman din xadimləri və kilsə doqmaları tərəfindən təzyiqə məruz qalmış və buna uyğun olaraq bütün insanların Allah qarşısında bərabərliyi təsdiq olunmuşdur. Bununla yanaşı, çox nadir istisnalar olmaqla, dini dözümsüzlük ideyaları üstünlük təşkil edirdi. Müsəlman aləmində Məhəmməd Peyğəmbər(ə.s.) dinindən, etiqadından, hansı xalqın nümayəndəsi olmaqdan asılı olmayaraq bütün insanlığa xitap edərək adamları azadlığa, bərabərliyə, dözümlülüyə, birgə yaşayışa, mərhəmətə, birliyə, qarşılıqlı xeyirxahlığa, digər dinlərə hörmətə, mehribançılığa, gözü toxluğa, dini dözümlülüyə və s. çağırırdı. İnsan cəmiyyətinin əsası kimi dözümlülüyə dair pedaqoji ideyaların sonrakı inkişafı İntibah dövrünün (XIV-XVI əsrlər) mütəfəkkirlərinin yazılarında öz əksini tapmışdır.

İntibah dövrünün fəlsəfəsində humanist pedaqoji ideyalar səslənilir (Avropada Vitterina de Feltre, Fransua Rable, Mişel de Monten, Yaxın Şərqdə, o cümlədən Azərbaycanda İmadəddin Nəsimi, Əssar Təbrizi, Əvhədi Mərağai, Şah İsmayıl Xətai və b.), insan şəxsiyyətinin hərtərəfli olması vurğulanırdı. Qeyd etmək vacibdir ki, milli, dini və sosial mənşəyindən asılı olmayaraq, insanın vahid təbiətinin tanınması çox zaman əmək tərbiyəsinin gedişində üzə çıxarılmış və əsaslandırılmışdır. Buna görə də İntibah və Yeni dövrün bir çox sosial-fəlsəfi konsepsiyaları pedaqoji sistem və konsepsiyaların yaranmasının əsası oldu. Belə ki, XVIII əsrin humanisti, yazıçısı və siyasətçisi Tomas Morun utopik sosializmi (işgəncəli ölümünə görə XX əsrdə katolik kilsə tərəfindən şəhidlərin sırasına daxil edilmişdir) ümumi icbari təhsil və əmək tərbiyəsi konsepsiyasının meydana gəlməsinin əsası oldu. Bunun ardınca eyni ilə F. Bekonun sensualist fəlsəfəsi əyani təlimin əsasına çevrildi. Ayrı-ayrı sahələr üzrə fənlərin tədrisinə və tərbiyə sisteminin inkişafına imkan verən pedaqoji tədqiqatların aparılmasına, həmçinin pedaqoji ideyalar üçün təcrübəni yeganə mənbə elan etməyə imkan verən ən güclü stimul isə C.Lokkun əsərləri oldu. Alman alimi İmmanuel Kant şəxsiyyətin özünüdəyərləndirməsi prinsipini təsdiq etdi, təhsildə fəaliyyətin başlanğıcı ideyası isə Fridrix Şellinqinin əməyinin nəticəsi kimi meydana gəldi. H.Hegelin sayəsində pedaqogikada tarixçilik ideyası geniş yayılır. İstehsalat sahəsində əmək tərbiyəsi və politexnik təlim ideyası R. Ouenin yaradıcı təkanı sayəsində meydana çıxır. K.Marksın və F.Engelsin təlimləri isə keçmiş SSRİ-də bütün kommunist tərbiyə sisteminin əsasına çevrilir ki, bu da sosialist pedaqogikasının fəlsəfi əsaslarının yaranmasına gətirib çıxarmışdır.

Təlim-tərbiyə məsələləri həmişə rus mütəfəkkirlərinin də böyük marağına səbəb olmuşdur. XVI əsrdən etibarən Rusiyada təhsil müəssisələri üçün ilk proqramlar yaradılır, tədricən elmlər qruplara bölünür. XVIII yüzillikdə isə, maarifçilik islahatları mərhələsində Rusiyada dövlət məktəbləri yaradılır, peşə təhsilinin metodikası təşəkkül tapır. Bu işdə Peterburq Elmlər Akademiyasının və uşaqların təhsil və tərbiyəsinə yanaşmaların hazırlanmasında Moskva universitetinin (o cümlədən, onun faktiki yaradıcısı M.V. Lomonosovun) rolu çox böyük olmuşdur. XVIII yüzilliklərdə rus təhsilinin ən keyfiyyətli yaradıcılarından biri olan İ.İ. Beskovun rolunu da xüsusilə qeyd etmək lazımdır.

XIX əsrin sonu və XX əsrin əvvəlləri rus müəllimliyinin pedaqoji görüşlərinin çiçəklənd iyi dövrdür. Bu zaman Rusiyada fəlsəfi cəhətdən təhsil problemlərinin dərk olunmasına, o cümlədən mədəniyyətlərarası və dinlərarası qarşılıqlı təsir məsələlərinə həsr olunmuş, müəyyən mənada bir-birinə tənqidi və polemik münasibəti olan ən məhşur əsərlər meydana çıxır. Bu əsərlər sırasına L.N.Tolstoyun "Tərbiyə haqqında", N.A.Dobrolyubovun "Tərbiyədə nüfuzun əhəmiyyəti barədə", V.V. Rozanovun "Maarifçiliyin tənəzzülü" (6, 9, 10, 11) və bir çox başqalarının əsərlərini daxil etmək olar.

XIX əsr rus pedaqogikasının (baxmayaraq ki, dövlət dini olan provaslav dini ilə əlaqəsi mövcud idi) xarakterik xüsusiyyətləri dinlərarası dünyanı qorumaq və mühafizə etmək, eyni

zamanda müasir mədəniyyətin təməlinə diqqət yetirmək idi. XIX əsr Rusiya pedaqogikasının öz dini pedaqogikası ilə münasibətləri çox gərgin idi: hərçənd mədəniyyətin dini əsaslarına diqqət qorunub saxlanılsa da, dünyəvilik tendensiyalarına meyl bütün XIX yüzillik boyunca davam etmişdir.

XIX əsrin sonlarında Rusiyada provaslavlığa və Avropa humanist mədəniyyət ənənələrinə əsaslanan, əsas diqqəti mənəviyyata yönəlmiş tərbiyə sistemi formalaşır. Hərçənd SSRİ-də buna qadağalar olmasına baxmayaraq ənənəvi dəyərlərə qayıdış vasitəsilə mənəviyyatın dirçəlişi mövzusuna kifayət qədər tez-tez xarici rus mütəfəkkirlərinin əsərlərində rast gəlinir. Belə ki, praktiki olaraq Rusiyada tanınmayan İ.A. İlinin adı 1917-ci ildən sonralar Avropada və 80-90-cı illərə kimi xaricdə (xüsusilə rus emiqrantlar arasında) kifayət qədər tanınmışdır. Əsasən İ.A. İlin 7-8 yaşlı uşaqların tərbiyəsinə diqqət yetirmişdir, çünki bu yaşda onlar informasiyaları "süngər"("губка") kimi özlərinə çəkərək, ətraf aləmi məntiqi nəticə çıxarmadan dərk etməyə başlayırlar. Yalnız İ.A.İlinin deyil, hətta digər yazıçıların fikrincə də, (S.T.Aksakov "Nəvə-Baqrovun uşaqlıq illəri", İ.S.Şmelyov "Rəbbin yayı; bayramlar-sevinclər-kədərlər"), məhz bu yaşda uşaqlar mənəvi inkişaf üçün həssas olurlar. İlin qeyd edirdi ki, "məhz bu yaşlarda uşağı qorumaq, qorxu və cəzalarla əziyyət verməmək, "vaxtından əvvəl onlarda elementar və mənfi instinktlər oyatmamaq" lazımdır. Yalnız bu illəri mənəvi tərbiyə baxımından qaçırmaq yolverilməz və bağışlanmaz olardı. Elə etmək lazımdır ki, uşağın qəlbinə daha çox sevgi sualları, sevinc və İlahi mərhəməti daxil olsun. Bu zaman uşağı ərkəsöyün etməməli, şıltaqlıqlarına göz yummamalı, həddindən artıq əzizləyib, fiziki qayğılarla böğmamalı, əksinə İlahi həyatda olan hər şeyin, – günəş şüalarından tutmuş incə melodiyaya kimi, ürəkləri sıxan kədərdən gözəl kəpənəklərə, ilk dualardan tutmuş qəhrəmanlıq əfsanə və nağıllara kimi hər şeyin onu sevindirməsi, onun üçün xoş olmasının qayğısına qalınmalıdır" (7, s.158).

Onun fikrincə, heç bir şeyin uşaqlarda iz qoymadan keçməyəcəyinə, öz bəhrəsini verəcəyinə əmin ola bilərsiniz, çünki rus mədəniyyəti hiss və qəlb, düşüncə, vicdan və etiqad azadlığı üzərində qurulmuşdur. Bu isə, İ.A. İlinin fikrincə rus əqidəsini qidalandıran və rus ruhunu formalaşdıran ilk qüvvə, gücdür. Onun fikrincə, hiss və düşüncə xristianın özü üçün çox dəyərlidir, lakin o, iş fəaliyyəti tələb edən xarakter formalaşdırmır və həqiqi fikirlərin azadlıq hüquqları ilə qorunması ilə bağlıdır (vicdan və dualar). Xarakterin (fəaliyyətin başlanğıcının) tərbiyəsini İ.A. İlin rus xalqının yaxın və ən vacib vəzifəsi hesab edirdi.

Ədəbiyyat

1. Seyidov F.Ə. Qori seminariyası və onun məzunları. Bakı, Maarif, 1988.
2. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı, Maarif, 1985.
3. Talıbov Y.R. və b. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı, Ünsiyyət, 2000.
4. Rüstəmov F.A. Pedaqogika tarixi. Bakı, Ünsiyyət, 2014.
5. Бутов А.Ю., Фоменко А.В. Проблема толерантности в контексте социокультурной адаптации // Теоретико-методологические аспекты организации диалога культур в образовательной среде. Сборник научных трудов / Сост. Д.В. Поль, Т.Г. Мельник, Э.И. Иванова, И.Л. Масандулова. - М.; ИХО РАО, 2009. -с.16-25.
6. Добролюбов Н.А. О значении авторитетов в воспитании // Педагогические сочинения. - М., 1999. -с.136-137.
7. Ильин И.А. Собрание сочинений в 10 т.Т. 1 / Сост., вступ. ст. и коммент. Ю.А. Лисицы. -М.,1996.-с.158.
8. Касьянова Е.И. Социально-философские основания толерантности; Автореф. дисс….. доктора философ. наук. - Чита, 2009. -45с.
9. Розанов В.В Сумерки просвещения.- М.; Педагогика, 1990. -624 с.
10. Тольстой Л.Н. В чем моя вера? Сб. статей / Сост., вступ. ст. коммент. Б.Ф. Сушкова.- Тула: Приок. кн. изд-во, 1989. -303 с.
11. Тольстой Л.Н. Педагогические сочинения. / Сост. и авт. вступ. ст. Н.В. Вейкшан (Кудрявая). – М.: Педагогика, 1989. -544 с.

С.А.Курбанова

Толерантность исторический социально-педагогическая проблема

Резюме

В статье определено, что одной из наиболее сложных педагогических проблем является формирование основ толерантности у младшеклассников. Его решение, в дополнение к опыту, накопленному педагогикой в области воспитания толерантности детей и молодежи, также предусматривает потенциал человеческого философского мышления в качестве ключевого организационного принципа в понимании историческо-культурного и социокультурного контекста для формирования основ толерантности.

Именно в этом возрасте дети становятся чувствительными для духовного развития, именно в этом возрасте необходимо ребенка защищать, не истязять его страхом и наказаниями, «не побуждать у них раньше времени элементарные и негативные инстинкты». Эти годы было бы недопустимо и непростительно пропустить только с точки зрения духовного воспитания.

S.A.Gurbanova

Tolerance is a historical socio-pedagogical problem

Summary

In article has been noted, that one of the most difficult pedagogical problems is the formation of the basics of tolerance in schoolchildren. The solution, in addition to the experience gained by pedagogy in child and youth tolerance, also envisions the potential of human philosophical thinking as a key organizational principle in understanding the historical, cultural and social cultural context for the formation of the basics of tolerance.

It is at this age that children become vulnerable to spiritual development. It is the age of the year that it is necessary to protect a child at this age, not to suffer with fears and punishments, "not to instill in them elementary and negative instincts". It would be inadmissible and unforgivable to miss these years in terms of spiritual upbringing alone.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 30.11.2021

N.B.SALMANOVA
professor

S.Q.QARAYEVA
dosent

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., Fətəli xan Xoyski pr., 98)

İDMAN TURİZMİNDƏ PEDAQOJİ-HƏKİM NƏZARƏTİNİN ƏSASLARI

Açar sözlər: *təlim-məşq prosesi, fiziki yük, pedaqoji-həkim nəzarəti, kompleks dispanserizasiya, həkim müayinəsi, fizioloji və laborator tədqiqatlar*

Ключевые слова: *учебно-тренировочный процесс, физическая нагрузка, врачебно-педагогический контроль, комплексная диспансеризация, врачебный осмотр, физиологические и лабораторные исследования*

Key words: *training coaching process, physical load, pedagogical-medical supervision, complex dispensary, examination by a doctor, physiological and laboratory reseadi*

İdman turizmi – xüsusi idman yürüşlərinin, yəni təbii şəraitdə müxtəlif çətinlik dərəcəli maneələr üzrə yarışmaların istinad etdiyi, insanların fiziki-idman fəaliyyətinin özünəməxsus fəal növüdür. Bu istirahət günü yürüşlərindən ən yüksək dərəcəli, mürəkkəb səyahətlərədək çox geniş proqramla səciyyələnir.

İdman turizmi digər idman növlərindən özünəməxsus xüsusiyyətlərinə və hər şeydən əvvəl, kütləviliyinə görə fərqlənir. Belə kütləviliyi turizmin tanınması və intellektual cəlbediciliyi ilə yanaşı, onun vacibliyinin dərk olunması ilə izah etmək olar.

İdman turizminin digər əsas xüsusiyyətlərindən biri də onun mümkün olmasıdır. Bir çox idman növlərinin əsasını insan tərəfindən müəyyən vaxt kəsiyində tətbiq olunan, məşhur "daha cəld, daha yüksək, daha güclü" prinsipinə cavab verən qüvvə təşkil edir. Buna görə də orqanizmin fiziki imkanlarının təkmilləşdirilməsi idmanda yüksək müvəffəqiyyətlərə nail olmanın əvəzolunmaz şərtidir. Verilən fiziki yükün öhdəsindən gəlmək üçün idmançı lazımi səviyyədə hazır olmadıqda, həddən artıq yüklənmə müşahidə edilir, bu da orqanizmə mənfi təsirlər göstərə bilir. Çünki həddən artıq fiziki yük orqanizmin imkanlarından artıq olur. İdman turizmində, baxmayaraq ki, fiziki yük mürəkkəbliyinə görə çox yüksək olur, ümumilikdə götürüldükdə güc daxilindədir. Çünki o vaxta görə məhdudlaşdırılmır, əksinə, hətta çox vaxt müddətinə paylaşdırılır.

İdmançı turistin hazırlanması, məşq prosesi, yarış fəaliyyəti müəyyən nəzəriyyə və metodikaya əsaslanır. Bunlara yiyələnmədən idman turizmində müvəffəqiyyət əldə etmək qeyri-mümkündür. Bundan başqa, məşqçi fiziki yükün məşğul olanların orqanizmə təsirini daima nəzarətdə saxlamalı, pedqoji-həkim nəzarətinin üsulları vasitəsilə qiymətləndirməni bacarmalıdır.

Məşq zamanı orqanizmin müxtəlif sistemlərində bir sıra dəyişikliklər baş verir, bu dəyişikliklər insan orqanizminin yüksək adaptasiya qabiliyyətinə malik olduğunu göstərir. Ona görə də bu dəyişiklikləri öyrənməklə biz idmançının məşq səviyyəsini və fiziki işgüzarlıq qabiliyyətini müşahidə edərək qiymətləndirə bilərik. (1, s.4)

Pedaqoji-həkim nəzarəti təlim-məşq prosesində fiziki yükün məşğul olanların orqanizminə təsirini qiymətləndirmək üçün həkim və məşqçinin birlikdə apardığı tədqiqatdır. Pedaqoji həkim nəzarətinin əsas məqsədi idmançıların sağlamlığını qorumaqla yüksək idman nəticələrinə nail olmaqdır.

Pedaqoji-həkim nəzarətinin vəzifələrinə aşağıdakılar daxildir:

1. Məşq prosesinin müxtəlif mərhələlərində idmançıların sağlamlıq səviyyəsinin və orqanizminin funksional vəziyyətinin qiymətləndirilməsi.

2. Məşq prosesinin planlaşdırılmasının və fərdi planlaşdırmanın təkmilləşdirilməsi.

3. Gərgin fiziki yükdən sonra idmançının bərpası üçün tətbiq olunan pedaqoji, psixoloji, tibbi metod və vasitələrin səmərəliliyinin qiymətləndirilməsi.

4. Məşq prosesində fiziki yükün idmançının hazırlıq səviyyəsinə uyğunluğunun qiymətləndirilməsi.

5. Təlim-məşqlərin təşkili və keçirilməsi üçün şəraitin qiymətləndirilməsi.

6. İdmançıların hazırlıq səviyyəsinin qiymətləndirilməsi.

Pedaqoji-həkim nəzarətinin vəzifələri konkret və məqsədə müvafiq olmalıdır. Bu vəzifələri məşqçi və həkim qarşıya qoyur. Nəzərə alsaq ki, həkim hər zaman nəzarətdə iştirak edə bilmir, buna görə də məşqçi sadə tibbi tədqiqat metodlarını tətbiq etmək bacarığına malik olmalıdır.

Pedaqoji-həkim nəzarətinin özünəməxsus formaları var:

1.Operativ nəzarət – məşqlərin səmərəliliyini tez qiymətləndirmə. Məşq prosesində və ona yaxın bərpa müddətində idmançının orqanizmində baş verən dəyişikliklərin qiymətləndirilməsi. Operativ nəzarət təlim-məşğələlərində aparılır. Tədqiqat məşqdən əvvəl, məşq müddətində, məşqdən sonra keçirilə bilər.

2.Cari nəzarət - bərpanın müxtəlif anlarında (məşqdən bir gün sonra və ondan sonrakı gün) məşqlərin səmərəliliyini qiymətləndirmə. Cari nəzarət, əsasən, təlim-məşq toplanışları zamanı keçirilir. Tədqiqat müəyyən vaxtlarda aparılır:

*hər gün səhər təlim-məşq toplanışlarında;

*hər gün səhər və axşam mikrosilsilədə;

*mikrosilsilənin əvvəlində və sonunda;

*məşqdən sonrakı gün;

*istirahət günündən sonra.

3.Mərhələli nəzarət- illik məşq prosesinin müəyyən dövrlərində məşqlərin səmərəliliyini qiymətləndirmə. Bu hazırlıq, yarış və bərpa dövrlərində keçirilir. Mərhələli nəzarət, əsasən, hər 3 aydan bir idman-tibbi dispanserdə keçirilir. Sözsüz ki, burada əvvəlcədən qarşıya qoyulmuş vəzifələri həll etmək üçün müəyyən tədqiqatlar aparılır.

İdmançı-turistlər məşq prosesində böyük həcmli məşq yükünü yerinə yetirirlər. Belə məşğələlərdə pedaqoji-həkim nəzarəti xüsusi əhəmiyyət kəsb edir. İdman turizmində pedaqoji-həkim nəzarətinə aşağıdakılar aiddir:

1. Mərhələlər üzrə məşq yükünün koordinasiya və uçotu.

2. Ümumi və xüsusi fiziki hazırlığın normativlər üzrə yoxlanılması.

3. Həkim nəzarəti.

4. Gündəlik pedaqoji-həkim nəzarəti.

5. Özünənəzarət.

Hər bir mərhələdən və dövrdən əvvəl məşq yükünün həcmi və həftəlik silsilələr üzrə intensivliyi müəyyən edilməlidir. Bunun üçün müəyyən üsullar tətbiq olunur. Məşğələlərə nəzarətin ən yaxşı üsulu məşq jurnalında və idmançıların öz gündəliyində məşq yükünün uçota alınmasıdır. Jurnala idmançı tərəfindən yerinə yetirilən məşq yükünün məzmunu və xarakteri yazılır. Qeydiyyat elə aparılmalıdır ki, onun əsasında məşq yükünün həcmini, intensivliyini müəyyən etmək mümkün olsun. Qaçış üzrə məşğələlərdə jurnala məşq yükünün ümumi həcmi, onun məzmunu, həmçinin qaçışın kilometrajı yazılır. Maneələrin dəf edilməsi məşğələlərində jurnalda hazırlayıcı hissədə müəyyən maneələrin dəf olunması texnikasının elementləri üzrə hazırlığa sərf olunan vaxt, əsas hərəkətlərin xarakteri, icranın səmərəliliyi qeyd olunur.

Həkim nəzarəti il ərzində 2-3 dəfə aparılır. Həkim nəzarətinin əsas forması həkim müayinəsidir. Onun məzmununa daxildir: kompleks dispanserizasiya, həkim müayinəsi, fizioloji və laborator tədqiqatlar.

İlk yoxlama hazırlıq dövrünün əvvəlində aparılır. İkinci yoxlamanı yarış dövrünün birinci mərhələsində, üçüncü yoxlamanı isə keçid dövründə aparmaq məsləhət görülür.

Həkim nəzarətinin digər formalarına aiddir: məşq prosesində pedaqoji-həkim müşahidələri, məşğələ yerlərinə və şəraitə sanitar-gigiyenik nəzarət, idman zədələnmələri və xəstəliklər haqqında məlumatlandırılma.

Həkim müayinəsi laborator şəraitdə və idman fəaliyyəti şəraitində aparılır. Laboratoriya şəraitində aparılan kompleks həkim müayinəsinin metodlarına aidir:

*ümumqəbul olunmuş metodlar kompleksi – ümumi və idman təhlilləri;

*fiziki inkişafın təyini;

*sistem və orqanların fizioloji müayinəsi;

* qanın və sidiyin kiliniki analizi;

*elektrokardioqrafiya, döş qəfəsinin rentgeni, ürəyin rentgenokimoqrafiyası;

* əlavə instrumental metodlar.

İdman fəaliyyəti şəraitində bir neçə metoddan istifadə olunur:

*nəbz vurğularının, tənəffüsün, arterial təzyiqin, dinamometriya, spirometriya göstəricilərinə əsasən məşğələlərin orqanizmə təsirinin təyini;

*bədənin çəkisi və əlavə instrumental metodlar;

*nəbz vurğuları və tənəffüs sıxlığı göstəricilərindən istifadə etməklə təkrar yüklə yoxlamalar;

*arterial təzyiqin təyini;

*yorğunluğun xarici əlamətlərinin qeyd olunması;

*işgörmə qabiliyyəti göstəricilərinin uçotu;

*subyektiv hal göstəricilərinin uçotu;

*əlavə instrumental metodlar.

Məşqçi nəbz vurğularını, arterial təzyiqi, tənəffüsün tezliyini sadə üsullarla təyin etməyi bacarmalıdır.

Nəbz vurğularını bədənin müxtəlif sahələrində ölçmək mümkündür. Biləngdə nəbz vurğuları işarət, orta və adsız barmaqların ucu ilə təyin olunur. Biləng 15 saniyə ərzində sıxılır, vurğular sayılır və rəqəm 4-ə vurulur. Beləliklə, 1 dəqiqə ərzindəki nəbz vurğularının sayı təyin olunur.

Yuxu arteriyasında nəbz vurğuları işarət və orta barmaqların ucu ilə təyin olunur. Yuxu arteriyası 15 saniyə ərzində sıxılır, vurğular sayılır və rəqəm 4-ə vurulur. Beləliklə, 1 dəqiqə ərzindəki nəbz vurğularının sayı təyin olunur

Gicgah nahiyəsində nəbz vurğuları işarət və orta barmaqların ucu ilə təyin olunur. Gicgah nahiyəsi 15 saniyə ərzində sıxılır, vurğular sayılr və rəqəm 4-ə vurulur. Beləliklə, 1 dəqiqə ərzindəki nəbz vurğularının sayı təyin olunur.

Məşq zamanı nəbzölçəndən istifadə ürəyin fəaliyyətini müntəzəm olaraq nəzarətdə saxlamağa imkan verir. (2, səh.200) Nəbzölçən kiçik cihaz olub, fiziki yük zamanı nəbzin ölçülməsi üçün istifadə olunur.

Nəbz vurğularının müxtəlif şəraitlərdə sayına görə idmançının vegetativ sinir sisteminin vəziyyəti haqqında mühakimə yürütmək olar. Ayaqüstü vəziyyətdə, əsasən, nəbz dəqiqədə 6-18 vurğu artır. Dəqiqədə bu vurğunun 18-dən çox artması vegetativ sinir sisteminin simpatik şöbəsinin tonusunun artması əsasında meydana çıxır. Bu isə məşq rejiminə düzgün əməl olunmamasını göstərir. Nəbz vurğularının sayına görə nəzarəti məşqdə istirahət intervallarında və məşqin sonunda aparmaq olar.

Arterial təzyiqin ölçülməsi üçün xüsusi cihazlardan istifadə olunur:

Tonometr – (sfiqmomanometr) – qan təzyiqini ölçmək üçün cihazdır. Tonometr üç əsas hissədən ibarətdir: "manjet" adlanan xüsusi hava yastığına havanı təchizat edən cihaz (mexaniki və ya avtomatik), qol üzərinə taxılan manjet, manometr – manjetdə yaranan təzyiqin ölçməsi üçün cihaz (mexaniki və ya rəqəmsal).

Mexaniki tonometrlərdə əlavə olaraq stetoskop (stethoscope) cihazı da istifadə olunur. Lakin avtomatik və yarım avtomatik tonometrlərdə stetoskopun funksiyasını elektron cihaz yerinə yetirir. Bütün lazım olan məlumat (rəqəmlər) ekranda qeyd olunur.

Təzyiq ölçmə dəqiqliyi manjetdə olan havanın azaltma sürətindən asılıdır. Həmin sürət nə qədər aşağı olsa, ölçmə o qədər dəqiq olacaq.

Təzyiqin ölçməsi rahat və sakit şəraitdə aparılmalıdır.

Arterial təzyiqin ölçülməsi üçün aşağıdakı şərtlərə riayət olunması əhəmiyyət kəsb edir.

1. İdmançının aldığı vəziyyət:

- rahat oturmalı;
- qol stola təsbitlənməli;
- manjet dirsək qatlanmasından 2 sm yuxarıda ürək səviyyəsində olmalıdır.

2.Şərait:

- müayinədən 1 saat əvvəl çay, kofe içmək olmaz;
- 15 dəqiqə ərzində qazlı içkilər qəbul etmək olmaz;
- burun və göz damcıları qəbul etmək olmaz;
- 5 dəqiqə istirahərdən sonra ölçməli.

3.Təchizat:

- müvafiq formada manjet seçilməlidir;
- tonometrlər 6 aydan bir yoxlanılmalıdır;
- ölçmədən qabaq göstərici sıfırda olmalıdır.

4. Ölçmənin sayı:

- AT səviyyəsini qiymətləndirmək üçün ən azı 2-3 dəfə ölçmə əməliyyatını təkrarlamaq lazımdır;
- xəstəliyin diaqnozu üçün ən azı 1 həftə ara verməklə heç olmazsa 3 dəfə ölçmə aparmaq lazımdır.

5. Ölçmənin texnikası:

- manjeti mil arteriyasında nəbzin yox olmasından 20 mm c.süt. yuxarı təzyiq səviyyəsinə qədər tez hava doldurmaq;
- manjetə təzyiqi 1 san.2-3 mm c.süt.sürəti aşağı salmaq;
- 1-ci ton yaranan təzyiq səviyyəsi sistolik AT-ə uyğun gəlir;
- tonların yox olduğu təzyiq səviyyəsi diastolik təzyiq kimi qəbul edilir;
- tonlar çox zəifləyirsə, qolu qaldırıb bir-neçə dəfə büküb açmaq, sonra ölçməni təkrar etmək lazımdır;
- əvvəlcə hər iki qolda təzyiq ölçülməlidir;
- sonralar AT yüksək olduğu zamanlarda ölçmə aparılmalıdır.

Arterial təzyiqin göstəricilərinə əsasən məşq yükünün intensivliyi və onun orqanizmə təsiri haqqında mühakimə yürütmək olar:

*təzyiqin 180-200-ə qədər artması maksimal intensivli fiziki yüklə əsaslandırılır;

*təzyiqin 140-170-ə qədər artması orta intensivli fiziki yüklə mütənasibdir;

*təzyiqin 130-a qədər artması minimal intensivli fiziki yükün iğrası nəticəsində baş verir.

Tənəffüsün tezliyini təyin etmək üçün çox sadə metod tətbiq olunur. Tənəffüsün tezliyi sakit vaxtda, məşq zamanı və məşqdən sonra ölçülür. Fiziki yükün icrası nəticəsində tənəffüsün tezliyi dəqiqədə 30-60 və daha çox arta bilər. Əgər minimal intensivli fiziki yükdən sonra

tənəffüs tezliyində həddən artıq artım olarsa, bu xarici tənəffüsün funksiyasında problemin olması ilə əlaqələndirilir.

Ağ ciyərlərin həyat tutumu məşqdən əvvəl, məşq prosesində və məşqdən sonra ölçülür. Minimal intensivli məşq yükündən sonra AHT dəyişməyə və ya hətta arta da bilər. Maksimal intensivli fiziki yükdən sonra AHT 300-500ml azala bilər.

Beləliklə, hər bir məşqçi təlim-məşq prosesinin səmərəliliyinin artırılması üçün verilən fiziki yükdən sonra, idmançı turistin orqanizmində baş veren dəyişiklikləri nəzarətdə saxlamalı və müvəffəqiyyət əldə etmək üçün müxtəlif üsullarla funksional göstəriciləri qiymətləndirməyi bacarmalıdır.

Ədəbiyyat

1. Quliyev Y., Məmmədova G. Yüksək dərəcəli idmançıların hazırlığının fizioloji xüsusiyyətləri. “Müəllim” nəş., Bakı, 2014

2. Əbiyev T.Q., Ağayeva M.S., Əliyeva M.E. İdmanın texniki vasitələri. “Müəllim”, Bakı, 2012

3. Граевская Н.Д., Долматова Т.И. Основы врачебно-педагогического контроля. М., Советский спорт, 2004

Н.Б.Салманова, С.Г.Караева

Основы педагогика-врачебного контроля в спортивном туризме

Резюме

Подготовка спортсмена – туриста, тренировочный процесс, соревновательная деятельность основывается определенной теории и методике. Не усваивая этого невозможно достичь успеха в спортивном туризме. Кроме этого тренер всегда должен держать под контролем влияние на организм физической нагрузки и оценивать с помощью методов врачебно-педагогического контролья. Врачебно-педагогический контроль – это совместное исследование врача и тренера для оценки влияния физической нагрузки на организм занимающихся в учебно-тренировочном процессе. Основная цель врачебно-педагогического контроля - это достижение высоких спортивных результатов с сохранением здоровья спортсменов.

N.B.Salmanova, S.G.Garayeva

Basics of pedagogical-medical control in sports tourism

Summary

Athlete tourist training, training process. Competition activity is based on certain theory and methodology. İt is impossible to succeed in sports tourism without mastering them in addition, the trainer must coustanly monitor the impact of physical activity activity oon the body of those involved. Must be able to assess the methods of pedagogical medical supervision. The influence of fizical load on the organizm is invaluted was by acouch and a doctor during the training process of pedagogical and medical supervision the main goals at the pedagogical and medical supervision is to protect the health of sportsmen with high sports result.

Rəyçi: ped.f.d., dos. Y.B.Səmədov

Redaksiyaya daxil olub: 13.10.2021

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

C.V.DADAŞOV
pedaqogika üzrə fəlsəfə doktoru

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec
(Bakı şəh., İnşaatçılar pr., 45 (11))

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN FİZİKİ TƏRBİYƏSİNDƏ MƏKTƏB VƏ AİLƏNİN BİRGƏ FƏALİYYƏTİ

Açar sözlər: *şagirdlərin fiziki inkişafı, uşaqlar, məktəb, ailə, valideynlər*
Ключевые слова: *физическое развитие школьников, дети, школа, семья, родители*
Key words: *physical development of school children, children, school, family, parents*

Dövlət və hökumət vətəndaşların rifahı naminə bədən tərbiyəsi və idmanın inkişafına daim qayğı göstərir. Bədən tərbiyəsi və idman uşaqların ahəngdar inkişafı üçün mühüm vasitələrdən biridir.

Məktəblilərin layiqli vətəndaşlar kimi böyüyüb boya-başa çatmasında, onların bədən tərbiyəsi və idmana cəlb edilməsində məktəblə yanaşı, valideynlərin də üzərinə mühüm vəzifələr düşür. C.V.Dadaşov öz tədqiqatında bu barədə yazır: "Məktəbin və ailənin birgə fəaliyyətində uğurlar qazanmaq üçün valideynlər arasında aparılan pedaqoji təbliğat böyük rola malikdir". (2, s.115)

Ailə tərbiyəsi təkcə valideynlərin şəxsi təcrübəsi və yaşlı nəsillərin ənənələri üzərində qurula bilməz. Şəxsiyyətin formalaşmasında ailənin tərbiyəvi təsirinin səmərəliliyi ata-anaların ümumi və pedoqoji mədəniyyətinin səviyyəsindən çox asılıdır.

E.A.Qordienko və Q.S.Yusupova şagirdlərin fiziki tərbiyəsində məktəb və ailənin birgə fəaliyyətindən danışarkən belə qənaətə gəlirlər ki, "Tərbiyənin düzgün və kifayət qədər səmərəli olması üçün valideynlər müvafiq pedaqoji hazırlığa malik olmalı, uşaqların tərbiyəsinin metodikasına yiyələnməlidirlər" (1, s. 34).

Professor Sərdar Quliyev yazır: "Cəmiyyətdə baş verən dəyişikliklərə ailə qədər həssas olan, ictimai-tarixi tərəqqinin müvəffəqiyyətlərini də, onun çətinlik və ziddiyyətlərini də ailə qədər əyani şəkildə əks etdirən ikinci bir sosial təsisat yoxdur" (4, s. 61).

Ümumtəhsil və peşə məktəbi islahatına dair sənədlərdə qeyd olunur ki, şagirdlərin tərbiyəsi üçün ailəyə yardım gücləndirilməli və eyni zamanda onun məsuliyyəti artırılmalıdır. Bununla belə, həmin vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsinin əsas ağırlığı müəllimin üzərinə düşür.

Müəllimlər dövlətin onların qarşısına qoyduğu vəzifələrin məsuliyyətini dərindən dərk edərək çalışmalıdırlar ki, şagirdlər təkcə biliklərin müəyyən qisminə yiyələnmiş bir şəxs kimi deyil, ilk növbədə, vətənimizin layiqli müdafiəçisi olmaq üçün fiziki cəhətdən hərtərəfli inkişaf etmiş vətəndaş kimi yetişsinlər. Əlbəttə, bütün bunlara nail olmaq üçün yalnız məktəbdə keçirilən bədən tərbiyəsi dərsləri və idman tədbirləri ilə kifayətlənmək olmaz. Şagirdlərin hamısının gündəlik bədən tərbiyəsi və sağlamlıq hərəkətlərinə cəlb edilməsi üçün valideynlərlə əlaqəli iş aparılmalı, vaxtaşırı şagirdlərin ailələri ilə, valideynlərlə fərdi söhbətlər aparılmalıdır. Onlara bədən tərbiyəsinin əhəmiyyətindən bəhs edərək aydınlaşdırmaq lazımdır ki, bədən tərbiyəsi və idmanla müntəzəm məşğul olanların orqanizmi hərtərəfli və ahəngdar

inkişaf edir. Hərəkətləri daha dəqiq, düzgün və inamlı olur, istehsalatda və hərbi xidmətdə tapşırılan vəzifələrin öhdəsindən layiqincə gələ bilirlər. Bununla yanaşı, valideynlərə izah olunmalıdır ki, tərbiyənin ilk addımları ailədən başlandığı kimi, uşağın əmək vərdişləri, əməyə məhəbbəti, bədən tərbiyəsi və idmana olan həvəsi də ailədə yaranır.

Şagirdlərin fiziki tərbiyəsinin inkişafında onların hərtərəfli və sağlam böyümələrində gün rejiminin böyük əhəmiyyəti vardır. Müəyyən edilmiş vaxtda yataqdan qalxmaq, dərsə hazırlaşmaq, bədən tərbiyəsi ilə məşğul olmaq, nahar etmək gün rejiminin mühüm elementlərindəndir.

Gün rejiminin sağlamlıq üçün əsas vasitələrdən biri olduğunu valideynlərə izah etmək və bunun təşkil olunmasında gərəkli məsləhətlər vermək lazımdır. Ona nail olmaq lazımdır ki, ailədə tərtib edilmiş gün rejimi məktəbdəki gün rejimindən fərqlənməsin, onun davamı olsun.

Şagirdlərin fiziki inkişafında, onların gümrah böyümələrində, iş qabiliyyətlərinin artmasında dərsə qədər səhər gimnastikasının böyük rol oynadığını nəzərə alaraq, onun valideynlər arasında təbliğinə xüsusi fikir verilməlidir. Bu məqsədlə məktəb radio qovşağının, valideynlərlə fərdi söhbətlərin imkanlarından geniş istifadə edilməlidir. Valideynlər səhər gimnastikasının əhəmiyyətini dərindən dərk etməli və övladlarını onunla müntəzəm məşğul olmağa təhrik etməlidirlər.

Məktəblərin bütün şagirdləri dərsə qədər səhər gimnastikasına cəlb olunmalıdırlar. Bunun üçün məktəblərdə xüsusi sahə ayrılmalıdır.

Şagirdlərin fiziki inkişafı gigiyena ilə də sıx əlaqədardır. Belə ki, xarici mühit onların fiziki inkişafında mühüm rol oynayır. Şəxsi gigiyena qaydalarına riayət etmədikdə tez-tez xəstələnmə halları baş verir, orqanizm zəifləyir və inkişafdan qalır. Bu baxımdan gigiyenanın əhəmiyyəti haqqında da valideynlərlə söhbətlər aparılmalıdır. Çalışmaq lazımdır ki, ailədə hər bir gigiyenik qayda vərdiş halına keçsin, şəxsi gigiyena məsələsinə dair uşaqlara məsləhətlər verilsin. Valideynlərə tövsiyə edilməlidir ki, hər gün səhər uşaqları dişlərini yumağa məcbur etsinlər, bunun vərdiş halına salınmasına nail olsunlar. Saç və başın dərisi həftədə bir-iki dəfə müntəzəm yuyulmalıdır. Hər gün yuxudan əvvəl ayaqlar yuyulmalı və corablar tez-tez dəyişdirilməlidir. Təcrübələr göstərir ki, bir çox valideynlərin belə məsləhətlərə ehtiyacı vardır.

Şagirdlərin fiziki inkişafında və sağlamlığında geyim də mühüm rol oynayır. Çox vaxt uşaqlar evdə və yaşayış məhəllələrində idmanla kostyum və hündür daban ayaqqabıda məşğul olurlar ki, bu da zərərlidir. İpək və ya süni liflərdən hazırlanmış kostyum və yaxud köynəklər normal dəri tənəffüsünə imkan vermir və tərləməyə səbəb olur. Bu zaman isə soyuqdəymə üçün şərait yaranır.

Şagirdlərin ailədə fiziki tərbiyəsinin yüksək səviyyədə təşkili və fiziki inkişafı üçün onların düzgün qidalanmasının da böyük rolu vardır. Məhz bu məsələdən danışarkən valideynlərə izah edilməlidir ki, uşaqların qəbul etdikləri qidanın tərkibində hər cür üzvi maddələr olmalıdır. Adətən uşaq orqanizmində hər 3-4 saatdan bir qidalanmaya ehtiyac yaranır. Bu vaxt mədə şirəsi ifraz olunur və uşağın iştahası artır. Vaxtlı-vaxtında rejimlə qidalanmaq sağlamlıq üçün əsas şərtlərdən biridir. Rejimlə qidalanmayanlarda iştaha pozulur. Bu hal uzun müddət davam etdikdə uşaqlar xəstələnirlər. Həddindən artıq yemək isə piylənmə xəstəliyi ilə nəticələnə bilir. Valideynlərə verilən belə məsləhətlərin nəticəsi o olur ki, onlar öz övladlarının gün rejimi ilə böyüməsinə, qidalanmasına ciddi fikir verməyə başlayırlar.

Şagirdlərin fiziki tərbiyəsinin inkişafında, xüsusilə, ailədə fiziki tərbiyənin təşkilində oyun mühüm rol oynayır. Ona görə ki, uşaq əmək vərdişlərini oyun vasitəsilə mənimsəyir. Eyni zamanda müstəqil fiziki hərəkətlərlə öz idman hazırlığını artırmış olur. Məhz buna görə də oyunlar məktəblilərin gün rejimində əsas sağlamlıq tədbirlərindən biri sayılır. Elə bir oyun tapmaq olmaz ki, uşaqdan hərəkət, müəyyən fiziki və zehni səy tələb etməsin. Valideynlərlə söhbət zamanı onlara məsləhət görülməlidir ki, uşağın oyunla məşğul olmasına təkcə əyləncə vasitəsi kimi yox, ciddi bir iş kimi yanaşsınlar. Uşaq oynadıqda boş yerə atılıb düşmür, kiçik

də olsa, qarşısına müəyyən bir məqsəd qoyur. Lunaçarskinin oyun haqqında dediyi sözləri nəzərinizə çatdırıram:

"Uşaq üçün hər bir oyun ciddi xarakter daşıyır, çünki o, oynayarkən yaşayır. O, yalnız oynayarkən öyrənir, ruhən və cismən böyüyür." (5, s.117-119) Mən eyni zamanda ata-analara topla olan oyunlara daha çox fikir vermələrini tövsiyə edirəm. Çünki belə oyunlar zamanı uşaqlarda davamlılıq və müvazinət kimi keyfiyyətlər inkişaf edir. Ata-analara məsləhət görürəm ki, oyun zamanı özləri uşaqlarla bərabər oyunlarda fəal iştirak etsinlər. Bu, uşaqlarda şən əhval-ruhiyyə yaradır.

Uşaqların fiziki inkişafında oyunlarla yanaşı, velosiped sürmək və üzməyin böyük rol oynadığını diqqətə çatdırıram. Çünki velosiped idmanı və üzgüçülük uşaqlarda əzələlərin möhkəmlənməsində, müvazinətin inkişafında, hərəkətlərdə uyğunluğun əmələ gəlməsində, fəqərə sütununun hərəkiliyində xüsusi əhəmiyyət kəsb edir.

Mütəfəkkirlər insanın həyatında, sağlamlığının qorunub saxlanılmasında, orqanizminin möhkəmləndirilməsində fiziki tərbiyə vasitələrin (təbii amillərin) rolunu yüksək qiymətləndirmişlər. Bu xüsusda dahi alim və loğman Əbu Əli İbn Sina yazmışdır:

İdmana yaxşıca olsan aşina,
Çatarsan fərəhlə sən yüz yaşına.
Bəlkə, daha çox yaşayarsan, bil,
Həb və toz dərdinə dərman deyil.
Bütün dərdlərinə bax budur dava:
Təbiət – su, Günəş və təmiz hava (3, s. 373).

Ailədə şagirdlərin fiziki tərbiyəsinin təşkilində təbii amillərdən də düzgün istifadəyə xüsusi fikir verilməlidir. Valideynlər bilməlidirlər ki, təbii amillərlə orqanizmi möhkəmlətmək ən sadə üsuldur. Təbii amillərə su, hava və günəş vannaları daxildir. Təbii amillərlə möhkəmlənmiş orqanizm soyuğa davamlı olur, bronxit, sətəlcəm, qrip, habelə soyuqdəymə ilə əlaqədar digər xəstəliklərə qarşı müqaviməti artır, uşaq həmişə sağlam və gümrah olur.

İdman bölmələrinə şagirdlərin qəbulu zamanı valideynlərlə əlaqə saxlanmalı və izah olunmalıdır ki, uşaqların yazdıqları ərizələrdə valideynlərin razılığı olsun.

Ədəbiyyat

1. Abbasov A.N. Şagirdlərin hüquq tərbiyəsi. Bakı: Maarif,1983, 96 s.
2. Dadaşov C.V. Yeniyetmələrdə fiziki mədəniyyətin formalaşdırılmasında məktəb və ailənin əlbir işi. Bakı, 2009, 146 s.
3. Həsənov A,M., Ağayev Ə.Ə. Pedaqogika: ali məktəblər üçün dərs vəsaiti. Bakı: Nasir, 2007.
4. Quliyev Ş.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb, ictimaiyyətin və əmək kollektivlərinin əlbir fəaliyyətinin nəzəri əsasları. Tbilisi, 1988, 342 s.
5. Луначарский А.В. Философия школы и революция // О воспитании и образовании. М., 1976. С. 117-119

Я.Б.Самедов, Дж.В.Дадашов

Совместная деятельность школы и семьи по физическому воспитанию школьников младших классов

Резюме

В статье рассматривается значение одежды, распорядка дня, здорового питания, природных факторов в физическом развитии, здоровье, полноценном и здоровом росте школьников. Принимая во внимание важность дошкольной утренней гимнастики в развитии работоспособности школьников, в статье также подробно разъясняется пропаганда данной проблемы среди родителей.

Исследованы научные ресурсы по теме. Мнения авторов прокомментированы.

Y.B.Samadov, J.V.Dadashov

Joint activities of school and family in physical education of primary school students

Summary

The article deals with importance of clothing, daily routine, healthy eating, natural factors in physical development, health, comprehensive and healthy growth of school children. Taking into consideration importance of preschool morning gymnastics in the development of school children's working ability, the article also explains thoroughly the propaganda of this issue among parents.

Scientific resources on the subject have been researched. The views of the authors have been commented.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 21.09.2021

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

R.A.ƏKBƏROV,
Y.B.MƏMMƏDOV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

FİZİKİ TƏRBİYƏNİN METODLARINA DAİR

Açar sözlər: *fiziki tərbiyə, metod, metodiki fənd, metodika, metodiki yanaşma, metodoloji istiqamət*
Ключевые слова: *физического воспитания, метод, методический прием, методика, методический подход, методическое направление*
Key words: *physical education, method, methodical trick, methodology, methodical approach, methodological direction*

Fiziki tərbiyənin tədrisi prosesində müəllim təlimin müxtəlif metodlarından, priyom və vasitələrindən istifadə edir. Ümumi mənada təlimin metodlarını müxtəlif şəkildə təsnif edir və tərif verirlər. Z.H.Rzayeva və Q.M.Cəfərov fiziki tərbiyədə təlimin metodlarını məşğul olanı bacarıqla, vərdişlə, xüsusi biliklə silahlandırmaq üçün müəllimin istifadə etdiyi üsul və yollara görə təsnif edirlər. Onlar üç qrup metodu təklif edirlər: əyani, sözlə və hərəkət fəaliyyətilə əlaqədar olan əməli iş. Onlar əməli işi fiziki tərbiyə prosesində əsas hesab edirlər (3, s.63).

Professor Akif Abbasovun ümumi anlamda təlimin metodlarına verdiyi tərif belədir: "Ümumi anlamda metod müəyyən məqsədə nail olmağa yönəlmiş fəaliyyət sistemidir" (1, s.130).

İlkin anlayışlar: "metod", "metodiki fənd", "metodika", "metodiki yanaşma", "metodoloji istiqamət".

Fiziki tərbiyə, fiziki məşğələarası tənəffüs və reabilitasiya prosesində tərbiyəvi – tədris məsələlərinin, fiziki inkişaf məsələlərinin həllində daha da məhsuldarlığa nail olmaq məqsədilə seçilmiş vasitələrin istifadə edilməsi üsulları müəllimin qarşısında duran əsas və mühüm məsələlərdən biridir. Bu axtarış hərəkət fəaliyyətinin mənimsənilməsinin, fiziki keyfiyyətlərin (bacarıqların) inkişaf etdirilməsinin və fərdi keyfiyyətlərin tərbiyə olunmasının effektiv metodlarının seçilməsi ilə əlaqədardır.

Metodların müxtəlif tərifləri mövcuddur. Çox vaxt "metod" anlayışını qoyulmuş pedaqoji məqsədə çatmaq yolu kimi; əvvəlcədən qoyulmuş və məlum olan məqsədə çatmaq üçün istifadə edilən müəyyən üsul kimi; qoyulmuş məsələlərin həllinə nail olmaq üçün müəllim və şagirdlər arasında qarşılıqlı əlaqənin üsulu kimi; müəyyən məsələlərin həlli üçün müəllimin fəaliyyətinin fənd və qaydalarının məcmusu kimi; müəyyən şəkildə qaydaya salınmış fəaliyyət, yəni qoyulmuş məqsədə müvafiq olan nəticənin əldə olunmasına gətirən məqsədyönlü hərəkətlər sistemi kimi; tədris materialının mənimsənilməsinin forması kimi müəyyən edirlər. "Metod" anlayışı kateqoriyasının bəzi fərqlərinə baxmayaraq, bu təyinlərin çoxuna xas olan ümumi mühüm əlamətləri müəyyən etmək olar:

1. Metodların hər birində subyektin məqsədyönlü nailiyyətini mümkün edən anlayışlı məqsədin olmasını təxmin edir, yəni o daim məqsədyönlüdür və fəaliyyətin müəyyən növünün planlaşdırılması və həyata keçirilməsi ilə xarakterizə edilir. Praktikada fəaliyyətin vasitəsi deyil, onun mənimsəmə texnologiyası gizlin saxlanılır.

2. Fəaliyyətin subyekti tərəfindən hərəkətlərin müəyyən edilmiş qayda və ardıcıllığının müəyyən məcmusunu daxil edən fəaliyyət prosesində qarşıya qoyulmuş məqsədə nail olunur.

3. Metodun öz mövzu məzmunu var. Bura məqsədə nail olmaq üçün insana lazım olan alət və vasitələr daxildir. Bu vasitələr intellektual, praktik və cisimli (predmetli) və s. Olmalıdır.

4. Hər bir metod hansısa obyektə təsir etmək üçün tətbiq olunur, ona görə də insan onun müvəffəqiyyətlə istifadə edilməsi üçün obyekt onun xüsusiyyətləri, hərəkətin təsiri altında onun istifadəsi haqqında məlumat əldə etməlidir.

Fiziki hərəkətlər zamanı təsirin obyekti və subyekti kimi şagirdin özü, onun müxtəlif tərəfləri: emosiyaları, iradəsi, intellekti, bədən quruluşu, fiziki keyfiyyətləri və s. çıxış edir.

5. Təlimin, tədrisin və şəxsin inkişaf etdirilməsinin qanunauyğunluqları metodlarda aşkarlanır. Onlar obyektiv şəkildə, insanların iradəsindən asılı olmayaraq təsir etdiklərinə görə, bu tanınmış qanunauyğunluqlar əsasında formalaşan metod müəyyən prosedurların, texnoloji fəndlərin, fəaliyyət üsullarının qurulmasının konstruktiv prinsipləri kimi çıxış edir.

6. Metodun istifadə edilməsi mütləq və qanunauyğun şəkildə qarşıda qoyulmuş məqsədə, yəni nəticənin əldə olunmasına gətirməlidir.

Daha bir xüsusiyyətə fikri yönəltmək olar. Bir qayda olaraq metod müəyyən tipə, sinfə aid olan məsələlərin həlli üçün istifadə olunur. Məsələn, tədris və ya təlim məsələlərinin.

Yuxarıda qeyd edilmiş fikirləri ümumiləşdirdikdə görürük ki, ümumi şəkildə "metod" anlayışı – qarşıda qoyulmuş məqsədə nail olmaq üçün hansısa vasitənin tətbiq edilməsi üsuludur, hansısa bir işin icra olunması üsuludur şəklində vermək olar.

Fiziki tərbiyə nəzəriyyəsində metod dedikdə müəyyən bir məşğələnin icra olunması və ya tətbiq edilməsi üsulunu (tez, ləng) və ya da məşğələnin icra olunma məqsədinə nail olmağı (keyfiyyətlərin inkişaf etdirilməsində, təlimdə, nəzarətdə və s.) təmin edən digər vasitələrin (söz) istifadə edilməsini başa düşürlər.

Fiziki tərbiyə müəllimin, idman məşqçisinin, sağlamlaşdırıcı fiziki tərbiyə və reakrasion iş üzrə təşkilatçı – pedaqoqun fəaliyyətində "metod" anlayışından əlavə "metodiki fənd" anlayışından da istifadə edilir.

Metodiki fənd dedikdə müəyyən pedaqoji vəziyyətdə bu və ya digər metodların reallaşdırma üsullarını nəzərdə tuturlar.

Fənd – pedaqoqun tək aktlı, vahid hərəkətlərini bildirən metodun tərkib hissəsidir. Hər metodun tərkibində müxtəlif metodiki fəndlər istifadə olunur. Buna görə də, bəzən metodları bir neçə fəndin məcmusu kimi qəbul edirlər. Digər tərəfdən, eyni metoddan istifadə edilsə də, onu müxtəlif fəndlərin hesabına reallaşdırmaq mümkündür.

Dosent Dilsuz Novruzov metodiki fəndə aşağıdakı şəkildə tərif verir: "İdmançının bu və ya digər hərəkəti və ya hərəkət kompleksini düzgün yerinə yetirilməsinə və ya tamlıqda onun yüksək idman nailiyyətlərinə çatması üçün məşqçinin göstərdiyi fəaliyyətə metodik fənd deyilir" (2, s.44).

Fiziki tərbiyə nəzəriyyəsində metodika anlayışı iki mənada istifadə edilir:

- Dar mənada – ayrı-ayrı məşğələlərə (qaçış, hoppanma, atma, dırmanma, üzmə və s.) müvəffəqiyyətə nail olmanı təmin edən müxtəlif metodların məcmusu;
- Geniş mənada – təkcə metod və fəndlərin cəmi şəklində deyil, eyni zamanda da məşğələlərin təşkili formasıdır (məktəbəqədər müəssisələrdə, məktəbdə, ali məktəbdə və s. – fiziki tərbiyə metodikası).

"Metodika" termini hansısa işin məqsədyönlü icra olunmasının vasitələrinin məcmusudur. Mümükünsə, metodikada vəzifənin həllinə aparan müəyyən hərəkətlərin (əməliyyatların) müəyyən bir ardıcıllıqla həyata keçirilməsi üçün dəqiq bir təlimat olmalıdır.

Metodika qanunauyğunluğu və kütləviliyi təmin etməlidir. Qanunauyğunluğa görə bu alqoritmdən istifadə edən hər bir şəxs düzgün nəticə əldə edə bilər.

Kütləviliyə görə isə, hazırlanmış qaydalar eyni tipli məsələlərin böyük həcminin həlli üçün istifadə oluna bilməsidir (məsələn, müxtəlif məşğələlərin köməyi ilə qüvvənin inkişaf etdirilməsi, müxtəlif fiziki hərəkət növlərində və s.).

Fiziki tərbiyənin tədrisi praktikasında müəllim yaradıcı, ixtisaslı, təcrübəli fəaliyyətini tələb edən eynitipli məsələlərin (müxtəlif idman növlərinə, kütləvi fiziki tərbiyə, ixtisas hazırlığına aid keyfiyyətlərin inkişaf etdirilməsi) çox sayda variantlarına rast gəlindiyinə görə,

metodika əsas qayda olaraq problemin həllinə aparan əsas əməliyyatlar sisteminin müəyyən bir qaydada yerinə yetirilməsi üçün bir təlimatı təqdim etməli və əməliyyatın əsas səbəb-nəticə əlaqələrinin və ehtimal olunan nəticələrinin göstəricisi olmalıdır. Bu qaydalar çərçivəsində müəllim prosesin detallarını dəqiqləşdirməli, məşğul olanların fərqli məqsədlərindən və fərdi xüsusiyyətlərindən asılı olaraq onu dəqiqləşdirməlidir. Bununla da insan adlanan və özünü tənzimləyən və ehtimal olunan bir sistemin idarəetmə prosesini müəyyən edən keyfiyyətlərin inkişaf etdirilməsi metodikası, qanunauyğun sistemlər üçün qəbul edilmiş texniki və ya riyazi problemlərinin həlli üzrə alqoritmlərdən fərqlənir.

Müxtəlif fiziki keyfiyyətlərin inkişafı prosesində olan ümumi cəhətlər var – oxşar əməliyyatların müəyyən ardıcıllıqla icra olunmasının labüd olması. Bu da fiziki keyfiyyətlərin tərbiyəsinin pedaqoji prosesinin strukturunu – fiziki keyfiyyətlərin tərbiyəsi prosesinin qurulmasının ümumi qaydalarının ayırd edilməsini məqsədəuyğun edir.

Fiziki tərbiyənin müxtəlif formalarının prosesində (ümumi fiziki hazırlıq qrupları, sağlamlıq qrupları, idman bölmələri və s.) fiziki keyfiyyətlərin inkişaf etdirilməsində hərəkətlərin ardıcıllığının prinsipial sxeminə (strukturuna) daxildir:

1. Məqsədin qoyulması. Hər bir insanda hansı keyfiyyətinin inkişaf etdirilməsi, onun keyfiyyətlərinin inkişaf səviyyəsini, ehtiyac növünü (fiziki tərbiyə, sağlamlaşdırıcı) ölçməklə və müəyyən bir fəaliyyət növündə (fiziki tərbiyə, məişət, sağlamlaşdırıcı) və ya məşğələdə (keyfiyyət və bacarıqların ötürülməsi fenomenini nəzərə almaqla, səviyyənin təyin edilməsilə – maksimum, kiçik məktəb yaşlı, peşəkar – zəruri) tətbiq olunmasından asılı olaraq qərar verilir.

2. Seçilmiş məqsədə uyğun olaraq müvafiq məşğələlərin seçimi aparılır, onların orqanizmə inkişafetdirici təsirini şərtləndirən əlamətlərin nəzərə alınması ilə onların əsas əlamətləri və formaları (akrabatik hərəkətlər, çömbəlmələr, hoppanma hərəkətləri və s.) müəyyən edilir.

3. Hər bir tapşırığın müvafiq icraetmə üsulu müəyyən edilir: ağırlaşdırmanın qiyməti, sürət, müddət və s.

4. Bundan sonra ayrı-ayrı tapşırıqların təkrarlanmalarının və məşğələ (dərs) dövründə onların ardıcıllığının optimal üsulu seçilir. Əvvəlki məşğələdən sonra fasilənin hansı dövründə aparılmasından asılı olaraq təkrarlamaların üsulunun (rejimi) seçilməsinin əsas şərtidir. Uzunmüddətli məşğələlərdən sonra əzələnin iş qabiliyyətinin səviyyəsi ilə səciyyələnən fasilənin üç mərhələsini ayırd edirlər – natamam bərpaolunma, iş qabiliyyətinin həddən artıq bərpa olunması, işdən əvvəlki səviyyəyə qayıtma.

Qısamüddətli hərəkətlərdən (akrabatik hərəkətlər, hoppanma, jim və s.) sonra ilk mərhələ – natamam bərpaolunma, qeyri-sabit şəkildə aşkarlanar və qısa müddət sürər (10-30 san).

Hərəkətlərin təkrarlanmasının müvafiq olaraq üç əsas üsulundan – fasiləsiz, fasiləli və təkrar hərəkət metodundan istifadə edilir.

Fasiləsiz hərəkətlər, demək olar ki, ara fasilələri olmadan (dartınma, uzanaraq əllərin açılıb-bükülməsi, dombalaq aşmalar, çevrilmələr və s.) təkrarlanır. Belə vəziyyətlərdə hərəkətlərin kompleksi seriya kimi qəbul edilir və təkrarlar seriyalararası fasilə intervalları ilə tənzimlənir.

Fasiləli hərəkətlər və ya seriyalar iş fasilələrindən sonra ciddi şəkildə bildirilmiş fasilə intervalları ilə təkrarlanır. Hərəkətlər kompleksini seriyalarda birləşdirmək olar.

Təkrar – hərəkətlər arasındakı fasilə intervalları ciddi şəkildə tənzimlənmir; hərəkətin öyrənilməsi zamanı, ümumi fiziki hazırlıq (ÜFH) dərslərində və s. tətbiq olunur.

Fasilə intervalları iş qabiliyyətinin səviyyəsinə görə, ÜVS-nin bərpa olunma fazalarına görə və ya orta zaman intervallarına görə müəyyən edilə bilər.

5. Kiçik (həftəlik) siklin qurulma üsulu. Seçilmiş vasitənin tətbiq olunması ilə tsikldəki məşğələlərin kəmiyyəti, müxtəlif səmtli məşğələlərin mütənasibliyi, onların müddəti və ardıcıllığı, fasilələrlə ardıcıllığının şərtləri, yükləmələrin kəmiyyətinin dinamikası müəyyən edilir.

6. Prosesin qurulması üsulu fiziki keyfiyyətlərin inkişaf dövrünün müddətini və onda olan dərslərin və kiçik dövrlərin lazımi sayını, yükləmələrin artma və ya azalma dinamikasını, lokal proqramların uzlaşmasını, keyfiyyətlərin inkişafında ardıcıllığı, pedaqoji nəzarət vasitələrinin seçilməsini təxmin edir.

Xarici yükləmələrin sadalanmış parametrləri tənzimləyici olaraq və orqanizmin uyğunlaşma (təcili və yığılan) reaksiyalarının xarakterini və effektivliyini şərtləndirir.

Hər bir konkret şəraitdə (üzgüçülük, ÜFH və s.) hər bir keyfiyyətin inkişaf etdirilməsinin özünün spesifikası mövcüddur.

Ədəbiyyatda "metodik yanaşma" və "metodoloji istiqamət" anlayışlarına da rast gəlinir. Lakin müxtəlif müəlliflər bu anlayışları müxtəlif şəkildə, bəzən də əksmənalı şəkildə izah edirlər. Bəzən elə müəlliflər də vardır ki, öz tədqiqatlarının bir hissəsində bəzi anlayışları "metodik yanaşma" kimi bəzən isə "metodoloji istiqamət" kimi adlandırırlar.

Lakin ən əsası ondan ibarətdir ki, bu işlərdə "metod", "metodoloji fənd" anlayışları arasında olan və digər anlayışlarla olan münasibətləri necədir. Ədəbiyyat mənbələrinin təhlili əsasında biz bu anlayışların məzmununu öyrənməyə çalışdıq.

Metodik yanaşma, müəyyən bir elmi konsepsiyaya, təşkilatlanma məntiqinə və tədris, tərbiyə və inkişaf prosesinin həyata keçirilməsinə görə seçilən müəllimin şagirdlərə təsir vasitələrinin toplusudur.

Məsələn, hərəkətləri öyrəndikdə ənənəvi və qeyri-ənənəvi yanaşmalardan (alqoritmik, EHC köməyi ilə adaptiv – proqramlaşdırıcı tədris və s.) istifadə etmək olar. Hərəkət fəaliyyətinin öyrənilməsi və fiziki bacarıqların (keyfiyyətlərin) öyrənilməsi zamanı iki birbirinə zidd olan yanaşma mümkündür: analitik (seçmə) və tam (inteqral).

Metodiki istiqamət, hərəkət fəaliyyətini öyrətmək və ya fiziki keyfiyyətləri inkişaf etdirmək metodologiyasında tətbiq olunan yollardan biridir, vəzifəni vahid dominant amil hesabına həll etməyə imkan verən eyni, oxşar tapşırıqların, metodların və metodiki fəndlərin istifadəsinə yönəldilən yollardan biridir.

Məsələn, qüvvə bacarıqlarının inkişaf etdirilməsi prosesində maksimal qüvvə gərginliyinin yaradılması zamanı növbəti metodoloji istiqamətləri ayırd edirlər:

- Təkrarlamaların həddi səddində dəf olunmayan ağırlıqların (müqavimətlərin) dəf olunması;
- Həddsiz sayda təkrarlamaların istifadə olunması ilə həddsiz ağırlıqların istifadə edilməsi;
- Hədd sürəti ilə müqavimətin aradan qaldırılması və s.

Texniki fəndləri icra etdikdə hərəki bacarıqların variativliyinin və yüksək sabitliyinin əldə olunması üçün xarici şəraiti çətinləşdirmək olar və ya texniki hərəkətlərin icrasını çətinləşdirən (yorğunluq fonunda, emosional gərginlik zamanı, hansısa analizatorun fəaliyyətinin söndüyü və ya məhdudlaşdığı zaman) şagirdin orqanizminin müxtəlif vəziyyətlərində fiziki hərəkətləri tətbiq etmək olar. Və əksinə, fiziki bacarıqların bir hissəsinin yenidən qurulması, bacarığın ayrı-ayrı hissələrinin kinematikasının və ya dinamikasının təkmilləşdirilməsi zamanı texniki hərəkətlərin icra olunmasının yüngülləşdirilmiş şərtləri yaranır. Yuxarıda nəzər salınan anlayışların hamısı bir-biri ilə sıx əlaqədardır və bir-birini tamamlayır. Bunu müvafiq sxem şəklində təsəvvür etmək olar.

ÜMUMİ PEDAQOJİ VƏZİFƏ					
Hərəkət reaksiyaların tezliyinin təkmilləşdirilməsi					
METODİKİ YANAŞMALAR					
	inteqral		analitik		
Metodiki istiqamətlər	yüksək emosional şəraitdə hərəkət aktivliyinin stimullaşdırılması		hərəkətlərin icrasının asanlaşdırılmış şəraitində reaksiyanın motor və ya sensor komponentlərinə seçici təsir		
Metodlar	təcili məlumat	oyun	yarış	senso-motor	təkrar
metodiki fəndlər	hər startdan sonra iştirakçıya reaksiyanın vaxtının elan edilməsi	anidən aşkarlanan siqnallara reaksiyanın yaradılmasını nəzərdə tutan estafetlər və oyunlar	ən yaxşı nəticiyə hədəflənən fərdi və qrup şəklində startlar	zaman qavrayışının dəqiqliyinə hədəflənmiş hərəkətlərin icra edilməsi	dartıcı qurğuların istifadə edilməsi ilə startın dəfələrlə icra olunması

Şəkil 1. Sadə reaksiyaların tezliyini təkmilləşdirdikdə “metodiki yanaşma”, “metodiki istiqamət”, “metod” və “metodiki fənd” kateqoriyaların qarşılıqlı əlaqəsi

Ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı, Mütərcim, 2010. 344 s.

2. Novruzov D.F. Güləşmə. Ali məktəblər üçün dərslik və dərs vasitələri seriyasından. Bakı, Maarif. 1992. 328 s.

3. Z.N.Rzayeva, Q.M.Cəfərov. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası (Dərslik), Bakı, 2004. 182 s.

4.Матвеев Л.П. Теория методика физической культуры. М.: Физкультура спорт, 1991 г.

Я.Б.Самедов, Р.А.Акперов, Я.Б.Мамедов

О методах физического воспитания

Резюме

В статье ссылаясь на источники конкретно рассматриваются методы воспитания как в общем понимании, так и в отношении методов физического воспитания. Широко анализируются смысловое и сущностное значение методических понятий «метод», «методический прием», «методика», «методический подход», «методическое направление» в физическом воспитании. Особо указывается, что проанализированные в статье понятия взаимосвязаны и взаимодополняемы. Это нашло свое отражение в соответствующей схеме в настоящей статье.

Y.B.Samadov, R.A.Akbarov, Y.B.Mammadov

About physical education methods

Summary

The article also explains the education methods in general terms in terms of physical education methods by referring to the sources. In terms of physical education, methodological concepts are extensively analyzed in terms of "method", "methodological trick", "methodology", "methodological approach", "methodological direction" in terms of the meaning, essence and characteristics of teaching. It is emphasized that all concepts broadly explained in the article are closely related and complement each other. This is explained in the article in the form of a convenient scheme.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 21.09.2021

Ş.M.SEYİDOVA
e-mail: elchinseyidov@gmail.com

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MƏKTƏB GƏLƏCƏYİN TƏDQİQATÇI ALİMLƏRİNİ YETİŞDİRİR

Açar sözlər: *tədqiqatçı, bələdçi, təfəkkür, məntiq, esse, eksperiment, təqdimat, təcrübə*
Ключевые слова: *исследователь, руководство, мышление, логика, эссе, эксперимент, презентация, практика.*
Key words*: researcher, guide, thinking, logic, essay, experiment, presentation, practice*

Şagirdlərin hərtərəfli, sərbəst və yaradıcı inkişafı şəxsiyyətyönümlü təlimdə əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Müəllim şagirdlərə müəyyən biliklər verməklə bərabər həm də onlara öyrənməyi öyrətmək, əldə etdiyi informasiyalardan istifadə etmək bacarığı aşılamalıdır. Şagirdlərin tədqiqat aparması müasir dərsin ən böyük üstünlüklərindən biri olmaqla bərabər, həm də onların axtarıcılıq və tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir. Təcrübələr göstərir ki, təfəkkür fəaliyyətinin, fərqli fikirlərin müzakirəsi şagirdlərdə müzakirə etmək və düzgün nəticə çıxarmaq qabiliyyətini möhkəmlədir. Dərsdə "səni öyrədirəm" yox, "biz birlikdə öyrənirik" prinsipi müəllim və şagirdlər arasında tərəfdaş, yoldaşlıq, hörmət, məhəbbət hislərini formalaşdırır. Şəxsiyyətyönümlü təlim şagirdlərin idrak, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətlərini və fənləri öyrənmək marağını artırır. Nəticədə, təlim-tərbiyə prosesində şagirdlərin fəallığı yüksəlir, psixoloji gərginliyi azalır (3, s.16).

Yaradıcılıq, öncə, şagirdin öz işinə yaradıcı yanaşması ilə əlaqədar meydana çıxır. Bu gün müəllim istiqamətverən, şagird isə tədqiqatçıdır. Şagirdlərdə tədqiqatçılığın inkişaf etdirilməsinə nail olmaq üçün onları kitabxana fondundan düzgün istifadəyə istiqamətləndirmək lazımdır. Müxtəlif kitablarla işləmək bacarığı və vərdişlərinin normal qaydada formalaşması tədqiqatçının inkişafında mühüm rol oynayır.

Biologiyanın tədrisində şagirdlərdə tədqiqatçılıq qabiliyyətini inkişaf etdirmək üçün hansı yollardan və metodlardan istifadə etmək faydalıdır?

Biologiyanın tədrisində şagirdləri tədqiqatçılığa yönəltməyin forma, metod və yolları genişdir. Belə ki, təcrübələrin, laboratoriya işlərinin təşkili, məsələ həlli, müstəqil işlərin (layihə, esse, təqdimat və s.) həyata keçirilməsi bunlara misal ola bilər. Dərslərdə müşahidə, eksperiment, təhlil, sistemləşdirmə, ümumiləşdirmə, tədqiqat, Venn diaqramı, layihə və s. metod və üsulların tətbiqi şagirdlərdə tədqiqatçılıq bacarıqlarının və yaradıcı təfəkkürün inkişafına kömək edir (5. s.94).

Fənlərarası əlaqənin tətbiqi şagirdlərin tədqiqatçılıq qabiliyyətini ya bir neçə fənn istiqamətində inkişaf etdirir, ya da şagird özü üçün hansı fənnə dərindən yiyələnmək istədiyini, hansı fəndə özünü daha çox təsdiq edə biləcəyini anlayır.

Şagirdlərə tədqiqatın mərhələləri tədricən mənimsədilir. Onlara öyrədilir ki, birinci mərhələdə materialları toplamaq, ikinci mərhələdə toplanan materialları ümumiləşdirmək və qruplaşdırmaq, üçüncü mərhələdə isə müəyyən bir nəticəyə gəlmək lazımdır. Fənlərin tədrisində 45 dəqiqəlik dərs müddəti tədqiqatçı şagird və müəllimlər üçün məhdud zamandır. İstedadlı və tədqiqatçı şagirdlər müxtəlif dərnəklərdə, disputlarda, şagird elmi cəmiyyətlərində birləşməli və qabiliyyətlərini orada inkişaf etdirməlidir. Belə şagirdlərə inanmaq və onların gələcəyinə ümidlə baxmaq mümkündür (7. s.514).

Dərsə verilən müasir tələblərə əsasən şagird də müəyyən mənada tədqiqatçı olmalıdır. Şagirdin tədqiqatçılığı nədir və müəllimin tədqiqtaçılığından nə ilə fərqlənir?

Müəllim təlim materialını saf-çürük edir, dolaşıq və mübahisəli məsələləri aydınlaşdırır, şagirdlərə düzgün variantlar öyrədir. Şagird isə müəllimdən fərqli olaraq, tədqiq olunmuşları tədqiq edir; yəni o (şagird) təlim materialı üzərində düşünür, axtarış aparır, əlverişli variant seçir, öyrənilənləri şüurlu mənimsəyir. Təfəkkürün fəallığı təlim materialının dərk edilməsi prosesini sürətləndirir, mənimənilməni xeyli asanlaşdırır. Bu yolla əldə edilən biliklər möhkəm olur və uzun müddət yadda qalır.

Tədqiqatçılıq qabiliyyətinin formalaşmasında alqoritmlərin rolu böyükdür. Alqoritmlər mühakiməni düzgün qurmağın yaxşı örnəyidir. Bu priyom şagirdlərə başqa təfəkkür priyomlarından dəqiq istifadə etməyi öyrədir, qrammatik anlayışlar üzərində müstəqil əməliyyat aparmağı və beləliklə də, uyğun tədqiqatçılıq bacarıqlarına yiyələnməyi təmin edir. Tədqiqatçılıq qabiliyyəti yüksək olan şagird müstəqillik nümayiş etdirməklə sərbəst mühakimə yürüdür, tədqiqatının gedişini və nəticələrini mükəmməl, dolğun, aydın və sistemli təqdim edir. O, elmi iş yazmaq, müəyyən mövzuda inşa-esse, layihə, təqdimat hazırlamaq üçün böyük lüğət ehtiyatı nümayiş etdirir (4, s.119).

Qeyd olunan qabiliyyətlərin inkişaf etdirilməsi müəllimin dərslərdə şagirdlərin fəallığını necə, hansı yollarla artırmasından, yüksəltməsindən birbaşa asılıdır. Fikir və düşüncələrini hər yerdə və hər zaman sərbəst şəkildə ifadə etməyi bacaran, müstəqil mühakimə yürüdə bilən şəxsiyyət formalaşdırmaq məktəb və müəllimin qarşısında duran ən ümdə vəzifədir. Bu gün dərslərin elə qurulması tələb olunur ki, şagirdlər maksimum fəallıq göstərsinlər.

Müəllim biliklərin əldə edilməsi yolunun bələdçisi, şagird isə tədqiqatçısı, bilikləri kəşf edəndir. Müəllim və şagirdlərə belə bir mühitin yaradılmasında interaktiv təlim metod və formalarının tətbiqi kömək edir.

"İnteraktiv" sözünün lüğəvi mənası qarşılıqlı fəaliyyətə əsaslanan deməkdir. Pedaqoji anlayış kimi interaktiv metodlar əslində qarşılıqlı fəaliyyətə əsaslanan metodları ehtiva edir. Burada müəllimin istiqaməti ilə şagirdin yaradıcı, prosesi, hadisəni, obyekti sərbəst araşdırmaq, tədqiqat aparmaq və öyrənmək fəaliyyəti nəzərdə tutulur. İnteraktiv təlim şagirdlərin yaddaşını yeni elmi biliklərlə (məlumatlarla) zənginləşdirməklə yanaşı, həm də onların düşünmə, yaradıcı təfəkkürünün, tədqiqatçılıq qabiliyyətinin, yeni bilik əldə etmək və mənimsəmək, eləcə də araşdırma aparmaq bacarığının müntəzəm inkişaf etdirilməsinə əsaslanır. Biliklərin mənimsənilməsi prosesində təfəkkür və tədqiqatçılıq fəallığı təmin olunur. Tədqiqatçılığın inkişaf etdirilməsi prosesində interaktiv metodların tətbiqi:

– Şüurlu surətdə dərkolunması problemli vəziyyətin yaradılmasını təmin edir;

– Problemli vəziyyətin həll olunması prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyini stimullaşdırır;

– Şagirdlər üçün yeni olan əhəmiyyətli biliklərin sərbəst əldə olunması, ümumiləşdirilməsi və mənimsənilməsini asanlaşdırır (8, s.48).

Araşdırmalar onu göstərir ki, interaktiv təlim və istedadlı şagirdlərlə fəaliyyət zamanı onlarda təfəkkürün inkişafına, biliklərin yaradıcı tətbiqinə, təfəkkürün müstəqillik və sərbəstliyinə diqqət edilməsi əsas məsələlərdəndir.

Məktəbdə şagirdlərin tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsi üçün digər vasitələrdən, müxtəlif yollardan, üsullardan istifadə olunur. Təlim-tərbiyədə tədqiq olunan yeni fənn proqramlarında, kirikulumlarda şagirdlərin yaradıcı düşüncəsinin və tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsi məsələlərinə ciddi yanaşılır.

Şagirdlərin yaradıcı təfəkkürünün və tədqiqatçılıq qabiliyyətinin formalaşdırılması və inkişafı üçün öncə təfəkkür qanunları haqqında onlara bilik verilməlidir. Təfəkkür qanunları ilə yanaşı, şagirdlərə dil qanunlarını da aydınlaşdırmalıdır. Məktəblilər tədris edilən bilikləri yalnız qavramağı deyil, həmçinin onları şüurlarında möhkəmləndirməyi və nitq vasitəsilə aydın, məntiqi şəkildə ifadə etməyi bacarmalıdırlar. Bu məqsədlə son illər şagirdlərə müxtəlif fənlərin tədrisində, o cümlədən biologiyadan esselər, referatlar, təqdimatlar yazdırılır. Esse şagirdin təfəkkürünü, onun yaradıcı bacarığını üzə çıxaran yazı növlərindəndir. Essenin

yazılmasında hər hansı bir mövzu ətrafında düşünmək, mühakimə yürütmək, öz məqsəd və niyyətini kağız üzərinə köçürmək lazım gəlir.

Şagirdlərdə ilkin tədqiqatçılıq vərdişləri yaratmaq üçün biologiyadan müşahidə aparmaq, təcrübələrə istinad etmək, eksperiment qoymaq, təhlil etmək, nəticə çıxarmaq, ümumiləşdirmək və s. əməliyyatların təşkil edilməsi tələb olunan mövzuların tədrisi geniş imkanlar açır. Canlıların quruluşu və müxtəlifliyini, onlarda gedən bioloji funksiyaları əks etdirən mövzular belə imkanlara malikdir. Şagirdlərdə təfəkkürü fəallaşdırmaq, daha da inkişaf etdirmək üçün belə aktual mövzular üzrə tədqiqat işləri həyata keçirilir. Təfəkkür şagirdlərin yaradıcı fəaliyyətinin əsasını təşkil edir. Ona əsaslanan şagird yaşına uyğun əsərlər yarada bilir və özünəməxsus tədqiqatçılıq fəaliyyətini idarə edir. Yaradıcı təfəkkür xüsusi bir zəmində yeni layihə qurmağa səbəb olan düşüncələrdir. Bu anlamda yaradıcı surətdə düşünməyi tələb edən müstəqil axtarışlar aparmasına şərait yaradılaraq tədris prosesi təşkil edilməlidir. Onlarda ilkin tədqiqatçılıq vərdişləri yaratmaq və inkişaf etdirmək gələcəyin aliminin formalaşdırılması deməkdir (5).

Şagirdlərin təfəkkürünü inkişaf etdirmək üçün onların bilik səviyyəsi nəzərə alınmalıdır. Tədqiqatın mövzusu, məqsədi şagird tərəfindən tam dərk olunmalı, onlar yaradıcılığa düzgün istiqamətləndirilməlidir. Şagird fikrini əsaslandırmaq üçün sitatlara istinad etməli olur. Burada şagirdin yaradıcılıq, sərbəstlik, şəxsi fikir söyləmək fikrini aydın və sadə dildə ifadə etmək bacarığı formalaşır. Şagirdlər tədqiqatlarında yeni biliklər alır, onları ümumiləşdirir, qazanılmış bilikləri tətbiq edir. Nəzəri təhlilin aparılması metodundan istifadə edərək, fərziyyələr irəli sürür və onu yoxlamaq üçün eksperiment aparırlar. Məsələn, X sinif şagirdi "Təbii şəraitdə ekoloji tarazlığın qorunması" mövzusunda təqdimat işləmişdir. O, təqdimatında həlli vacib məsələləri ümimiləşdirərək qeyd edir ki, hazırda respublikamızda həlli təcili tələb olunan bir sıra ekoloji problemlər vardır. Bunlara:

- İşğaldan azad olunmuş Qarabağın ekoloji durumunun bərpa edilməsi;
- Torpaqların minalardan təmizlənməsi;
- Təbii elektrik mənbələrindən istifadə olunması (Günəş, külək və s.);
- Erməni vandalizminin törətdiyi ekoloji problemlərin həll edilməsi;
- Yaşıllıqların artırılması, meşələrin bərpası;
- su hövzələrinin, o cümlədən Xəzər dənizinin məişət və sənaye sularının tullantıları ilə çirkləndirilməsinin qarşısının alınması;
- Xəzər dənizinin səviyyəsinin dəyişməsi ilə əlaqədar vurulan ziyanların aradan qaldırılması;
- atmosfer havasına zərərli qazların yol verilən normadan artıq atılmasına yol verilməməsi;
- biomüxtəlifliyin qorunması, torpaqların eroziyaya uğraması və şoranlaşmasının qarşısının alınması;
- sənaye və məişət tullantılarının utilizasiyası və s. aid edilir.

Şagird araşdırılmalarından müəyyən etmişdir ki, təbii sərvətlərin qorunması və davamlı istifadəsi XXI əsrin ən mühüm və qlobal problemlərindən biridir. Bioloji müxtəliflik Yer üzərində bütün canlıların – mikroorqanizm, bitki və heyvanların müxtəlifliyi deməkdir. Təbii sərvətlərin ayrılmaz hissəsi olan bioloji müxtəliflik nəhəng, lakin hələ də tam qiymətləndirilməmiş zəngin ehtiyat mənbəyidir. O, bütün ekosistemləri əhatə etməklə həyatın mövcudluğunun əsasını təşkil edir. Bioloji müxtəliflik insanları ərzaq, geyim, enerji və digər materiallarla təmin edir. Yer kürəsinin təbii zənginliyi gündən-günə azalır. Bioloji müxtəliflik təkcə növlərin müxtəlifliyi deyil, o, bütün canlı aləmin yaşayıb inkişaf etməsinə imkan verən əlamətlərin cəmindən ibarətdir. Son illərdə Azərbaycanda da bioloji müxtəlifliyin qorunması həlli vacib olan prioritet kimi müəyyən edilmiş və bu sahədə müvafiq işlər görülmüşdür. "Bitkilərin genetik ehtiyatlarına dair" Dövlət Proqramı, "Ətraf mühitin mühafizəsi üzrə" Milli Fəaliyyət Planı, "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram və digərləri

qəbul edilərək həyata keçirilir. Qoruqlar, yasaqlıqlar və milli parklar bioloji müxtəlifiyin qorunmasında mühüm rol oynayır. Lakin respublikamızdakı xüsusi mühafizə olunan ərazilərdə təbii ehtiyatlar lazımi səviyyədə qorunmur.

Tədqiqat və müşahidələr onu göstərdi ki, müasir təlim şagirdlərin idrakını, tədqiqatçılıq qabiliyyətini inkişaf etdirir. Müəllimin pedaqoji ustalığının əsas göstəricilərindən biri şagirdlərin elmi təfəkkürünü, tədqiqatçılıq qabiliyyətini inkişaf etdirməsidir. Şagirdlərin tədqiqatçılığına, yaradıcılığına istiqamətləndirilmiş dərs maraqlı, cəlbedici olmaqla yanaşı, həm də gələcəyin tədqiqatçı alimlərini yetişdirən tədris prosesidir.

Ədəbiyyat

1. Ağayev Ə. Yeni təlim metodları və texnologiyalardan istifadənin nəzəri, praktik məsələləri. “Azərbaycan TPİ-nin əsərləri”, Bakı, 2003.
2. Əhmədov H. H. Pedaqogika (dərslik). Bakı, 2013.
3. Əhmədov B. “Düşünməyi öyrənək və öyrədək. Bakı, “Azərbaycan məktəbi”, 1997, № 1, s.14-17.
4. Hacıyeva H. və Bayramova A. “Təlim və tərbiyə prosesinin həyata keçirilməsi” Bakı, 2020.
5. Hacıyeva H.M. Ümumtəhsil məktəb biologiyasının tədrisində tədqiqat metodunun tətbiqi ilə laboratoriya işlərinin təşkili. Təhsildə İKT jurnalı, 2019, № 1, s. 92-97.
6. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı, 1981, s.76.
7. İbrahimov F., Hüseynov R. Pedaqogika. Dərslik, I cild, Bakı, 2013, (s. 514-519).
8. İbrahimov F.N.Təlimin dərk edilməsinə “sistem-struktur” baxımından yanaşma. Bakı, Mütərcim, 1999.

Ш.М.Сеидова

Школа готовит будущих ученых-исследователей

Резюме

В статье рассматривается проблема подготовки выпускников вузов как ученых-исследователей будущего. Объясняется суть проблемы и как способ ее решения, применение исследовательских методов на занятиях и творческая работа со студентами: написание рефератов, презентаций, тезисов, отчетов, проведение экспериментов и т. д. отображается организация. Автор приводит пример решения проблемы, выдвигает методические предложения.

Sh.M.Seyidova

The school trains future research scientists

Summary

The article examines the issue of training high school graduates as research scientists of the future. The essence of the problem is explained and as a way to solve it, the application of research methods in the classroom and creative work with students: writing essays, presentations, abstracts, reports, conducting experiments, etc. organization is displayed. The author gives an example of solving the problem, puts forward methodological proposals.

Rəyçi: dos. H.M.Hacıyeva

Redaksiyaya daxil olub: 12.11.2021

F.Ş.ŞÜKÜROVA
pedaqogika üzrə fəlsəfə doktoru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN HİBRİD FORMADA TƏDRİSİ

Açar sözlər: *hibrid tədris, çevrilmiş sinif, onlayn, onsayt, reseptiv və produktiv bacarıqlar.*
Ключевые слова: *гибридное обучение, перевернутый класс, онлайн, рецептивные и продуктивные навыки.*
Key words: *hybrid teaching, flipped classroom, online, onsite, receptive and productive skills.*

Qloballaşan dünyanın bir hissəsi olan ölkəmizdə də informasiya kommunikasiya texnologiyalarının istifadə edildiyi sahələr günbəgün artmaqdadır. Texnologiyanın belə sürətli inkişafı nəticəsində həyatımızın hər sahəsində olduğu kimi, təhsil sahəsində də əsaslı dəyişikliklər baş verir. Bu dəyişikliklərdən biri kimi təhsilin əyani, üz-üzə formasından distant formaya keçidini göstərə bilərik. Belə ki, informasiyanın daha əlçatan olduğu, ağıllı telefonlar, planşetlər və kompüterlərin hər yerdə istifadə olunduğu bir şəraitdə təhsilin bu inkişafdan geri qalması düşünülə bilməzdi. Hər gün ünsiyyətin daha çox onlayn şəkildə baş verdiyi zamanda belə bir keçidin olması zamanın tələbinə çevrilmişdir. Ənənəvi tədrisin zamanla yerini onlayn, distant təhsilə verməsi də bu tələbdən irəli gələn zərurət kimi anlaşılmalıdır. Qarışıq (Blended) dərs modeli məhz bu iki cəhətin ən güclü tərəflərini özündə birləşdirməyi hədəfləyən bir model kimi sürətlə inkişaf edir. "Hibrid" termini əsasən kursun üçdə bir hissəsinin onlayn, qalan hissənin isə üz-üzə formatda keçirildiyi bir qarışıq dərs formasını nəzərdə tutur. (5, s.1)

Bu formatda təşkil edilmiş tədris əlçatanlığın daha asan təmin edilməsi və rahatlığı, təkmilləşdirilmiş öyrənmə mühiti, tədrisə ayrılan xərclərin azaldılması baxımından çox səmərəli bir yoldur. Uyğun standartlar nəzərə alınmaqla məqsədyönlü şəkildə təşkil olunmuş hibrid kurslarda bu məqsədlərə nail olmaq olduqca asanlaşır. (5, s.14)

Bu gün dünyanın hər yerində olduğu kimi ölkəmizdə də ingilis dilinin tədrisinə xüsusi diqqət ayrılır. Hal-hazırda ölkəmizdə ali təhsil müəssisəsinin profilindən asılı olmayaraq bütün universitetlərdə ingilis dili tədris olunur. Günün tələblərinə cavab verən, savadlı, müxtəlif vəziyyətlərdə adekvtat ünsiyyət qurmağı bacaran mütəxəssislərin hazırlanmasında ingilis dilinin tədrisi də müstəsna rol oynayır. Bu baxımdan ali təhsil müəssisələri ingilis dilinin müasir standartlara cavab verəcək şəkildə tədris olunmasına xüsusi diqqət yetirir. Profilindən asılı olaraq bəzi universitetlərdə ingilis dili ixtisas dili olaraq, bəzilərində xüsusi məqsədlər üçün, bəzilərində isə ümumi ingilis dili olaraq tədris olunur. İngilis dilinin hansı məqsədlə tədris olunmasından asılı olmayaraq, qarşıya qoyulan əsas məqsəd dilə yaxşı yiyələnmiş, ondan effektiv ünsiyyət vasitəsi kimi istifadə edə bilən səriştəli mütəxəssislər hazırlamaqdır. Bu məqsədə nail olmaq üçün dörd dil bacarığı – oxu, yazı, eşidirb-anlama və danışıq – tələbələrə aşılanmalıdır. Üz-üzə tədris şəraitində olduğu kimi onlayn və hibrid tədris mühitində də reseptiv və produktiv dil bacarıqlarının formalaşdırılmasında qarşıya qoyulan məqsədə çatmaq üçün müxtəlif yanaşma, üsul və texnikalar istifadə olunmalıdır.

Fəaliyyət növləri və tapşırıqların qarışıq tədris formatına uyğunlaşdırılması onların eynilə üz-üzə formatda istifadə formasının onlayn mühitə tətbiqi demək deyil. Bu məkan dəyişməsi ilk baxışda nə qədər adi görünsə də onlayn və onsayt tədris mühitləri bir-birindən fərqli olduqları üçün bu mühitin tələblərinə uyğun şəkildə həyata keçirilməlidir. Belə ki, üz-üzə sinif mühitində təşkil edilən müzakirə və diskussiyalara rahatlıqla qoşulan tələbələr onlayn sessiyalarda tamamilə fərqli yanaşma nümayiş etdirə bilərlər. Həmçinin sinif şəraitində müəllimin nəzrarəti altında yazılı şəkildə keçirilən testləri eynilə onlayn formata keçirdikdə

adekvat nəzarət mexanizmi olmadığı üçün tələbələrin müxtəlif vasitələrdən istifadə edərək sualları cavablandırması hallarını kontrol etmək mümkün olmur. Bütün bu hallarla rastlaşmamaq üçün üz-üzə formatda tətbiq edilən fəaliyyət növlərini onlayn şəraitin tələblərinə uyğunlaşdırmaq və yenidən formalaşdırmaq lazımdır. Bu da öz növbəsində hibrid tədrisin düzgün təşkil olunmasına və tələbələrin daha aktiv şəkildə öyrənmə prosesinə cəlb olunmasına gətirib çıxaracaqdır.

Hibrid tədrisin effektiv olması üçün onlayn sessiyaların sadə və mütəşəkkil şəkildə təşkil edilməsi önəmlidir. Bu, tələbələrdən onlayn və üz-üzə keçiriləcək dərslərdə nə tələb olunduğunu, tapşırıqların necə edilməsini aydınlaşdıracaq, hər iki şəraitdə davamlı öyrənmələrini təmin edəcəkdir. Bu baxımdan hibrid kurs və onlayn dərslərin təşkilini belə təsvir etmək olar: tələbələri işləməli olduqları materiala yönləndirmək; tələbələr arasında ünsiyyəti təmin etmək; kursun icmalını və iş prinsipini təqdim etmək; qiymətləndirmə mexanizmini izah etmək; onlayn və onsayt fəaliyyət növlərinin izahlı təqdimatı, təlimin məzmununu təqdim edib əlaqələndirmək.

V. Canq və Z. Cinin 2018-ci ildə Pekin Universitetində apardıqları müqayisəli araşdırma nəticəsində bu nəticəyə gəlmişlər ki, ingilis dilinin xarici dil kimi tədris olunduğu kurslarda hibrid formada təhsil alanların akademik göstəriciləri tam üz-üzə və tam onlayn təhsil alanlardan yüksəkdir. (Zhang və Zhu, 2018)

Aşağıda sadalanan faktorlar hibrid tədrisin nəticələrinin daha uğurlu olması səbəblərindən bəziləridir:

- Dərs materialları və tapşırıqların onlayn şəkildə çatdırılması tələbələrə öz vaxtlarını daha rahat seçərək daha rahat çalışma imkanı yaradır.
- Yaxşı təşkil edilmiş kurslarda tapşırıqlar və qiymətləndirmə alətləri vasitəsilə tələbələrin müstəqil işləməsi üçün daha aydın və detallı şəkildə təmin edilir. Belə ki, tələbələr öyrənmə sürətini özləri tənzimləyə bilir, ehtiyac olduğu halda korrektə edici və istiqamətləndirici materiallar vasitəsilə yenidən işləməyə istiqamətləndirilirlər.
- Qarışıq tip kursların təşkilində bəzən tələbələrin diqqətini daha çox işləməli olduqları tapşırıqlara və öyrənməli olduqları materiallara yönləndirəcək internet saytlarından istifadəyə yönləndirilir. Bu növ işləmə prinsipi öyrənənləri daha çox tapşırıq etməyə yönləndirir. Çalışma və tapşırıqların üzərində çox vaxt keçirmək tələbələrin daha effektiv öyrənmələrini stimullaşdırır.

Tədrisin ənənəvi, distant və ya hibrid şəkildə təşkil olunmasından asılı olmayaraq, texnologiyanın sürətli inkişafının da təsiri ilə daha çox müəllim öz fəaliyyətində bu yeniliklərə müraciət edir. Bu, e-poçt vasitəsilə ünsiyyət, müxtəlif materialların elektron şəkildə çatdırılması və ya daha təkmil formalarda distant tədris kimi müxtəlif formalarda özünü göstərir. Universitetlərin iş prinsiplərində etdikləri dəyişikliklər və ya tələbələrin daha çevik və rahat şəkildə işləmə istəyi də müəllimləri hibrid tədrisə yönləndirən səbəblərdəndir. İnformasiya-kommunikasiya texnologiyalarının tədrisin təkmilləşdirilməsində oynadığı müsbət rola baxmayaraq, sadəcə onun öyrənməni təşviq etdiyini düşünmək doğru olmazdı. Unutmaq lazım deyil ki, texnologiya müəllim üçün yalnızca bir vasitədir. Əgər biz təlim nəticələrini müsbətə doğru dəyişmək istəyiriksə, yalnız texnologiyanın istifadəsinə güvənməməli, istifadə etdiyimiz metodları müasir tələblərə uyğunlaşdırmalıyıq. Bütün bu dəyişikliklərin səmərəli şəkildə həyata keçirilməsində və hibrid tədris formatının tətbiq edilməsində müəllim və tələbələrin ən önəmli yardımçısı informasiya kommunikasiya texnologiyalarıdır.

Məlumdur ki, dünyada ali təhsil müəssisələri 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində kompüter şəbəkələri daha əlçatan olduqdan sonra tədricən onlayn tədrisə keçid etməyə başladılar. İlkin dövrlərdə müəllim və tələbələr daha çox mətn əsaslı əlaqə növlərindən istünlük verirdi. Sonradan informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, yeni və daha effektiv qrafik interfeyslərin istifadəsi daha çox ünsiyyət formasından yararlanmağa imkan verdi. Bu gün onlayn şəkildə təhsil alan tələbələrin sayının artaraq davam etməsi,

bu təhsil platformasının təhsilalanlar arasında günü-gündən daha çox tələb olunduğunu sübut edir. Onlayn və hibrid təhsil formasının istifadəsi bir təhsil müəssisəsinin inkişafı və gələcəyi üçün vacib alternativdir. Belə format ənənəvi proqramlarda iştirak edə bilməyən tələbələr üçün çox gözəl imkandır. Bu qəbildən olan tələbələr öz maraq və ehtiyaclarına cavab verən hibrid təhsil formatını seçərək təhsillərini rahatlıqla davam etdirə bilərlər.

Hibrid tədris formatı onlayn və onsayt (yerində) formatın birləşməsi kimi meydana çıxdığı üçün onlayn tədrisin əsas təşkili prinsiplərinə də nəzərə almaq lazımdır. Belə ki, müasir texnologiyaların sürətlə inkişaf etdiyi bir dövrdə onlayn tədris də demək olar ki, eyni sürətlə inkişaf edir.

Araşdırmalar göstərir ki, qarışıq öyrənmə tipi öyrənmənin daha çevik, səmərəli və effektiv olmasının təmin edilməsinə müsbət təsir edir. Tələbələrin daha rahat çalışmalarını təmin etmək məqsədilə onlayn mühitə daşınan qarışıq tədris tipində dərs saatlarının daha sərbəst olması, materialların əlçatan olması aktiv öyrənməni stimullaşdırır.

Bizim alışdığımız yerində tədrisdən hibrid tədrisə keçid etmək məqsədilə kursun tədrisi prosesinə tədricən onlayn şəkildə həyata keçirilən fəaliyyət növlərini də əlavə etmək lazımdır. Hibrid şəkildə həyat keçirilən kurslarda onlayn fəaliyyət növləri zamanla onsayt fəaliyyətləri üstələyir və kursun təxminən üçdə bir hissəsini əhatə edir. Bu da üz-üzə keçirilən zamanın əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır. Hibrid kurs təkcə təkmilləşdirilmiş texnologiyaların istifadə edilməsi deyil, eləcə də üz-üzə keçirilən məşğələlərin daha effektiv təşkil edilməsini də təmin edir. Belə ki, təlimat, göstəriş və izahların böyük bir hissəsinin əvvəlcədən hazırlanmış təqdimatlar, mühazirələr şəklində onlayn qaydada təqdim edilməsi canlı ünsiyyətin daha aktiv fəallıq mühitində keçirilməsinə zəmin yaradır. Ənənəvi dərs mühitində tapşırıqlar üzərində işləmək, materialı araşdırmaq və ya sadəcə mətni oxumaq sinifdə baş verir və müəyyən mənada vaxt itkisinə səbəb olurdusa, qarışıq təlimdə bu vaxt tələbələrin aktiv iştirakı təmin edilməklə daha səmərəli keçirilir. Bununla da təlim texnologiyalarının köməyi ilə tələbələrin sinifdə olmadıqları müddətdə də öyrənmə prosesinə cəlb edilmələri mümkün olur. Bu vəziyyət müəllimlərə tapşırıq və materialların seçilməsi üçün də daha geniş imkanlar yaradır. Başqa sözlə, müəllimlər tələbələrin sərbəst şəkildə edə biləcəkləri test, tapşırıq və layihələri daha çox onlayn formatda çatdırır, müəllimin nəzarəti, köməyi və istiqamət verməsinə ehtiyac olanları isə üz-üzə şəraitdə həyata keçirirlər. İnformasiya kommunikasiya texnologiyalarının tətbiqi ilə həyata keçirilən bu tədris forması müasir tendensiyalarla ayaqlaşmanı təmin edir.

Təhsil mütəxəssislərinin fikrincə qarışıq tədris modelinin özü bir neçə fərqli formatda həyata keçirilir. C.Steyn və Ç.Qraham qarışıq tədrisin üç fərqli tipini göstərirlər:

- Hibrid – üz-üzə vaxtın tədricən azaldılması formasında qarışdırmaq
- Çevrilmiş sinif (Flipped classroom) – öyrənmə fəaliyyəti formalarının yerinin dəyişdirərək qarışdrımaq
- Hiflex və ya Dəyişkən Hibrid – tələbələrə onlayn və ya onsayt (yerində) format seçimi verməklə qarışdırmaq. (5, s. 11)

Qarışıq təlimin hibrid formasında müəllimlər tələbələrlə real vaxt rejimində üz-üzə olduqları zamanın az olmasını nəzərə almaqla onları daha aktiv fəaliyyət növlərinə cəlb etməli və bu məhdud vaxtı daha səmərəli şəkildə keçirməyə çalışmalıdırlar. Bu formada keçirilən dərslərdə yerində tədris müəllim-yönümlü deyil, daha çox praktik və aktiv olan tələbə-yönümlü hal alır. Bu zaman müəllimin və tələbələrin birgə fəaliyyəti və tələbələrin bir-birləri ilə ünsiyyəti daha səmərəli olur.

Çevrilmiş sinif formatında isə, adından da məlum olduğu kimi, materialın izah olunması və onun əsasında yerinə yetirilən çalışmaların həyata keçirilmə mexanizmi bir növ yerdəyişməyə məruz qalır. Belə ki, nəzəri aspekti əhatə edən mühazirə və təqdimatlar onlayn qaydada əvvəldən tələbələrə çatdırılır, daha sonra isə real sinif mühitində bu məlumatların əsasında müzakirələr aparılır və praktik tapşırıqlar yerinə yetirilir. Bu halda çalışmaq lazımdır

ki, onlayn və onsayt mühitdə ediləcək tapşırıqlar və onlara ayrılan vaxt arasında düzgün balans qurulsun. Nəzərə almaq lazımdır ki, bu balans pozular və tədris düzgün təşkil edilməzsə, yerində keçirilən dərslərdə yük artmış olur.

Dəyişən və ya çevik hibrid formada isə onlayn dərslərin sayı yerində dərslərə nisbətən daha da çox olur. Yalnız bəzi hallarda tələbələr üçün onların seçiminə əsasən üz-üzə dərslər təşkil edilir.

Onlayn tədrisin planlaşdırılması balansın qorunması və müxtəlifliyin təmin olunması baxımından üz-üzə formadan çox da fərqlənmir. Beləliklə, hibrid tədrisin təşkili zamanı ilk öncə üz-üzə keçiriləcək hissəni planlaşdırmaq, məqsədləri müəyyənləşdirmək, daha sonra isə bunları əsas tutaraq onlayn formada təqdim ediləcək elementləri formalaşdırmaq lazımdır. Bu şəkildə qurulmuş hibrid tədris planı tədrisin daha effektiv və məqsədyönlü olmasını təmin edəcəkdir. Kursun təşkili mərhələsində məzmunun çatdırılması yolları, tapşırıq və fəaliyyət növlərinin seçilməsi, istifadə olunacaq multimedia resursları diqqətlə seçilməli və planlaşdırılmalıdır. Kursu təşkil edərkən diqqət edilməli məqamlardan biri də tələbələrə tapşırıq və təlimatların necə və hansı qaydada verilməsidir. Belə ki, tapşırıqların verilməsində audio, video materialların, yazılı çaşmaların verilməsi ardıcıllığı əvvəlcədən nəzərə alınmalıdır. Bütün bunlar kursun tədris proqramında daha da təfərrüatlı şəkildə göstərilməlidir. Bütün bunlarla yanaşı nəzərə almaq lazımdır ki, hibrid tədrisin effektiv təşkil olunması üçün qabaqcıl təlim texnologiyaları və müxtəlif proqramlar istifadə edilir. Ancaq qeyd etməliyik ki, kompüter və proqram təchizatı nə qədər yüksək səviyyədə olsa da, onlar özləri dərs keçə bilməzlər. Tədrisin təşkilində və dərsin aparılmasında müəllimin rolu əvəzsizdir.

N.Hokli və L.Klendfild onlayn və hibrid dərslərin təşkilində üç amili qeyd edirlər:

• Kompüter təchizatı (hardware)
• Proqram təminatı (software)
• İnsan faktoru (liveware) (1, s.12)

Əvvəldə də qeyd etdiyimiz kimi, hibrid formada təşkil olunan dərslər əsasən Təlim İdarəetmə Sistemləri vasitəsilə həyata keçirilir. Bu platformalarda müəllimlərə çevik istifadə üçün müxtəlif vasitələr təqdim edilir. Bunlara məzmunun mətn, audio, video kimi fərqli formatlarda təqdimatı, effektiv müəllim-tələbə ünsiyyəti və cütlərlə, qruplarla işin təşkili üçün vasitələr, eyni zamanda qiymətləndirmə və müəllim rəyinin təqdim edildiyi alətləri aiddir. Ali təhsil müəssisələri təyinatlarına uyğun olaraq fərqli TİS-lərdən istifadə edirlər. Bu sistemlərə daxil edilən texnologiyaların seçimləri tədrisə öz təsirini müxtəlif formalarda göstərir. Belə ki, bir çox TİS-ə avtomatik olaraq yoxlama apara bilən qiymətləndirmə formalarına əsaslanan alətlər daxildir. Bu alətlərin açıq sualları qiymətləndirməyə qadir olmadıqlarını nəzərə alaraq rahatlığa qaçmamaq üçün qiymətləndirmə zamanı tapşırıqların seçilməsində balansın qorunmasın diqqət yetirmək lazımdır.

Nəzərə almaq lazımdır ki, texnologiyanın inkişafı eyni zamanda onlayn dərs mühitinin xüsusiyyətlərinin dəyişməsinə də səbəb olur. Bu səbədən də hibrid tədris kursları təşkil edilərkən doğru alətlərin seçilməsinə diqqət yetirmək lazımdır. Bu seçim tədrisin aparıldığı dərsin xüsusiyyətindən, gözlənilən təlim nəticələrindən və texnologiyanın əlçatanlığından asılı olur. C.Stein və Ç.R.Qrahamın fikrincə nə qədər sadə texnoloji vasitələr seçilsə tədris o qədər keyfiyyətli və effektiv olar. Belə ki, tədris zamanı diqqət texnologiyanın istifadəsinin çətinliklərinə deyil, öyrənmə və öyrətmə prosesinə yönlənir. (5, s.21)

Qeyd etmək lazımdır ki, hibrid şəkildə tədris olunacaq kurslar üçün vahid bir nümunə yoxdur. Bununla belə, yaxşı təşkil edilmiş hibrid kurslar tələbələri düzgün seçilmiş tapşırıqlar və qiymətləndirmə vasitələri ilə effektiv öyrənməyə cəlb edir və gözlənilən təlim nəticələrini dəstəkləyir. Təhsil müəssisəsindən, akademik tələblərdən, müəllim və tələbələrin ehtiyaclarından asılı olaraq hər bir hibrid tədris mühiti fərqli olacaqdır. Bütün bunlara aşağıda göstərilən faktorlar da təsir edir:

- Onlayn və onsayt formata ayrılan vaxt və nəzərdə tutlmuş təlim nəticələrinin əldə edilməsini hansı formanın daha effektiv təmin etməsi;
- Müəyyən texnoloji vasitələrin müəllim və tələbələrə daha çox uyğun olması;
- Tələb oluna təlim materialları və s.

Hər yeni situasiyada olduğu kimi, qarışıq dərs modelinin başlaması və ilk təəssürat çox önəmlidir. Kursun əvvəlində tələbələrə onlayn dərslərin necə olacağı, onlardan nəyin tələb olunduğu məsələləri aydın olmur. Eyni zamanda onların öz texniki bacarıqlarını və onlayn şəraitdə öyrənib, öyrənə bilməyəcəkləri ilə bağlı sualları yaranır. Yaxşı planlaşdırılmış və təşkil edilmiş hibrid dərslər tələbələrin bu prosesə uyğunlaşmasını asanlaşdırır. Bu prosesin sürətlə keçməsi üçün tələblərin və şərtlərin, texniki təlimatların, istifadə olunacaq mənbələr və materialların, fəaliyyət növlərinin, gözlənilən təlim nəticələri və qiymətləndirmə meyarlarının əvvəlcədən ətraflı izah olunması vacibdir. Tələbələrə kursun məqsədi aydınlaşdırılmalı və qarşıya qoyulan hədəflərə çatmaq üçün seçilə biləcək strategiyalar göstərilməlidir. Yaxşı tərtib olunmuş sillabus bütün bu deyilənləri özündə əks etdirməlidir. Sillabusun əhatə etməli olduğu bəndləri belə təsvir etmək olar:

- University/Department (Universitet/Kafedra)
- Course Name (Kursun adı)
- Semester (Semestr)
- Instructor Information (Müəllim haqqında məlumat)
- Course Description (Kursun təsviri)
- Textbook and Course Materials (Dərslik və dərs materialları)
- Course Requirements (Tələblər)
- Course Structure (%face-to-face; % online) (Kursun strukturu)
- LMS/VLS Access (TİS / VİS qoşulma)
- Technical Assistance (Texniki dəstək)
- Course Objectives (Kursun məqsədi)
- Topic Outline/Schedule (Mövzu bölgüsü)
- Grading Policy (Qiymətləndirmə siyasəti)
- Course Policy (attendance; participation; integrity)

(Kursun ümumi siyasəti – iştirak, aktivlik, akademik dürüstlük)

(8)

Fəaliyyət növləri və tapşırıqların qarışıq tədris formatına uyğunlaşdırılması onların eynilə üz-üzə formatda istifadə formasının onlayn mühitə tətbiqi demək deyil. Bu məkan dəyişməsi ilk baxışda nə qədər adi görünsə də onlayn və onsayt tədris mühitləri bir-birindən fərqli olduqları üçün bu mühitin tələblərinə uyğun şəkildə həyata keçirilməlidir. Belə ki, üz-üzə sinif mühitində təşkil edilən müzakirə və diskussiyalara rahatlıqla qoşulan tələbələr onlayn sessiyalarda tamamilə fərqli yanaşma nümayiş etdirə bilərlər. Həmçinin sinif şəraitində müəllimin nəzarəti altında yazılı şəkildə keçirilən testləri eynilə onlayn formata keçirdikdə adekvat nəzarət mexanizmi olmadığı üçün tələbələrin müxtəlif vasitələrdən istifadə edərək sualları cavablandırması hallarını kontrol etmək mümkün olmur. Bütün bu hallarla rastlaşmamaq üçün üz-üzə formatda tətbiq edilən fəaliyyət növlərini onlayn şəraitin tələblərinə uyğunlaşdırmaq və yenidən formalaşdırmaq lazımdır. Bu da öz növbəsində hibrid tədrisin düzgün təşkil olunmasına və tələbələrin daha aktiv şəkildə öyrənmə prosesinə cəlb olunmasına gətirib çıxaracaqdır.

Hibrid tədrisin effektiv olması üçün onlayn sessiyaların sadə və mütəşəkkil şəkildə təşkil edilməsi önəmlidir. Bu, tələbələrdən onlayn və üz-üzə keçiriləcək dərslərdə nə tələb olunduğunu, tapşırıqların necə edilməsini aydınlaşdıracaq, hər iki şəraitdə davamlı öyrənmələrini təmin edəcəkdir. Bu baxımdan hibrid kurs və onlayn dərslərin təşkilini belə təsvir etmək

olar: tələbələri işləməli olduqları materiala yönləndirmək; tələbələr arasında ünsiyyəti təmin etmək; kursun icmalını və iş prinsipini təqdim etmək; qiymətləndirmə mexanizmini izah etmək; onlayn və onsayt fəaliyyət növlərinin izahlı təqdimatı, təlimin məzmununu təqdim edib əlaqələndirmək.

Onlayn və üz-üzə keçiləcək dərslər arasında balansı qoruyub saxlamaq məqsədilə tapşırıqların həlli və layihələrin təqdim edilməsinə verilmiş son möhlət tarixi də əvvəlcədən dəqiqləşdirilməlidir. Tapşırığın tipindən asılı olaraq bu müddət 1-2 həftə təşkil edə bilər. Tələbələrin verilən vaxt ərzində tapşırıqları yerinə yetirib təqdim etmələri hibrid tədris formasında çox əhəmiyyətlidir. Belə ki, bu məsələ onlayn və onsayt vaxtın səmərəli təşkil edilməsinə birbaşa təsir edən amildir. Bütün bunlar tələbələrin prosesə adekvat şəkildə cəlb edilməsini və motivasiyanın yüksəlməsini təmin edə biləcək faktorlar kimi dəyərləndirilməlidir.

Onlayn tədris mühitində şəbəkə etiketi (netiquette) normalarına riayət edilməsi məsələsi də həmçinin tələbə və müəllimlərin diqqət etməli olduqları məsələlərdəndir. Məlumdur ki, xarici dildə yazılı ünsiyyətə girmək tələbələr üçün heç də həmişə asan olmur və bəzən anlaşılmazlıqlara gətirib çıxara bilər. Bunun qarşısını almaq və tələbələrin onlayn şəraitdə daha effektiv ünsiyyət qurmalarını təmin etmək üçün, bu mühitdə birgə işləməyin əsas prinsipləri müəyyənləşdirilməlidir. “Netiket” qaydalarına əməl edilməsinin əhəmiyyəti tələbələrə çatdırılmalıdır. Belə ki, internet vasitəsilə yazılı ünsiyyət qurarkən qarşılıqlı hörmət, anlaşma, düzgün yazı qaydalarına əməl edilməsi problemləri vacib bir məsələ kimi qarşıya qoyulmalıdır. Onlayn yazışmalarda emojilərdən, akronimlərdən, qısaltmalardan etik normalar nəzərə alınaraq istifadə olunmasına diqqət edilməlidir.

Bütün bu məsələlərlə yanaşı nəzərə alınmalıdır ki, tələbələrin öyrənmə prosesinə adekvat şəkildə cəlb olunmadığı, ancaq təlimatların verildiyi mühit uzun müddət effektiv ola bilməz. Hibrid və onlayn kurslarda bu daha çox özünü göstərir, çünki, kursun çox hissəsinin onlayn keçirildiyi şəraitdə tələbələr özlərini prosesdən kənarda hiss edə bilərlər. Bu baxımdan müəllimlər tələbələrə individual yanaşmalı, onları öyrənməyə aktiv cəlb etmək üçün müxtəlif strategiyaları və yanaşmaları sintez etməyi bacarmalıdırlar.

Hibrid tədrisdə materialların seçilməsində tələbələrin yaş və dil səviyyəsi nəzərə alınmalı, autentik və məhz dil öyrənənlər üçün hazırlanmış dil materiallarının istifadəsinə yer verilməlidir. Müxtlif multimedia vasitələrinin istifadəsi ilə dəstəklənən material seçimləri tələbələr üçün dil öyrənmə prosesində daha maraqlı, əlaqəli, faydalı və bir qədər həvəsləndirici hesab edilir.

Seçilmiş metodların, materialların və təlim mühitinin dəyərləndirilməsi üç aspektdən aparılmalıdır:

- Effektivlik – tələbələr təlim nəticələrinə nə dərəcədə nail olublar?
- Səmərəlilik – tədrisə ayrılan vaxt, öyrənmə üçün göstərilən səy və cəhdlər özünü doğruldurmu?
- İştirak – tələbələrin öyrənməyə sərf etdikləri zehni və emosional enerjinin nəticələri. (3. s.32)

Nəticələri yekunlaşdıraraq deyə bilərik ki, ingilis dilinin tədirisinin hibrid formada təşkili tələbələrin prosesə aktiv cəlb olunmasına, qarşıya qoyulan məqsədə çatmasına səbəb olan bir təlim mühiti formalaşdırır. Tələbələrin müasir informasiya-kommunikasiya texnologiyalarına olan marağı, sosial şəbəkələrdən gündəlik həyatlarında effektiv istifadə etmələri onların bu mühitdən daha səmərəli istifadə etmələrinə səbəb olur. Müxtəlif dil öyrənmə resurslarının daha asan əlçatan olması, tələbələrin tədrisin asinxron hissəsini öz vaxtlarına uyğun seçə bilməsi və tədris materiallarını öz sürətlərinə uyğun işləmələri, müəyyən səbələrdən daim üz-üzə dərslərdə iştirak edə bilməyən insanların ali təhsil alma şanslarının yüksəlməsi hibrid tədrisi daha effektiv edir və daha çox maraq mənbəyinə çevirir.

Ədəbiyyat

1. Hockly N. & Clandfield L. (2018) Teaching Online. Tools and techniques, options and opportunies. Delta Publishing.
2. Meloni, C. (1998). The Internet in the classroom: A valuable tool and resource for ESL/EFL teachers. ESL magazine,6(1), 21-30.
3. McCabe M.F. & Gonzalez-Flores P. (2017). Essentials of Online Teaching. Routledge
4. Paulsen, P. (2001). New era trends and technologies in foreign language learning: An annotated bibliography. Interactive Multimedia Electronic Journal of Computer-Enhanced Learning, 4(6), 36-48.
5. Stein J. & Graham R.Ch. (2020) Essentials for Blended Learning. Routledge 2nd edition
6. Scrivener J. (2011). Learning Teaching. The Essential Guide to English Language Teaching. Macmillan
7. Ur Penny, (2012). A Course in English Language Teaching, Cambridge University Press
8. www.csus.edu

Ф.Ш.Щукюрова

Гибридное обучение английскому языку в вузах

Резюме

Статья посвящена эффективному изучению английского языка с правильным выбором материалов, типов заданий и инструментов оценки при гибридном обучении английского языка. Подчеркивается важность эффективного использования информационно-коммуникационных технологий для более активного вовлечения учащичся в процесс и эффективной организации уроков. Отмечается что, в гибридной учебной среде важно наладить эффективное общение между студентами и учителями, поддерживать баланс между дистанционнами и очными уроками, а также придерживаться сетевого этикета при онлайн обучении.

F.Sh.Shukurova

Hybrid teaching of English in universities

Summary

The article focuses on students' effective learning of English with the right choice of materials, types of assignments and assessment tools in hybrid English teaching. Emphasis is placed on the importance of effective use of information and communication technologies in order to involve students in the process more actively and to organize lessons more effectively. In a hybrid learning environment, it is important to establish effective communication between students and teachers, to maintain a balance between distance and face-to-face lessons, and to adhere to network etiquette in online learning.

Rəyçi: ped.f.d., dos. G.X.Şirəliyeva

Redaksiyaya daxil olub: 09.12.2021

A.F.ZEYNALOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ FRAZEOLOJİ İFADƏLƏRİN TƏDRİSİ ÜSULLARI

Açar sözlər: frazeoloji birləşmələr, ekvivalent tərcümə, məcazi məna, dil tədrisi, çalışmalar
Ключевые слова: фразеологические сочетания, эквивалентный перевод, переносное значение, обучение языку, упражнения
Key words: phraseological combinations, equivalent translation, figurative meaning, language teaching, exercises

Dilçiliyin müstəqil şöbəsi kimi gənc hesab olunan frazeologiyanın banisi fransız dilçisi Şarl Ballidir (1865-1947). Frazeologiyanın dilçiliyin müstəqil şöbəsinə çevrilməsində isə sovet dilçisi Viktor Vladimiroviç Vinoqradovun (1895-1969) müstəsna rolu var. XX əsrin əvvəllərində frazeologiya məsələləri ilə ilk dəfə məşğul olan Şarl Balli dilçilik tarixində birinci olaraq frazeologiyanı leksikologiyanın müstəqil şöbəsi kimi müəyyənləşdirmiş və beləliklə, frazeoloji birləşmələr tədqiqata cəlb olunmuşdur. Nitqdə iki növ söz birləşmələrinin olduğunun fərqinə varan Ş. Balli sabit söz birləşmələrini xüsusi olaraq araşdırmış və bu növ birləşmələri frazeoloji qrup adlandırmışdır.

Ş. Balli frazeoloji birləşmələrin əlamətini müəyyənləşdirməkdə birləşmənin həm zahiri, həm də daxili cəhətinə nəzər yetirməyi mühüm şərt hesab edirdi. O, sabit söz birləşmələrini öz əsərində leksik-semantik və üslubi-məna cəhətdən şərh etmişdir. Dilçilik tarixində sabit söz birləşmələrinə bu şəkildə yanaşma tamamilə yeni idi. Ş.Ballinin nəzəriyyəsi frazeologiyanın inkişafına böyük təsir göstərmişdir.

Frazeologiya dilçiliyin ən gənc şöbəsi hesab olunsa da, bu frazeologiya məsələləri ilə dilçilikdə heç bəhs olunmadığı anlamına gəlməməlidir. Frazeologiya dilçiliyin başqa şöbələrinin, məsələn leksikologiyanın tərkibində araşdırılmışdır. Frazeoloji ifadələrin tərcümə zamanı çətinliklər törətməsi lüğət tərtib edən mütəxəssislərin diqqətini cəlb etmişdir. Frazeoloji ifadələr bir dildən başqa dilə oldğu kimi deyil, məxəz dilin ifadə vasitələrinə uyğun olaraq tərcümə edilməsi, yəni ekvivalent tərcümə üsullarına müraciət olunması onların diqqətindən yayınmamışdır. Bu isə frazeologiyanın müstəqil şöbə kimi inkişafına şərait yaratmışdır.

Ümumiyyətlə, xarici dillərin mənimsənilməsində frazeologiyanın öyrənilməsinin rolu bir çox alimlər tərəfindən araşdırılmışdır. Hər hansı bir dildə sabit ifadələr milli şüurun təcəssümüdür, çünki dil xalqın yaddaşı sayılır. Bu baxımdan frazeoloji vahidlər xüsusi maraq doğurur. Frazeoloji vahidlər insanların nitqlərini canlandırmaqla ünsiyyətdə mühüm rol oynayır, şifahi danışıq dili ilə yanaşı ədəbi dilin də inkişafına yardım edir. Elə buna görə də dili zənginləşdirən frazeoloji vahidləri öyrənmək və onların nitqdə istifadəsi üsullarını araşdırmaq ingilis dilini öyrənən tələbələr üçün çox vacibdir.

İngilis dilinin "lingua franca" statusu alması bu dilin bütün dünyada öyrənilməsinə geniş meydan açmışdır. Azərbaycanda da ingilis dilinin öyrənilməsinə böyük diqqət yetirilir. Ümumiyyətlə, hər hansı bir dilin mükəmməl formada öyrənilməsi onun frazeologizmlərini bilmədən mükün deyildir. İngilis dilini öyrənən şəxslər üçün onun frazeologiya sahəsi böyük çətinlik törədir. Bu frazeoloji vahidlərin ayrı-ayrı sözlər şəklində deyil, bütöv halda başa düşülməsi, ana dilində ekvivalentinin tapılması ilə izah olunur.

Hər bir dilin özünəməxsus frazeologizmləri var. İngilis dilinin də frazeologiya dünyası çox böyük və müxtəlifdir. İngilis dilinin tarixi inkişafı nəticəsində əmələ gəlmiş bu mürəkkəb frazeoloji sistem o dərəcədə zəngindir ki, danışıq prossesində, frazeologizmlərin vasitəsi ilə

bu və ya digər fikri aydın şəkildə başqasına çatdırmaq mümkündür. "Dilin lüğət tərkibində, daha doğrusu, leksik sistemində elə birləşmələr vardır ki, onlar öz mənz xüsusiyyətinə görə hazır vahidlər olub xüsusi bir qrup yaradır. Həmin qrupa daxil olan sözlər öz leksik - semantik səciyyəsinə görə ümumi sözlərdən və xüsusi adlardan fərqlənir" (1, s.166). Bu qrup sözlər frazeologizmlər və ya frazeoloji birləşmələr adlanır. Frazeologiya iki yunan sözündən – **frazis** (təbir, ifadə) və **loqos** (məfhum, təlim) sözlərindən ibarətdir.

Frazeoloji birləşmələr sabit söz birləşmələri adlanır. Bunun səbəbi isə frazeologizmlərin tərkib hissələrinin müstəqil leksik mənaya malik olmaması, morfoloji və sintaktik cəhətdən üzvlərinə ayrıla bilməməsi ilə izah olunurlar. Frazeoloji birləşmələrin mənası onların tərkibinə daxil olan sözlərin ayrı-ayrılıqda mənalarının cəmindən deyil, ifadənin ümumi, tərkib hissələrinə parçalanmadan mənasından anlaşılmalıdır. Elə buna görə də frazeoloji birləşmələr sabit söz birləşmələri adlanır. "Frazeoloji ifadələrin dildə, xüsusilə bədii ədəbiyyatda, şifahi nitqdə rolu böyükdür. Bu ifadələr dili (nitqi), rəvanlaşdırır, onun axıcılığını, şirinliyini artırır" (4, s.82).

Frazeoloji birləşmələrin tərkibcə dəyişməyən və məcazi mənada olduğunu göstərəcəyimiz misallarla daha da aydınlaşdıra bilərik. Məsələn: *dörd gözlə baxmaq (diqqətlə baxmaq), gözdə-qulaqda olmaq (ehtiyatlı olmaq), gözü dörd olmaq (təəccüblənmək), dabanına tüpürmək (qaçmaq), burnunu sallamaq (küsmək), ürəyini sındırmaq (incitmək), kiminsə ürəyini ələ almaq, ürəyinə yol tapmaq (kiminsə xoşuna gəlmək), qulaq asmaq (dinləmək), başa düşmək (anlamaq), ürəyinə xal düşmək (şübhələnmək), başa çatdırmaq (qurtarmaq), əldən düşmək (yorulmaq)* və s. söz birləşmələri frazeoloji birləşmələrdir, çünki bu birləşmələri tərkib hissələrinə ayırsaq, həmin birləşmələrin tərkib hissələri olan sözlər öz həqiqi mənasını itirər.

Bütün dillərdə olduğu kimi ingilis dilində də sözlərin əksəriyyəti müstəqil mənaya malikdir və nitq prosesində onlar bir-birilə əlaqəyə girərək birləşir, cümlə (fikir, ifadə) əmələ gətirir. Məsələn, *storm* və *teacup* sözlərinin ayrı-ayrılıqda mənasını başa düşüb cümlədə işlətdiyimiz halda, *a storm in a teacup* ifadəsində *storm* və *teacup* sözlərinin mənası aydın deyil və onu ayrıca söz kimi deyil, ifadə kimi götürmək lazımdır, *yəni lazımsız bir iş üçün təlaş keçirmək.* Bu ifadə dilimizdə *boş yerə hay-küy salmaq* ifadəsi ilə tərcümə olunmalıdır.

Məlumdur ki, şifahi xalq ədəbiyyatının ümumxalq dilinə təsiri çox olmuşdır. Şifahi xalq ədəbiyyatı həm yazılı ədəbi nümunələrə, həm də ədəbi dilin formalaşmasında aparıcı mövqeyə malik olmuşdur. "Dil kollektivinin tarixi və ya mənəvi təcrübəsini əks etdirən milli dillərdə frazeologizmlər gerçəkliyin obrazlı təsəvvürü əsasında yaranır. Belə ki, nominasiya subyekti və nitq fəaliyyəti – həmişə milli mədəniyyətin subyektidir" (7,9).

Yeri gəlmişkən, onu da geyd etməliyik ki, frazeoloji sabit söz birləşmələri qrammatik birləşmələrin əsasında meydana gəlir. "Qrammatik birləşmənin özü və ya onun tərkibində olan sözlər məcazi mənaya keçərək mütəhərrikliyini itirdikdə sözlər arasında əlaqə və münasibətlər yaradan vasitələr donuq bir hala gəlir və o, bir məfhumu ifadə edən sabit söz birləşməsinə çevrilir" (5, s.88).

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, frazeoloji birləşmələr bir sözə bərabər olan biləşmələrdir. Ümumilikdə, frazeoloji birləşmələrin əsas xüsusiyyətləri onların tərkibinin dəyişməzliyi, iki və daha artıq sözdən ibarət olması, məcazi mənada işlənməsi, tərkib hissələrinə ayrılmadan bütöv bir cümlə üzvü ola bilmələri ilə səciyyələnir. "Frazeoloji birləşmələrin daxili məna quruluşunun və xarici strukturunun, onların ayrı-ayrı dillərdə yeri və mövqeyinin açıqlanması, tərcümə olunma imkanlarının öyrənilməsi, milli və beynəlmiləl mahiyyətinin şərhi, onların işlənmə xüsusiyyətlərinin və istifadəolunma sahələrinin təhlili həm nəzəri, həm də praktik cəhətdən aktuallıq kəsb edir" (2, s.9).

Aşağıdakı çalışmaların köməkliyi ilə də frazeoloji ifadələrin tədrisini təşkil etmək olar:

I. Match the phraseological units with their definitions:

1. to hang on somebody's every word	a. to make known another person's secrets, wrong-doings, faults, etc.
2. to hang by a hair / a (single) thread	b. to use insulting words about sb

3. to call sb names
4. to tell tales about sb
5. to give shape to sth
6. on the sly

c. to listen to sb with great attention
d. to be in great danger or at risk
e. secretly
f. to express sth clearly

II. Underline the sentences where phraseological units are used, translate the sentences with the help of dictionary:

1. My brother works at a factory.
Time works wonders.
2. Go and wash yourself.
She is always washing her dirty linen in public.
3. They won't listen, so don't waste your breath.
Why waste your money on clothes you don't need.
4. She was born in 1950.
He was born with a silver spoon in his mouth.

Bundan əlavə, nöqtələrin yerinə uyğun gələn frazeoloji ifadələrin qoyulması kimi çalışmanın verilməsi də frazeoloji ifadələrin mənimsənilməsinə kömək edir. Məsələn:

Put the suitable praseological units in the gaps:

Like a bolt from the blue, asking for trouble, Achilles' heel, knitting your eyebrows

1. Driving after drinking alcohol is _____.
2. The news of his death was _____.
3. Vanity is his _____.
4. Why are you _____, i.e. frowning at me?

Frazeoloji birləşmələrin təlimi zamanı çalışmalardan istifadə olunması tövsiyyə olunur və müəyyən çalışmaların nümunələri verilmişdir. Verilmiş çalışma nümunələri müəllimlər tərəfindən dərsdə istifadə oluna bilər. Bundan əlavə verilmiş nümunələrə əsasən müəllimlər özləri də əlavə çalışmalar tərtib edə bilərlər.

Ədəbiyyat

1. Axundov A. Ümumi Dilçilik. Bakı, Maarif, 1979, 254 s.
2. Azərbaycanca-İngiliscə-Rusca Frazeoloji lüğət. Tərtibçi Vəliyeva N.Ç. Bakı: 2004
3. Babayev A. Ümumi Dilçilik. Bakı, Maarif, 1992, 504 s.
4. Muxtarov H. M. Gəlin Rusca Danışaq. Bakı, Maarif, 1986
5. Müasir Azərbaycan dili, II cild, Bakı, 2007
6. Süleymanova N. İngilis dilində frazeoloji vahidlər və onların işlədilməsində strktur dəyişiklikləri. ADU. Elmi xəbərlər, 2003, №3, s. 122-125
7. Телия В. Н. Русская фразеология. Семантический, прагматический и лингвокультурологический аспекты. М., 1996
8. Oxford. Advanced Learner's Dictionary 2000, 1428 s.

А.Ф.Зейналова

Методика обучения фразеологизму на уроках английского языка

Резюме

В статье рассматриваются фразеологические сочетания, которые распространены на уроках английского языка и вызывают определенные трудности в изучении языка. Фразеологические единицы - это уникальные языковые единицы, отражающие культуру, историю, обычаи и образ мышления нации. Фразеологические единицы, изучаемые во время обучения иностранному языку, дают студентам более глубокое понимание иностранной культуры. Цель данной статьи - найти способы обучения наиболее распространенным фразеологизму английского языка.

Обсуждались практические рекомендации по развитию подхода к обучению фразеологизму и развитию разговорных навыков на уроках английского языка, а также по стимулированию учащихся к более активному изучению фразеологизмов.

Изучение иностранного языка - сложный процесс. Один из способов побудить учащихся поддерживать беседу и сделать уроки более интересными - это развитие разговорных навыков с помощью фразеологизмов в различных ситуациях. Для этого упражнения помогают учащимся глубже усвоить фразеологические сочетания.

A.F.Zeynalova

Methods of teaching phraseological units in the English language lessons

Summary

The article discusses phraseological combinations that are common in the English language lessons and cause certain difficulties in language learning. Phraseological units are unique language units that reflect a nation's culture, history, customs, and way of thinking. Phraseological units taught during foreign language lessons give students a deeper understanding of foreign culture. The purpose of this article is to find the ways of teaching the most common phraseological units in English.

Practical recommendations for developing an approach to the teaching of phraseological units and speaking skills in English classes and encouraging students to learn more enthusiastically through phraseological units were also discussed.

Learning a foreign language is a difficult process. One of the approaches to motivate students to maintain conversations and make lessons more interesting is to develop speaking skills through phraseological units in different situations. To do this, the exercises help students to master the phraseology more deeply.

Rəyçi: filol.f.d., dos. Y.M.Orucova

Redaksiyaya daxil olub: 30.11.2021

Р.АББАСОВА
e-mail: renaguseynova@gmail.com

Азербайджанский технологический университет
(г. Баку, пр. Гусейн Джавида, 25)

ЛИНГВОСТРАНОВЕДЧЕСКИЙ КОМПОНЕНТ КАК СРЕДСТВО ВКЛЮЧЕНИЯ СТУДЕНТОВ В ПРОЦЕСС МЕЖКУЛЬТУРНОЙ КОММУНИКАЦИИ ПРИ ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ В ВУЗЕ

Ключевые слова: *лингвострановедческий компонент, межкультурная компетенция, национально-культурный компонент, коммуникативное поведение, реалии.*

Açar sözlər: *dil və mədəniyyət komponenti, mədəniyyətlərarası bacarıq, milli-mədəni komponent, kommunikativ davranış, reallıqlar.*

Key words: *linguocultural component, intercultural competence, national and cultural component, communicative behavior, realities.*

Развитие международных контактов и связей в политике, экономике, культуре и других областях обусловливает последовательную ориентацию современной методики обучения иностранным языкам на реальные условия коммуникации. Развитие деловых и личных контактов, расширение и укрепление экономических и культурных связей между народами выдвигают перед школой и вузами в области обучения иностранным языкам общечеловеческую культуру и общечеловеческие ценности.

Целью обучения иностранному языку являются не только приобретение знаний, формирование у студентов навыков и умений, но и усвоение ими сведений страноведческого, лингвострановедческого и культурного, эстетического характера, познание ценностей другой для них национальной культуры, то при определении содержания обучения встает вопрос о лингвострановедческом компоненте.

Развитие международных контактов и связей обуславливает ориентацию современной методики обучения иностранным языкам на реальные условия межкультурной коммуникации. (Byram M. P. 141-152)

Цель данной статьи заключается в исследовании лингвострановедческого компонента как средство включения студентов в процесс межкультурной коммуникации при обучении английскому языку в высшем учебном заведении. В данной статье мы рассматриваем материал, связанный с культурой страны изучаемого языка, как национально-культурный, лингвострановедческий компонент содержания обучения английскому языку.

Главной целью введения лингвострановедческого компонента в обучении английскому языку в вузе является обеспечение коммуникативной компетенции, прежде всего через адекватное восприятие речи собеседника и оригинальных текстов, рассчитанных на носителей языка. Под коммуникативной компетенцией понимается владение лингвистической компетенцией, то есть определенной суммой сведений языкового материала, умение соотносить языковые средства с условиями общения, а также организовать речевое общение с учетом социальных норм поведения и коммуникативной целесообразности высказывания. Под коммуникативным поведением следует понимать совокупность норм и традиций общения народа, что позволяет студентам речевого акта разных национальных культур, воспринимать и понимать друг друга, то есть способствовать «межкультурной коммуникации». Незнание норм и традиций общения носителей другой культуры повлечет за собой «состояние,

возникающее по причине несовпадения культур, называющее культурным шоком (culture shock)» (3, с.65).

Овладение английским языком неразрывно связано с овладением национальной культурой, которая предполагает формирование способности и готовности понимать ментальность носителей изучаемого языка, а также особенности коммуникативного поведения народа этой страны. В процессе обучения внимание студентов следует обратить на характерные особенности коммуникативного поведения жителей разных стран. Например, основные особенности азербайджанского коммуникативного поведения включают в себя: общительность, искренность, эмоциональность, приоритетность разговора по душам, тематическое разнообразие, свобода подключения к общению третьих лиц, доминантность и другие. В свою очередь, английское коммуникативное поведение имеет особенности: немногословие, невысокий степень громкости речи, возвышенный степень самоконтроля, развитость светского общения, большая роль письменного общения.

Термин «лингвострановедение» подчеркивает, что это направление с одной стороны сочетает в себе обучение языку, а с другой – дает вполне определенные сведения о стране изучаемого языка. Поскольку основным объектом является не страна, а фоновые знания носителей языка, в обобщенном виде их культура, то многие ученые, лингвисты Е.М.Верещагина, В.Г.Костомаров, Г.Д.Томахин, И.А.Саланович и др. (2, с. 65) отмечают, что было бы правильнее говорить о «культуроведении». Однако термин «лингвострановедение» уже прочно вошел в практику преподавания иностранных языков. Поэтому следует четко представлять разницу между традиционным страноведением и лингвострановедении.

Саланович Н.А выделил два способа преподнесения страноведческой информации студентам: 1. Тематический, при котором наиболее существенные сведения об истории, географии, государственном строе, культуре и других аспектах стран изучаемого языка систематизируются по соответствующим темам и сообщаются студентам. 2. Филологический, при котором страноведческая информация извлекается из самих иноязычных структур – слов, словосочетаний, текстов, стихов, песен, причем используются иноязычные произведения художественной литературы, творчества необязательно посвященные страноведческой проблематике.

Лингвострановедческий компонент включает в себя конкретные языковые и культурологические знания. При отборе содержания национально-культурного компонента из всего многообразия лингвострановедческого материала выделяется то, что имеет педагогическую ценность, что способно содействовать «не только общению на английском языке, но и приобщению к культуре страны этого языка». Таким образом, особое место лингвострановедческий компонент занимает при отборе языкового материала, который отражает культуру страны изучаемого языка, безэквивалентные, фоновые, коннотативные лексические единицы, узуальные формы речи, а также невербальные языки жестов, мимики и повседневного (привычного) поведения.

Лингвострановедческий компонент при обучении английскому языку должен включать знание национальных реалий, важнейших исторических событий, крупнейших деятелей литературы и искусства, науки и техники, национальное видение мира, а также навыки и умения связанных со стандартными ситуациями, характерные для данной страны.

Особого внимания заслуживают «национальные реалии», то есть средства, несущие отличный национальный колорит (например, Биг-Бэн) и фоновая лексика, т.е. дополнительная национально-окрашенная информация. Именно эти языковые и речевые элементы со страноведческой направленностью отличаются, по мнению большинства исследователей, существенными особенностями, незнание которых затрудняет обще-

ние на английском языке, в том числе и посредством печатных текстов (то есть снижает коммуникативную компетенцию студентов).

Реалии – это реальные факты, касающиеся быта, культуры, истории страны изучаемого языка, героев, традиций, обычаев.

Təhsil və elm ali təhsil müəssisələrinin fəaliyyətinin əsas istiqamətləridir. Lakin müasir universitet həmçinin biznes, tərəfdaşlıq, startap və ictimai həyat üçün bir platformadır. Rusiya təcrübəsində bu fəaliyyətin həyata keçirilməsini "Universitetin üçüncü missiyası" adlandırırlar. Bu məqalədə steykholder yanaşması və ən yaxşı təcrübələr üsulu əsasında universitetlərin üçüncü missiyasının həyata keçirilməsi üzrə dünya və Rusiya təcrübəsi araşdırılmışdır. Bu tədqiqatın yeniliyi davamlı inkişaf nəzəriyyəsi çərçivəsində üçüncü missiyanın öyrənilməsindən ibarətdir. Davamlı inkişaf dünyanın istənilən dövlətinin əsas inkişaf trendi olub insan həyatının keyfiyyətinin yüksəldilməsinə yönəlmiş fəaliyyətdir. Bu prinsiplər eyni zamanda nəinki ölkə iqtisadiyyatının inkişafına və əhalinin rifahına müsbət təsir göstərir, həm də cəmiyyətin ətraf mühitə təsirini fundamental səviyyədə pozitiv dəyişir. Beləliklə, universitetin üçüncü missiyasının davamlı inkişaf vasitəsilə realizasiyası steykholderlərlə qarşılıqlı fəaliyyətin baxılan konsepsiya çərçivəsində həyata keçirilməsidir. Tədqiqatın nəticələri göstərir ki, hazırda davamlı inkişaf prinsiplərinin tətbiqi praktikası təhsilin keyfiyyətinə müsbət təsir göstərir və Rusiya Federasiyasının ərazisində tədris prosesinin təkmilləşdirilməsini stimullaşdırır. Davamlı inkişaf prinsiplərinin inteqrasiyası prosesində müxtəlif kommersiya və qeyri-kommersiya təşkilatlarının əməkdaşlığı həyata keçirilir. Gələcəkdə bu yeniliklərin nəticələri prinsipcə cəmiyyətin sosial strukturunu dəyişdirəcək, iqtisadi artım və ekoloji təmiz mühit kimi anlayışların tədris prosesindən kənarda belə mövcud olmasına imkan yaradacaqdır.

E.A.Sharikina, O.T.Jafarli, Y.G.Mitrofanova

The third mission of the University as a basic element of sustainable development

Summary

Education and science are the main activities of educational institutions of higher education. However, a modern university today is also a platform for business, partnerships, start-ups, and social life. In Russian practice, the implementation of these activities is called the third mission of the university. In this article, the global and Russian practices of implementing the third mission of universities have been studied based on the stakeholder approach and the best practice method. The novelty of this study lies in the examination of the third mission within the framework of sustainable development. Sustainable development is a key trend in the development of any nation in the world. Sustainable development is an activity that aims to improve the quality of human life. The principles of sustainable development not only have a positive impact on the economic growth of the country and the well-being of its people, but also change the impact of humanity on the environment at a fundamental level. Thus, the implementation of the third mission of the university through sustainable development is the realization of interaction with stakeholders within the framework of the goals of the targeted concept. The results of the research show that the current practice of implementing the principles of sustainable development has a positive impact on the quality of education and stimulates the improvement of the educational process in the Russian Federation. In the process of integrating the principles of sustainable development, various commercial and non-profit organizations are working together. In the future, the results of these innovations will fundamentally change the social structure of society and allow concepts such as economic growth and an ecologically clean environment to coexist outside the educational process.

Рецензент: д.филол.н., проф. Т.Г.Джафаров

Redaksiyaya daxil olub: 06.12.2021

R.Z.HƏBİBZADƏ
doktorant
e-mail: secretariat@nayora.az

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası
(Bakı şəh., Cəfər Cabbarlı küç., 609)

CƏNUBİ QAFQAZDA AZƏRBAYCAN RESPUBLİKASININ QAZANDIĞI NAİLİYYƏTLƏR VƏ QARABAĞIN DİRÇƏLİŞİ

Açar sözlər: *maddi mədəniyyət, bərpa, iqtisadi inkişaf, turizm, Qarabağ*
Ключевые слова: *материальная культура, реставрация, экономическое развитие, туризм, Карабах*
Key words: *material culture, restoration, economic development, tourism, Karabakh*

2020-ci ilin sentyabr ayından etibarən prezident İlham Əliyevin komandanlığı altında Azərbaycan ordusu Ermənistan silahlı qüvvələrinin təcavüz və təxribat xarakterli əməliyyatlarına qarşı əks-hücum əməliyyatına başladı. Dövlətimizin ən əsas məqsədlərindən birinə çevrilmiş torpaqlarımızın işğaldan azad edilməsi amalı dövlət, xalq və ordu birliyi nəticəsində həyata keçdi. Belə ki, dövlət, ordu və xalq vəhdətinə çevrilmiş "Dəmir yumruq" 44 gün ərzində erməni təcavüzünə son qoydu. Bu təcavüz sadəcə torpaqlarımıza qarşı deyildi, eyni zamanda mədəniyyə-timizə, irsimizə, tariximizə qarşı bir təcavüz idi. Bir sözlə, erməni təcavüzkarlığı xalqımıza qarşı genosid siyasəti, o cümlədən tarixi-dini abidələrimizə, məbədlərimizə, müqəddəs ocaqlarımıza qarşı da vandalizm siyasəti şəklində davam etmişdir. Torpaqlarımızın azad edilməsi isə dövlətimizdə və xalqımızda yeni bir amal formalaşdırdı: Qarabağı bərpa etmək və "Böyük Qayıdış" prosesinə başlamaq.

Qeyd etmək mümkündür ki, erməni vandallarının maddi mədəniyyətimizi məhv etməkdə başlıca məqsədi dədə-baba yurdumuzdakı tarixi izlərimizi silmək, mənəvi yaddaşımızı və varlığımızı yox etməkdən ibarət idi. Mənfur düşmən tarixi torpaqlarımız olan İrəvən, Qərbi Zəngəzurda xalqımıza məxsus dini abidə və ziyarətgahları, qəbirləri dağıtmış, hətta onların interyerlərində belə dəyişikliklər etmişdir. Belə ki, torpaqlarımızın işğalı dövründə 166 ölkə əhəmiyyətli tarixi-memarlıq abidəsi, 8 dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi, 588 yerli əhəmiyyətli tarixi-memarlıq abidəsi, eyni zamanda 16 xatirə abidəsi və 26 muzey ya təmamilə dağıdılmış, ya da bərpa adı altında interyerləri dəyişdirilmişdir (3).

Bütün bu cür mənfur addımların qarşısında təsadüfi deyildi ki, 44 günlük Vətən müharibəsi ərəfəsində Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyev xalqa müraciətində ərazi bütövlüyümüzün bərpa edilməsindən sonra bütün dini abidələrin də bərpa ediləcəyini bildirdi və çox keçmədi ki, Ağdam məscidi, Şuşa məscidi, həmçinin digər bir sıra mədəni-tarixi abidələrimiz bərpa edildi.

Erməni vandalizmini tarixi-mədəni abidələrimizlə yanaşı, dədə-babalarımızın dəfn edildiyi qəbirstanlıqlarda da görmək olar. Belə ki, qəbir abidələri ermənilər tərəfindən təhqir olunub, məzar daşlarının bir hissəsi isə Ermənistana aparılıb. Ermənistanın işğalı dövründə Azıx və Tağlar mağaraları, Üzərliktəpə, Qaraköpək kurqanları qəsdən dağıdılmışdır. Ağdam, Ağdərə, Xocalı, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər,

Füzuli, Zəngilan, Qubadlı, rayonlarının ərazilərindəki qəbirstanlıqlar, məzarüstü abidələr, məscidlər, məbədlər məhv edilmişdir. Qafqaz Albaniyasına məxsus kilsələrə, abidələrə erməni xaçları bərkitməklə, divarlarına erməni dilində yazılar yazmaqla ermənilərşdirməyə çalışılmışdılar. Erməni vandalları Şuşa şəhərinin Aşağı və Yuxarı Gövhərağa, Köçərli məscidlərini, Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeylərini dağıtmış, Xurşidbanu Natəvanın saray kompleksini, Möhsün Nəvvabın evini bərbad hala salmışlar. Bundan başqa, daşnaklar işğal olunmuş ərazilərdə qeyri-qanuni şəkildə arxeoloji qazıntılar aparıb oradakı dəyərli arxeoloji materialları oğurlayıblar (4).

Ermənistanın Azərbaycana qarşı yeritdiyi təcavüzkar siyasət nəticəsində yer adları, tarixi-mədəni abidələrin adları və yüzlərlə toponimlər erməni adları ilə əvəzlənib. Ermənilər tərəfindən mədəni irsimizə dəyən ziyan milyard dollarlarla ölçülür, mənəvi ziyanı isə hesablamaq praktik olaraq mümkün deyil. Nəzərə alsaq ki, Vətən müharibəsindən sonra tarixi torpaqlarımıza geridönüşlə gündəmə gələn əsas məsələlərdən biri bərpa işlərinin həyata keçirilməsi oldu, bu halda bu məsələnin mənəvi tərəfləri ilə birgə, maddi tərəflərini də araşdırmaq lazımdır (2).

Ümumiyyətlə, bərpa işlərinin aparılması üçün dövlət büdcəsindən 2 milyard manatdan çox vəsait ayrılıb. Bundan başqa, bu işlərin aparılması, azad edilmiş ərazilərdə sosial rifahın artırılması istiqamətində "Qarabağ Dirçəliş Fondu" yaradılıb. Qarabağda stabil, balanslaşdırılmış və dayanıqlı iqtisadiyyatın formalaşdırılması ilə bağlı addımların atılması gələcəyə mühüm perespektivlər açaraq yeni ümidlər və baxışlar yaradır. Erməni vandalizminin vurduğu ziyanın hesablanması üçün xarici mütəxəssislər məsələyə cəlb edilir. Nəzərə alsaq ki, tarixi-mədəni abidələrimiz ermənilər tərəfindən dağıdılıb, interyerləri dəyişdirilib, hətta təhqir edilib, bu halda biz bunu təcavüz, hətta bəşəri cinayət də adlandıra bilərik. Əlavə olaraq, təbii ehtiyatlarımızın, mis, qızıl və digər yataqlarımızın qanunsuz istimarı da beynəlxalq cinayət hesab edilir (1).

Ümumiyyətlə, Azərbaycan dövlətinin əsas məqsədlərindən biri Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş mənəvi və maddi ziyanın ödənilməsidir. Bu istiqamətdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi monitorinqlər də həyata keçirib. Məbləğ hesablandıqdan sonra Azərbaycan beynəlxalq məhkəməyə müraciət edərək kompensasiya tələb etmək hüququnu özündə saxlayacaq.

Həm dinc dövrdə, həm də müharibə zamanı mədəni mülkiyyətin mühafizəsi istiqamətində YUNESKO-nun rolu kifayət qədər əhəmiyyətlidir. Əlavə olaraq qeyd edək ki, Ermənistanın Azərbaycanın maddi və qeyri-maddi mədəni irsinə qarşı yönəlmiş qeyri-qanuni fəaliyyəti YUNESKO-nun protokollarının, "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında 1970-ci il Konvensiyası"nın və "Qeyri-maddi mədəni irsin qorunması haqqında 2003-cü il Konvensiyası", həmçinin digər beynəlxalq hüquqi sənədlərin kobud şəkildə pozulmasıdır (6).

Azərbaycanın mədəniyyət beşiyi olan Şuşada da bərpa və quruculuq işlərinin sürətli şəkildə davam etməsi, Şuşanın prezident İlham Əliyev tərəfindən ölkənin mədəniyyət paytaxtı elan edilməsi Azərbaycan tarixinin, sənətinin və təbiətinin incisi hesab edilən bu şəhərin xalqımız üçün mənəvi dəyərini ehtiva etdiyini qeyd edə bilərik. Şuşada "Xarıbülbül" musiqi festivalının, "Vaqifin Poeziya Günləri"nin keçirilməsi qələbəmizin təntənəsini ifadə edirdi. Bu şəhərdə yerləşən Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi də Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən quruldu və əvvəlki vəziyyətinə qaytarıldı. Hal-hazırda mədrəsələr, imarətlər, hamamlar, məqbərələr, kilsələr, muzeylər və digər dini, tarixi, mədəni abidələr də yenidən qurulur və ya bərpa edilir. Şuşa şəhərinin yuxarı hissəsində yerləşən Qazançı kilsəsinin bərpa olunması isə dövlətimizin xristian irsinə də diqqətini nümayiş etdirir. Beləliklə, Azərbaycan multikultural və tolerant mühiti ilə mənfur düşməndən fərqlənir.

Təəssüf hissi ilə qeyd etməliyik ki, erməni daşnakları işğal etdikləri ərazidə 600-dən çox sənaye və kənd təsərrüfatı müəssisələrini dağıtmışlar. Bunun əksinə isə, dövlətimiz iqtisadiyyatın inkişafına zəmin yaradan sənaye və kənd təsərrüfatı komplekslərinin inşaasına start verib. Turizm obyektlərinin isə tikintisi bölgənin tanınması və iqtisadi inkişafına təkan verəcək addımlardandır. Burada həm ekoturizmin, tarixi turizmin, həm də mədəni turizmin inkişafı üçün əlverişli şərait yaradılır. Dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx mağarasının Azərbaycanın Qarabağ bölgəsində yerləşməsi də tarixi turizm etibarilə regionda turizmin irəliləməsinə böyük imkanlar açır. Şuşada "Qarabağ" otelinin açılması da turizmin inkişaf etdirilməsi istiqamətində atılan ciddi addımlardan biridir. Bununla yanaşı, nəzərə alsaq ki, Şuşaya növbəti illərdə turist axını olacaq, bu cür otellərin sayının artırılması mühüm əhəmiyyət daşıyır. Buna görə də, dövlətimizin əsas amalı yalnız dağıdılmış evləri bərpa etmək deyil, eyni zamanda yeniliyə açılmaq, sosial obyektlər inşa etməkdir. Qarabağ torpaq, su, meşə resursları və digər təbii ehtiyatlarla zəngindir. Bu da dövlətimizin prioritet məqsədlərindən biri olan qeyri-neft sektorunun inkişafı məsələsinin yenidən gündəmə gəlməsi və inkişaf etdirilməsinə yol açacaq. Bundan başqa, regionda tütünçülük, pambıqçılıq, baramaçılıq, heyvandarlıq, o cümlədən bostançılığın inkişafı üçün təbii şərait mövcuddur. Bu isə ərzaq təhlükəsizliyinin təminatını yaxşılaşdıra, eyni zamanda süd və ət məhsulları ilə özünütəminetmə səviyyəsinin artmasına yol aça bilər. Keçən il süd və süd məhsulları üzrə özünütəminetmə səviyyəsi 86,2%, ət və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi isə 82,5% idi, lakin bu il bu statistikaların müsbətə doğru dəyişəcəyi proqnoz edilir. Azad edilən torpaqlarda olan su ehtiyatı da ölkəmiz üçün kifayət qədər vacibdir, çünki su ehtiyatından enerji istehsalı, meliorasiya işlərində istifadə ediləcək. Əlavə olaraq, su ehtiyatı içməli su təminatını da yaxşılaşdıracaq ki, bu da həmin suların qablaşdırılaraq satışa buraxılmasına imkan yaradır. Qeyd edək ki, mineral su ehtiyatlarımızın da təqribən 40%-i bu regionda formalaşır. Burada həm də kurort və istirahət zonaların yaradılması da mümkündür. Ümumiyyətlə, ölkəmizin su ehtiyatlarının 72,7%-i ölkə xaricində formalaşırdı. Bu səbəbdən regiondakı su ehtiyatı ölkəmiz üçün yeni imkanlar açır. Qeyd edə bilərik ki, Suqovuşanın düşmən işğalından azad edilməsi bölgədə su ehtiyatlarının artmasına və suya ehtiyac duyan sahələrin inkişaf etməsinə səbəb olacaqdır (5). Bununla yanaşı, qeyd etmək mümkündür ki, bölgədə elektrik təchizatının təmin edilməsi üçün xətlər çəkilir, yarımstansiyalar tikilir. Üstəlik, Qarabağda yol infrastrukturu da yaradılır. Horadiz-Zəngilan, Füzuli-Cəbrayıl, Füzuli-Şuşa, Füzuli-Hadrut, Göygöl-Toğanalı-Kəlbəcər və digər avtomobil yollarının tikintisi regionda bərpa, quruculuq və abadlaşdırma siyasətinin bariz nümunələridir. Qeyd edək ki, Bərdə-Ağdam və Horadiz-Zəngilan-Ağbənd dəmir yollarının Zəngəzur dəhlizinə qədər uzanması geosiyasi qüdrətimizi daha da artıracaq, Füzuli Beynəlxalq Hava Limanının tikintisinin başa çatması isə bölgənin inkifanı daha da sürətləndirəcək. Üstəlik, yaxın gələcəkdə Zəngilan və Laçında da hava limanlarının açılması planlaşdırılır. Ümumiyyətlə, bu və digər nəqliyyat marşrutlarının fəaliyyətə başlaması regional sabitliyi və əməkdaşlığı möhkəmləndirir (3).

Qeyd edək ki, prezident İlham Əliyevin göstərişi ilə regionda yerləşən bütün şəhərlərin baş planları hazırlanır. Dövlət başçımız tərəfindən "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının hazırlanması haqqında imzalanmış sərəncam isə keçmiş köçkünlər üçün lazımi şəraitin yaradılmasını nəzərdə tutur (3). Bütün bu bərpa və quruculuq işləri regionda, eləcə də ölkəmizdə yeni sosial və iqtisadi perespektivlərin formalaşdırılmasından xəbər verir. Əlbəttə ki, dövlətimizə və xalqımıza yaraşan da mənfur düşməndən fərqli olaraq, Qarabağı çiçəklənndirmək, məcburi köckünlərimizin dədə-baba torpaqlarına geri dönməsi prosesini sürətləndirmək, bölgədə birgəyaşayışı, təhlükəsizlik və sülh mühitinin mövcudluğunu qorumaq və beynəlxalq aləmdə Azərbaycanın hər zaman tolerantlıq və multikultural imicini qoruyub saxlamaqdan ibarətdir.

Ədəbiyyat

1. Akif Musayev, Mahir Zeynalov, Azərbaycan qəzeti, 2021 science.gov.az/az/news/open/15789
2. Aytac Sahəd, Erməni işğalçılarının viran qoyduğu tarixi abidələrimiz, “525-ci qəzet”, 2021
3. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin Nəşri, 2021 medeniyyet.az/page/news/56966/Qarabagin-berpasi-uzre-butun-istiqametlerde-isler-baslanib.html
4. Nəzakət Ələddinqızı. Erməni barbarlığı: dağıdılan tarixi və dini abidələr. “Səs” qəzeti, 2021-ci il, 22 may, s. 10.
5. Vüsal Qasımlı: Qarabağın böyük iqtisadi potensialı var, 2020 azertag.az/xeber/Vusal_Qasimli_Qarabagin_boyuk_iqtisadi_potensiali_var-1620053.
6. YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası www.unesco.az/index.php?options=news&pid=15&news_id=225

Р.З.Хабибзаде

Достижения Азербайджанской Республики на Южном Кавказе и возрождение Карабаха

Резюме

После освобождения Карабаха на Южном Кавказе возникли новые реалии. Несмотря на то, что армяне пытались стереть культурное наследие Азербайджана во время оккупации, уничтожив большинство религиозных, исторических и культурных памятников, Азербайджан, наоборот, начал восстановительные работы в регионе. Азербайджан восстанавливает религиозные, исторические и культурные памятники и вкладывает большие средства в возрождение Карабаха. Развитие Карабаха создает новые возможности и перспективы для Азербайджана, а также для сотрудничества и партнерства в регионе. Следует отметить, что создание дорожной инфраструктуры в Карабахе, строительство железнодорожных линий еще больше укрепят сотрудничество в регионе и еще больше увеличат геополитическую мощь Азербайджана. Конечно, главная цель нашего государства - ускорить процесс возвращения наших ВПЛ на свои исконные земли, поддерживать атмосферу безопасности и мира в регионе и поддерживать всегда толерантный и многокультурный имидж Азербайджана на международной арене.

R.Z.Habibzade

Achievements of the Republic of Azerbaijan in the South Caucasus and the revival of Karabakh

Summary

After the liberation of Karabakh, new realities emerged in the South Caucasus. Despite the fact that the Armenians tried to wipe out the cultural heritage of Azerbaijan during the occupation, destroyed most of the religious, historical, and cultural monuments, on the contrary, Azerbaijan has begun reconstruction work in the region. Azerbaijan restores religious, historical, and cultural monuments and invests heavily in the revival of Karabakh. The development of Karabakh creates new opportunities and prospects for Azerbaijan, as well as for cooperation and partnership in the region. It should be noted that the creation of road infrastructure in Karabakh, the construction of railway lines will further strengthen cooperation in the region and further increase the geopolitical power of Azerbaijan. Of course, the main goal of our state is to accelerate the process of return of our IDPs to their ancestral lands, to maintain the environment of security and peace in the region, and to maintain the always tolerant and multicultural image of Azerbaijan in the international arena.

Rəyçi: siy.e.e.d. A.M.Mirabdullayev

Redaksiyaya daxil olub: 27.11.2021

Ф.Б.АЙДАМИРОВА
доктор философии по истории, доцент
e-mail: aydamirovaf@mail.ru

Х.Г.ДАДАШОВА
e-mail: dadashova54@mail.ru

DOI:10.48652/r3565-3042-2465-v

Азербайджанская государственная академия физической культуры и спорта
(г. Баку, пр. Ф.Хойского, 98)

К ИСТОРИИ ОБРАЗОВАНИЯ ГОРОДА ИРЕВАН

Ключевые слова: *возникновение, крепость, источники, царизм*
Açar sözlər: *yaranma, qala, mənbələr, çar idarə üsulu*
Key words: *creation, castle, sources, tsarism*

Территория, на которой расположен город Иреван в разные периоды времени находилась в составе таких государств как Сасанидов, Арабского халифата, Саджидов, Шеддадидов, Сельджуков, Эльденизидов, Эльханидов, Теймуридов, Кара-коюнлу, Ак-коюнлу, Сефевидов, Афшаров, Каджаров. Социально-экономическое развитие города Иреван как центра относится к периодам Чухур-Саад беглярбекства и Иреванского ханства.

В 658 году провинция Иреван была захвачена арабскими войсками. В период халифата управление эмиратами Южного Кавказа, как правило, возлагалось на тюрков.

Известный турецкий путешественник-географ Эвлия Челеби отнес дату возникновения Иревана как населенного пункта к началу XV века. По его словам, в 810 году по хиджре (1407-1408 гг.) один из любимцев эмира Тимура, купец Ходжа-хан Лехичани вступил на землю Иревана. Он увидел плодородный край и поселился там вместе со всеми своими домочадцами. День ото дня он богател на выращивании риса и строил этот город. Далее Эвлия Челеби добавил, что в 915г. по хиджре (1509-1510) году, Шах Исмаил дал приказал своему полководцу Ревангулу хану построить в этом месте крепость. Тот за семь лет воздвиг крепость и назвал ее Реван. (1, 5) Некоторые исследователи соглашаются с историей основания города Иреван и Иреванской крепости, написанной Эвлией Челеби, иные соглашаются с авторами, которые считают, что история города более древняя. Но неоспоримым фактом является то, что в 1501 году, после завоевания города Иреван, Шах Исмаил поручил своему полководцу Ревангулу хану построить крепость в стратегически важном месте, на берегу реки Занги. Почти все исторические источники подтверждают принадлежность Иревана тюркам.

Так французский путешественник XVII века Шарден побывав в 1673 году в Иреване подчеркивает, что здесь было около 800 построек и здесь проживали гызылбаши (сефевиды). Еще в XVI в период Османского нашествия близкий из окружения османского султана Ибрагим Рагимзаде назвал Иреван жемчужиной азербайджанского зодчества.

В результате войн между Османской и Сефевидской империями, город Иреван 14 раз переходил из рук в руки. И каждый раз, подвергаясь различ-ным разрушениям, город заново отстраивался. В 1554 году Османские войска захватив Иреван, полностью разрушили его. В 1580 году османский визирь Леле Мустафа снова завоевал Иреван.

Иреванская крепость, описываемая многими путешественниками и историками, была построена Фархад пашой в период османской оккупации в 1582-1583 годах на месте прежней крепости. Крепость имела почти квадратную форму – длина ее составляла 850 м, ширина 790 м, и размещалась она на территории площадью в 7 га. Высота двойных стен крепости достигала 10,5-12 м. Одинарная стена крепости проходила по скалам, омываемым водами реки Занги. Крепость имела трое ворот: Тебризские врата с южной стороны, Ширванские (или Мейданские) врата с северной стороны и врата Керпю. В 1679 году через реку Занги был построен мост, названный Гырмызы керпю (Красный мост), связавший между собой Мейданские врата со Старым городом. (7, с.54)

Несмотря на то, что в 1604 году войска Шаха Аббаса I отвоевали у турков город Иреван, контратака турков вынудила их отступить. Во время отступления, в результате проведенной политики «выжженной земли», все население беглярбекства Чухур-Саад, в том числе и население Иревана, было переселено на другой берег реки Араз.

В 1635 году османские войска вновь захватили Иреван. Согласно подписанному между Сефевидами и Османами Касри-Ширинского договора от 1639 года, провинция Иреван, в том числе и город Иреван переходили под власть Сефевидов. После падения Сефевидов в 1723 году город был захвачен турками. В 1733 году Надир шах Афшар освободил Иреван от османов. В 1747 году, после убийства Надир шаха Афшара, возникли независимые ханства. Город Иреван становится центром одноименного ханства. В крепости и городе Иреван были построены уникальные архитектурные мечети, караван-сараи, бани, парки для отдыха. В город с плоскогорья Гырхбулаг была проведена питьевая вода, а благодаря оросительным каналам Иреван превратился в край садов. (3, с.11)

Произошедшее в Иреване 4 июня 1679 г. землетрясение полностью разрушило все постройки города, но с помощью Нахчыванского, Гянджинского, Карабахского, Тебризского и Макинского беглярбекств Иреван был в скором времени отстроен заново.

Ханский дворец или дворец Сардара, считавшийся уникальной архитектурной жемчужиной Востока, был возведен сардаром Иревана Амиргуне-ханом Каджаром, а в 1760-1770 годах иреванским ханом Гусейн Али ханом (1762-1783) была проведена перестройка дворца. В 1791 году по приказу сына Гусейн Али хана Мухаммед-хана (1784-1805) к дворцовому комплексу были достроены зеркальный зал и летняя резиденция.

Европейские путешественники Жан Тавернье, Жан Шарден, Керр-Портер, Джеймс Мориер, Монпере, Камерон, Линч и другие, побывавшие в разное время в Иреване, описывали в своих произведениях Ханский дворец и его зеркальный зал, мечети крепости и города, бассейны и бани, подземную мраморную ступенчатую дорогу, проходящую под рекой Занги. Город Иреван состоял из 4-х частей: Гала (Крепость), Шехер (или Старый город), Тепебашы (современный Конд) и Демирбулаг (современный Караханк). Между Галой и остальными частями города находилась Базарная площадь. Квартал Шехер простирался до Иреванской крепости по правому берегу реки Гырхбулаг. Именно в этой части города находились центральный базар, все площади, а также многие караван-сараи и бани. Квартал Тепебашы находился на холме между рекой Занги и кварталом Шехер. Многочисленные сады именитых жителей Иревана отделяли квартал Тепебашы от квартала Шехер.

Для России овладение крепостью Иреван, находившейся на стратегических позициях между Османской империей и государством Каджаров, имело большое значение. Однако все попытки русских войск в 1804 и 1808 гг. захватить крепость были тщетны. Натиск русских войск, продолжавшийся с перерывами более 20 лет, привел к тому, что 1 октября 1827 г. Иреванская крепость пала из-за предательства армян, указавших русскому командованию слабые места в крепостных стенах. (9, с.23) Генерал-адъютант И. Ф. Паскевич узнал о взятии Иреванской крепости в то время, когда русские войска уже начали в ней грабеж. За взятие Иреванской крепости

Паскевич получил титул графа Эриванского и был награжден орденом Святого Георгия II-й степени. Высоких наград удостоились и другие генералы. Впоследствии была учреждена особая медаль «За взятие Эривани». По повелению императора Николая I, архиепископ Нерсес за заслуги при взятии Иреванского ханства, был награжден орденом Святого Александра Невского. Император Николай I получил донесение о взятии Иреванской крепости в Риге. Ему был преподнесен меч Гасан-хана, который император, в память о его пребывании в Риге, пожаловал городской ратуше. (В настоящее время этот меч хранится в «Оружейной палате» Кремля.) По возвращении в Петербург, 8 ноября 1827 г., император с семьей присутствовали на благодарственном молебне по случаю взятия Иреванской крепости в церкви Зимнего дворца. Ключи от Иреванской крепости и 4 знамени, взятые в качестве трофеев, в торжественной процессии возились по улицам города при радостных восклицаниях народа. (3, с.54)

Воодушевленные взятием Иреванской крепости русские войска в конце 1827 и начале 1828 годов захватили города Южного Азербайджана – Тебриз, Хой, Салмас и Ардебиль. 10 февраля 1828 года в деревне Туркменчай, расположенной на дороге между Тебризом и Тегераном, был подписан договор, по которому Иреванское ханство официально присоединялось к России.

Армянам удалось добиться желаемого благодаря неограниченным полномочиям, которые Красовский предоставил Нерсесу. Большая часть 4500 четверти зерна, предназначенного для всего населения города, перенесшего войну, была роздана армянам, составляющим меньшинство. Мусульмане были лишены государственного покровительства. (5, с.32)

Через несколько дней после завоевания Иреванского ханства 6 октября 1827-го года по приказу Паскевича на этой территории утверждается российская система управления – «Временное правление Иревана». Начальником этого учреждения был назначен командующий русскими войсками генерал Красовский. Членами Временного правления были назначены временный комендант крепости подполковник Броневский и архиепископ Нерсес Аштаракеци. Перед Временным правлением стояли задачи по созданию порядка в стране, обеспечению войска постоянным продовольствием, защите Иреванской, Сардарабадской и Аббасабадской крепостей, установлению связей с Грузией, развитию хлопководства, увеличению производства соли.

Предвзятое отношение к местным мусульманам стала причиной недовольства, в результате часть их была вынуждена переселится в Иран и Турцию. Сосредоточение мусульманского населения, недовольного Россией, по ту сторону границы беспокоило Паскевича. По этой причине он отстранил Нерсеса от деятельности во Временном правлении Иревана. После подписания Туркменчайского договора, Паскевич освободил генерал-лейтенанта Красовского от должности начальника Временного правления Иревана, а архиепископ Нерсес за свои злодеяния по отношению к мусульманам был отослан в Бессарабию. (4, с.34)

Согласно Туркменчайскому договору, подписанному 10 февраля 1828 г., Иреванское и Нахчыванское ханства присоединяются к России. 20-го марта Николай I утверждает этот договор и на следующий день издает указ о создании Армянской области. При создании новой административно-территориальной единицы были учтены заслуги армян в завоевании Иреванского ханства. Территория была названа «Армянской областью». В действительности это стало христианской буферной зоной армян, переселенных из Ирана и Турции. Армянская область была разделена на Иреванскую и Нахчыванскую провинции и Ордубадский округ. В Иреванскую провинцию входили 15 магалов бывшего иреванского ханства, 5 магалов входили в Нахчыванскую провинцию, и 5 магалов – в Ордубадский округ. На должность начальника управления областью был назначен командующий местными войсками генерал-майор

Александр Чавчавадзе. Члены управления областью состояли из двух русских военных и представителей азербайджанцев и армян. (Дочь Чавчавадзе Нина была супругой Александра Грибоедова, убитого в феврале 1829 г. будучи послом в Тегеране). Не только в административных центрах, но даже в магалах на военные и гражданские должности назначались русские чиновники. (5, с.76)

23 июня 1833 г. царь Николай I утверждает новую административную систему Армянской области. Иреванский уезд теперь делится на 4 округа – Иреванский, Шарурский, Сурмалинский, Сардарабадский.

10 апреля 1840 г. издается закон о новой административной системе Южного Кавказа. Согласно новому закону «Армянская область» распускается. Иреванский уезд входит в состав новой Грузино-Имеретинской губернии. В 1844 г. создается Кавказское наместничество. По новому закону от 14 декабря 1846 г. утверждается новое административное деление Кавказа. Иреванский и Александропольский уезды входят в состав новой Тифлисской губернии.

По указу сената от 9 июня 1849 г. создается Эриванская губерния, состоящая из Эриванского, Нахичеванского, Александропольского, Новобаязетского и Ордубадского уездов. До 1918 г. в состав Эриванской губернии входили 7 уездов – Иреванский, Александропольский, Шарур-Даралаязский, Нахичеванский, Ново-Баязетский, Сурмалинский и Эчмиадзинский уезд. (9, с.56)

В Российский период были утверждены гербы городов Иреван и Гюмрю (Александрополь), а также самой Эриванской губернии.

В период царской России топонимы тюркского происхождения на территории Иреванской губернии были сохранены. Исключение составили лишь названия трех городов - Иреван стал называться Эривань (1828), Гюмрю был переименован на Александрополь (1837), Кевер – на Ново-Баязет (1850). Топонимы, отмеченные на административно-территориальных и топографических картах, изданных в российский период, наглядно свидетельствуют о принадлежности этой территории азербайджанским тюркам.

В результате произошедшего в 1853 году землетрясения стены Иреванской крепости вновь были разрушены. С 1864 г. Иреванскую крепость перестали использовать в военных целях. С 1868 года Сардарский зал Ханского дворца был передан в ведение городского полицейского управления. По ходатайству Иреванского губернатора в 1867, 1871, 1874, 1880-х годах были выделены средства на ремонт Сардарского зала.

В 1906-1911 гг. в Иреване, согласно плану города, составленному иреванским техником Б. Я. Меграбовым, существовало 8 мечетей: Мечеть Тепебашинская, Мечеть Шагарская (Зал хан), Мечеть Сартиб, Гёй мечеть (Голубая мечеть) Гаджи-Гусейн Алихана, Мечеть Гаджи Новруз Али-бека, Мечеть крепостная (мечеть Аббаса Мирзы), Мечеть Демирбулагская и Мечеть Гаджи Джафара.

В этот период улицы города Иреван имели азербайджанские названия: Шариатская, Карвансарайская, Гала (Крепостная), Султанская, Чолмакчинская, Нахчыванская, Базарная, Дашлы-кюча, Пашаханская, Гариблар-оджагы, Дейирманлы-кючаси, Мечетьская, Фахла базары, Тапабашинская, Кабирстан-кючаси, Нагиб-кючаси, Мир Джафар- и т.д. В Иреване действовали многочисленные караван-сараи. Среди них Афшар, Сардар, Шейхульислам, Таглы, Сулу, Сусуз, Гаджи Али, Кемурчу, Гюрджу, Джульфа, Гаджи Ильяс и др. Эти караван-сараи, принадлежавшие азербайджанцам, были стерты с лица земли. (6, с.12)

28 мая 1918 года на территории Кавказа образовалось три независимых государства – Азербайджан, Грузия и Армения. Из-за отсутствия у армян собственной столицы, 29 мая 1918 году Национальный Совет Азербайджана уступил город Иреван для создания армянской столицы. Несмотря на это, в 1918-1920 гг. дашнакское

правительство Армении учинило геноцид против азербайджанцев Иревана. Были осуществлены и акции вандализма по отношению к материально-культурным памятникам азербайджанцев – сожжены мечети, разрушены и захвачены их дома.

Реконструкция города Иреван, проводимая в 1924 г. по генеральному плану Александра Туманяна, была проведена с целью уничтожения культурного наследия азербайджанцев в этом городе. В Голубой мечети разместился музей истории города Иреван, Шагарскую мечеть (Зал хан) превратили в выставочный салон Союза художников, а остальные мечети, кроме Демирбулагской, были стерты с лица земли. Демирбулагская мечеть в марте 1988 года была сожжена армянскими вандалами. Камни снесенных стен Сардарского дворца и Иреванской крепости были использованы при строительстве набережной бульвара. В старой части города кварталы, где проживали азербайджанцы, были снесены, а на их месте были возведены парки, кинотеатры и площади. Все древние историко-архитектурные памятники Иревана были стерты с лица земли. Название самого же города менялось дважды. В первый раз – в 1828 году, после захвата русскими войсками, город стал называться Эривань, во второй раз – в 1936 году. он стал называться Ереван.

Горькая реальность такова, что город Иреван, население которого исторически состояло из азербайджанцев, сейчас превратился в моноэтнический армянский город.

Литература

1. Çələbi E. Səyahətnamə (türk dilindən işləyəni və şəhrlərin müəllifi t.e.d., professor Seyidağa Onullahi). Bakı, 1997.

2. İrəvan əyalətinin icmal dəftəri. (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad.-Z.Bünyadov, t.e.n.H.Məmmədov). Bakı, 1996.

3. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009.

4. Глинка С. Описание переселения армян азербайджанских в переделы России. Москва, 1831.

5. Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области// Соч. в двух томах, т. II. Москва, 1971.

6. Бутков Ф. Материалы для новой истории Кафказа с 1722-1803 гг. Часть первая. Санкт-Петербург, 1896.

7. Величко В. Кафказ. Санкт-Петербург, 1904.

8. Шавров Н. Новая Угроза русскому делу в Закафказье. Предстоящая распродажа Мугани инородцам. Баку, 1990.

9. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург, 1852.

F.B.Aydəmirova, X.Q.Dadaşova

İrəvan şəhərinin yaradılmasına dair

Xülasə

Məqalədə İrəvan ərazisinin tarixi mənsubiyyəti haqqında dəlillər gətirilir, tarixi mənbələrə əsaslanaraq şəhərin mərhələli şəkildə yaranma tarixi göstərilir. Bu ərazilərdə qədimdən türk soyunun yaşaması, hansı dövlətlərin tərkibinə qatılması qeyd olunur. Bu şəhər uğrunda Osmanlılarla Səfəvilər dövləti arasında uzun sürən müharibələr haqqında bəhs edilir. Şəhərin bir neçə dəfə dağılması və yenidən kimlər tərəfindən bərpa edilməsi mənbələr əsasında göstərilir. Nəhayət, Rusiya İmperiyası tərəfindən bu ərazilərin işğal edilməsi təhlil edilir.

F.B.Aydamirova, Kh.G.Dadashova

On the history of the creation of Irevan city

Summary

The article provides evidence of the historical belonging of the territory of Irevan and shows the history of the creation of the city in stages, referring to historical sources. It is noted in these territories that the Turkish descendants have lived since ancient times and which states have joined them. It is said about the long-term wars between the Ottomans and the Safavid State for the sake of this city. The collapse of the city several times and the restoration by whom again is indicated on the basis of sources. Finally, the occupation of these territories by the Russian Empire is analyzed.

Рецензент: д.ф.ф. С.А.Бабаев

Redaksiyaya daxil olub: 03.11.2021

MÜNDƏRİCAT – СОДЕРЖАНИЕ

DİLÇİLİK – ЛИНГВИСТИКА

F.Q.AĞAYEVA
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ SİFƏTİN QRAMMATİK XÜSUSİYYƏTLƏRİ 3
G.ALLAHVERDİYEVA
DİSKURSİV MARKERLƏR 10
S.M.BAĞIROVA
BİLİNQUALLIQDA İNTERFERENSİYA PROBLEMİ 17
S.BƏRMUZİ
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ NİSBİ ZAMAN ANLAYIŞI 22
X.A.BƏŞİROVA
TƏYİN BUDAQ CÜMLƏLƏRİNİ BAŞ CÜMLƏYƏ BAĞLAYAN VASİTƏLƏR 27
A.BÜNYADOVA
"SU" KOMPONENTLİ SUBSTANTİV FRAZEOLOJİ VAHİDLƏRİN
SEMANTİK XÜSUSİYYƏTLƏRİ
(Azərbaycan və ingilis dilləri əsasında) 31
F.F.ƏLƏKBƏROVA
DİL VƏ MUSİQİ İŞARƏ NƏZƏRİYYƏSİ İŞIĞINDA 36
S.ƏLİYEV
TƏRCÜMƏDƏ DİSKURS ADEKVATLIĞI
(Culian Barnsın "Aqibət duyğusu" əsərinin Azərbaycan dilinə tərcüməsi əsasında) 40
G.M.ƏLİYEVA
AŞIQ ŞEİRİNDƏ MƏCAZLARA KOQNİTİV YANAŞMA 44
N.A.HƏSƏNOVA
MƏTN DİLÇİLİYİNİN YARANMASI VƏ İNKİŞAFI 50
S.HƏSƏNOVA
C.SELİNCERİN "ÇOVDARLIQDA UÇURUMDAN QORUYAN" ƏSƏRİNDƏ
İŞLƏNMİŞ ARQOLARIN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ YOLLARI 56
R.K.HEYDƏROV
İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞDİRİLMƏSİNDƏ
İDİOMLARIN ROLU 60
İ.Ç.İBRAHİMOVA
İNGİLİS DİLİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ ZƏNGİNLƏŞMƏ YOLLARI 65
M.S.İSGƏNDƏROVA
MÜASİR ALMAN DİLİNDƏ İNKARLIQ SAHƏSİ
VƏ ONUN QURULUŞ XÜSUSİYYƏTLƏRİ 68
S.Ə.KADİYEVA
TİBBİ NATİQLİKDƏ DİALOQUN VƏ MONOLOQUN XÜSUSİYYƏTLƏRİ 73
V.A.LƏTİFLİ
İNGİLİS VƏ AZƏRBAYCAN DİLİNDƏ KOLOKEYŞNLƏRİN
(SÖZ BİRLƏŞMƏLƏRİNİN) MÜQAYİSƏLİ TƏHLİLİ 77
G.T.MƏMMƏDOVA
MÜASİR İNGİLİS DİLİNDƏ İŞLƏNƏN SUAL CÜMLƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ 80
L.M.PİRİYEVA
AŞIQ YARADICILIĞINDA FOLKLOR DİALEKTİNİN ÜSLUBİ FUNKSİONAL ROLU 84
A.F.QASIMOVA
FRANSIZ DİLİNDƏ QRAMMATİK KATEQORİYALAR 89
G.Q.QURBANOVA
TEMATİK TƏSNİFATA ƏSASƏN İNSANIN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİNƏ
DAİR SLƏNQLƏR 93

S.Ə.RÜSTƏMOVA
AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ ÜSLUBLARARASI QARŞILIQLI ƏLAQƏLƏR 100
X.R.SƏFƏROVA
NEYROLİNQVİSTİKANIN TƏTBİQİ SAHƏLƏRİ
VƏ ONLARIN AUDİTORİYADA İSTİFADƏSİ 105
F.S.SƏLİMOVA
DİL, MƏDƏNİYYƏT VƏ ONLARI BAĞLAYAN TELLƏR 112
G.E.TAHİRZADƏ
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MƏTNİN FORMALAŞMASINDA
MORFOLOJİ VASİTƏLƏRİN ROLU 118
G.F.YUSİBOVA
MÜRƏKKƏB SİNTAKTİK BÜTÖVLƏR VƏ YADDAŞ 122
Н.А.БАГИРОВА
СПОРТИВНЫЕ ТЕРМИНЫ АНГЛИЙСКОГО ПРОИСХОЖДЕНИЯ 129
И.А.МИКАИЛОВА
ИЗУЧЕНИЕ ПРЕДЛОЖЕНИЙ С ОДНОРОДНЫМИ ЧЛЕНАМИ НА ЗАНЯТИЯХ РКИ 133
К.Г.НАБИЕВА
РАЗВИТИЕ УСТНОЙ МОНОЛОГИЧЕСКОЙ РЕЧИ СТУДЕНТОВ 137
G.A.ALEKBEROVA
TRANSLATION PROBLEMS OF PHRASECOLOGICAL UNITS IN ENGLISH 142

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА

İ.ƏLİYEV
MÜASİR AZƏRBAYCAN NƏSRİNDƏ MİFOPOETİK TƏHKİYƏ STRUKTURU
(Yusif Səmədoğlunun “Qətl günü” romanı əsasında) 146
Ü.T.ƏSGƏROVA
U.QOLDİNQİN “İKİLİ DİL” ROMANINDA MİF SEMİOTİK STRUKTUR KİMİ 151
E.İ.İSMAYILOVA
XVIII ƏSRİN II YARISINDA ALMANİYA VƏ Y.V.GÖTENİN
ŞAİR KİMİ FORMALAŞMASI 156
S.B.MƏMMƏDOV
USMAN AVANQIN HƏYAT VƏ YARADICILIĞI 160
S.PAŞAYEVA
MARK TVEN VƏ M.F.AXUNDOVUN TƏNQİDİ REALİZMİ VƏ FƏLSƏFİ BAXIŞLARI 165
(“Aldanmış kəvakib” povesti və “Kral Arturun sarayında
Konnektikutlu Yanki” romanının müqayisəli təhlili əsasında) 165
T.RƏSULOVA
AŞIQ RƏVAYƏTLƏRİNDƏ YUXU MOTİVİ 172
R.V.VƏKİLOVA
İ.V.GÖTE YARADICILIĞINDA “FIRTINA VƏ HÜCUM” DÖVRÜNÜN TƏZAHÜRÜ 177
X.Y.ZAMANOVA
S.RÜSTƏMXANLININ “ŞAİR VƏ ŞƏR” ROMANINDA HADİ OBRAZI 181
Ш.М.КУЛИЕВА
Я ПОСЕТИЛ РОДИМЫЕ МЕСТА…
(Отражение в творчестве Сергея Есенина ностальгических мотивов) 188
Н.М.МУСТАФАЕВА
ОБ ИССЛЕДОВАНИИ ТВОРЧЕСТВА АЛИ БЕКА ГУСЕЙНЗАДЕ
В ТУРЕЦКОМ ЛИТЕРАТУРОВЕДЕНИИ 192

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

M.S.ALIYEV
FİZİKİ TƏRBİYƏ DƏRSLƏRİNİN SƏMƏRƏLİ TƏŞKİLİ 198
A.İ.ƏLİYEVA
FRANSIZ DİLİNDƏKİ OMONİMLƏRİN TƏDRİSİ ZAMANI YARANAN ÇƏTİNLİKLƏR 203
Y.B.ƏSKƏROVA
AİLƏ VƏ NİKAH SOSİAL-PSİXOLOJİ PROBLEM KİMİ 207
K.F.MAHMUDOVA
BACARIQLAR, VƏRDİŞLƏR VƏ BİOLOGİYA MÜƏLLİMİNİN HƏDƏFLƏRİ 212
S.İ.MANSUROVA
AİLƏDƏ PSİXİ SAĞLAMLIĞIN UŞAQ ŞƏXSİYYƏTİNİN İNKİŞAFINA TƏSİRİ 216
N.R.MƏMMƏDOV
SOVET DÖVRÜNDƏ AZƏRBAYCANDA MÜƏLLİMLƏRİN
VƏ MAARİF İŞÇİLƏRİNİN ƏLAVƏ TƏHSİL PROBLEMLƏRİ 220
A.F.MİRİYEVA
AŞAĞI SİNİF ŞAGİRDLƏRİNDƏ İNGİLİS DİLİNDƏ OXU BACARIQLARININ
FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRİ 225
T.Ə.NƏBİYEVA
ŞAGİRDLƏRİN GƏLƏCƏK AİLƏ HƏYATINA HAZIRLANMASININ
PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ 230
X.R.QOCAYEV, R.A.ƏKBƏROV, V.V.MƏMMƏDOVA
SAĞLAM GƏNC NƏSLİN FORMALAŞMASINDA İDMANIN ROLU VƏ PROBLEMLƏRİ 233
S.A.QURBANOVA
TOLERANTLIQ TARİXİ SOSİAL-PEDAQOJİ PROBLEMDİR 237
N.B.SALMANOVA, S.Q.QARAYEVA
İDMAN TURİZMİNDƏ PEDAQOJİ-HƏKİM NƏZARƏTİNİN ƏSASLARI 241
Y.B.SƏMƏDOV, C.V.DADAŞOV
İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN FİZİKİ TƏRBİYƏSİNDƏ MƏKTƏB
VƏ AİLƏNİN BİRGƏ FƏALİYYƏTİ 246
Y.B.SƏMƏDOV, R.A.ƏKBƏROV, Y.B.MƏMMƏDOV
FİZİKİ TƏRBİYƏNİN METODLARINA DAİR 250
Ş.M.SEYİDOVA
MƏKTƏB GƏLƏCƏYİN TƏDQİQATÇI ALİMLƏRİNİ YETİŞDİRİR 256
F.Ş.ŞÜKÜROVA
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN HİBRİD FORMADA TƏDRİSİ 260
A.F.ZEYNALOVA
İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ FRAZEOLOJİ İFADƏLƏRİN TƏDRİSİ ÜSULLARI 267
Р.АББАСОВА
ЛИНГВОСТРАНОВЕДЧЕСКИЙ КОМПОНЕНТ КАК СРЕДСТВО ВКЛЮЧЕНИЯ
СТУДЕНТОВ В ПРОЦЕСС МЕЖКУЛЬТУРНОЙ КОММУНИКАЦИИ
ПРИ ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ В ВУЗЕ 271
Л.Ф.АБДУЛЛАЕВА
ПРИМЕНЕНИЕ АКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ
В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА 275
С.АМИРОВА
ПСИХОЛОГО-ДИДАКТИЧЕСКИЕ ОСНОВЫ УЧЕБНОГО ТЕКСТА
В ТЕХНИЧЕСКОМ ВУЗЕ 279
У.А.МИРЗОЕВА
ПСИХОЛОГИЧЕСКИЕ КРИТЕРИИ В ИНТЕГРИРОВАННОМ ОБУЧЕНИИ
СТУДЕНТОВ-АЗЕРБАЙДЖАНЦЕВ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ 283

Л.М.САДЫГОВА
ИМПЛИЦИТНОЕ ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ У ИНОЯЗЫЧНЫХ СТУДЕНТОВ ГРАММАТИЧЕСКИХ НАВЫКОВ И УМЕНИЙ НА РУССКОМ ЯЗЫКЕ 286
Э.А.ШАРЫКИНА, О.Т.ДЖАФАРЛИ, Е.Г.МИТРОФАНОВА
ТРЕТЬЯ МИССИЯ УНИВЕРСИТЕТА КАК БАЗОВЫЙ ЭЛЕМЕНТ УСТОЙЧИВОГО РАЗВИТИЯ..... 290

İCTİMAİ ELMLƏR – ОБЩЕСТВЕННЫЕ НАУКИ

R.Z.HƏBİBZADƏ
CƏNUBİ QAFQAZDA AZƏRBAYCAN RESPUBLİKASININ QAZANDIĞI NAİLİYYƏTLƏR VƏ QARABAĞIN DİRÇƏLİŞİ 305
Ф.Б.АЙДАМИРОВА, Х.Г.ДАДАШОВА
К ИСТОРИИ ОБРАЗОВАНИЯ ГОРОДА ИРЕВАН..... 309

Nəşriyyat redaktoru: **Əzəmət Həsənov**

Texniki redaktor: **Günel Muxtarova**

Çapa imzalanıb: 28.12.2021. Format: 84x108 1/16.
Həcmi: 20 ç.v. Tiraj: 300.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Hörmətli müəlliflər!

«Humanitar elmlərin öyrənilməsinin aktual problemləri» adlı ali məktəblərarası elmi məqalələr məcmuəsində çap olunmaq üçün elmi məqalələrin qəbulunu davam etdirir. Məcmuəyə **dilçilik, ədəbiyyatşünaslıq, pedaqogika, psixologiya, fəlsəfə və ictimai elmlərin aktual problemləri**nə dair məqalələr daxil edilir.

Məqalələr aşağıdakı şərtlərlə qəbul edilir:

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.
- Məqalələrin həcmi 5 səhifədən az olmamalıdır.
- Məqalələr kompüterdə yığılmış formada elektron daşıyıcıda təqdim edilməlidir (Word proqramında, səhifənin ölçüləri – A4, şrift 14, sətirlərarası məsafə 1,5 interval, sağ və soldan 2 sm, yuxarı və aşağıdan 3 sm.; Azərbaycan dilində mətnlər Times New Roman, Times-Latin, rus və ingilis dillərində mətnlər Times New Roman şrifti ilə).
- Məqalələrdə istinad və mənbələrin göstərilməsi vacibdir. İstinad və mənbələr bu qaydada göstərilir:

1. Ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə verilir.
2. İstinad olunan ədəbiyyat nəşr olunduğu dildə verilir.
3. Ədəbiyyatlar AAK-nın tələbləri əsasında göstərilir:
   Məs.: **Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 1997.**
   Nağısoylu M.N. Abbasqulu ağa Bakıxanovun "Riyazül-Qüds" əsəri orijinaldır, yoxsa tərcümə // «Mütərcim» jurnalı, №1-2, 18 mart 2003-cü il, s. 34-35.
4. İstinad olunmuş ədəbiyyatın nömrəsi və səhifəsi mətnin içində göstərilir. Məs.: (**5, s. 112**).

- Məqalənin əvvəlində Azərbaycan, rus, ingilis dillərində 5-6 açar söz göstərilməlidir.
- Məqalənin sonunda məqalənin yazıldığı dildən başqa iki dildə (Azərbaycan dilində yazılmış məqalələrə ingilis və rus dillərində; məqalə rus dilində yazılıbsa, Azərbaycan və ingilis dillərində, məqalə ingilis dilində yazılıbsa, Azərbaycan və rus dillərində) xülasə verilməlidir.
- Məqalədə müəllifin elmi dərəcəsi, elektron poçt ünvanı, işlədiyi təşkilatın adı və ünvanı dəqiq göstərilməlidir.
- Məqalələrə bu sahə üzrə elmi dərəcəsi olan mütəxəssisin və ya müvafiq elmi müəssisənin Elmi Şurası rəy verməlidir.

Ünvan: **Bakı şəh., Rəsul Rza küç., 125/139b**
tel.: 596 21 44
e-mail: mutarjim@mail.ru
Məcmuənin elektron variantı: **www.mutercim.az**